AZƏRBAYCAN RESPUBLİKASININ TARİXİ

(1991-2021)

II

(2003-2021)

BAKI
DÖVLƏT
UNİVERSİTETİ

AZƏRBAYCAN RESPUBLİKASININ TARİXİ

(1991-2021)

Müstəqilliyi elan etmək, onun qorunması və möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu, hələ azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun.

Heydər Əliyev
Azərbaycan xalqının Ümummilli lideri

...biz son 17 il ərzində doğrudan da tarixi uğurlara imza atdıq. Bu dövrü xarakterizə etmək üçün çox vaxt lazımdır. Hər şey göz qabağındadır. Əminəm ki, bizim tarixçilərimiz, politoloqlarımız, alimlərimiz bu dövrü də məqalələrdə, kitablarda, dərsliklərdə düzgün əks etdirəcəklər.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

Musa Qasımlı

AZƏRBAYCAN RESPUBLİKASININ TARİXİ

(1991-2021)

2 cilddə

II cild

(2003-2021)

BAKI – BDU – 2021

Bakı Dövlət Universitetinin Elmi Şurasının 01 dekabr 2021-ci i tarixli iclasının qərarı ilə çap olunur (pr. № 11).

Elmi məsləhətçi: **Elçin Babayev**, Bakı Dövlət Universitetinin rektoru
Elmi redaktor: **İbrahim Zeynalov**, tarix elmləri doktoru, professor

Rəyçilər:
BDU-nun Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrası;
BDU-nun Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası;
BDU-nun Beynəlxalq münasibətlər kafedrası;
BDU-nun Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrası

Qasımlı M.C. Azərbaycan Respublikasının tarixi (1991-2021). 2 cilddə. II cild (2003-2021). Bakı: Bakı Dövlət Universiteti, 2021. – 520 s.

İki cilddən ibarət olan əsərin ikinci cildində ən mötəbər mənbə və ədəbiyyatlardan istifadə edilməklə 2003-2021-ci illər Azərbaycan Respublikası siyasi tarixinin aşağıdakı problemləri araşdırılmışdır: 2003-cü il 15 oktyabr prezident seçkiləri; ölkədə ictimai-siyasi şərait; 2005-ci il parlament seçkiləri; Bakı–Tbilisi–Qars dəmiryolunun təməlinin qoyulması; Heydər Əliyev Fondunun yaradılması və fəaliyyəti; 2008-ci il prezident seçkiləri; 2009-cu il konstitusiya referendumu; türk dövlətləri arasında əməkdaşlığın dərinləşdirilməsi; Azərbaycanın sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanına çevrilməsi; IV çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilər; Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi; eks-prezidentlər haqqında qanunun qəbul edilməsi; Azərbaycan Respublikasının dünya kosmik klubuna üzv olması; 2013-cü il prezident seçkiləri; Cənub Qaz Dəhlizi, TAP və TANAP; V çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilər; Birinci Avropa oyunları; 2016-cı il aprel döyüşləri; 2016-cı il 26 sentyabr tarixli konstitusiya referendumu; Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi; IV İslam Həmrəyliyi oyunları; Bakı–Tbilisi–Qars dəmiryolunun istifadəyə verilməsi; 2018-ci il növbədənkənar prezident seçkiləri; Günnüt əməliyyatı; Cümhuriyyətin 100 illiyinin bayram edilməsi; 2020-ci il növbədənkənar parlament seçkiləri; dövlət sərhədində Ermənistanın təxribatları; Azərbaycan-Türkiyə birgə hərbi təlimləri; BMT Baş Məclisinin BMT-nin 75 illiyinə həsr edilmiş yüksək səviyyəli iclasında Prezident İlham Əliyevin nitqi; Ermənistanın sentyabr təxribatı və müharibənin başlanması, ölkədə hərbi vəziyyətin və qismən səfərbərliyin elan edilməsi; oktyabr döyüşləri və xalq-ordu birliyinin daha da güclənməsi; Cəbrayıl şəhərinin işğaldan azad edilməsi; Prezident İlham Əliyevin dünyanın nüfuzlu kütləvi informasiya vasitələrinə müsahibələri və xalqa müraciətləri; Hadrut, Füzuli, Zəngilan, Qubadlı, Şuşanın işğaldan azad edilməsi, Azərbaycan – Ermənistan – Rusiya üçtərəfli bəyanatı; Ağdam, Kəlbəcər və Laçının azad edilməsi; dövlət başçısının işğaldan azad edilmiş torpaqlara səfərləri; Zəfər paradı; 2021-ci il 11 yanvar tarixli Moskva bəyanatı; Bakıda Hərbi Qənimətlər Parkının yaradılması; Şuşada musiqi festivalı; "Ağıllı kənd" layihələrinin təməlinin qoyulması; Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi; Ağdam şəhərinin dirçəldirilməsinə başlanılması; Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa bəyannaməsi; Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsinin əhəmiyyəti; Zəfərin bir illiyinin bayram edilməsi; Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi; Soçi görüşü; Prezident İlham Əliyevin Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığının VI Sammitində iştirakı, NATO qərargahında keçirdiyi görüş və s.

Kitab ali məktəblərin tarix və siyasi elmlər ixtisaslarında təhsil alanlar, siyasətçilər, diplomatlar, həmçinin Azərbaycan Respublikasının siyasi tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN: 978-9952-546-22-4 (II cild)
ISBN: 978-9952-546-20-0

© Bakı Dövlət Universiteti, 2021

İÇİNDƏKİLƏR

GİRİŞ 9

1-ci FƏSİL

PREZİDENT SEÇKİLƏRİ VƏ AZƏRBAYCAN RESPUBLİKASININ YENİ İNKİŞAF MƏRHƏLƏSİNƏ DAXİL OLMASI

1.1. 2003-cü il 15 oktyabr prezident seçkiləri 24
1.2. İctimai-siyasi şərait və dövlət hakimiyyəti əleyhinə fəaliyyətlər 26
1.3. İşğal altındakı əraziləri azad etmək başlıca məqsəd olaraq müəyyənləşdirilir 27
1.4. 2005-ci il parlament seçkiləri 36
1.5. Bakı – Tbilisi – Qars dəmiryolunun təməlinin qoyulması 41

2-ci FƏSİL

HEYDƏR ƏLİYEV FONDUNUN FƏALİYYƏTİ AZƏRBAYCAN DÖVLƏTİNİN "YUMŞAQ GÜC" SİYASƏTİNİN RƏMZİ KİMİ

2.1. Heydər Əliyev Fondunun yaradılması və başlıca məqsədləri 44
2.2. Heydər Əliyev Fondunun fəaliyyəti 45

3-cü FƏSİL

2008-ci İLİN PREZİDENT SEÇKİLƏRİ: DAXİLİ VƏ XARİCİ SİYASƏTDƏ YENİLİKLƏR

3.1. 2008-ci ilin prezident seçkiləri 63
3.2. 2009-cu il konstitusiya referendumu 67

4-cü FƏSİL

AZƏRBAYCAN RESPUBLİKASI BİRLƏŞDİRİCİ GÜC DÖVLƏTİ ROLUNDA

4.1. Türk dövlətləri və xalqları arasında əməkdaşlıqda yeni səhifə 73
4.2. Azərbaycanın sivilizasiyalararası dialoq məkanına çevrilməsi: Bakı prosesi 87

5-ci FƏSİL

AZƏRBAYCAN RESPUBLİKASININ BMT TƏHLÜKƏSİZLİK ŞURASININ QEYRİ-DAİMİ ÜZVÜ SEÇİLMƏSİ

5.1. IV çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilər 93
5.2. Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi 99

6-cı FƏSİL

DÖVLƏTÇİLİKDƏ YENİ ƏNƏNƏNİN ƏSASININ QOYULMASI VƏ AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK KLUBUN ÜZVÜ OLMASI

6.1. Eks-prezidentlər haqqında qanun 116
6.2. ASAN xidmət mərkəzlərinin yaradılması 119
6.3. Azərbaycan Respublikasının kosmik klubun üzvü olması 120

7-ci FƏSİL

PREZİDENT SEÇKİLƏRİ VƏ AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ MÖVQELƏRİNİN GÜCLƏNDİRİLMƏSİ

7.1. 2013-cü il prezident seçkiləri 131
7.2. Cənub Qaz Dəhlizinin yaradılması, TAP və TANAP qaz boru kəmərləri 136
7.3. Birinci Avropa Oyunları Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında vasitə kimi 141
7.4. V çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilər 147

8-ci FƏSİL

2016-cı İLİN APREL DÖYÜŞLƏRİ

8.1. Xocavənd – Füzuli, Tərtər – Ağdərə – Ağdam istiqamətində döyüşlər və nəticələri 151
8.2. Böyük qayıdışın başlanğıcı 156

9-cu FƏSİL

İSLAHATLARIN DƏRİNLƏŞDİRİLMƏSİ VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN GENİŞLƏNDİRİLMƏSİ

9.1. 2016-cı il 26 sentyabr tarixli konstitusiya referendumu 160
9.2. Mehriban Əliyevanın Birinci vitse-prezident təyin edilməsi 165
9.3. IV İslam Həmrəyliyi Oyunları Azərbaycan gerçəklərinin təbliğində vasitə kimi 166
9.4. Bakı – Tbilisi – Qars dəmiryolunun istifadəyə verilməsi 168

10-cu FƏSİL

KEŞMƏKEŞLİ 2018-ci İL

10.1. 2018-ci il növbədənkənar prezident seçkiləri 174
10.2. Günnüt əməliyyatı 180
10.3. Cümhuriyyətin 100 illiyinin bayram edilməsi 181
10.4. İslahatların dərinləşdirilməsi 186
10.5. Növbədənkənar parlament seçkiləri 189

11-ci FƏSİL

ERMƏNİSTANIN MÜNAQİŞƏNİN DİNC YOLLARLA TƏNZİMLƏNMƏSİNDƏN İMTİNA ETMƏSİ

11.1. Münaqişənin həlli istiqamətində diplomatik-siyasi fəaliyyət 192
11.2. Nikol Paşinyan hökumətinin siyasi avantüraları 201
11.3. Ermənistanın avantüralarına Azərbaycanın diplomatik-siyasi cavabları 207

12-ci FƏSİL

DÖVLƏT SƏRHƏDİNDƏ TƏCAVÜZKAR ERMƏNİSTANIN TƏXRİBATI VƏ AZƏRBAYCANIN TƏDBİRLƏRİ

12.1. Dövlət sərhədində Ermənistanın təxribatı 216
12.2. Azərbaycan-Türkiyə birgə hərbi təlimləri 223
12.3. BMT Baş Məclisinin BMT-nin 75 illiyinə həsr edilmiş yüksək səviyyəli iclasında iştirak 229

13-cü FƏSİL

VƏTƏN MÜHARİBƏSİNİN BAŞLANMASI

13.1. Ermənistanın növbəti təxribatı 234
13.2. Təhlükəsizlik Şurasının iclası 238
13.3. Ölkədə hərbi vəziyyətin və qismən səfərbərliyin elan edilməsi. Düşmənə vurulan ilk zərbələr 241
13.4. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında yaralı hərbçilərlə görüşü. 246

14-cü FƏSİL

CƏBRAYIL ŞƏHƏRİNİN DÜŞMƏNDƏN AZAD EDİLMƏSİ

14.1. Oktyabr döyüşləri və xalq-ordu birliyinin daha da güclənməsi 251
14.2. Cəbrayıl şəhərinin işğaldan qurtarılması 258

15-ci FƏSİL

TƏCAVÜZKAR ERMƏNİSTAN MÜHARİBƏ CİNAYƏTLƏRİNİ DAVAM ETDİRİR

15.1. Mülki əhali işğalçı ölkənin hədəfində 266
15.2. Prezident İlham Əliyevin “TRT Haber” televiziya kanalına müsahibəsi 267
15.3. Türkiyə Cümhuriyyətinin diplomatik-siyasi və mənəvi-psixoloji dəstəyi 272
15.4. Dövlət başçısının Rusiyanın “Pervıy kanal” televiziyasına müsahibəsi 272
15.5. Prezident İlham Əliyevin “CNN Türk” və “Euronews” televiziya kanallarına müsahibəsi informasiya savaşında üstünlüyü təmin edən başlıca amillərindən biri kimi 276

16-cı FƏSİL
HADRUT QƏSƏBƏSİNİN İŞĞALDAN AZAD OLUNMASI

16.1. Hadrut qəsəbəsinin və bəzi kəndlərin azad edilməsi. Prezident İlham Əliyevin xalqa 9 oktyabr tarixli müraciəti 281
16.2. Döyüş və informasiya meydanında mübarizə 283
16.3. Ermənistan ərazisində Azərbaycana tuşlanmış əməliyyat-taktiki ballistik raketlərin məhv edilməsi. 291

17-ci FƏSİL
FÜZULİ VƏ ZƏNGİLAN RAYONLARINDAN İŞĞALÇILARIN QOVULMASI

17.1. Füzuli şəhərinin işğalçılardan azad edilməsi 295
17.2. Prezident İlham Əliyevin TASS İnformasiya Agentliyinə müsahibəsi 299
17.3. Zəngilan şəhəri və Mincivan qəsəbəsinin işğaldan azad edilməsi. 300
17.4. Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə operativ müşavirə 305

18-ci FƏSİL
QUBADLI RAYONUNUN AZAD EDİLMƏSİ

18.1. Qubadlı şəhərindən işğalçıların qovulması 310
18.2. Prezident İlham Əliyevin Rusiyanın "İnterfaks" agentliyinə müsahibəsi 319

19-cu FƏSİL
ŞUŞA ŞƏHƏRİNİN İŞĞALDAN AZAD OLUNMASI

19.1. Hərbi əməliyyatların və diplomatik-siyasi fəaliyyətin uğurla aparılması. 323
19.2. Şuşa şəhərinin düşmən işğalından qurtarılması 326
19.3. Türkiyə Cümhuriyyəti Azərbaycanın haqq işinin müdafiəsini davam etdirir. . . 332
19.4. Hərbi əməliyyatların başa çatması. Azərbaycan – Ermənistan – Rusiya üçtərəfli bəyanatı. 334
19.5. Azərbaycanın qələbəsinin təbrik edilməsi. 344

20-ci FƏSİL
AĞDAM, KƏLBƏCƏR VƏ LAÇINDAN İŞĞALÇININ ÇIXARILMASI

20.1. Şəhid ailələrinə və qazilərə qayğı dövlətin sosial siyasətinin prioritet istiqaməti elan edilir 347
20.2. İşğaldan azad edilmiş torpaqlara səfər 351
20.3. Ağdamdan işğalçıların çıxarılması 352
20.4. Kəlbəcər rayonunun işğaldan qurtarılması. 356
20.5. Laçın rayonunun azad edilməsi 358

21-ci FƏSİL

VƏTƏN MÜHARİBƏSİNDƏ QAZANILAN QƏLƏBƏNİN SƏBƏBLƏRİ VƏ ƏHƏMİYYƏTİ

21.1. Zəfər paradı 362
21.2. Qələbənin başlıca səbəbləri. 368
21.3. Zəfərin Azərbaycan üçün əhəmiyyəti. 370
21.4. Qələbənin region və dünya üçün əhəmiyyəti 375

22-ci FƏSİL

MOSKVA BƏYANATI VƏ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRƏ SƏFƏRLƏR

22.1. 2021-ci il 11 yanvar tarixli Moskva bəyanatı 381
22.2. Şuşaya səfər. 385
22.3. Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfər. 391

23-cü FƏSİL

XARİCİ SİYASƏTDƏ UĞURLAR VƏ ÖLKƏ BÖYÜK DƏYİŞİKLİKLƏR ASTANASINDA

23.1. Xocalı soyqırımı günündə Prezident İlham Əliyevin dünya kütləvi informasiya vasitələrinə müsahibəsi. 395
23.2. İqtisadi Əməkdaşlıq Təşkilatının XIV onlayn zirvə toplantısında Azərbaycan Respublikasının iştirakı 398
23.3. Yeni Azərbaycan Partiyasının VII qurultayı 401

24-cü FƏSİL

ŞUŞADA NOVRUZ TONQALI VƏ TÜRK DÜNYASININ BİRLİK NÜMAYİŞİ

24.1. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Füzuli, Xocavənd rayonlarına və Şuşa şəhərinə səfərləri 412
24.2. Cıdır düzündə Novruz bayramı tonqalı. 417
24.3. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının qeyri-rəsmi zirvə görüşündə Azərbaycanın qələbəsinin təbrik edilməsi. 419

25-ci FƏSİL

HƏRBİ QƏNİMƏTLƏR PARKININ YARADILMASI VƏ İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ DİRÇƏLİŞ İŞLƏRİ

25.1. Hərbi Qənimətlər Parkının açılması. 427
25.2. “Ağıllı kənd” layihələrinin həyata keçirilməsinə başlanılması 435

26-cı FƏSİL
AZƏRBAYCANIN MƏDƏNİYYƏT PAYTAXTININ ELAN EDİLMƏSİ VƏ ŞUŞA BƏYANNAMƏSİ

26.1 Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi 440
26.2. Şuşa musiqi festivalı – "Xarıbülbül" 441
26.3. Ağdam şəhərinin dirçəldilməsinə başlanılır 444
26.4. Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında qanun 447
26.5. Füzuli rayonuna səfər 448
26.6. Müttəfiqlik münasibətləri haqqında Şuşa bəyannaməsi 450

27-ci FƏSİL
DİRÇƏLİŞ İŞLƏRİNİN DAVAM ETDİRİLMƏSİ

27.1. İqtisadi rayonların yeni bölgüsü 460
27.2. Prezidentin Kəlbəcər və Laçın rayonlarına səfəri 461
27.3. Şuşada Vaqif Poeziya Günləri 469
27.4. BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində Prezident İlham Əliyevin nitqi 471
27.5. Anım günü 472
27.6. Dövlət başçısının Suqovuşan, Cəbrayıl, Hadrut, Zəngilan və Qubadlıya səfərləri 475
27.7. Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi 477
27.8. Zəfərin birinci ildönümünün bayram edilməsi 479
27.9. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi 484
27.10. Soçi görüşü 486
27.11. Prezident İlham Əliyevin uğurlu Brüssel səfəri: Avropa İttifaqı və NATO müharibədə Azərbaycanın qələbəsini qəbul edir 488

NƏTİCƏ 494
BİBLİOQRAFİYA 513

GİRİŞ

Təqdim olunan iki cildlik əsərin ikinci cildi 2003-2021-ci illəri əhatə edir. Bu illərdə Azərbaycan siyasi tarixinin araşdırılması hər şeydən əvvəl, keçilən yolun məzmun və mahiyyətini bilmək, elmi-nəzəri ümumiləşdirmələr aparmaq və nəticələr çıxarmaq baxımından zəruridir. Məlum olduğu kimi, Azərbaycan Respublikasının Baş naziri, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevin[1] 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkə həyatında yeni bir inkişaf mərhələsi başladı. Bu mərhələdə qarşıya qoyulan başlıca məqsəd ölkəni müasirləşdirmək və gücləndirməklə rəqabətə davamlı etmək, Azərbaycan vətəndaşları üçün bərabər imkanlar və daha yaxşı həyat şəraiti yaratmaq, dövlətin müdafiə qüdrətini, hərbi gücünü artırmaq, Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsini həll və torpaqları işğaldan azad etmək kimi müəyyənləşdirildi.

Müasir Azərbaycan Respublikası dövlətinin qurucusu Heydər Əliyevin 2003-cü il dekabrın 12-də vəfat etməsi Azərbaycan xalqı və dövləti üçün ağır itki oldu. Xalq onu rifaha və tərəqqiyə gətirmiş daxili və xarici siyasət xəttinin davam etdirilməsini istəyirdi. Həmin məqsədlə ölkədə bütün sahələrdə geniş islahatlara başlanıldı. 2005-ci ildə majoritar sistem əsasında keçirilən seçkilərin nəticəsində parlament formalaşdırıldı.

Qarşıya qoyulan başlıca məqsədə nail olmaqdan ötrü dünya siyasətində Azərbaycanın rolunun artırılması və mövqelərinin möhkəmləndirilmə-

1 İlham Əliyev (1961) – görkəmli dövlət və siyasi xadim. Diplomat, siyasi elmlər doktoru. 2003, 2008, 2013 və 2018-ci illərdə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin xarici iqtisadi əlaqələr üzrə vitse-prezidenti (1994-1996), birinci vitse-prezidenti (1996-2003). "Əsrin müqaviləsi"nin işlənib hazırlanmasında müstəsna xidmətləri olmuşdur. Azərbaycan Respublikası Milli Məclisinin deputatı (1995-2000, 2000-2003). Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti (1997-ci ildən). Avropa Şurası Parlament Assambleyasının sədr müavini (2003, yanvar – noyabr). Azərbaycan Respublikasının Baş naziri (2003, avqust – noyabr). Bir sıra nüfuzlu xarici universitetlərin fəxri doktoru. Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi qələbəyə görə 2021-ci ildə "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilmişdir.

si istiqamətində Prezident İlham Əliyevin liderliyində fəal xarici siyasət xətti yürüdülməyə başlandı. Dövlət başçısının xarici ölkələrə səfərləri zamanı imzalanan sənədlər qarşılıqlı münasibətləri yeni səviyyəyə çıxarmağa imkan verdi. Azərbaycanın enerji təchizatçısına və nəqliyyat-kommunikasiya qovşağına çevrilməsindən ötrü beynəlxalq əməkdaşlıq davam etdirildi. Beynəlxalq əhəmiyyət daşıyan Bakı – Tbilisi – Qars dəmiryolunun təməlinin qoyulması nəticəsində Azərbaycan Respublikasının dünyanın ikinci iqtisadi güc mərkəzi olan Avropa İttifaqı ilə yüksəlməkdə olan Çin və Cənub-Şərqi Asiya ölkələri arasında etibarlı körpü rolunu oynaması istiqamətində vacib addımlar atıldı.

Ümummilli liderin irsini qoruyub saxlamaq və gənc nəslə təbliğ etmək məqsədilə Heydər Əliyev Fondu yaradıldı. Azərbaycan Respublikası Milli Məclisinin deputatı Mehriban Əliyevanın[2] rəhbərlik etdiyi Fond təhsil, səhiyyə, gənclərin fiziki sağlamlığı, Azərbaycan haqqında həqiqətlərin, işğalçı Ermənistanın Xocalıda törətdiyi soyqırımına dair gerçəklərin dünyada tanıdılması istiqamətində fəaliyyət göstərdi. Geniş beynəlxalq əlaqələr quran və xarici ölkələrdə də rəğbətlə qarşılanan Heydər Əliyev Fondunun fəaliyyəti Azərbaycan Respublikası tarixinin və ictimai həyatının tərkib hissələrindən birinə çevrildi.

2008-ci ildə keçirilən prezident seçkiləri mühüm hadisə oldu. Rəqabət mühitində azad, ədalətli, bərabər və demokratik şəraitdə keçirilən seçkilərdə seçicilər Prezident İlham Əliyevə yenidən etimad göstərdi. Qarşıya qoyulan başlıca məqsədə nail olmaqdan ötrü ölkənin müasirləşdirilməsi və dövlətin qüdrətinin artırılması istiqamətində aparılan işlər davam etdirildi.

Azərbaycan Respublikasında islahatlardan, yüksək inkişafdan doğan tələbat və dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi zərurəti konstitusiyada əlavə və dəyişiklikləri irəli sürdü. 2009-cu ildə konstitusiyaya dəyişikliklərə və əlavələrə dair referendum keçirildi. Xalq əlavə və dəyişiklikləri dəstəklədi, Azərbaycan Respublikası Prezidentinin seçilməsinin iki müddətlə məhdudlaşdırılması aradan qaldırıldı.

Beynəlxalq fəaliyyətini daha da genişləndirən Azərbaycan Respublikası ərazisinin və əhalisinin bir sıra ölkələrdən kiçik və az olmasına baxmayaraq, yürüdülən siyasət nəticəsində birləşdirici dünya gücünə çevrildi. Dövlətin beynəlxalq mövqeləri möhkəmləndi və nüfuzu artdı.

Azərbaycan Respublikası türk dövlətləri arasında əməkdaşlığın yeni formatda möhkəm təməllər üzərində qurulmasından ötrü səylər etdi. Prezident İlham Əliyevin və türk dövlətləri rəhbərlərinin birgə səyləri ilə qurulan Türk Dövlətləri

2 Mehriban Əliyeva (1964) - Azərbaycan Respublikasının Birinci vitse-prezidenti (2017-ci ildən). YAP sədrinin birinci müavini. Dövlət və ictimai xadim, alim. Heydər Əliyev Fondunun rəhbəri. UNESCO və ICESCO-nun xoşməramlı səfiri. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 29 iyun tarixli Sərəncamı ilə "Heydər Əliyev" ordeni ilə təltif edilmişdir.

Şurası qarşılıqlı münasibətləri yeni keyfiyyət mərhələsinə çıxardı. Türk xalqları və dövlətləri arasında münasibətlərin möhkəmləndirilməsində və onların haqq işinin müdafiə edilməsində Prezident İlham Əliyev xüsusi xidmət göstərdi. Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramı çərçivəsində Praqada keçirilən zirvə toplantısında Ermənistan başçısı Türkiyə Cümhuriyyətinin əleyhinə danışarkən Prezident İlham Əliyev verdiyi tutarlı cavabla bütün türk dünyası tarixində bir ilk yaradaraq gələcək dövlət və ictimai xadimlərə nümunə göstərdi.

Türk dövlətləri arasında qarşılıqlı münasibətlərin maddi təməlləri möhkəmləndirildi və milli-mənəvi bağlar daha da gücləndirildi.

Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan Respublikası dünya sivilizasiyalararası dialoqun keçirildiyi məkana çevrildi. Dünyanın görkəmli din xadimləri Bakıda toplantılara qatılaraq fikir mübadiləsi etdilər və müxtəlif dini konfessiyalar üçün yaradılmış təcrübəni öyrəndilər. Sivilizasiyalararası dialoq baxımından Azərbaycan Respublikası model dövlət halına gəldi. "Yumşaq güc" Azərbaycan dövlətinin qarşısına qoyduğu başlıca məqsədə nail olmaqda bir vasitə oldu.

Ölkədə aparılan geniş islahatların nəticəsində dövlətin qüdrəti daha da artdı və əhalinin həyat şəraiti yaxşılaşdı. Səmərəli idarəçilik öz bəhrəsini verdi.

Milli Məclisə 2010-cu ildə keçirilən seçkilər ölkənin ictimai-siyasi həyatının mühüm hadisələrindən biri oldu. Yenidən parlamentdə müxtəlif partiyaların nümayəndələri təmsil olundu. Ölkənin görkəmli elm, təhsil, mədəniyyət xadimlərinin nümayəndələri də müstəqil olaraq deputat seçildilər. Parlamentin ilk iclasında nitq söyləyən Prezident İlham Əliyev ölkənin keçdiyi yolu təhlil etdi, aparılan islahatların nəticələrini vurğuladı, daxili və xarici siyasət sahəsində qarşıda dayanan vəzifələri müəyyənləşdirərkən bir daha bildirdi ki, başlıca məqsəd işğal altında olan torpaqların azad edilməsidir.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasının beynəlxalq fəaliyyəti genişləndi və diplomatiyasının səmərəliliyi artdı. Dövlət başçısının yürütdüyü uğurlu xarici siyasət nəticəsində 155 dövlətin səsi ilə Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. Bu quruma üzv seçilmək Azərbaycan dövlətinə və Prezidentinə olan inam, etimad və etibarın göstəricisi olmaqla ölkə tarixində bir ilk idi. BMT Təhlükəsizlik Şurasının iclasına sədrlik edən Prezident İlham Əliyev dünyanı narahat edən ən vacib məsələlər barəsində geniş nitq söylədi və beynəlxalq terrorizmə qarşı mübarizədə səyləri birləşdirməyin vacibliyini vurğuladı. Dövlət başçısı Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin uzun illərdən bəri həll edilmədiyini, Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin yerinə yetirilmədiyini, bu vəziyyətin davam etməsinin qurumun nüfuzuna mənfi təsir etdiyini bir

daha bildirdi. Təhlükəsizlik Şurasında iki dəfə sədrliyi müddətində Azərbaycan Respublikasının təşəbbüsü ilə dünyanın ən vacib məsələləri müzakirə olundu və müvafiq qətnamələr qəbul edildi. Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlük və Prezident İlham Əliyevin quruma sədrlik edərək nitq söyləməsi Azərbaycan Respublikası diplomatiyasının parlaq səhifələrindən biri oldu.

Azərbaycan cəmiyyətində birliyi möhkəmləndirmək baxımından mühüm rollardan birini eks-prezidentlər haqqında qanunun qəbul edilməsi oynadı. Bununla milli dövlətçilikdə yeni ənənənin və siyasi mədəniyyətin əsası qoyuldu.

Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strategiyanın həyata keçirilməsi nəticəsində Azərbaycan Respublikası kosmosa peyklərini buraxmaqla kosmik klubun üzvü oldu. Peyklərin fəaliyyəti ölkənin informasiya təhlükəsizliyinin möhkəmləndirilməsində vacib vasitələrdən biri olmaqla yanaşı, iqtisadi və kommersiya əhəmiyyəti də daşıyırdı.

2013-cü ildə keçirilən prezident seçkiləri ölkə həyatının ən mühüm hadisəsi oldu. Azərbaycan xalqı Prezident İlham Əliyevə yenidən etimad göstərməklə sabit, davamlı inkişafa və tərəqqiyə səs verdi.

Bir neçə beynəlxalq layihənin əsasının qoyulması Azərbaycan dövlətinin dünyada nüfuzunun artmasına təsir etdi. Cənub Qaz Dəhlizi, TAP və TANAP Azərbaycan Respublikasının dünya siyasətində yerini möhkəmləndirdi.

Milli Məclisə 2015-ci ildə keçirilən və ölkənin ictimai-siyasi həyatında mühüm yer tutan, majoritar seçki sistemi əsasında formalaşdırılan parlamentə növbəti dəfə müxtəlif partiyaların nümayəndələri, o cümlədən heç bir partiyanın üzvü olmayan nüfuzlu elm, təhsil və mədəniyyət xadimləri də seçildilər. Parlamentin ilk iclasında nitq söyləyən Prezident İlham Əliyev ölkənin daxili və xarici siyasətinin ən vacib məsələlərini diqqətə çatdırarkən bir daha bəyan etdi ki, başlıca məqsəd təcavüzkar Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsidir.

Minsk qrupunun səyləri ilə keçirilən danışıqlardan boyun qaçıran təcavüzkar Ermənistanın 2016-cı ilin aprel ayının əvvəllərində Xocavənd – Füzuli, Tərtər – Ağdərə – Ağdam istiqamətində törətdiyi qanlı təxribatlar nəticəsində mülki obyektlər dağıdıldı və bir neçə insan öldürüldü. Azərbaycan dövlətinin xəbərdarlıqları nəticə vermədiyindən işğalçı ölkəyə cavab verilməsi barədə qərar qəbul edildi. Azərbaycan Ordusu qısa müddət ərzində düşməni əzərək Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində normal yaşayışı təmin etmək üçün strateji əhəmiyyət daşıyan Lələtəpə yüksəkliyini işğalçılardan azad etdi. Düşmən Talış və Seysulan yüksəkliklərindən də qovuldu.

Aprel döyüşlərində Azərbaycanın qazandığı qələbə təkcə hərbi deyil, eyni zamanda iqtisadiyyatın, səmərəli dövlət idarəçiliyinin, millətin milli-mənəvi və

psixoloji ruhunun qələbəsi oldu, 2020-ci ildə qazanılan qələbənin baş məşqi rolunu oynadı. Hərbi əməliyyatların gedişində Türkiyə və Pakistan Azərbaycanın haqq işini birmənalı olaraq dəstəklədilər.

Darmadağın edilən Ermənistan danışıqlar masasına qayıtmağa məcbur oldu. Döyüşlər dayandırıldıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cocuq Mərcanlı kəndinin bərpasına dair tədbirlər haqqında sərəncam imzaladı. Qısa müddətdə kənddə yaşayış evləri tikildi, müasir infrastruktur yaradıldı, yol inşa edildi və Şuşadakı Aşağı Gövhər ağa məscidi üslubunda məscid tikildi. Cocuq Mərcanlının bərpası Qarabağa böyük qayıdışın əsasını qoydu.

Ölkənin inkişaf tələbinə uyğun olaraq siyasi sistemin təkmilləşdirilməsi məqsədilə keçirilən referendumda konstitusiyaya bir sıra əlavə, düzəliş və dəyişikliklər edildi. Azərbaycan Respublikası Milli Məclisinin vaxtından əvvəl buraxılması, növbədənkənar prezident seçkilərinin keçirilməsi, vitse-prezidentlik institutunun yaradılması qaydaları müəyyənləşdirildi. Həm ölkədə, həm də xaricdə geniş ictimai-siyasi fəaliyyəti ilə yaxşı tanınan, Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bir müddət sonra Birinci vitse-prezident təyin edildi.

Azərbaycan, Gürcüstan və Türkiyə arasında səmərəli əməkdaşlıq nəticəsində Bakı – Tbilisi – Qars dəmiryolunun istifadəyə verilməsi ilə Azərbaycan Respublikası Avropa və Asiyanı birləşdirən mühüm nəqliyyat-kommunikasiya mərkəzinə çevrildi, dünya siyasətində yeri möhkəmləndi və rolu artdı. Azərbaycan müxtəlif güc mərkəzlərini birləşdirən ölkə oldu.

Bir sıra beynəlxalq, daxili şərtlər səbəbindən ölkədə 2018-ci ilin aprel ayında növbədənkənar prezident seçkiləri keçirildi. Çoxlu namizədin iştirak etdiyi, bərabər imkanların yaradıldığı seçkilərdə seçicilər sabit və davamlı inkişafa səs verərək yenidən görkəmli dövlət və siyasi xadim İlham Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçdi.

Naxçıvan Muxtar Respublikası istiqamətində hərbi təxribatlar törədən təcavüzkar Ermənistana cavab olaraq Azərbaycan Ordusunun 2018-ci ildə keçirdiyi Günnüt əməliyyatı nəticəsində düşmən işğal etdiyi bir sıra ərazilərdən qovuldu. Beləliklə, Azərbaycan Ordusu İrəvan – Keşişkənd (Yeğeqnadzor) – Gorus – Laçın – Xankəndi avtomobil yoluna nəzarət etmək imkanı qazandı.

Müsəlman Şərqinin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi 2018-ci ildə qeyd edildi. Cümhuriyyətin yubileyinin keçirilməsi barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncama uyğun olaraq ölkədə geniş tədbirlər həyata keçirildi. Bu münasibətlə mayın 28-də Heydər Əliyev Mərkəzində təşkil edilən qəbulda nitq söyləyən Prezident Cümhuriyyətin qurulmasını, fəaliyyətini, süquta uğrama-

sını, sovet dövründə Azərbaycanın keçdiyi yolu, Heydər Əliyevin liderliyində 1990-cı ilin noyabr ayında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiya iclasında dövlət bayrağı kimi qəbul edilməsini və dövlət müstəqilliyinin bərpasından sonra ölkədə baş verən prosesləri geniş təhlil etdi. 100 illik yubileyin keçirilməsi Azərbaycan Xalq Cümhuriyyəti irsinə yüksək diqqət və qayğının göstəricisi idi.

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin 100 illik yubileyinə həsr edilmiş təntənəli iclas 2018-ci ilin sentyabrında Milli Məclisdə keçirildi. Dünyanın müxtəlif ölkələrindən parlament sədrlərinin və nümayəndə heyətlərinin iştirak etdiyi iclasda nitq söyləyən Prezident İlham Əliyev müsəlman Şərqinin ilk demokratik respublikasının fəaliyyətini, dövlət müstəqilliyinin bərpasına gətirən yolu geniş təhlil etdi və Heydər Əliyevin xidmətlərini vurğuladı.

Prezident İlham Əliyevin rəhbərliyi altında ölkədə dərinləşdirilən struktur və kadr islahatları öz bəhrəsini verdi. İqtisadi inkişafa nail olundu və əhalinin həyat şəraiti yaxşılaşdırıldı.

Qanunvericilik orqanının fəaliyyətini ölkədə aparılan islahatlara uyğunlaşdırmaq üçün 2020-ci ilin fevralında majoritar qaydada növbədənkənar parlament seçkiləri keçirildi. Seçicilərin əksəriyyətinin səsi ilə Yeni Azərbaycan Partiyası bu dəfə də parlamentdə çoxluq qazandı. Sayca ikinci yeri müstəqil namizədlər tutdular. Parlamentdə digər partiyaların da namizədləri təmsil olundular. Müstəqillik tarixində ilk dəfə olaraq Azərbaycan Respublikası Milli Məclisinin sədri vəzifəsinə qadın seçildi. Parlament sədrinin müavinləri, komitə sədrləri və müavinləri vəzifələrinə müstəqillərin və digər siyasi partiyaların nümayəndələri seçildi. Bu, Prezident İlham Əliyevin ölkədə yeni siyasi mədəniyyətin formalaşdırılması istiqamətində yürütdüyü siyasətin tərkib hissələrindən biri idi. Milli Məclisin ilk iclasında nitq söyləyən Prezident bildirdi ki, başlıca vəzifə təcavüzkar Ermənistan tərəfindən işğal olunmuş torpaqların azad edilməsidir.

Təcavüzkar Ermənistan bir neçə məqsəd güdərək Azərbaycan Respublikası ilə dövlət sərhədinin Tovuz rayonu istiqamətində 2020-ci il iyulun 12-də növbəti hərbi təxribat törətdi. Azərbaycanın işğal edilmiş ərazilərindən, Dağlıq Qarabağ münaqişəsindən diqqəti yayındırmaq və işğalı "oldu-bitdi" kimi qələmə vermək məqsədilə sərhəddə təxribat törədən Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan dövlətləri münaqişəyə cəlb etmək, strateji yüksəklikləri tutaraq Azərbaycanın Qərbə çıxışını, Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərini, Bakı – Tbilisi – Ərzurum qaz boru kəmərini, TAP, TANAP, Bakı – Tbilisi – Qars dəmiryolunu və Böyük İpək yolunu kəsmək, həmçinin öz ölkəsi daxilindəki ağır şəraitdən diqqəti yayındırmaq niyyəti güdürdü. Bəzi ölkələr işğalçıya dəstək verərək silahlar göndərdilər. Təcavüzkarın təxriba-

tının qarşısı alınarkən Azərbaycan Ordusunun generalı, yüksək rütbəli zabitləri və digər hərbçiləri qəhrəmancasına həlak oldular. Azərbaycan Ordusu düşmənə layiqli cavab verdi. İşğalçı ölkə məqsədinə çata bilmədi. Müharibənin gedişində Türkiyə və Pakistan birmənalı olaraq Ermənistanın hərəkətlərini pislədilər, Azərbaycanın haqq işini və beynəlxalq hüquq normalarını müdafiə etdilər.

Azərbaycan Ordusuna dəstək məqsədilə Bakı küçələrinə axışan insanlar dövlətin və silahlı qüvvələrin yanında olduqlarını bildirdilər.

Hərbi təxribat dayandırıldıqdan sonra da bəzi ölkələr Ermənistana silah və sursat göndərməkdə davam etdi. Azərbaycan tərəfinin etiraz notalarına verilən cavablar rəsmi Bakını qane etmədi.

Azərbaycan və Türkiyənin imzaladığı ikitərəfli sənədlərə müvafiq olaraq hər il təşkil edilən ənənəvi hərbi təlimlər 2020-ci ildə Naxçıvanda və Azərbaycanın digər bölgələrində keçirildi. Bu, Azərbaycan dövlətinin gücünün göstəricilərindən biri oldu.

Prezident İlham Əliyev BMT Baş Məclisinin yaradılmasının 75 illiyinə həsr edilmiş yüksək səviyyəli iclasda Qoşulmama Hərəkatının sədri və dövlət başçısı olaraq nitq söylədi. Nitqinin sonunda dövlət başçısı dünya birliyini işğalçı Ermənistana qarşı tədbirlər görməyə çağırdı.

Münaqişənin dinc siyasi vasitələrlə həllindən boyun qaçıran Ermənistan təxribatlar törətməkdə davam edirdi. Təcavüzkar ölkənin 2020-ci il sentyabrın 27-də Füzuli, Cəbrayıl, Ağdam, Tərtər, Goranboy istiqamətlərində təmas xəttindəki təxribatları nəticəsində dinc insanlar öldürüldü və mülki obyektlərə ziyan dəydi. Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında düşmənə cavab vermək və işğal altındakı torpaqları azad etməkdən ötrü müharibəyə başlamaq barədə qərar qəbul edildi. Azərbaycan dövləti “sərt güc”dən, dəmir yumruqdan istifadə etdi.

Sentyabrın 27-də Azərbaycan xalqına müraciət edən dövlət başçısı yaranmış şəraiti və qəbul olunan qərarları xalqa çatdırdı. Prezidentin fərmanı ilə ölkədə hərbi vəziyyət və fövqəladə vəziyyət elan edildi.

Müharibə öz xarakterinə görə Azərbaycan tərəfindən ədalətli, təcavüzkar Ermənistanın işğalı altında olan torpaqların azad edilməsi uğrunda Vətən müharibəsi idi. Qısa müddətdə bir sıra ərazilər işğaldan azad edildi. Hərbi əməliyyatların gedişində Prezident İlham Əliyevə zəng edən bəzi ölkələrin rəhbərlərinə müharibənin başlanmasının səbəbləri izah olundu. Türkiyə, Pakistan və Əfqanıstan Azərbaycanın haqq işini birmənalı şəkildə müdafiə etdilər, torpaqların işğaldan azad edilməsinə və ərazi bütövlüyünün bərpasına tərəfdar çıxdılar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva döyüşlər zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Hospitalında müalicə olunan

hərbçilərə baş çəkərək vəziyyətləri ilə tanış oldular. Dövlət başçısı çıxış edərək vətəndaşların yüksək milli ruhundan, döyüşlərin gedişindən, şəhid ailələrinə və qazilərə qayğıdan danışdı, işğalçı Ermənistanın siyasətinin mahiyyətini açdı.

Məğlub olmasına baxmayaraq, işğalçı Ermənistan Azərbaycan haqqında yalan informasiyalar yaymaqda davam edir və müxtəlif dövlətlərin vasitəsilə Azərbaycana təzyiqlər etməyə çalışırdı. Hərbi əməliyyatların dayandırılması barədə çağırışlara və təzyiqlərə məhəl qoymayan Azərbaycan işğal altındakı torpaqlarının azad edilməsinə dair qəti iradəsini bir daha bəyan edərək müharibənin dayandırılması üçün şərtini irəli sürdü. Bildirildi ki, işğalçı dövlət əraziləri boşaltmalı və buna dair konkret cədvəl təqdim etməlidir.

Ermənistanın işğal etdiyi ərazilərdən oktyabr ayından başlayaraq Cəbrayıl rayonunun Cocuq Mərcanlı, Füzuli rayonunun Horadiz qəsəbəsini, Goranboy, Tərtər, Ağdam rayonlarını, Ermənistan ərazisindən isə Şəmkir rayonunu atəşə tutması nəticəsində dinc əhaliyə və mülki obyektlərə ziyan dəydi. Bu, müharibə qanunlarının pozulması və ağır hərbi cinayət idi.

Azərbaycan Ordusu Füzuli–Cəbrayıl istiqamətində bir sıra əraziləri işğalçılardan azad etdi. Düşmən geri çəkilməyə məcbur oldu.

Hərbi əməliyyatlar davam edərkən Prezident İlham Əliyevə zəng edən Fransa Respublikasının Prezidenti Emmanuel Makron uydurma erməni təbliğatının təsiri altında guya Azərbaycanın muzdlulardan istifadə etməsinə və b. məsələlərə dair əsassız iddialar səsləndirdi. Həmin iddiaları qətiyyətlə rədd edən və sübutların verilməsini tələb edən Prezident İlham Əliyevin qarşısında fransız tərəfi konkret bir söz söyləyə bilmədi. Azərbaycan dövləti bütün təzyiqləri rədd etdi.

Hərbi əməliyyatların gedişində Azərbaycan milləti və ordusu düşmənə qarşı yumruq kimi birləşdi. Döyüş ruhunu daha da yüksəltmək üçün yaradılan təbliğat-təşviqat qrupları hərbçilər qarşısında çıxışlar etdilər.

Müharibə zamanı informasiya sahəsində də gərgin mübarizə gedirdi. Prezident İlham Əliyev oktyabrın əvvəllərində "Əl-Cəzirə" televiziya kanalına verdiyi müsahibəsində Ermənistanın işğalçılıq siyasətinin, uydurmalarının bütün mahiyyətini, müharibənin xarakterini izah edərək bildirdi ki, düşmən işğal edilmiş ərazilərdən çıxmalı və müvafiq cədvəl verməlidir. Bildirdi ki, Azərbaycan ordusunun hədəfi mülki əhali və obyektlər deyil, işğalçı ordu və hərbi obyektlərdir. Təcavüzkar ölkənin yeni müharibə cinayəti törədərək Gəncə şəhərini raket atəşinə tutması nəticəsində yaşayış binaları dağıdıldı, sakinlər öldürüldü və mülki obyektlərə ziyan dəydi. Prezident İlham Əliyev xalqa müraciət edərək Ermənistanın vəhşi siyasətinin mahiyyətini bir daha açdı. Hərbi əməliyyatlar meydanından uzaqda yerləşən Gəncə şəhərinin raket atəşinə tutulması təcavüz-

kar ölkənin acizliyinin göstəricisi idi. Müraciətinin sonunda Cəbrayıl şəhərinin azad edilməsi xəbərini verən, Azərbaycan Ordusunun qəhrəmanlığından bəhs edən dövlət başçısı bir daha bəyan etdi ki, hərbi əməliyyatların dayandırılmasının yalnız bir şərti vardır: düşmən işğal edilmiş ərazilərdən çıxmalı və buna dair konkret vaxt cədvəli verməlidir.

İşğalçı Ermənistan hərbi əməliyyatların gedişində Azərbaycanın mülki əhalisini və şəhərlərini bombardman etməklə müharibə cinayətlərini törətməkdə davam edirdi. Təcavüzkar ölkənin Mingəçevir, Beyləqan, Bərdə, Tərtər, Ağcabədi, Füzuli, Horadiz və Gəncəni raket atəşinə tutması nəticəsində mülki obyektlərə ziyan dəydi və dinc sakinlər qətlə yetirildilər.

Hərbi əməliyyatları böyük ruh yüksəkiliyi ilə genişləndirən Azərbaycan Ordusu Cəbrayıl rayonunun bir neçə kəndini və strateji yüksəklikləri düşməndən azad edirdi. Hərbi uğurların genişləndirilməsi üçün yeni imkanlar yarandı.

İnformasiya məkanında şiddətlənən mübarizənin önündə gedən Prezident İlham Əliyev Türkiyənin "TRT-Haber", "CNN Türk", Rusiyanın "Pervıy kanal" televiziya kanallarına müsahibə verərək müharibədə Azərbaycan dövlətinin mövqeyini, aparılan hərbi əməliyyatların məqsədini, işğalçı ölkənin siyasətinin mahiyyətini və müharibə cinayətləri törətdiyini təkzibedilməz fakt və materiallarla bəyan etdi. Dövlət başçısının verdiyi müsahibələr Azərbaycan dövlətinin mövqeyinin dünyaya çatdırılmasında müstəsna rol oynadı.

Hərbi əməliyyatlar davam edərkən geniş diplomatik-siyasi fəaliyyət də yürüdüldü. Türkiyə Cümhuriyyətinin xarici işlər naziri Mövlud Çavuşoğlunun rəhbərliyi altında nümayəndə heyəti Azərbaycan Respublikasına səfər etdi. Prezident İlham Əliyev ilə keçirilən görüşdə Türkiyə tərəfi Azərbaycanın beynəlxalq hüquqa və ədalətə əsaslanan haqq işini diplomatik-siyasi və mənəvi-psixoloji baxımdan müdafiə etdiyini birmənalı olaraq bildirdi.

Azərbaycan Ordusu 2020-ci ilin oktyabr ayında Hadrut qəsəbəsini işğalçılardan azad etdi. Texnika və canlı qüvvə sarıdan düşmənə ağır zərbə endirildi. Xalqa müraciətində işğaldan azad edilən ərazilər barədə məlumat verən Prezident İlham Əliyev düşməni ərazilərdən çıxmağa və vaxt cədvəli verməyə çağırdı, əks-təqdirdə hərbi əməliyyatların sona qədər davam edəcəyini bildirdi.

Hərb meydanı ilə paralel olaraq aparılan informasiya mübarizəsində Prezident İlham Əliyevin "CNN International", Rusiyanın RBK, Türkiyənin "Haber Global" televiziya kanallarına verdiyi müsahibələr müharibədə Azərbaycanın məqsədinin və işğalçı Ermənistanın siyasətinin xarici ölkələrdə dərk edilməsində müstəsna rol oynadı. Dünya baş verən proseslər haqqında gerçəkləri dövlət başçısının dilindən eşitdi.

Moskvada əldə edilən razılaşmaya əsasən, oktyabrın 10-da elan edilmiş humanitar atəşkəsi kobudcasına pozan Ermənistanın müharibə cinayəti törədərək oktyabrın 11-də Gəncə şəhərini raket atəşinə tutması nəticəsində mülki binalar dağıdıldı, dinc insanlar həlak oldu və infrastruktura ciddi ziyan dəydi. Bununla kifayətlənməyən düşmən Mingəçevir, Goranboy, Tərtər, Ağdam, Ağcabədi, Füzuli və Cəbrayıl rayonlarını da atəşə tutdu. Azərbaycan Ordusu düşmənə ağır zərbələr vurdu. Ermənistan ərazisində Azərbaycan şəhərlərinə zərbə endirmək üçün hazırlıq vəziyyətinə gətirilən əməliyyat-taktiki ballistik raket sistemləri məhv edildi. Ermənistanın bundan istifadə edərək Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv olan ölkələri müharibəyə cəlb etmək cəhdləri nəticə vermədi.

İşğalçı ölkənin törətdiyi cinayətlərin Azərbaycan Respublikasında akkreditasiya olunmuş diplomatik korpusun nümayəndələrinə çatdırılmasından ötrü Müdafiə Nazirliyində brifinq təşkil edildi. Düşmən ölkənin törətdiyi müharibə cinayətləri foto və video sənədlərlə iştirakçılara təqdim olundu.

Azərbaycan Ordusunun vurduğu ağır zərbələr altında işğalçı ölkənin ordusunda fərarilik artdı. Erməni əsgər və zabitlərin bir çoxu döyüşə girməkdən qorxaraq qaçırdı. Ermənistan ordusunun ərzaq və hərbi sursatla təmin olunmasında çətinliklər yarandı.

Hərbi cinayətlər törətməkdə davam edərək Ermənistanın oktyabrın 17-də Gəncə və Mingəçevir şəhərlərinə raket zərbələri endirməsi nəticəsində mülki obyektlərə və dinc əhaliyə ziyan dəydi. Həmin gün xalqa müraciət edərək bu qanlı əməllərin cavabsız qalmayacağını bildirən Prezident İlham Əliyev Füzuli şəhərinin və bir sıra kəndlərin azad edilməsi xəbərini verdi.

Hərbi əməliyyatların gedişində Türkiyə Cümhuriyyəti Azərbaycanın ədalətə və beynəlxalq hüquqa əsaslanan haqq işinə diplomatik-siyasi və mənəvi-psixoloji dəstəyini bir daha açıq şəkildə nümayiş etdirdi. Bakıya səfər edən Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop başda olmaqla nümayəndə heyəti Azərbaycanın müdafiə ediləcəyini bildirdi.

Azərbaycan Ordusunun Zəngilan rayonunu işğalçılardan azad etməsi hücumların genişləndirilməsinə imkanlar yaratdı.

Hərbi əməliyyatların aparılmasına uğurla rəhbərlik etməklə yanaşı, informasiya sahəsində də Prezident İlham Əliyevin fəaliyyəti böyük əhəmiyyət daşıyırdı. Ölkə başçısı Türkiyənin "A Haber" televiziya kanalına, Rusiyanın TASS İnformasiya Agentliyinə, Yaponiyanın "Nikkei" qəzetinə verdiyi müsahibələrində Ermənistanın siyasəti və törətdiyi müharibə cinayətləri, müharibədə Azərbaycan dövlətinin məqsədləri, Türkiyə qırıcı təyyarələrinin Azərbaycanda olması, Dağlıq Qarabağ regionunda referendumun keçirilib-keçirilməyəcəyi və

Minsk qrupu həmsədrlərinin fəaliyyəti barədə məsələlərə bir daha aydınlıq gətirdi.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Nazirliyin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə keçirilən operativ müşavirədə döyüşlərin aparılması, yaranmış şərait, qarşıda dayanan vacib məsələlər geniş müzakirə edildi. Ali Baş Komandan Azərbaycan Ordusunun uğurlarından, düşmənin törətdiyi müharibə cinayətlərindən geniş danışaraq bildirdi ki, Azərbaycanın işi haqdır və ərazilər azad ediləcəkdir.

Qubadlı şəhərindən və bəzi kəndlərindən düşmən qüvvələri qovulub çıxarıldı. Prezident İlham Əliyev xalqa müraciət edərək müharibənin aparılmasının məqsədləri, münaqişənin tarixi kökləri, ermənilərin regiona gətirilib yerləşdirilməsi, sovet dövründə separatçılıq fəaliyyətləri, hərbi əməliyyatların dayandırılmasının şərtləri, Ermənistanın humanitar atəşkəsi pozaraq mülki əhalini hədəf alması, döyüşlərdə hərbi-texniki itkiləri barədə məlumat verdi, təcavüzkar ölkənin havadarlarına və onu silahlandıranlara sərt şəkildə xəbərdarlıq etdi.

Prezident İlham Əliyevin ABŞ-ın "Foks Nyus" televiziya kanalına və Rusiyanın "İnterfaks" İnformasiya Agentliyinə verdiyi müsahibələr gerçəkliklərin dünyada bilinməsində müstəsna rol oynadı.

Hərb meydanı ilə yanaşı diplomatik-siyasi sahədə də geniş fəaliyyət göstərilirdi. Noyabrın 1-də Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu və milli müdafiə naziri Hulusi Akar Bakıya səfər edərək Azərbaycanın haqq işinin dəstəkləndiyini bir daha bəyan etdilər. Belə mövqe həm qardaşlığın nümunəsi və həm də beynəlxalq hüquq normalarına hörmətin göstəricisi idi.

Azərbaycan milləti üçün yalnız ərazi deyil, tarixi, milli-mənəvi əhəmiyyət daşıyan Şuşa şəhərinin noyabrın 8-də ağır texnikadan istifadə edilmədən, əlbəyaxa döyüşlərlə azad edilməsi böyük tarixi hadisə və işğalçı Ermənistanın diz çökməsi, müharibənin taleyinin həll edilməsi anlamına gəlirdi. Həmin gün Bakıya səfər edən Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu və milli müdafiə naziri Hulusi Akar qələbə münasibətilə Azərbaycan dövlət başçısını təbrik etdilər.

Hərb meydanında məğlub olan işğalçı ölkə noyabrın 10-da 9 bənddən ibarət olan üçtərəfli bəyanatı imzalamağa məcbur oldu. Videoformatda sənədi Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və sonra Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan imzaladılar.

Bəyanatın imzalanmasından sonra xalqa müraciət edən Prezident İlham Əliyev sənədin mahiyyətini izah etdi. Həmin gün Bakıya səfər edən Türkiyənin

xarici işlər naziri Mövlud Çavuşoğlu və milli müdafiə naziri Hulusi Akar Azərbaycanı böyük Zəfər münasibətilə təbrik etdilər, müharibədən sonra da Azərbaycanın haqq işinin müdafiə edəcəklərini bildirdilər.

Hərbi əməliyyatlar dayandırıldıqdan sonra Azərbaycan dövlətinin diqqəti şəhid ailələrinin və qazilərin problemlərinin həllinə, Kəlbəcər, Ağdam və Laçının döyüşsüz azad edilməsi məsələlərinə yönəldi. Sosial siyasətin başlıca istiqamətlərindən biri şəhid ailələrinin və qazilərin problemlərinin həlli idi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 1 saylı Tibbi Klinik Mərkəzdə müalicə olunan qazilərlə görüşdülər. Müharibədə qazanılan qələbəyə gətirən səbəblərdən, zəfərin əhəmiyyətindən danışan dövlət başçısı şəhid ailələrinin və qazilərin problemlərinin həllinin prioritet olduğunu vurğuladı.

İşğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın səfəri böyük əhəmiyyət daşıyırdı. Həmin rayonlarda Azərbaycan Respublikasının dövlət bayrağı qaldırıldı. Ölkə rəhbəri Araz çayı üzərində yerləşən Xudafərin körpüsünü İranla dostluq körpüsü adlandırdı.

Üçtərəfli bəyanata uyğun olaraq, Ağdam şəhərindən işğalçı Ermənistan silahlı qüvvələri noyabrın 20-də çıxarıldı. Beləliklə, Azərbaycan şəhid vermədən və bir güllə atmadan işğal altında olan rayonunu azad etdi. Bəyanatda noyabrın 15-də Kəlbəcər rayonundan işğalçı qüvvələrin çıxarılması nəzərdə tutulsa da, Ermənistan əlavə olaraq 10 gün vaxt istədi. Bu müddət ərzində işğalçı ölkə sərhəd postunu hiyləgərliklə 1,5 km Azərbaycanın içərilərinə doğru çəkdi, yaşayış evlərini, məktəbləri və tibb məntəqələrini yandırdı, meşələri vəhşicəsinə qırdı və minalar basdırdı. Noyabrın 25-də Kəlbəcərdən düşmən qüvvələri çıxarıldı. Dekabrın 1-də isə Laçın rayonu boşaldıldı.

Qazanılan qələbə münasibətilə dekabrın 10-da Bakıda Azadlıq meydanında keçirilən Zəfər paradında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə yanaşı, Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan və həyat yoldaşı, digər rəsmi şəxslər iştirak edirdilər. Paradda İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan çıxış edərək qazanılan qələbənin tarixi əhəmiyyət daşıdığını vurğuladılar. Qəhrəman Azərbaycan əsgər və zabitləri paraddan keçdilər. Türkiyə əsgərləri də paradda iştirak etdilər. Düşmən üzərində qələbə qazanılmasında istifadə edilmiş silah və texnikanın, eyni zamanda cəbbəxanada olan ən müasir silahların, məğlub ölkə olan Ermənistandan qənimət olaraq ələ keçirilən texnikanın da nümayiş etdirildiyi parad Azərbaycan Ordusunun gücünü bütün dünyaya göstərdi.

Şəhidlərin müqəddəs qanı və hərbçilərin şücaəti hesabına qazanılan qələbənin Azərbaycan və dünya üçün böyük tarixi əhəmiyyəti var idi. Qələbə Azərbaycan

dövlətinin və xalqının əzmini və qüdrətini nümayiş etdirdi. Ölkə qarşısında yeni üfüqlər açan qələbənin memarı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevdir.

2021-ci il yanvarın 11-də Moskvada İlham Əliyev, Vladimir Putin və Nikol Paşinyan arasında keçirilən görüşdə 10 noyabr tarixli birgə bəyanatın müddəalarının yerinə yetirilməsi məsələləri müzakirə edildi və yekunda yeni bir sənəd imzalandı. Sənəd regionda sülh və sabitliyin möhkəmləndirilməsinə, qarşılıqlı faydalı əməkdaşlığın qurulmasına yönəlmişdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 14-də Şuşa şəhərinə səfər etdilər. Səfər zamanı Füzuli – Şuşa avtomobil yolunun, Füzulidə beynəlxalq hava limanının təməli qoyuldu. Böyük iqtisadi əhəmiyyət daşıyan bu layihələr regiona yeni nəfəs gətirəcəkdi. Dövlət başçısının Şuşaya səfər tarixinin 14 yanvar seçilməsi səbəbsiz deyildi. Hələ 1982-ci il yanvarın 14-də Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevlə birlikdə 21 yaşlı oğlu İlham Əliyev də böyük Azərbaycan şairi Molla Pənah Vaqifin məqbərəsinin açılışında iştirak etmişdi. Səfər bu baxımdan əlamətdar idi. Şuşada dövlət bayrağı qaldırıldı. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva məsciddə oldular və dua etdilər. Məscidə "Qurani-Şərif" bağışlandı. Şuşada hərbçilərlə görüşdə çıxış edən dövlət başçısı Azərbaycan Ordusunun qəhrəmanlığından bəhs etdi. Xurşidbanu Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin ermənilər tərəfindən güllələnmiş büstləri əvvəlki yerinə qoyuldu. Dövlət başçısının şəhərdəki Qazançı kilsəsinə baş çəkməsi xristian dininə böyük hörmət və ehtiramın, Azərbaycanda multikulturalizmin göstəricilərindən biri idi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfər etdilər. Səfər zamanı Horadiz – Ağbənd dəmiryolunun təməli qoyuldu. Laçın rayonunun Güləbird kəndində regiondakı infrastrukturun elektrik enerjisi ilə təmin olunmasında mühüm rol oynayacaq su elektrik stansiyasının açılışı oldu. Dövlət başçısı bərpa olunan enerjinin qurulmasına, Zəngilan rayonunda dağıdılmış "Bəsitçay" dövlət qoruğunun bərpasına dair göstərişlərini verdi, ağac əkildi və çaya balıqlar buraxıldı. Prezident İlham Əliyev "ağıllı kənd" layihəsinə və kənd təsərrüfatının inkişafına dair tapşırıqlarını da verdi.

Xocalı soyqırımının 29-cu ildönümü günündə Prezident İlham Əliyev dünyanın tanınmış kütləvi informasiya vasitələri nümayəndələrinin 50-dək sualını 4 saatdan çox müddətdə dörd dildə cavablandıraraq həm soyqırım haqqında həqiqətləri, həm müharibədə qazanılan tarixi qələbəni, həm də ölkənin inkişaf perspektivlərini izah etdi.

Dövlət rəhbərinin martın 20-də – Novruz bayramı günü Şuşaya gedərək bayram tonqalı yandırması rəmzi məna daşıyırdı. Bu, uzun illərdən sonra şəhərdə qalanan zəfər tonqalı idi.

Türk dövlət başçılarının qeyri-rəsmi zirvə görüşünün keçirilməsi müstəqillik tarixinin mühüm hadisələrindən biri oldu. Dövlət başçıları Prezident İlham Əliyevi müharibədə qazanılan qələbə münasibətilə təbrik etdilər. Görüş türk xalqları və dövlətləri arasında qardaşlığın və birliyin nümayişi oldu.

Azərbaycan tarixində ilk dəfə olaraq Bakıda Hərbi Qənimətlər Parkı açıldı. Azad edilmiş ərazilərdə "ağıllı kənd" layihələrinin həyata keçirilməsinə başlandı.

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada musiqi festivalı keçirildi. 2021-ci il mayın 28-də Ağdamın dirçəldilməsinin təməli qoyulması rəmzi məna daşıyırdı.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Kəlbəcər və Laçın rayonlarına səfəri zamanı yolun tunel hissəsinin, Laçında beynəlxalq hava limanının təməlinin qoyulması və infrastruktur layihələrin açılışı işğaldan azad edilmiş ərazilərdə dirçəliş işlərinə dair dövlətin konkret planlarının olduğunu göstərdi.

Şuşada Vaqif poeziya günlərinin keçirilməsi ilə ənənənin bərpa edilməsi bölgəyə Azərbaycan mədəniyyətinin möhtəşəm dönüşünün rəmzi oldu.

Qondarma DQMV-nin yaradıldığı gün – iyulun 7-də Azərbaycan Respublikası Prezidentinin 2021-ci ildə imzaladığı sənədlə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması tarixi ədalətsizliyə son qoyulması, təbii iqtisadi rayonların bərpası və Zəngəzur ifadəsinin siyasi leksikona daxil edilməsi idi.

Dövlət başçısının Suqovuşan, Cəbrayıl və Hadruta səfərləri zamanı bir sıra infrastruktur obyektlərinin açılması və təməlinin qoyulması dirçəliş işlərinin planlı surətdə aparıldığını göstərdi.

Qarabağın səma qapısı hesab edilən və böyük strateji əhəmiyyət daşıyan Füzuli Beynəlxalq Hava Limanı qısa müddətdə tikilib istifadəyə verildi. Zəfərin birinci ildönümü ərəfəsində böyük əhəmiyyət daşıyan VIII Qlobal Bakı Forumu keçirildi. Zəfərin bir illiyi bütün ölkədə böyük coşqu ilə bayram edildi. Müharibədə Azərbaycanın qazandığı qələbə bütün türk dünyasının qələbəsi idi. Ona görə də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev İstanbulda Türdilli Dövlətlərin Əməkdaşlıq Şurasının iclasında "Türk Dünyasının Ali Ordeni" ilə təltif edildi.

Rusiya Federasiyasının təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti Soçidə görüşərək müharibənin başa çatmasından ötən bir ildə görülən işləri, üçtərəfli bəyanatın şərtlərinin yerinə yetirilməsini müzakirə etdilər və yekunda bəyanat qəbul olundu.

Prezident İlham Əliyevin Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığının VI Sammitində iştirakı, apardığı müzakirələr, toplantıda nitqi, yekunda qəbul edilən bəyanat və NATO qərargahında keçirilən görüş Vətən müharibəsində Azərbaycanın qazandığı qələbənin bu təşkilatlar tərəfindən təsdiqi oldu

Yuxarıda göstərilən bu və digər məsələlərin dərin elmi-tarixi baxımdan araşdırılması, qazanılmış təcrübənin öyrənilməsi və nəzəri ümumiləşdirilmələrin aparılması Azərbaycan siyasi tarix elminin qarşısında dayanan mühüm vəzifələrdən biridir. Ona görə də müxtəlif xarakterli ən mötəbər mənbələr əsasında 2003-2021-ci illər Azərbaycanın siyasi tarixinin ən vacib hadisələrindən bəhs edən bu əsər yazılmışdır. Əsərin yeni elmi-tədqiqat işlərinin başlanması üçün imkan yaradacağına inanırıq.

1-ci FƏSİL

PREZİDENT SEÇKİLƏRİ VƏ AZƏRBAYCAN RESPUBLİKASININ YENİ İNKİŞAF MƏRHƏLƏSİNƏ DAXİL OLMASI

1.1. 2003-cü il 15 oktyabr prezident seçkiləri

Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasını parçalanmaqdan, dağılmaqdan, xalqı vətəndaş müharibəsindən xilas etmiş, ölkəni möhkəm təməllər üzərində oturtmaq və güclü dövlət qurmaq üçün böyük işlər görmüşdü. Lakin görüləsi çoxlu işlər hələ qalırdı. Ən başlıcası, Azərbaycan xalqı və dövləti Ermənistanın işğalı altında qalan torpaqlarını azad etməli idi.

2003-cü ilin payızında ölkədə prezident seçkiləri kampaniyası gedirdi. Heydər Əliyevlə yanaşı digər partiyaların nümayəndələri də öz namizədliklərini irəli sürmüşdülər. Lakin səhhətində yaranan problemlər dövlət rəhbərinin başladığı işləri sona çatdırmağa imkan vermirdi.

Təməli Heydər Əliyev tərəfindən qoyulan, uğur gətirən daxili və xarici siyasəti davam etdirmək, mürəkkəb regionda yerləşən ölkəni irəli aparmaq mövcud geosiyasi şəraitdə olduqca çətin idi. Bu ağır işi öz üzərinə götürəcək şəxs mütləq böyük dövlət işlərinə tam hakim olmalı, dünya siyasətini və iqtisadiyyatını dərindən bilməli, geniş dünyagörüşə, yüksək biliyə, bacarığa, enerjiyə sahib olmalı, beynəlxalq aləmdə tanınmalı, sarsılmaz siyasi iradəyə və qətiyyətə malik olmalı idi. Ölkəyə sülh, sabitlik və inkişaf gətirmiş Heydər Əliyev siyasətinin davam etdirilməsinin tərəfdarı olan Azərbaycan milləti belə bir dövlət xadimi olaraq Baş nazir, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi görürdü. Azərbaycanla qonşu və əməkdaşlıq edən dövlətlər də ölkədə sabitliyin saxlanılmasında, Heydər Əliyev siyasətinin davam etdirilməsində maraqlı idilər. Həm Azərbaycanda, həm də bir çox xarici ölkələrdə belə bir əminlik yaranmışdı ki, Heydər Əliyevin işləyib hazırladığı inkişaf strategiyasını yalnız İlham Əliyev davam etdirə və mövcud şəraitə uyğun olaraq uğurla həyata keçirə bilər. Oktyabrın 1-də Azərbaycan xalqına müraciət edərək öz namizədliyini siya-

si varisi İlham Əliyevin xeyrinə geri götürən Prezident Heydər Əliyev aşağıdakıları bəyan etdi:

"Özümü Sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".[3]

Oktyabrın 15-də Azərbaycan Respublikasında azad, ədalətli, şəffaf və demokratik şəraitdə prezident seçkiləri keçirildi. Bu, ölkə rəhbəri vəzifəsinə keçirilən sayca 5-ci seçki idi.

Seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyev, 29 siyasi partiya və 67 ictimai təşkilatın birləşdiyi "Bizim Azərbaycan" blokunun namizədi İsa Qəmbər, Vahid Azərbaycan Milli Birlik Partiyasının namizədi Lalə Şövkət, Azərbaycan Milli İstiqlal Partiyası – Azərbaycan Xalq Cəbhəsi koalisiyasının namizədi Etibar Məmmədov, Ədalət Partiyasının namizədi İlyas İsmayılov, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının namizədi Qüdrət Həsənquliyev, Müasir Müsavat Partiyasının namizədi Hafiz Hacıyev və Vətəndaş Həmrəyliyi Partiyasının namizədi Sabir Rüstəmxanlı idi. Bərabər imkanların yaradıldığı təbliğat və təşviqat kampaniyasında hər bir namizəd öz platformasını seçicilərə geniş təqdim edirdi.

Yüksək fəallıq şəraitində keçən seçkidə qeydə alınmış seçicilərin 71,5%-i səsvermədə iştirak etmişdi. Seçkini 42 min yerli və 1100 nəfərə qədər xarici müşahidəçi izləyirdi.

Seçkilər Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini, tanınmış ictimai-siyasi və dövlət xadimi İlham Əliyevin parlaq qələbəsi ilə nəticələndi. O, seçkilərdə 1 milyon 860 min 346 nəfər seçicinin, yəni seçkidə iştirak edənlərin 76,8%-nin səsi ilə rəqibləri üzərində inamlı qələbə qazandı. Seçkilərdə ikinci yeri tutan namizəd seçicilərin 15%-nin dəstəyini qazanmış, digər namizədlər isə ümumilikdə 5% seçici səsini ala bilməmişdilər.

İlham Əliyevin prezident seçilməsi ilə Azərbaycanın müstəqillik tarixində yeni bir mərhələ başladı. Qeyd etmək lazımdır ki, 1993-cü ildə qarışıq və

3 Əliyev H.Ə. Azərbaycan xalqına müraciət // Müstəqilliyimiz əbədidir: qeydlər. 46-cı kitab. Bakı, 2013, s. 240.

mürəkkəb bir şəraitdə hakimiyyətə gələn Heydər Əliyev əgər Azərbaycan dövlətini dağılmaqdan, ölkəni parçalanmaqdan, xalqı vətəndaş müharibəsindən xilas etmiş, hakimiyyətə qeyri-qanuni yollarla gəlməyə son qoymuş, dövlət idarəçiliyini möhkəm zəmin üzərində oturtmuş, müasir Azərbaycan dövlətinin qurucusu olmuş, islahatlara başlamış, fəal xarici siyasət yürüdərək dövlətin müstəqilliyini möhkəmləndirmişdisə, İlham Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycan dövləti və cəmiyyətinin müasirləşməsinə, modernləşməsinə və təcavüzkar Ermənistan tərəfindən işğal altında saxlanılan torpaqların azad edilməsi məqsədilə geniş hazırlıq işlərinə başlanıldı. Seçkilərdən sonra ölkənin qarşısında geniş üfüqlər açıldı. Azərbaycan xalqı sabaha böyük ümid, inam və nikbinliklə baxırdı.

1.2. İctimai-siyasi şərait və dövlət hakimiyyəti əleyhinə fəaliyyətlər

Siyasi mübarizədə qalib gələ bilməyən bəzi müxalifət, xüsusən Müsavat, Ümid, Azərbaycan Demokrat partiyaları, habelə onların yanında olan qruplar seçkidən sonra demokratiya ilə bir araya sığmayan qanunsuz fəaliyyətlərini artırdılar. Bütün namizədlər üçün bərabər şəraitin yaradıldığı seçkiqabağı təbliğat-təşviqat kampaniyasında iştirak edən, lakin siyasi rəqabətdə məğlub olan müxalif siyasi partiyalar sosial bazaları zəif olduğundan açıq-aşkar qarşıdurma yolunu tutdular və konstitusiyaya zidd, antidemokratik üsullara əl atdılar.

Müxalifət partiyaları nümayəndələrinin parlamentdə təmsil olunmasına, müxalifət mətbuatının maneəsiz və böyük tirajla çıxmasına, partiyaların azad fəaliyyət göstərməsinə, sərbəst şəkildə kütləvi aksiyalar keçirməsinə, ümumiyyətlə, müxalifətin fəaliyyəti üçün bütün zəruri şəraitin olmasına baxmayaraq, onlar siyasi mübarizədə legitim üsullardan istifadə etmək əvəzinə şər və böhtan kampaniyasına başladılar. Özünü xalqın iradəsinə qarşı qoyan Müsavat, Ümid və Azərbaycan Demokrat partiyalarının rəhbərləri İsa Qəmbər, İqbal Ağazadə və Rəsul Quliyevin təşkilatçılığı ilə həmin partiyaların bir dəstə üzvü və tərəfdarı oktyabrın 15-də gecə və oktyabrın 16-da gün ərzində Bakı şəhərində qanunsuz aksiyalar keçirməyə cəhd etdi, insan tələfatı ilə nəticələnən iğtişaşlar törətdi. İğtişaşların gedişində dinc sakinlərə xəsarət yetirildi, dövlət və vətəndaş əmlakına ziyan dəydi.

Həmin hərəkətlərin təşkilatçıları və iştirakçıları arasında Milli Məclisin deputatı İqbal Ağazadənin də olması radikal və pozucu müxalifətin fəaliyyətinin mahiyyətini açırdı. Milli Məclisin oktyabrın 17-də keçirilən iclasında bu hadisələr müzakirə olunarkən çıxış edən deputatlar ölkədə qarışıqlıq yaratmaq cəhdlərini qətiyyətlə pislədilər. Müzakirələrdən sonra dörd bənddən ibarət

qəbul edilən qərarda Azərbaycan Respublikası konstitusiyasına və qanunlarına, xalqın iradəsinə zidd hərəkətlər demokratik cəmiyyətdə yolverilməz sayılır və qətiyyətlə pislənilir, adı çəkilən partiyaların və qrupların fəaliyyəti Azərbaycan dövlətçiliyinə, onun beynəlxalq nüfuzuna qarşı təxribat kimi qiymətləndirilirdi.[4] Milli Məclisin qərarında hüquq mühafizə orqanlarından tələb edilirdi ki, kütləvi iğtişaşların təşkilatçılarını və iştirakçılarını müəyyənləşdirib müvafiq məsuliyyətə cəlb etmək üçün zəruri tədbirlər görsünlər. Bakı şəhərində törədilmiş, insan tələfatına gətirib çıxarmış iğtişaşlar zamanı hüquq mühafizə orqanlarının əməkdaşlarına və dinc sakinlərə xəsarət yetirilməsi, dövlət əmlakına və şəxsi əmlaka zərər vurulması üçün məsuliyyət Müsavat, Ümid və Azərbaycan Demokrat partiyalarının üzərinə düşürdü. Sənəddə yazılırdı:

"Azərbaycan Respublikasının Milli Məclisi əmin olduğunu bildirir ki, ölkədə ictimai-siyasi sabitlik pozulmayacaq, Azərbaycanda gedən quruculuq prosesləri uğurla davam etdiriləcək, xalq Azərbaycanın yeni seçilmiş Prezidenti cənab İlham Əliyevin ətrafında daha sıx birləşəcəkdir".[5]

İclasda deputat İqbal Ağazadənin toxunulmazlığına xitam verilməsinə və cinayət məsuliyyətinə cəlb edilməsinə icazə verildi.

Törədilən iğtişaşlara qəti etiraz edən Müsavat Partiyasının bir neçə tanınmış üzvü bəyanat verərək seçilmiş Prezident İlham Əliyevi birmənalı olaraq müdafiə etdilər və partiya sıralarından istefa verdilər. Məhz bundan sonra partiyanın bır çox üzvü mənsub olduqları təşkilatın sıralarını tərk etdi. Bu isə partiyanın sosial bazasının dağılmasına təsir edən amillərdən biri oldu.

Ölkədə anarxiya yaratmağa çalışan partiyaları müdafiə etməyən və Heydər Əliyev siyasətinin alternativi olmadığını bilən Azərbaycan xalqının mütləq əksəriyyəti seçilmiş Prezident İlham Əliyevin ətrafında sıx birləşərək güclü dövlət quruculuğu və islahatlar yoluna davam etdi.

1.3. İşğal altındakı əraziləri azad etmək başlıca məqsəd olaraq müəyyənləşdirilir

İlham Əliyev ölkənin daxili və xarici siyasətinin inkişaf strategiyasını, qarşıda dayanan vəzifələri oktyabrın 31-də keçirilən andiçmə mərasimindəki nitqində bəyan etdi. Nitqinə böyük etimada görə Azərbaycan seçicilərinə, vətəndaşlarına, bütün xalqa özünün dərin təşəkkürünü bildirməklə başlayan Prezident dedi:

4 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild. Bakı, 2018, s.392-393.
5 Yenə orada.

"Mən bu böyük etimadı doğruldacağam, bu vəzifənin öhdəsindən layiqincə gələcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.

Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur".[6]

Heydər Əliyevin siyasətinin Azərbaycana böyük uğurlar gətirdiyini söyləyən dövlət başçısı ölkənin bütün sahələrdə inkişaf etdiyini vurğuladı. Ümumi daxili məhsulun formalaşmasında özəl sektorun payı 70 % təşkil edirdi. Genişmiqyaslı özəlləşdirmə proqramı həyata keçirilirdi. Torpaq islahatı aparılmışdı. Kənd təsərrüfatı məhsulları istehsalı artırdı.

Ölkədə sərmayə qoyuluşu üçün əlverişli şəraitin olduğunu, hökm sürən sabitliyin və ictimai-siyasi asayişin qorunmasının vacibliyini bildirən Prezident dedi:

"Əgər Azərbaycanda sabitliyin pozulmasına kimsə can atarsa, biz buna imkan verməyəcəyik, Azərbaycan xalqının rahat, təhlükəsiz, sabitlik şəraitində yaşamasını təmin edəcəyik.

Bu sabitlik bizə imkan verəcək ki, gələcəkdə Azərbaycanı daha da sürətlə, hərtərəfli inkişaf etdirək. Bu barədə bizim çoxlu planlarımız vardır. Azərbaycanın hər bir sahəsi inkişaf etməlidir".[7]

Azərbaycanın gələcəkdə çox zəngin və qüdrətli ölkəyə çevriləcəyini, neft strategiyasını davam etdirərək qısa müddətdə hərtərəfli inkişaf edəcəyini, xüsusilə qeyri-neft sektoruna böyük diqqət göstəriləcəyini, yeni zavodların, fabriklərin istifadəyə veriləcəyini qeyd edən dövlət rəhbəri bildirdi:

"Bizdə bütün imkanlar - təbii sərvətlər, insan potensialı və ən önəmlisi, xalqın iradəsi vardır. Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik".[8]

Azərbaycanda ordu quruculuğuna diqqəti yönəldən Prezident İlham Əliyev qətiyyətlə dedi:

"Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir".[9]

6 Əliyev İ.H. Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə əlaqədar andiçmə mərasimində nitq // İnkişaf – məqsədimizdir. 2-ci kitab. Bakı, 2009, s. 6.
7 Yenə orada, s. 7.
8 Yenə orada, s. 10.
9 Yenə orada.

Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin ən ağır problem olduğunu deyən dövlət başçısı ATƏT-in Minsk qrupunun fəaliyyətinin hələlik heç bir nəticə vermədiyini belə ifadə etdi:

"Bu məsələ öz həllini tapmalıdır. Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".[10]

Nitqinin sonunda dövlət başçısı Azərbaycanın xoşbəxt gələcəyinə inandığını, ölkənin bundan sonra da inkişaf edəcəyini və güclənəcəyini aşağıdakı kimi bəyan etdi:

"Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır.

Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".[11]

İlham Əliyev Azərbaycan Respublikasının konstitusiyasına və müqəddəs "Qurani Şərifə" əl basaraq and içdi.

Bununla da Azərbaycan xalqı və dövlətinin müstəqillik tarixində yeni bir mərhələ başladı. Həmin mərhələnin səciyyəvi cəhəti Heydər Əliyev siyasətinin yeni dövrün tələblərinə uyğun olaraq davam və inkişaf etdirilməsi idi.

Qarşıya qoyulan başlıca məqsəd ölkəni bütün sahələrdə inkişaf etdirmək, güclü iqtisadiyyat yaratmaq, dövləti müasirləşdirmək və gücləndirmək, Azərbaycan vətəndaşları üçün daha yaxşı həyat şəraiti və bərabər imkanlar yaratmaq, qüdrətli ordu qurmaq, müdafiə qüdrətini artırmaq və Ermənistanın hərbi təcavüzü nəticəsində işğal altına düşmüş əraziləri azad etmək idi.[12]

2003-cü il dekabrın 12-də Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev vəfat etdi. Bu, Azərbaycan Respublikası və dünya azərbaycanlıları üçün

10 Yenə orada, s. 10-11.
11 Yenə orada, s. 11.
12 Qasımlı M. Xarici siyasət: reallıqlar, uğurlar və perspektivlər // Müstəqillik yollarında – 25. Bakı, 2016, s.328-329.

böyük itki idi. Azərbaycan xalqı rəhbərini böyük hörmət və ehtiramla əbədiyyətə yola saldı. Heydər Əliyev Fəxri Xiyabanda dəfn edildi.

Prezident İlham Əliyev Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətini daha da genişləndirdi. Həm ikitərəfli, həm də çoxtərəfli formatda əməkdaşlıq artdı. İlk növbədə, qonşu dövlətlərlə münasibətlərin inkişafına xüsusi diqqət yetirildi. Prezidentin 2004-cü ilin fevralında Rusiya Federasiyasına səfəri zamanı ikitərəfli bəyannamə, 2004-2006-cı illər üçün humanitar sahədə əməkdaşlıq proqramı, məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında saziş, sərbəst ticarət rejimindən istisnaların mərhələli ləğv edilməsi haqqında protokol imzalandı.[13] Rusiya və İran arasında Azərbaycan ərazisindən keçəcək Şimal-Cənub dəhlizinə dəstəyin, Azərbaycan Respublikası və Rusiya Federasiyasının suverenliyinə və ərazi bütövlüyünə hörmətin ifadə olunduğu və böyük diplomatik uğur olan Moskva bəyannaməsində Dağlıq Qarabağ münaqişəsinin həlli yolları barədə belə yazılırdı:

"...tərəflər Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə və müvafiq BMT Təhlükəsizlik Şurası qətnamələrinin və ATƏT qərarlarının yerinə yetirilməsinə qəti şəkildə tərəfdar olduqlarını bildirirlər".[14]

Həmin ildə Azərbaycan Respublikasının Macarıstan, Yunanıstan, Latviya, Hindistan, Belarus, Bolqarıstan, İndoneziya respublikalarında səfirliklərinin açılması, Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəliyinin təsis edilməsi də qarşıya qoyulan başlıca məqsədin reallaşdırılmasına xidmət edirdi.

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında 2004-cü il martın 1-də Astanada dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında bəyannamə, hərbi sahədə əməkdaşlıq, hökumət rabitəsi sahəsində əməkdaşlıq, elmi-texniki əməkdaşlıq haqqında sazişlər, mədəniyyət, elm və turizm sahəsində uzunmüddətli əməkdaşlıq proqramı, Azərbaycan Respublikası və Gürcüstan arasında 2004-cü il martın 4-də Bakıda birgə bəyannamə, informasiya sahəsində əməkdaşlıq haqqında saziş imzalandı.[15]

Gürcüstan ilə imzalanan birgə bəyannamədə tərəflər bir-birilərinin ərazi bütövlüyünə, suverenliyinə hörmət etdiklərini, müxtəlif sahələrdə əməkdaşlıq etməyə hazır olduqlarını, nəqliyyat-kommunikasiya layihələrinin, əsas ixrac neft və qaz boru kəmərləri layihələrinin həyata keçirilməsinin gedişatından razı

13 Sənədlərin imzalanması mərasimi // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004. I hissə. Bakı, 2009, s. 60.

14 Azərbaycan Respublikası və Rusiya Federasiyasının Moskva bəyannaməsi // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004. II hissə. Bakı, 2009, s. 192.

15 Sənədlərin imzalanması mərasimi // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004. I hissə, s. 95-96.

qaldıqlarını bildirirdilər. Bəyannamədə Cənubi Qafqaz regionunda mövcud olan münaqişələrin həlli yolları haqqında belə qeyd edilirdi:

"Tərəflər Dağlıq Qarabağ münaqişəsi və Abxaziya, Gürcüstan, habelə Tsxinvali bölgəsində münaqişələrin Birləşmiş Millətlər Təşkilatı və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının müvafiq sənədləri əsasında tezliklə nizamlanmasının zəruriliyini təsdiq edirlər və bu münaqişələrin nizamlanmasının dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin pozulmazlığına hörmət və riayət edilməsinə əsaslanmalı olduğuna qəti əminliklərini ifadə edirlər".[16]

Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin müdafiə olunduğu Qazaxıstan Respublikası ilə dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında bəyannamədə yazılırdı:

"Tərəflər... Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə BMT-nin müvafiq qətnamələrinə və ATƏT-in qərarlarına tərəfdar olduqlarını təsdiq edərək, tərəflər bu münaqişənin həllində suverenlik, ərazi bütövlüyü və sərhədlərin pozulmaması prinsiplərinə hörmət və riayət edilməsinə əsaslanmalı olduğuna bir daha qəti şəkildə əmin olduqlarını bildirirlər". [17]

Daşkənddə 2004-cü il martın 23-də Azərbaycan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında bəyannamə, konsulluq konvensiyası, elmi-texniki əməkdaşlıq haqqında saziş imzalandı.[18] Bəyannamədə Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə həllinə dair mövqelərini tərəflər aşağıdakı kimi ifadə edirdilər:

"Tərəflər, BMT nizamnaməsinə və ATƏT-in sənədlərinə uyğun olaraq regionlarda sülhün və sabitliyin möhkəmləndirilməsi, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə, onların sərhədlərinin toxunulmazlığına hörmət və riayət edilməsi əsasında münaqişələrin sülh yolu ilə həll edilməsi məqsədilə qarşılıqlı fəaliyyət göstərəcəklər.

Tərəflər bu kontekstdə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə və BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin və ATƏT-in qərarlarının yerinə yetirilməsinə qəti şəkildə dəstək verdiklərini ifadə edirlər".[19]

16 Azərbaycan Respublikası və Gürcüstanın birgə bəyannaməsi // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004. II hissə, s. 267.

17 Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında bəyannamə // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004. II hissə, s. 272.

18 Sənədlərin imzalanması mərasimi // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004. I hissə, s. 154-155.

19 Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında bəyannamə // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004. II hissə. s. 344.

Beynəlxalq fəaliyyətini genişləndirən Azərbaycan Respublikası Almaniya Federativ Respublikası hökuməti ilə 2004-cü il martın 26-da Bakıda regional əməkdaşlıq çərçivəsində maliyyə əməkdaşlığı haqqında saziş imzaladı.[20]

Tbilisi şəhərində 2004-cü il iyunun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixael Saakaşvilinin[21] birgə kommünikesi, Azərbaycan və Gürcüstan hökumətləri arasında energetika sahəsində əməkdaşlığın genişləndirilməsi, dəmiryolu nəqliyyatının fəaliyyətinin əlaqələndirilməsi haqqında sazişlər imzalandı.[22] Birgə kommünikedə Qafqazda sülhün və sabitliyin bərpa edilməsinin, terrorizmə qarşı mübarizə aparılmasının vacibliyi vurğulanır, regional layihələrin həyata keçirilməsinin gedişindən məmnunluq, geniş sahələrdə əməkdaşlıq niyyətləri ifadə edilir və münaqişələrin həlli barədə yazılırdı:

"Prezidentlər Dağlıq Qarabağ münaqişəsinin və Gürcüstanın Abxaziya və Tsxinvali regionlarında münaqişələrin BMT və ATƏT-in müvafiq sənədləri əsasında sülh yolu ilə beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həll edilməsinin vacibliyini vurğuladılar".[23]

Azərbaycan Respublikası Pakistan İslam Respublikası ilə də əməkdaşlığını genişləndirdi. 2004-cü il iyulun 8-də Bakı şəhərində iki ölkə arasında birgə bəyannamə, beynəlxalq terrorçuluq və mütəşəkkil cinayətkarlıqla mübarizə, gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım, turizm sahəsində əməkdaşlıq haqqında sazişlər imzalandı.[24] Birgə bəyannamədə yazılırdı:

"Onlar, Dağlıq Qarabağ münaqişəsinin Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının, İslam Konfransı Təşkilatının və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının müvafiq qətnamələrinə uyğun olaraq sülh yolu ilə tezliklə həll edilməsi zəruriyyətini vurğuladılar".[25]

Prezident İlham Əliyevin rəsmi səfərləri zamanı keçirilən danışıqlar və imzalanan sənədlər Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirir, əməkdaşlığa yeni məzmun verdiyindən böyük əhəmiyyət daşıyırdı.

20 Azərbaycan Respublikası Hökuməti və Almaniya Federativ Respublikası Hökuməti arasında regional əməkdaşlıq çərçivəsində maliyyə əməkdaşlığı haqqında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanunu // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004. II hissə, s. 324.

21 Mixeil Saakaşvili (1967) - Gürcüstanın 3-cü Prezidenti (2004-2007, 2008-2013).

22 Azərbaycan – Gürcüstan sənədlərinin imzalanması mərasimi // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004. I hissə, s. 318-319.

23 Azərbaycan Respublikasının Prezidenti İ. Əliyevin və Gürcüstanın Prezidenti M. Saakaşvilinin birgə kommünikesi // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004. II hissə, s. 660.

24 Azərbaycan – Pakistan sənədlərinin imzalanması // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004. I hissə, s. 423.

25 Azərbaycan Respublikası və Pakistan İslam Respublikasının birgə bəyannaməsi // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004. II hissə. s. 639.

Güclü dövlət qurmağın vacib amillərindən biri ölkə həyatının demokratikləşdirilməsi və azad kütləvi informasiya vasitələrinin inkişafı idi. Ona görə də müstəqil kütləvi informasiya vasitələrinin qurulması prosesi sürətləndirildi və sayı artdı. Ölkənin inkişafı ictimai televiziya və radionun yaradılmasını zəruri etdiyi üçün 2004-cü il sentyabrın 28-də İctimai televiziya və radio yayımı haqqında 6 fəsil, 26 maddədən ibarət qanun qəbul edildi.[26]

Qanunun qəbul edilməsində məqsəd Azərbaycan Respublikası əhalisinin – bütövlükdə cəmiyyətin, habelə onun ayrı-ayrı təbəqələrinin sosial, elm, təhsil, mədəniyyət, əyləncə və digər sahələrdəki ümumi maraqlarını təmin etməyə, söz və fikir azadlığını, müxtəlif baxış və əqidələri əks etdirməyə yönəlmiş, doğru məzmunlu, tarazlaşdırılmış informasiyalar hazırlamaq, bu informasiyaları müasir texniki və keyfiyyət standartlarına uyğun şəkildə yayımlamaq idi.

Prezident İlham Əliyev 2005-ci il avqustun 29-da İctimai Televiziya və Radionun açılışını etdi. Azərbaycan informasiya məkanında yeni hadisə olan İctimai Televiziya və Radionun fəaliyyətə başlaması həm ölkədaxili inkişafın tələbindən irəli gəlirdi, həm də Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərdən daha birinin yerinə yetirilməsi demək idi. Açılış mərasimindəki nitqində dövlət başçısı televiziyanın yaradılmasının əhəmiyyəti barədə belə dedi:

"Heç kəs üçün sirr deyil ki, ictimai televiziyanın yaranması Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərdən biri idi. Biz bunu etməliydik. Ancaq eyni zamanda televiziyanın yaranması bir zərurət idi. Azərbaycanda fəaliyyət göstərən müxtəlif kütləvi informasiya orqanları, o cümlədən televiziya kanalları əhaliyə kifayət qədər dolğun məlumat çatdırırlar. Ancaq tam şəkildə müstəqil ictimai televiziyaya da böyük ehtiyac var idi".[27]

Ölkənin inkişafından ötrü güclü infrastrukturun yaradılması işləri genişləndirildi. Bu məqsədlə su kanallarının, yolların və elektrik enerjisi stansiyalarının müasir tələblərə uyğun yenidən qurulması üçün bir sıra ikitərəfli sənədlər imzalandı. 2005-ci il martın 9-da Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində Azərbaycan Respublikası və Səudiyyə İnkişaf Fondu arasında kredit sazişi (Vəlvələçay – Taxtakörpü kanalının tikintisi layihəsi), Azərbaycan Respublikası və İslam İnkişaf Bankı arasında Yevlax – Gəncə avtomobil yolunun yenidən qurulması layihəsinin maliyyələşdirilməsində iştirak haqqında martın 10-da Ciddədə saziş, Azərbaycan Respublikası və İslam İnkişaf Bankı arasında Samur – Abşeron

26 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 403-404.
27 Əliyev İ.H. Azərbaycanda İctimai Televiziya və Radio Yayımları Şirkətinin fəaliyyətə başlamasına həsr olunmuş mərasimdə nitq // İnkişaf – məqsədimizdir. 12-ci kitab. Bakı, 2013, s. 171.

suvarma (Vəlvələçay – Taxtakörpü kanalı) layihəsinin maliyyələşdirilməsində iştirak haqqında həmin tarixdə kredit sazişi imzalandı.[28]

Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında 2005-ci il martın 17-də Pekində birgə bəyannamə, ticarət-iqtisadi, gömrük işi sahəsində qarşılıqlı yardım, texniki-iqtisadi əməkdaşlıq haqqında sazişlər[29], Azərbaycan və Yaponiya hökumətləri arasında Bakıda 2005-ci il mayın 13-də Şimal buxar-qaz elektrik stansiyası layihəsi (ikinci blok) üzrə kredit sazişinə dair iki ölkənin hökumətləri arasında nota və kredit sazişi imzalandı.

Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında imzalanmış birgə bəyannamədə ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi niyyətləri ifadə edilir, Avropa – Qafqaz – Asiya nəqliyyat dəhlizi layihəsinin inkişafı naminə, terrorizmə qarşı mübarizə məqsədilə birgə səylərin zəruriliyi və Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun həllinin zəruriliyi belə ifadə edilirdi:

"Çin tərəfi Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə dəstək verdiyini təsdiqləyir və BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsinə dair müvafiq qətnamələrinə əməl edilməsinə çağırır, bu münaqişənin sülh yolu ilə həll edilməsinə tərəfdar olduğunu bildirir, habelə beynəlxalq ictimaiyyətin bu istiqamətdə göstərdiyi səyləri dəstəkləyir".[30]

Azərbaycan Respublikası hökuməti və İslam İnkişaf Bankı arasında Xaçmaz yarımstansiyası və elektrik verilişi xətti layihəsində istifadə edilməsi məqsədilə Bank adından və Bankın agenti qismində çıxış edən Azərbaycan Respublikası hökumətinin 330/110 kv-luq yarımstansiyanın alınması üçün səlahiyyətləndirilməsinə və Azərbaycan Respublikası hökumətinə satılmasına dair 2005-ci il iyunun 7-də müddətli saziş imzalandı.[31]

Avropa, Asiya və Afrika ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlığını artıran Azərbaycan Respublikasının Malayziyada (Kuala-Lumpur şəhəri), Mərakeş Krallığında (Rabat şəhəri), Xorvatiya Respublikasında (Zaqreb şəhəri), Koreya Respublikasında (Seul şəhəri), Niderland Krallığında (Amsterdam şəhəri) səfir-

28 Azərbaycanla Səudiyyə Ərəbistanı Krallığı arasında sənədlərin imzalanması mərasimi // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2005. I hissə. Bakı, 2009, s. 94-95.

29 İkitərəfli sənədlərin imzalanması // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2005. I hissə, s. 115.

30 Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında birgə bəyannamə. 17.03.2005 // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2005. II hissə. Bakı, 2009, s. 361-362.

31 "Azərbaycan Respublikası Hökuməti və İslam İnkişaf Bankı arasında Azərbaycan Respublikasında Xaçmaz yarımstansiyası və elektrik verilişi xətti layihəsində istifadə edilməsi məqsədilə Bank adından və Bankın agenti qismində çıxış edən Azərbaycan Respublikası Hökumətinin 330/110kv-luq yarımstansiyanın alınması üçün səlahiyyətləndirilməsinə və Azərbaycan Respublikası Hökumətinə satılmasına dair Müddətli Satış Sazişi"ni imzalamaq səlahiyyətinin haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2005. II hissə, s. 338-339.

liklərinin açılması beynəlxalq əlaqələrin genişlənməsinin göstəricisi olmaqla bərabər, müəyyənləşdirilmiş başlıca məqsədin yerinə yetirilməsinə yönəlmişdi.

Qazaxıstan Respublikası ilə 2005-ci il mayın 24-də Bakıda strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri, terrorçuluğa qarşı mübarizə haqqında müqavilələr, Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında 2005-ci il iyunun 30-da Bakıda birgə kommünike, texniki əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Latviya Respublikası Müdafiə Nazirliyi arasında 2005-ci il avqustun 15-də Riqa şəhərində sazişlər imzalandı.[32]

Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti prezidentlərinin imzaladıqları birgə kommünikedə təhlükəsizlik, ticarət-iqtisadi, elmi-texniki, turizm və b. sahələrdə əməkdaşlığın genişləndirilməsinin vacibliyi qeyd edilirdi.[33] İmzalanan sənədlərdə Azərbaycan Respublikasının beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyünə və suverenliyinə hörmət edilməsi vurğulanırdı.

Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında imzalanmış strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında 26 maddədən ibarət olan müqavilənin 3-cü maddəsində yazılırdı:

"Ali razılığa gələn tərəflər onların müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə olan təhlükələrin qarşısının alınması məsələlərində bir-birinə hərtərəfli dəstək və qarşılıqlı yardım göstərirlər".[34]

Neft strategiyasını uğurla davam etdirən Azərbaycan dövləti bir sıra yeni sazişlər imzaladı. Suraxanı neft yatağının daxil olduğu blokun bərpası, işlənməsi və hasilatın pay bölgüsü haqqında ARDNŞ, Birləşmiş Ərəb Əmirliklərinin "Rafi Oyl Ef Zeİ" və ARDNŞ-in Ortaq Neft Şirkəti arasında 2005-ci il avqustun 16-da imzalanan saziş bu baxımdan əhəmiyyətli oldu.

İmzalanan sənədlər və beynəlxalq fəaliyyətin genişləndirilməsi Azərbaycan xalqının və dövlətinin qarşısında dayanan başlıca məqsədin həyata keçirilməsində bir vasitə idi.

32 Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Latviya Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında saziş // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2005. II hissə, s. 575-578.

33 Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında birgə kommünike // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2005. II hissə, s. 539-541.

34 Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında müqavilə // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2005. II hissə, s. 562.

1.4. 2005-ci il parlament seçkiləri

Azərbaycan Respublikası 2005-ci il noyabrın 6-da keçiriləcək III çağırış Milli Məclisə seçkilərə hazırlaşırdı. Ölkənin ictimai-siyasi həyatında son dərəcə mühüm hadisə olacaq parlament seçkilərinin demokratik, şəffaf, azad və ədalətli keçirilməsi üçün bütün zəruri tədbirlər görülmüşdü. Azərbaycan Respublikası Prezidentinin ölkədə seçki praktikasının təkmilləşdirilməsinə dair 2005-ci il mayın 11-də imzaladığı sərəncam parlament seçkilərinin ən yüksək standartlara uyğun şəkildə hazırlanması və keçirilməsi üçün lazımi şəraitin yaradılmasında vacib bir addım oldu.

Prezident İlham Əliyevin təklifi ilə Milli Məclisin iyunun 28-də keçirilən iclasında Azərbaycan Respublikasının seçki məcəlləsinə əlavələr və dəyişikliklərin edilməsi seçki praktikasının daha da yaxşılaşdırılmasına kömək etdi. Ölkədə parlament seçkilərinin demokratik şəraitdə hazırlanması və keçirilməsi üçün həm qanunvericilik, həm də faktiki baza yaradılmışdı. Seçki kampaniyasının qanunun tələblərinə uyğun şəkildə aparılması təmin edilmişdi. Ölkədə genişmiqyaslı hüquqi, iqtisadi və sosial islahatlar ardıcıl surətdə davam etdirilirdi. Azərbaycanın beynəlxalq aləmdə mövqeləri daha da möhkəmlənir, Avropa və Asiyanı daha sıx bağlayan transmilli iqtisadi layihələrin həyata keçirilməsində mərkəzi yer tutan ölkə kimi nüfuzu artırdı.

Azərbaycan Respublikası 2005-ci ilə qədər dövlətçiliyin möhkəmləndirilməsi, xarici siyasətin daha da fəallaşdırılması, daxili ictimai-siyasi sabitliyin qorunması və iqtisadiyyatın inkişaf etdirilməsi sahələrində böyük yol keçmişdi. Seçiləcək yeni parlamentin qarşısında bu uğurların davam etdirilməsi, qanunvericilik institutunun daha da təkmilləşdirilməsi, yeni qanun və qərarların qəbul edilməsi, beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi, sosial-iqtisadi və siyasi inkişafın davamlılığının təmin edilməsi kimi vacib vəzifələr dayanırdı.

Seçki ərəfəsində ölkədə siyasi sabitlik hökm sürürdü. Siyasi partiyalar seçkilərə hazırlaşır, namizədlərini müəyyənləşdirirdi. Hakim Yeni Azərbaycan Partiyasının namizədlər siyahısına ötən parlamentdəki 74 nəfərdən 41 nəfər daxil edilmişdi. Əvvəlki seçkilərdə olduğu kimi YAP bu dəfə də namizədlər siyahısında qadınlara 15 yer ayırmışdı. Onların arasında Prezident İlham Əliyevin həyat yoldaşı, ölkədə və xaricdə geniş humanitar fəaliyyəti ilə Azərbaycan dövlətinin "zərif, yumşaq güc" rəmzi kimi tanınan və millətə başucalığı gətirən Heydər Əliyev Fondunun prezidenti, görkəmli ictimai xadim Mehriban Əliyeva da var idi.

Mərkəzi Seçki Komissiyası 2005-ci il iyulun 21-də Demokratik Azərbaycan Dünyası, Azərbaycan Azad Respublikaçılar, Azərbaycan Demokratik Maarifçilik və Azərbaycan Respublikaçılar partiyaları tərəfindən yaradılmış "İslahat" bloku,

Müsavat, Azərbaycan Xalq Cəbhəsi və Azərbaycan Demokrat partiyaları tərəfindən yaradılmış "Azadlıq", Azərbaycan Milli İstiqlal, Azərbaycan Sosial Demokrat və Azərbaycan Milli Hərəkat partiyaları tərəfindən yaradılmış "Yeni Siyasət" bloku, həmin il iyulun 24-də Vəhdət və Birlik partiyaları tərəfindən yaradılmış "Azərbaycançı qüvvələr" bloku, Ədalət, Vahid Azərbaycan Milli Birlik və Vətəndaş Həmrəyliyi partiyaları tərəfindən yaradılmış "Demokratik Azərbaycan" bloku, Azərbaycan Xalq Demokratik Partiyası və Vahid Azərbaycan Partiyası tərəfindən yaradılmış "Azərbaycan naminə" seçki bloku, iyulun 27-də Qorqud Partiyası, Azərbaycan Dirçəliş və Tərəqqi Partiyası tərəfindən yaradılmış "Azərbaycan Tərəqqi Alyansı" bloku, avqustun 15-də isə Azərbaycan Mübarizlər Partiyası və Azərbaycan Milli Dövlətçilik Partiyası tərəfindən yaradılmış "Birlik" blokunu qeydə aldı. Seçki yarışında 10-dan çox blok iştirak edirdi. Namizədlərin təxminən yarısı və ya 963 nəfəri seçkilərə müstəqil olaraq qoşulmuşdu. 172 nəfər anket məlumatlarında partiya mənsubiyyətini göstərməmişdi.

Seçkinin təşkilinin əvvəlkilərdən müəyyən fərqləri də var idi. Belə ki, 1995 və 2000-ci illərdən fərqli olaraq bu dəfə seçkilər yalnız majoritar sistem üzrə keçirildiyi üçün birmandatlı dairələrin dislokasiyasında müvafiq dəyişikliklər edilmişdi. Bakı şəhərində dairələrin sayı 23-dən 29-a, Naxçıvanda 5-dən 7-yə, Sumqayıt və Gəncədə isə 3-dən 4-ə yüksəlmişdi. Qalan 15 dairə isə digər inzibati ərazilər arasında bölüşdürülmüşdü.

Mərkəzi Seçki Komissiyası (MSK) avqustun 12-də 122 saylı Xankəndi dairəsində də seçkilərin keçirilməsi barədə qərar qəbul etdi. Qeyd etmək lazımdır ki, 1995 və 2000-ci illərdə Xankəndi seçki dairəsində seçki keçirilməmişdi. Dairə Dağlıq Qarabağ regionunun erməni əhalisi üçün saxlanılırdı. Bu vəziyyətə son qoyan MSK Dağlıq Qarabağ regionu ermənilərinə müraciət qəbul edərək onları da seçkilərdə iştirak etməyə çağırdı. Lakin bu çağırışın nəticəsinin praktikada mümkün olmadığı hər kəsə məlum idi. Dairədə seçici siyahılarına 1991-ci ilədək Xankəndidə yaşamış 7 min nəfər azərbaycanlı əhalisi daxil edilmişdi.

Seçkilərdə şəffaflığın təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti oktyabrın 25-də Milli Məclisə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında sərəncam imzalayaraq səsvermə günü seçicilərin barmaqlarının mürəkkəblə işarələnməsi və maliyyələşmə mənbəyindən asılı olmayaraq bütün QHT-lərə seçkiləri müşahidə etmək hüququnun verilməsi məsələsini müsbət həll etdi.[35] Qanunvericilik sənədlərində müvafiq dəyişikliklər edildi.

35 Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 25.10.2005 // Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Normativ Hüquqi Aktların vahid internet elektron bazası. URL: www.e-qanun.az/framework/10788.

Seçkilərdə exit-polun tətbiqi, barmaqların gözlə görünməyən mürəkkəblə işarələnməsi, müşahidəçilərin dairəsinin genişləndirilməsi, qeyri-hökumət təşkilatlarının seçkini müşahidə etməsinə bütün imkanların verilməsi, dövlət hakimiyyəti orqanlarının seçkilərdə bitərəf mövqe tutmasının təmin edilməsi, seçki hüquqlarının pozulması barədə prokurorluğa daxil olan məlumatların operativ və hərtərəfli araşdırılması, seçki komissiyalarının normal fəaliyyəti üçün bütün lazım olan şəraitin yaradılmasından ötrü müəyyənləşdirilən tədbirlər seçki iştirakçılarının əksəriyyəti tərəfindən razılıqla qarşılandı, beynəlxalq təşkilatların rəhbərləri və aparıcı xarici dövlətlərin siyasi liderləri tərəfindən yüksək qiymətləndirildi.

Dörd ay sürən seçki kampaniyası noyabrın 6-da sona çatdı. Seçki yarışına qoşulan 2237 nəfərdən 2063 nəfərin namizədliyi qeydə alınmışdı. Bunun 1541 nəfəri (o cümlədən 165 qadın namizəd) seçkinin sonuna qalmışdı. Seçki yarışını tərk edənlərin təxminən üçdə birini YAP-ın namizədləri təşkil edirdi. 50-yə yaxın namizəd isə müvafiq dairə seçki komissiyalarının müraciəti əsasında Apellyasiya Məhkəməsi tərəfindən seçkidən kənarlaşdırılmışdı.[36]

İlk dəfə olaraq seçkilərdə bir neçə exit-poll keçirildi və onların nəticələrinin səsvermə başa çatdıqdan sonra elan ediləcəyi bildirildi. 3 saat sonra ABŞ-ın "Mitofsky International" və "Edison Media Research" şirkətlərinin 125 dairədə keçirdiyi exit-pollun nəticələri internetdə yerləşdirildi. Dairələrin böyük əksəriyyətində YAP təmsilçiləri və müstəqil namizədlər qalib gəlmişdi.

Exit-pollun nəticələri müxalifət üçün ürəkaçan olmadı. Belə ki, exit-poll keçirilmiş 65 dairədən 58-də ümumi yekun göstərici MSK-nın ilkin nəticələri ilə uyğun gəlirdi. Exit-poll keçirmiş Estoniyanın "Saar-poll" şirkətinin və yerli "Proqnoz" sosioloji xidmətinin nəticələri də ümumən MSK-nın göstəriciləri ilə üst-üstə düşürdü.

Seçkilər haqqında beynəlxalq müşahidəçilərin qənaəti fərqli oldu. Ukrayna, Gürcüstan və Qırğızıstanda baş vermiş məlum qarışıq hadisələrdən sonra Azərbaycan Respublikası Milli Məclisinə keçirilən seçkilər bütün dünyada çox maraqla izlənilirdi. MSK-nın məlumatına görə, seçkilərdə 45 ölkədən 1568 nəfər xarici müşahidəçi akkreditə olunmuşdu.[37] Bu, 2000-ci ilin parlament seçkiləri ilə müqayisədə üç dəfə çox idi. ATƏT, Avropa Şurası, NATO Parlament Assambleyası və Avropa Parlamentini təmsil edən müşahidəçilərin birləşdiyi və 600-ə yaxın nümayəndənin daxil olduğu Beynəlxalq Müşahidəçilər Missiyası 2005-ci il seçkilərinin bir sıra cəhətləri ilə ötən seçkilərdən müsbət şəkildə fərqləndiyini, seçkiqabağı mərhələnin kifayət qədər demokratikliyi ilə seçildiyini bildirməklə

36 Azərbaycanda parlamentarizm: tarix və bu gün. 11.09.2017 // URL: www.azerbaycanli.org / az/page130.html.

37 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s.422.

yanaşı, səsvermə zamanı və səslərin hesablanmasında bəzi qüsurların olduğunu bəyan etdi. İlkin hesabata görə, seçki məntəqələrinin 87%-də seçki ümumən normal keçmiş, lakin xırda pozuntular olmuşdu. Missiyanın qənaətinə əsasən, seçkilər bir sıra beynəlxalq standartlara və Azərbaycanın üzərinə götürdüyü beynəlxalq öhdəliklərə cavab verirdi.

Tərkibində 600 nəfərə qədər nümayəndə olan MDB-nin müşahidəçilər missiyası, həmçinin Türkiyənin, digər qonşu və bəzi Avropa ölkələrinin (Baltikyanı ölkələr, Bolqarıstan, Rumıniya) təmsilçiləri seçkilərə müsbət qiymət verdilər.

Azərbaycan rəhbərliyi tənqidi qeydləri normal qarşıladı. Çünki dünyanın heç bir ölkəsində ideal seçkilər keçirilmirdi. Siyasi və fərdi maraqların toqquşduğu seçkilərdə qüsurların olması təbii idi. Ona görə də Prezident İlham Əliyev noyabrın 7-də MSK-ya, habelə ölkə prokurorluğuna bütün şikayətlərin operativ şəkildə araşdırılması barədə göstəriş verdi. MSK noyabrın 8-9-da bir neçə dairə haqqında qərarlar qəbul etdi.

Noyabrın 23-də MSK seçkilərin yekun protokolunu təsdiqlədi. Protokola əsasən 121 nəfər qalibdən 58-i YAP təmsilçisi (o cümlədən 50 nəfər partiyanın rəsmi siyahısı üzrə), 42 nəfər isə müstəqil namizəd idi. "Azadlıq" blokundan 8 nəfər, "Yeni siyasət" blokundan, Ana Vətən və Vətəndaş Həmrəyliyi partiyalarının namizədlərindən 2 nəfər deputat oldu. Bundan əlavə, daha yeddi partiya – Liberal, Ümid, Sosial Rifah, Demokratik İslahatlar, Bütöv Azərbaycan Xalq Cəbhəsi, Böyük Quruluş və Vətəndaş Birliyi partiyaları parlamentdə hərəyə bir yer qazandı.

Konstitusiya Məhkəməsinin Plenumu səsvermənin ümumi nəticələrini etibarlı hesab etsə də, 31 saylı Suraxanı ikinci, 44 saylı Sumqayıt – Abşeron, 69 saylı Cəlilabad – Masallı – Biləsuvar, 103 saylı Gədəbəy, 106 saylı Tovuz – Qazax – Ağstafa, 119 saylı Ağdam kənd seçki dairələri üzrə seçkilərin nəticələrini təsdiq etmədi.[38] Konstitusiyaya görə, həmin dairələrdə təkrar seçkilər keçirilməli idi. Beləliklə, 115 nəfərin deputat mandatı təsdiq olundu.

Radikal müxalifət qüvvələrinin və onları xaricdə müdafiə edən bəzi qrupların arzuladıqları "rəngli inqilab" bu seçkidə də baş tutmadı. Seçicilər sabitliyə və davamlı inkişafa səs verdilər.

III çağırış Milli Məclisə ən yüksək seçici dəstəyi ilə seçilmiş deputat gözlənildiyi kimi, ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva oldu. 14 saylı Əzizbəyov dairəsində seçicilərin 92%-i (21,6 min səs) ona etimad göstərmişdi.[39]

38 2005-ci il noyabrın 6-da keçirilmiş III çağırış Azərbaycan Respublikası Milli Məclisi deputatlarının seçkilərinin nəticələrinə dair. 01.12.2005 // Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi saytı. URL: www.constcourt.gov.az/decisions/121.

39 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s.424.

Milli Məclisin ilk iclası deputat mandatları təsdiqlənmiş 115 nəfərdən 106-sının iştirakı ilə 2005-ci il dekabrın 2-də saat 12:00-da açıldı. İclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak edirdi. Nitq söyləyərək deputatları təbrik edən Prezident bildirdi ki, parlament seçkilərinin Azərbaycanın demokratik inkişafında çox böyük rolu vardır. Seçkilərin şəffaf, ədalətli keçirildiyini deyən dövlət başçısı belə bir inam ifadə etdi ki, bu, Azərbaycanın hərtərəfli inkişafına, siyasi proseslərin daha da sürətlə aparılmasına, ölkədə demokratik islahatların davam etdirilməsinə, bütövlükdə, Azərbaycanın demokratik dövlətə çevrilməsinə kömək edəcəkdir.[40] II çağırış Milli Məclisin fəaliyyətini yüksək qiymətləndirən Prezident bildirdi ki, dövlət quruculuğunda parlament özünəməxsus rol oynamışdır.

III çağırış Milli Məclisə seçkilər zamanı yaradılmış şəraitə diqqəti cəlb edən ölkə rəhbəri bəzi qüvvələrin seçkiləri pozmağa yönəlmiş fəaliyyətinin bundan sonra da uğursuz olacağını belə ifadə etdi:

"Biz bunu 1990-cı illərin əvvəllərində görmüşük, Azərbaycan xalqı bunu görübdür, yaxşı xatırlayır və Azərbaycanı bərbad vəziyyətə salan, bu ölkəni talayan, Azərbaycanda vətəndaş müharibəsini başlayan, Azərbaycanı uçuruma sürükləyən qüvvələrə Azərbaycan siyasətində heç vaxt yer olmayacaq, Azərbaycan xalqı heç vaxt buna imkan verməyəcəkdir".[41]

Prezident Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişənin həlli səyləri barədə danışarkən bildirdi ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir.[42]

İclasda Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü Oqtay Əsədov[43] Milli Məclisin sədri seçildi. Sədrin müavinləri seçildi.

İlk iclasda Milli Məclisin daimi komissiyalarının sədrləri seçildi. Milli Məclisdə 11 komissiya – Hüquq siyasəti və dövlət quruculuğu, Təhlükəsizlik və müdafiə məsələləri, İqtisadi siyasət, Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri, Aqrar siyasət, Sosial siyasət, Regional məsələlər, Elm və təhsil, Mədəniyyət məsələləri, İnsan hüquqları, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyaları mövcud idi.

Beləliklə, yeni parlament formalaşdırıldı. Ölkə qarşısında dayanan bir sıra vacib məsələləri həll etmək lazım gəlirdi. Onlardan da biri Azərbaycanı beynəlxalq nəqliyyat-kommunikasiya mərkəzinə çevirmək idi.

40 Əliyev İ. H. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin III çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında nitqi. 02.12.2005 // İnkişaf – məqsədimizdir. 14-cü kitab. Bakı, 2013, s. 153-167.
41 Yenə orada, s. 162.
42 Yenə orada, s. 165
43 Oqtay Əsədov (1955) – Milli Məclisin sədri (2005-2019).

1.5. Bakı – Tbilisi – Qars dəmiryolunun təməlinin qoyulması

Təməli hələ Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanın nəqliyyat-kommunikasiya qovşağına çevrilməsi siyasəti İlham Əliyev hakimiyyətə gəldikdən sonra da beynəlxalq fəaliyyətin başlıca istiqamətlərindən biri kimi davam etdirildi. Vacib layihələrdən biri Bakı – Tbilisi – Qars dəmiryolu xətti oldu. Qeyd etmək lazımdır ki, Azərbaycan və Türkiyə arasında Gürcüstan ərazisindən keçəcək dəmiryolu xəttinin tikintisi ilk dəfə olaraq hələ 1993-cü il iyulun 26-29-da Ankara şəhərində keçirilmiş Türkiyə və Gürcüstan arasında Qarışıq Nəqliyyat Komissiyasının iclasında müzakirə olunmuşdu. 2002-ci il iyulun 20-21-də İstanbulda Türkiyə və Gürcüstan nəqliyyat nazirlərinin iclasında həmin layihənin həyata keçirilməsi barədə imzalanmış protokolda hazırlıq işlərinin görülməsi nəzərdə tutulmuşdu.

Layihəyə dair ilk dəfə rəsmi müzakirələr Prezident İlham Əliyevin 2004-cü il iyulun 14-də Gürcüstana rəsmi səfəri zamanı aparıldı. Tikintiyə aid razılaşma üç ölkə arasında 2005-ci ilin yanvar ayında imzalandı. Ermənistandan kənar keçdiyindən bu layihəyə qarşı çıxan erməni lobbisi və diasporu yolun tikintisinə maliyyə ayırmamağa dair ABŞ hökumətinə müraciət etmişdi. Tikintinin maliyyələşdirilməsindən imtina edən ABŞ və Avropa İttifaqı Bakı – Tbilisi – Qars dəmiryolunun əvəzinə işğalçı Ermənistan ərazisindən keçməklə Qars – Gümrü – Tbilisi dəmiryolu xəttinin açılmasını tələb edirdilər. ABŞ-ın təzyiqlərini qətiyyətlə rədd edən Azərbaycan dövləti dəmiryolu xəttinin tikintisinin maliyyələşdirilməsini sonralar öz üzərinə götürdü. Bu məqsədlə Azərbaycan dövləti Gürcüstana ildə 1% dərəcəsi ilə 25 illiyə 220 milyon dollar kredit verdi.

Başlanmış işi davam etdirən Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri Tbilisidə 2007-ci il fevralın 7-də regional əməkdaşlığa ümumi baxış haqqında bəyannamə və 12 maddədən ibarət Bakı – Tbilisi – Qars yeni dəmiryolu xətti haqqında saziş imzaladılar. Sənədlərin imzalanma mərasimindəki nitqində Prezident İlham Əliyev dedi:

"Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum layihələri kimi, Bakı–Tbilisi–Qars dəmiryolu layihəsinin də həyata keçirilməsi regiona sabitlik, əməkdaşlıq gətirəcəkdir. Regionun problemlərinin həlli üçün önəmli rol oynayacaq, bizi birləşdirəcək, qitələri birləşdirəcəkdir. Gələcəkdə bu yoldan müxtəlif ölkələr, tərəflər istifadə edə bilər. Biz isə bundan, əlbəttə ki, həm siyasi, həm iqtisadi, həm də regional müstəvidə böyük fayda götürəcəyik".[44]

44 Əliyev İ.H. Üçtərəfli regional əməkdaşlıq sammiti sənədlərinin imzalanma mərasimi. Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı // İnkişaf –məqsədimizdir. 22-ci kitab. Bakı, 2015, s. 175.

İmzalanan sənədlər böyük tarixi əhəmiyyət daşıyırdı. Tərəflər "dəmir ipək yolu" adlandırılan Bakı – Tbilisi – Qars dəmiryolu layihəsini, Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft, Bakı – Tbilisi – Ərzurum qaz boru kəmərlərini dəstəklədiklərini bildirdilər. Bəyannamədə həmin layihələrin regionda, bütövlükdə Avropada sülhə, sabitliyə və rifaha xidmət etdiyi belə ifadə edilirdi:

"Biz, regionda və bütövlükdə Avropada sülh, sabitlik və rifahı təşviq və inkişaf etdirən beynəlxalq təşkilatlar və layihələr çərçivəsində çoxtərəfli fəal əməkdaşlığı dəstəkləyirik".[45]

Sənədlərin icra edilməsi ölkələrin qarşısında yeni imkanlar açır və strateji əhəmiyyət daşıyırdı. Azərbaycan həm neft və qaz ixrac edərək Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq, həm dünyanın ikinci iqtisadi güc mərkəzi olan Avropa İttifaqı ölkələri və "Asiyanın yatmış aslanı olan", sürətlə inkişaf edən Çini, həm də yeni iqtisadi güc mərkəzinə çevrilən Cənub-Şərqi Asiya ölkələrini birləşdirməklə etibarlı və sərfəli körpü olacaqdı. Tranzit-keçid məntəqəsi olması nəticəsində Azərbaycanda infrastruktur yenidən qurulacaq, yeni iş yerləri açılacaq, büdcəyə əlavə vəsaitlər daxil olacaq və vətəndaşların həyat şəraiti yaxşılaşacaqdı.

Azərbaycan, Gürcüstan və Türkiyənin səyləri öz nəticəsini verdi. 2007-ci il noyabr 21-də Gürcüstanın Marabda kəndində Bakı – Tbilisi – Qars dəmiryolu xəttinin tikintisinin təməli qoyuldu. Bu, Azərbaycan Respublikasının dünya iqtisadiyyatında və siyasətində rolunu artıran və beynəlxalq mövqelərini möhkəmləndirən mühüm amil oldu. Azərbaycan dünyanın müxtəlif ölkələrini birləşdirən vacib nəqliyyat-kommunikasiya qovşağına çevrilirdi.

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, İlham Əliyevin 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkə həyatında yeni inkişaf mərhələsi başlanmışdır. İlham Əliyev Azərbaycan Respublikasının sayca 4-cü Prezidenti olmuşdur. Qarşıya qoyulan başlıca məqsəd ölkəni müasirləşdirməklə güclü iqtisadiyyat qurmaq, rəqabətə davamlı etmək, Azərbaycan vətəndaşları üçün bərabər imkanlar yaratmaq, dövlətin müdafiə qüdrətini artırmaq və Dağlıq Qarabağ münaqişəsini həll etmək olmuşdur. Bundan ötrü ölkədə bütün sahələrdə islahatlar genişləndirilmişdir. 2005-ci ildə majoritar sistem əsasında keçirilən seçkilərin nəticəsində müxtəlif siyasi partiyaların və müstəqillərin nümayəndələrindən ibarət parlament formalaşmışdır.

45 Regional əməkdaşlığa ümumi baxış haqqmda Tbilisi bəyannaməsi // Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2007. II hissə. Bakı, 2009, s. 173-175.

Qarşıya qoyulan məqsədlərə nail olmaqdan ötrü beynəlxalq miqyasda böyük işlər görülmüşdür. Prezident İlham Əliyevin xarici ölkələrə səfərləri zamanı imzalanan sənədlər qarşılıqlı münasibətlərə yeni keyfiyyət gətirilmişdir. Çoxtərəfli formatda da əməkdaşlıq genişləndirilmişdir.

Azərbaycanın beynəlxalq nəqliyyat-kommunikasiya qovşağına çevrilməsi üçün böyük səylər göstərilmişdir. Bakı – Tbilisi – Qars dəmiryolu xəttinin təməli qoyulmuşdur. Bununla Azərbaycan Respublikasının dünyanın ikinci iqtisadi güc mərkəzi olan Avropa İttifaqı və yüksəlməkdə olan Çin, Cənub-Şərqi Asiya ölkələri arasında etibarlı körpü rolunu oynaması istiqamətində mühüm addım atılmışdır.

2-ci FƏSİL

HEYDƏR ƏLİYEV FONDUNUN FƏALİYYƏTİ AZƏRBAYCAN DÖVLƏTİNİN "YUMŞAQ GÜC" SİYASƏTİNİN RƏMZİ KİMİ

2.1. Heydər Əliyev Fondunun yaradılması və başlıca məqsədləri

Ümummilli lider Heydər Əliyevin vəfatı Azərbaycan millətinə ağır təsir etmişdi. İnsanlar dünya şöhrətli dövlət və siyasi xadimin irsinin öyrədilməsini, təbliğ edilməsini və adının əbədiləşdirilməsini istəyirdi. Həmin istəkləri həyata keçirməkdən ötrü tədbirlər görüldü.

Müstəqil Azərbaycan Respublikası dövlətinin memarı Heydər Əliyevə millətin ehtiramını ifadə etmək, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin Azərbaycan üçün əhəmiyyətini göstərmək, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədi ilə yaradılan Heydər Əliyev Fondunun rəsmi açılışı 2004-ci il mayın 10-da oldu. Fondun prezidenti, Azərbaycanın birinci xanımı, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva təyin edildi.

Fondun başlıca məqsədi Heydər Əliyevin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, dünya birliyinə inteqrasiyası, Azərbaycan millətinin maddi rifahının yaxşılaşdırılması naminə müəyyənləşdirdiyi, işləyib hazırladığı siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə dəstək vermək, Azərbaycanın tərəqqisi və millətin rifahının yaxşılaşmasına xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasına kömək etmək, elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirmək, respublikanın və xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlıq etmək, elmi tədqiqatların aparılmasına yardım göstərmək, xarici ölkələrin tanınmış elmi-tədqiqat mərkəzləri ilə alimlərin mübadiləsini təşkil etmək, ölkənin yaradıcı və elmi potensialının artırılmasına kömək etmək, uşaq müəssisələrinin infrastrukturunu inkişaf etdirmək, insanların yaradıcı potensialının,

bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım etmək, uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, yerli əhəmiyyətli sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək, səhiyyə və tibbi təsisatları inkişaf etdirmək, ekologiya sahəsində vacib tədqiqatları dəstəkləmək, sağlam həyat tərzini təbliğ etmək, Azərbaycan mədəniyyətinin geniş təbliği, mənəvi dəyərlərin qorunması işlərinə kömək etmək, uşaqların, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgilərini təşkil etmək, Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım göstərmək, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq, dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək vermək, respublikanın və xarici ölkələrin fondları, qeyri-hökumət təşkilatları, ictimai təşkilatları ilə əməkdaşlığı genişləndirmək, birgə layihələr həyata keçirmək, Azərbaycan Respublikasının ərazisində və xaricdə aktual mövzulara dair konfrans və seminarlar təşkil etmək müəyyənləşdirildi.[46]

2.2. Heydər Əliyev Fondunun fəaliyyəti

Qarşıya qoyulan başlıca məqsədə çatmaqdan ötrü Heydər Əliyev Fondu "yumşaq güc" olaraq həm ölkə daxilində, həm də xarici ölkələrdə geniş fəaliyyətə başladı. Fondun fəaliyyət istiqamətlərindən birini elm və təhsil təşkil edirdi. Cəmiyyətdə bərabər təhsil imkanlarının yaradılması, gənc nəslin biliklərə yiyələnməsi, ümumilikdə təhsil sisteminin inkişaf etdirilməsi məqsədilə Heydər Əliyev Fondu "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramını, "Yeniləşən Azərbaycana yeni məktəb" və "Təhsilə dəstək" layihələrini həyata keçirdi. 2005-2014-cü illər ərzində "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində respublika üzrə 30-dan çox uşaq müəssisəsi əsaslı şəkildə təmir edildi. Təkcə bu proqram çərçivəsində 2005-2012-ci illər ərzində ölkənin müxtəlif bölgələrində 100 mindən artıq şagirdin təhsil aldığı 400-dək məktəb binası inşa olundu və yenidən quruldu. Həmin məktəblərin hər birində müasir laboratoriya, kitabxana, yeməkxana, ən son avadanlıqla təchiz edilmiş kompüter otaqları, emalatxana, idman zalları, geniş meydançalar və istilik sis-

46 Fondun məqsədləri // Heydər Əliyev Fondunun rəsmi internet saytı. URL: https://heydaraliyev-foundation.org/az/content/index/48/Fondun_məqsədləri. 20.11.2020.

temi var idi.[47] "Təhsilə dəstək" layihəsi çərçivəsində isə ölkədə 20-dən çox uşaq bağçası əsaslı təmir olunaraq müasir avadanlıqla təchiz edildi.

Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinə artan tələbatı nəzərə alaraq 2014-cü ildə "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramına başlanıldı.[48] Proqram çərçivəsində müəssisələrin təmiri, yeni binaların inşası, təhsilin, tibbi xidmətin, qidanın keyfiyyətinin yaxşılaşdırılması, qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdığı müəssisələrin aidiyyəti üzrə istifadəyə verilməsinin təmin edilməsi və s. işlər görüldü.

Fondun təhsil sahəsində fəaliyyəti təkcə Azərbaycan miqyası ilə məhdudlaşmır, Avropa, Asiya, Amerika və Afrikanın müxtəlif ölkələrini də əhatə edirdi. Gürcüstan, Niderland Krallığı, Misir, Pakistan, Rumıniya və Rusiya Federasiyasında bir sıra məktəblər yenidən quruldu və əsaslı təmir olundu. 2013-cü ildə ABŞ-ın Merilend ştatında yerləşən məktəblərə interaktiv lövhələrin və əlil uşaqlara müvafiq avadanlığın alınması üçün maliyyə yardımı edildi, Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda görmə qabiliyyətini itirmiş və zəif görən uşaqlar və gənclər üçün mərkəz yenidən quruldu.

Fond təhsil müəssisələrinin dərs vəsaitləri və müxtəlif ədəbiyyatlarla təchizatına xüsusi diqqət yetirirdi. Tədrisin keyfiyyətini yüksəltmək məqsədi ilə ilk dəfə olaraq Azərbaycan dilində müxtəlif fənlərə dair hazırlanan plakatların hər birindən 10 min nüsxə olmaqla 1 milyon 400 min ədəd plakat çap edildi.

Fond hər il "Təhsilə dəstək" layihəsi çərçivəsində Qarabağ müharibəsi nəticəsində daimi yaşayış yerlərini tərk etmiş qaçqın və məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə çanta və məktəb ləvazimatı hədiyyə edirdi. Gürcüstanın azərbaycanlılar yaşayan bölgələrindəki məktəblərə, həmçinin Azərbaycanın Qax, Zaqatala və Balakən rayonlarında tədrisin gürcü dilində aparıldığı məktəblərə də yeni dərslik və tədris ləvazimatları göndərirdi.

Məktəblilərin yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılması məqsədi ilə olimpiadalar təşkil edən Fond mütəmadi olaraq xarici ölkələrin tanınmış elmi-tədqiqat mərkəzləri ilə alimlərin mübadiləsini həyata keçirirdi.

Əhalinin səhiyyə problemlərinin aradan qaldırılmasında yaxından iştirak edən Fond 2004-cü ildən Azərbaycan Diabet Cəmiyyəti və Danimarkanın Novo Nordisk şirkəti ilə birgə "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsini həyata keçirməyə başladı. Layihə çərçivəsində diabet xəstəliyinə tutulmuş 14 yaşına-

47 Yeniləşən Azərbaycana yeni məktəb // Heydər Əliyev Fondunun rəsmi internet saytı. URL: https://heydar-aliyev-foundation.org/az/content/blog/130/Yeniləşən-Azərbaycana-yeni-məktəb. 20.11.2020.

48 Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramının təqdimatı olmuşdur // "Azərbaycan" qəzeti, 2014, 25 fevral.

dək uşaqlar müntəzəm olaraq insulin preparatları və şpris-qələmlərlə təmin edildi.

Talassemiya xəstəliyinin qarşısının alınması məqsədi ilə 2005-ci ildə "Talassemiyasız həyat naminə" layihəsinə start verildi. Layihə çərçivəsində 2009-cu ildə Bakıda müasir avadanlıqla təchiz olunmuş Talassemiya Mərkəzi inşa edildi.

Fondun təşəbbüsü ilə paytaxtda və regionlarda mütəmadi olaraq qanvermə aksiyaları, ürək çatışmazlığından, dodaq və damaq bitişməzliyi patologiyasından əziyyət çəkən uşaqlar üzərində əməliyyatlar, aztəminatlı ailələrdən olan şəxslərin müayinələri və digər tədbirlər həyata keçirilir. Fondun dəstəyi ilə 50 mindən çox insan yerli klinikalarda müalicə edilmiş, 10 minə yaxın xəstə respublikanın müxtəlif tibb müəssisələrində cərrahiyyə əməliyyatı olunmuş, onların bir qismi müayinə və əməliyyat üçün xarici ölkələrə göndərilmişdir.

Fond tibb müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və inşasında yaxından iştirak edir. Məsələn, 2006-cı ildə Bakının Türkan qəsəbəsində poliklinika və təcili tibbi yardım stansiyası inşa, Şüvəlan qəsəbəsində 31 nömrəli Birləşmiş Şəhər Xəstəxanası əsaslı təmir, Ucar rayonunun Qazıqumlaq kəndində Akademik Zərifə Əliyeva adına Xəstəxana isə əsaslı bərpa edildi, 2008-ci ildə Zirə Müalicə Diaqnostika Mərkəzi yenidən quruldu, Qala qəsəbəsində ilk xəstəxananın – 29 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının filialı inşa edildi. 2009-cu ildə Bakıda psixonevroloji Uşaq Mərkəzinin, Talassemiya Mərkəzinin inşası, Təbəssüm uşaq sanatoriyasının əsaslı təmiri, 2011-ci ildə Pirşağı qəsəbəsindəki 34 nömrəli Şəhər Səhiyyə Kompleksinin yenidən qurulması, Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqlar üçün Reabilitasiya Mərkəzinin inşası, Mərkəzi Neftçilər Xəstəxanasında Cərrahiyyə və Orqan Transplantologiya Mərkəzinin, Mərdəkan qəsəbəsində Səhiyyə Nazirliyinin Uşaq Tibbi Reabilitasiya Xəstəxanasının əsaslı təmiri, 2013-cü ildə Qayğı Uşaq Reabilitasiya Mərkəzinin yenidən qurulması və Türkan qəsəbəsində yeni poliklinikanın inşası həyata keçirildi.

Fond səhiyyə sahəsində layihələrini Azərbaycandan kənarda da həyata keçirirdi. 2008-ci ilin aprelində Fond Rumıniyanın İon Pop de Popa Fondu ilə əməkdaşlıq çərçivəsində ürək xəstəliklərindən əziyyət çəkən insanlara yardım göstərdi.[49] 2010-cu ilin dekabrında Rusiyanın Yekaterinburq şəhərindəki 1 nömrəli Vilayət Kliniki Xəstəxanasının Uşaq Onkohematoloji Mərkəzinə xüsusi tibbi avadanlıqla təchiz edilmiş "Sobol" markalı təcili yardım maşını hədiyyə edildi. 2012-ci ilin aprel ayında Pakistanın Heybər-Paxtunxva əyalətinin Qazni Laki Marvat şəhərində yerləşən qadınlar və uşaqlar xəstəxanasında 4 nəfər

49 Heydər Əliyev Fondu – uğurların təməli. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın "The Business Year" jurnalına müsahibəsi // "Azərbaycan" qəzeti, 2014, 15 may.

imkansız xəstənin ürəyində cərrahiyyə əməliyyatı aparıldı, Edhi Home Xeyriyyə Fondunun İslamabadda yerləşən kimsəsizlər evindəki uşaqlara tibbi baxış keçirildi və hepatit B virusuna qarşı peyvəndlər edildi. 2012-ci ilin aprel-iyun aylarında Pakistanın müxtəlif bölgələrində 30 mindən çox imkansız insan hepatit B virusuna qarşı üç mərhələli peyvənd edildi. 2012-ci il iyunun 14-də Beynəlxalq donorlar günündə Pakistanda talassemiya, hemofiliya və qan xərçəngindən əziyyət çəkən xəstələrin müalicəsi ilə məşğul olan bir neçə xəstəxananı özündə birləşdirən Həmzə Xeyriyyə Fonduna Heydər Əliyev Fondu tərəfindən xüsusi qanköçürmə və kiçik laboratoriya ilə təchiz olunmuş təcili tibbi yardım maşını və 2000 ədəd qanköçürmə paketi təqdim olundu. 2012-ci ilin iyununda Peşəvər şəhərində imkansız xəstələrin müalicəsini həyata keçirən göz xəstəxanasının yeni korpusunun tikintisi və göz xəstəliklərindən əziyyət çəkən 120 nəfər imkansız xəstənin əməliyyat olunmasına maliyyə yardımı edildi.

Fondun genişmiqyaslı fəaliyyət istiqamətlərindən biri də mədəniyyət idi. Ölkəmizin mədəniyyət diplomatiyasının əsas icraçısı olan Fondun dəstəyi ilə 2005-ci ildə Gəncədə Cavad xanın qəbri üzərində məqbərə ucaldıldı, Comərd Qəssabın məzarı və məzarüstü türbəsi, Abdulla Şaiqin ev-muzeyi bərpa, Xəzər rayonunun Mərdəkan qəsəbəsində kütləvi kitabxana üçün müasir bina inşa edildi. 2007-ci ildə Mərdəkan Mədəniyyət Sarayı yenidən quruldu, 2008-ci ildə Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi yaradıldı, Gəncə qapıları ilkin şəkildə, Salyan Dövlət Rəsm Qalereyası isə yenidən quruldu, Ağcabədidə Qarabağ Muğam Mərkəzi, Bakıda Beynəlxalq Muğam Mərkəzi, 2009-cu ildə Ağdaşda xalq artisti Habil Əliyev adına uşaq musiqi məktəbi inşa edildi, Bakı Müasir İncəsənət Muzeyi yaradıldı, 2010-cu ildə Xəzər rayonunun Türkan və Binə qəsəbələrində yeni mədəniyyət mərkəzləri tikildi, 2011-ci ildə Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin ərazisində Etno-Ekoloji Mərkəzi və Qala Əntiq Əşyalar Muzeyi yaradıldı. 2014-cü ildə Gəncədə Nizami Gəncəvi Muzeyi, Məhsəti Gəncəvi Mərkəzi, Bakıda Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün yeni bina inşa edildi.

Fond xarici ölkələrdə tarix və mədəniyyət abidələrinin bərpası, yeni mədəniyyət obyektlərinin inşası sahəsində də fəaliyyət göstərirdi. 2006-cı ildə Tbilisi şəhərində Azərbaycanın görkəmli şəxsiyyətlərinin – Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundovun, Həsən bəy Ağayevin və Fətəli xan Xoyskinin qəbirüstü abidələri yenidən quruldu və xiyabanı yaradıldı.[50]

2007-ci ildə Parisdə Versal sarayının parkındakı ümumbəşəri abidələr, 2008-ci ildə Luvr Muzeyində bir neçə zal, 2011-ci ildə İkinci dünya müharibəsi zamanı yanmış və dağıdılmış Berlin qəsri bərpa edildi, 2012-ci ildə Romanın

50 Böyük amallar uğrunda // "Milli Məclis" jurnalı, 2009, № 2, s. 3-16.

Villa Borgeze parkında Nizami Gəncəvinin abidəsi ucaldıldı, Vatikanda Roma katakombaları bərpa edildi, Moskvada M.İ.Rudomino adına Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasının atriumunda Azərbaycanın görkəmli yazıçısı, filosofu və humanisti Mirzə Fətəli Axundovun abidəsi qoyuldu, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzi yaradıldı və 2013-cü ildə Romada Kapitoli Muzeyinin "Filosoflar zalı" təmir edildi.

Bütün bunlar Dağlıq Qarabağ münaqişəsini Qərbdə müsəlman-xristian müharibəsi kimi qələmə verməyə çalışan uydurma erməni təbliğatına ağır zərbə vurdu. Dünya xalqları Azərbaycanda müxtəlif dinlərə olan siyasəti və münasibəti aydın şəkildə gördülər.

Azərbaycan xalqının mədəni ənənələri və tarixində dərin köklərə malik olan muğam sənətinin inkişafı və təbliği, milli musiqi irsinin qorunub saxlanılması, dünya musiqi incilərinin Azərbaycanda tanıdılması Fondun mədəniyyət sahəsindəki fəaliyyətində mühüm yer tuturdu. 2005-ci ildə görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin anadan olmasının 120 illik yubileyi münasibətilə Fondun təşkilatçılığı ilə muğam müsabiqəsi keçirildi. Qədim muğam sənətinin qorunub saxlanılması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi məqsədi ilə 2007, 2009, 2011 və 2013-cü illərdə də muğam müsabiqələri təşkil olundu.

Fondun təşəbbüsü və təşkilati dəstəyi ilə 2007-2012-ci illərdə Bakıda Mstislav Rostropoviç adına beynəlxalq musiqi festivalları, 2009, 2011 və 2013-cü illərdə "Muğam aləmi", 2009-2013-cü illərdə Qəbələ şəhərində beynəlxalq musiqi festivalları keçirildi. Festivallar dünyanın mədəniyyət xadimlərinin diqqətini Azərbaycana yönəldir və Azərbaycan xalqının dünya mədəniyyəti yaradan xalq olduğunu bir daha nümayiş etdirirdi.

Fondun dəstəyi, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Aşıqlar Birliyinin təşkilatçılığı ilə 2010-cu ilin oktyabr ayında I Beynəlxalq Aşıq Festivalı keçirildi. Fond 2012 "Avroviziya" mahnı müsabiqəsinin təşkilati tərəfdaşı oldu.

Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında 1945-ci ildə ağ-qara formatda çəkilmiş "Arşın mal alan" filmi Fondun təşəbbüsü və dəstəyi ilə dünya kino sənayesinin əsas mərkəzi olan Hollivudda bərpa edilərək rəngli formatda hazırlandı. Filmin premyerası 2013-cü il dekabrın 10-da Heydər Əliyev Mərkəzində keçirildi.

Heydər Əliyev Fondu həm ölkədə, həm də xaricdə bir sıra incəsənət festivalları və sərgilərinin təşəbbüskarı və təşkilatçısı oldu. Belə ki, "Mən Azərbaycanı sevirəm" adlı rəsm sərgisi 2004-cü ilin sentyabrında uşaq evlərində və internat məktəblərində tərbiyə alan uşaqların əl işlərindən təşkil olundu. Sərginin

məqsədi hamının diqqətini qayğıya daha çox ehtiyacı olan uşaqlara yönəltmək idi.

UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmiş İçərişəhərin ərazisində yerləşən və Bakının rəmzi hesab olunan Qız qalasının dünyada tanıdılması məqsədi ilə 2010-2014-cü illərdə "Qız qalası" beynəlxalq incəsənət festivalları keçirildi. Festival iştirakçıları Qız qalası maketlərini milli üslublarda bəzəyərək fərqli mədəniyyət və adət-ənənələrin sintezini əks etdirən əsərlər yaratdılar. Bu nadir müəllif işləri dünyanın müxtəlif ölkələrində nümayiş etdirilərək ümumdünya mədəni irsinin bir hissəsi olan Qız qalasının təbliğində mühüm vasitəyə çevrildi.

Azərbaycan xalqının zəngin tarixi keçmişini, qədim məişət ənənələrini yaşatmaq, gənc nəslə tanıtmaq və təbliğ etmək məqsədi ilə 2010 və 2014-cü illərdə Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisində Qala festivalı keçirildi.

"Azərbaycan əcnəbilərin gözü ilə" adlı fotosərgi 2011-ci ilin iyulunda Heydər Əliyev Fondu və BMT-nin İnkişaf Proqramı tərəfindən Müasir İncəsənət Muzeyində təşkil edildi.[51] Sərgidə Azərbaycanda fəaliyyət göstərən xarici diplomatların və iş adamlarının çəkdiyi 90-dan çox rəngli və ağ-qara fotoşəkillər nümayiş etdirildi. Sərginin maraqlı cəhəti ondan ibarət idi ki, burada yalnız xarici ölkə vətəndaşlarının fərdi kolleksiyalarında olan həvəskar fotoşəkillər göstərilirdi.

Fondun təşəbbüsü və dəstəyi ilə 2012-ci ilin martında Azərbaycan Milli İncəsənət Muzeyində "Fransa inciləri" adlı sərgi açıldı. Sərgidə Fransa mədəniyyətini əks etdirən 400-dək nadir əsər nümayiş etdirildi.

2012-ci ilin may ayında Müasir İncəsənət Muzeyində "Afrovision – Afrikadan müasir incəsənət" sərgisinin açılışı oldu. Ekspozisiyada Afrikanın 7 ölkəsini təmsil edən 11 rəssamın 63 əsəri təqdim edildi.

Heydər Əliyev Fondunun, İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin və "Təmiz Şəhər" ASC-nin birgə təşkilatçılığı ilə 2012-2014-cü illərdə Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğunda "Tullantıdan sənətə" adlı beynəlxalq sərgi keçirildi. Başlıca məqsədi insanları israfçılıqdan yayındırmaq və onların malik olduğu əşyaları düşünmədən zibil qutularına atmaq vərdişindən çəkindirmək olan sərgidə məişət tullantılarından hazırlanmış müxtəlif sənət nümunələri nümayiş etdirildi.[52]

51 "Azərbaycan əcnəbilərin gözü ilə". Müasir İncəsənət Muzeyində açılan fotosərgi Azərbaycanı tanımaq və təbliğ etmək baxımından mühüm mədəni hadisədir // "Mədəniyyət" qəzeti, 2011, 15 iyul.

52 "Tullantıdan sənətə" adlı beynəlxalq sərgi // Heydər Əliyev Fondunun rəsmi internet saytı. URL: https://heydar-aliyev-foundation.org/az/content/view/138/533/"Tullantıdan-sənətə"-adlı-beynəlxalq-sərgi. 19.08.2014.

Dünyanın məşhur "Christie's" hərrac evi 2012-ci ilin sentyabrında Heydər Əliyev Fondu və "YARAT!" Müasir İncəsənət Məkanı ilə birlikdə Azərbaycanda ilk sərgisini təşkil etdi. London, Nyu York və Dubayda keçirdiyi payız satışlarında iştirak üçün seçilmiş müxtəlif sənət əsərləri, əşyalar və eksponatların təqdim edildiyi sərgidə həmçinin "Christie's"in kolleksiyasına daxil olan XVIII əsrə aid Qarabağ xalçası da nümayiş etdirildi.

2012-ci ilin oktyabrında Müasir İncəsənət Muzeyində Heydər Əliyev Fondu, Müasir İncəsənət Muzeyi və "Statoyl" şirkətinin birgə layihəsi çərçivəsində bu şirkətin Azərbaycandakı fəaliyyətinin 20 illik yubileyi münasibətilə onun incəsənət kolleksiyasından olan müasir əsərlərdən ibarət "Üz-üzə" adlı portret sərgisi keçirildi. Sərgidə 10 müxtəlif ölkəni təmsil edən 16 fotoqraf, heykəltəraş və rəssamın 63 əsəri nümayiş etdirildi.

Heydər Əliyev Fondu və Müasir İncəsənət Muzeyi 2013-cü ilin yanvar ayında Bakının Nizami rayonunda yerləşən 1 nömrəli uşaq evi sakinlərinin əl işlərindən ibarət "Bacarıqlı əllərin böyük işləri" adlı sərgi təşkil etdi.

XX əsrin məşhur amerikan rəssamı Endi Uorholun əsərlərindən ibarət "Həyat, ölüm və gözəllik" mövzusunda sərgi 2013-cü ilin iyun ayında Fondun və Endi Uorhol Muzeyinin birgə dəstəyi ilə Heydər Əliyev Mərkəzində keçirildi. Sərgidə rəssamın 100-dək əsəri və qısa filmləri nümayiş etdirildi.

"YARAT!" Müasir İncəsənət Məkanı Heydər Əliyev Fondu ilə birlikdə 2013-cü ilin aprelində Parisdə Azərbaycan Mədəniyyət Mərkəzində müasir Azərbaycan incəsənətinə həsr olunmuş "Ev, doğma ev" mövzusunda sərgi təşkil etdi. Sentyabr-oktyabr aylarında Bakıda Müasir İncəsənət Muzeyində keçirilən sərgidə isə "ev" mövzusu ilə əlaqəli rəngkarlıq, fotoşəkil və heykəltəraşlıq işləri nümayiş etdirildi.

Əməkdar rəssam Sakit Məmmədovun 55 illik yubileyinə həsr edilmiş "Rənglər aləmində" sərgisi Fondun və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə 2013-cü ilin dekabr ayında açıldı. Sərgidə rəssamın 55 rəngkarlıq əsəri nümayiş olundu.

Azərbaycanın dünyada tanıdılması, beynəlxalq nüfuzunun artırılması, tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması Fondun qarşıya qoyduğu prioritet məsələlərdən biri idi. Həmin məqsədlə 2009-cu ilin noyabrında Avropa Parlamentinin mənzil qərargahında ilk dəfə olaraq Azərbaycan mədəniyyəti günləri təşkil edildi. 2010-cu ilin noyabr ayında Londonda "Azərbaycan xalçaları ilə nağıllar aləminə" adlı sərgi keçirildi.[53]

53 Londonda "Azərbaycan xalçaları ilə nağıllar aləminə" sərgisi // Heydər Əliyev Fondunun rəsmi internet saytı. URL: https: heydar-aliyev-foundation.org/az/content/view/120/1963/Londonda-"Azərbaycan-xalçaları-ilə-nağıllar-aləminə"-sərgisi. 25.07.2014.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin 20-ci ildönümü münasibətilə 2011-ci ildə Fransa, Rusiya, Almaniya, Vatikan və İtaliyada tədbirlər keçirildi. Aprelin 18-də Parisdə "Odlar yurdu Azərbaycanın müasir əsərləri" adlı sərginin açılışı oldu.[54] İyulun 16-da Fransanın San-Trope şəhərində Heydər Əliyev Fondunun dəstəyi və təşkilatçılığı ilə II Ramatüel klassik musiqi festivalı çərçivəsində "Azərbaycanın mədəni zənginlikləri" adlı sərgi keçirildi. İyulun 17-də Fondun dəstəyi ilə Azərbaycan musiqiçiləri Fransanın Ramatüel şəhərində keçirilən II Ramatüel klassik musiqi festivalında iştirak etdilər.

2012-ci ilin yanvarında Londonda "Bakıya uçuş. Müasir Azərbaycan incəsənəti" mövzusunda sərgi keçirildi. Layihə çərçivəsində Azərbaycan da daxil olmaqla 7 ölkədə 21 azərbaycanlı müəllifin rəngkarlıq, heykəltəraşlıq, qrafika, foto, video və performans janrlarında 100-dən çox əsəri nümayiş etdirildi.

Fransanın müxtəlif regionlarında 2012-2014-cü illərdə "Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri" layihəsi çərçivəsində sərgi və konsertlər təşkil olundu. Sərgilərdə ölkənin qədim və zəngin tarixinə, mədəniyyətinə dair eksponatlar – xalça və xalça məmulatları, misgərlik nümunələri, şəbəkələr, Azərbaycan milli geyimləri, milli musiqi alətləri, Fond tərəfindən fransız dilində nəşr olunmuş ədəbiyyat toplusu nümayiş etdirildi.

Azərbaycan Respublikasının xarici dövlətlərlə diplomatik əlaqələrinin qurulmasının 20-ci ildönümü ilə əlaqədar olaraq Heydər Əliyev Fondu 2012-ci ildə silsilə tədbirlər təşkil etdi. Bu tədbirlər Azərbaycanın keçdiyi yolun təqdimatı baxımından əhəmiyyətli oldu.

2013-cü ildə keçirilən 55-ci Ümumdünya təsviri incəsənət sərgisi Venesiya Biennalesində Azərbaycan pavilyonu Fond tərəfindən təşkil edildi. "Ornamentlər" devizi altında təqdim olunmuş pavilyonda Azərbaycanı Butunay Haqverdiyev, Fəxriyyə Məmmədova, Fərid Rəsulov, Rəşad Ələkbərov və b. təmsil etdilər.

Fransanın Kann şəhərində 2013-2014-cü illərdə keçirilən Azərbaycan mədəniyyəti günləri çərçivəsində sərgilər və konsertlər təşkil olundu. Fondun dəstəyi ilə Fransanın paytaxtında və bir sıra digər şəhərlərində Nizami Gəncəvinin 870, Məhsəti Gəncəvinin 900 illik yubileyinə həsr olunmuş tədbirlər keçirildi.

2013-cü ildə Almaniyanın Münhen, Ştutqart, Köln və Hamburq şəhərlərində "Azərbaycanı tanıdım" layihəsi çərçivəsində mədəniyyət günləri təşkil edildi.

Azərbaycanda tolerantlıq ənənələrinin qorunmasına xüsusi əhəmiyyət verən Fond "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsini həyata keçirdi, layihə

54 Parisdə "Odlar yurdu Azərbaycanın müasir əsərləri" sərgisi // Heydər Əliyev Fondunun rəsmi internet saytı. URL: https: heydar-aliyev-foundation.org/az/content/view/120/1968/Parisdə-"Odlar-yurdu-Azərbaycanın-müasir-əsərləri"-sərgisi. 25.07.2014.

çərçivəsində dini abidələrdə, ziyarətgahlarda və tikililərdə təmir-bərpa işləri aparıldı, mövzuya aid sərgilər təşkil olundu.[55]

2005-ci ildə Bakının Mərdəkan qəsəbəsində XVI əsrə aid Pir Həsən ziyarətgahında, 2006-cı ildə Binə qəsəbəsindəki Möhsün Səlim məscidində əsaslı təmir və bərpa işləri aparıldı. Gəncədəki Həzrəti Zeynəb məscidi 2006-cı ildə yenidən quruldu. Bakıdakı Müqəddəs Bakirə Məryəm kilsəsində 2007-ci ildə təmir-bərpa işləri aparıldı, kilsənin asma tavanı bədii şüşələrlə əvəz edildi və məbədin fasadı dəyişdirildi.

Fond və Roma katolik dini icması arasında 2008-ci ilin sentyabrında imzalanmış anlaşma memorandumu çərçivəsində Bakıdakı Müqəddəs Məryəm kilsəsinin asma tavan şüşələri dini mövzuda və klassik vitraj texnikasında işlənmiş bədii şüşələrlə əvəz edildi və məbədin fasadında keramik panno yerləşdirildi.

"Tolerantlığın ünvanı – Azərbaycan" layihəsinin digər tərkib hissəsi kimi Bakıda yaşayan yəhudi uşaqları üçün "Xabad-Or-Avner" Təhsil Mərkəzi inşa edildi.

2007-2009-cu illərdə Buzovna qəsəbəsindəki Cümə məscidində, 2012-2013-cü illərdə Binə qəsəbəsindəki İmam Rza və Mərdəkan qəsəbəsindəki Heydər Cümə məscidlərində əsaslı təmir və yenidənqurma işləri aparıldı. Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidində 2010-2013-cü illər ərzində əsaslı təmir və yenidənqurma işləri aparıldı. Qəbələdə yeni məscid inşa olundu.

Strasburq kafedralının XIV əsrə aid olan beş pəncərəsi 2009-cu ildə bərpa edildi. Fond 2011-2012-ci illərdə Fransanın müxtəlif regionlarındakı 20-dək kilsənin bərpasına maliyyə yardımı ayırdı. Rusiyanın Həştərxan şəhərində Müqəddəs Vladimir kilsəsinin qarşısındakı meydanda 2013-cü ildə Knyaz Vladimirin abidəsi ucaldıldı.

"Azərbaycan – tolerantlıq məkanı" adlı fotosərgi Nyu Yorkda BMT-nin, Parisdə isə UNESCO-nun mənzil-qərargahında və Azərbaycan Mədəniyyət Mərkəzində 2013-cü ildə, Moskvada Yəhudi Muzeyi və Tolerantlıq Mərkəzində 2014-cü ilin aprelində keçirildi. Sərgidə layihə çərçivəsində Azərbaycana dəfələrlə yaradıcı səfərlər etmiş görkəmli fotoqraf Reza Deqatinin Azərbaycanda dini tolerantlığı əks etdirən fotoşəkilləri nümayiş etdirildi.

Heydər Əliyev Fondu yerli əhəmiyyətli problemlərin həllində, infrastruktur layihələrin həyata keçirilməsində, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərilməsində yaxından iştirak edirdi. Fond tərəfindən Şamaxı şəhərində

55 Tolerantlığın ünvanı – Azərbaycan // Heydər Əliyev Fondunun rəsmi internet saytı. URL: https: heydar-aliyev-foundation.org/az/content/blog/139/Tolerantlığın-ünvanı-Azərbaycan.

müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri üçün yaşayış binası inşa edildi, Salyan şəhərində Qarabağ müharibəsi veteranları, əlil, aztəminatlı və çoxuşaqlı ailələr üçün yeni yaşayış massivi salındı. 2009-cu ildə Bakıda uşaq evlərində tərbiyə alan, yaşı 18-dən yuxarı olan qızlar üçün, 2013-cü ildə isə uşaq evləri və internat məktəblərinin məzunu olan gənclər üçün yaşayış binaları istifadəyə verildi.

Fond 2004-2014-cü illər ərzində Bakının Xəzər rayonu ərazisində bir sıra infrastruktur layihələri – Zirə, Binə, Türkan, Qala və digər qəsəbələrə yolların tikintisini, Binə qəsəbəsində yardımçı stansiyanın yenidən qurulmasını, qəsəbələrin su təchizatının yaxşılaşdırılmasını və parkların salınmasını həyata keçirdi.

Valideyn himayəsindən, ailə qayğısından məhrum olan uşaqların cəmiyyətə inteqrasiyasını asanlaşdırmaq, asudə vaxtlarını səmərəli təşkil etmək məqsədi ilə Fond mütəmadi olaraq xeyriyyə aksiyaları keçirirdi. Aksiyalar çərçivəsində körpələr və uşaq evlərinə, internat məktəblərinə müxtəlif yardım və hədiyyələr göndərilir, uşaqlar üçün konsert proqramları və əyləncəli tədbirlər təşkil edilirdi. Hər il orta məktəblərdə təhsildə xüsusilə fərqlənən, uşaq evlərində və internat məktəblərində tərbiyə alan, qaçqın və məcburi köçkün ailələrindən olan, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün Yeni il və Novruz şənlikləri keçirilirdi. Bundan əlavə, Qurban və Ramazan bayramlarında sosial baxımdan həssas olan ailələrə, uşaq evləri və internat məktəblərinə bayram hədiyyələri göndərilirdi.

Məktəblilərin dünyagörüşünü genişləndirmək, onların təhsilə və elmə marağını artırmaq məqsədi ilə təhsildə xüsusilə fərqlənən, müxtəlif müsabiqələrdə qələbə qazanan məktəblilərin dünyanın müxtəlif ölkələrinə səfərləri təşkil edilir, həmçinin digər ölkələrdən olan uşaqların Azərbaycana gəlməsinə və ölkənin tarixi, zəngin mədəniyyəti ilə tanış olmasına geniş imkan yaradılırdı. Belə ki, Fondun təşəbbüsü və dəstəyi ilə azərbaycanlı məktəblilərin Almaniya, Belçika, Fransa, Gürcüstan, Niderland və Rumıniyaya, ABŞ, Gürcüstan, Rumıniya və Rusiya Federasiyasından olan məktəblilərin isə Azərbaycana səfərləri təşkil edildi.

Fondun təqdimatı ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı 2007-ci ilin oktyabrında Azərbaycandan 15 nəfər fiziki qüsurlu ixtiraçıya mükafatlar verdi.

İkinci dünya müharibəsi veteranlarını da daim diqqətdə saxlayan Fond onlara sosial yardımlar edirdi.

2013-cü ildə Fondun təşəbbüsü ilə 1959-cu ildən fəaliyyət göstərən Şamaxı Şəhər İncəsənət Təhsili Mərkəzi üçün yeni bina inşa edildi.

Xarici ölkələrdə də bir sıra sosial layihələr həyata keçirən Fond Haiti, İran, Türkiyə və Pakistanda zəlzələnin, Rumıniyada təbii fəlakətin nəticələrinin ara-

dan qaldırılmasına yardım etdi. 2011-ci ilin sentyabrında Fransa Respublikasının Prezidenti Nikola Sarkozinin[56] dəstəyi və Fransa Terror Qurbanları Assosiasiyası, eləcə də Beynəlxalq Terror Qurbanları Təşkilatının təşəbbüsü ilə Parisdə terrorizm qurbanlarına həsr olunmuş 7-ci beynəlxalq konqresin keçirilməsinə maliyyə yardımı edildi. Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda 2012-ci ilin fevralında yenidən qurulmuş Dostluq parkı, 2012-ci ilin sentyabrında Həştərxanda Rusiya-Azərbaycan dostluq körpüsü, 2013-cü ildə Rusiyanın Volqoqrad şəhərində Volqoqrad-Bakı dostluq parkı istifadəyə verildi.[57]

Fond 2007-ci ildən başlayaraq hər il dünyanın bir sıra böyük şəhərlərində Xocalı soyqırımının ildönümü ilə bağlı aksiyalar keçirirdi. 2013-cü ilin fevralında Parisdə fransız rəssamı Reno Baltzinjerin Xocalıya həsr etdiyi rəsm əsərlərindən ibarət "Xocalı gecəsi" adlı sərginin vernisajı keçirildi.

Fondun təşəbbüsü ilə 2012-ci ilin fevralında Sarayevoda Srebrenitsa və Xocalı soyqırımı qurbanlarının xatirəsinə abidə ucaldıldı. Mart ayında "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində Bakıda Xocalı soyqırımının 20 illiyinə həsr olunmuş "Sonu olmayan dəhliz" filminin təqdimatı keçirildi.[58] Xocalı soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda memorial kompleksin yaradılması layihəsi xüsusi maraq doğurdu. 2012-ci ilin fevralında Xocalı soyqırımının iyirminci ildönümü ilə əlaqədar "Uşaqlar və müharibə" mövzusunda respublika rəsm sərgisi təşkil edildi.

Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarını və təcavüzkarlıq siyasətini dünya ictimaiyyətinə çatdırmaq, gələcək nəsillərin milli yaddaşını qorumaq və soyqırım qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədi ilə Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin yaradılması haqqında 2009-cu il 30 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncama əsasən, 2013-cü ilin sentyabrında istifadəyə verilmiş kompleksi Heydər Əliyev Fondu inşa etdi. 19 bölmədən ibarət abidə-muzeyin ekspozisiyasında 1918-ci ilin mart-iyul aylarında Bakı quberniyasının 5 qəzasında – Bakı, Şamaxı, Quba, Cavad və Göyçayda törədilmiş soyqırımın tarixi əks olunmuşdu.

Fondun ətraf mühitin mühafizəsi və ekoloji şəraitin yaxşılaşdırılması məqsədi ilə 2007-ci ildə həyata keçirdiyi "Hərəmiz bir ağac əkək!" aksiyası çərçivəsində ölkə ərazisində bir milyondan çox ağac əkildi. 2014-cü ildə Fond və İDEA İctimai Birliyinin birgə start verdiyi "Ağacların kəsilməsinə yox!" proqramı çərçivəsində

56 Nikolya Sarkozi (1955) – Fransa Respublikasının 23-cü Prezidenti (2007-2012).

57 Həştərxanda Rusiya-Azərbaycan dostluq körpüsü, 2013-cü ildə Rusiyanın Volqoqrad şəhərində Volqoqrad-Bakı dostluq parkı // Səs İnformasiya Agentliyi. URL: https: sia.az/az/news/politics/754779.html . 14.08.2019.

58 Xocalı soyqırımı haqqında "Sonu olmayan dəhliz" adlı sənədli filmin siqnal variantının təqdimatı keçirilmişdir // "Azərbaycan" qəzeti, 2012, 13 mart.

"Təbiətə təcili yardım" qaynar xətti və mobil qrupu yaradıldı. Ekoloji təhlükəsizliyin təmin edilməsi və ətraf mühitin mühafizəsi sahəsində gənclərin biliklərinin artırılması məqsədilə mütəmadi olaraq maarifləndirmə tədbirləri, iməciliklər, müsabiqə və turnirlər, sərgi və konfranslar keçirilir, yay məktəbləri təşkil olunurdu. Heydər Əliyev Fondunun, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının və Həştərxan Vilayət Administrasiyasının birgə təşkilatçılığı ilə Həştərxan şəhər məktəbliləri arasında 2012-ci ildə "Təbiətin mühafizəsi" mövzusunda inşa yazı müsabiqəsi keçirildi. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Heydər Əliyev Fondunun dəstəyi ilə ekologiyanın və təbii mühitin tarazlığının qorunması, ekoloji tarixin və ölkə ərazisindəki bioloji müxtəlifliyin mühafizəsində müstəsna əhəmiyyət daşıyan "Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası" layihəsini həyata keçirdi.

Fond informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi sayəsində informasiya cəmiyyətinə keçid üçün əlverişli şəraitin yaradılmasına, əhalinin bütün kateqoriyaları, o cümlədən fiziki qüsurlu və sağlamlıq imkanları məhdud olan insanlar üçün İKT-dən istifadənin genişləndirilməsinə, təhsil müəssisələrində kompüterləşdirilmiş otaqların yaradılmasına xüsusi diqqət yetirirdi.

2005-ci il dekabrın 9-da BMT-nin İnkişaf Proqramı ilə Heydər Əliyev Fondu arasında "Görmə qabiliyyətini itirmiş və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsi"nə dair əməkdaşlıq sazişi və layihə sənədi imzalandı. Layihənin məqsədi fiziki qüsuru olan insanların cəmiyyət həyatında fəal iştirakına, informasiya-kommunikasiya texnologiyaları vasitəsi ilə məlumat əldə etmək və biliklərini artırmaq imkanlarının genişləndirilməsinə, məşğulluğunun artırılmasına kömək göstərmək idi. Layihə çərçivəsində Nərimanov rayonundakı kor və zəif görən uşaqlar üçün respublika internat məktəbində müvafiq mərkəz istifadəyə verildi. Layihənin davamı olaraq 2010-2012-ci illərdə Naxçıvan, Gəncə və Yevlaxda məhdud fiziki imkanlı insanlar üçün regional informasiya mərkəzləri yaradıldı. 2012-ci ildə Fond Azərbaycan Gözdən Əlillər Cəmiyyətinə "Mini informasiya laboratoriyası" hədiyyə etdi.

Gürcüstanın Dmanisi şəhərində Fond tərəfindən 2008-ci ildə inşa edilmiş kompüter-tədris mərkəzi istifadəyə verildi.[59] 2010-cu ildə isə Bakıda Fondun dəstəyi, Təhsil Nazirliyi, UNESCO, "Microsoft" korporasiyası və "İntel" şirkətinin təşkilatçılığı ilə "Təhsil və texnologiya vasitəsilə iqtisadi inkişaf" mövzusunda

59 Gürcüstanın Dmanisi şəhərində kompüter-tədris mərkəzi // Heydər Əliyev Fondunun rəsmi internet saytı. URL: https: heydar-aliyev-foundation.org/az/content/view/112/2241/Gürcüstanın-Dmanisi-şəhərində-kompüter-tədris-mərkəzi.

beynəlxalq konfrans keçirildi. Konfransda Macarıstan, Norveç, Böyük Britaniya və digər ölkələrdən olan nümayəndələr iştirak etdilər.[60]

Heydər Əliyev Fondunun fəaliyyət istiqamətlərindən biri gənclərin fiziki sağlamlığına qayğı göstərilməsi idi. Gənclərin hərtərəfli inkişafına diqqətlə yanaşan Fond uşaq və yeniyetmələrdə idmana marağın artırılması, onların sağlam ruhda tərbiyə edilməsindən ötrü müxtəlif layihələr həyata keçirirdi. Fondun təşəbbüsü ilə inşa olunan orta məktəb və məktəbəqədər müəssisələrdə idman zalları, futbol meydançaları, yeni salınan parklarda mini stadionlar, idman qurğuları ilə təchiz olunmuş sahələr yaradıldı, idmana dair bir sıra əyani vəsaitlər və nəşrlər paylandı.

İdmanın inkişafına xüsusi diqqət yetirən Fondun dəstəyi ilə Bakıda 2007-2008-ci illərdə Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Prezident kuboku" beynəlxalq şahmat festivalı keçirildi. Dünyanın müxtəlif ölkələrindən şahmatçıların qatıldığı festivalda beynəlxalq dərəcəli qrossmeysterlər və məşhur idman ustaları da iştirak etdilər. Müstəqillik illərində Olimpiya və Paralimpiya oyunlarında medal qazanmış Azərbaycan idmançıları Fondun aylıq təqaüdlərinə və diplomlarına layiq görüldülər.

Ucar şəhərində 2011-ci ilin oktyabrında müasir üslubda şahmat məktəbi açıldı. 2012-ci ilin may ayında Bakının Zirə qəsəbəsində idman kompleksi, həmin ilin sentyabrında isə Binə qəsəbəsində yeni stadion istifadəyə verildi.

Heydər Əliyev Fondu Dağlıq Qarabağ münaqişəsi, bütövlükdə Azərbaycan haqqında həqiqətlərin dünyaya çatdırılmasında geniş fəaliyyət göstərirdi. Azərbaycan tarixinə dair məlumatların, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin, Xocalı soyqırımının, münaqişə nəticəsində Azərbaycana vurulan ekoloji, sosial-psixoloji, iqtisadi və maddi-mənəvi zərərin dünya ictimaiyyətinə çatdırılması Fondun əsas hədəflərindən biri idi. Bu məqsədlə xarici ölkələrdə tədbirlər keçirildi, sərgilər təşkil olundu, müxtəlif dillərdə buklet və kitablar nəşr edildi. Bunlara misal olaraq "Qarabağ həqiqətləri" kitabçasını (rus, ingilis, fransız, alman, macar, yapon dillərində), "Müharibə və tarixi-mədəniyyət abidələrimiz", "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" (ingilis dilində), Y.Pompeyevin "Qarabağ gündəliyi" (rus dilində), "Quba. Aprel-may 1918-ci il. Müsəlman qırğınları sənədlərdə" (Azərbaycan, rus, ingilis dillərində) və "Bakı. Mart 1918-ci il. Azərbaycan qırğınları sənədlərdə" (Azərbaycan, rus, ingilis dil-

60 Əkbərova S. "Təhsil və texnologiya vasitəsilə iqtisadi inkişaf" mövzusunda beynəlxalq konfrans // "Azərbaycan müəllimi" qəzeti, 2010, 26 noyabr.

lərində) kitablarını, "Azərbaycan qırğınları şəkil və sənədlərdə" fotoalbomunu (Azərbaycan, rus, ingilis, türk dillərində) göstərmək olar.[61]

Fond dünya ədəbiyyatı incilərinin Azərbaycan dilinə, klassik və müasir Azərbaycan ədəbiyyatı nümunələrinin isə xarici dillərə tərcümə edilərək nəşr olunmasına, ölkənin tarixi həqiqətlərini, milli mədəniyyət və incəsənəti əks etdirən çoxsaylı çap məhsullarının hazırlanmasına xüsusi diqqət verirdi. Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən kitablar nəşr edildi.

2010-cu ilin martında "Azərbaycan" kitabı çap olundu. Ölkə haqqında müfəssəl məlumat vermək məqsədi ilə hazırlanmış nəşrdə Azərbaycan xalqının qədim tarixi, mədəniyyəti, ənənələri, etnoqrafik xüsusiyyətləri ilə yanaşı, müasir həyatını əks etdirən 1000-dən çox fotoşəkil toplanmışdı. İlkin olaraq Azərbaycan dilində nəşr olunmuş kitab rus, ingilis, fransız, alman, italyan və ərəb dillərinə tərcümə edildi.

Azərbaycanın tarixi, təbiəti, mədəniyyəti, incəsənəti və kulinariyasından bəhs edən çoxsaylı açıqcalar, kitabçalar və kitablar 2004-2014-cü illər ərzində müxtəlif dillərdə nəşr edildi. Fond mədəniyyət sahəsindəki fəaliyyətində Azərbaycan xalqının mədəni ənənələri və tarixində dərin köklərə malik olan muğam sənətinin inkişafına və təbliğinə xüsusi önəm verirdi. Muğamı qorumaq, inkişaf etdirmək, onun gözəlliyini və dərin fəlsəfəsini gələcək nəsillərə çatdırmaq məqsədi ilə "Azərbaycan muğamları" layihəsi çərçivəsində bir sıra nəşrlər: "Qarabağ xanəndələri", "Muğam ensiklopediyası", "Azərbaycan muğamı", "Muğam aləmi" layihələri işıq üzü gördü. 24 virtuoz muğam ifaçısının səsləndirdiyi muğam parçalarından ibarət "Qarabağ xanəndələri" albomunun təqdimat mərasimi 2005-ci ilin martında Parisdə UNESCO-nun mənzil-qərargahında keçirildi. Azərbaycan musiqisinə, onun görkəmli nümayəndələrinə həsr edilmiş nəşrlər hazırlandı.

Azərbaycan ədəbiyyatının ən gözəl nümunələrinin xarici ölkələrin oxucularına çatdırılması və eyni zamanda, müxtəlif xalqlara məxsus dəyərli əsərlərin Azərbaycan dilinə tərcümə olunub nəşr edilməsi həyata keçirildi. Nizami Gəncəvinin və Məhsəti Gəncəvinin yubileyləri münasibəti ilə çoxsaylı nəşrlər işıq üzü gördü.

Nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrinin qurulmasına və birgə layihələrin reallaşdırılmasına xüsusi önəm verən, fəaliyyətini Azərbaycandan kənarda genişləndirən Fondun ABŞ, Rumıniya, Rusiya Federasiyası və Türkiyədə nümayəndəlikləri açıldı.

61 Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması // Heydər Əliyev Fondunun rəsmi internet saytı. URL: https: heydar-aliyev-foundation.org/az/content/view/96/2034/Azərbaycana-qarşı-müharibə%3A-mədəni-irsin-hədəfə-alınması//ru/content/rss/.

Fond çoxsaylı beynəlxalq konfranslar keçirməklə həm də müxtəlif mövzuların müzakirəsi üçün platformalar yaratdı. 2005-ci ilin avqust ayında Fond UNESCO ilə birgə "UNESCO – Azərbaycan: gələcəyə körpü" mövzusunda konfrans keçirdi. Konfransda Azərbaycanın təhsil sistemində aparılan islahatlar, Avropa təhsil sisteminə inteqrasiya və digər məsələlər müzakirə olundu, təhsil sahəsində əməkdaşlığa dair memorandum imzalandı.[62]

"Avrasiyada mədəniyyət müxtəlifliyi Azərbaycan – sivilizasiyalararası dialoqun keçmişi və bu günü" XIII beynəlxalq konfrans isə Fondun daha bir uğurlu nailiyyəti oldu. Azərbaycanın tarixi və mədəni ənənələrini, Tarixi İpək Yolu regionundakı rolunu nəzərə alan Latın Mədəniyyəti Akademiyası özünün sayca XIII konfransını Fond ilə birgə 2006-cı ilin aprel ayında Bakıda keçirdi. 30-dan çox latın mənşəli xarici ölkədən görkəmli mədəniyyət və ədəbiyyat xadimlərinin iştirak etdiyi konfransda Azərbaycanda din-dövlət münasibətləri, mövcud qanunvericilik bazası, adət-ənənələr, dinlərin qarşılıqlı münasibətləri, dini sekta və qurumlarla iş təcrübəsi, tolerantlıq mövzularında məruzələr dinlənildi.

Bakıda İslam Konfransı Təşkilatının Dialoq və Əməkdaşlıq Naminə Gənclər Forumu ilə Fond tərəfindən 2007-ci ilin noyabrında təşkil olunmuş "Gənclər sivilizasiyaların alyansı naminə" konfransı keçirildi.[63] Beynəlxalq konfrans günlərində elm, mədəniyyət və sosial sahələrdə müxtəlif sivilizasiyaların tarixi, qarşılıqlı münasibətləri, onların siyasi və sosial-mədəni tərəfləri haqqında məruzələr edildi. Mərasimin sonunda beynəlxalq konfransın yekun sənədi olan Nəsillərarası Alyans Bakı bəyannaməsi qəbul olundu.

Bakıda Dünyada Savadlılığın Dəstəklənməsi üzrə UNESCO-nun regional konfransları silsiləsindən "Avropada subregional çərçivədə savadlılıq problemlərinə baxış: tərəfdaşlıq əlaqələrinin qurulması və innovativ yanaşmaların tətbiqinə dəstək" mövzusunda 2008-ci ilin may ayında keçirilən toplantıda savadsızlıq probleminə daha geniş yanaşmağın vacibliyi vurğulandı, savadın ölçülməsi məsələsinin işlənib hazırlanması və istifadəsi haqqında təcrübələrdən danışıldı, Avropa regionunda savadın qiymətləndirilməsi üzrə məlumatların yaradılması və istifadəsi üzrə gələcək beynəlxalq və yerli planlar müzakirə edildi.

Fondun təşəbbüsü, UNESCO və ICESCO-nun dəstəyi ilə Bakıda 2008-ci ilin iyun ayında "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda keçirilən beynəlxalq forumda dünyanın müxtəlif ölkələrindən 300-dən çox nümayəndə, o cümlədən Polşa, Latviya, Cənubi Afrika Respublikası, Anqola və s. ölkələrin birinci xanımları, ICESCO-nun Baş direktoru, UNESCO-nun

62 Xoşməramlı səfir Mehriban xanım Əliyevanın fəaliyyəti // UNCECO. URL: https: unesco.preslib.az/az/page/wvtWNK2Sna.

63 Bakıda Heydər Əliyev Fondunun dəstəyi ilə Gənclər sivilizasiyaların alyansı naminə təşəbbüsü çərçivəsində beynəlxalq konfrans başlanmışdır // "Xalq qəzeti", 2007, 2 noyabr.

xoşməramlı səfirləri iştirak edirdilər. Forumun sonunda dünya dövlətləri-ni münaqişələrin həllində və sülhməramlı proseslərdə qərarların qəbulunda qadınların iştirakının artırılmasına çağıran Bakı bəyannaməsi qəbul olundu.

2008-ci ilin sentyabr ayında Bakıda dünya gənclərinin 4-cü məşğulluq sammiti keçirildi.[64] Sammitin məqsədi gənclərin işsizlik və səmərəli məşğulluq problemlərinin həlli istiqamətində dünyada daha fəal işin aparılmasına nail olmaq idi. Yüzdən çox ölkədən 600 nümayəndənin qatıldığı Bakı sammitində yeni iş yerlərinin yaradılması, xüsusi dövlət proqramlarının qəbul edilməsi və icrası, ətraf mühit problemlərinin həllində gənc liderlərin iştirakı, sahibkarlığın cəmiyyətin inkişafında rolu və digər məsələlər müzakirə olundu.

Azərbaycan hökuməti, Heydər Əliyev Fondu, BMT-nin Uşaq Fondu və "Azercell" şirkətinin birgə təşkilatçılığı ilə Azərbaycanda Uşaq ilinə və BMT-nin Uşaq Hüquqları haqqında konvensiyasının 20 illiyinə həsr olunmuş "Azərbaycanda uşaqların müdafiəsi islahatı" üzrə milli konfrans 2009-cu ilin oktyabr ayında Bakıda keçirildi.[65]

Uşaqların rifahının yaxşılaşdırılması, hüquqlarının qorunması, cəmiyyətdə hərtərəfli və ahəngdar inkişafı, onlara təhsil və səhiyyə xidmətlərinin göstərilməsi, valideyn himayəsindən məhrum uşaqların ailə mühitində yaşamaq hüququnun təmin edilməsi baxımından əhəmiyyət kəsb edən konfransda uşaq hüquqlarının qorunması ilə bağlı müxtəlif mövzularda məruzələr dinlənildi, bu sahədə yaradılmış müstəqil monitorinq mexanizmi, həyata keçirilmiş tədbirlər və əldə olunmuş nəticələr barədə ətraflı məlumat verildi.

Azərbaycan hökuməti və UNICEF ilə birgə layihə çərçivəsində 2011-ci ilin sentyabrında keçirilən və 20-dən çox ölkədən nümayəndələrin iştirak etdiyi "Təcriddən inteqrasiyaya doğru" mövzusunda beynəlxalq konfransda əlilliyi olan uşaqların cəmiyyətə inteqrasiyasını həyata keçirmək, bu sahədə aparılan islahatlara dəstək vermək və digər məsələlər müzakirə olundu.[66]

Heydər Əliyev Fondu 2015-ci ildən sonra da elm, təhsil, səhiyyə, mədəniyyət, sosial, idman, ətraf mühitin qorunması, Azərbaycanın beynəlxalq aləmdə təbliği və b. istiqamətlərdə gördüyü işləri davam etdirdi. Həmin ildə fond tərəfindən Fransa, Almaniya və digər ölkələrdə Azərbaycan mədəniyyət günlərinin təşkili "yumşaq güc" siyasətinin həyata keçirilməsi oldu. Birinci Avropa oyunlarının təbliği və tanıdılması məqsədi ilə Rumıniya, İtaliya, Rusiya, Belçika və

64 Bakıda dünya gənclərinin 4-cü məşğulluq sammiti işə başlamışdır // Azərtac. 2008, 24 sentyabr. URL: https: azertag.az/xeber/bakıda_dunya_ganclarının_4_cu_masgulluq_sammıtı_ısa_baslamısdır-419206.

65 Azərbaycanda uşaqların müdafiəsi islahatı üzrə milli konfrans işə başlamışdır // "Azərbaycan" qəzeti, 2009, 23 oktyabr.

66 Bakıda "Təcriddən inteqrasiyaya doğru" adlı beynəlxalq konfrans keçirilmişdir // "Azərbaycan" qəzeti, 2011, 21 sentyabr.

İngiltərədə keçirilən təqdimatlar həm də Azərbaycan mədəniyyətinin təbliğinə çevrildi. Fransa, Vatikan, Belçika, Rusiya və digər dövlətlərdə Heydər Əliyev Fondunun təşkil etdiyi tədbirlər Azərbaycanın təsir imkanlarının artırılmasında mühüm rol oynadı. Fondun Rusiya nümayəndəliyinin fəaliyyəti iki ölkə ictimaiyyətinin daha da yaxınlaşmasında xüsusi yer tuturdu.

2016-2017-ci illərdə Fond İsveçrə, Fransa, Pakistan, İtaliya və bir sıra digər ölkələrdə mədəni tədbirlər, humanitar xarakterli aksiyalar təşkil etdi. 2017-ci ildə İtaliyada Birinci Azərbaycan film festivalının, Kannda Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi, Fransada "Azərbaycan parkı"nın və Xurşidbanu Natəvanın abidəsinin açılışı, Çin Xalq Respublikasındakı müxtəlif təşkilatlarla mədəni diplomatiya sahəsində əlaqələrin qurulması Fondun Azərbaycanın beynəlxalq aləmdə təbliğindən ötrü həyata keçirdiyi əhəmiyyətli işlər oldu.

Fond tərəfindən 2018-ci ildə Vatikanda Müqəddəs Sebastian katakombaları bərpa edildi, Şanxay Əməkdaşlıq Təşkilatının mənzil qərargahında Azərbaycan mədəniyyəti günləri keçirildi, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi Parisdə, Varşavada, Romada, Vatikanda, Londonda, Tbilisidə təntənə ilə qeyd edildi, Fransa Beynəlxalq Diplomatiya Akademiyasında, Berlində Şarlottenburq sarayında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş konfrans keçirildi, Rusiyanın Həştərxan şəhərində Azərbaycan Biznes Mərkəzinin, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Romadakı baş ofisində "Azərbaycan otağı" açıldı, Türkiyənin Kayseri şəhərində Xocalı parkı yaradıldı və Xocalı şəhidləri abidəsi qoyuldu.

2019-cu ildə Fond dünyanın müxtəlif ölkələrdə Azərbaycanın görkəmli şairi İmadəddin Nəsiminin yubileyinə həsr edilmiş tədbirlər keçirdi.

Fondun 2020-ci ildə UNESCO-nun baş qərargahında Azərbaycan xalçaları sərgisini keçirməsi Azərbaycan xalqının maddi mədəniyyətinin dünyada tanıdılması istiqamətində əhəmiyyətli addımlardan biri oldu. Həmin ildə Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana Alban kilsəsinin bərpası, Vatikanda Müqəddəs Pyotr Kilsəsində "Roma Papası I Leo ilə Hun imperatoru Atillanın görüşü" barelyefini bərpası işlərinin həyata keçirilməsi Azərbaycan multikulturalizminin, tolerantlığının, humanizminin göstəriciləri oldu. Bütün bu tədbirlər uydurma erməni təbliğatına zərbə vuraraq, sonradan müharibədə qələbə qazanılmasında "yumşaq güc" kimi müstəsna rol oynadı.

Azərbaycan ictimai və mədəni həyatında özünəməxsus yer tutan Heydər Əliyev Fondunun fəaliyyətlərinin böyük tarixi əhəmiyyəti vardır. Həmin fəaliyyət sayəsində Azərbaycan xalqı, dövləti, mədəniyyəti haqqında həqiqətlər daha geniş yayılır, mövqeləri möhkəmlənir, rolu artır və dünya Ermənistanın apardığı təbliğatın uydurma olduğunu görür.

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, Azərbaycan xalqının Ümummilli liderinin vəfatından sonra onun irsini qoruyub saxlamaq, gənc nəslə təbliğ etmək və yaşatmaq məqsədilə Heydər Əliyev Fondu yaradılmışdır. Tanınmış ictimai xadim Mehriban Əliyevanın rəhbərlik etdiyi Fond təhsil, səhiyyə, gənclərin fiziki sağlamlığı, Azərbaycan haqqında həqiqətlərin, işğalçı Ermənistanın Xocalıda törətdiyi soyqırımına dair gerçəklərin bütün dünyada tanıdılması istiqamətində fəaliyyət göstərmişdir. Fondun fəaliyyəti Azərbaycan Respublikasının ictimai və mədəni həyatının tərkib hissələrindən biri olmuşdur.

Geniş beynəlxalq əlaqələr quran Fondun xarici ölkələrdəki humanitar fəaliyyəti rəğbətlə qarşılanmışdır. Beynəlxalq qeyri-hökumət təşkilatları ilə birgə layihələr həyata keçirilmişdir.

Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Fondun fəaliyyəti "zərif, yumşaq güc" olaraq Azərbaycan dövlətinin beynəlxalq mövqelərini möhkəmləndirmişdir. Mədəniyyət diplomatiyası Azərbaycanın siyasi və digər sahələrdə uğurlar əldə etməsinə, qarşıya qoyulan başlıca məqsədə nail olmasına kömək etmişdir.

3-cü FƏSİL

2008-ci İLİN PREZİDENT SEÇKİLƏRİ: DAXİLİ VƏ XARİCİ SİYASƏTDƏ YENİLİKLƏR

3.1. 2008-ci ilin prezident seçkiləri

Ölkədə 2008-ci il oktyabrın 15-də keçiriləcək növbəti prezident seçkilərinə ciddi hazırlıq işləri görülürdü. Mərkəzi Seçki Komissiyası iyulun 28-də keçirilən iclasında prezident seçkilərinin keçirilməsinə dair əsas hərəkət və tədbirlərin təqvim planını təsdiq etdi. 125 seçki dairəsində seçki komissiyaları, 5149 daimi seçki məntəqəsi yaradıldı və məntəqə seçki komissiyaları formalaşdırıldı. Bundan əlavə, Azərbaycan Respublikasının xaricdə olan diplomatik nümayəndəliklərində 33 seçki məntəqəsi yaradıldı. Daimi və müvəqqəti seçki məntəqələrinin sayı cəmi 5359 oldu.[67] Avqust ayından başlayaraq sentyabrın 5-nə kimi prezident seçkilərində iştirak etmək istəyən şəxslərin namizədliyi irəli sürüldü. Namizədlər siyasi partiya, siyasi partiya blokları, seçicilərin təşəbbüs qrupu və ya öz təşəbbüsü ilə irəli sürülürdü.

İlkin mərhələdə seçkilərdə namizədliyin təsdiq edilməsi və qeydiyyatı üçün 21 şəxs MSK-ya müraciət etmişdi. 6 namizəd partiya, 1 namizəd seçicilərin təşəbbüs qrupu tərəfindən, digərlərinin namizədliyi isə öz təşəbbüsləri ilə irəli sürülmüşdü. Bütün namizədlərə imza vərəqələri verilmişdi. Qeydiyyata alınmaqdan ötrü namizəd ən azı 40 min seçici imzası toplamalı idi. Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə namizədlərin təsdiq edilməsi üçün imzaların toplanması müddəti sentyabrın 5-də başa çatdı. İddiaçılardan yalnız 9 nəfər imza vərəqələrini vaxtında təqdim edə bildi. Toplanmış imzaların yoxlanılması nəticəsində prezidentliyə 7 nəfərin namizədliyinin qeydə alınması barədə qərar qəbul edildi. Bunlar Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan

67 2008-ci il Azərbaycan Respublikasının prezident seçkiləri haqqında // Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyasının iştirakçısı olan dövlətlərdə Demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi beynəlxalq institutunun saytı. http:iacis.az/?page_id=2680.

Partiyasının sədri İlham Əliyev, Ümid Partiyasının sədri İqbal Ağazadə, Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev, Böyük Quruluş Partiyasının sədri Fazil Qəzənfəroğlu Mustafayev, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev, Azərbaycanın Liberal Demokrat Partiyasının sədri Fuad Əliyev və müstəqil namizəd Qulamhüseyn Əlibəyli idilər. Bir neçə min imza etibarsız hesab edildiyindən digər iki namizəd qeydə alınmadı.

Seçkilərlə əlaqədar olaraq mətbuatda təşviqat kampaniyasının gedişini izləməkdən ötrü MSK nəzdində mətbuat qrupu yaradıldı. Qrupun tərkibinə MSK üzvləri, aparıcı televiziya kanallarının, informasiya agentliklərinin və qəzetlərin əməkdaşları daxil idilər. Televiziya və radio kanallarında namizədlər üçün həm ödənişli, həm də ödənişsiz efir vaxtı ayrılmış, onlara bərabər imkanlar yaradılmışdı.

Prezident seçkilərinin təşkili məqsədilə dövlət büdcəsindən 23 mln. 500 min manat vəsait ayrılmışdı. Azərbaycanın seçki təcrübəsində ilk dəfə olaraq prezident seçkiləri günü seçkilərin gedişini müşahidə etmək üçün 500 seçki məntəqəsində müşahidə kameraları quraşdırılmışdı. Kameralar respublikada olan seçki məntəqələrinin 10%-ni əhatə edirdi.[68]

Digər bir yenilik seçki plakatları ilə bağlı idi. Əvvəlki seçkilərdən fərqli olaraq, bu dəfə plakatlar yalnız seçki komissiyaları tərəfindən ayrılmış yerlərdə xüsusi quraşdırılmış planşetlərdə asılmışdı. Təşviqat materiallarının tarixi və memarlıq binalarında yapışdırılması qadağan edilmişdi. Plakatların özəl mənzillər, evlər və dükanların divarlarında yapışdırılmasından ötrü həmin obyekt sahibinin razılığı olmalı idi.

Seçkinin daha şəffaf keçirilməsindən ötrü 34 xarici KİV-in 90-dan çox nümayəndəsi Mərkəzi Seçki Komissiyasında müşahidəçi olaraq qeydiyyatdan keçmişdi. Müraciət edənlər arasında TRT (Türkiyə), NTV, STV, "Mir" (Rusiya), "Rustavi-2", "İmedi" (Gürcüstan), "Əl-Cəzirə" (Qətər), "Milli Rumıniya" (Rumıniya) telekanalları, "Anadolu", "İhlas" (Türkiyə), İRNA (İran), "Vesti" (Rusiya), "France Press" (Fransa), "Associated Press", "Blomberg", ERA (ABŞ), "Reuters" (İngiltərə) agentlikləri, "Rossiyskaya qazeta", "Azerros" (Rusiya), "El Pais" (İspaniya) qəzetləri və digər media quruluşları var idi.[69]

Seçkiləri müşahidə etmək üçün MSK-da 1233 beynəlxalq müşahidəçi qeydə alınmışdı. Müxtəlif ölkələri və təşkilatları təmsil edən müşahidəçilərin arasında ATƏT, Avropa Şurası, Avropa Şurası Parlament Assambleyası, Avropa İttifaqı, Avropa Parlamenti, Müstəqil Dövlətlər Birliyi Parlament Assambleyası, GUAM, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu və başqa beynəlxalq

68 Yenə orada.
69 Yenə orada.

təşkilatların nümayəndələri var idi. Qeydiyyatdan keçən yerli müşahidəçilərin sayı 40 min nəfəri ötürdü.

2005-ci ildə keçirilən parlament seçkilərindən fərqli olaraq, bu dəfə seçkilərdə exit-poll yerli təşkilatlar olan Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası, ELS Müstəqil Araşdırmalar Mərkəzi, Vətəndaş Cəmiyyəti Uğrunda Müstəqil Məsləhət və Yardım Mərkəzi və Rəy Monitorinq Mərkəzi tərəfindən həyata keçirilirdi. Səsvermədə şəffaflığın təmin edilməsi məqsədi ilə Danimarkadan Azərbaycana gözlə görünməyən mürəkkəb gətirilmişdi. Seçkilərdə əlavə şəffaf seçki qutuları və ultra-bənövşəyi detektorlardan (lampalar) istifadə olunurdu. Görmə qabiliyyəti zəif olan seçicilərin müstəqil səs verməsi üçün bütün seçki məntəqələri xüsusi əlifba vasitəsilə hazırlanmış trafaretlərlə (Brayl əlifbası) təmin edilmişdi.

Mərkəzi Seçki Komissiyası tərəfindən 4 milyon 927 min 561 seçici qeydə alınmışdı.[70] Onlardan 52%-i qadın, 48%-i isə kişi idi. Seçici siyahıları tərtib edilmiş və müəyyənləşdirilmiş yerlərdə asılmışdı.

Namizədlərə təbliğat-təşviqat kampaniyasını aparmaq üçün bərabər imkanlar yaradılmışdı. Seçicilərlə açıq və qapalı məkanlarda görüş yerləri müəyyənləşdirilmişdi. Televiziya və radio kanallarında debatlar təşkil edilirdi.

Seçkilərdə 3 milyon 642 min 874 seçici, yəni seçicilərin 75,64%-i iştirak etmişdi. Hakim Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevin lehinə 88,73% səs verilmişdi. İqbal Ağazadə 2,86%, Fazil Qəzənfəroğlu 2,47%, Qüdrət Həsənquliyev 2,28%, Qulamhüseyn Əlibəyli 2,23%, Fuad Əliyev 0,78% və Hafiz Hacıyev isə 0,65% səs toplamışdılar.[71]

Beləliklə, prezident vəzifəsi uğrunda mübarizədə yeddi namizəd arasında İlham Əliyev böyük üstünlüklə qələbə qazandı. Xalqın İlham Əliyevə yenidən etimad göstərməsi Heydər Əliyev siyasətinin davam etdirilməsi, 2003-cü ildən sonra ölkənin sabit və davamlı inkişafını təmin etməsi, sosial-iqtisadi siyasətin uğurla aparılması, xalqın həyat şəraitinin yaxşılaşdırılması istiqamətində atılan addımlar və səmərəli xarici siyasət xəttinin yürüdülməsi ilə bağlı idi. Prezident İlham Əliyevin dərin biliyi, bacarığı və zəkası ilə Azərbaycanı beynəlxalq aləmdə yüksək səviyyədə təmsil etməsindən millət qürur duyurdu.

Oktyabrın 24-də Heydər Əliyev sarayında İlham Əliyevin təntənəli andiçmə mərasimi keçirildi. Mərasimdə dövlət və hökumət rəsmiləri, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları, siyasi partiyaların, ictimai təşkilatların, ölkə ictimaiyyətinin nümayəndələri, xarici ölkələrin səfirləri, Gürcüstan

70 Azərbaycan Respublikası prezidentinin seçkiləri 15 oktyabr 2008-ci il səsvermənin nəticələri haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Protokolu // "Azərbaycan" qəzeti, 2008, 21 oktyabr.

71 Yenə orada.

Prezidenti Mixeil Saakaşvili, Türkiyə Cümhuriyyəti Baş nazirinin müavini, dövlət naziri Cəmil Çiçək,[72] Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkin,[73] MDB İcraiyyə Komitəsinin sədri – icraçı katib Sergey Lebedev,[74] Polşa Respublikası Prezidenti Administrasiyasının rəhbəri Pyotr Kovnaski iştirak edirdilər.

Konstitusiyaya və "Qurani Şərif"ə əl basaraq and içən İlham Əliyev etdiyi nitqində seçkilərdə namizədliyini dəstəkləmiş bütün siyasi qüvvələrə, o cümlədən müxalifət nümayəndələrinə təşəkkürünü bildirdi. O, Azərbaycanda siyasi mübarizənin yalnız sivil yollarla aparılacağına inamını ifadə edərək qələbə münasibəti ilə təbrik ünvanlamış digər namizədlərə təşəkkürünü bildirdi. Qarşıdakı illər üçün proqram xarakterli nitqində Prezident İlham Əliyev dedi:

"5 il bundan əvvəl andiçmə mərasimində mən Azərbaycan xalqına söz vermişdim ki, Azərbaycanın hərtərəfli inkişafı üçün fəal çalışacağam. Söz vermişdim ki, Azərbaycanda Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Çünki bu, Azərbaycanın bu günü və sabahı üçün, gələcəyi üçün yeganə siyasətdir. Bu siyasət Azərbaycanı böyük bəlalardan qurtardı. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf etmişdir. Azərbaycan xaosdan, böhrandan, anarxiyadan inkişafa, sabitliyə doğru böyük addımlar atmışdır. Məhz onun rəhbərliyi altında Azərbaycanda dövlətçilik ənənələri qurulmuşdur, Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirmiş, Azərbaycanda sabitlik yaradılmış və inkişaf başlamışdır. Bu gün bir daha demək istəyirəm ki, növbəti 5 il ərzində mən bu siyasətə sadiq qalacağam və bu yoldan dönməyəcəyəm".[75]

Xarici siyasət sahəsində qarşıda dayanan vəzifələrdən danışan dövlət başçısı bildirdi ki, Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da dərinləşmiş, üzv olduğu təşkilatlarda çox fəal iştirak etmiş və beləliklə, ölkənin beynəlxalq mövqeləri də möhkəmlənmişdir. Növbəti illərdə də çevik xarici siyasətin yürüdüləcəyini və prioritet məsələnin Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həlli olacağını bəyan edən Prezident İlham Əliyev qətiyyətlə vurğuladı:

"Bu həll ancaq və ancaq beynəlxalq hüquq normaları və prinsipləri əsasında ola bilər, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Azərbaycanın ərazi

72 Cəmil Çiçək (1946) – Türkiyə Cümhuriyyəti Baş nazirinin müavini (2007-2011). TBMM sədri (2011-2015).

73 Sergey Narışkin (1954) – Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri (2008-2011). Rusiya Federasiyası Dövlət Dumasının sədri (2011-2016). Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru (2016-cı ildən).

74 Sergey Lebedev (1948) – Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru (2000-2007). MDB-nin icra katibi (2007-ci ildən).

75 Əliyev İ.H. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində nitqi // İnkişaf – məqsədimizdir. 33-cü kitab. Bakı, 2016, s. 264-265.

bütövlüyü danışıqların mövzusu deyil, olmayıb və heç vaxt olmayacaqdır. Dağlıq Qarabağa heç vaxt – nə bu gün, nə sabah, nə 10 ildən sonra, nə 50 ildən sonra müstəqillik verilməyəcəkdir, Azərbaycan bunu heç vaxt tanımayacaqdır".[76]

Münaqişənin diplomatik-siyasi yollarla tənzimlənməsi ilə yanaşı, hərbi vasitələrlə də həllinin mümkünlüyü məsələsinə toxunan, ordunun gücünün artırıldığına diqqəti cəlb edən ölkə rəhbəri qüdrətli ordu potensialı yaratmaqla Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsini yaxınlaşdırdığını birmənalı olaraq belə bəyan etdi:

"Ordumuzun hazırlıq, peşəkarlıq səviyyəsi xeyli dərəcədə artıbdır. Mən dəfələrlə hərbi hissələrdə, o cümlədən düşmənlə təmas xəttində yerləşən səngərlərdə əsgərlərlə, zabitlərlə görüşlər keçirmişəm. Görmüşəm ki, həm döyüş qabiliyyəti, həm də ki, döyüş ruhu çox yüksəkdir. Azərbaycanda ordu quruculuğu prosesi bundan sonra da sürətlə gedəcəkdir. Ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi üçün çox böyük işlər görülübdür... Beləliklə, biz çox güclü ordu potensialı yaratmaqla Ermənistan –Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini yaxınlaşdırırıq".[77]

Bununla da ölkə rəhbəri Dağlıq Qarabağ münaqişəsinin həllindən ötrü güc amilinin mühüm rol oynayacığını bildirdi və Minsk qrupu həmsədrlərinə də xəbərdarlıq etdi. Dövlət büdcəsində müdafiə xərclərinin artırılması başlıca məqsədin reallaşdırılmasına yönəlmişdi.

Siyasi islahatların aparılmasından bəhs edən Prezident qeyd etdi ki, siyasi sistem təkmilləşdirilməli və bütün inkişaf etmiş demokratik ölkələrdə mövcud olan müsbət təcrübə tətbiq olunmalıdır. Azərbaycan dövlətinin beynəlxalq təşkilatlarla əməkdaşlığının bir istiqamətinin bundan ibarət olduğunu qeyd edən Prezident tətbiq edilən təcrübənin Azərbaycan xalqına yad olmamasının vacibliyini bildirdi. Azərbaycan dövləti milli köklərə və ənənələrə dayanaraq inkişaf etməli, müasirləşməli və daha da gücləndirilməli idi. Qarşıya qoyulan başlıca məqsədə yalnız güclü dövlətin sayəsində çatmaq olardı.

3.2. 2009-cu il konstitusiya referendumu

Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında konstitusiya aktı qəbul edildikdən sonra ölkədə 5 dəfə referendum keçirilmişdi. Bununla belə, ölkənin sürətli inkişafına uyğun olaraq qanunların təkmilləşdirilməsi və dövlət idarəçiliyinin səmərəliliyinin artırılması vacib idi. Konstitusiyanın 152-ci mad-

76 Yenə orada, s. 267.
77 Yenə orada, s. 269.

dəsinə görə, Azərbaycan Respublikası konstitusiyasının mətnində dəyişikliklər yalnız referendum yolu ilə qəbul edilə bilərdi. Ona görə də konstitusiyaya əlavə və dəyişikliklər edilməsinə dair Prezident İlham Əliyev tərəfindən irəli sürülən referendum təşəbbüsü Azərbaycan Respublikası Milli Məclisində 2008-ci il dekabrın 19-da geniş müzakirə edildi və "Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi haqqında referendum aktı" layihəsi qəbul olundu. Milli Məclis həmin layihəyə rəy verilməsindən ötrü Konstitusiya Məhkəməsinə göndərdi. Dekabrın 24-də Konstitusiya Məhkəməsinin plenumu layihəni müzakirə edərək martın 18-də referendum keçirilməsi haqqında rəy verdi.[78]

Referendumda konstitusiyanın 29 maddəsinə 41 dəyişiklik təklif olunurdu. Bunlardan 17-si maddələrə yeni hissələrin və ya bəndlərin əlavə edilməsi, 7-si maddələrdə sözlərin əvəz edilməsi, 7-si maddələrə yeni sözün və ya sözlərin əlavə olunması, 6-sı maddələrə yeni cümlələrin əlavə olunması, 2-si maddənin yeni redaksiyada verilməsi, 1-i maddənin adının dəyişdirilməsi, 1-i isə maddədən sözün çıxarılması ilə bağlı idi.

Təklif olunan dəyişikliklər məzmunca bir neçə qrupa bölünürdü. Birinci qrup dəyişikliklər dövlətin üzərinə əlavə öhdəliklər qoyulmasını nəzərdə tuturdu. Əsas qanunun 12, 15 və 17-ci maddələrində təklif olunan dəyişikliklər sosial dövlət quruluşunu əsaslandırmağa xidmət edirdi. 39-cu maddəyə təklif olunan dəyişikliklər də bu kateqoriyaya aid idi. Həmin dəyişikliklərdə insanların təsərrüfat və başqa fəaliyyəti nəticəsində ətraf mühitə, təbii ehtiyatlara vurula bilən zərərin həddlərinin qanunla müəyyən edilməsi nəzərdə tutulur və dövlətin ekoloji tarazlığın saxlanılmasına, yabanı bitkilərin və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat vermək öhdəliyi müəyyən edilirdi.[79]

İkinci qrup dəyişikliklər insan hüquqlarının həyata keçirilməsi mexanizmi, qaydaları və şərtləri ilə bağlı idi. Konstitusiyanın 25-ci maddəsinə təklif olunan dəyişikliklər bərabərlik hüququ üçün əlavə təminatlar müəyyənləşdirir, hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcılarının üzərinə hər kəsin bərabər hüquqlarını təmin etmək öhdəliyini qoyurdu.

78 Nəsibov E. Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi ilə bağlı referendum keçirilməsi xalqın öz iradəsini ifadə etməsinə geniş imkanlar yaradır // "Xalq qəzeti", 2008, 30 dekabr.

79 "Azərbaycan Respublikasının konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsi // Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Normativ Hüquqi Aktların vahid internet elektron bazası. URL: http: www.e-qanun.az/framework/15986.

29-cu maddəyə təklif olunan dəyişikliklər mülkiyyətin məcburi qaydada özgəninkiləşdirilməsinin əsaslarının dairəsinin məhdudlaşdırılmasını nəzərdə tuturdu.

32-ci maddəyə təklif olunan dəyişikliklər şəxsi toxunulmazlıq hüququnun konstitusiya təminatlarının dairəsini daha da genişləndirirdi. İnsanların şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə olunmaq, özü haqqında toplanmış məlumatlarla tanış olmaq, onun barəsində toplanmış və həqiqətə uyğun olmayan, tam olmayan, həmçinin qanunun tələbləri pozulmaqla əldə edilmiş məlumatların düzəldilməsini və ya çıxarılmasını, ləğv edilməsini tələb etmək yeni hüquqlar idi.

48-ci maddəyə təklif edilən dəyişiklik insanın öz dini etiqadını və əqidəsini ifadə etməyə, nümayiş etdirməyə, dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməzliyini nəzərdə tuturdu.

50-ci maddəyə təklif olunan dəyişikliklə hər kəsin hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən, kütləvi informasiya vasitələrində dərc edilən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququna konstitusiya səviyyəsində təminat verilirdi.[80]

67-ci maddəyə təklif olunan dəyişikliklər bəzi ifadələrin dəqiqləşdirilməsi ilə yanaşı, prinsipial əhəmiyyətli yeni müddəa da nəzərdə tuturdu. Müəyyən olunurdu ki, cinayət törədilməsində təqsirləndirilən hər kəs məhkum edilməzdən əvvəl dinlənilməlidir. Bu maddə cinayət törədilməsində təqsirləndirilən şəxs barəsində qiyabi mühakiməni qadağan etməklə, mahiyyət etibarilə ədalətli məhkəmə hüququnun həyata keçirilməsi üçün yeni təminatlar yaradılmasını nəzərdə tuturdu.

71, 72, 149-cu maddələrə təklif olunan düzəlişlər insan hüquqları və azadlıqlarının təmin edilməsi məsələləri ilə bağlı idi.

75-ci maddəyə təklif olunan dəyişiklik dövlət rəmzlərinə hörmətsizlik edilməsinin qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olmasını nəzərdə tuturdu.

Üçüncü qrup dəyişikliklər dövlət orqanlarının fəaliyyətinin hüquqi əsaslarının daha da təkmilləşdirilməsinə yönəlmişdi. 84-cü və 101-ci maddəyə təklif olunan dəyişikliklər müharibə şəraitində hərbi əməliyyatların aparılması seçkilərin keçirilməsini mümkün etmədikdə parlamentin və ya prezidentin səlahiyyət müddətinin hərbi əməliyyatların sonunadək uzadılmasını nəzərdə tutur və bu barədə qərarın qəbuledilmə qaydasını dəqiqləşdirirdi.

88-ci maddəyə təklif olunan dəyişiklik parlamentin iclaslarının açıq keçirilməsini təsbit edir və qapalı iclasların keçirilməsinin şərtlərini və qaydasını müəyyənləşdirirdi.

80 Yenə orada.

96-cı maddəyə təklif olunan dəyişiklik Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşına qanunvericilik təşəbbüsü hüququnun verilməsini nəzərdə tuturdu. Bu, ölkənin siyasi həyatında vətəndaşların daha fəal iştirak etməsi üçün şərait yaradırdı.

95-ci maddənin birinci hissəsinin 4-cü bəndinə və 109-cu maddənin 17-ci bəndinə təklif olunan dəyişikliklər Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələrin Milli Məclis tərəfindən təsdiq olunması qaydaları ilə bağlı idi.

101-ci maddəyə təklif olunan dəyişiklik həm də eyni bir şəxsin iki dəfədən artıq təkrarən Azərbaycan Respublikasının Prezidenti seçilə bilməsinə qoyulan məhdudiyyətin aradan qaldırılmasını ehtiva edirdi.

108-ci maddəyə təklif olunan düzəliş əvvəllər Azərbaycan Respublikasının Prezidenti seçilmiş şəxsin təminatı qaydalarının konstitusiya qanunu ilə müəyyən edilməsini nəzərdə tuturdu. Bu da mövcud qanunvericilikdə olan bir boşluğun aradan qaldırılmasını və ya konkret olaraq eks-prezidentlərin statusunun hüquqi tənzimlənməsini nəzərdə tuturdu.

125, 129, 130 və 131-ci maddələrə təklif olunan dəyişikliklər ədalət mühakiməsi üçün vacib olan bəzi müddəaları konstitusiya səviyyəsində təsbit edirdi.

146-cı maddəyə təklif olunan dəyişikliklər yerli özünüidarəetmənin həyata keçirilməsi ilə bağlı idi. Bu dəyişikliklər mahiyyətcə bələdiyyələrin müvafiq ərazidə yaşayan vətəndaşlar qarşısında məsuliyyəti, dövlətin bələdiyyələrin fəaliyyətinə nəzarəti və qanunla müəyyən edilmiş hallarda və qaydada bələdiyyələrin öz fəaliyyətləri barəsində Milli Məclisə hesabat verməsini ehtiva edirdi.

Dördüncü qrup dəyişikliklər konstitusiyanın bəzi müddəalarının konkretləşdirilməsini və bəzi ifadələrin başqası ilə əvəz edilməsini nəzərdə tuturdu. Buna 18, 19, 92-ci maddələrə, 109-cu maddənin birinci hissəsinin 10-cu və 13-cü bəndlərinə təklif olunan dəyişikliklər aid idi. Həmin dəyişikliklər prinsipial əhəmiyyətli yeniliklər deyildi.[81]

Referendumun yüksək səviyyədə keçirilməsindən ötrü zəruri tədbirlər müəyyənləşdirildi. Ölkədə 117 dairə seçki komissiyasını əhatə edən 501 məntəqədə veb kamera quraşdırılmışdı. Referendum ərəfəsində mühitin demokratikliyi söz və mətbuat azadlığının təmin olunması, siyasi qüvvələrin fəaliyyəti üçün əlverişli şəraitin bərqərar olması ilə səciyyələnirdi. Siyasi qüvvələrin, KİV-in fəaliyyəti üçün qanunvericiliyə müvafiq olaraq bütün zəruri şərait yaradılmışdı. Onların

81 Yenə orada.

fəaliyyət göstərməsinə, siyasi qüvvələrin seçkiyə hazırlığına əngəl olacaq, pozacaq hər hansı hadisə, meyil və təsirlər qeydə alınmamışdı.[82]

MSK tərəfindən 9, DSK-lar tərəfindən isə 124 təşviqat qrupu qeydə alınmışdı. MSK-da qeydiyyatdan keçən təşviqat qrupları sırasında müxalifət partiyalarının təmsil olunduğu Qarabağ və Respublika Uğrunda Hərəkat və Respublikaçılar təşəbbüs qrupları da var idi.

Referenduma hazırlıq prosesində seçicilərin siyahıları tərtib edilmiş və dəqiqləşdirilmiş, aşağı referendum komissiyalarının iş şəraiti yaxşılaşdırılmış, onların əksəriyyəti üçün yeni binalar tikilmiş, seçicilər, aşağı referendum komissiyalarının üzvləri və KİV nümayəndələri üçün genişmiqyaslı maarifləndirmə proqramı həyata keçirilmiş, referendumun hazırlanmasını həyata keçirməkdən ötrü zəruri olan normativ-hüquqi aktlar bazası təkmilləşdirilmiş, normativ xarakterli aktlar qəbul edilmiş və ictimailəşdirilmiş, referendum komissiyalarının fəaliyyəti, tərkibi, seçici siyahıları barədə məlumatlar və referendum sənədləri MSK-nın rəsmi internet səhifəsində yerləşdirilmişdi. MSK-nın iclasları KİV nümayəndələri üçün açıq keçirilirdi.

Martın 18-də keçirilən referendumda ölkədəki 5367 məntəqədə səsvermə prosesində seçicilərin 70,83%-i iştirak etdi. Seçicilərin 87 %-dən çoxu təklif olunan dəyişikliklərin lehinə səs vermişdi. Referendum ölkə həyatının demokratikləşdirilməsinə, eyni zamanda qarşıda dayanan başlıca məqsədə - ərazilərin işğaldan azad edilməsi məqsədinə xidmət edirdi.

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, 2008-ci ildə keçirilən prezident seçkiləri ölkə həyatının ən mühüm hadisəsi olmuşdur. Rəqabət mühitində, azad, ədalətli, bərabər, şəffaf və demokratik şəraitdə keçirilən seçkilərdə seçicilər Prezident İlham Əliyevə yenidən etimad göstərmişdir. Xalq davamlı və sabit inkişafa səs vermişdir. Andiçmə mərasimində etdiyi proqram xarakterli nitqində dövlət başçısı qarşıda dayanan başlıca məqsədin təcavüzkar Ermənistan tərəfindən işğal edilmiş ərazilərin azad edilməsi olduğunu bir daha bəyan etmişdir. Bildirmişdir ki, bundan ötrü güclü iqtisadiyyat, müasir ordu yaradılmalı və dövlət qüdrətli olmalıdır.

Dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi məqsədilə islahatlar genişləndirilmişdir. Ölkədə aparılan islahatlardan, yüksək inkişafdan doğan tələbat və dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi zərurəti konstitusiyada əlavə

82 Azərbaycan Respublikası konstitusiyasına əlavə və dəyişikliklər edilməsinə dair referendum sənədlərdə (18 mart 2009-cu il). Bakı, 2009, s. 29.

və dəyişiklikləri irəli sürmüşdür. 2009-cu ildə Azərbaycan Respublikası konstitusiyasına dəyişikliklərə və əlavələrə dair referendum keçirilmişdir. Xalq əlavə və dəyişiklikləri dəstəkləmişdir. Azərbaycan Respublikası Prezidentinin seçilməsinin iki müddətlə məhdudlaşdırılması aradan götürülmüşdür. İnsan hüquq və azadlıqlarının daha etibarlı qorunmasına zəmanət verilmişdir.

Beynəlxalq fəaliyyətini daha da genişləndirən Azərbaycan dövləti ərazisinin bir sıra ölkələrdən kiçik, əhalisinin isə az olmasına baxmayaraq, müxtəlif dövlətləri əməkdaşlığa cəlb edən birləşdirici gücə çevrilmək üçün bir sıra tədbirlər görmüşdür.

4-cü FƏSİL

AZƏRBAYCAN RESPUBLİKASI BİRLƏŞDİRİCİ GÜC DÖVLƏTİ ROLUNDA

4.1. Türk dövlətləri və xalqları arasında əməkdaşlıqda yeni səhifə

Azərbaycan dövlətinin və millətinin qarşısında dayanan başlıca məqsədə nail olmaqdan ötrü ölkə daxilində islahatlar aparılmaqla yanaşı, geniş beynəlxalq fəaliyyət də həyata keçirilirdi. Bu baxımdan türk dünyası ilə əməkdaşlığın yeni keyfiyyət mərhələsinə çıxarılması xarici siyasətdə xüsusi yer tuturdu.

Məlum olduğu kimi, türk dünyası uzun əsrlər boyu parçalanmış halda qalmışdı. Türkiyə Cümhuriyyətindən başqa digər türk xalqlarının müstəqil dövlətləri mövcud olmamışdı. SSRİ dağıldıqdan sonra müstəqil türk dövlətlərinin yaranması yeni imkanlar açmış, əməkdaşlıq üçün ilk addımlar atılmış, humanitar və mədəniyyət sahələrində çoxlu işlər görülmüş, türk dövlətləri və topluluqlarının qurultayları keçirilmiş, əməkdaşlığın müxtəlif formaları tətbiq edilmişdi. Belə əməkdaşlıq dünyada gedən inteqrasiya proseslərinin tərkib hissələrindən biri olsa da, türk dünyasının bədxahları ona heç bir əsas olmadan "pantürkizm", "türkçülük" və "turançılıq" kimi damğa vurmağa çalışaraq dünyanı qorxudurdular.

Azərbaycan ərazilərinin bir hissəsi təcavüzkar Ermənistan tərəfindən işğal edilmişdi, Türkiyədə xaricdən dəstəklənən separatçılıq və terror mövcud idi, türk dövlətlərinə təzyiqlər edilirdi və s. Bəzi dövlətlər və dairələr isə müxtəlif vasitələrlə türk dövlətləri və xalqları arasında soyuqluq yaratmağa çalışırdılar. Məsələn, Özbəkistan və Türkiyə arasında soyuqluq hökm sürürdü. Xəzər dənizində Azərbaycan və Türkmənistan arasında sərhəddə yerləşən, sovet dövründə "Promejutoçnoe" ("Aralıq"), Azərbaycanda "Kəpəz", Türkmənistanda isə "Sərdar" adlandırılan yataq üstündə fikir ayrılıqları davam edirdi.

Belə vəziyyət türk dövlətləri və xalqlarının maraqları baxımından faydalı olmadığından soyuqluğun aradan qaldırılması, əməkdaşlığın inkişafı, yeni key-

fiyyət mərhələsinə çıxarılması və türk dövlətlərinin xarici siyasət fəaliyyətinin əlaqələndirilməsi zəruri idi.

Prezident İlham Əliyevin təşəbbüsü ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) qurulması bu istiqamətdə atılan addımlardan biri oldu. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə tərəfindən təsis edilən TDƏŞ türk ölkələrinin dövlət başçılarının 2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində keçirilən zirvə görüşündə imzalanmış sazişə əsasən yaradıldı. [83] Beynəlxalq hökumətlərarası təşkilat olan Şuranın başlıca məqsədi türk dövlətləri arasında hərtərəfli əməkdaşlığa yardım etmək idi.

TDƏŞ-in Naxçıvan sazişi ilə müəyyən edilmiş başlıca məqsədləri və vəzifələri aşağıdakılardan ibarət idi: tərəflər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi; regionda və dünyada sülhün bərqərar edilməsi; xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviq edilməsi; beynəlxalq terrorizm, separatçılıq, ekstremizm və transmilli cinayətkarlığa qarşı mübarizənin əlaqələndirilməsi; ortaq maraq kəsb edən bütün sahələrdə regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsi; ticarət əlaqələri və investisiyalar üçün əlverişli şəraitin yaradılması; hərtərəfli və tarazlaşdırılmış iqtisadi yüksəlişə, sosial və mədəni inkişafa səy göstərilməsi; elm, texnologiyalar, təhsil və mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi; kütləvi informasiya vasitələri arasında əlaqələrin, eləcə də daha geniş miqyasda informasiya mübadiləsinin təşviq edilməsi; hüquqi məlumatların mübadiləsinin, hüquq sahəsində əməkdaşlığın genişləndirilməsi.

TDƏŞ strukturu qarşıya qoyulan məqsədlərə nail olmaq və vəzifələrini yerinə yetirə bilmək üçün belə formalaşdırıldı: Dövlət Başçıları Şurası; Xarici İşlər Nazirləri Şurası; Yüksək Vəzifəli Şəxslər Komitəsi; Ağsaqqallar Şurası; Katiblik.

Dövlət Başçıları Şurasının iclasına ev sahibliyi edən üzv ölkə növbəti zirvə görüşünə qədər TDƏŞ-ə sədrlik edir. TDƏŞ-in mənzil-qərargahı İstanbul şəhərində yerləşir. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə təşkilatın təsisçi üzvləri idi. 2018-ci ildə Macarıstan müşahidəçi oldu. 2019-cu ildə Özbəkistan buraya qoşuldu, 2021-ci ildə isə Türkmənistan müşahidəçi qismində iştirak etməyə başladı.

Yürüdülən fəaliyyətin miqyası bu təşkilatla əlaqəli olan bir sıra orqan və təşkilatların işində özünü aydın şəkildə göstərirdi. Həmin təşkilatlardan biri hələ 1993-cü ildə yaradılan, qərargahı Ankarada yerləşən, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı olan TÜRKSOY-un məqsədi üzv ölkələr arasında elm, təhsil, mədəniyyət və incəsənət sahəsində əməkdaşlığın genişləndirilməsi, bey-

83 Yalçıntaş N. Avrupa Birliğimi, Türk Birliğimi? Ankara, 2010, s.205-223.

nəlxalq səviyyədə türk dünyasının ortaq dəyərlərinin tanıdılması və təşviq edilməsi, eləcə də türk xalqları arasında mədəni əlaqələrin dərinləşdirilməsi idi.

İstanbul sazişi əsasında 2008-ci ildə yaradılmış və qərargahı Bakıda yerləşən Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) türk ölkələrinin parlament strukturları arasında əməkdaşlığın genişləndirilməsi məqsədini daşıyırdı.[84]

Nur-Sultan şəhərində yerləşən, başlıca məqsədi türk xalqlarının dili, ədəbiyyatı, mədəniyyəti və etnoqrafiyasının tədqiqini əlaqələndirmək və təşviq etməkdən ibarət olan Türk Akademiyası 2010-cu ildə Qazaxıstanda qeydiyyatdan keçmiş, 2012-ci il avqustun 22-23-də TDƏŞ-in Bişkekdə keçirilmiş II zirvə görüşündə isə yaradılması haqqında saziş imzalanmışdı. Akademiyanın digər fəaliyyət məqsədləri türk xalqlarının mədəni və mənəvi irsinin tədqiq edilməsi ilə yanaşı dünya sivilizasiyasının inkişafında payının artırılması, dünya ictimaiyyətini türk xalqlarının nailiyyətləri haqqında məlumatlandırmaq idi.

2011-ci ildə təsis edilmiş Türk Biznes Şurası TDƏŞ-ə üzv ölkələrin işgüzar dairələri və digər təşkilatları vasitəsilə türk dövlətləri arasında iqtisadi əməkdaşlığın dərinləşdirilməsini həyata keçirirdi. Bu fəaliyyət üzv dövlətlər arasında qarşılıqlı münasibətlərin maddi təməllərini möhkəmləndirirdi.

Nizamnaməsi 2012-ci il avqustun 22-23-də Bişkekdə keçirilmiş II zirvə görüşündə imzalanan və qərargahı Bakı şəhərində yerləşən Türk Mədəniyyəti və İrsi Fondu türk dünyasına dair müxtəlif toplantıları, layihələri, proqramları maliyyələşdirmək və dəstəkləmək yolu ilə türk mədəniyyətinin və irsinin qorunmasına, tədqiqinə və təbliğinə köməklik göstərirdi.

Üzv ölkələrin işgüzar dairələri, ticarət və sənaye palataları iqtisadi əməkdaşlığının dərinləşdirilməsini 2019-cu ildə təsis edilən Türk Ticarət və Sənaye Palatası həyata keçirirdi.

TDƏŞ təsis edildikdən sonra Almatı, Bişkek, Qəbələ, Bodrum, Nur-Sultan və Çolpan-Ata şəhərləri olmaqla altı zirvə görüşü oldu. TDƏŞ-in birinci zirvə görüşü "İqtisadi əməkdaşlıq" mövzusu adı altında 2011-ci il oktyabrın 20-21-də Almatı şəhərində keçirildi. İkinci zirvə görüşü 2012-ci il avqustun 22-23-də Bişkek şəhərində "Təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq" mövzusunda oldu.

Azərbaycanın təşkilat çərçivəsində siyasi və təhlükəsizlik məsələləri sahəsində əməkdaşlığı da uğurla davam etdirilirdi. Belə ki, Naxçıvan sazişinə uyğun olaraq hər il zirvə görüşlərindən bir gün əvvəl TDƏŞ Xarici İşlər Nazirləri Şurasının görüşləri keçirilirdi. Eyni zamanda Nyu Yorkda BMT Baş Assambleyasının sessiyaları çərçivəsində xarici işlər nazirlərinin qeyri-rəsmi görüşlərinin keçirilməsi artıq ənənə halını almışdı.

84 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilldə. II cild, s. 648.

Üzv dövlətlərin gömrük orqanları rəhbərlərinin birinci görüşü 2012-ci il oktyabrın 5-də Naxçıvanda keçirildi.[85] Görüşün yekununda TDƏŞ gömrük orqanları rəhbərlərinin bəyannaməsi imzalandı.

2013-cü ildən etibarən üzv ölkələr arasında təhlükəsizlik məsələlərinə dair məsləhətləşmələr keçirilməyə başladı. Xarici işlər nazirlərinin müavinləri səviyyəsində 2013-cü ilin aprel ayında Bakıda keçirilən ilk görüşdə, bir il sonra – 2014-cü ilin mart ayında Nur-Sultandakı ikinci görüşdə Dağlıq Qarabağ münaqişəsi, Əfqanıstan üçün İstanbul prosesi, regional münaqişələr, beynəlxalq terrorizmlə mübarizə və s. məsələlər müzakirə edildi.

Türk xalqlarının diaspor təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi üçün də müəyyən tədbirlər görüldü. Azərbaycan tərəfinin təşəbbüsü ilə 2013-cü il iyunun 21-də Bakıda ilk dəfə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzvü olan ölkələrin diaspor təşkilatları rəhbərlərinin I Forumu keçirildi. Forumda "Türkdilli dövlətlərin diaspor təşkilatlarının ortaq fəaliyyət strategiyası" və "Bakı bəyannaməsi" qəbul edildi.[86] Bu, türk diaspor təşkilatlarının fəaliyyətlərinin əlaqələndirilməsi və birgə hərəkət etməsi istiqamətində mühüm rol oynadı.

TDƏŞ-in üçüncü zirvə görüşü 2013-cü il avqustun 15-16-da Qəbələ şəhərində "Nəqliyyat və bağlantı" mövzusuna həsr edildi. Türk dövlətləri arasında gömrük sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə işçi qrupu yaradıldı.

İqtisadi əməkdaşlıq çərçivəsində bir sıra tədbirlər, iqtisadiyyat, gömrük və nəqliyyat nazirlərinin görüşləri keçirildi. Bundan başqa üzv dövlətlər arasında ticarət-iqtisadi münasibətləri inkişaf etdirmək məqsədilə nəqliyyat və gömrük sahəsində əməkdaşlığa xüsusi əhəmiyyət verilirdi. Onların ərazilərindən keçən mərkəzi nəqliyyat dəhlizi boyunca səmərəli nəqliyyat əməliyyatlarının davamlı, mərkəzləşmiş və asan keçidinə əngəl yaradan maneələrin aradan qaldırılması istiqamətində səylər davam etdirildi. Xəzər dənizi və Qara dəniz limanları arasında əlaqələrin inkişafı, regionun nəqliyyat potensialının artırılması və Xəzər dəniz keçidinin nizamlanması üzv dövlətlərin nəqliyyat və gömrük sahəsində görüşlərinin gündəliyində xüsusi yer tutdu. Samsun, Bakı və Aktau limanları arasında qardaş limanlar əlaqələri yaradıldı.

Təhsil sahəsində də bir sıra tədbirlər həyata keçirildi. Azərbaycan Respublikasının təşkilata sədrliyi müddətində 2013-cü il noyabrın 22-də TDƏŞ-ə üzv ölkələrin təhsil nazirlərinin Türkiyədə Əskişəhərdə ikinci iclası keçirildi, Mövlana mübadilə proqramının (tələbə mübadiləsi) dəstəklənməsi, Türk Akademiyası tərəfindən birgə tarix dərsliklərinin hazırlanması, texniki və peşə təhsili sahə-

85 Гаджиев И. Нахчыван в истории государственности Азербайджана. Санкт-Петербург, 2020, с. 247.

86 Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin birinci Forumu keçirilmişdir // "Azərbaycan" qəzeti, 2013, 22 iyun.

sində əməkdaşlığa başlanılması, təhsil müəssisələrində üzv ölkələrin dillərinin öyrənilməsi, Türk Universitetlər Birliyinin yaradılması və s. məsələlər müzakirə edildi və müvafiq qərarlar qəbul olundu.

Qəbələ zirvə görüşündə qəbul edilmiş qərara əsasən turizm sahəsində yaradılan işçi qrupun ilk iclası 2013-cü il dekabrın 10-da keçirildi. 2014-cü il aprelin 3-5-də 13-cü Azərbaycan Beynəlxalq Səyahətlər və Turizm Sərgisi çərçivəsində ortaq fotoşəkil sərgisi təşkil edildi. Həmin ilin 10-11 aprel tarixlərində İstanbulda turizm sahəsində əməkdaşlıq üzrə işçi qrupun ikinci, turizm nazirlərinin isə birinci iclası oldu.

TDƏŞ-in dördüncü zirvə görüşü 2014-cü il iyunun 4-5-də Bodrum "Turizm sahəsində əməkdaşlıq" mövzusunda keçirildi. 2015-ci il sentyabrın 10-11-də Nur-Sultanda keçirilən beşinci zirvə görüşü "Media və informasiya sahəsində əməkdaşlıq" mövzusuna həsr edilmişdi. Əvvəlki görüşlərdə olduğu kimi, üzv ölkələrin dövlət başçıları tərəfindən 11 sentyabr tarixində Nur Sultanda qəbul edilmiş V zirvə görüşünün bəyannaməsində də tərəflər Dağlıq Qarabağ münaqişəsinin tezliklə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin toxunulmazlığı əsasında həllinin vacibliyini vurğuladılar.

TDƏŞ-in altıncı zirvə görüşü 2018-ci il sentyabrın 3-də Qazaxıstanda Çolpan-Ata şəhərində "Gənclər və İdman" mövzusunda keçirildi. Bu görüş türk ölkələri gənclərinin əlaqələrində mühüm rol oynadı.

Bununla belə, bəzi türk dövlətləri arasında soyuqluq hələ də qalırdı. Artıq qeyd edildiyi kimi, Azərbaycan və Türkmənistan, Türkiyə və Özbəkistan arasındakı soyuqluq türk dövlətləri arasında geniş və dərin əməkdaşlığı həyata keçirməyə mane olurdu. Vəziyyətin aradan qaldırılmasından ötrü Prezident İlham Əliyevin göstərdiyi səylər öz bəhrəsini verdi. Özbəkistan Respublikası Türk Şurasına üzv oldu. Bu, Azərbaycan Respublikası Prezidentinin türk dövlətləri, xalqları və türk birliyi istiqamətində böyük xidmətlərindən biri idi. Az sonra Macarıstan müşahidəçi kimi Türk Şurasının işində iştirak etmək üçün müraciət etdi.

Bakıda 2019-cu il oktyabrın 15-də keçirilən VII zirvə görüşündə açan Prezident İlham Əliyev Özbəkistanın Türk Şurasına qatılmasına aşağıdakı kimi münasibət bildirdi:

"Özbəkistan Respublikasını Türk Şurasına üzv olması münasibətilə səmimi qəlbdən təbrik edirəm. Hörmətli Şavkat Miromonoviç Mirziyoyevə bu müdrik qərarına görə təşəkkür edirəm. Özbəkistanın bu qərarı türk dünyasında birlik və həm-

rəyliyin daha da güclənməsinə, əməkdaşlığımızın daha da dərinləşməsinə xidmət edəcəkdir".[87]

Avropa İttifaqının üzvü olan Macarıstanın Türk Şurasına qatılması türk dünyasının əməkdaşlığında böyük hadisə idi. Bununla əlaqədar olaraq Azərbaycanın dövlət rəhbəri dedi:

"Macarıstanın Türk Şurası ilə əməkdaşlığının genişlənməsi məmnunluq doğurur. Burada Macarıstanın Baş naziri cənab Viktor Orbanın şəxsən rolunu xüsusi qeyd etmək istərdim. Ötən ay Budapeştdə Türk Şurasının nümayəndəliyinin ofisi fəaliyyətə başlayıb. Ümidvaram ki, bu ofis Şuranın Avropa ölkələri və regional təşkilatlarla əlaqələrinin inkişafına təkan verəcəkdir".[88]

Çıxış edən türk dövlət başçıları nitqlərində həm ölkə daxilində, həm də türk dövlətləri arasında münasibətlərin inkişafında Prezident İlham Əliyevin xidmətlərini xüsusi vurğuladılar. Məsələn, Qırğızıstan Respublikasının Prezidenti Sooronbay Jeenbekov[89] dedi:

"İlham Heydər oğlunun iqtisadi islahatları və investisiyaların cəlb edilməsi siyasəti artıq öz bəhrəsini verir. Bu gün Azərbaycan dünya siyasətində xüsusi və mühüm yer tutur. Biz qardaş Azərbaycanın uğurları barədə bütün xəbərləri sevinclə qarşılayırıq. İnanıram ki, Azərbaycanın sədrliyi ilə iqtisadiyyatın, ticarətin, investisiyaların və digər sahələrin inkişafı üzrə əməkdaşlıq daha da güclənəcək. Mən inanıram ki, Azərbaycanın sədrliyi səmərəli olacaq".[90]

Türk dövlətləri ilə əməkdaşlığı Azərbaycan dövlətinin xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi qiymətləndirən Prezident İlham Əliyev bildirdi:

"...Azərbaycan bu müddət ərzində ölkələrimiz arasında əməkdaşlığın və dostluğun möhkəmləndirilməsi istiqamətində öz səylərini göstərəcəkdir. Bizi birləşdirən ortaq soy-kök, tarix, mədəniyyət və milli dəyərlər qarşılıqlı səmərəli fəaliyyətimiz üçün mühüm əsasdır. Türkdilli dövlətlər arasında əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir".[91]

Məlum olduğu kimi, Türkiyənin türk dünyası ilə quru əlaqəsini kəsmək məqsədilə XX əsrin 20-ci illərinin əvvəllərində Zəngəzur sovet rəhbərliyi tərəfindən Ermənistana verilmişdi.[92] Naxçıvan sazişinə, bu diyarın yerləşdiyi coğrafi

87 Əliyev İ.H. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII zirvə görüşündə iştirak. 15 oktyabr 2019-cu il // İnkişaf – məqsədimizdir. 96-cı kitab. Bakı, 2019, s. 277.
88 Yenə orada.
89 Sooronbay Jeenbekov (1958) – Qırğızıstan Respublikasının 5-ci Prezidenti (2017-2020).
90 Əliyev İ. H. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII zirvə görüşündə iştirak. 15 oktyabr 2019-cu il // İnkişaf – məqsədimizdir. 96-cı kitab, s. 281.
91 Yenə orada, s. 281-282.
92 *Daha ətraflı bax:* Qasımlı M. Azərbaycan-Türkiyə diplomatik-siyasi münasibətləri (aprel 1920-ci il – dekabr 1922-ci il). Bakı, 1998; *Yenə onun.* Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix-olduğu kimi (1920-1994-cü illər). Bakı, 2016.

mövqeyə və blokada şəraitində yerləşməsinə diqqəti cəlb edən, türk dünyasının coğrafi baxımdan ayrı düşməsi və tarixi Azərbaycan torpağı olan Zəngəzurun Ermənistana verilməsinin məqsədləri üzərində dayanan Prezident İlham Əliyev aşağıdakıları vurğuladı:

"Azərbaycanın əsas hissəsi ilə Naxçıvan bölgəsi arasında Zəngəzur yerləşir. Vaxtilə Zəngəzur bölgəsinin Azərbaycandan alınıb Ermənistana birləşdirilməsi böyük türk dünyasını coğrafi baxımdan parçaladı. Ancaq Naxçıvanda qəbul etdiyimiz qərarlarla və birgə işimizlə biz türk dünyasının birliyini daha da gücləndirdik və qardaşlığımızı davam etdiririk. Bu mənada Türk Şurasının yaradılmasına dair qərarın məhz Naxçıvanda keçirilmiş Zirvə Görüşündə qəbul edilməsi türk dünyası üçün böyük rəmzi əhəmiyyətə də malikdir".[93]

Ermənistanın təkcə Azərbaycana deyil, bütövlükdə türk dünyasına qarşı yönəldilən hərbi təcavüzü və nəticələri üzərində dayanan İlham Əliyev bildirdi:

"Bildiyiniz kimi, Azərbaycanın ən ağrılı problemi olan Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Ermənistanın destruktiv siyasətinə görə irəliləyiş yoxdur. Ermənistan 30 ilə yaxındır ki, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirir... İşğal olunmuş ərazilərdə etnik təmizləmə siyasəti aparılıb, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Həmin ərazilərdə Azərbaycan xalqına məxsus tarixi-mədəni irs, İslam abidələri və məscidlərimiz dağıdılıb və məhv edilibdir".[94]

Tarixi türk torpağı olan Ermənistanda və Azərbaycanın işğal edilmiş ərazilərində bütün müsəlman tarix və mədəniyyət abidələrini, məscidləri və qəbiristanlıqları vəhşicəsinə dağıtmasına, islam dinini təhqir etməsinə, azərbaycanlıları qovmasına baxmayaraq, Ermənistan riyakarcasına müsəlman ölkələri ilə də əlaqələr qurmaqdan ötrü səylər göstərirdi. Ermənistanın təcavüzkar və işğalçılıq siyasətinin mahiyyətini dərindən dərk etməyə çağıran Prezident İlham Əliyev türk və müsəlman ölkələri arasında birliyin vacibliyini vurğuladı. İşğalçı ölkənin fəaliyyətinə düzgün qiymət verilməsinin zəruriliyindən danışan dövlət başçısı qeyd etdi:

"Ermənistan çalışır ki, müsəlman ölkələri ilə sıx əməkdaşlıq qursun. Ancaq dünya müsəlmanları üçün müqəddəs olan məscidləri dağıdan Ermənistan müsəlman ölkələri ilə dost ola bilməz. Dinimizə qarşı edilən bu vandallıq Ermənistanın islamofob xislətini nümayiş etdirir".[95]

93 Əliyev İ.H. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII zirvə görüşündə iştirak. 15 oktyabr 2019-cu il // İnkişaf – məqsədimizdir. 96-cı kitab, s. 282.
94 Yenə orada, s. 285-286.
95 Yenə orada, s. 286.

Ermənistanın təcavüzünə dair qəbul edilmiş beynəlxalq sənədlər üzərində dayanan Azərbaycan dövlətinin başçısı onların işğalçı ölkə tərəfindən yerinə yetirilmədiyini belə ifadə etdi:

"Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi qəbul edilib. Bu qətnamələrdə işğalçı qüvvələrin Azərbaycan torpaqlarından qeyd-şərtsiz və tam çıxarılması birmənalı olaraq tələb edilir. Eyni zamanda, Qoşulmama Hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, NATO, Avropa Parlamenti, Avropa Şurası və digər təşkilatlar buna oxşar qərar və qətnamələr qəbul edibdir. Ermənistan bu qətnamə və qərarların tələblərinə məhəl qoymur, beynəlxalq hüquqi öhdəliklərinin icrasından boyun qaçırır".[96]

Dağlıq Qarabağ regionunun tarixi Azərbaycan torpağı olduğunu bir daha bəyan edən Prezident İlham Əliyev dedi:

"Dağlıq Qarabağ Azərbaycanın tarixi və əzəli torpağıdır, Azərbaycanın ayrılmaz hissəsidir. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşlərinin yekun bəyanatlarında da dövlətlərin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək davamlı olaraq təsbit edilir. Fürsətdən istifadə edərək, mən Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli həllini dəstəkləyən tərəfdaşlarımıza təşəkkür edirəm".[97]

Çıxış edən türk dövlət başçıları Prezident İlham Əliyevin türk dünyası qarşısında xidmətlərini və toplantının yüksək səviyyədə təşkil olunduğunu vurğuladılar. Qazaxıstan Respublikasının birinci Prezidenti və Türk Şurasının fəxri sədri Nursultan Nazarbayev dedi:

"10 il əvvəl Naxçıvanda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında əsas sənədi təsdiq etdik. Beləliklə, əlaqələrimizin yeni, daha düşünülmüş və praqmatik mərhələsinə start verildi... Əvvəla, biz təşkilatın həm qlobal kontekstdə, həm də özümüz üçün zəruriliyini və aktuallığını sübut etməyə nail olduq. İkincisi, Şura Özbəkistanın və Macarıstanın hesabına genişləndi ki, bu da bizim birgə salnaməmizdə yeni səhifə açdı. Üçüncüsü, ölkələr tərəfindən sanballı institusional struktur yaradıldı. Bu struktura TürkPA, TÜRKSOY, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Ağsaqqallar Şurası, eləcə də Türk Ticarət-Sənaye Palatası daxildir. Dördüncüsü, Şuranın siyasi və iqtisadi nüfuzu regional və beynəlxalq səviyyələrdə artır. Beşincisi, türk dünyası inteqrasiyasının konsepsiyası

96 Yenə orada.
97 Yenə orada, s. 286-287.

qəbul olunub. Həmin sənəd əsasən türkdilli ölkələrin çoxplanlı qarşılıqlı fəaliyyətini perspektivdə keyfiyyət cəhətdən daha yüksək səviyyəyə çıxaracaqdır".[98]

Bəşəriyyət tarixində türk xalqlarının oynadığı rola və türk sivilizasiyasının əhəmiyyətinə diqqəti cəlb edən Nursultan Nazarbayev bildirdi:

"...türk sivilizasiyasının dərin kökləri vardır. Əgər tarixə müraciət etsək, biz planetin ən böyük qitəsində həmişə mühüm rol oynamış xalqların xələflərriyik. Türk dünyasının müasir mərhələdə də əhəmiyyətini dərk etmək üçün dünyanın coğrafi xəritəsinə baxmaq kifayətdir. Xüsusilə qeyd etmək istərdim ki, mən ötən müddət ərzində, 1992-ci ildən 2019-cu ilə qədər 25 ildən artıq müddətdə – müxtəlif heyətlərlə türkdilli dövlət başçılarının 17 görüşünün hamısında iştirak etmişəm. Mən bunları əxz etmişəm: məsələn, "Türk" sözü, bu sözün hər bir hərfinin mənim üçün xüsusi mənası var. Birinci "t" hərfi - trast, yəni, inamdır, "ü" - uniti, yəni, birlik, "r"- renessans, yəni, intibah və sonuncu "k" hərfi - kinşil, yəni, qohumluq. Bu anlayışa əsaslanaraq mənim birlik daxilində işimin məqsədi ölkələrimizi yaxınlaşdırmaq olub və buna görə də mən çox şadam ki, birgə səylərlə bu məqsədə nail olmuşuq".[99]

Zaman-zaman türk dövlətləri və xalqlarının yollarının dəyişdiyi üzərində dayanan Nursultan Nazarbayev onları türkdilli deyil, türk dövlətləri adlandırmağı təklif etdi:

"...ötən əsrlər ərzində, ötən dövr ərzində bizim ölkələrimiz öz yollarını dəyişiblər. Köklərimiz eynidir, türk dövlətləri adlandırmalıyıq".[100]

Nitqində türk dövlətləri və xalqlarının birliyinin zəruriliyindən, əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağın işğal altında qalmasının yolverilməz olduğundan danışan Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirdi:

"Hörmətli qardaşlarım, milli mübarizələrimizdə bir-birimizin yanında durmaq qardaşlığımızın borcudur. Azərbaycanın əzəli torpağı Dağlıq Qarabağın və ətrafının Ermənistanın işğalı altında qalması bir milyon qardaş-bacımızı evlərindən, yurdlarından uzaqda qaçqın və köçkün vəziyyətində yaşamağa məcbur edib. BMT Baş Assambleyasındakı nitqimdə də dediyim kimi, bu, qəbuledilməz bir vəziyyətdir. Dağlıq Qarabağ probleminin ən qısa müddətdə sülh yolu ilə və Azərbaycanın ərazi bütövlüyü əsasında həll edilməsi üçün əlimizdən gələn səyləri göstərməyə davam edəcəyik".[101]

Zirvə görüşündə çıxış edən Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev[102] dedi:

98 Əliyev İ. H. Türkdilli Dövlətlərin əməkdaşlıq Şurasının VII zirvə görüşündə iştirakı. 15 oktyabr 2019-cu il // İnkişaf – məqsədimizdir. 96-cı kitab, s. 289-290.
99 Yenə orada, s. 290.
100 Yenə orada, s. 292.
101 Yenə orada, s. 297
102 Şavkat Mirziyoyev (1957) – Özbəkistan Respublikasının Prezidenti (2016-cı ildən).

"...bu gün Türk Şurasının 10 illiyini gözəl Azərbaycan torpağında qeyd etməyimiz dərin rəmzi məna daşıyır. Bu beynəlxalq strukturun əsası məhz burada qoyulub. Həmin tarix bizim üçün də böyük tarixi hadisədir. Çünki Özbəkistan Türk Şurasının tamhüquqlu üzvü olubdur".[103]

Macarıstanda qıpçaqların yaşadığını və macarların bir çoxunun damarlarından qıpçaq qanının axdığını vurğulayan Macarıstan Respublikasının Baş naziri Viktor Orban[104] bildirdi:

"Burada iştirak edənlərin heç də hamısı bəlkə də bilmir ki, Macarıstanda qıpçaqlar yaşayır və macarların çoxunun damarlarında qıpçaq qanı axır. Onların hətta öz bələdiyyəsi, özünüidarə orqanları da var... Biz Türk Şurasına müşahidəçi qismində qoşulmuşuq, çünki biz həm nə isə almaq, həm də nə isə vermək istəyirik. Bu gün biz macarlar bu Şuraya Avropaya və Avropa İttifaqına qoşulmağımızı təklif edə bilərik. Buna görə də son aylarda biz Türk Şurasının Avropa nümayəndəliyini yaratmışıq və sizin xarici işlər nazirləri ilə birlikdə Budapeştdə bu daimi nümayəndəliyi açmışıq".[105]

Prezident İlham Əliyevin dəvəti ilə toplantıya qatılan Türkmənistanı təmsil edən Baş nazirin müavini Purli Aqamuradov[106] çıxışında dedi:

"Bizi ümumi tarix birləşdirir. Xalqlarımız və ölkələrimiz arasındakı əlaqələr möhkəmdir və ümumi tarixə, mədəni-mənəvi dəyərlərə söykənir. Xalqlarımızın bir çox ortaq dəyərləri var. Əməkdaşlığımızın müsbət dinamikasını qeyd etmək olduqca vacibdir. Bugünkü görüş bizim üçün vacib hadisədir. Deməli, bizə ümumi dil tapmaq daha asandır. Türkmənistan xarici siyasətinin əsas istiqamətlərindən biri mədəni diplomatiyadır. Multimodal logistik habların yaradılması da vacib məqamlardandır. Türkmənistan Mərkəzi Asiya, Xəzər dənizi və Yaxın Şərqdən Avropaya və digər qitələrə çıxış dəhlizinin yaradılmasına tərəfdardır. Türkmənistan həmin sahədə çox ciddi əməkdaşlığı dəstəkləyir".[107]

Zirvə görüşündəki yekun nitqində Türk Şurasının coğrafiyasının genişləndiyinə diqqəti cəlb edən Prezident İlham Əliyev dedi:

"Özbəkistanın tamhüquqlu üzv dövlət kimi Türk Şurasına qoşulması çox əlamətdar addımdır, Türk Şurasının coğrafiyasını genişləndirir və gücümüzü artı-

103 Əliyev İ. H. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII zirvə görüşündə iştirak. 15 oktyabr 2019-cu il // İnkişaf – məqsədimizdir. 96-cı kitab, s. 299.
104 Viktor Orban (1963) – Macarıstanın 4-cü (1998-2002) və 8-ci Baş naziri (2010-cı ildən).
105 Əliyev İ. H. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII zirvə görüşündə iştirak. 15 oktyabr 2019-cu il // İnkişaf – məqsədimizdir. 96-cı kitab, s. 304-305.
106 Purli Aqamuradov (1962) – Türkmənistan baş nazirinin müavini (2018-2020).
107 Əliyev İ. H. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII zirvə görüşündə iştirak. 15 oktyabr 2019-cu il // İnkişaf – məqsədimizdir. 96-cı kitab, s. 307-308.

rır. Macarıstanda Şuranın nümayəndəliyinin ofisinin açılması Avropa dövlətləri və təsisatları ilə daha sıx əməkdaşlıq üçün yeni imkanlar açır".[108]

Prezident İlham Əliyevin səyləri nəticəsində Özbəkistan Respublikasının Şuraya üzvlüyə geri qayıtması, Macarıstanın assosiativ üzv kimi toplantılarda iştirak etməsi, özünü tərəfsiz dövlət elan etmiş Türkmənistanın isə müşahidəçi statusunda qoşulması türk birliyinin gücləndirilməsi yolunda xüsusi xidmət idi. Bu məsələlərin həll edilməsi Azərbaycan dövlət başçısının türk dövlətlərinin başçıları arasında böyük nüfuzunun olduğunu göstərirdi. Azərbaycan dövləti TDƏŞ-lə yanaşı, qurumun əlaqəli orqan və təşkilatları olan TÜRKSOY, TÜRKPA, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Biznes Şurası ilə də sıx əməkdaşlıq edərək üzv ölkələr arasında elm, təhsil, mədəniyyət və incəsənət sahəsində əməkdaşlığın genişləndirilməsi, beynəlxalq səviyyədə türk dünyasının ortaq dəyərlərinin tanıdılması və təşviq edilməsi sahəsində fəal rol oynadı.

Prezident İlham Əliyev türk dünyasının ortaq maraqlarının beynəlxalq səviyyədə qorunmasında da gələcək dövlət xadimləri, siyasətçilər və ictimai xadimlər üçün örnək yaratdı. Məlumdur ki, soyuq müharibə dövründə türk dünyasının tək müstəqil dövləti Türkiyə Cümhuriyyəti mövcud idi. O illərdə Türkiyə dövləti türk dünyasında baş verən hadisə və proseslərə münasibət bildirsə də, çox vaxt bu, kəsərli olmurdu. Soyuq müharibənin başa çatması və SSRİ-nin dağılmasından sonra yeni müstəqil türk dövlətlərinin yaranması Türkiyənin beynəlxalq mövqelərini möhkəmləndirdi. Türk dünyası arasında əlaqələrin qurulması üçün bəzi addımlar atıldı. Tələbə mübadiləsi, informasiya, mədəniyyət və b. sahələrdə əməkdaşlığa başlanıldı. 1992-ci ildə türk dövlət və topluluqlarının ilk qurultayı keçirildi. Qurultayların yekununda qəbul edilən sənədlərdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü pislənilirdi.

Prezident İlham Əliyev 2014-cü il aprelin 24-də Avropa İttifaqının Praqada keçirilən Şərq tərəfdaşlığı zirvə görüşündə Ermənistan başçısını yerində oturdaraq türk dövlətlərinin əməkdaşlığı tarixində bir ilkə imza atdı. Ermənistan rəhbəri Serj Sarkisyan zirvə görüşünün plenar iclasındakı çıxışını bütünlükdə qondarma "erməni soyqırımı" ilə bağlı uydurmalara həsr etdi. Türkiyənin toplantıda təmsil olunmamasından sui-istifadə edən Ermənistan başçısı bununla da plenar iclasın mövzusundan tamamilə kənara çıxaraq qondarma "erməni soyqırımı" məsələsini əsassız olaraq qabartdı və Türkiyəni tənqid hədəfi kimi seçdi. Serj Sarkisyan bir tərəfdən, Türkiyəni qondarma "erməni soyqırımı" barədə əməli mövqe tutmamaqda, digər tərəfdən isə Ermənistanla sərhədlərini açmamaqda əsassız günahlandıraraq bu ölkənin Avropa İttifaqına üzvlüyünün yolverilməz

108 Yenə orada, s. 313.

olduğunu dedi. Ermənistan rəhbəri çıxışında inandırmağa çalışdı ki, Avropa ictimaiyyəti qondarma "erməni soyqırımı" ilə bağlı daha təsirli mövqe tutmalıdır.

Qeyd etmək lazımdır ki, Avropa İttifaqı da Ermənistanla sərhədləri açmaqdan ötrü Türkiyəyə uzun illərdən bəri təzyiqlər edirdi. Türkiyə isə şərt olaraq Ermənistanın əsassız iddialarından əl çəkməsini və Azərbaycan ərazilərinin işğalına son qoymasını irəli sürmüşdü.

Toplantının plenar iclasında Prezident İlham Əliyev tarixi əhəmiyyət daşıyan və gələcəkdə türk dövlət başçıları üçün örnək olan nitqi ilə avropalılar qarşısında Ermənistanın hansı yalanlarla dünya ictimaiyyətini aldatmağa cəhd göstərdiyini bildirərək Serj Sarkisyanı ifşa etdi. Dövlət başçısı konkret faktlar əsasında və beynəlxalq hüququn baza prinsiplərinə söykənməklə mövcud geosiyasi şəraiti dərindən qiymətləndirərək dedi ki, Ermənistan təcavüzkar ola-ola, Türkiyəyə qarşı məqsədli şəkildə kampaniya aparmaqla məşğuldur. Prezident İlham Əliyev Türkiyə-Ermənistan sərhədlərinin bağlanmasının səbəblərini tutarlı dəlillərlə belə izah etdi:

"Bu gün təəssüf ki, Ermənistan Prezidenti burada fürsətdən istifadə edərək Türkiyəyə yenidən hücum edir. Bunu etmək asandır, çünki bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam və Türkiyə-Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm.

Türkiyə ilə Ermənistan sərhədi Azərbaycanın Kəlbəcər rayonunun 1993-cü ilin aprelində işğalından sonra bağlanıb. Bundan əvvəl isə bütün azərbaycanlılar Dağlıq Qarabağdan qovulub, Dağlıq Qarabağ əhalisinin 30 faizi azərbaycanlılar idi. Kəlbəcərdən əvvəl 1992-ci ildə ermənilər Şuşanı və Laçını işğal etdilər. Daha sonra Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl-Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda olan ümumilikdə Azərbaycanın 7 rayonunu işğal etdilər ki, bu da Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisinin 20 faizini təşkil edir".[109]

Daha sonra dövlət başçısı Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış münaqişənin tənzimlənməsinə dair qəbul edilmiş beynəlxalq sənədlərə diqqəti yönəldərək dedi:

"Bizim əhali etnik təmizləməyə məruz qalıb və bu işğal BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, Avropa Parlamentinin qətnaməsi və Avropa Şurası Parlament Assambleyasının qətnaməsinə baxmayaraq bu günədək davam edir.

Ermənistan bu qətnamələrə məhəl qoymur və nə tarixən, nə də beynəlxalq hüququn normalarına əsasən onlara aid olmayan ərazinin işğalını davam etdirir. Eyni zamanda, onlar Azərbaycanı qeyri-konstruktiv yanaşmada günahlandırmaq-

109 Əliyev İ.H. Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramının 5 illiyinə həsr olunmuş sammitdə çıxış // İnkişaf – məqsədimizdir. 62-ci kitab. Bakı, 2018, s. 144.

da davam edirlər. Bizim torpaqlarımız işğal altındadır. Helsinki Yekun Aktında ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsipləri çox aydın əks olunub. Öz müqəddəratını təyinetmə ölkələrin ərazi bütövlüyünün pozulması hesabına əldə olunmamalıdır. Üstəgəl ermənilər artıq öz müqəddəratını təyin ediblər, onların müstəqil Ermənistan dövləti var. Təsəvvür edin, əgər ermənilər hər yaşadıqları yerdə öz müqəddəratını təyin etməyi davam etdirsələr, nə baş verər. Onlar burada - Çex Respublikasında, Gürcüstanda, Rusiyada, Amerikada, yaşadıqları istənilən yerdə eyni yanaşma göstərə bilərlər. Onların öz dövləti var, onlar öz müqəddəratını təyin ediblər.

Münaqişənin tez bir zamanda həlli Azərbaycanın marağındadır. Mən əminəm ki, bu, həmçinin Ermənistan xalqının marağındadır, Cənubi Qafqazda əməkdaşlıq baxımından da maraq dairəsindədir".[110]

Uydurma "erməni soyqırımı" haqqında Ermənistanın iddialarının əsassız olduğunu və Türkiyənin arxivləri açmaq təklifindən boyun qaçırdığını diqqətə çatdıran Prezident İlham Əliyev bildirdi:

"Türkiyə–Ermənistan əlaqələrinə gəldikdə, Baş nazir Ərdoğan bir neçə il öncə bəyanatla çıxış edərək Ermənistanın rəhbərliyinə bütün arxivləri açmağı təklif etmişdi ki, tarixçilər iki xalq arasındakı münasibətlərin tarixi məqamlarını nəzərdən keçirsinlər. Ancaq bu təklif adekvat cavabla qarşılanmadı. Dünən isə Baş nazir Ərdoğan erməni əsilli insanlara başsağlığı verdi, ancaq təəssüf ki, buna da Ermənistan tərəfindən müvafiq reaksiya verilmədi. Baxmayaraq mən bilirəm ki, Birləşmiş Ştatlar və Avropa İttifaqı Türkiyə Baş nazirinin mövqeyini yüksək qiymətləndirdilər, ancaq görünür, bu, Ermənistan hökuməti üçün kifayət deyil. Bu, aydın göstərir ki, regionda sülh istəməyən kimdir. Biz sülh istəyirik, biz ərazilərimizin geri qaytarılmasını istəyirik. Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərindən öz qoşunlarını çıxarmağa başlamalıdır. Bunu etmək çox asandır. Yalnız Ermənistan tərəfindən siyasi iradə olmalıdır". [111]

Prezident İlham Əliyev Ermənistanın hərəkətlərinə qarşı beynəlxalq birliyin tədbirlər görməməsinə də diqqəti yönəldərək açıq şəkildə dedi:

"Nəhayət, sonuncu məsələ, Azərbaycan xalqı bir sual verir: Niyə Ermənistana sanksiyalar qoyulmur? Niyə Avropa Şurasındakı Ermənistan nümayəndə heyəti səsvermə və söz hüququndan məhrum edilmir? Onlar digər bir ölkənin ərazilərini işğal ediblər, beynəlxalq hüquq normalarını pozurlar, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini kobud şəkildə pozurlar və heç bir sanksiya tətbiq edilmir, heç bir cəza verilmir. Qanunsuz, kriminal Dağlıq Qarabağ rejiminin qondarma nümayəndələri Avropa paytaxtlarına vizalar alırlar. Bu dözülməzdir və buna son qoyulmalıdır".[112]

110 Yenə orada, s. 144-145.
111 Yenə orada, s. 145.
112 Yenə orada.

Prezidentin Praqa zirvə görüşündəki nitqi Azərbaycan dövlətçiliyi və diplomatiyası tarixində ən qürurverici səhifələrdən biri olmaqla müstəsna əhəmiyyət kəsb edirdi. İlham Əliyev hər şeydən əvvəl, Serj Sarkisyana verdiyi cavabla özünün diplomatik məharətini və qətiyyətini bir daha göstərdi. Bundan başqa, dövlət rəhbərinin cavabı Türkiyə və türk dünyası baxışından da böyük əhəmiyyətə malik idi. Belə mövqe türk dünyasının, hətta müstəqil dövləti olmayan türk xalqlarının da müdafiəsiz olmadığını göstərdi. Prezident İlham Əliyev bütün türk dünyasının ədalətli mövqeyini bacarıqla qoruyan lider olaraq özünü bir daha təsdiq etdi. Verilən cavab bütün türk dünyası üçün qürurverici idi. Digər bir vacib məsələ problemə sırf Türkiyə baxışından yanaşmaq idi. Məlumdur ki, xarici ölkələrdəki erməni lobbisi və Ermənistan uzun illər boyu Türkiyəyə uydurma "soyqırımı" tanıma, torpaq və təzminat tələbi ilə böhtan atırdılar. O zamanadək bu hərəkətlərinə görə onlara belə yüksək kürsülərdən cavab verən olmamışdı. Praqa sammitindəki çıxış göstərdi ki, Azərbaycanın, onun dövlət başçısının, eləcə də digər rəsmi şəxslərinin təmsil olunduğu toplantılarda kimsə Türkiyənin əleyhinə danışa bilməz. Bu cavab təkcə Serj Sarkisyana verilməmişdi, eyni zamanda belə xəyallara düşən digər şəxslərə də xəbərdarlıq idi. Prezident gələcəkdə də belə fikirdə olanlara açıq mesaj göndərdi ki, Türkiyə olmayan yerdə onun əleyhinə kim danışacaqsa, qarşısında Azərbaycanı görəcəkdir.[113]

Qəti və tutarlı dəlillərlə "erməni soyqırımı"nın uydurma olduğu bütün dünyaya bir daha deyildi, türk-erməni münasibətlərində səhvlərin Ermənistan tərəfindən olduğu göstərildi. İlham Əliyev Ermənistanın yalanlarını təsdiqləyən sübutları digər dövlət rəhbərlərinin yanında birbaşa Serj Sarkisyanın üzünə dedi. Prezident Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğal edildiyini, işğalçıya qarşı sanksiyalar tətbiq olunmadığını yüksək səviyyəli toplantıda bir daha səsləndirdi. Ən nəhayət, dövlət başçısı Ermənistana münasibətdə ikili standartlardan yanaşan ölkələrə də xəbərdarlıq edirdi. Ermənistana qarşı sanksiyaların tətbiq edilməməsi məsələsinin qaldırılması digər dövlətlərə də bir işarə və təcavüzkarı müdafiə etməmək barədə açıq çağırış idi.

Məlum olduğu kimi, ermənilərin yüzilliklər boyu apardığı saxta təbliğata qarşı ilk dəfə olaraq dövlət başçısı "hücum diplomatiyası" taktikasını müəyyənləşdirmişdi. Əgər o vaxta qədər dünya sadəcə erməni yalanlarını dinləyirdisə, bundan sonra vəziyyət dəyişməyə başlamışdı. Dünya dövlətləri Azərbaycanın səsini eşidir və həqiqətləri dinləyirdi.

113 Professor Musa Qasımlının Azadinforma müsahibəsi // URL: https: azadinform.az/az/siyaset/131881/avp-sedri-azerbaycan-artiq-hucum-diplomatiyasini-reallasdirmaa-baslayib/. 30.04.2014.

Prezident İlham Əliyev Praqa zirvə görüşündəki çıxışı ilə gələcək türk dövlət başçılarına, ictimai, siyasi xadimlərə də bir örnək oldu. O, birlik və bərabərliyin vacib olduğunu bildirməklə, ilk mahiyyəti daşıyan bir tarix yaratdı.

4.2. Azərbaycanın sivilizasiyalararası dialoq məkanına çevrilməsi: Bakı prosesi

Azərbaycan Respublikası qarşıya qoyduğu başlıca məqsədinə nail olmaqdan ötrü "yumşaq güc"dən, "mədəniyyət diplomatiyası"ndan, sivilizasiyalararası dialoqdan istifadə edirdi. Bunlar Azərbaycan haqqında həqiqətlərin və Ermənistanın işğalçılıq siyasətinin dünyaya çatdırılmasında ən uğurlu yollardan biri idi. Dağlıq Qarabağ münaqişəsini ermənilərin apardığı uydurma təbliğat nəticəsində bəzi xarici ölkələrdə yanlış olaraq dini qarşıdurma kimi başa düşürdülər. Belə qondarma baxışların aradan qaldırılması tələb olunurdu. Bu məsələdə, qeyd edildiyi kimi, Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu müstəsna rol oynayırdı.

Azərbaycan Respublikasının mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli dialoqun qurulması məqsədilə irəli sürdüyü belə təşəbbüslərdən biri 2008-ci ildən başlanan Bakı prosesi oldu. Bu, Azərbaycanın özünün mədəni müxtəlifliyə əsaslanan modelini dünyada birgəyaşayış üçün nümunə göstərməsi demək idi. Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2008-ci il dekabrın 2-3-də keçirilən konfransına Azərbaycan dövlətinin təşəbbüsü ilə ilk dəfə olaraq 10 islam ölkəsi dəvət edildi. Beynəlxalq münasibətlər tarixində bu nadir hadisəylə Avropa Şurası dövlətlərinin iştirakı ilə mədəniyyət nazirlərinin konfransı yeni bir formata keçdi. Avropa və ona qonşu regionlardan 48 ölkənin, 8 beynəlxalq təşkilatın və bir sıra beynəlxalq qeyri-hökumət təşkilatlarının yüksək səviyyəli nümayəndələrinin iştirak etdiyi konfransda "Mədəniyyətlərarası dialoqunun təşviqinə dair Bakı bəyannaməsi" qəbul edildi.[114] Sənədin qəbulu ilə sivilizasiyalar arasında dialoqun inkişafını nəzərdə tutan Bakı prosesinin və bu prosesin inkişafı məqsədini daşıyan "Sənətçilər dialoq naminə" layihəsinin əsası qoyuldu. Bakı prosesinin davamlılığını təmin etmək məqsədilə 2009-cu il oktya-

114 Avropa Şurasının üzvü olan dövlətlərin mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda Bakı konfransı bəyannamənin qəbulu ilə başa çatmışdır // Azərtac. 03.12.2008. URL: https://azertag.az/xeber/avropa_surasinin_uzvu_olan_dovlatlarin_madaniyyat_nazirlarinin_madaniyyatlararasi_dialoq_avropa_va_onun_qonsu_regionlarinda_davamli_inkisafin_va_sulhun_asasidir_movzusunda_baki_konfransi_bayannamanin_qabulu_ila_basa_chatmisdir-426032

brın 13-15-də Azərbaycanda keçirilmiş islam ölkələri mədəniyyət nazirlərinin VI konfransında Azərbaycanın təşəbbüsü ilə 10-dan çox Avropa dövləti də iştirak etdi. Konfrans çərçivəsində iştirak edən Avropa Şurasına üzv dövlətlər və İslam Konfransı Təşkilatına üzv dövlətlər arasında mədəniyyətlərarası dialoqa dair birgə kommünike qəbul olundu.

Azərbaycan dövləti bununla bütün dünyaya birgəyaşayışın və əməkdaşlığın modelini verdi. Yürüdülən siyasət nəticəsində Azərbaycan dünya dini liderlərinin görüş yerinə və sivilizasiyaların dialoq məkanına çevrildi. 2009-cu ildə islam mədəniyyətinin paytaxtı seçilən Bakıda bir il ərzində çoxsaylı tədbirlər keçirildi.

Sivilizasiyalararası dialoq sahəsində mühüm beynəlxalq tədbirlərdən biri dünyanın 33 ölkəsindən ənənəvi dünya dinlərini təmsil edən 200-dən çox yüksək səviyyəli nümayəndənin, dünya dini liderlərinin 2010-cu il aprelin 26-27-də Bakı sammitinin keçirilməsi oldu. Sammitə 14 nüfuzlu beynəlxalq təşkilatın, eləcə də Rusiya Federasiyasının 11 subyektinin dini rəhbərləri və nümayəndələri qatılmışdı.

Dünya dini liderlərinin, müxtəlif sivilizasiya təmsilçilərinin Bakı sammiti əsrlər boyu Azərbaycanda formalaşmış müxtəlif dinlərin nümayəndələrinin birgəyaşayışından irəli gəlməklə böyük əhəmiyyətə malik olan bir hadisə idi. Bu, eyni zamanda Azərbaycanda dini və milli dözümlülüyün sivilizasiyalararası dialoqun gücləndirilməsi işində model ölkə halına gəldiyini göstərirdi.

Dünya dini liderlərinin Bakı sammitində nitq söyləyən Prezident İlham Əliyev Azərbaycanın sivilizasiyalararası dialoq məkanına çevrilməsini nəzərdə tutaraq dedi:

"...biz Bakının, Azərbaycanın dinlərarası dialoqun bir növ mərkəzinə çevrilməsinə də çox böyük ümidlərlə baxırıq. Bir tərəfdən, bunu Azərbaycanda dini və milli zəmində vəziyyətin çox yaxşı olmasının təzahürü kimi qiymətləndiririk... Digər tərəfdən, dinlərarası dialoqun praktiki nöqteyi nəzərdən gücləndirilməsi işinə Azərbaycan öz töhfəsini verə bilər, verir və verməyə davam edəcəkdir".[115]

Azərbaycan dövləti Avropa və Asiya, xristian və müsəlman dünyası ilə əlaqələrin inkişafına böyük töhfələr verirdi. Azərbaycanda bütün dini azadlıqlar tam şəkildə təmin edilmişdi. Bu məsələyə də toxunan Prezident İlham Əliyev bildirdi:

"Azərbaycanda gündəlik fəaliyyət göstərən mindən çox məscid mövcuddur. 11 kilsə, 6 sinaqoq və digər dini məbədlər fəaliyyət göstərir. Bu bizi gücləndirir.

Ölkənin gücü təkcə onun iqtisadi imkanları ilə ölçülmür. Baxmayaraq ki, Azərbaycanda bu istiqamətdə də böyük uğurlar əldə edilmişdir. Bizim gücümüz

115 Əliyev İ.H. Bakıda Dünya Dini Liderləri Sammitinin açılış mərasimi. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı // İnkişaf – məqsədimizdir. 40-cı kitab. Bakı, 2017, s. 249.

birliyimizdədir, Azərbaycanda hökm sürən sabitliyin möhkəmlənməsindədir, dini və milli sülhün mövcudluğundadır. Bu amillər ölkəmizi gücləndirir. Bu amillər ölkəmizi gələcəkdə də hərtərəfli inkişaf etdirmək üçün bizə kömək göstərəcəkdir.

Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Biz milli dəyərlərimizə çox sadiqik. Ümumbəşəri dəyərləri bölüşürük".[116]

Bakı sammiti dünya dini liderlərinin dialoqunda yeni bir mərhələnin başlanğıcı idi. Sammitdə aparılan müzakirələr, verilən bəyanatlar dünyada geniş əks-səda yaratdı, bir daha göstərdi ki, müxtəlif dinlərin nümayəndələri dinc şəraitdə bir yerdə yaşaya bilərlər və bunun ən yaxşı nümunəsi Azərbaycan Respublikasıdır.

Azərbaycanın dünyaya verdiyi nümunənin növbəti addımı 2011-ci il aprelin 7-9-da Bakıda UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi və ICESCO-nun tərəfdaşlığı ilə 1-ci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi oldu. Forumda 102 ölkədən rəsmi nümayəndələr, 10-dan çox beynəlxalq qurumun təmsilçiləri və rəhbər şəxsləri, 20 ölkədən nazirlər, dünyanın nüfuzlu media qurumlarının nümayəndələri olmaqla ümumilikdə dünyanın bütün qitələrindən 500-ə yaxın xarici ölkə təmsilçisi iştirak edirdi. Açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dedi:

"Bakı, Azərbaycan belə mötəbər tədbirlərin keçirilməsi üçün artıq ənənəvi bir məkana çevrilmişdir. Bunun həm coğrafi, həm tarixi, həm də mədəni əsasları vardır. Əsrlər boyu Azərbaycanda bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşamışlar. İctimai-siyasi quruluşdan asılı olmayaraq, heç vaxt Azərbaycanda milli, ya dini zəmində nəinki qarşıdurma, heç anlaşılmazlıq da olmamışdır. Bütün dövrlərdə Azərbaycanda xalqlar bir ailə kimi yaşamışlar, onları həmişə dostluq münasibətləri bağlamışdır".[117]

Forum çərçivəsində "Sülh və dialoqa nail olmaq üçün mədəniyyətlərarası anlaşma və mədəni müxtəliflik", "Mədəniyyətlərarası dialoqu mənalı etmək: mədəniyyət, incəsənət və irs", "Qadınlar mədəniyyətlərarası dialoqun vacib iştirakçıları kimi", "Dünya dinləri arasında mədəniyyətlərarası dialoq", "Mədəniyyətlərarası dialoqu və əməkdaşlığın inkişafına dair yeni təşəbbüs və layihələrin təqdimatları" və bir sıra digər mühüm tədbirlər, konfranslar, toplantılar keçirildi. Qitələrarası mədəni əməkdaşlığı inkişaf etdirmək məqsədilə I Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Azərbaycanın təşəbbüsü ilə "5 A-Mədəniyyətlərarası Əməkdaşlıq Platforması" təsis olundu.

116 Yenə orada, s. 250.
117 Əliyev İ. H. Ümumdünya mədəniyyətlərarası dialoq forumunun açılışında nitq 07.04.2011 // İnkişaf-məqsədimizdir. 45-ci kitab. Bakı, 2017, s. 68.

Sivilizasiyalararası dialoqa Azərbaycanın verdiyi növbəti töhfə 2015-ci il mayın 18-19-da UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, BMT-nin Ümumdünya Turizm Təşkilatı, Avropa Şurası və ICESCO-nun birgə tərəfdaşlığı ilə "Mədəniyyəti ortaq təhlükəsizlik naminə paylaşaq" devizi altında keçirilən 3-cü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu oldu. Forumun başlanması ərəfəsində Yeni Bulvarın ərazisində "Sülh ağacı" abidəsinin açılış mərasimi oldu. Mayın 17-də keçirilən mərasimdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, UNESCO-nun baş direktoru İrina Bokova və "Sülh ağacı"nın müəllifi Hedva Ser iştirak etdilər.

Mayın 18-də forumun rəsmi açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Nasir Əbdüləziz əl-Naser, UNESCO-nun baş direktoru İrina Bokova, İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amin Mədəni, ICESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycri, Ümumdünya Turizm Təşkilatının baş katibinin turizm və sülh üzrə müşaviri Amr Abdel-Qaffar çıxış etdilər. Eyni zamanda Ümumdünya Turizm Təşkilatının Orta Şərq üzrə regional direktoru tərəfindən baş katib Taleb Rifainin təbrik məktubu oxundu. Bütün çıxışların mahiyyətində yalnız bir çağırış dayanırdı – mədəniyyət bütün sahələrdə bəşəriyyətin həmrəyliyini təmin edən ən ümdə amildir. Mərasimdəki nitq söyləyən Prezident İlham Əliyev dedi:

"Biz tarixi və mədəni irsimizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən olan, 743-cü ildə inşa edilmiş məscid Azərbaycanın qədim Şamaxı şəhərində yerləşir. Dünyanın ən qədim kilsələrindən biri – Qafqaz albanlarının kilsəsi Azərbaycanın digər qədim Şəki şəhəri yaxınlığındadır. Pravoslav və katolik kilsələr, sinaqoqlar, atəşpərəstlər məbədi bizim mədəni irsimizin tərkib hissəsidir və biz bununla fəxr edirik. Bu gün Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri yaşayır və ölkəmizin uğurlu inkişafına öz töhfələrini verirlər. Düşünürəm ki, bu bizim ən böyük sərvətlərimizdəndir. Biz bundan qürur duyuruq...".[118]

Forum çərçivəsində UNESCO və Böyük Britaniyanın "Tudor Rose" nəşriyyatının birgə əməkdaşlığı ilə Mədəniyyətlərin yaxınlaşması üzrə Beynəlxalq Onillik münasibətilə dərc olunmuş kitabın təqdimatı keçirildi. Eyni zamanda baş direktor İrina Bokova Azərbaycan kəlağayı sənətinin UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edilməsini təsdiqləyən sənədi Azərbaycan Respublikasının birinci xanımı, UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevaya təqdim etdi.

118 Əliyev İ. H. III Ümumdünya mədəniyyətlərarası dialoq forumunun açılış mərasimi. 18.05.2015 // İnkişaf -məqsədimizdir. 68-ci kitab. Bakı, 2018, s. 311.

Forum çərçivəsində "Mədəniyyəti ortaq təhlükəsizlik naminə paylaşaq: Müasir dövrdə yumşaq güc və müxtəlifliyin müsbət cəhətlərinə töhfələr", "Multikulturalizm: Gələcək vəd edən həqiqətlər", "İpək yolu – dialoq və fikir mübadiləsi üçün ilkin istiqamətlər: "İpək yolu" təşəbbüsü və bu təşəbbüsün hazırkı dövrdə mədəniyyətlərarası dialoq üçün yaratdığı imkanlar", "Mədəniyyətlərarası əlaqələrdə incəsənət və irsin rolu" və digər mövzularda tədbirlər keçirildi. Bunlarla yanaşı forum çərçivəsində ilk dəfə olaraq 40-dan çox ölkədən UNESCO-nun mədəniyyətlərarası və dinlərarası dialoq üzrə kafedra müdirlərinin akademik toplantısı oldu. Toplantının bağlanış mərasimi isə ADA Universitetində təşkil edildi.

Prezident İlham Əliyev ilə UNESCO-nun baş direktoru İrina Bokova, BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Nassir Əbdüləziz əl-Nasser, İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amin Mədəni, ICESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri, ABŞ-da fəaliyyət göstərən Etnik Anlaşma Fondunun sədri Rabbi Mark Şnayer arasında ikitərəfli görüşlər keçirildi.

Azərbaycan dövlətinin dünya sivilizasiyalararası dialoqa növbəti töhfəsi 2017-ci il mayın 4-6-də Bakı şəhərində UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, BMT-nin Ümumdünya Turizm Təşkilatı, Avropa Şurası, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və ICESCO-nun birgə tərəfdaşlığı ilə "Mədəniyyətlərarası dialoqun inkişafı: İnsan təhlükəsizliyi, sülh və davamlı inkişaf üçün yeni imkanlar" mövzusunda keçirilən 4-cü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu oldu. Möhtəşəm toplantıda iştirak etmək üçün 120-dək xarici ölkə rəsmisi, 39 beynəlxalq təşkilatdan nümayəndələr, 50-dən çox qeyri-hökumət təşkilatı qeydiyyatdan keçmiş, ümumilikdə 800-dən çox xarici nümayəndə gəlmişdi. Yüksək səviyyəli dövlət və hökumət rəsmiləri, beynəlxalq təşkilatların rəhbərləri, parlament sədrləri, alimlər, səfirlər, tanınmış şəxslər, 30-dan çox nazir səviyyəsində iştirakçı buraya daxil idi. Ümumilikdə forum çərçivəsində "Sülhün yaradılması: BMT-nin fəaliyyətinin 70 ili", "Qütbləşmə əsrində inklüziv dialoq", "Heydər Əliyev və Azərbaycanda dinlərarası harmoniya", "Mədəniyyətlərarası dialoq şəbəkəsi kimi Avropa Şurasının mədəniyyət marşrutları" və digər mövzularda 40-dək sessiya və tədbir təşkil edildi.

Forum Azərbaycan dövlətinin müxtəlif qütbləri birləşdirən böyük güc olduğunu bir daha göstərdi. Təsdiq etdi ki, Azərbaycan tarixən olduğu kimi, müasir dövrdə də bütün dinlər və etnik qrupların bərabər yaşadığı əlverişli ölkədir. Bakı prosesi dünyaya Azərbaycan millətinin etno-psixologiyası, dövlətinin siyasətinin mahiyyətini göstərdi. Bu, eyni zamanda Azərbaycan dövlətinin qarşısına qoyduğu başlıca məqsədə nail olmaqda bir vasitə oldu.

***

Fəsildə araşdırılan məsələlər göstərir ki, Azərbaycan dövləti qarşısında dayanan başlıca məqsədə nail olmaqdan ötrü geniş beynəlxalq fəaliyyət göstərmişdir. Türk dövlətləri arasında əməkdaşlığa yeni keyfiyyət halı vermək üçün vacib addımlar atılmışdır. Qarşılıqlı münasibətlərin möhkəm təməllər üzərində və strateji hədəflər naminə inkişaf etdirilməsi zərurətə çevrilmişdir. Türk Dövlətləri Şurası qarşılıqlı münasibətlərə yeni keyfiyyət halı vermişdir. Azərbaycan və Türkmənistan, Türkiyə və Özbəkistan arasında olan soyuq münasibətlər aradan qaldırılmışdır. Türk dövlətləri arasında əməkdaşlıq bədxahların uydurduqları kimi, "pantürkizm", "türkçülük" və "turançılıq" deyil, hər hansı bir dövlətə qarşı yönəlməmiş, dünyada gedən inteqrasiya proseslərinin tərkib hissəsi olmuşdur.

Azərbaycan dövləti türk xalqları və dövlətləri arasında münasibətlərin möhkəmləndirilməsində, onların haqq işinin müdafiə edilməsində xüsusi xidmət göstərmişdir. Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində Praqada keçirilən zirvə görüşündə Türkiyə Cümhuriyyətinin əleyhinə danışan Ermənistan rəhbərinə verdiyi cavabla Prezident İlham Əliyev türk dünyası tarixində bir ilkə imza ataraq dövlət və ictimai xadimlərə örnək vermişdir.

Ermənistan tərəfi Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasətini ört-basdır etmək məqsədilə münaqişənin guya dini xarakter daşıdığına, xristian ermənilərin və müsəlman azərbaycanlıların birlikdə yaşamasının mümkün olmadığına dair Qərb ölkələrində uydurma təbliğat aparırdı. Həmin uydurmaları uğurla darmadığın etməkdən və başlıca məqsədinə nail omaqdan ötrü Azərbaycan Respublikası "zərif, yumşaq güc", "mədəniyyət diplomatiyası" və sivilizasiyalararası dialoqdan bacarıqla istifadə etmişdir. Bakı prosesi uğur qazanmışdır. Azərbaycan sivilizasiyalararası dialoqun keçirildiyi məkana çevrilmişdir. Dünyanın görkəmli din xadimləri Bakıda toplantılara qatılaraq fikir mübadiləsi etmiş, müxtəlif dini konfessiyalar üçün yaradılmış şəraiti görmüş və təcrübəni öyrənmişlər. Bütün bunlar təcavüzkar Ermənistanın işğalçılıq siyasəti barədə həqiqətlərin dünyaya çatdırılmasında əhəmiyyətli rol oynamışdır.

5-ci FƏSİL

AZƏRBAYCAN RESPUBLİKASININ BMT TƏHLÜKƏSİZLİK ŞURASININ QEYRİ-DAİMİ ÜZVÜ SEÇİLMƏSİ

5.1. IV çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilər

2010-cu ildə IV çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilərə hazırlıq işləri görülürdü. Ölkədə daxili sabitlik təmin olunmuş, sosial-iqtisadi nailiyyətlər əldə edilmiş, qanunvericilik sahəsində ciddi uğurlar qazanılmış, çoxlu qanun və qərarlar qəbul edilmişdi.

Milli Məclis Prezident İlham Əliyevin müəyyənləşdirdiyi xarici siyasət fəaliyyətinin həyata keçirilməsində yaxından iştirak etmiş, ikitərəfli və çoxtərəfli əməkdaşlıqda uğurlar qazanmış, Azərbaycan həqiqətlərinin dünya ölkələrinin parlamentlərinə çatdırılması səyləri müsbət nəticələr vermişdi. Parlamentin beynəlxalq əlaqələri genişlənmişdi.[119] Qazanılan uğurların davamlılığının təmin edilməsi ölkənin qanunvericilik institutunun daha da möhkəmləndirilməsi və yeni çağırışlara cavab verəcək qanunların qəbul edilməsi zərurətini irəli sürürdü.

Prezident İlham Əliyev IV çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilərin 2010-cu il noyabrın 7-nə təyin edilməsinə dair sərəncam imzaladı.[120] Ölkədə 125 seçki dairəsi var idi.

Seçkilərdə namizədlərin qeydə alınması prosesi əvvəlki illərlə müqayisədə xeyli sadələşdirilmişdi. Namizədin irəli sürülməsi dairə seçki komissiyasının qərarı ilə təsdiq edildikdən sonra Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq namizədin müdafiəsi üçün 450 imza toplanması tələb olunurdu. Əvvəlki illərdən fərqli olaraq bir seçici bir deyil, bir neçə namizədə imza verə bilərdi.

MSK-nın 2010-cu il oktyabrın 17-nə olan məlumatına görə, 125 seçki dairəsi üzrə 719 deputatlığa namizəd qeydiyyata alınmışdı. Bunlardan 621 nəfəri kişi, 98 nəfəri isə qadın idi. 1412 nəfər imza vərəqələri götürmüşdü. Onlardan 297-si

119 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilldə II cild, s. 470.

120 Azərbaycan Respublikası Milli Məclisinə seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // "Azərbaycan" qəzeti, 2010, 4 sentyabr.

imza vərəqələrini geri qaytarmamışdı. DSK-lar 324 namizədin qeydiyyatından imtina etmiş, 72 nəfər isə namizədliyini geri götürmüşdü. Müqayisə üçün qeyd etmək lazımdır ki, 2005-ci il parlament seçkilərində 2.063 namizəd qeydə alınmışdı. Əvvəlki parlament seçkilərinə nisbətən seçkilərə namizəd kimi qatılmaq arzusunda olanların sayı 35% az idi.[121]

Seçkilərdə 5 siyasi partiya bloku və 22 partiya iştirak edirdi. Seçki ərəfəsində "AXCP-Müsavat", "Qarabağ", "İslahat", "İnsan naminə" və "Demokratiya" blokları formalaşdı. "Qarabağ" seçki blokunda Ümid, Azərbaycan Demokrat və Aydınlar partiyaları, İnsan naminə siyasi partiyalar blokunda Azərbaycan Liberal Partiyası və Vətəndaş və İnkişaf Partiyası, "Demokratiya" siyasi partiyalar blokunda Vətəndaş Həmrəyliyi Partiyası və Azərbaycan Demokratik İslahatlar Partiyası, "İslahat" blokunda Bütöv Azərbaycan Xalq Cəbhəsi, Böyük Quruluş, Ədalət və Azərbaycan Təkamül partiyaları, "AXCP - Müsavat" siyasi partiyalar blokunda isə Azərbaycan Xalq Cəbhəsi Partiyası və Müsavat Partiyası birləşmişdi.

Seçkilər ərəfəsində partiya xətti ilə qeydə alınan namizədlərin sayı belə idi: Yeni Azərbaycan Partiyası – 113, KXCP – 30, AMİP – 23, DADP – 20, AVP – 7, Müasir Müsavat Partiyası – 7, AMDP – 2, ASDP – 2, AMDP – 1, ATP – 1.

"AXCP - Müsavat" blokundan 35, "Qarabağ" blokundan 32, "İslahat" blokundan 31, "İnsan naminə" blokundan 19, "Demokratiya" blokundan 17 namizəd qeydə alınmışdı.[122]

Seçkilərin gedişini izləmək üçün 51 ölkədən 991 beynəlxalq müşahidəçi MSK-da qeydiyyatdan keçmişdi. Müşahidəçilərin ümumi sayı 1024 nəfər idi. Avropa Şurası Parlament Assambleyasından 33, Avropa İttifaqı Şurasından 5, Avropa İttifaqının Bakı nümayəndəliyindən 3, Avropa Parlamentindən 16, Türkdilli Ölkələrin Parlament Assambleyasından 10, ATƏT Parlament Assambleyasından 58, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosundan (ATƏT/DTİHB) 316, Müstəqil Dövlətlər Birliyindən 351, GUAM-dan 2, ABŞ səfirliyindən 31, Böyük Britaniya səfirliyindən 12, Qazaxıstan səfirliyindən 6, Norveç səfirliyindən 4, Bolqarıstan səfirliyindən 3, Polşa səfirliyindən 2, Yaponiya səfirliyindən 2, Belçika səfirliyindən 1, Finlandiya səfirliyindən 1, qeyri-hökumət təşkilatı olan Avropa Seçki Müşahidə Akademiyasından 166, Vestnik Kavkaza Analitik İnformasiya Agentliyindən 2 nəfər seçkini müşahidə edirdi.[123]

Seçkidə rəqabət müxtəlif siyasi partiya nümayəndələri, müstəqil namizədlər arasında gedirdi. Vahid və güclü siyasi qüvvə olan iqtidar partiyasının nüfuzuna

121 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 471.

122 Azərbaycan Respublikasında 07 noyabr 2010-cu il tarixdə keçiriləcək Milli Məclisə seçkilərin uzunmüddətli müşahidəsinin nəticələrinə dair aralıq hesabat (08.09.2010-02.11.2010) // URL: www.avciya.az/az/index.php?newsid=9165, 02.11.2010.

123 Seçki - 2010. Təbliğat-təşviqat kampaniyası: əsas xüsusiyyətlər, ilkin nəticələr. Buraxılış 5. Bakı, 2010, s.7.

xalqın Azərbaycan Respublikasının Prezidentinə olan etimadı böyük təsir göstərirdi. Azərbaycan xalqı dövlətinin gələcəyini əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan siyasətdə görürdü. Məhz bu xətt Prezident İlham Əliyevin liderliyində davam etdirilmiş və ölkəyə faydalar vermişdi. Digər tərəfdən, 1993-cü ildən keçirilən prezident, 1995-ci ildən etibarən isə parlament və bələdiyyə seçkilərində iştirak edib ardıcıl qələbə qazanan YAP təbliğat-təşviqat strategiyasında ötən illərdə toplanmış böyük təcrübə ilə yanaşı yeni seçki texnologiyalarının tətbiqinə də xüsusi diqqət yetirirdi. "Güclü dövlət, yüksək rifah" şüarı ilə seçkiyə gedən partiyanın proqramında əvvəlki illərdə görülən işlərin məntiqi davamı və ölkənin gələcək inkişafının əsas istiqamətlərini təqdim etmək baxımından real məqsədlər irəli sürüldüyü qeyd olunmuşdu.

Müsavat Partiyası parlament seçkilərinə ciddi hazırlaşdığını və bu işə seçki texnologiyaları sahəsində müstəqil ekspertləri cəlb etdiyini bildirirdi. Partiya funksionerlərinin fikrincə, kampaniyanın şüarı təşkilatın məqsədlərini həm dəqiq ifadə etməli, həm də iqtidara qarşı psixoloji təzyiq təsiri yaratmalı idi. Müsavat Partiyası Türkiyədə 1991-ci ildə keçirilən seçkilərdə Doğru Yol Partiyasının seçicilərə əsas vədi olan "hər kəsə iki açar" şüarına meyilli idi. Lakin partiyanın AXCP ilə seçki bloku yaratması bu planları dəyişdirdi. Qeydiyyata alınan namizədlərin sayına görə ikinci yeri tutan "AXCP - Müsavat" bloku əvvəlki seçkidə istifadə etdiyi narıncı rəngdən də imtina edərək yeni loqosunu yaratdı. Bu partiyaların əvvəlki seçkilərdə "Azadlıq" bloku üçün müəyyənləşdirdiyi platforma, demək olar ki, dəyişməz qaldı. Ona beş il ərzində yalnız bir neçə bənd əlavə edilmişdi.

Müxalifətin seçki platformalarının hər birində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaradılmış münaqişənin həllinə, demokratik cəmiyyətin qurulmasına, sosial problemlərin qabardılmasına, korrupsiyaya qarşı mübarizəyə dair müddəalara rast gəlinirdi. Fərqli olan yalnız münaqişəyə münasibətdə onun sülh, yoxsa hərb yolu ilə tənzimlənməsinin dəstəklənməsi məsələsi idi. "AXCP - Müsavat" bloku hələ seçki mübarizəsinin əvvəlindən birləşmək çağırışları, MSK tərkibində təmsilçilik və şikayət nəticəsində namizədlərinin qeydiyyata alınması kimi məsələlərdən də təbliğat məqsədləri üçün bəhrələnməyə cəhd edirdi.[124] Bütövlükdə rəhbərlərinin münasibətləri haqqında məlumatların azlığı və ziddiyyətliliyi, müttəfiqlər və rəqiblər haqqında bir-birini təkzib edən fərqli mövqe nümayiş etdirmələri blokun gələcəyinin olduqca qeyri-müəyyən olduğunu göstərirdi. Hay-küylü vətənpərvərlik şüarları və davakar sosial çağırışlar daha çox mediaya və ictimai rəyə hesablansa da, seçicilərə təsirli deyildi. Müxalifətdaxili münasibətlərdəki real mənzərə, vətəndaş məsu-

124 Yenə orada.

liyyətinin nə olduğunu bilməmək bu düşərgədə tez-tez istinad edilən "demokratiya" sözünü seçici üçün az qala mənasız ifadəyə çevirmişdi.[125]

"Qarabağ" bloku adından və şüarından göründüyü kimi, "Qarabağa səs ver!" şüarını seçməklə platformasının əhəmiyyətli hissəsini bu münaqişənin həlli yollarını necə gördüyünə həsr etmişdi. Blokda təmsil olunan Aydınlar Partiyası Azərbaycanın ən ağrılı problemi Dağlıq Qarabağ münaqişəsi olduğundan həmin şüar ilə seçkidə iştirak etməyi daha məqsədəuyğun hesab edirdi.

Azərbaycan Milli İstiqlal Partiyası münaqişənin tənzimlənməsində fərqli mövqeyə malik idi. Partiya uzun illər aparılan danışıqların səmərəsiz olduğunu nəzərə alaraq hərbi-siyasi yolu məqbul sayır və ATƏT çərçivəsində, eləcə də bu istiqamətdə aparılan danışıqların dayandırılmasını təklif edirdi.

Seçkilərdə hakim Yeni Azərbaycan Partiyası qələbə qazandı. Milli Məclisdə 10 partiyanın nümayəndələri və tanınmış ictimai xadimlər olan müstəqillər yer aldılar. Yeni Azərbaycan Partiyası 71, müstəqil namizədlər 41, Vətəndaş Həmrəyliyi Partiyası 3, Ana Vətən Partiyası 2, Ümid, Bütöv Azərbaycan Xalq Cəbhəsi, Demokratik İslahatlar, Böyük Quruluş, Ədalət, Vətəndaş Birliyi, Sosial Rifah Partiyalarının hər biri 1 mandat əldə etdilər.

IV çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası 2010-cu il noyabrın 29-da saat 12:00-da öz işinə başladı.[126] İclasda Prezident İlham Əliyev iştirak edirdi.

İclasa sədrlik edən deputat Fəttah Heydərov[127] Azərbaycan Respublikasının Prezidentinə fəaliyyətində uğurlar arzuladı və seçilmiş deputatları təbrik etdikdən sonra onların siyahısını oxudu. İclasda 122 deputat iştirak edirdi.

İşinə başlaması münasibətilə IV çağırış Milli Məclisi təbrik edən Prezident İlham Əliyev nitqində keçirilən seçkiləri Azərbaycanda demokratik inkişaf istiqamətində atılmış növbəti mühüm addım kimi qiymətləndirdi. Ölkədə demokratik proseslərin müsbət istiqamətdə inkişaf etdiyini, demokratiyanın inkişafının təmin edildiyini, hüquqi dövlət quruculuğu işində çox vacib işlərin görüldüyünü, söz, vicdan, sərbəst toplaşmaq azadlığının, siyasi plüralizmin təmin edildiyini söyləyən Prezident siyasi sistemin formalaşması işində çox vacib addımlar atıldığını vurğuladı.[128] Dövlət başçısı bildirdi:

125 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilldə. II cild, s. 473.
126 Yenə orada, s.474-476.
127 Fəttah Heydərov (1938-2020) – Azərbaycan Respublikası Milli Məclisinin I-VI çağırış deputatı. Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri (2012-2020).
128 Əliyev İ.H. Azərbaycan Respublikasının IV çağırış Milli Məclisinin ilk iclasında Azərbaycan Prezidenti İlham Əliyevin nitqi // İnkişaf – məqsədimizdir. 43-cü kitab. Bakı, 2017, s. 242-253.

"Biz istəyirik ki, ölkəmiz dünyanın inkişaf etmiş ölkələri sırasına daxil edilsin. Əlbəttə, bunu etmək üçün ölkədə bütün işlər müasir tələblərə uyğun şəkildə aparılmalıdır".[129]

Sənayeləşmə prosesi sürətləndirilmişdi və iqtisadiyyat şaxələndirilirdi. Son 7 il ərzində Azərbaycanda əmək haqqı və pensiyalar orta hesabla 5-6 dəfə artmış, yoxsulluq 4 dəfə azalmış, 900 minə qədər yeni iş yeri açılmış, büdcə xərcləri 12, hərbi xərclər təxminən 20, valyuta ehtiyatları 18 dəfə artmışdı.

Xarici siyasət məsələləri üzərində dayanan Prezident İlham Əliyev dedi:

"Xarici siyasətimiz artıq dünya birliyində uğurlu siyasət kimi tanınır. Bizimlə ikitərəfli münasibətlərdə və dostluq münasibətlərində olan ölkələrin sayı artır. Bir sözlə, dostlarımızın sayı artır. Diplomatiyamız çox çevikdir, çox fəaldır və qarşılıqlı maraqlar üzərində, ölkələrin bir-birinə hörmət, bir-birinin işlərinə qarışmamaq prinsipləri əsasında qurulubdur. İkitərəfli əlaqələr genişlənir".[130]

Qonşu ölkələrlə münasibətlərin xarici siyasətin üstün istiqamətlərindən biri olduğunu dövlət rəhbəri belə ifadə etdi:

"...qonşularımızla çox gözəl, faydalı əlaqələrimiz vardır. Bu əlaqələr böyük tarixə malikdir. Biz bu bölgədə yaşayırıq və yaşayacağıq. Mən çox şadam ki, tarixi əlaqələrlə bərabər, bu gün siyasi müstəvidə qonşu ölkələrlə heç bir problemimiz yoxdur. Bütün problemlər öz həllini tapıbdır və qonşu ölkələrlə münasibətlərimiz hesab edirəm ki, ən yüksək səviyyədədir. Gələcək fəaliyyətdə də bu istiqamətdəki addımlarımız məhz bir məqsədi güdəcək ki, qonşu dövlətlərlə həm ikitərəfli, həm çoxtərəfli formatda münasibətlərimiz daha da güclənsin".[131]

İqtisadiyyatın qeyri-neft sektorunda müsbət meyillərin müşahidə olunduğunu söyləyən Prezident vurğuladı:

"Azərbaycan artıq postsovet məkanında və bütövlükdə dünya xəritəsində özünəməxsus yerə malikdir. Biz müstəqil ölkəyik, sözün əsl mənasında müstəqilik. Azərbaycan xalqın iradəsi ilə idarə olunur və belə də olmalıdır. Biz çalışmalıyıq ki, maraqlarımızı maksimum dərəcədə təmin edək. Bunu etmək üçün bizdə bütün imkanlar vardır".[132]

Ölkə qarşısında dayanan əsas problemin Dağlıq Qarabağ münaqişəsinin həlli olduğunu deyən dövlət başçısı bildirdi ki, bu istiqamətdə böyük səylər göstərilir. Minsk qrupunun fəaliyyətinin nəticəsiz olduğunu və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinin vacibliyini, münaqişənin bölgədə böyük təhlükə olduğunu və dondurulmuş münaqişə olmadığını Prezident İlham Əliyev qətiyyətlə aşağıdakı kimi bəyan etdi:

129 Yenə orada, s. 243.
130 Yenə orada, s. 244.
131 Yenə orada, s. 244-245
132 Yenə orada, s. 247.

"...Azərbaycan bu prinsipial mövqedən bir addım geri çəkilməyəcəkdir. Azərbaycanın ərazi bütövlüyü heç vaxt müzakirə mövzusu olmayıbdır və olmayacaqdır. Heç vaxt Azərbaycan dövləti onun əzəli torpağı olan Dağlıq Qarabağa müstəqillik verməyəcəkdir. Bu, mümkün deyildir. Qarşı tərəf bunu bilir".[133]

Nitqində dövlət başçısı münaqişənin həlli yolunu da göstərdi:

"...biz daha da güclü olmalıyıq. Bizim indiki gücümüz kifayət qədər böyükdür. Amma bütün mənalarda daha da güclü olmalıyıq. Azərbaycanın iqtisadi və siyasi addımları, ordu quruculuğu sahəsində atılmış addımlar bunu göstərir ki, biz hər gün həm iqtisadi, həm hərbi, həm siyasi cəhətdən daha da güclənirik. Bölgədə artan rolumuz əlbəttə ki, bizə bu məsələnin həlli üçün də imkan verəcəkdir".[134]

Ərazilərin işğaldan azad edilməsinə dair aydın strateji xətt barədə Prezident İlham Əliyev bildirdi:

"Biz o torpaqlara qayıtmalıyıq və qayıdacağıq. Baxmayaraq ki, işğal edilmiş torpaqlarda hər şey ermənilər tərəfindən dağıdılıb. Biz şəhərləri yenidən tikəcəyik, quracağıq, abadlaşdıracağıq. Biz bu məsələni həmişə diqqət mərkəzində saxlayırıq. Ancaq bu da həqiqətdir ki, biz məsələnin elə bir həllinə nail olmalıyıq ki, Azərbaycanın maraqlarını tam şəkildə təmin etsin. Hansısa yarımçıq razılaşma maraqlarımızı təmin edə bilməz. Bəlkə bu gün biz hər hansı bir güzəştə getməklə işğal edilmiş torpaqların bir hissəsini qaytara bilərik. Ancaq başqa torpaqlar nə vaxt qayıdacaq?!....

Biz ərazi bütövlüyümüzü tam şəkildə bərpa etməliyik. Həm işğal edilmiş torpaqlar, həm Dağlıq Qarabağ bizim torpağımızdır və suverenliyimiz o torpaqlarda təmin edilməlidir. Əlbəttə ki, bu, mərhələlərlə həll olunan məsələdir, ancaq bu, strateji xətdir. Biz bu seçimə sadiqik...

Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir".[135]

Prezidentin nitqi ölkənin gələcəyi ilə bağlı konkret strategiyanın olduğunu bir daha təsdiq edirdi. Eyni zamanda göstərirdi ki, işğal altında qalan torpaqlar necə olursa-olsun azad ediləcəkdir.

İclasda IV çağırış Azərbaycan Respublikası Milli Məclisinin sədri vəzifəsinə Oqtay Əsədov seçildi. Sədrin müavinləri və Milli Məclisin 11 komitəsinin sədrləri seçildi.

Bütün bunlarla yanaşı, qarşıda dayanan başlıca məqsədə nail olmaqdan ötrü fəal xarici siyasət xətti yürüdülür və beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlıq edilirdi.

133 Yenə orada, s. 249.
134 Yenə orada.
135 Yenə orada, s. 251-252.

5.2. Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi

Azərbaycan dövlətinin xarici siyasətinin ən böyük uğurlarından biri 2011-ci ildə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi oldu. Buna qədər BMT ilə münasibətlərdə Azərbaycan böyük bir yol keçmişdi. BMT Baş Məclisinin hələ 2004-cü ilin sentyabrında keçirilən 59-cu sessiyasında nitq söyləyən Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin yerinə yetirilmədiyini bəyan etmiş və onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını vacib məsələ kimi irəli sürmüşdü. Bildirmişdi ki, təkmilləşdirilmiş Təhlükəsizlik Şurası daha geniş tərkibli, daha çox məsuliyyətli və demokratik olmalı, iş metodları daha şəffaf həyata keçirilməli, XXI əsrin yeni təhdidləri, riskləri və təhlükələrinə daha operativ cavab verməlidir. Prezident demişdi:

"Azərbaycan öz ərazisində mövcud olan silahlı münaqişələrin nəticələrindən birbaşa əziyyət çəkən ölkələrdəndir...

Bu işdə heç bir «ikili standart»lara yol vermək olmaz.

...Suveren Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən işğalına cavab olaraq BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə 822, 853, 874, 884 nömrəli 4 qətnaməni yekdilliklə qəbul etdiyini bir daha yada salmaq istərdim. Bu qətnamələr Dağlıq Qarabağ bölgəsinin Azərbaycanın tərkib hissəsi olmasını təsdiqləmiş və Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə, beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinə hörmət edilməsinə qəti şəkildə çağırmış və ərazilərin əldə edilməsi məqsədi ilə güc işlədilməsinin yolverilməz olduğunu vurğulamışdır. BMT qətnamələri Azərbaycanın zəbt olunmuş ərazilərindən bütün işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını və köçkün düşmüş insanların daimi yaşayış yerlərinə təhlükəsiz qayıtması üçün şəraitin təmin olunmasını tələb etmişdir. Sülhün, ədalətin, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə çağıran qətnamələrin heç biri münaqişənin həlli üçün əsas təşkil edən beynəlxalq hüququn fundamental prinsiplərini heç zaman tanımayan və onlara hörmət etməyən Ermənistan tərəfindən yerinə yetirilməmişdir".[136]

Təhlükəsizlik Şurasının biganəliyinin münaqişənin həllinə mənfi təsir etdiyini qeyd edən Prezident İlham Əliyev bildirmişdi:

"...Təhlükəsizlik Şurasının biganəliyi münaqişənin həlli prosesinə dağıdıcı təsir göstərir. Qətnamələrə məhəl qoymayan, hərbi təcavüzünün nəticələrini möhkəmləndirməyə çalışan və bu hərəkətlərinə görə cəzasız qalan Ermənistan nəticə eti-

136 Əliyev İ.H. BMT Baş Məclisinin 59-cu sessiyasının ümumi müzakirələrində çıxışı // İnkişaf – məqsədimizdir. 6-cı kitab. Bakı, 2011, s. 129-130.

barilə işğal olunmuş Azərbaycan ərazilərində Ermənistan əhalisinin kütləvi şəkildə qeyri-qanuni məskunlaşdırılması kimi qəddar siyasət həyata keçirmişdir ki, bu da beynəlxalq hüququn, xüsusilə Müharibə Zamanı Mülki Şəxslərin Müdafiəsi üzrə 1949-cu ildə qəbul edilmiş 4-cü Cenevrə Konvensiyasının müddəalarının açıq şəkildə növbəti dəfə pozulmasıdır.

Bundan əlavə, həmin ərazilərdən narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, silah ötürülməsi, qeyri-qanuni iqtisadi fəaliyyət, qaçaqmalçılıq məqsədi ilə istifadə edilməsi, bu ərazilərin terrorçu yuvasına çevrilməsi vəziyyəti daha da gərginləşdirir....

Təcavüzkar Ermənistan və Dağlıq Qarabağ separatçıları xarici şirkətləri də qeyri-qanuni biznesə cəlb etməyə çalışaraq işğal olunmuş Azərbaycan ərazilərində təbii sərvətləri də istismar edirlər...

Öz növbəsində Azərbaycan suveren dövlətimizə məxsus olan təbii sərvətlərin mənimsənilməsində iştirak etdiklərinə görə bu şirkətlərin məsuliyyət daşıması üçün bütün lazımi hüquqi və praktiki tədbirləri həyata keçirəcəkdir.

Bundan başqa, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin tarixini saxtalaşdırır, mədəni və arxitektura irsinə qeyri-qanuni şəkildə yiyələnir.

Dini və tarixi abidələrimiz, qədim əlyazmalarımız və digər mədəni sərvətlərimiz dağıdılmış, özününküləşdirilmiş və talanıb aparılmışdır.

Münaqişənin siyasi yolla həlli prosesi son 12 il ərzində ATƏT-in Minsk qrupu çərçivəsində həyata keçirilmiş, lakin bu günədək heç bir nəticə verməmişdir...

Aydın məsələdir ki, BMT Təhlükəsizlik Şurasının, ATƏT-in və onun Minsk qrupunun problemə passiv və biganə yanaşdığı və beynəlxalq birlik tərəfindən ciddi təzyiqin göstərilmədiyi indiki şəraitdə Ermənistan özünün təcavüzkar və destruktiv mövqeyindən geri çəkilməyəcəkdir.

Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın qeyri-qanuni fəaliyyəti və onun danışıqlar prosesində tutduğu mövqe bir daha sübut edir ki, Ermənistan münaqişəni baş vermiş fakt əsasında zorla qəbul etdirməyə çalışaraq, nəinki problemin nizamlanması yollarını axtarmır, hətta danışıqların daha da uzadılması və təcavüzün nəticələrini möhkəmləndirmək məqsədi güdür...

Azərbaycan torpaqlarının işğalı, ərazi bütövlüyünün pozulması və etnik təmizləmənin nəticələri ilə heç zaman barışmayacaqdır".[137]

BMT Baş Məclisinin 2006-cı il sentyabrın 7-də keçirilən 60-cı sessiyasının 98-ci plenar iclasında və 2008-ci il martın 14-də keçirilən 62-ci sessiyanın 86-cı plenar iclasında Azərbaycan diplomatiyasının gərgin səyləri ilə qəbul edilmiş "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamələrdə Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin qanunsuz məskunlaş-

137 Yenə orada, s. 130-132.

dırılması, yanğınların törədilməsi pislənilir, Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsinə istinad edilməklə erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb olunur, Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə hörmət ifadə edilir, doğma torpaqlarından qovulmuş azərbaycanlıların yurdlarına qayıtmaq hüququ bir daha təsdiqlənirdi.

Prezident İlham Əliyev 2010-cu ilin sentyabrında BMT Baş Məclisinin 65-ci sessiyasındakı nitqində diqqəti bir daha Ermənistanın hərbi təcavüzünə yönəltmişdi. Dövlət başçısı münaqişənin mümkün qədər tez və davamlı həll variantını tapmaq məqsədi ilə vicdanla danışıqlar aparmaq əvəzinə, Ermənistanın vəziyyətin ağırlaşmasına üstünlük verdiyini və bunun da gözlənilməz nəticələrə gətirə biləcəyini aşağıdakı kimi ifadə etmişdi:

"Münaqişənin tezliklə həll olunması istiqamətində göstərilən hazırkı səylərə baxmayaraq, Azərbaycanın işğal edilmiş ərazilərində aparılan işlər beynəlxalq hüququ kobud surətdə pozur və işğalın cari status-kvosunun daha da möhkəmləndirilməsinə, etnik təmizləmənin nəticələrinin saxlanmasına, zəbt olunmuş ərazilərdə məskunlaşmanın aparılmasına xidmət edir, o cümlədən münaqişənin dinc yolla həllinə ciddi maneə yaradır". [138]

İşğala son qoymaqdan və dövlətin beynəlxalq mövqelərini möhkəmləndirməkdən ötrü BMT-nin ixtisaslaşmış qurumları ilə siyasi, iqtisadi, sosial, humanitar, təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlıq həyata keçirilmişdi. Azərbaycan Respublikası 2003-2005-ci illərdə İqtisadi və Sosial Şurasının üzvü seçilmiş, BMT-nin islahatlar nəticəsində yaradılmış İnsan Hüquqları Şurasına seçilən ilk 47 ölkəsindən biri olmuş və 2006-2009-cu illəri əhatə edən üzvlük müddətində səmərəli fəaliyyəti ilə bu qurumun işinə töhfəsini vermişdi. Şurada göstərdiyi fəallığın nəticəsi olaraq Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi 2008-2009-cu illər üzrə İnsan Hüquqları Şurasının məruzəçisinin müavini seçilmişdi. Lakin Azərbaycan Respublikası heç bir zaman BMT Təhlükəsizlik Şurasının üzvü olmamışdı.

Azərbaycan Respublikasının BMT ilə əlaqələri daha da genişlənərək çoxşaxəli əməkdaşlığa çevrilmiş və müstəqil dövlət kimi inkişafında, beynəlxalq aləmdə müvafiq yer tutmasında mühüm rol oynamışdı. Eyni zamanda Azərbaycan da bu nüfuzlu beynəlxalq təşkilatın daha səmərəli fəaliyyət göstərməsinə, beynəlxalq təhlükəsizliyin və sülhün qorunmasına töhfəsini vermişdi. Bütün bun-

138 Əliyev İ.H. BMT Baş Məclisinin 65-ci sessiyasının açılışı mərasimi. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı // İnkişaf – məqsədimizdir. 42-ci kitab. Bakı, 2017, s.196.

lar Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi üçün zəmin hazırlamışdı.

Məlum olduğu kimi, dünyada sülh və təhlükəsizliyin təmin edilməsində BMT-nin məsul qurumu olan Təhlükəsizlik Şurası 5 daimi və 10 qeyri-daimi üzvdən ibarətdir. BMT Baş Məclisinin Prosedur Qaydalarının 142-ci bəndinə əsasən hər il Təhlükəsizlik Şurasının 10 qeyri-daimi üzvündən 5-i yenilənir.

BMT nizamnaməsinin 23-cü maddəsinə görə, Baş Məclis Təhlükəsizlik Şurasının on qeyri-daimi üzvünü seçərkən ilk növbədə həmin ölkələrin beynəlxalq sülhün və təhlükəsizliyin saxlanılması, təşkilatın digər məqsədlərinə nail olunmasında iştirak səviyyəsinə diqqət ayırır.[139] Təhlükəsizlik Şurası beş daimi üzvdən – ABŞ, Rusiya, Böyük Britaniya, Fransa və Çindən və iki ildən bir seçilən 10 qeyri-daimi üzvdən ibarətdir. Beş daimi üzvdən fərqli olaraq qeyri-daimi üzvlər veto hüququna malik deyillər.

BMT Təhlükəsizlik Şurasına üzv olmağın müəyyən şərtləri mövcuddur. Sülhə, təhlükəsizliyə, tolerantlığa, iqtisadi inkişafa, millətlərarası və sivilizasiyalararası münasibətlərə, dialoqa əməli töhfələr verən dövlət quruma üzv ola bilər. Azərbaycan Respublikası Cənubi Qafqazda bu məsələlərə xüsusi yer verən dövlət idi. Azərbaycan hökumətinin, Heydər Əliyev Fondunun xətti ilə ölkədə keçirilən çoxsaylı beynəlxalq siyasi, iqtisadi, mədəni və humanitar tədbirlər, idman yarışları Azərbaycanın dünyada sülhə, əmin-amanlığa, sivilizasiyalararası dialoqa, dövlətlərarası münasibətlərə, tolerantlığa, multikulturalizmə, millətlərarası əlaqələrə çox böyük töhfələr verdiyini göstərirdi. Digər tərəfdən, Azərbaycan Respublikası artıq beynəlxalq proseslərə də təsir göstərən dövlətə çevrilmişdi. Bu göstəricilərin hər biri Azərbaycanın nüfuzunu artıran çox vacib meyarlar idi. Başqa bir vacib amil isə Prezident İlham Əliyevin dünya siyasətçiləri və liderləri arasında şəxsi nüfuzunun yüksək olması və dövlətlərarası münasibətlərə verdiyi töhfə ilə əlaqədar idi.

Prezident İlham Əliyev 2011-ci il iyulun 6-da Birləşmiş Millətlər Təşkilatına üzv olan bir sıra dövlətlərin bu təşkilatdakı daimi nümayəndələrini qəbul etdi. Səfərin nümayəndə heyətinin üzvləri üçün ölkəni daha yaxından tanımaq və ikitərəfli əlaqələrin genişlənməsinə kömək göstərmək baxımından əhəmiyyətindən bəhs edən dövlət başçısı bildirdi ki, Azərbaycan Respublikasının BMT-də təmsil olunan ölkələrlə yaxşı əlaqələri vardır. Ölkə rəhbəri Azərbaycanın sürətlə inkişaf edən ölkə olduğunu və qarşılıqlı sərmayələrin qoyuluşunun müsbət nəticə verə biləcəyini vurğulayaraq dedi ki, güclü iqtisadi potensial mövcuddur, müxtəlif qitələrdə nəhəng sərmayə qoymaq imkanları vardır və nümayən-

139 Charter of the United Nations and statute of the International Court of Justice. San Francisco, 1945, p. 6-7.

də heyətinin səfəri zamanı bu imkanların nəzərdən keçirilməsi mümkündür. Prezident Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verərək vurğuladı ki, erməni işğalçılarının Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmaları barədə BMT Təhlükəsizlik Şurasının, Baş Məclisinin və digər beynəlxalq təşkilatların qətnamə və qərarları vardır, onların icra edilməsindən ötrü mexanizmin yaradılması vacibdir.[140]

2011-ci ildə 2012-2013-cü illər üçün Təhlükəsizlik Şurasının 5 qeyri-daimi üzvü seçilməli idi. Qaydaya görə, Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçkilərdə namizədlər regional qruplar tərəfindən irəli sürülürdü. Afrikadan və Asiya-Sakit okean regionundan dərhal beş ölkə - Qırğızıstan, Mavritaniya, Mərakeş, Pakistan və Toqo namizədliyini irəli sürmüşdü. Onlar 2011-ci il dekabrın 31-də Qabon, Livan və Nigeriya tərəfindən azad olunan yerlər uğrunda mübarizə aparırdılar. Bosniya və Herseqovinanın tutduğu yerə Şərqi Avropa dövlətləri qrupundan üç ölkə – Azərbaycan, Macarıstan və Sloveniya iddia edirdi.

Reqlamentə görə, qeyri-daimi üzvlüyə seçkilər gizli səsvermə yolu ilə həyata keçirilirdi. Azərbaycan, Qırğızıstan və Qvatemaladan başqa doqquz namizəd ölkə bundan əvvəl Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olmuşdu.

Təhlükəsizlik Şurasına iki illik qeyri-daimi üzvlük üçün 17 raundluq səsvermə keçirildi. Səsvermənin ilk raundu oktyabrın 21-də oldu. Şərqi Avropa qrupundan namizədliyini irəli sürən Sloveniya və Macarıstanla mübarizə aparan Azərbaycan seçkilərin 16 mərhələsində əvvəl Macarıstan, sonra isə Sloveniya üzərində üstünlük qazanaraq 17-ci mərhələdə qələbə üçün tələb olunan 129 səsdən də çox olan 155 səs əldə etdi. Bundan əvvəl keçirilən səsvermənin 16-cı mərhələsində Azərbaycan 116, Sloveniya isə 77 səs toplamışdı. Səsvermənin sonuncu mərhələsindən əvvəl Sloveniya namizədliyini geri götürdüyünü bildirdi. Axırıncı mərhələdə Azərbaycanın lehinə 155 ölkə səs verdi, 24 ölkə bitərəf qaldı və daha 13 ölkə yenə də Sloveniyaya səs verdi. Digər səsvermənin yekunları üzrə Təhlükəsizlik Şurasının yeni qeyri-daimi üzvləri Qvatemala, Mərakeş, Toqo və Pakistan oldular.

Beləliklə, Azərbaycan Respublikası 2011-ci il oktyabrın 24-də 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə 193 dövlətdən 155-nin səsi ilə inamlı qələbə qazandı. Azərbaycan dövlətinin Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü 2012-ci il yanvarın 1-dən başladı və 2013-cü il dekabrın 31-ə qədər davam etdi. Azərbaycan iki il ərzində Şərqi Avropa dövlətlər qrupunu bu qurumda təmsil etdi. Qeyd etmək lazımdır ki, Şərqi Avropa ölkələri qrupundan Ermənistan da BMT Təhlükəsizlik Şurasının

140 Əliyev İ.H. Birləşmiş Millətlər Təşkilatına üzv olan bir sıra dövlətlərin bu təşkilatdakı daimi nümayəndələri ilə görüş // İnkişaf – məqsədimizdir. 46-cı kitab. Bakı, 2017, s. 325-326.

üzvü seçilmək iddiasına düşsə də, rüsvay olacağını və heç birinci turdan belə keçməyəcəyini anladığı üçün namizədlikdən imtina etmişdi.[141]

Qeyri-daimi üzv seçildikdən sonra Azərbaycan Respublikası tərəfindən Təhlükəsizlik Şurasında iki illik fəaliyyət üçün hazırlıq işləri aparıldı və Şuranın gündəliyinə uyğun olaraq müəyyən tədbirlər planlaşdırıldı.

Prezident İlham Əliyevin adından 2012-ci il mayın 3-də Nyu Yorkda BMT Baş katibinin, ABŞ-ın nüfuzlu siyasi və ictimai xadimlərinin iştirak ilə Azərbaycan Respublikasının BMT-yə üzv qəbul olunmasının 20-ci ildönümü və ölkənin 2012-2013-cü illər üçün Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibətilə rəsmi qəbul keçirildi. Toplantıda nitq söyləyən İlham Əliyev qurumla əməkdaşlığın Azərbaycanın dünya birliyinə sıx inteqrasiyasına kömək etdiyini və beynəlxalq mövqeyini möhkəmləndirdiyini belə ifadə etdi:

"Bu gün biz Azərbaycanın müasir tarixində iki mühüm hadisəni qeyd edirik. 20 il öncə Azərbaycan BMT-nin üzvü oldu. Ötən il isə ölkəmiz bu təşkilatın Təhlükəsizlik Şurasına üzv seçildi...

Biz iyirmi il öncə müstəqil ölkəyə çevrildik. Xalqımızın böyük tarixi, mədəniyyəti və adət-ənənələri vardır. Lakin müstəqil deyildik...

İyirmi il ərzində baş verən dəyişikliklər göstərdi ki, Azərbaycan böyük uğurlar əldə edib...

Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Biz bundan qürur duyuruq.

Bu bizim keçmişdən qalan irsimizdir. Siyasi sistemdən asılı olmayaraq, həyatımızın bütün dövrlərində Azərbaycan dinlərin və xalqların qovuşduğu, bir ailə kimi yaşadığı məkan olub".[142]

Ölkənin başlıca probleminin Ermənistanın hərbi təcavüzünə son qoymaq olduğunu qeyd edən Prezident bildirdi:

"Əsas sosial problemlərdən biri qaçqın və məcburi köçkünlərlə bağlıdır. 20 ildir ki, Ermənistanın təcavüzündən və torpaqlarımızın işğalından əziyyət çəkirik. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi hələ də işğal altındadır. BMT Təhlükəsizlik Şurası məsələ ilə bağlı 4 qətnamə qəbul edib. Əfsuslar olsun ki, onlar hələ də icra olunmayıb. Ermənistan onlara məhəl qoymur. Həmin qətnamələrdə erməni silahlı qüvvələrinin ərazilərimizdən qeyd-şərtsiz və dərhal çıxarılması tələb olunur. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regional sabitliyə əsas təhlükədir. Bu, regionda böyük ədalətsizlikdir və beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması deməkdir. Azərbaycan BMT-yə

141 Qasımlı M. İlham Əliyev Azərbaycan tarixinin mühüm ilklərinin müəllifidir // "Azərbaycan" qəzeti, 2016, 16 oktyabr.

142 Əliyev İ.H. Azərbaycanın BMT-yə üzv qəbul olunmasının 20-ci ildönümü və 2012-2013-cü illər üçün BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibətilə rəsmi qəbulda iştirak // İnkişaf – məqsədimizdir. 51-ci kitab. Bakı, 2017, s.43-44.

20 il öncə suveren və bütöv ölkə kimi daxil oldu. Dağlıq Qarabağ Azərbaycanın tarixi ərazisidir. Hər zaman Azərbaycanın tarixi hissəsi olub. Hüquqi baxımdan Azərbaycanın ayrılmaz hissəsidir. Biz ərazi bütövlüyümüzün bərpasını, qaçqın və məcburi köçkünlərimizin doğma yerlərinə qayıtmasını istəyirik".[143]

Azərbaycan dövlətinin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi ilə əlaqədar olaraq verdiyi bəyanatında Prezident İlham Əliyev deyirdi:

"...ölkə daxilində aparılan islahatlarla bərabər bizim xarici siyasətimiz də çox çevik və uğurludur. Bizim xarici siyasətimizin əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycan müstəqil siyasət aparır...

Bu qələbə Azərbaycan xalqının qələbəsidir. Bu qələbə Azərbaycan dövlətinin qələbəsidir, siyasətimizin təntənəsidir".[144]

Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsinin böyük əhəmiyyəti var idi. Hər şeydən əvvəl, bu üzvlük tarixi hadisə idi. Çünki bununla Azərbaycan dövləti müstəqilliyinin 20-ci ilində artıq dünya siyasətini müəyyən edən 15 ölkədən birinə çevrilir, beynəlxalq nüfuzu daha da artır, regionun lideri statusu möhkəmlənirdi. Bu, həm də onu göstərirdi ki, siyasi iradə və əzm olan yerdə istənilən hədəfə çatmaq olar. Azərbaycan Respublikasının namizədliyinin lehinə səs verilməsi ölkənin ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının bir daha təsdiqi oldu. Digər tərəfdən, bu hadisə Azərbaycanın müxtəlif qlobal problemlərin müzakirəsinə cəlb olunduğunu, regional siyasətlə yanaşı, dünya siyasətinin də əsas aktorlarından birinə çevrildiyini göstərirdi.

Təhlükəsizlik Şurasına üzvlük məqsəd deyil, bir vasitə idi. Bu, Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüququn normalarına uyğun həlli istiqamətində Azərbaycana vacib platforma verirdi. Münaqişə ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə həll edilməmiş qaldığından, Azərbaycan dövləti BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlükdən istifadə edərək özünün təhlükəsizlik problemlərini, ilk növbədə, pozulmuş ərazi bütövlüyü məsələsini gündəliyə gətirmək üçün əlavə imkan qazanırdı.

Azərbaycan Respublikası iki il müddətində Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyündən istifadə edərək beynəlxalq hüququn normalarının bərpasını tələb etmək hüququna malik oldu. Məlum olduğu kimi, münaqişələrin nizama salınmasına dair ATƏT-in icraedici mexanizmi mövcud deyildi. BMT-nin isə icraedici mexanizmləri var idi. Qətnamələrin və qərarların yerinə yetirilməsindən ötrü dünyanın aparıcı dövlətlərinin də istəyi və iradəsi tələb olunurdu. Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi bir çox addımlar atan Azərbaycan

143 Yenə orada, s. 45.
144 Əliyev İ.H. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi münasibətilə bəyanat // İnkişaf – məqsədimizdir. 48-ci kitab. Bakı, 2017, s. 177.

Respublikası "hücum diplomatiyası" taktikasını reallaşdıraraq mövqeyini dünyaya nümayiş etdirmək imkanı əldə edirdi.

Prezident İlham Əliyev dövlət müstəqilliyinin bərpasının 20-ci ilində belə böyük uğurun əldə edilməsini tarixi nailiyyət kimi qiymətləndirərək deyirdi:

" Bu səsvermə müstəqilliyimizin 20 illiyinə təsadüf edir. Bu, çox rəmzi məna daşıyan bir hadisədir. Bu, göstərir ki, 20 il ərzində Azərbaycan müstəqil dövlət, dünyada böyük şöhrətə malik olan ölkə kimi özünü göstərib".[145]

Azərbaycan Respublikası 2012-ci il yanvarın 1-dən Təhlükəsizlik Şurasında səlahiyyətlərinin icrasına başladı. ABŞ, Çin, Rusiya, Böyük Britaniya və Fransa kimi daimi üzvlərlə birgə Azərbaycanın da dünyanın ən nüfuzlu universal tipli beynəlxalq təşkilatının ən ali qurumunda iştirakı ölkənin tutduğu yolun dünya tərəfindən dəstəklənməsinin təsdiqi idi. Bu, həm də beynəlxalq birliyin Azərbaycanda yürüdülən siyasətə və Prezident İlham Əliyevin fəaliyyətinə inam və etimadının ifadəsini göstərirdi.

Təhlükəsizlik Şurasının Prezident İlham Əliyevin sədrliyi ilə mayın 4-də Nyu Yorkda keçirilən yüksək səviyyəli iclası terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər mövzusuna həsr olunmuşdu. İlham Əliyevi Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasına sədrlik etməsi münasibətilə təbrik edən və dövlət başçısının bu iclasa sədrliyini alqışlayan BMT-nin baş katibi Pan Gi Mun bildirdi ki, beynəlxalq ictimaiyyət terrorizmə qarşı davamlı mübarizə aparır və dünyanın müxtəlif nöqtələrindəki terror təşkilatları hələ də təhlükə mənbəyi olaraq qalır.[146]

Almaniyanın xarici işlər naziri Prezident İlham Əliyevə Təhlükəsizlik Şurasına sədrlik etməsi münasibətilə təbriklərini çatdıraraq dedi:

"Bizim birgə fəaliyyətimiz terrorçu mənbələri zəiflətmişdir".[147]

ABŞ-ın BMT-dəki daimi nümayəndəsi bildirdi ki, terror dünyadan hələ də əl çəkməmişdir və ona qarşı mübarizə tədbirləri davam etdirilməlidir. Birləşmiş Ştatlar terrora qarşı dünyanın hər bir yerində mübarizə aparır. Mərakeşin xarici işlər və əməkdaşlıq naziri belə bir əhəmiyyətli iclasa sədrlik etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirərək dedi ki, bu, terrorizmə qarşı əməliyyatlara verilən xüsusi diqqətdən irəli gəlir. Rusiya Federasiyası Prezidentinin terrorizm və mütəşəkkil cinayətkarlıqla mübarizə üzrə xüsusi nümayəndəsi bildirdi ki, terrorizmə heç cür bəraət qazandırmaq olmaz və onunla mübarizə yalnız beynəlxalq əməkdaşlıq sayəsində mümkündür. Kolumbiya nümayəndəsi belə böyük əhəmiyyətə malik bir iclasa sədrlik etdiyinə görə

145 Yenə orada.
146 Əliyev İ.H. Azərbaycan Prezidentinin sədrliyi ilə BMT Təhlükəsizlik Şurasının yüksək səviyyəli iclasında iştirak // İnkişaf – məqsədimizdir. 51-ci kitab, s.48.
147 Yenə orada.

Prezident İlham Əliyevə minnətdarlığını bildirərək, bir neçə ay əvvəl Azərbaycan Respublikasına səfərini xatırlatdı, terrorizmə qarşı mübarizənin ölkəsinin də prioritetləri sırasına daxil olduğunu diqqətə çatdırdı. Çin Xalq Respublikası terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər mövzusunda yüksək səviyyəli iclas keçirmək təşəbbüsünə görə BMT Təhlükəsizlik Şurasına sədrlik edən Azərbaycan dövlətinə təşəkkürünü bildirdi. Pakistan, Böyük Britaniya, Hindistan, Cənubi Afrika Respublikası, Qvatemala, Fransa, Portuqaliya və başqa ölkələrin nümayəndələri də çıxışlarında Azərbaycan Respublikasının tarixində BMT Təhlükəsizlik Şurasına ilk dəfə sədrlik etməsini yüksək qiymətləndirdilər.

İclasda sədr olaraq Prezident İlham Əliyevin nitq söyləməsi müstəqil Azərbaycan Respublikası tarixində bir ilk idi. Dünya problemlərini gündəliyə gətirən ökə rəhbəri birinci növbədə beynəlxalq sülh və təhlükəsizliyə olan təhdidlərə diqqəti cəlb edərək dedi:

"Azərbaycan terrorçuluğun bütün forma və təzahürlərini qəti surətdə pisləyir...

Terrorçulara öz əməllərini əsaslandırmaq üçün heç vaxt imkan verilməməlidir. Səbəblərindən asılı olmayaraq, heç bir terror aktı əsaslandırıla bilməz. Terrorçuluğun dəyişən mahiyyəti və siması, bir çox hallarda onun təcavüzkar separatizm, ekstremizm və mütəşəkkil cinayətkarlığa bağlılığı vardır".[148]

Azərbaycanın terrora məruz qalması məsələsi üzərində dayanan dövlət başçısı vurğuladı:

"Azərbaycan müxtəlif yollarla terrorçuluğa məruz qalmışdır. Azərbaycan kənardan təşkil olunan terror fəaliyyətinin birbaşa hədəfinə çevrilmişdir. Ermənistan Respublikası Azərbaycanın mülki əhalisi və infrastrukturuna qarşı onlarla terror aktı törətmişdir. Bunun nəticəsində 2 mindən artıq azərbaycanlı həyatını itirmişdir. Ermənistan öz güc strukturlarının bilavasitə iştirakı ilə hazırladığı həmin terror aktlarını beynəlxalq terror qruplarından istifadə edərək törətmişdir. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin fəal fazasında Ermənistan etnik təmizləməyə nail olmaq üçün hərbi təcavüzlə yanaşı, mülki əhaliyə qarşı geniş şəkildə terror aktlarından da istifadə etmişdir. Həmin vəhşilik aktları 1992-ci ilin fevral ayında Xocalı əhalisinin məhv edilməsi ilə kulminasiya nöqtəsinə çatdı... Ermənistan, həmçinin münaqişə zonasından uzaq məsafədə də ictimai nəqliyyatda və mühüm infrastruktur yerlərində, 1994-cü ildə Bakı metrosunda bomba partlayışı və digər əməllər kimi terror aktlarını törədərək, mülki əhaliyə qarşı mübarizə apardı.

Bu gün Ermənistanın terror risklərindən irəli gələrək, biz əsasən terror hədələrinin tərəfimizdən zərərsizləşdirilməsinə baxmayaraq, bu risk yenə də yüksək olaraq qalır. Bir sıra terror aktlarının, o cümlədən Azərbaycanın mülki infrastruktur-

148 Yenə orada, s. 50.

larına, xüsusən su rezervuarları və bəndlərinə, neft kəmərləri şəbəkəsinə hücum edilməsi kimi əməllərin legitim hərbi taktikası olması ilə bağlı açıq bəyanatlar və fikirlər hələ də müşahidə edilir".[149]

Ermənistanda terrorun dövlət orqanlarının fəaliyyətinə inteqrasiya etməsini Prezident belə ifadə etdi:

"Beynəlxalq terror təşkilatlarının elementləri Ermənistanın təhlükəsizlik və müdafiə sektoruna inteqrasiya edilib. Avropa dəyərlərinə və universal dəyərlərə sadiq olduğunu göstərməyə çalışan ölkə tərəfindən beynəlxalq terror təşkilatlarının üzvlərini qəhrəman kimi qələmə vermək və onlara abidələr ucaltmaq səylərini görmək təəssüf doğurur".[150]

İşğalçı Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasətindən bəhs edən dövlət başçısı bildirdi:

"Azərbaycanlılara qarşı aparılmış etnik təmizləmə siyasəti Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalı ilə nəticələnmişdir. Bir milyondan artıq qaçqın və məcburi köçkün öz doğma yurdlarından didərgin salınmışdır".[151]

Ermənistanın beynəlxalq birliyin iradəsini saya salmamasına diqqəti yönəldən ölkə rəhbəri söylədi:

"BMT-nin Təhlükəsizlik Şurası erməni qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Lakin əfsuslar olsun ki, Ermənistan təxminən 20 il ərzində bu qətnamələrə məhəl qoymur".[152]

Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistanın qanunsuz fəaliyyətlərindən danışan Prezident vurğuladı:

"Azərbaycanın işğal edilmiş əraziləri terrorçuluqla separatizm, ekstremizm və mütəşəkkil cinayətkarlıq, o cümlədən narkotik maddələrin dövriyyəsi, çirkli pulların yuyulması və silah qaçaqmalçılığı arasında olan əlaqə baxımından böyük narahatlıq mənbəyidir. Ermənistanın terror hədələrinə əlavə olaraq, Azərbaycan beynəlxalq terror qruplarından irəli gələn risk və təhlükələrlə hələ də üzləşir".[153]

Dövlət rəhbəri terrorçuluğun qarşısının alınmasından ötrü beynəlxalq səylərin birləşdirilməsinin vacibliyini belə ifadə etdi:

"Beynəlxalq ictimaiyyətin terrorçuluğun qarşısının alınmasında böyük nailiyyətlər əldə etməsinə baxmayaraq, bu bəlanın qarşısını almaq, ona qarşı mübarizə aparmaq üçün hələ də çox işlər görülməlidir".[154]

149 Yenə orada, s. 50-51.
150 Yenə orada, s. 51.
151 Yenə orada.
152 Yenə orada.
153 Yenə orada.
154 Yenə orada.

Terrorun dinlərlə əlaqələndirilməsinin qəti şəkildə əleyhinə çıxan Prezident İlham Əliyev bildirdi:

"Terrora qarşı mübarizə hər hansı konkret din və ya mədəniyyətə hücum çəkmək üçün istifadə edilə bilməz... Son illər ərzində bəzi ölkələrdəki islamofobiyanın qəbuledilməz səviyyədə olması bu cür böhtan xarakterli hərəkətlərin və səhv konsepsiyaların qarşısının alınmasında birgə səylərin və dialoqun olduqca böyük əhəmiyyətini təsdiqləmişdir".[155]

Dövlət başçısı Azərbaycanın sivilizasiyalararası dialoqa verdiyi töhfə barədə dedi:

"Azərbaycan sivilizasiyaların dialoqu işinə töhfə verməyə çalışır. Ölkəmiz müxtəlif dinlərin nümayəndələri arasında daha yaxşı anlaşmanın yaradılmasına xidmət edən çoxsaylı tədbirlər keçirir. Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir, bütün millətlərin və dinlərin nümayəndələri ölkəmizdə sülh, anlaşma şəraitində yaşayırlar. Ölkəmizdə aparılan çoxmədəniyyətli dialoq müxtəlif dinlərə və mənşəyə malik olan insanlar arasında sülh şəraitində birgəyaşayışın yaxşı nümunəsi kimi istifadə oluna bilər. Azərbaycan tolerantlıq ölkəsidir və biz keçmişin bu irsini yüksək dəyərləndiririk".[156]

Nitqinin sonunda Prezident terrorçuluğa qarşı mübarizədə səylərin birləşdirilməsinin və ölkələrin ərazi bütövlüyünə hörmət edilməsinin zəruriliyini söylədi:

"Terrorçuluğun hazırkı siması və onun beynəlxalq sülh və sabitliyə təhlükə olan digər hədələrlə bağlılığı dövlətlər arasında daha sıx əməkdaşlığı, o cümlədən BMT-nin daha yaxşı, əlaqələndirilmiş, ahəngdar və sistemli yanaşmasını tələb edir. ...beynəlxalq ictimaiyyət beynəlxalq hüququn ümumi qaydada qəbul edilmiş normaları və prinsipləri əsasında münaqişələrin, xüsusən ərazi bütövlüyünün təmin edilməsi və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına aid məsələlərin həllinə çalışmalı və ölkələrə öz əraziləri üzərində suverenliyin bərpa edilməsinə yardım etməlidir".[157]

Prezident İlham Əliyev Təhlükəsizlik Şurasına Azərbaycan Respublikasının sədrliyində fəaliyyətinin əsas istiqamətləri barədə bildirdi:

" Azərbaycan ədalət ideallarını, beynəlxalq hüququ və bütün ölkələr arasında sülh şəraitində əməkdaşlığı müdafiə edəcəkdir. Biz bölgəmizdə region ölkələrini bir araya gətirmək üçün çox çalışırıq. Təşəbbüslərimiz regional əməkdaşlığın dostluq, tərəfdaşlıq və yaxşı qonşuluq ruhunda genişləndirilməsinə yönəlib.

155 Yenə orada, s. 52.
156 Yenə orada, s. 52-53.
157 Yenə orada, s. 53-54.

...Azərbaycan bütün ölkələr qarşısında etibarlı və dost tərəfdaş olacaqdır. Biz əməkdaşlıq və tərəfdaşlığımızı genişləndirmək istəyirik".[158]

Azərbaycanın böyük tarixi və mədəniyyətindən bəhs edən dövlət rəhbəri dedi:

"Ölkəmizin böyük tarixi, mədəniyyəti və adət-ənənələri vardır. Lakin müstəqil ölkə kimi bizim hələ iyirmi yaşımız vardır. Bu illər dəyişikliklər, inkişaf və dünyaya təqdimat illəri olmuşdur. Namizədliyimizin 155 ölkə tərəfindən dəstəklənməsi faktı bir tərəfdən göstərir ki, biz özümüzü təqdim etməyi bacardıq. Eyni zamanda, bu, beynəlxalq ictimaiyyətin bizə verdiyi dəstəyi, bizə olan etimadı və inamını nümayiş etdirir, bu məsuliyyəti bizə həvalə edir. Sizi əmin edə bilərəm ki, biz bu məsuliyyəti üzərimizə götürməyə hazırıq. Bizə etimad göstərənlərin etimadını doğruldacağıq..."[159]

Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasına üzv olan dövlətin rəhbəri kimi iclasa sədrlik etməsinin və nitq söyləməsinin Azərbaycan milləti və dövləti üçün böyük tarixi əhəmiyyəti var idi. Hər şeydən əvvəl, Azərbaycan dövlətinin istənilən beynəlxalq təşkilatda təmsil olunması, beynəlxalq səviyyədə bu və ya digər uğuru müstəqil ölkə kimi rolunu göstərirdi. Qeyri-daimi üzvlük, sədrlik və ölkə rəhbərinin nitq söyləməsi Azərbaycan Respublikasına və Prezident İlham Əliyevin nüfuzuna müsbət təsir edən beynəlxalq amil idi. Dövlət başçısı buna qədər də xarici ölkələrdə və beynəlxalq təşkilatlarda kifayət qədər yaxşı tanınırdı və beynəlxalq toplantılarda dəfələrlə nitqlər söyləmişdi. Onun nitqləri dünya ölkələrinin dövlət, siyasi və ictimai xadimləri tərəfindən rəğbətlə qarşılanırdı. Təhlükəsizlik Şurasının üzvləri İlham Əliyevi dinlədikcə Azərbaycan Respublikasını və onun Prezidentini sanki yenidən kəşf edirdilər. Ona görə ki, Prezidentin nitqində onun dərin zəkası, yüksək intellekti, nəhəng siyasi çəkisi və yenilməz iradəsi dərhal seçilirdi.

Prezident İlham Əliyevin nitqi Azərbaycanın təkcə XXI əsr deyil, həm də bütün dövlətçilik tarixi üçün yadda qalan və əhəmiyyətli hadisə oldu. Çünki Azərbaycan tarixində ilk dəfə olaraq dövlət rəhbəri universal tipli beynəlxalq təşkilata sədrlik edir və nitq söyləyirdi.

Dövlət başçısının Təhlükəsizlik Şurasının iclasında terrorçuluq əleyhinə mübarizə və terror təşkilatlarının işğal olunmuş Azərbaycan torpaqlarından öz məqsədləri üçün istifadə etmələrinə dair gündəliyə gətirdiyi məsələlər ölkənin gələcəyi üçün əhəmiyyətli idi. Ermənistanın təkcə region deyil, həm də bütün dünya üçün təhlükə törətməsi məsələsi dünya ictimaiyyətinin diqqətinə çatdırıldı. Ermənistan terrorçuluğu dəstəkləyən və Azərbaycanın işğal olunmuş ərazilə-

158 Yenə orada, s. 54.
159 Yenə orada.

rində terrorçuların düşərgəsini yerləşdirən, terroru və terrorçuları dövlət səviyyəsində himayə edən dövlət idi. Terrorçular və terror təşkilatları Ermənistanda sığınacaq tapmışdılar. Azərbaycan terrorçuluğun dövlət siyasəti səviyyəsinə qaldırıldığı təcavüzkar Ermənistanla üzbəüz qalmışdı. Buna baxmayaraq, dünyanın bir sıra iri dövlətləri hələ də terrorun mahiyyətini başa düşmürdülər. Yalnız 11 sentyabr 2001-ci ildə baş verən faciəvi hadisələrdən sonra ABŞ terrorçuluğun nə dərəcədə böyük bir təhlükə olduğunu anlamışdı. Beynəlxalq ictimaiyyətin həlli ilə məşğul olduğu məsələlər sırasına terrorçuluq əleyhinə mübarizə daxil edilmişdi. Azərbaycan terrordan əziyyət çəkən ölkə kimi həmişə bu bəla ilə mübarizə aparan ölkələrin yanında olmuşdu.

Təhlükəsizlik Şurasında Azərbaycan dövlətinin sədrliyi müddətində vacib toplantılar həyata keçirildi. Üzv dövlətlərin BMT yanında daimi nümayəndələri 2012-ci il mayın 18-24-də Qərbi Afrikaya səfər etdilər, mayın 26-27-də İstanbulda "Yaxın Şərq və Şimali Afrika: yeni siyasi reallıqlar" mövzusunda toplantı keçirildi. Mayın 30-da isə Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyi tərəfindən toplantı təşkil edildi[160] . Bu müddət ərzində BMT Təhlükəsizlik Şurasının 13 açıq, 16 qapalı iclası keçirildi. Təhlükəsizlik Şurasının 2-si Sudandakı vəziyyətə, 1-i isə Qvineya-Bisaudakı hərbi çevrilişə dair olmaqla 3 qətnaməsi, habelə mətbuat üçün 7 bəyanatı qəbul edildi.

Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasında 2013-cü ilin oktyabr ayından başlayan ikinci sədrliyi zamanı ilk dəfə olaraq Azərbaycanın təşəbbüsü ilə "Birləşmiş Millətlər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi" mövzusunda yüksək səviyyəli iclas keçirildi. İclasın başlıca məqsədi BMT və üzv dövlətlərin sayına görə dünyada ikinci ən böyük hökumətlərarası təşkilat olan İƏT arasında beynəlxalq sülh və təhlükəsizliyin qorunmasına dair əməkdaşlığın mövcud vəziyyətinə və tərəfdaşlıq əlaqələrinin daha da gücləndirilməsinə dair mümkün birgə fəaliyyət üzrə müzakirələrin aparılması idi. İclasda islam mədəniyyətinin bəşəriyyətə, elmə və təhsilə mühüm töhfələr verdiyi qeyd olundu, onun təhqir edilməsinə və hücum hallarına qarşı mübarizə aparmaq məqsədilə birgə səylərə, dialoqa ehtiyac duyulduğunun və qlobal səviyyədə dini və mədəni müxtəlifliyə hörmət edilməsinin vacibliyi vurğulandı. Həmçinin Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalının davam etdirilməsindən narahatlıq ifadə edildi, münaqişənin suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsipləri və Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri əsasında tənzimlənməsinə dair çağırışlar səsləndi.

160 Hacalıyev E. Uğurlu əməkdaşlıq modeli. Azərbaycanın BMT-yə üzv qəbul olunmasından 25 il ötür // "Azərbaycan" qəzeti, 2017, 1 mart.

Yüksək səviyyəli görüşün yekun sənədi kimi qəbul edilmiş BMT Təhlükəsizlik Şurası sədrinin bəyanatında BMT və İƏT arasında əməkdaşlığın gücləndirilməsinin vacibliyi qeyd edilir, həmçinin münaqişələrin BMT nizamnaməsi və BMT Təhlükəsizlik Şurasının qərarları əsasında həll edilməsinə dair hər iki təşkilatın eyni mövqedən çıxış etdiyi vurğulanırdı. Bu isə Azərbaycan dövlətinin qarşısında dayanan başlıca məqsədə nail olmaqdan ötrü hazırlanan zəminlərdən biri idi.

2013-cü ilin oktyabrında beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsində qadınların rolu, Yaxın Şərqdə vəziyyət və Təhlükəsizlik Şurasının iş metodlarına dair Şuranın açıq müzakirələri təşkil edildi. Digər mühüm toplantı 3-9 oktyabr tarixlərində Təhlükəsizlik Şurasının missiyasının Afrikaya səfəri oldu. Səfərdə məqsəd Afrikanın Böyük Göllər regionunda siyasi, təhlükəsizlik və humanitar vəziyyətlə tanış olunması, Afrika İttifaqının Sülh və Təhlükəsizlik Şurası ilə illik birgə müzakirələrin keçirilməsi idi. Təhlükəsizlik Şurasının üzvləri Konqo, Ruanda, Uqanda və Efiopiyada oldular. Oktyabrın 8-də Efiopiyanın paytaxtı Əddis-Əbəbə şəhərində Afrika İttifaqının Sülh və BMT Təhlükəsizlik Şurasının 7-ci illik birgə müşavirəsi keçirildi. Ekvatorial Qvineya və Azərbaycanın həmsədrlik etdiyi iclasda Böyük Göllər regionu, Sudan – Cənubi Sudan münasibətləri, Somali, Mərkəzi Afrika Respublikası və Sahel bölgəsində vəziyyət barədə müzakirələr aparıldı və yekunda birgə bəyannamə qəbul edildi. Afrika İttifaqının üzv dövlətlərinin müraciəti əsasında Azərbaycan Respublikası oktyabrın 31-də təşkilatın İcraiyyə Şurasının Beynəlxalq Cinayət Məhkəməsi üzrə Əlaqələndirmə Qrupunu təmsil edən Efiopiya, Burundi, Mavritaniya, Uqanda, Seneqal, Namibiya və Keniyanın xarici işlər nazirləri və digər yüksək rəsmi şəxsləri ilə Təhlükəsizlik Şurasının qeyri-rəsmi görüşünü keçirdi.

Təhlükəsizlik Şurasında sədrlik müddətində dörd qətnamə – BMT-nin Haitidəki Sabitləşdirmə Missiyasının mandatının uzadılmasına dair 2119 saylı, Əfqanıstandakı Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin mandatının uzadılmasına dair 2120 saylı, Mərkəzi Afrika Respublikasındakı vəziyyətə dair və Şuranın oktyabrın 18-də "Qadınlar və sülh və təhlükəsizlik" mövzusunda keçirilmiş açıq iclasının yekununda qətnamələr qəbul edildi. Təhlükəsizlik Şurası sədrinin BMT və İslam Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın gücləndirilməsi və Suriyada humanitar vəziyyətə dair iki, Liviyanın paytaxtı Tripoli şəhərində oktyabrın 2-də Rusiya səfirliyinə qarşı törədilmiş terror hücumu, Sudanın bəzi bölgələrində poliomielit xəstəliyinə qarşı peyvənd layihəsi, Sudanın Darfur bölgəsindəki Afrika İttifaqı və BMT-nin Birgə Əməliyyatı, BMT-nin Mali və Konqodakı missiyalarında xidmət edən sülhməramlı əsgərlərinin qətlə yetirilməsi və Qvineyada keçirilmiş seçkilər ilə əlaqədar altı bəyanatı qəbul olundu.

Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyi tərəfindən Təhülkəsizlik Şurası və BMT-nin digər üzv dövlətləri, BMT-nin katibliyi, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə Təhlükəsizlik Şurasında sədrliyin başa çatması münasibətilə oktyabrın 30-da rəsmi toplantı keçirildi.[161]

Təhlükəsizlik Şurasında sədrlik Azərbaycan Respublikasının beynəlxalq aləmdə artan nüfuzunun, dünyada cərəyan edən proseslərdə yaxından iştirakının və sülhün bərpa edilməsi yolunda xidmətinin növbəti nümunəsi idi. Beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasında səylərini əsirgəməyən və davamlı şəkildə fəaliyyət göstərən Azərbaycan dövləti bu dəfə də Təhlükəsizlik Şurasının sədri qismində beynəlxalq səviyyədə ədalətin və hüququn prinsiplərinin bərqərar olmasına töhfələrini vermişdi.

Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlüyü 2013-cü il 31 dekabr tarixində sona çatdı. Bu üzvlük həm dünya siyasəti, həm də Azərbaycan dövlətçiliyi və xarici siyasəti baxımından bir sıra fəaliyyətlərlə tarixə keçdi. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, ədalətin və beynəlxalq hüququn norma və prinsiplərinin qorunmasını Təhlükəsizlik Şurasında özünün prioritet məqsədi kimi qarşıya qoyan Azərbaycan Respublikası iki il ərzində qurumun qeyri-daimi üzvü kimi uğurlu fəaliyyətini davam etdirdi, beynəlxalq sülh və təhlükəsizliyin qorunmasına töhfələrini verdi, Şuranın gündəliyində dayanan məsələlərin müzakirəsində fəal rol oynadı və özünün aydın və konkret mövqeyini ortaya qoydu.

Azərbaycan dövləti müstəqillik tarixində ilk dəfə bu ali qurumun üzvü kimi beynəlxalq gündəlikdə dayanan ən aktual məsələlər barəsində müxtəlif səviyyələrdə müzakirələrin aparılmasının və qərarların qəbul edilməsinin bilavasitə iştirakçısı oldu. Beynəlxalq hüququn norma və prinsiplərinə riayət olunması, qanunun aliliyi, münaqişələrin qarşısının alınması və həll edilməsi, münaqişəli vəziyyətlərdə mülki əhalinin müdafiəsi, terrorçuluq əleyhinə mübarizə, BMT və regional təşkilatlar arasında əməkdaşlıq mövzuları ilə yanaşı, Yaxın Şərq sülh prosesi, Suriya, Əfqanıstan və Afrikanın bir sıra dövlətlərində vəziyyət BMT Təhlükəsizlik Şurasına iki illik üzvlüyü müddətində ölkənin böyük əhəmiyyət verdiyi məsələlər sırasında oldu.

Azərbaycan beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi və qorunmasında, davamlı inkişaf və demokratikləşmə prosesində BMT-nin vacib rol oynadığını bir daha dünyaya göstərdi, XXI əsrdə dünyanı narahat edən təhdid və problemlərə qarşı mübarizə apara bilməsi üçün qurum çərçivəsində islahat-

161 Azərbaycan BMT Təhlükəsizlik Şurasında ikinci dəfə sədrliyi dövründə də beynəlxalq hüququ və ədaləti müdafiə etmişdir // "Azərbaycan" qəzeti, 2013, 6 noyabr.

ların həyata keçirilməsi ideyasını dəstəklədi. Üzvlüyün yaratdığı imkanlardan tam istifadə edən Azərbaycan bir sıra vacib mövzularda prinsipial mövqeyini bildirdi.

"Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə törətdiyi təhdidlər: Terrorçuluqla mübarizə üzrə öhdəliklərin yerinə yetirilməsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi" mövzusunda keçirilən Təhlükəsizlik Şurasının yüksək səviyyəli iclasında yekun sənəd kimi Təhlükəsizlik Şurasının sədrinin, yəni Azərbaycan dövlətinin bəyanatı qəbul edildi.[162] Bəyanatda terrorçuluğun bütün forma və təzahürləri pislənilir və terrorçuluğa qarşı bütün vasitələrlə mübarizənin vacibliyi bildirilir, dövlətlərin ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı güc tətbiq etməmək prinsipi vurğulanır, habelə terrorçuluğun qarşısının alınması, onunla mübarizədə dinlər və mədəniyyətlər arasında hörmət və dialoqun təşviq edilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti qeyd edilirdi.

Üzvlüyü müddətində Azərbaycan Respublikası milli maraqlarının qlobal səviyyədə irəli aparılması istiqamətində fəal səylər göstərdi. Ölkənin üzləşdiyi ən böyük problem olan Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün müxtəlif tərəfləri Təhlükəsizlik Şurasının iclaslarında diqqətə çatdırıldı. Bundan əlavə, dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsiplərinə hörmət, həmçinin münaqişələr zamanı müharibə və insanlığa qarşı cinayətlər törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsinin vacibliyi ardıcıl olaraq gündəliyə gətirildi və müvafiq müddəalar Təhlükəsizlik Şurasının qəbul etdiyi sənədlərdə əks etdirildi. Azərbaycan Respublikası BMT-nin üzv dövlətləri, BMT katibliyi və qeyri-hökumət təşkilatları, araşdırma mərkəzləri ilə sıx əməkdaşlıq münasibətlərini daha da inkişaf etdirdi. Azərbaycanın fəaliyyəti, hər zaman ədalətə və beynəlxalq hüquqa əsaslanan prinsipial mövqedən çıxış etməsi onlar tərəfindən bəyənildi. Təhlükəsizlik Şurasında qazanılmış təcrübə Azərbaycanın beynəlxalq mövqelərinin gücləndirilməsinə və milli maraqlarının təmin olunmasına xidmət etdi. Azərbaycan Respublikası üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdi.

Azərbaycan Respublikasının bu mötəbər orqana üzv seçilməsi Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasətin məntiqi nəticəsi və ölkənin dünyadakı siyasi nüfuzunun göstəricisi idi. Azərbaycan dövləti müstəqillik tarixində ilk dəfə bu ali qurumun üzvü kimi beynəlxalq gündəlikdə dayanan ən aktual məsələlərə dair müxtəlif səviyyələrdə müzakirələrin aparılmasının və qərarların qəbul edilməsinin bilavasitə iştirakçısı oldu.

162 Azərbaycan BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlüyünün başa çatmasına dair hesabat verib // "Yeni Azərbaycan" qəzeti, 2014, 07 yanvar.

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, keçirilən parlament seçkiləri ölkədə seçki təcrübəsinin təkmilləşdirilməsində və demokratiyanın inkişafında irəliyə doğru addım olmuşdur. Parlamentə yenidən müxtəlif siyasi partiyaların üzvləri və müstəqil şəxslər seçilmişlər. Milli Məclisin ilk iclasında nitq söyləyən Prezident İlham Əliyev ölkə qarşısında dayanan ən vacib vəzifələri diqqətə çatdırmış və başlıca məqsədin işğal altındakı torpaqların azad edilməsi olduğunu bir daha bəyan etmişdir.

Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzv seçilməsi və iclasına Prezident İlham Əliyevin sədrlik etməsi diplomatiya tarixinin ən parlaq səhifələrindən biri olmuşdur. Azərbaycan dövlətinin sədrliyi müddətində beynəlxalq münasibətlərin ən vacib məsələlərinə dair sənədlər qəbul edilmişdir.

6-cı FƏSİL

DÖVLƏTÇİLİKDƏ YENİ ƏNƏNƏNİN ƏSASININ QOYULMASI VƏ AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK KLUBUN ÜZVÜ OLMASI

6.1. Eks-prezidentlər haqqında qanun

Qarşıya qoyulan başlıca məqsədə nail olmaqdan ötrü ölkədə davamlı sabitliyin və milli birliyin təmin edilməsi zəruri idi. Məlum olduğu kimi, dövlət müstəqilliyinin bərpasından 1993-cü ilədək olan müddətdə Azərbaycanda ictimai-siyasi qeyri-sabitlik hökm sürmüşdü. 1992-ci ilin may ayında baş verən silahlı çevriliş nəticəsində Moskvaya qaçmağa məcbur olan Prezident Ayaz Mütəllibov Azərbaycana qayıda bilmirdi. 1993-cü ilin iyun ayında isə Prezident Əbülfəz Elçibəy xəbərdarlıq etmədən doğulduğu Kələki kəndinə getmiş, bununla da ölkədə dövlət idarəçiliyi tamamilə gözdən düşmüşdü. Azərbaycan daxilindəki qarışıqlıqdan, dövlətin zəif olmasından istifadə edən təcavüzkar Ermənistan xaricdəki havadarlarının köməyi ilə Azərbaycan ərazilərinin işğalını genişləndirmişdi.

Azərbaycan xalqı yalnız sabitlik şəraitində, güclü dövlət hakimiyyəti altında tərəqqi edə və qarşıda dayanan məqsədlərinə çata bilərdi. Ona görə də bu sahədə vacib bir addım atıldı. "Azərbaycan Respublikasının keçmiş Prezidentinin və onun ailə üzvlərinin təminatı haqqında" Azərbaycan Respublikasının konstitusiya qanununun layihəsi hazırlandı. Bu, Azərbaycan tarixində ilk olmaqla dövlətçilik tarixində yeni ənənənin əsasının qoyulması idi.

Konstitusiya qanununun layihəsi Azərbaycan Respublikası Milli Məclisinin 2011-ci il 25 oktyabr tarixli plenar iclasında birinci oxunuşda müzakirəyə çıxarıldı, 110 səs lehinə, 3 səs əleyhinə, 1 nəfər bitərəf olmaqla qəbul olundu.[163] Konstitusiya qanunu olduğu üçün qanun 6 aydan sonra, 2012-ci il iyunun 12-də

163 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s.492-493.

Milli Məclisin növbədənkənar sessiyasında ikinci oxunuşda səsverməyə çıxarılaraq qəbul olundu.[164]

Aparılan müzakirələrdən, əlavə və dəyişikliklərdən sonra Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilən və Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan konstitusiya qanunu yüksək dövlətçilik təfəkkürü ilə hazırlanmış və qəbul edilmiş tarixi sənəd idi. Bu sənəd kimliyindən və siyasi mövqeyindən asılı olmayaraq Azərbaycan Respublikasının Prezidenti vəzifəsini tutmuş şəxslərin və onların ailə üzvlərinin yüksək səviyyəli təminatını müəyyənləşdirməklə demokratik dövlət idarəçiliyi prinsiplərinə əsaslanır, ölkədə yeni siyasi mədəniyyətin hüquqi əsaslarını müəyyənləşdirirdi.

Qanunun ən vacib xüsusiyyətlərindən biri "keçmiş Prezident" anlayışının yalnız seçki yolu ilə hakimiyyətə gəlmiş və seçki yolu ilə hakimiyyətdən getmiş şəxslərə deyil, konstitusiyaya uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti vəzifəsini tutmuş, bu vəzifəni tutmuş və vəfat etmiş, konstitusiyanın 104-cü maddəsinə uyğun olaraq prezident səlahiyyətlərinə xitam verilmiş şəxslərə də şamil edilməsi idi. Konstitusiya qanununda nəzərdə tutulan təminatlar Azərbaycan Respublikası konstitusiyasının 107-ci maddəsinə əsasən ağır cinayət törədərək vəzifədən uzaqlaşdırılmış şəxslərə şamil edilmirdi. Bu da müasir dünyanın qabaqcıl ölkələri tərəfindən də qəbul edilən hüquqi dövlət prinsiplərinə tamamilə uyğun idi.

Qanunda keçmiş prezident üçün nəzərdə tutulan aylıq pensiyanın fəaliyyətdə olan prezidentin aylıq vəzifə maaşının 50%-i məbləğində olması nəzərdə tutulurdu. Bundan əlavə, vəfat etmiş keçmiş prezidentin arvadına (ərinə) və ya öhdəsində olan ailə üzvlərinə də ödənilmənin hüquqi prinsipləri müəyyənləşdirilirdi.

Keçmiş prezident səlahiyyət müddətində vəfat etdikdə onun ailə üzvlərinə keçmiş prezidentə ödənilməli olan pensiya məbləğində aylıq müavinət ödənilməsi nəzərdə tutulurdu. Ailə üzvləri dedikdə, nəzərdə tutulan şəxslərin siyahısı konstitusiya qanununda aydın şəkildə öz əksini tapmışdı. Bu şəxslər sırasına keçmiş prezidentin arvadı və ya əri, arvadı və ya əri olmadıqda isə öhdəsində olan uşaq aid edilirdi. Öhdədə olan uşaq birdən artıq olduqda ödənilməli olan aylıq müavinətin öhdədə olan uşaqlar arasında bərabər bölünərək ödənilməsi nəzərdə tutulurdu.

Qanunda keçmiş prezidentə ödənilməli olan pensiya və digər ödənişlərin onun prezident vəzifəsini tərk etdiyi gündən vəfat etdiyi günədək ödənilməli olduğu qeyd edilirdi. Ailə üzvlərinə aylıq müavinətlər isə həyat yoldaşı (arvadı və ya əri) üçün şəxsin vəfat etdiyi günədək, öhdədə olan uşaq üçün 18 yaşına çatdığı günədək nəzərdə tutulurdu.

164 Yenə orada.

Azərbaycan dövlətinin sosial ədalət prinsiplərinə sadiq qalmasının digər bir göstəricisi qanunda nəzərdə tutulan və yalnız Azərbaycan dövlətinə ödənilməli olan və müddəti bitmiş borcun ödənilməsi, pensiyanın təyin edildiyi keçmiş prezidentin keçmiş arvadının (ərinin) və ya azyaşlı uşağının saxlanması üçün müntəzəm olaraq pul məbləğlərinin ödənilməsi barədə qanuni qüvvəyə minmiş məhkəmə qərarının olması halı istisna olmaqla özgəninkiləşdirilməsinə yol verilmirdi. Hətta müflisləşmə halında – şəxsi əmlakı müsadirə edildikdə belə, tələbin pensiya, müavinət və digər ödənişlərə yönəldilməsinə yol verilməməsi, nəzərdə tutulan vəsaitlərin gəlir vergisindən azad edilməsi də bir zamanlar dövlətin siyasi atributuna çevrilmiş və onu təmsil etmiş şəxslərə dövlətçilik təfəkkürü əsasında yanaşmasının nəticəsi hesab edilə bilərdi.

Qanunda nəzərdə tutulan vacib məsələlərdən biri tibbi təminat idi. Dövlət qulluqçusu üçün müəyyən edilmiş tibbi təminatlara dair bütün qanun və qaydaların müddəaları keçmiş prezidentə və onun ailə üzvlərinə şamil olunurdu.[165] Keçmiş prezidentə təminat heyətinin, üç nəfərdən artıq olmayan təhlükəsizlik heyətinin, sürücü və nəqliyyat vasitəsinin, təmsilçilik xərclərinin ayrılması, keçmiş prezidentə və onun arvadına (ərinə) ömürlük diplomatik pasport verilməsi də nəzərdə tutulurdu. Keçmiş prezidentə ayrılan təmsilçilik xərclərinin Azərbaycan Respublikasının fəaliyyətdə olan prezidentinin aylıq vəzifə maaşının 20% məbləğində nəzərdə tutulması da xüsusu hal idi.

Keçmiş prezidentin və onun arvadının (ərinin) toxunulmazlığı məsələsi də təsbit edilmişdi. Keçmiş prezidentin Azərbaycan Respublikasının Prezidenti seçilməzdən əvvəl və Azərbaycan Respublikasının Prezidenti səlahiyyətlərini icra edərkən etdiyi hərəkətlərə (hərəkətsizliyə) görə inzibati və ya cinayət məsuliyyətinə cəlb edilməsi qanunla qadağan olunurdu. Keçmiş prezidentin arvadı (əri) da keçmiş prezidentin Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etdiyi və ondan əvvəlki dövrdə etdiyi hərəkətlərə (hərəkətsizliyə) görə inzibati və ya cinayət məsuliyyətinə cəlb edilə bilməzdi.

Qanunun sonuncu – 12-ci maddəsində isə rəsmi yazışma sənədlərinin surətlərindən ibarət arxivin keçmiş prezidentin sərəncamında saxlanılması nəzərdə tutulurdu. Bu isə dövlət idarəçiliyində keçilmiş yolun tarixi təcrübəsinin öyrənilməsi üçün tədqiqatlara imkan yaradılmasından ötrü əhəmiyyətli bir addım idi.

Keçmiş prezidentlər haqqında qanunun qəbul edilməsinin böyük əhəmiyyəti var idi. İlk növbədə, Azərbaycanda yeni siyasi mədəniyyətin və dövlətçilik ənənəsinin əsası qoyulurdu.

165 Azərbaycan Respublikasının keçmiş Prezidentinin və onun ailə üzvlərinin təminatı haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu. 12 iyun 2011-ci il. № 376-IVKQ // URL: http:www.e-qanun.az/framework/23763

Qanunun qəbulundan sonra keçmiş Prezident Ayaz Mütəllibov vətənə qayıtdı. Azərbaycan Respublikasının ikinci prezidenti Əbülfəz Elçibəyin ailəsi qanunun gücündən yararlana bildi. Bu qanun Azərbaycan millətinin birliyinin və bərabərliyinin möhkəmləndirilməsində əhəmiyyətli rol oynamaqla dövlətçilikdə yeni ənənənin əsasını qoydu.

6.2. ASAN xidmət mərkəzlərinin yaradılması

Azərbaycanda idarəçiliyin yeni dövrün çağırışlarına uyğunlaşdırılması, dövlət-vətəndaş münasibətlərində şəffaflığın təmin olunması üçün atılan mühüm addımlardan biri ASAN Xidmət (Azerbaijan Service and Assessment Network – Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi) modelinin yaradılması oldu. ASAN xidmət modeli Prezident İlham Əliyevin dövlət idarəçiliyinə yenilikçi baxışlarını özündə əks etdirirdi. ASAN xidmət mərkəzlərinin də strukturuna daxil olduğu Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2012-ci il 13 iyulda imzaladığı 685 saylı fərmana əsasən yaradıldı,[166] həmin il sentyabrın 5-də Prezidentin digər fərmanı ilə Agentliyin strukturu və əsasnaməsi təsdiq olundu.[167]

İlk ASAN xidmət mərkəzi 2013-cü ildə fəaliyyətə başladı. 2021-ci ilə qədər belə mərkəzlərin sayı 21-ə çatdı. Bu mərkəzlərdən altısı Bakıda, on beşi isə Azərbaycanın müxtəlif bölgələrində yerləşməklə müxtəlif dövlət orqanlarının vətəndaşlara göstərdiyi xidmətləri, bir sıra funksional yardımçı xidmətləri özündə birləşdirirdi. Qeyd etmək lazımdır ki, 2012-ci ilin dekabrında Bakıda pilot layihə olaraq ilk ASAN xidmət mərkəzi açılarkən burada cəmi doqquz dövlət orqanının təklif etdiyi 23 xidmət həyata keçirilirdi. İkinci belə mərkəz 2013-cu ilin mayında ölkənin iri şəhərlərindən və sənaye mərkəzlərindən biri olan Sumqayıtda istifadəyə verildi. 2013-cü ildə Bakıda ASAN xidmət mərkəzlərinin sayı 3-ə çatdı. Həmin ilin sonunda Gəncədə ölkədə sayca 5-ci mərkəz fəaliyyətə başladı.

166 Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi aktların vahid elektron bazası. -2012. URL: www.e-qanun.az/framework/24212.

167 Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi haqqında Əsasnamə // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi.-2012, 05 sentyabr. URL: https:president.az/articles/5716.

Azərbaycan brendi olan ASAN xidmət modeli bir sıra xarici ölkələrdə də böyük maraq doğurdu, 2014-cü ildə ASAN xidmət ISO 9001:2008 idarəetmə standartı üzrə beynəlxalq sertifikat əldə etdi.[168] Həmin ilin yayında ASAN xidmət səmərəli xidmət nümunəsinə və dövlət-vətəndaş münasibətlərinə verdiyi töhfələrə görə "Uğur – 2013" mükafatını aldı. 2014-cü il dekabrın 15-də Sabirabadda ölkə üzrə sayca yeddinci, 2015-ci ilin martında Bərdədə Azərbaycanda sayca səkkizinci ASAN xidmət mərkəzinin açılışı oldu. Həmin il ASAN xidmət BMT-nin 2015-ci il üzrə Dövlət Xidmətləri Mükafatına layiq görüldü. 2015-ci il martın 2-də ASAN xidmət Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən 13 sahə üzrə keçirilən, müxtəlif dövlətlərin 700-dən çox müəssisəsinin müraciət etdiyi müsabiqənin "Dövlət xidmətlərinin həyata keçirilməsinin təşkilində təhlükəsiz əmək şəraitinin qurulması" sahəsi üzrə qalibi oldu. 2016-cı ildə Masallı və Qəbələdə, 2017-ci ildə Qubada, 2018-ci ildə Mingəçevir, İmişli və Şəkidə, 2019-cu ildə Şamaxıda, 2020-ci ildə Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndə belə mərkəzlər fəaliyyətə başladı.

ASAN xidmət mərkəzləri dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasına, ölkədə dövlət qulluqçusu – vətəndaş münasibətlərinin yeni keyfiyyət halına keçməsində faydalı bir model oldu. Mərkəzlərin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və məmnunluq prinsipləri əsasında qurulmuşdu. Onların yaradılması ilə Azərbaycan dövləti idarəçiliklə bağlı qarşıya qoyduğu bir sıra vəzifələri təmin etdi. Bununla ilk növbədə, vətəndaşların dövlət xidmətlərinə sərf etdikləri əlavə xərcləri azaldılır, vaxt itkisinin qarşısı alınır, vətəndaşlara münasibətdə nəzakətli davranışa riayət edilməsinə nail olunur, dövlət məmuru – vətəndaş münasibətlərində peşəkarlığın yüksəlməsi dövlət strukturlarına etimadın daha da gücləndirilməsinə səbəb olur, şəffaflıq artırılır, ölkədə elektron xidmətlərdən istifadə genişlənirdi.[169]

6.3. Azərbaycan Respublikasının kosmik klubun üzvü olması

Azərbaycan dövləti qarşısında dayanan başlıca məqsədə nail olmaqdan ötrü digər bir addım da atdı. Məlum olduğu kimi, kosmos dövrü başladıqdan sonra strateqlər daim söyləyirlər ki, göylərə, səmaya hakim olanlar yerə də hakimdir-

168 ASAN successes acknowledged in UK Parliament // The site of European Azerbaijan Society. -2014. URL: http:teas.eu/press-release-asan-successes-acknowledged-uk-parliament.

169 "ASAN xidmət" mərkəzləri haqqında ümumi məlumat // ASAN Xidmətin rəsmi internet səhifəsi. URL: https:asan.gov.az/az/about.

lər. Ona görə də Azərbaycan ərazilərinin bir hissəsinin təcavüzkar Ermənistanın işğalı altında qaldığı bir zamanda Azərbaycan Respublikasının kosmik dövlətə çevrilməsi zəruri idi. Ölkədə yüksək texnologiyaların tətbiqinə və kosmik sənayenin yaradılmasına xüsusi diqqət verən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqi prioritet sahə olaraq qəbul edildi. Dövlət başçısının sədrliyi ilə Nazirlər Kabinetinin 2008-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında Azərbaycan Respublikasında ən yeni texnoloji sənaye sahəsi olan kosmik sənayenin yaradılması və telekommunikasiya peykinin orbitə çıxarılmasına dair verilən konkret fəaliyyət proqramının müəyyənləşdirilməsi istiqamətində işlərin görülməsinə başlanıldı.[170] Azərbaycan Respublikasının Prezidenti 2008-ci il noyabrın 4-də Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında sərəncam imzalandı. Sərəncamda yazılırdı ki, son illər ölkədə qeyri-neft sektorunun inkişafı ilə əlaqədar həyata keçirilən dövlət proqramları və əməli tədbirlər iqtisadiyyatın şaxələndirilməsi və yeni sənaye sahələrinin inkişafı üçün geniş imkanlar açmışdır, Azərbaycan Respublikasının Avropa və Asiya qitələri arasında əlverişli coğrafi və iqtisadi məkanda yerləşməsi iqtisadi və informasiya təhlükəsizliyinin əsas komponentlərindən olan telekommunikasiya peyklərinin hazırlanması və orbitə çıxarılmasını zəruri edir.[171] Sənəddə ölkədə yüksək texnologiyaların tətbiq olunmasına və kosmik sənayenin yaradılmasına təkan verilməsi məqsədi ilə Nazirlər Kabinetinin Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə dövlət proqramının layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməsi ilə bağlı tədbirləri həyata keçirməsi nəzərdə tutulurdu.

Telekommunikasiya peykinin hazırlanması məqsədilə 2009-cu ilin aprel ayında Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tender keçirdi. Tenderin qalibi ABŞ-ın "Orbital Sciences Corporation" şirkəti, peykin orbitə buraxılması ilə bağlı raketdaşıyıcı şirkətin seçilməsi tenderinin qalibi isə "Fransanın Arianespace" şirkəti seçildi.

Azərbaycanın ilk kosmik peyki layihəsinin gerçəkləşdirilməsi məqsədilə orbital mövqe əldə etmək üçün Beynəlxalq Telekommunikasiya İttifaqına müraciət olundu. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 17 avqust tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və

170 Qasımlı M. İlham Əliyev Azərbaycan tarixinin mühüm ilklərinin müəllifidir // "Azərbaycan" qəzeti, 2016, 16 oktyabr.

171 Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // URL: http: www.e-qanun.az/alpidata/framework/data/15/c_f_15589.htm.

inkişafı üzrə Dövlət Proqramı" təsdiq edildi.[172] Sərəncam və Dövlət Proqramında telekommunikasiya peykinin hazırlanaraq orbitə çıxarılması konkret vəzifə kimi qarşıya qoyulur və müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu.

Telekommunikasiya peykinin hazırlanması, orbitə çıxarılması, idarə olunması və istismar işlərinin həyata keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 3 may tarixli sərəncamına uyğun olaraq Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində Azərkosmos Açıq Səhmdar Cəmiyyəti yaradıldı.[173] Qurumun yaradılmasında məqsəd telekommunikasiya peykinin orbitə çıxarılması, idarə edilməsi və istismarı işlərinin həyata keçirilməsi idi. Telekommunikasiya peykinin istehsalı və orbitə çıxarılmasına, əsas və ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzinin yaradılmasına dair həmin quruma xüsusi tapşırıq verildi. 2010-cu ilin may ayında Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Malayziyanın peyk operatoru olan "Measat Satellite Systems" şirkəti arasında ilk telekommunikasiya peykinin Malayziya hökumətinə məxsus 46°Ş orbital mövqeyə çıxarılmasına dair razılıq əldə edildi.[174]

2013-cü il ölkədə "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan olundu.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva 2013-cü il fevralın 8-də Azərbaycanın müstəqillik tarixinin ən önəmli hadisələrinin birində – Azərbaycan Respublikasının ilk telekommunikasiya peyki – "Azərspace-1"in Azərkosmos ASC-nin yeni binasında orbitə uğurla buraxılması mərasimində iştirak etdilər. Dövlət başçısı həmin gün Azərkosmos ASC-nin yeni inzibati binasının açılışını da etdi.

Azərbaycan Respublikasının ilk peyki – "Azərspace-1" Bakı vaxtilə saat 01:36-da Cənubi Amerikada, Fransanın inzibati idarəçiliyində olan Fransız Qvianasındakı Kuru kosmodromundan – Qviana Kosmik Mərkəzindən üzərində üçrəngli Azərbaycan bayrağı olan "Ariane-5" daşıyıcı raketi ilə orbitə buraxıldı. "Azərspace-1" peyki Orbital Sciences korporasiyası tərəfindən işlənib hazırlanan və 22 fəal peykin üzərində uğurla fəaliyyət göstərən "STAR-2" peyk platforması əsasında yığılmışdı. 3,2 ton çəkisi olan "Azərspace-1" peyki 46 dərəcə Şərq uzunluq dairəsində geostasionar orbitdə yerləşədirilmişdi və Avropa, Afrika, Mərkəzi

172 Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqrammın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 17 avqust 2009-cu il // "Azərbaycan" qəzeti, 2009, 18 avqust.

173 Qasımlı M. Prezident İlham Əliyev və Azərbaycan tarixinin ilkləri // "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı. Bakı, 2016, 4 (56), s.54.

174 İstanbulda Malayziyaya məxsus orbital mövqeyin Azərbaycan peyki tərəfindən istifadəyə dair uzunmüddətli icarə müqaviləsi imzalanmışdır // Azərtac. 25.05.2010. URL: https:azertag.az/xeber/istanbulda_malayziyaya_maxsus_orbital_movqeyin_azarbaycan_peyki_tarafindan_istifadaya_dair_uzunmuddatli_icara_muqavilasi_imzalanmisdir-480369.

Asiya, Qafqaz ölkələri və Yaxın Şərq regionunu əhatə edirdi. Orbitdə istismar müddəti ən azı 15 il idi. "Azərspace-1" peyki teleradio yayımı və telekommunikasiya xidmətlərinin göstərilməsi, korporativ və hökumət müştərilərinin tələblərinə cavab verən keyfiyyətli və dayanıqlı rabitə platformalarının təmin edilməsi üçün nəzərdə tutulmuşdu. Peykin ehtiyatlarının 20%-i Azərbaycanın tələbatını ödəmək, qalan 80%-i isə dünya bazarlarına ixrac üçün nəzərdə tutulurdu. Peyk kosmik məkana buraxıldığı zaman artıq onun ehtiyatlarının 40%-nin satışı üçün şərti müqavilələr imzalanmışdı. "Azərspace-1" peyki kosmodromdan qalxdıqdan 33 dəqiqə sonra raketin gövdəsindən ayrıldı, fəzaya buraxıldıqdan 34 dəqiqə 56 saniyə sonra orbitdə yerini tutdu.

"Azərspace-1"-in uğurla orbitə buraxılması münasibətilə xalqa təbrikində Prezident İlham Əliyev dedi:

"Bu doğrudan da tarixi bir gündür, böyük nailiyyətdir, dövlətimizin böyük qələbəsidir. Bu hadisə onu göstərir ki, müstəqil Azərbaycan dövləti sürətlə, hərtərəfli inkişaf edir və biz artıq kosmik klubun üzvüyük... Çox şadam ki, bu gözəl idarəetmə mərkəzində çalışan işçilərin böyük əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Peykin orbitə çıxarılması beynəlxalq əməkdaşlıq çərçivəsində mümkün olmuşdur... Birinci peykin orbitə çıxarılması çox əlamətdar tarixi hadisədir. ...artıq Azərbaycan kosmik klubun üzvünə çevrilmişdir. Biz gələcəkdə də yeni peyklərin orbitə çıxarılması istiqamətində fəal işləyirik və buna nail olacağıq. 2015-ci, 2016-cı illərdə əlavə 2 peyk orbitə buraxılacaq və artıq Azərbaycanda kosmik sənayenin inkişafı üçün çox gözəl imkanlar yaranacaqdır. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı bizim uğurlu gələcəyimizi müəyyən edəcək, təmin edəcəkdir...

Bu gün – 8 fevral 2013-cü il Azərbaycan tarixində qalacaqdır".[175]

Böyük əhəmiyyət daşıyan bu müraciəti ilə dövlət başçısı ölkənin kosmik kluba üzvlüyünə qədər keçdiyi yolu nəzərə çatdırır və görülən işlərin gələcək inkişaf üçün faydalarını göstərirdi.

"Azərspace-1" telekommunikasiya peykinin orbitdəki bütün sınaq prosesləri uğurla başa çatdıqdan sonra idarəetməsi peykin istehsalçısı olan ABŞ-ın "Orbital Sciences" şirkəti tərəfindən 2013-cü il aprelin 2-dən etibarən tamamilə Azərkosmos ASC-yə təhvil verildi. Peykin Azərkosmos ASC-nin Abşeron rayonu ərazisində yerləşən Əsas Yerüstü Peyk İdarəetmə Mərkəzindən və Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Nəhəcir kəndində yerləşən Ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzindən idarə olunmasını azərbaycanlı mütəxəssislər həyata keçirirdilər.

175 Əliyev İ.H. Azərbaycanın ilk «Azərspace-1» Telekommunikasiya Peykinin orbitə buraxilmasi mərasimində iştirak. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa təbriki // İnkişaf – məqsədimizdir. 55-ci kitab. Bakı, 2017, s. 15-16.

Azərbaycan Respublikasının kosmik klubun üzvü olmasının böyük əhəmiyyəti var idi. Hər şeydən əvvəl, bu, Azərbaycan dövlətinin dünyada nüfuzunun və rolunun artmasını, yerinin möhkəmlənməsini göstərirdi. "Azərspace-1" peykinin texnoloji dizaynı və qoşulma imkanları sayəsində dünyada milyonlarla insan dayanıqlı informasiya və kommunikasiya xidmətlərinə çıxış imkanı əldə edirdi. Peyk Afrika, Avropa, Mərkəzi Asiya və Yaxın Şərqdə 50-dən artıq ölkəni birləşdirən ortaq məkanda informasiya ötürücüsü funksiyasını yerinə yetirirdi.

Yüksək ixtisaslı peşəkar heyətə və texniki imkanlara malik olan Azərkosmos ASC yaradılmasından sonra İKT sektoru ölkədə aparıcı sahələrindən birinə çevrildi. Şirkətin ehtiyatları ona müasir infrastruktur əsasında yeni yaranan texnologiyaların tətbiqinə, bununla da yerüstü rabitə şəbəkələrinin əhatə dairəsinə düşməyən ərazilərdə peyk əsaslı xidmətlərdən istifadə edilə bilməsi üçün əlavə dəyər yaratmağa imkan verdi. Peyk şəbəkəsi iki peykdən ibarət idi: "Azərspace-1" – telekommunikasiya peyki; "Azərsky" – yerin səthinin məsafədən müşahidə peyki.

Şirkət "Azərspace-1" peyki vasitəsilə tutum icarəsi, teleradio yayımı, teleport və telekommunikasiya xidmətləri, "Azərsky" peyki vasitəsilə isə peyk təsvirlərinin alınması xidmətlərini verirdi.[176]

Kosmik sənayenin yaradılması və peykin orbitə buraxılması informasiya mübadiləsinin xarici ölkələrdən asılılığının aradan qaldırılması və informasiya təhlükəsizliyinin təmin edilməsi, eyni zamanda ölkədə yeni iqtisadi sahələrdə mövcud insan ehtiyatları və intellektual potensialın inkişaf etdirilməsi, tam təchizatlı maddi-texniki bazanın yaradılması, elmtutumlu yeni layihələrin həyata keçirilməsi və nəticə etibarilə innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılmasına kömək edirdi.

"Azərspace-1" peykinin istismara verilməsi Azərbaycan vətəndaşlarının gündəlik həyatına da müsbət təsirini göstərdi. Əhali üçün olan üstünlüklərdən biri də ondan ibarət idi ki, o vaxtadək xarici peyklərdən gələn siqnalları tutmaq üçün daha böyük ölçüdə çanaq antenləri quraşdırmaq lazım gəlirdisə, artıq "Azərspace-1" peykinə köklənmək üçün daha kiçik, diametri 60-80 sm olan antenlər quraşdırmaq kifayət edirdi. Bu da Azərbaycan tamaşaçıları üçün daha az xərc çəkməklə peyk yayımını qəbul etməyə, həm də irihəcmli çanaq antenlərindan xilas olmağa imkan verirdi. Onu da qeyd etmək lazımdır ki, "Azərspace-1" peyki vasitəsilə əhaliyə təqdim olunan yerli və xarici televiziya kanalları paketi həm keyfiyyət, həm də kəmiyyət baxımdan daha tutumlu oldu.

176 Qasımlı M. Prezident İlham Əliyev və Azərbaycan tarixinin ilkləri // "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı. Bakı, 2016, №4 (56), s. 54.

"Azərspace-1" peyki yüksək keyfiyyətli tele və radio yayım xidmətləri təqdim etməklə yanaşı, kiçik peyk antenləri ilə rabitə xidmətləri də göstərirdi. Bu, çətin keçilən və yerüstü rabitə infrastrukturu olmayan ərazilərdə sürətli peyk rabitəsini təmin edirdi. Xidmətlər neft sənayesi, maliyyə, təhsil, səhiyyə, sahibkarlıq kimi sahələrə tətbiq edilirdi. Neft sənayesi obyektlərində, neftdaşıyan tankerlərdə monitorinq sistemlərinin quraşdırılmasında, dənizdə neft dağılmalarının qarşısını almaq üçün profilaktik tədbirlərin həyata keçirilməsində bu xidmətlərdən istifadə edilirdi. Peyk həmçinin dünyanın müxtəlif nöqtələrində nümayəndəlikləri və ya ofisləri olan beynəlxalq şirkətlərə öz ofisləri arasında peyk üzərindən təhlükəsiz data bağlantısı və lokal şəbəkələr qurmaq imkanı yaradırdı. "Azərspace-1" telekommunikasiya peykinin fəzaya buraxılması ilə kosmik ölkələr ailəsinə daxil olan Azərbaycan dövləti peyk sənayesi sahəsində nəinki özünün, eləcə də yerləşdiyi regionun telekommunikasiya və digər peyk xidmətlərinə olan tələbatını təmin etmək imkanı qazandı.

Bir müddət sonra "Azərspace-2" telekommunikasiya peyki hazırlanmağa başlandı.

Qərargahı Kaliforniyanın Palo Alto şəhərində yerləşən və Kanadanın MDA korporasiyasına məxsus kommersiya peyklərinin aparıcı təchizatçısı olan "Space Systems/Loral" (SSL) şirkəti Azərkosmos ASC tərəfindən Azərbaycanın sayca üçüncü, təyinatına görə isə ikinci telekommunikasiya peykinin istehsalçısı oldu.[177] Uzunmüddətli razılaşmaya əsasən 45° şərq uzunluğu orbital mövqeyində yerləşən "Azərspace-2" Afrika, Avropa, Asiya və Yaxın Şərq regionlarını əhatə etməli idi. Bu, iqtisadiyyatın şaxələndirilməsi və yeni sənaye sahələrinin inkişafına dair Azərbaycan hökuməti tərəfindən həyata keçirilən əsas layihələrdən biri oldu. İnformasiya-kommunikasiya texnologiyalarının ölkə iqtisadiyyatında neftdən sonra ikinci əsas sahə elan olunduğu, iqtisadiyyatda xüsusi çəkisinin artdığı və peyk rabitəsinin xüsusi əhəmiyyət kəsb etdiyi nəzərə alındıqda, həyata keçirilməsi nəzərdə tutulan peyk layihələrinin yalnız siyasi və ya kommersiya səciyyəsi daşımadığını, ölkənin uzunmüddətli inkişaf strategiyasına yönəldiyini göstərirdi.

Milli peyk layihəsinin reallaşdırılması Azərbaycana bir sıra üstünlüklər verirdi. Məlum olduğu kimi, hər hansı ölkədə kosmik sənayenin yaradılması ilk növbədə, iqtisadi inkişaf səviyyəsi ilə bağlıdır.[178] Azərbaycanın inkişaf sürəti yeni bazar tələblərinə cavab verilməsi və ölkənin gələcəkdə dayanıqlı inki-

177 Kanadanın SSL şirkəti "Azerspace-2" peykinin istehsalçısı seçilib // Azərtac. 21.10.2015. URL: https:azertag.az/xeber/Kanadanin_SSL_sirketi_Azerspace_2_peykinin_istehsalchisi_sechilib__video-894560.

178 Qasımlı M. Prezident İlham Əliyev və Azərbaycan tarixinin ilkləri // "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı. Bakı, 2016, №4 (56), s. 54.

şafının təmin edilməsi baxımından iqtisadiyyatın şaxələndirilməsini və innovasiyaya əsaslanan yeni sənaye sahələrinin yaradılmasını zəruri edirdi. Kosmik sənayeyə və peyk texnologiyalarına əsaslanan yenilikləri milli inkişaf proqramına daxil etməklə Azərbaycan hökuməti ölkənin iqtisadi cəhətdən gücləndirilməsinə, mövcud intellektual potensialın inkişaf etdirilməsinə və informasiya təhlükəsizliyinin təmin edilməsinə nail olurdu.

İnformasiya və kommunikasiya texnologiyalarının geniş tətbiqi ölkənin hərtərəfli inkişafına xidmət etməklə yanaşı, informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması baxımından da əhəmiyyət kəsb edirdi. Azərbaycan Respublikasının Avropa və Asiya qitələri arasında əlverişli geoiqtisadi, coğrafi, eləcə də informasiya magistrallarının kəsişdiyi məkanda yerləşməsi informasiya mübadiləsində xarici ölkələrdən asılılığını aradan qaldırırdı. İqtisadi və informasiya təhlükəsizliyinin əsas komponentlərindən olan telekommunikasiya peyklərinin hazırlanması və orbitə çıxarılması Azərbaycanı regionda informasiyanın ötürülməsi sahəsində qabaqcıl ölkəyə çevirirdi. Azərbaycana məxsus süni peykdən istifadə edən dövlətlərlə əməkdaşlıq perspektivləri genişlənirdi.

Fəaliyyətin əsas hissəsini kosmik sahədə təcrübəyə malik ölkələrlə mübadilə təşkil edirdi. Bu mənada ABŞ, Fransa, Kanada, Malayziya, İtaliya, Meksika, Türkiyə kimi ölkələrlə sıx əməkdaşlıq edən Azərkosmos ASC fəaliyyət göstərdiyi qısa müddət ərzində kosmik sənayedə aparıcı xarici şirkətlər və maliyyə təsisatları ilə sıx əməkdaşlıq qurdu, BMT-nin Kosmik Fəzanın Sülh Məqsədləri ilə İstifadəsi üzrə Komitəsi kimi bir sıra beynəlxalq təşkilatlarla regional işbirliyi istiqamətində vacib işlər gördü.

Peykin istifadəsi Azərbaycanda internetin sürətinə və qiymətlərinə də təsir etdi. "Azərspace-1" peyki vasitəsi ilə radio və televiziya yayımının həyata keçirilməsi, kəsintisiz və şifrələnmiş rabitə əlaqəsinin qurulması, yüksək sürətli internet şəbəkəsinin və məlumatların ötürülməsi sistemi təmin edildi. Bu isə Azərbaycanın rabitə sahəsində dünya standartlarına uyğunlaşması istiqamətində atılan əhəmiyyətli addım idi.

Azərbaycanın bütün ərazisində keyfiyyətli televiziya və radio yayımı, o cümlədən sürətli İP xidmətlərinin göstərilməsi təmin edildi. Ötürülən məlumatlara daha yaxşı nəzarət edilməsinə şərait yarandı, uzaq məsafədən təhsil və elektron səhiyyə kimi digər proqramlar üçün platforma yaradıldı, yerüstü fiber-optik şəbəkənin zədələndiyi hallarda rabitə problemlərinin aradan qaldırılması üçün səmərəli və sürətli həll yolu tapıldı, rabitənin təhlükəsizliyinin təmin edilməsində müasir şifrələmə texnologiyası ilə mühafizə olunan rabitə quruldu.

Azərbaycanın bütün televiziya və radio kanalları 2014-cü ildə "Azərspace-1" peyki vasitəsilə ilə keyfiyyətli yayıma başladı. Azərbaycan, türk, ingilis, gür-

cü, fars, əfqan və digər dillərdə 121 televiziya və radio kanalı yayımlanırdı. Həmin ildə bir çox Türkiyə kanalları "Azərspace-1" peykinə keçdi. Azərkosmos Azərbaycan, Türkiyə, Gürcüstan, Rusiya Federasiyası, Ukrayna, Birləşmiş Krallıq, Almaniya, Avstriya, Misir, BƏƏ, Əfqanıstan, Livan, Yunanıstan kimi ölkələrdən olan müştərilərə yüksək keyfiyyətli peyk xidmətləri göstərirdi. Ümumilikdə, "Azərspace-1" peykinin göstərdiyi teleradio, data və telekommunikasiya xidmətləri vasitəsilə 24 ölkədən müştəri bazası yaradıldı.

Peyk sənayesində yerli kadr hazırlığına xüsusi diqqət verildi. Kosmik sənaye Azərbaycan Respublikası üçün yeni bir sahə olduğundan yüksək ixtisaslı kadrların yetişdirilməsi zərurəti yaranmışdı. Ona görə də yerli kadrların hazırlanması qarşıya məqsəd olaraq qoyuldu. Yerli mütəxəssislər üçün təlim proqramı tərtib edildi. Proqram Azərkosmosun tərəfdaşları olan ABŞ-nın Orbital Sciencies və Malayziyanın Measat Satellite Sistems şirkətlərində qısa və uzun müddətli nəzəri və təcrübi, yəni stajkeçmə təlimləri ilə yanaşı Böyük Britaniya, Çin və Almaniyanın tanınmış təlim şirkətlərində ixtisasartırma kurslarını əhatə edirdi. Azərkosmos ASC-nin əməkdaşları bir sıra ölkələrdə peyk sənayesi üzrə keçirilən ixtisaslaşmış kurs və təlimlərdə, konfrans və seminarlarda, o cümlədən Riqada "Qlobal naviqasiya və peyk sistemlərinin tətbiqi" mövzusunda keçirilmiş seminarda, Romada "Radar məhsullarının marketinqi və tətbiqi" mövzusunda keçirilmiş beynəlxalq konfransda, Böyük Britaniyanın Surrey Universiteti tərəfindən təşkil olunan "Radiotezlikli dövrələr və sistem dizaynı" mövzusunda təlimdə, Pekində "Peyklərin tətbiq texnologiyaları" mövzusunda keçirilmiş kursda, Berlində kosmik sahə üzrə mütəxəssislərin ixtisasartırma kurslarında, ölkə daxilində təşkil olunan qısamüddətli kurs və təlimlərdə iştirak etdilər.

Bakıda keçirilmiş Birinci Avropa Oyunları ilə əlaqədar olaraq "Vizaların verilməsi işinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı[179] ilə Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi arasında məlumat mübadiləsini yaxşılaşdırmaq üçün "Azərspace-1" telekommunikasiya peyki vasitəsilə səfirlik və konsulluqların peyk rabitəsi ilə təchiz edilməsi haqqında müqavilə imzalandı.

Dünyada rabitə peykinə malik 11 ölkədən biri olan Azərbaycan Respublikası MDB-də Rusiya və Qazaxıstandan sonra rabitə peyki olan 3-cü, Qafqazda isə ilk ölkə idi. Azərbaycan Respublikası Cənubi Qafqazda informasiya cəmiyyətinə keçid strategiyasını qəbul edən birinci dövlət oldu.

179 Vizaların verilməsi işinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Normativ Hüquqi Aktların elektron bazası. URL: http: www.e-qanun.az/framework/28738.

İnformasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiyanın qəbul edilməsi dövlətin bu sahədə siyasətinin ardıcıl xarakter daşıdığını göstərirdi. Qısa müddətdə ölkədə İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun, Yüksək Texnologiyalar Parkının, Elektron Təhlükəsizlik Mərkəzinin, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyinin fəaliyyəti təşkil olundu. Hərtərəfli dövlət qayğısı və güclü maliyyə təminatı ölkədə İKT sektorunun dinamik inkişafını təmin etdi. Qeyd etmək lazımdır ki, 2003-cü ildən respublikada informasiya-kommunikasiya texnologiyaları sektorunda hər il təqribən 20-25% artım müşahidə edilmiş, sektor hər üç ildə 2 dəfə genişlənmişdi. Bütövlükdə dövlət müstəqilliyinin bərpasından ötən müddət ərzində Azərbaycanda İKT-nin inkişafına 3 milyard ABŞ dollarından artıq vəsait qoyulmuşdu. Dünya İqtisadi Forumunun "Qlobal İnformasiya Texnologiyaları 2014" hesabatında Azərbaycan dünyanın 148 ölkəsi arasında 7 pillə irəliləyərək 56-cı yerdən 49-cu yerə yüksəlmiş və təxminən 20 göstərici üzrə MDB ölkələri arasında lider olmuşdu. BMT-nin "E-Hökumət"lə bağlı hər iki ildən bir nəşr etdiyi "E-Govemment Survey 2014" adlı hesabatında isə Azərbaycan Respublikası 28 pillə irəliləyərək 68-ci yerə yüksəlmişdi.

Azərbaycanın dünya kosmik ailəsinə daxil olması son dərəcə qürurverici hadisə idi. Bundan sonra ölkədə informasiya-kommunikasiya texnologiyaları sürətlə inkişaf etməyə başladı. Azərbaycanın yeni sənaye quruculuğu siyasətində bir sıra üstün istiqamətlər də müəyyənləşdirildi. Prezident İlham Əliyev "BakuTel-2014" sərgisində "Euronews" telekanalına verdiyi müsahibəsində ölkənin yeni prioritetlərinin məhz informasiya-kommunikasiya və kosmik texnologiyalarla bağlı olduğunu nəzərə çatdıraraq deyirdi:

"İnformasiya-kommunikasiya texnologiyaları və kosmik texnologiyalar bizim üçün əsas prioritetlərdən biridir. Proses davam edəcək".[180]

2018-ci il sentyabrın 26-da "Azərspace-2" peyki orbitə çıxarıldı. Qeyd etmək lazımdır ki, bu, son 5 il ərzində Azərbaycanın orbitə çıxardığı 3-cü peyk idi. Prezident İlham Əliyevin bu münasibətlə Azərbaycan xalqına təbrikində deyilirdi:

"Peyklərin orbitə çıxarılması dövlətimizin gücünü, bizim siyasətimizi göstərir. Bizim artıq 3 peykimiz var: "Azərspace-1" telekommunikasiya peyki, "Azərsky" müşahidə peyki və "Azərspace-2".[181]

180 Əliyev İ.H. «BAKUTEL–2014» XX Azərbaycan Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgisi ilə tanışlıq. Azərbaycan Prezidenti İlham Əliyevin «Euronews» telekanalına müsahibəsi // İnkişaf – məqsədimizdir. 66-cı kitab. Bakı, 2018, s. 139.

181 Əliyev İ.H. «Azərspace-2» peykinin orbitə buraxılması münasibətilə Azərbaycan xalqına təbrik // İnkişaf – məqsədimizdir. 89-cu kitab. Bakı, 2019, s. 200.

Məlum olduğu kimi, 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100 illiyi qeyd edilirdi. Prezidentin sərəncamı ilə 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilmişdi.[182] Eyni zamanda oktyabr ayında Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 27-ci ildönümü qeyd olunacaqdı. Peykin buraxılmasının Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100-cü ildönümünə həsr edildiyini Prezident belə ifadə etdi:

"Biz "Azərspace-2" peykimizin orbitə çıxarılmasını Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə, Azərbaycanın dövlət müstəqilliyinə həsr edirik".[183]

Peyklərin böyük əhəmiyyəti var idi. İlk növbədə, Azərbaycanın informasiya təhlükəsizliyi daha da etibarlı qorunurdu. Peyklərin vasitəsilə Azərbaycan telekanalları dünyaya verilişlərini təqdim edirdilər. Kadr hazırlığı işləri görüldü. Peykləri idarə edən kadrlar azərbaycanlı mütəxəssislər idi. Kosmik sənayenin inkişafı bu sahədə beynəlxalq əməkdaşlığı da dərinləşdirirdi. Dünyanın bu sahədə böyük təcrübəyə malik olan aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edən Azərbaycan öz məhsulunu ixrac edir və ölkəyə valyuta gəlirdi.

"Azərsky" müşahidə peyki vasitəsilə nəinki ölkənin, dünyanın istənilən nöqtəsində baş verən hadisələri izləmək və nəzarət etmək imkanı qazanılırdı. Azərbaycanın müdafiə və hərbi potensialının gücləndirilməsi işində "Azərsky" peykinin xüsusi rolu var idi. Ərazilərin işğaldan azad edilməsi uğrunda 2020-ci il sentyabrın 27-də başlayan müharibədə Azərbaycanın peyklərinin məlumatlarından geniş şəkildə istifadə edildi.[184] Xüsusən işğaldan azad edilmiş ərazilərin peyk təsvirlərinin əldə olunması hərbi - strateji əhəmiyyətə malik idi. "Azərsky" peykinin fəaliyyəti nəticəsində Azərbaycan bu sahədə də xaricdən asılılığı tamamilə aradan qaldırdı və bir çox ölkələrə peyk xidməti göstərməyə başladı. İnfrastruktur layihələrinin icrasında və mövcud infrastrukturun qorunmasında peyklər böyük əhəmiyyət daşıyırdı. Kənd təsərrüfatının inkişafında, ekoloji vəziyyətə nəzarətdə və torpaqlardan səmərəli şəkildə istifadə edilməsində "Azərsky" müşahidə peyki xüsusi rol oynadı.

182 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. https: president.az/articles/26711. 10.01.2018.

183 Əliyev İ.H. «Azərspace-2» peykinin orbitə buraxılması münasibətilə Azərbaycan xalqına təbrik // İnkişaf – məqsədimizdir. 89-cu kitab, s. 200.

184 İşğaldan azad olunmuş Zəngilan şəhərinin "Azersky" peykindən əldə edilmiş təsviri // Trend İA. 20.10.2020, URL: https: az.trend.az/azerbaijan/politics/3320658.html.

***

Fəsildə araşdırılan məsələlər göstərir ki, Azərbaycan dövlətinin qarşıya qoyduğu başlıca məqsədinə nail olmasından ötrü ölkə həyatının bütün sahələrində islahatlar dərinləşdirilmişdir. Eks-prezidentlər haqqında qanunun qəbul edilməsi ilə yeni dövlətçilik ənənəsinin əsası qoyulmuşdur. Bu qanun Azərbaycan cəmiyyətində milli birliyi daha da möhkəmləndirmək baxımından əhəmiyyətli olmuşdur.

Ölkədə aparılan islahatların tərkib hissələrindən biri kimi ASAN xidmət yaradılmışdır. Vətəndaşların rahatlığı və şəffaflıq baxımından bu xidmət müstəsna rol oynamışdır.

Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strategiyanın həyata keçirilməsi nəticəsində kosmosa Azərbaycan Respublikasının milli peykləri buraxılmışdır. Ölkə kosmik klubun üzvü olmuşdur. Peyklərin fəaliyyəti Azərbaycan Respublikasının informasiya təhlükəsizliyinin möhkəmləndirilməsində vacib vasitələrdən biri olmuş, həmçinin iqtisadi, kommersiya faydası gətirmiş, kənd təsərrüfatı və b. sahələrdə işlərin daha səmərəli yürüdülməsinə imkanlar yaratmışdır. Alınan məlumatlar işğal altındakı ərazilərdə vəziyyətin qiymətləndirilməsində və İkinci Qarabağ müharibəsində qələbə qazanılmasında özünəməxsus rol oynamışdır.

7-ci FƏSİL

PREZİDENT SEÇKİLƏRİ VƏ AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ MÖVQELƏRİNİN GÜCLƏNDİRİLMƏSİ

7.1. 2013-cü il prezident seçkiləri

2013-cü il oktyabrın 9-da ölkədə növbəti, sayca yeddinci prezident seçkiləri keçirildi. Seçkidə 10 namizəd iştirak edirdi. Qeyd edildiyi kimi, 2009-cu ildə ölkə konstitusiyasında dəyişikliklərə dair keçirilən ümumxalq səsverməsi nəticəsində Azərbaycan Respublikası Prezidentinin yalnız iki dəfə seçilməsini məhdudlaşdıran maddə aradan qaldırılmışdı. Ona görə də seçkiyə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyev də qatılmışdı. Ümid Partiyasının namizədi İqbal Ağazadə, Azərbaycan Sosial-Demokrat Partiyasının namizədi Araz Əlizadə, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının namizədi Qüdrət Həsənquliyev, Müasir Müsavat Partiyasının namizədi Hafiz Hacıyev, Milli Dirçəliş Hərəkatı Partiyasının namizədi Fərəc Quliyev, radikal müxalifəti təmsil edən partiyaların birləşdiyi Demokratik Qüvvələrin Milli Şurası siyasi ittifaqının namizədi Cəmil Həsənli, Azərbaycan Demokrat Partiyasının namizədi Sərdar Cəlaloğlu və Ədalət Partiyasının namizədi İlyas İsmayılov da seçkilərdə iştirak edirdilər. Əvvəllər Ana Vətən Partiyasının üzvü olmuş Zahid Oruc seçkidə müstəqil olaraq namizədliyini irəli sürmüşdü.

Namizədlər üçün bərabər imkanlar yaradılmışdı. Televiziya və radio kanallarında təbliğat və təşviqat kampaniyasını aparmaq üçün vaxt ayrılmışdı.

Seçkilərin təşkili təkmilləşdirilmiş və məntəqələrdə müşahidə kameraları quraşdırılmışdı. Maarifləndirici plakatlar əvvəlcədən müəyyənləşdirilmiş yerlərdə vurulmuşdu. Namizədlərin təbliğat-təşviqat kampaniyasını aparmalarından ötrü imkanlar yaradılmış, ödənişsiz televiziya debatları təşkil edilmiş, görüşlərin keçirilməsi üçün açıq və qapalı yerlər müəyyənləşdirilmişdi.

Seçici fəallığının 72,31% olduğu seçkidə İlham Əliyev seçicilərin 84,54%-nin səsini qazanaraq qalib oldu. Ölkə vətəndaşlarının səsvermədəki fəallığını yüksək qiymətləndirən müşahidəçilər və ekspertlər son illərdə ölkədə demokratik

proseslərin uğurla getdiyini, prezident seçkilərinin azad və şəffaf keçirildiyini bildirdilər.

Azərbaycan xalqı son 10 ildə qazanılan böyük nailiyyətlərə, sürətli inkişafa və uğurların davam etdirilməsinə səs vermişdi. Ötən illərdə Azərbaycan dövlətinin siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmlənmişdi. Dövlət başçısının fəaliyyət modeli bütün dünyanın qabaqcıl ölkələri tərəfindən qəbul olunurdu. Prezident İlham Əliyev görkəmli dövlət xadimi olaraq beynəlxalq miqyasda böyük nüfuz qazanmışdı. Onun rəhbərliyi altında Azərbaycan regionun lider dövlətinə çevrilmişdi. Həyata keçirilən qlobal və regional layihələr ölkənin dünyaya inteqrasiyasını sürətləndirmişdi. İnkişaf konsepsiyasının nəticələrini hər bir azərbaycanlı öz həyatında hiss etmişdi. Dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanırdı.

Prezident seçkiləri Azərbaycan xalqının iradəsini tam şəkildə əks etdirirdi. Seçkilər şəffaf, ədalətli və azad şəkildə keçirilmişdi.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2013-cü il 19 oktyabr tarixli qərarı ilə Azərbaycan Respublikası prezidenti seçkilərinin yekunlarına dair Mərkəzi Seçki Komissiyasının nəticələrini təsdiq etdi.[185]

Milli Məclisdə keçirilən andiçmə mərasimində Azərbaycanın dövlət rəsmiləri, hökumətin üzvləri, deputatlar və Prezidentin ailə üzvləri iştirak edirdilər. Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının dövlət bayrağını və Azərbaycan Respublikası Prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətirdilər. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri və Konstitusiya Məhkəməsinin hakimləri səhnəyə dəvət olundular. Konstitusiya Məhkəməsinin sədri məhkəmənin qərarını oxudu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əlini Azərbaycan Respublikasının konstitusiyasının üzərinə qoyaraq and içdi:

"Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!"

Azərbaycan Respublikasının dövlət himni səsləndirildi. Prezident müqəddəs Qurani-Şərifə əl basaraq and içdi:

"Əlimi Qurani-Şərifə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam".

185 Əliyev İ. H. Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyevin andiçmə mərasimi. 19 oktyabr 2013 // İnkişaf – məqsədimizdir. 59-cu kitab. Bakı, 2018, s.335-337.

Prezident İlham Əliyev təzim edərək Azərbaycanın dövlət bayrağını öpdükdən sonra geniş nitq söylədi. İlk növbədə, yenidən ona böyük etimad göstərən Azərbaycan xalqına dərin minnətdarlığını bildirən dövlət başçısı dedi ki, bundan sonra da ölkənin hərtərəfli inkişafı, xalqın rifahı üçün əlindən gələni əsirgəməyəcək və doğma xalqına sədaqətlə xidmət edəcəkdir. Bir gün əvvəl keçirilən dövlət müstəqilliyi gününü qeyd edən Prezident İlham Əliyev bildirdi ki, prezident seçkiləri, seçkilərin nəticələri dövlət müstəqilliyinə xalq tərəfindən verilən növbəti qiymətdir. Heydər Əliyev tərəfindən əsası qoyulan siyasətin davam etdirildiyini bildirən Prezident inkişafın təməlində sabitliyin dayandığını vurğuladı. Sabitliyin qorunmasında dövlət siyasəti, xalqla iqtidar arasındakı birlik əsas rol oynamışdı. Azərbaycan risklərdən, təhlükələrdən qoruna bilmiş, xalq sülh, əmin-amanlıq və təhlükəsizlik şəraitində yaşamışdı. Bütün istiqamətlərdə aparılan islahatlar, irəli sürülmüş təşəbbüslər ölkəni daha da gücləndirmiş, Azərbaycanın inamlı inkişaf dinamikası saxlanılmışdı.

Son on il ərzində dinlərarası, millətlərarası münasibətlər artıq dünya üçün bir örnək olmuşdu. Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq tədbirlər, forumlar, konfranslar Azərbaycanı dünyada tolerantlıq məkanı, dözümlülük və multikulturalizm mərkəzi kimi təqdim etmişdi. Beynəlxalq əlaqələrini genişləndirən Azərbaycan son on il ərzində 39 ölkədə səfirlik açmışdı. Səfirliklərin sayı 57-yə çatmışdı. Həmin illər ərzində 28 ölkə Azərbaycanda səfirliyini açmış və beləliklə, xarici ölkələrin səfirliklərinin sayı 53-ə çatmışdı. Beynəlxalq təşkilatlarla münasibətlərdə Azərbaycan dövləti mövqeyini daim müdafiə edir və qoruyurdu. Dünyada prinsipial mövqeyi ilə seçilən, etibarlı tərəfdaş kimi tanınan Azərbaycan ilə əməkdaşlıq etmək istəyən dövlətlərin sayı artırdı. Azərbaycan 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdi.

Azərbaycan Respublikasının xarici siyasətinin prioritet istiqaməti olan Dağlıq Qarabağ münaqişəsindən danışan ölkə rəhbəri münaqişənin həllini tapmadığını, bunun başlıca səbəbinin Ermənistanın riyakar siyasəti, qeyri-konstruktiv mövqeyi və beynəlxalq birliyin, bu məsələ ilə bilavasitə məşğul olan tərəflərin biganəliyinin olduğunu dedi. Dövlət başçısı birmənalı olaraq vurğuladı:

"Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, Azərbaycanın ayrılmaz hissəsidir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır... Bizim əzəli torpağımız olan Dağlıq Qarabağ bu gün siyasi və hüquqi cəhətdən də Azərbaycanın ayrılmaz hissəsidir. Ərazi bütövlüyü məsələlərində heç bir güzəştdən söhbət gedə bilməz. Heç vaxt Azərbaycan öz ərazisində ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan verməyəcək, icazə verməyəcəkdir. Bizim birmə-

nalı mövqeyimiz bir daha demək istəyirəm ki, tarixi ədalətə və beynəlxalq hüquq normalarına söykənir".[186]

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın ərazi bütövlüyü heç bir şübhə doğurmur və bu münaqişə yalnız ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır. Azərbaycanın bundan sonra da siyasi və diplomatik səylərini artıracağını, Ermənistanı təcrid edilmiş vəziyyətdə saxlayacağını, bu məsələ ilə bağlı Azərbaycan diplomatiyasının hücum diplomatiyası olacağını qeyd edən dövlət başçısı dedi:

"...Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Bununla bərabər, Azərbaycan nə qədər güclü olarsa, bu məsələ bir o qədər də tez öz həllini tapar. Bu məqsədlə Azərbaycanda həm iqtisadi islahatlar, eyni zamanda, ordu quruculuğu son 10 il ərzində böyük templərlə aparılmışdır.

Hərbi büdcəmiz 20 dəfədən çox artmışdır. Azərbaycan Ordusu bu gün dünya miqyasında güclü ordular sırasındadır. Son 10 il ərzində alınmış silah-sursat, hərbi texnika Ermənistan ilə Azərbaycan arasındakı hərbi balansı artıq pozmuşdur. Bizim üstünlüyümüz dəfələrlə ölçülür. Eyni zamanda, Azərbaycanda son 10 il ərzində əvvəlki illərdə olmamış hərbi sənaye kompleksi yaradılmışdır. Bu gün onlarla zavod fəaliyyət göstərir, 750 adda hərbi təyinatlı məhsul istehsal edilir. Beləliklə, biz həm yeni istehsalat sahələri yaradırıq, eyni zamanda, xarici silah bazarlarından asılılığımızı azaldırıq. Hesab edirəm ki, növbəti illərdə biz ordu quruculuğu istiqamətində daha da böyük addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik... Bir daha demək istəyirəm, məndə zərrə qədər şübhə yoxdur ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir".[187]

Dövlət başçısı siyasətində Azərbaycan xalqının istedadına və zəhmətinə güvəndiyinə diqqəti çəkərək əlavə etdi ki, bəziləri uğurları neft amili ilə bağlamaq istəyirdilər, amma hazırda həyat neft amilinin rolunun o qədər də böyük olmadığını göstərir. Uğurların əsas səbəbi dərin düşünülmüş və cəsarətli siyasətin yürüdülməsində idi. Dünyanın aparıcı iqtisadi qurumu olan Davos Dünya İqtisadi Forumunun rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı 39-cu yerə layiq görməsi ölkədə aparılan islahatlarla bağlı idi. Qarşıda sənayeləşmə, kosmik fəaliyyət və enerji siyasəti ilə bağlı böyük işlər dayanırdı. Dövlət başçısı iqtisadi müstəqilliyin vacibliyini aşağıdakı kimi vurğuladı:

"İqtisadi müstəqillik olmadan siyasi müstəqillikdən söhbət belə gedə bilməz... Görürük, o ölkələrdə ki, iqtisadi müstəqillik yoxdur, o ölkələr şantaj obyektinə çevrilir, o ölkələrə təzyiqlər göstərilir və o təzyiqlər nəticə verir. O ölkələr demək olar ki, xahiş edən ölkələr sırasındadır. Azərbaycan heç kimdən heç nə xahiş etməmişdir,

186 Əliyev İ.H. Andiçmə mərasimində nitq // İnkişaf – məqsədimizdir. 59-cu kitab , s. 341.
187 Yenə orada, s. 342-343.

etmir və etməyəcəkdir. Biz müstəqil siyasət aparırıq. Müstəqil siyasətin təməlində iqtisadi müstəqillikdir. İqtisadi müstəqilliyin yaradılması mənim üçün Prezident kimi ən vacib məsələlərdən biri idi...

İqtisadi müstəqillik, güclü ordu potensialı, cəsarətli, birmənalı siyasət, milli maraqlarımızın qorunması – bu amillər bizi problemlərdən qoruya bildi".[188]

Prezident qarşıdakı illər üçün prioritet məsələnin işğal altında olan ərazilərin azad edilməsi olduğunu aşağıdakı kimi ifadə etdi:

"Əsas prioritet məsələ əlbəttə ki, ərazi bütövlüyümüzün bərpasıdır. Bu, ən başlıca vəzifədir, bizim üçün ən ağrılı problemdir. Biz hamımız çalışmalıyıq ki, növbəti illərdə bu məsələni beynəlxalq hüququn ədalətli norma və prinsipləri üzərində həll edək.

İqtisadi güc bizim tərəfimizdədir. Haqq-ədalət, tarixi həqiqət bizim mövqeyimizi müdafiə edir... Biz növbəti beş il ərzində bu münaqişənin həlli üçün öz ardıcıl siyasətimizi davam etdirəcəyik.

Ermənistanı bütün regional layihələrdən təcrid etməliyik, etmişik, edəcəyik. Maksimum çalışmalıyıq ki, Ermənistan iqtisadiyyatı bundan da ağır vəziyyətə düşsün, orada depopulyasiya bundan da yüksək templərlə davam etsin. Beləliklə, biz münaqişənin həlli üçün bütün əsas şərtləri təmin etməliyik. Son illərin təcrübəsi onu göstərir ki, biz düzgün yoldayıq və Ermənistan məcbur olub açıq şəkildə etiraf edir ki, öz təhlükəsizliyini özü təmin edə bilmir. Əslində etiraf edir ki, Azərbaycandan, güclü Azərbaycan dövlətindən qorxur, Azərbaycan qarşısında acizdir. Ermənilər tərəfindən son 20 il ərzində yaradılan mif ki, erməni ordusu güclü ordudur, erməni iqtisadiyyatı güclü iqtisadiyyatdır, bu mif tamamilə dağıdılıb, bu mifdən əsər-əlamət qalmayıb...Münaqişənin həlli bir daha demək istəyirəm ki, prioritet məsələdir. Bu məsələ tam şəkildə öz həllini tapmalıdır. Hər hansı bir yarımçıq variant müvəqqəti variant kimi yalnız qəbul edilə bilər. Münaqişənin tam şəkildə həll edilməsi, əminəm ki, olacaqdır və ilk növbədə, əlbəttə, erməni işğalçı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Ondan sonrakı mərhələlərdə azərbaycanlılar Dağlıq Qarabağa qayıtmalıdırlar. Şuşada, Xankəndidə Azərbaycan bayrağı qaldırılmalıdır və əminəm ki, belə də olacaqdır. Mən qeyd etmək istəyirəm ki, strateji hədəf kimi azərbaycanlılar bütün tarixi torpaqlara qayıtmalıdırlar. ...biz buna nail olacağıq".[189]

İclasda Baş nazirin təyin edilməsinə razılıq verilməsinə dair Prezidentin təqdimatına baxıldı. Artur Rasizadə Baş nazir vəzifəsinə təyin edildi.

Prezident seçkiləri ölkənin qarşısında yeni imkanlar açırdı. Hökumətin bütün sahələrdə inkişafa dair konkret planları mövcud idi.

188 Yenə orada, s. 347.
189 Yenə orada, s. 349-350.

7.2. Cənub Qaz Dəhlizinin yaradılması, TAP və TANAP qaz boru kəmərləri

Məlum olduğu kimi, dövlət müstəqilliyinin ilk illərində Azərbaycan qaz və elektrik enerjisi təchizatı sarıdan digər ölkələrdən asılı vəziyyətdə idi. Həmin dövlətlər istədikləri vaxt Azərbaycana satdıqları qazı və elektrik enerjisini dayandırır və ondan siyasi təzyiq vasitəsi kimi istifadə etməyə çalışırdılar. Nəinki rayonlarda və kəndlərdə, hətta paytaxt Bakıda adamlar axşamlar bəzən şam və ağ neft lampalarının ümidinə qalırdılar. Yürüdülən siyasət nəticəsində həmin vəziyyətə son qoyuldu və Azərbaycan enerji təhlükəsizliyini təmin edən ölkə oldu. Bəzi ölkələrdən ərazisinin kiçik, əhalisinin az olmasına baxmayaraq, Azərbaycan Respublikası qaz təchizatını nəinki təmin edən, eyni zamanda Avropanın tələbatının ödənilməsində vacib rol oynayan bir ölkəyə çevrildi. Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft, Bakı – Tbilisi – Ərzurum qaz boru kəmərləri təkcə iqtisadi deyil, böyük siyasi və strateji əhəmiyyət daşıyan, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində xüsusi yer tutan layihələr oldu. TANAP və TAP layihələri Azərbaycanın "köhnə, qoca qitə"nin dövlətləri və xalqları üçün nə qədər əhəmiyyətli bir ölkə olduğunu göstərdi.

Uğurlu əməkdaşlıq nəticəsində Azərbaycan qazı Avropa ölkələri üçün yeni mənbə olur, dövlətin beynəlxalq mövqeləri və müstəqilliyi möhkəmlənirdi. Bu istiqamətdə növbəti addım 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda Trans-Anadolu Qaz Boru Kəməri – TANAP-ın təməlinin qoyulması oldu. Mərasimdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstan Prezidenti Giorgi Marqvelaşvilinin[190] bir arada olması uğurlu əməkdaşlıq formulunun göstəricisi idi.

Azərbaycan və Türkiyənin birgə səylərinin nəticəsi olan bu layihəyə dair saziş 2012-ci ildə İstanbulda imzalanmışdı. Layihə Azərbaycandan başlayan genişlənmiş Cənubi Qafqaz Boru Kəmərini (CQBK) Avropa İttifaqında bir neçə kəmərlə əlaqələndirməli idi. 5 il ərzində reallaşdırılması nəzərdə tutulan layihə bir neçə mərhələdə həyata keçiriləcək və ilk mərhələ 2018-ci ildə başa çatdırılacaqdı. 2020-ci ildə kəmərlə nəql olunacaq qazın həcmi ildə 16 milyard, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılmalı idi. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılmalı, Avropa üçün nəzərdə tutulan qaz Türkiyə – Bolqarıstan və ya Türkiyə – Yunanıstan sərhədində təhvil verilməli idi.

190 Giorgi Marqvelaşvili (1969) – Gürcüstanın 4-cü Prezidenti (2013-2018).

Təməlqoyma mərasimində nitq söyləyən Prezident İlham Əliyev boru kəmərləri, nəqliyyat-kommunikasiya dəhlizlərinin yaradılması istiqamətində görülən işlərdən danışarkən bildirdi:

"Bu layihə enerji layihəsidir. Bu layihə enerji təhlükəsizliyi layihəsidir...

Bakı–Tbilisi–Ceyhan əslində bir yol açdı, bir enerji dəhlizi yaratdı. Bu gün artıq Qarsda xüsusi məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, Bakı – Tbilisi – Qars dəmiryolu da məhz bu enerji dəhlizi üzrə inşa edilir. Bu, Bakı – Tbilisi – Ərzurum qaz kəmərinin inşasına da yol açdı...

Qısa müddət ərzində artıq TANAP layihəsi gerçəkləşir, bu gün təməl daşı qoyulur. 2013-cü ildə TAP layihəsi "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi kimi seçildi..."- Cənub Qaz Dəhlizi" 4 hissədən ibarətdir: "Şahdəniz", "Cənubi Qafqaz" qaz kəməri, TANAP və TAP".[191]

Prezident İlham Əliyevin gərgin səyləri nəticəsində Cənub Qaz Dəhlizi ilk dəfə olaraq Xəzər regionundakı qaz təchizatını Avropa bazarlarına birləşdirməklə bütün regionun enerji xəritəsini dəyişdirirdi. Artıq qeyd edildiyi kimi, layihə dörd hissədən ibarət idi. 1. "Şahdəniz-2". 2. Cənubi Qafqaz Boru Kəməri. 3.Trans-Anadolu Boru Kəməri (TANAP). 4. Trans-Adriatik Boru Kəməri (TAP). TANAP - 1850 km, TAP - 878 km, CQBK - 691 km idi. Cənub Qaz Dəhlizinin ümumi dəyəri təxminən 40 mlrd. ABŞ dollar təşkil edirdi.

Cənub Qaz Dəhlizi 7 hökuməti və 11 şirkəti özündə birləşdirən mürəkkəb bir layihə idi. İlkin mərhələdə Türkiyəyə 6 mlrd. m^3, Avropaya 10 mlrd. m^3 qaz nəqli nəzərdə tutulurdu.

Qısa müddətdə böyük işlər görüldü. Prezident İlham Əliyev 2016-cı il sentyabrın 1-də Heydər Əliyev adına Bakı Dərin özüllər zavodunda "Şahdəniz-2" layihəsinin hasilat və dikborular platformasının dayaq blokunun dənizə yola salınması mərasimində etdiyi nitqində bildirdi:

"Şahdəniz" və "Cənub Qaz Dəhlizi" layihələri dünyanın ən böyük enerji layihələrindəndir. ...

"Cənub Qaz Dəhlizi" artıq 7 ölkəni birləşdirir. Azərbaycan bu istiqamətdə öz liderlik fəaliyyətini davam etdirir... Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya bu layihənin iştirakçılarıdır. Bununla bərabər, 3 Balkan ölkəsi – Monteneqro, Bosniya və Herseqovina, Xorvatiya bu layihəyə növbəti mərhələdə qoşulacaqdır...".[192]

2017-ci il sentyabrın 14-də Bakıda Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" neft yataqlarının dərin-

191 Əliyev İ.H. Trans-Anadolu qaz boru kəməri – TANAP-ın təməlqoyma mərasimində iştirak // İnkişaf – məqsədimizdir. 67-ci kitab. Bakı, 2018, s.311-312.

192 Əliyev İ.H. "Şahdəniz-2" layihəsi üzrə dayaq blokunun dənizə yola salınması mərasimi // İnkişaf – məqsədimizdir. 75-ci kitab. Bakı, 2018, s. 165.

likdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş saziş imzalandı. "Əsrin müqaviləsi"nə bənzər ikinci sənədin memarı olan Prezident İlham Əliyev imzalanma mərasimində etdiyi nitqində dedi:

"Bu gün imzalanacaq müqavilənin ölkəmiz üçün çox böyük əhəmiyyəti vardır. "Azəri – Çıraq – Günəşli" neft yataqları blokunun işlənilməsi 2050-ci ilə qədər uzadılır. Yeni imzalanacaq müqavilə Azərbaycan üçün daha da əlverişlidir, baxmayaraq ki, 1994-cü ildə imzalanmış müqavilə də bizim maraqlarımızı tam təmin edirdi. Bu dəfə isə daha da yaxşı şərtlərlə müqavilə imzalanır... Əsas şərtlər artıq göstərir ki, Azərbaycanın gələcək inkişafı, maliyyə imkanlarımızın genişləndirilməsi üçün bu müqavilənin çox böyük əhəmiyyəti vardır".[193]

Dəyəri 22,7 mlrd. ABŞ dolları təşkil edən "Şahdəniz-2" layihəsi çərçivəsində aşağıdakı işlər görüldü: körpü ilə birləşdirilən iki dəniz platforması tikildi; 26 qaz hasilat quyusu qazıldı; quyuları sahildəki terminal ilə birləşdirəcək 500 km uzunluğunda sualtı boru kəmərlər inşa edildi; dənizdə tikinti aparan gəmilər modernləşdirildi; yeni qaz emalı və kompressiyası qurğularının yerləşdirilməsi üçün Səngəçal terminalı genişləndirildi.

2018-ci il mayın 28-də Azərbaycan xalqı müsəlman Şərqinin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100 illiyini qeyd etdikdən bir gün sonra, mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin və XXV yubiley Beynəlxalq "Xəzər neft və qaz" sərgisinin açılış mərasimi rəmzi məna daşıyırdı. Mərasimdəki nitqində Prezident İlham Əliyev bildirdi:

"Bu gün ölkəmizin tarixində çox əlamətdar, tarixi bir gündür. Bu gün "Cənub Qaz Dəhlizi"nin rəsmi açılışı günüdür...

Biz bu günü burada – Səngəçal terminalının ərazisində qeyd edirik. Səngəçal terminalı dünyanın ən böyük neft-qaz terminalıdır və məhz burada 4 il bundan əvvəl "Cənub Qaz Dəhlizi"nin təməli qoyulmuşdur. Onu da qeyd etməliyəm ki, bu gün Bakı Ekspo Mərkəzində XXV "Xəzər neft və qaz" sərgisi öz işinə başlayır və sərgidə iştirak edənlər bu gün bu mərasimdə də iştirak etmiş kimi sayıla bilərlər. Mən onları da salamlayıram. Bildirmək istəyirəm ki, 25 il ərzində ilk dəfədir ki, "Xəzər neft və qaz" sərgisinin açılışı sərgi yerində yox, Səngəçal terminalında baş verir.

"Xəzər neft və qaz" sərgisinin Azərbaycanın enerji siyasətinin reallaşmasında çox böyük rolu olmuşdur...

193 Əliyev İ.H. "Azəri", "Çıraq" və "Günəşli" neft yataqları üzrə yeni sazişin imzalanması mərasimi // İnkişaf – məqsədimizdir. 82-ci kitab. Bakı, 2019, s. 129.

"Cənub Qaz Dəhlizi"nin rəsmi açılışı onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin neft-qaz sənayesinin inkişafında yeni dövr başlanır".[194]

"Şahdəniz-2" çərçivəsində 2018-ci il iyunun 30-da Türkiyəyə kommersiya qaz həcmlərinin nəqlinə başlanıldı və iyulun sonunda "Şahdəniz Bravo" platformasından ilk qaz əldə edildi. Qeyd etmək lazımdır ki, Cənubi Qafqaz Boru Kəməri Genişləndirilməsi (CQBKG) "Şahdəniz" yatağının tam miqyaslı işlənməsi layihəsinin bir hissəsi idi. Layihə işlərinə 2013-cü ildə başlanılmışdı. CQBKG çərçivəsində Azərbaycan ərazisində yeni kəmər, Gürcüstanda isə iki yeni kompressor stansiyası tikildi.

Cənub Qaz Dəhlizinin tərkib hissələrindən biri olan TAP Yunanıstan – Türkiyə sərhədindən başlayaraq, Yunanıstandan, Albaniyadan və Adriatik dənizindən keçərək İtaliyada başa çatan və "Snam Rete Gas" (SRG) şəbəkəsinə birləşən təbii qaz boru kəmərinin layihələndirilməsindən, tikintisindən və istismarından ibarət idi. Azərbaycandan Avropa bazarlarına ixrac etmək üçün ən qısa və birbaşa yol kimi seçilən TAP layihəsi Avropa İttifaqının enerji təhlükəsizliyi və enerji mənbələrinin şaxələndirilməsində aparıcı rol oynayırdı. TAP layihəsinə dair Albaniya, İtaliya və Yunanıstan arasında dövlətlərarası saziş 2013-cü ilin fevral ayında imzalanmışdı.

Qeyd edildiyi kimi, Azərbaycan dövlətinin xarici siyasətinin vəzifələrindən biri ölkəni neft-qaz paylaşdırıcı, tranzit, Şərq-Qərb, Şimal-Cənub nəqliyyat-kommunikasiya mərkəzinə çevirmək idi. Ondan ötrü digər addımlar da atıldı. Azərbaycan Respublikası hökuməti və İran İslam Respublikası hökuməti arasında Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında 2016-cı il fevralın 23-də Tehranda saziş imzalandı.[195]

Böyük əhəmiyyət daşıyan bu sənədlər iki ölkə arasında əməkdaşlığı möhkəmləndirir və etimad mühitini artırırdı. Dəmiryolunun istifadəyə verilməsi Azərbaycanın iqtisadi təhlükəsizliyinin, müstəqilliyinin qorunmasına, Azərbaycan Respublikasının Şimal-Cənub dəhlizində fəal iştirak etməsinə bey-

194 Əliyev İ.H. Səngəçal terminalında "Cənub Qaz Dəhlizi"nin rəsmi açılışı mərasimi // İnkişaf –məqsədimizdir. 87-ci kitab. Bakı, 2019, s. 128-129.

195 "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu // Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Normativ Hüquqi Aktların elektron bazası. URL: www.e-qanun.az/framework/33288.

nəlxalq hüquqi zəmin yaradır, nəqliyyat-kommunikasiya xətlərinin şaxələndirilməsinə və təhlükəsizliyinin etibarlı qorunmasına imkan verirdi.

Azərbaycan Respublikasında "Muradxanlı", "Cəfərli" və "Zərdab" neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında ARDNŞ, "Zenit Aran Oyl Kompani Limited" və SOCAR-ın Ortaq Neft Şirkəti arasında 2016-cı il martın 16-da saziş imzalandı.[196] Bu sənədlər Azərbaycan Respublikasının enerji siyasətinin həyata keçirilməsində əhəmiyyətli rol oynayırdı.

Azərbaycan və Türkiyə hökumətiləri arasında Trans-Anadolu təbii qaz sisteminə dair 2014-cü il mayın 26-da Ankarada anlaşma memorandumu imzalandı.[197]

TANAP layihəsi Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından və Xəzər dənizinin digər sahələrindən hasil edilən təbii qazın Türkiyəyə və bu ölkədən Avropaya nəqlini nəzərdə tuturdu. Cənubi Qafqaz Boru Kəməri və TAP ilə birlikdə Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TANAP layihəsi Gürcüstan – Türkiyə sərhədindən başlayaraq Cənubi Qafqaz Boru Kəməri sisteminə birləşməli, Türkiyə ərazisindən keçərək Türkiyə-Yunanıstan sərhədində başa çatmalı və sonra təbii qazın Avropaya çatdırılması üçün TAP boru kəmərinə birləşdirilməli idi. Bu barədə Azərbaycan və Türkiyə hökumətləri arasında anlaşma memorandumu imzalanmışdı. Azərbaycan və Türkiyə hökumətləri arasında Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair saziş İstanbul şəhərində bağlanmışdı. Cənub Qaz Boru Kəməri sistemi ilə Azərbaycanın təbii qazı Gürcüstandan keçərək Türkiyənin Qərb sərhədinə daşınmalı və bununla sabit tranzit xətti təmin edilməli idi.

196 Azərbaycan Respublikasında "Muradxanlı", "Cəfərli" və "Zərdab" neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, "Zenit Aran Oil Company Limited" və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə Azərbaycan Respublikasının Qanunu // Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Normativ Hüquqi Aktların elektron bazası. URL: www.e-qanun.az/framework/33177.

197 "Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında Trans-Anadolu təbii qaz sisteminə dair" Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu // Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Normativ Hüquqi Aktların elektron bazası. URL: www.e-qanun.az/framework/34113.

7.3. Birinci Avropa Oyunları Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında vasitə kimi

Azərbaycan dövləti qarşıya qoyduğu başlıca məqsədə nail olmaqdan ötrü dünya əhalisinin böyük əksəriyyətinin maraq göstərdiyi idmandan bir vasitə kimi uğurla istifadə edirdi. Həm də Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidenti olan İlham Əliyev "idman diplomatiyasi"na ölkənin beynəlxalq fəaliyyətində müəyyən yer verirdi. Bu baxımdan Azərbaycan tarixinin yaddaqalan hadisələrindən biri 2015-ci il 12 iyun - 28 iyun tarixlərində Bakıda və Mingəçevirdə keçirilən Birinci Avropa oyunları oldu.

İlk Avropa oyunlarının keçirilməsinə dair məsələ hələ 2012-ci il 8 dekabr tarixində Romada Avropa Olimpiya Komitəsinin 41-ci Baş Assambleyasında müzakirə edilmişdi. Baş Assambleyanın üzvləri arasında keçirilmiş gizli səsvermə nəticəsində 48 səsdən 38 səs ilə (əleyhinə 8 səs, bitərəf 2 səs) ilk Avropa oyunlarının Bakıda keçirilməsi haqqında qərar qəbul edilmişdi. Ermənistan nümayəndələri səsvermədə iştirakdan imtina etmişdi.

Azərbaycanın təşkilatçı olaraq seçilməsi idman ölkəsi kimi məşhur olması, müvafiq infrastrukturun mövcudluğu və yüksək inkişafı ilə əlaqədar idi. Dünya idman oyunlarında Azərbaycan o vaxtadək böyük uğurlar qazanmışdı.

Bakıda keçiriləcək Birinci Avropa oyunlarına məsul olan Təşkilat Komitəsi Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə quruldu.[198] Komitəyə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, UNESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva sədrlik edirdi.

Prezident İlham Əliyev Bakıda keçiriləcək Avropa oyunları Koordinasiya Komitəsinin üzvlərini 2013-cü il aprelin 29-da qəbul edərkən dedi:

"Bu, böyük məsuliyyətdir. Çünki bu Birinci Avropa oyunlarıdır, böyük sınaqdır. Ümidvaram ki, birgə səylər nəticəsində olimpiya hərəkatı tarixində ən yaxşı oyunlardan birini təşkil etmək hədəfinə nail ola biləcəyik. Bu bizim məqsədimizdir".[199]

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki [200] dedi:

"Biz fəxr edirik ki, Siz indi də Azərbaycan Milli Olimpiya Komitəsinə rəhbərlik edirsiniz. Cənab Prezident, tam əminliklə deyirəm ki, biz burada tarix yazırıq. Bu çox nadir bir hadisədir. Əminəm ki, Sizin və bütün azərbaycanlı həmkarları-

198 I Avropa Oyunlarının 2015-ci ildə Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet saytı. 2013, 17 yanvar. https:president.az/articles/7076.

199 Əliyev İ.H. 2015-ci ildə Bakıda keçiriləcək Avropa oyunları Koordinasiya Komitəsinin üzvləri ilə görüş // İnkişaf – məqsədimizdir. 56-cı kitab. Bakı, 2017, s.153.

200 Patrik Hikki (1945) – Avropa Olimpiya Komitəsinin sədri (2006-2016).

mın səyləri nəticəsində ilk Avropa oyunları ölkənizdə, sözün əsl mənasında, uğur qazanacaqdır".[201]

Geniş hazırlıqlara başlandı. Bakıda Olimpiya stadionunun tikintisinə start verildi. Ölkə başçısı 2014-cü il fevralın 28-də Bakı Olimpiya stadionunda tikinti işlərinin gedişi ilə tanış olarkən bildirdi ki, Azərbaycan dünyada idman dövləti kimi tanınır, Birinci Avropa oyunları kimi mötəbər idman yarışlarının keçirilməsi ilə bağlı qərarın qəbul edilməsi bunun daha bir əyani göstəricisidir. Əlbəttə, bu qərarın qəbulunda ölkədə dayanıqlı ictimai-siyasi sabitlik, sürətli iqtisadi inkişaf proseslərinin getməsi, Azərbaycanın dünyada nüfuzunun artması, respublikanın müxtəlif mötəbər beynəlxalq idman tədbirlərinə ev sahibliyi etməsi və zəngin təcrübəyə malik olması mühüm rol oynamışdı.[202]

Prezident İlham Əliyev 2014-cü il noyabrın 20-də Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxı və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkini qəbul edərkən Avropa Olimpiya Komitəsinin 43-cü Baş Assambleyasının Bakıda keçirilməsini əhəmiyyətli hadisə kimi qiymətləndirdi. Tomas Bax Beynəlxalq Olimpiya Komitəsi tərəfindən dövlət başçıları üçün hazırlanmış Xatirə medalını təqdim edərkən bildirdi ki, Prezident İlham Əliyev bu medalın təqdim olunduğu ilk dövlət başçılarından biridir.[203]

Avropa Olimpiya Komitəsinin 43-cü Baş Assambleyasının 2014-cü il noyabrın 21-də Bakıda iki gün davam edən toplantısının rəsmi açılışında Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak etdilər. Dövlət başçısı çıxışında bildirdi:

"Son 10-15 il ərzində Azərbaycanda 50-dən artıq müasir Olimpiya Mərkəzi tikilib...

Azərbaycan idmançıları ölkəmizi beynəlxalq səhnədə layiqincə təmsil edirlər.

...biz dünyanın aparıcı idman ölkələri sırasındayıq".[204]

"Bakı-2015" ilk Avropa oyunlarının təqdimat mərasimi 2015-ci il yanvarın 22-də Davosda keçirildi. İlk Avropa oyunlarının təqdimat mərasimində çıxış edən Prezident İlham Əliyev bu hadisənin səbəblərinə və xüsusi əhəmiyyət daşıdığına diqqəti cəlb edərək dedi:

"Digər qitə oyunlarından fərqli olaraq, Avropa oyunları heç vaxt təşkil olunmamışdı...

201 Əliyev İ.H. 2015-ci ildə Bakıda keçiriləcək Avropa oyunları Koordinasiya Komitəsinin üzvləri ilə görüş // İnkişaf – məqsədimizdir. 56-cı kitab, s. 154.

202 Əliyev İ.H. Bakı Olimpiya Stadionunda tikinti işlərinin gedişi ilə tanışlıq // İnkişaf – məqsədimizdir. 61-ci kitab. Bakı, 2018, s.274-275.

203 Əliyev İ.H. Beynəlxalq olimpiya və Avropa olimpiya komitələrinin prezidentləri Tomas Bax və Patrik Hikki ilə görüş // İnkişaf – məqsədimizdir. 66-cı kitab. Bakı, 2017, s.67-68.

204 Yenə orada, s. 73-74.

Fikrimcə, bu oyunların Bakıda keçirilməsi haqqında qəbul edilmiş qərarın bir səbəbi də atletlərimizin nailiyyətləri ilə bağlıdır. Azərbaycan müstəqillik illəri ərzində özünü həm də idman ənənələri ilə seçilən ölkə kimi tanıdıb. Sonuncu London Olimpiya oyunlarındakı iştirakımız ölkəmiz üçün çox vacib olub. 10 medal qazandıq, onlardan 2-si qızıldır. Biz dünya ölkələri arasında 30-cu, Avropa ölkələri arasında isə 15-ci olduq.

Zənnimcə, səbəblərdən biri də bu idi. Digər səbəb isə Azərbaycanın sürətli inkişafı ilə bağlıdır. Müstəqillik illərində, xüsusən də son 10 il ərzində iqtisadiyyatımız 3 dəfədən çox artıb. Davos Dünya İqtisadi Forumu qlobal rəqabətlilik reytinqinə görə Azərbaycanı 38-ci yerdə qərarlaşdırıb. İqtisadi inkişaf və müasir infrastruktur oyunların Bakıda keçirilməsi barədə qərarın qəbulunda böyük rol oynadı" .[205]

Azərbaycanın təşkilatçılıq bacarığının yüksək olduğunu qiymətləndirən Patrik Hikki dedi:

"Bakıda ilk Avropa oyunları olduqca gözəl keçiriləcək. Azərbaycan qədim tarixə malik, yüksək templə inkişaf edən, zəngin təbii sərvətləri olan, onları lazımi şəkildə idarə edən ölkədir. Azərbaycan cəmi 23 il ərzində görünməmiş tərəqqi əldə edib".[206]

Forumun gedişində belə bir təqdimat mərasiminin keçirilməsi böyük əhəmiyyət daşıyırdı. Hər şeydən əvvəl, iştirakçı ölkələrin kütləvi informasiya vasitələrinin bu hadisəni geniş işıqlandırması Azərbaycana olan marağı daha da artırırdı.

Oyunların təşkilati baxımdan hazırlanmasından ötrü işlər genişləndirildi. Bakı Olimpiya stadionunun tikintisi başa çatdırıldı. 2015-ci il martın 18-də Prezident İlham Əliyev və xanımı, Birinci Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva Bakı Olimpiya stadionunun açılış mərasimində iştirak etdilər. Mərasimdə Prezident İlham Əliyev, FİFA prezidenti Yozef Blatter və UEFA prezidenti Mişel Platini, eləcə də dünya futbol ictimaiyyətinin görkəmli nümayəndələri, federasiya rəhbərləri və futbol veteranları iştirak edirdilər. Ətrafında ümumilikdə 82 min kvadratmetrlik yaşıllıq sahəsinin salındığı Bakı Olimpiya stadionu yüksək keyfiyyətlə inşa olunmuşdu. Təxminən 50 hektar ərazidə tikilən stadionun hündürlüyü 62 metr və 6 mərtəbədən ibarət idi. Stadionun sahəsinə 4, tribunalara isə 26 qapıdan giriş var idi. 68 min tamaşaçı tutumlu stadiona olimpiya normativlərinə əsasən, insanların daha çox piyada və ictimai nəqliyyatla gəlməsi nəzərdə tutulmuşdu. Ərazidə 3 min 100 yerlik avtomobil parkı inşa edilmişdi.[207]

205 Əliyev İ.H. "Bakı–2015" ilk Avropa Oyunlarının təqdimat mərasimində iştirak // İnkişaf – məqsədimizdir. 67-ci kitab. Bakı, 2017, s.25.
206 Yenə orada, s. 28.
207 Əliyev İ.H. Bakı Olimpiya Stadionunun açılışı mərasimi // İnkişaf – məqsədimizdir. 67-ci kitab, s. 323-326.

Aprelin 26-da Azərbaycanın və dünyanın idman tarixində əlamətdar hadisə baş verdi. Bakıda Birinci Avropa oyunlarının məşəli alovlandırıldı. Prezident İlham Əliyev, Birinci Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, ailə üzvləri və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki mərasimdə iştirak edirdilər. Oyunlar beynəlxalq idman ictimaiyyətinin diqqət mərkəzində idi. Olimpiya ənənəsinə uyğun olaraq estafet qədim od məbədi olan Atəşgahdan başladı. Birinci Avropa oyunlarının məşəli 47 gün ərzində Azərbaycanın hər bir guşəsində gəzdirilib-dolaşaraq oyunların açılışı mərasimində Bakı Olimpiya stadionuna gətiriləcəkdi. Açılış nitqində ölkə rəhbəri Azərbaycanın uğurlarından söz açdı.[208]

Prezident İlham Əliyev, Birinci Avropa oyunlarının Təşkilat Komitəsinin sədri, birinci xanım Mehriban Əliyevanın və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin müşayiəti ilə məşəli alovlandırdı.[209]

Dövlət başçısı və Birinci Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva mayın 25-də Bakıda I Avropa oyunlarının Atletlər kəndinin açılışını etdilər. 13 yaşayış binasından və yardımçı binalardan ibarət kompleksdə 2, 3 və 4 otaqlı 1042 mənzil var idi. Burada ümumilikdə 7499 atlet və rəsmi şəxsin yerləşdirilməsi nəzərdə tutulmuşdu.

Prezident İlham Əliyev və Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva Avropa oyunlarını işıqlandırmaq məqsədilə Azərbaycana gələn jurnalistlər üçün inşa edilmiş Media kəndinin də açılışını etdilər. Burada media nümayəndələrinin səmərəli işləməsi və istirahət etməsi üçün hər cür şərait yaradılmışdı. Akkreditasiya mərkəzi ilə tanışlıq zamanı bildirildi ki, ilk Avropa oyunlarını işıqlandırmaqdan ötrü 900-ə yaxın xarici media təmsilçisi qeydiyyatdan keçmişdir. Media kəndində mədəniyyət və turizm mərkəzi yaradılmışdı. Mərkəzdə jurnalistlər üçün Azərbaycan haqqında müxtəlif məlumatların əks olunduğu bukletlər və kitabların sərgisi təşkil edilmişdi. Media kəndindəki 4 binada ümumilikdə 536 mənzil var idi.[210]

Prezident İlham Əliyevin adından iyunun 12-də Heydər Əliyev Mərkəzində "Bakı-2015" I Avropa oyunlarının rəsmi açılışı mərasimi iştirakçılarının şərəfinə rəsmi qəbul təşkil olundu. Qəbulda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Serbiya Prezidenti Tomislav Nikoliç, Monteneqro Prezidenti Filip Vuyanoviç, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Mladen İvaniç, Belarus Prezidenti Aleksandr Lukaşenko, Türkmənistan Prezidenti Qurbanqulu

208 Əliyev İ.H. "Bakı–2015" I Avropa Oyunları məşəlinin alovlandırılması mərasimi // İnkişaf – məqsədimizdir. 68-ci kitab. Bakı, 2017, s.142.
209 Yenə orada, s. 145.
210 Əliyev İ.H. I Avropa Oyunlarının Atletlər və Media kəndlərinin açılışı mərasimi // İnkişaf – məqsədimizdir. 69-cu kitab. Bakı, 2017, s. 27-30.

Berdiməhəmmədov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Lüksemburq Hersoqluğunun Böyük Hersoqu Anri, Monako Knyazlığının şahzadəsi II Albert, San-Marinonun dövlət başçıları – Kapitan regentləri Andrea Belluzzi və Roberto Venturini, Bolqarıstanın Baş naziri Boyko Borisov, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Qırğızıstan Baş nazirinin birinci müavini Tayrıbek Sarpaşov, Çex parlamentinin Deputatlar Palatasının sədri Yan Hamaçek, Slovakiya parlamentinin sədri Peter Pelleqrini, Avstriya parlamentinin ikinci prezidenti Karlhaynts Kopf, Latviya parlamentinin sədr müavini Andrey Klementyev, Meksika Senatının xarici əlaqələr komitəsinin sədri Qabriela Kuevas Barron, Ukrayna Dövlət Fiskal Xidmətinin sədri, Ukrayna Ali Radasının Ukrayna – Azərbaycan parlamentlərarası əlaqələr üzrə qrupun başçısı Roman Nasirov, Qətər Olimpiya Komitəsinin sədri şeyx Cənan bin Həməd əl-Tani, Səudiyyə Ərəbistanı Krallığının şahzadəsi Abdullah bin Mosaad, Küveytin informasiya və gənclər naziri şeyx Salman əl Hamoud əs-Sabah, Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu, Oman Sultanlığının idman işləri naziri şeyx Səad bin Məhəmməd bin Səid əl-Mərduf əl-Sədi, İran İslam Respublikasının idman və gənclər naziri Mahmud Qudərzi, Türkiyənin energetika naziri Tanər Yıldız, Böyük Britaniyanın xarici işlər nazirinin müavini və parlamentin üzvü Tobias Martin Elvud, Vatikanın mədəniyyət nazirinin müavini Luis Marie Vilyam Sançez de Toca, ICESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tüveycri, Latviyanın sabiq prezidenti Valdes Zatlers və digər yüksək vəzifəli qonaqlar iştirak edirdilər. Prezident İlham Əliyev və Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva ilk Avropa oyunlarının açılışı mərasimində iştirak etmək üçün Azərbaycana gələn dövlət və hökumət başçıları, tanınmış ictimai-siyasi və idman xadimləri ilə görüşdülər.

Dünyanın idman tarixində iz qoyan ilk Avropa oyunlarının rəsmi açılışı mərasimində yüksək səviyyəli qonaqların iştirakı bu oyunların əhəmiyyətini göstərirdi. Avropa oyunlarına bütün dünyada böyük maraq var idi. Qitənin idman tarixində mühüm hadisə olan oyunların Azərbaycanda keçirilməsinə qərar verilməsi ölkənin beynəlxalq nüfuzundan irəli gəlirdi. Bu isə Avropa oyunlarının standartını yaradan Azərbaycanı yenidən dünyanın diqqət mərkəzinə çevirirdi. Azərbaycan da daxil olmaqla, Avropanın 50 ölkəsindən 6000-dən artıq idmançının qatıldığı Birinci Avropa oyunları dünya idman tarixində mühüm hadisə idi.

Rəsmi qəbulda oyunlara dair qısa videoçarx nümayiş etdirildi. Dövlət başçısı İlham Əliyev nitqində dedi:

"Bu, ölkəmiz üçün tarixi hadisədir. Çünki bu günə qədər ölkəmizdə bu miqyasda idman yarışları keçirilməmişdir. Eyni zamanda, bu, Avropa üçün də tarixi hadisədir. Çünki başqa qitələrdən fərqli olaraq, Avropada heç vaxt qitə oyunları

keçirilməmişdir. Baxmayaraq ki, olimpiya hərəkatının və olimpiya ideyalarının vətəni Avropadır".[211]

Birinci Avropa Oyunları 12 iyun - 28 iyun tarixlərində Bakıda və Mingəçevirdə keçirildi. Avropanın 50 Milli Olimpiya Komitəsini birləşdirən Avropa Olimpiya Komitəsi tərəfindən keçirilən oyunlarda 20 idman növü üzrə mübarizə aparılırdı.

Oyunların keçirilməsi üçün 4 qrupda 18 yarış obyekti mövcud idi. Daimi idman obyektlərinin sayı 12 idi. Onlardan beşi – Milli Gimnastika Arenası, BMX Veloparkı, Bakı Su İdmanı Mərkəzi, Bakı Atıcılıq Mərkəzi və Olimpiya Stadionu yeni inşa edilmişdi. Həmçinin Su Polosu Arenası, Çimərlik Arenası, Basketbol Arenası, Dağ Velosipedi Veloparkı, eyni zamanda Triatlon və Velosiped yarışları üçün nəzərdə tutulmuş altı müvəqqəti idman obyekti də yaradılmışdı. Bu möhtəşəm idman yarışının gedişində qədim və zəngin Azərbaycan tarixi və mədəniyyəti geniş təbliğ edildi.

Avropa oyunlarının rəsmi rəmzləri olan ceyran və nar Azərbaycanın təbiətindən və irsindən ruhlanırdı. Rəsmi loqo 2014-cü il 16 iyun tarixində elan edilmişdi. Təbii gözəlliyin, zərifliyin və saflığın rəmzi və Azərbaycanda qorunan heyvan növlərindən biri olan ceyran qonaqlara Azərbaycanın zəngin irsinə nəzər salmağı təklif etməklə oyunların mədəniyyət elçisi oldu. Qafqaz dağlarından tutmuş Xəzər dənizinin sahillərinədək ceyran qonaqlara ölkə boyu bələdçilik edərək onlara Azərbaycanın gözəlliklərini nümayiş etdirdi. Azərbaycan folklorunda nar birliyi tərənnüm edir.

İyunun 28-də Birinci Avropa oyunlarının rəsmi bağlanış mərasimi keçirildi. Bakı Olimpiya stadionu yenə də izdihamlı idi. Bağlanış mərasiminə olan hədsiz maraq oyunların böyük uğurundan xəbər verirdi. İdman mütəxəssisləri və analitiklərin fikrincə, "Bakı-2015" gözlənildiyindən də möhtəşəm alınmışdı. Çıxış edən Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki dedi:

"Bir çox ev sahibliyi edən şəhərlər bu cür tədbirlərə hazırlıq üçün 5-7 il sərf edir. Bakı isə cəmi 30 aylıq qısa zaman kəsiyində bu cür möhtəşəm qitə miqyaslı oyunlara yüksək səviyyədə ev sahibliyi etməklə, Avropa olimpiya hərəkatını şərəfləndirdi".[212]

Yarışların nəticələri də Azərbaycan üçün uğurlu oldu. 21 qızıl, 15 gümüş və 20 bürünc medal qazanan Azərbaycan idmançıları yalnız Rusiyadan geri qalaraq 2-ci yerə çıxdılar. Avropanın 49 ölkəsindən 48-ni geridə qoyaraq qitə 2-cisi olmaq böyük uğur idi.

211 Əliyev İ.H. I Avropa Oyunlarının rəsmi açılışı mərasimi iştirakçılarının şərəfinə təşkil olunan rəsmi qəbulda iştirak // İnkişaf – məqsədimizdir. 69-cu kitab, s.143.

212 Əliyev İ.H. "Bakı–2015" I Avropa Oyunlarının möhtəşəm bağlanışı mərasimi // İnkişaf – məqsədimizdir. 69-cu kitab, s.242.

"Bakı-2015" ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva bağlanış mərasimindəki nitqində dedi:

"Belə bir idman və dostluq bayramı başa çatdığı zaman mən ölkəmizdən və xalqımızdan böyük qürur duyduğumu bəyan edirəm.

Son 17 gün hər zaman xatirimizdə qalacaq. O, nəsillərə qalacaq, tariximizin yaddaqalan məqamı olacaq".[213]

Yarışlara həm hazırlıq prosesində, həm də gedişində Avropa oyunlarının Azərbaycan standartı yaradıldı. Azərbaycana gələnlər ölkənin gözəlliklərini, xalqın qonaqpərvərliyini və zəngin mədəniyyətini əyani olaraq gördülər. Birinci Avropa oyunlarının keçirilməsi Azərbaycan tarixində möhtəşəm ilk kimi özünə yer tutdu. "İdman diplomatiyası" dövlətin beynəlxalq mövqelərinin möhkəmlənməsinə kömək etdi.

7.4. V çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilər

Ölkənin ictimai-siyasi həyatının ən mühüm hadisələrindən biri 2015-ci il noyabrın 1-də V çağırış Azərbaycan Respublikası Milli Məclisinə majoritar sistem əsasında seçkilərin keçirilməsi oldu. Seçkidə 11 siyasi partiya birbaşa, 7-si isə vahid siyasi partiya bloku kimi iştirak edirdi. Bülletenlərə 767 nəfər namizədin adı daxil edilmişdi. Bir yer uğrunda 6-dan artıq iddiaçı mübarizə aparırdı. 125 dairə seçki komissiyası yaradılmışdı. Məntəqələrin 20%-ə qədərində veb-kameralar quraşdırılımışdı.

Azad, ədalətli və şəffaf keçən seçki kampaniyasında bütün partiyalar və namizədlər üçün bərabər imkanlar yaradılmışdı. Seçkini 500-dən artıq beynəlxalq, minlərlə yerli müşahidəçi izləyirdi. Rəsmi statistikaya əsasən bu zaman ölkədə olan 5 milyon 211 min 765 nəfər seçicidən 2 milyon 894 min 515 nəfəri seçkidə iştirak etmişdi.

Seçkilərin nəticələri MSK-nın noyabrın 18-də keçirilən iclasında təsdiq olundu. Yalnız bir dairədə - 90 saylı Ağdaş seçki dairəsində səsvermənin nəticələri, bütövlükdə isə ölkədə 53 seçki məntəqəsində səsvermənin nəticələri etibarsız sayıldı.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 24 noyabr tarixli plenumunda "2015-ci il noyabr ayının 1-də keçirilmiş beşinci çağırış Azərbaycan Respublikası Milli Məclisi deputatlarının seçkilərinin nəticələrinə dair" qərar

213 Əliyev İ.H. "Bakı–2015" ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın çıxışı // İnkişaf – məqsədimizdir. 69-cu kitab, s. 248.

qəbul edərək təsdiq olundu.[214] Seçkilərin nəticəsində Yeni Azərbaycan Partiyası 71, Vətəndaş Həmrəyliyi Partiyası 2, Ana Vətən, Milli Dirçəliş Hərəkatı, Bütöv Azərbaycan Xalq Cəbhəsi, Azərbaycan Demokratik İslahatlar, Böyük Quruluş, Vətəndaş Birliyi, Azərbaycan Sosial Rifah, Azərbaycan Sosial Demokrat, Azərbaycan Demokratik Maarifçilik və Birlik partiyaları isə hər biri 1 deputat mandatı əldə edə bildilər. Seçkilərin nəticələrinə görə, ölkənin müstəqil, heç bir siyasi partiya mənsubiyyəti olmayan 42 nəfər görkəmli elm, təhsil və mədəniyyət xadimi də Milli Məclisə seçildilər. 2010-cu il seçkiləri ilə müqayisədə müstəqil deputatların mövqeyi parlamentdə xeyli güclənmişdi. Yeni Azərbaycan Partiyası isə xalqın ən çox dəstəyini alan aparıcı siyasi qüvvə olaraq qalırdı.

Seçkilərin nəticələri Azərbaycan xalqının iradəsini ifadə edirdi. Azad, ədalətli və şəffaf keçirilən seçkilər ölkənin demokratiya yolunda inkişafında mühüm addım oldu.

V çağırış Milli Məclisin noyabrın 24-də keçirilən ilk iclasında Prezident İlham Əliyev geniş nitq söyləyərək parlamentin fəaliyyətinə uğurlar arzuladı, seçkilərin nəticələrinin xalqın iradəsini əks etdirdiyini dedi. Son illərdə ölkənin sosial-iqtisadi, siyasi, mədəni sahələrdə inkişafı və xarici siyasət məsələlərindən bəhs edən dövlət başçısı qazanılan uğurların səbəblərini aşağıdakı kimi izah etdi:

"Ölkəmizdə sabitlik təmin edilib, möhkəmlənir. Hər bir ölkə üçün sabitlik başlıca şərtdir. Sabitlik pozulduqda əlbəttə ki, ölkə inkişaf edə bilməz, ölkəyə sərmayə cəlb etmək mümkün deyil, ölkə öz etibarlılığını itirə bilər. Azərbaycanda sabitlik xalqın iradəsi ilə təmin edilib".[215]

Prezident ölkə qarşısında dayanan ən böyük problemin Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin olduğunu bildirdi. Hərbi təcavüzdən danışarkən tarixə qısa nəzər yetirib, indiki Ermənistan ərazisinin tarixi Azərbaycan torpağı olduğunu, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üçün beynəlxalq səylərə, BMT Təhlükəsizlik Şurasının qərarlarına, ATƏT, Avropa Şurasının Parlament Assambleyasının sənədlərinə, Minsk qrupunun fəaliyyətinə və münaqişənin həllinə mane olan amillərə diqqət yetirən dövlət başçısı bildirdi:

"...əgər Ermənistanın arxasında güclü himayədarları olmasaydı, bu məsələ çoxdan öz həllini tapardı. Təkbaşına, xarici yardım almadan Ermənistan bizim qarşımızda duruş gətirə bilməzdi. Bu gün də əlbəttə ki, Azərbaycan Ermənistandan bir neçə dəfə güclüdür və üstündür. Ancaq bu da həqiqətdir ki, erməni lobbisi, müxtəlif ölkələrdə fəaliyyət göstərən erməni təşkilatları öz rolunu oynayır. Bu təşkilatlar

214 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi.2 cilddə. II cild, s. 520.
215 Əliyev İ.H. Azərbaycan Respublikası V çağırış Milli Məclisinin ilk iclasında iştirak // İnkişaf – məqsədimizdir. 71-ci kitab. Bakı, 2018, s. 223.

müvafiq ölkələrin hökumətlərinə təsir göstərir. Bu amil bu gün münaqişənin həllində ən böyük əngəldir. Çünki Ermənistan təkbaşına beynəlxalq hüququ kobudcasına, bu dərəcədə kobud şəkildə poza bilməzdi".[216]

Azərbaycan Respublikasının həyata keçirdiyi beynəlxalq layihələrdən bəhs edən dövlət rəhbəri onların ölkəyə gətirəcəyi faydaların üzərində dayanaraq bildirdi ki, Cənub Qaz Dəhlizinin reallaşdırılması Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirəcəkdir. Nitqinin sonunda Prezident Azərbaycan dövləti və xalqının gələcək inkişaf perspektivləri ilə bağlı dedi:

"Azərbaycan müasir dövlətdir, ancaq dərin milli-mənəvi dəyərlər üzərində qurulan bir dövlətdir. Milli dəyərlərimiz, Azərbaycan dəyərləri bizim üçün hər şeydən üstündür. Azərbaycan müstəqillik yolu ilə gedir, gedəcək, biz müstəqilliyimizi qoruyuruq və qoruyacağıq".[217]

İclasda Oqtay Əsədov Milli Məclisin sədri seçildi. Həmçinin Milli Məclis sədrinin müavinləri seçildi. Milli Məclisin komitələri formalaşdırıldı. Əvvəlki çağırışdan fərqli olaraq aşağıdakı yeni komitələr təşkil edildi: Səhiyyə komitəsi; Ailə, qadın və uşaq məsələləri komitəsi; İctimai birliklər və dini qurumlar komitəsi; Gənclər və idman komitəsi. Beləliklə, komitələrin sayı 15 oldu.

Parlament seçkiləri mühüm hadisə olmaqla ölkənin müasirləşməsinin və rəqabətə davamlı olmasının qanunvericilik bazasının yaradılmasında başlıca rol oynadı.

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, 2013-cü il prezident seçkiləri ölkə həyatında ən mühüm hadisə olmuşdur. Azərbaycan xalqı dövlət başçısı İlham Əliyevə yenidən etimad göstərmişdir. Andiçmə mərasimində Prezident ölkə qarşısında dayanan başlıca məqsədin torpaqların işğaldan azad edilməsi olduğunu bir daha bəyan etmişdir.

Uğurlu daxili və xarici siyasət xətti davam etdirilmişdir. Bir neçə beynəlxalq layihənin əsası qoyulmuşdur. Cənub Qaz Dəhlizi, TAP və TANAP layihələrinə başlanılması Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmişdir.

Azərbaycan dövləti başlıca məqsədinə nail olmaqdan ötrü "idman diplomatiyası"ndan da bacarıqla istifadə etmişdir. Birinci Avropa Oyunlarının Azərbaycan Respublikasında keçirilməsi idman yarışları ilə yanaşı, həmin vəzifələrin yerinə yetirilməsinə də xidmət etmişdir.

216 Yenə orada, s. 226.
217 Yenə orada, s. 232.

V çağırış Azərbaycan Respublikası Milli Məclisinə 2015-ci ildə keçirilən seçkilər ölkənin ictimai-siyasi həyatında əhəmiyyətli yer tutmuşdur. Majoritar seçki sistemi əsasında formalaşan parlamentə növbəti dəfə də müxtəlif partiyaların, həmçinin heç bir partiyanın üzvü olmayan nüfuzlu elm, təhsil və mədəniyyət xadimləri seçilmişlər. Parlamentin ilk iclasında nitq söyləyən Prezident İlham Əliyev ölkənin daxili və xarici siyasətinin ən vacib məsələlərini diqqətə çatdırmış və bir daha qətiyyətlə bildirmişdir ki, başlıca məqsəd Azərbaycan ərazilərinin işğaldan azad edilməsidir.

8-ci FƏSİL

2016-cı İLİN APREL DÖYÜŞLƏRİ

8.1. Xocavənd – Füzuli, Tərtər – Ağdərə – Ağdam istiqamətində döyüşlər və nəticələri

Azərbaycan dövlətinin başlıca məqsədi Ermənistan tərəfindən işğal edilmiş əraziləri azad etmək idi. Lakin təcavüzkar ölkə münaqişənin nizama salınmasına dair BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrini yerinə yetirmir və danışıqlardan boyun qaçırırdı. Bununla yanaşı, Ermənistan mövcud status-kvonu qəbul etdirmək və işğalı "oldu-bitdi" kimi qələmə verməkdən ötrü təxribatlarını davam etdirirdi. Növbəti belə təxribat 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində törədildi. Bütün cəbhə boyu Azərbaycan ordusunun mövqelərinin və yaşayış məntəqələrini işğalçı Ermənistan silahlı qüvvələrinin artilleriya atəşinə tutması nəticəsində 2 nəfər dinc sakin həyatını itirdi, 10-u isə müxtəlif dərəcəli bədən xəsarətləri aldı. Qeyd etmək lazımdır ki, 2016-cı ilin aprelinə qədərki müddətdə işğalçı Ermənistan silahlı qüvvələrinin cəbhəboyu ərazilərdə, kəndlərdə təxribatları artmış, mülki əhaliyə qarşı iriçaplı silahlardan və artilleriya qurğularından istifadə edilmişdi. Bu dəfə işğalçı ölkənin təxribatları daha da genişlənərək Ağdərə – Tərtər – Ağdam və Xocavənd – Füzuli istiqamətlərini əhatə etdi. Yeni təxribat 257 km uzunluğunda olan təmas xəttində törədilmişdi.

Aprelin 2-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi. Ermənistanın törətdiyi təxribatların səbəblərinə toxunan dövlət başçısı dedi:

"Ermənistan sülh istəmir. Ermənistan işğal edilmiş torpaqlardan çəkilmək istəmir və bütün səyləri ona yönəldib ki, status-kvonu maksimum saxlaya bilsin".[218]

218 Əliyev İ.H. Azərbaycan Prezidenti yanında Təhlükəsizlik Şurasının iclasında iştirak. 2 aprel 2016-cı il. // İnkişaf – məqsədimizdir. 73-cü kitab. Bakı, 2018, s. 175.

İclasda işğalçı ölkənin təxribatlarına cavab verilməsi barədə qərar qəbul edildi. Azərbaycan ordusunun başlıca məqsədi düşməni cəzalandırmaq və hərbi birləşmələrini geriyə çəkilməyə məcbur etmək idi.

Ermənistan silahlı qüvvələrinin atəş nöqtələrinə və artilleriya qurğularına zərbələr endirildi. Aprelin 1-dən 2-nə keçən gecə Azərbaycan Silahlı Qüvvələrinin kəşfiyyat qrupları üç istiqamətdə planlı şəkildə zəruri tədbirləri həyata keçirdi.

İşğalçıya Ağdərə və digər yaşayış məntəqələri istiqamətində də sarsıdıcı zərbələr endirildi. Düşmən həm canlı qüvvə, həm də texnika sarıdan çox böyük itkilər verdi. İlk döyüşlər zamanı düşmənin 100-ə yaxın canlı qüvvəsi məhv edildi və bir neçə yüz nəfər yaralandı. Erməni silahlı qüvvələrinin əsas hərbi hissələrinin yerləşdiyi Madagiz *(Prezident İlham Əliyev tərəfindən 2020-ci ildən etibarən Suqovuşan adı bərpa edilmişdir - M.Q.)* yaşayış məntəqəsinə də zərbələr vuruldu.

Erməni təbliğatının uzun illər boyu mədh etdiyi "Ohanyan səddi" qısa müddətdə yarıldı. Atəşkəs elan edildikdən sonra ilk dəfə idi ki, işğalçı ölkəyə belə sarsıdıcı zərbə vurulurdu. Ermənistan rəhbərliyi aldığı bu ağır zərbə haqqında məlumatları ictimaiyyətdən gizlədir, itkilərlə bağlı dəqiq olmayan informasiyalar ötürməyə çalışırdı. Digər tərəfdən, Ermənistan tərəfi bütün imkanlardan – diaspor təşkilatlarından, müxtəlif ölkələrdə korrupsiyaya bulaşmış siyasətçilərdən istifadə edərək Azərbaycanı təxribatın səbəbkarı kimi göstərməyə çalışırdı.

Hərbi əməliyyatlar beynəlxalq təşkilatların və xarici ölkələrin də diqqətini cəlb etdi. Qarşıdurmanın getdikcə ciddi xarakter almasından narahatlığını bildirən Avropa İttifaqı münaqişənin danışıqlar masası arxasında həll edilməli olduğuna dair açıqlama verdi. Qanlı döyüşlərin gedişində BMT Baş katibi bütün tərəfləri hərbi əməliyyatlara son qoymağa, atəşkəs rejiminə tam əməl etməyə və vəziyyətin sabitləşməsindən ötrü addımlar atmağa çağırdı. Avropa Şurası Parlament Assambleyası tərəfləri atəşkəs rejiminə hörmət etməyə, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında Ermənistanı Azərbaycanın işğal olunmuş ərazilərindən bütün silahlı qüvvələrini çıxarmağa dair açıqlama verdi. ABŞ Dövlət Departamenti birtərəfli mövqe tutaraq Azərbaycanı açıq şəkildə təhdid etdi. Almaniya Federativ Respublikası da hər iki tərəfi dərhal döyüşü dayandırmağa və atəşkəs rejiminə tam əməl etməyə çağırdı.

Prezident İlham Əliyev Azərbaycana təzyiq etmək istəyən dövlətlərə açıq və qəti şəkildə xəbərdarlıq edərək dedi:

"Biz öz torpağımızda vuruşuruq, Ermənistan torpağını işğal etməmişik. Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun".[219]

Azərbaycana ən böyük və birmənalı dəstəyi Türkiyə Cümhuriyyəti verdi. Hadisə baş verdikdən dərhal sonra Prezident Rəcəb Tayyib Ərdoğan Prezident

219 Yenə orada, s. 177.

İlham Əliyevə zəng edərək vəziyyətlə maraqlandı, ölkəsinin Azərbaycanın haqq işinin yanında olduğunu bildirdi.

Pakistan İslam Respublikası hər zaman Azərbaycanın yanında olduğunu ifadə edən açıqlama verərək ərazi bütövlüyünü birmənalı olaraq müdafiə etdi.

Gürcüstan Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan etdi. Ümid etdi ki, münaqişə tezliklə beynəlxalq hüquq normaları əsasında həll olunacaqdır.

Qonşu İran İslam Respublikası bir sıra səviyyələrdə mövqeyini açıqladı. Azərbaycan Respublikasının müdafiə naziri İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək naziri ilə qoşunların təmas xəttində yaranmış gərginliyi telefon vasitəsilə müzakirə etdi. İran tərəfi Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bir daha qeyd edərək münaqişənin qısa müddətdə beynəlxalq hüquq normaları əsasında həll olunacağına ümidini bildirdi. İran Azərbaycan tərəfinə münaqişənin həllindən ötrü yardım və dəstəyini təklif etdi.

Belarus Respublikası münaqişənin Azərbaycan Respublikasının ərazi bütövlüyünə hörmət əsasında həllinin vacibliyini bildirdi.

İşğalçı ölkənin hücumlarına cavab verən Azərbaycan Ordusu aprelin 3-də Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəklikləri və Seysulan kəndini azad etdi. Həmin gün Füzuli istiqamətində Ermənistanın pilotsuz uçuş aparatı vuruldu.

Təcavüzkar Ermənistan aprelin 4-də yenidən Ağdərə – Tərtər və Xocavənd – Füzuli istiqamətlərində hücum etdi, təmas xəttinə yaxın olan yaşayış məntəqələrini və mülki obyektləri intensiv surətdə atəşə tutdu. Layiqli cavab verən Azərbaycan Ordusu düşmənin xeyli sayda canlı qüvvəsini və texnikasını sıradan çıxartdı. Aprelin 5-də Ağdərə şəhərinə aparan əsas yol üzərindəki strateji baxımdan əhəmiyyətli Madagiz məntəqəsindəki hərbi bazanın qərargahına və "Yerkrapa" erməni terrorçularını cəbhəyə gətirən avtobusa zərbə endirildi. Xocavənd – Füzuli istiqamətində erməni qüvvələrinin 2 ədəd tankı heyətlə birlikdə və hərbi əmlakla dolu 5 təkərli texnikası sıradan çıxarıldı. Lakin Rusiyanın təşəbbüsü ilə Moskva şəhərində Azərbaycan və Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisləri arasında əldə edilən razılığa əsasən aprelin 5-də saat 12:00-dan etibarən Azərbaycan – Ermənistan qoşunlarının təmas xəttində hərbi əməliyyatlar dayandırıldı. Həmin vaxtadək aparılan döyüşlər nəticəsində Azərbaycan Ordusu Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəklikləri və Seysulan kəndini, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyini, Goranboy rayonunun Gülüstan kəndini, Tərtər rayonunun Qazaxlaq və Madagiz kəndləri istiqamətində yolları işğaldan azad etmişdi. Bütövlükdə, 2 min hektar ərazi düşməndən

təmizləndi.[220] İşğalçı ordunun 30-dək tankı sıradan çıxarıldı, 320 hərbçisi məhv edildi və 500-dən çoxu yaralandı.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərə baş çəkdi.[221] Görüşdə hərbçilərin döyüş şücaətindən, şəhid ailələrinə və qazilərə dövlət qayğısından bəhs edən ölkə rəhbəri bildirdi ki, Azərbaycan dövləti özünün ərazi bütövlüyünü bərpa edəcəkdir.

Atəşkəs razılaşmasına baxmayaraq, aldığı zərbəni qəbul edə bilməyən düşmən başqa istiqamətlərdə də Azərbaycan ərazisinə zərbə endirməklə digər ölkələri də münaqişəyə cəlb etməyə çalışırdı. Aprelin 5-də saat 12:10-dan başlayaraq aprelin 6-sı saat 12:56-dək gün ərzində Azərbaycan – Ermənistan dövlət sərhədində Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasının Ordubad, Şahbuz və Babək rayonlarında yerləşən mövqeləri Ermənistan Respublikasının Meğri, Qarakilsə (Sisian) və Cermux rayonları ərazisindəki mövqelərdən iriçaplı silahlar və qumbaraatanlardan atəşə məruz qaldı. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun həmin istiqamətlərdə yerləşən bölmələrinin dəqiq cavab atəşi ilə düşmən susduruldu. Ordubad rayonu istiqamətində yerləşən Azərbaycan Ordusunun bölmələrinin tədbirləri nəticəsində düşmənin qarşı tərəfdəki atəş nöqtəsi və mühəndis-istehkam qurğusu dağıdıldı. Böyük bir ərazidən işğalçı qüvvələr qovuldu.

Azərbaycan Ordusu qarşısında tab gətirə bilməyən işğalçı Ermənistan silahlı qüvvələri aprelin 7-də Ağdərə – Goranboy istiqamətində azərbaycanlı həkimlərin olduğu sanitar tibb maşınını atəşə tutdu. Hadisə nəticəsində sanitar maşına ciddi ziyan dəysə də, xəsarət alan olmadı. Həmin gün cəbhə bölgəsində Azərbaycan Silahlı Qüvvələrinin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistana məxsus X-55 tipli pilotsuz uçuş aparatı xüsusi üsulla endirildi.

Aprel döyüşlərində Ermənistan üzərində qazanılan qələbənin böyük tarixi əhəmiyyəti var idi. Bu, Azərbaycan dövləti və xalqının beynəlxalq birlik tərəfindən tanınmış ərazilərinin işğal altında qalması ilə barışmayacağını, qətiyyətini, əzmini və hərb sənətinin üstünlüyünü nümayiş etdirdi. Azərbaycan Ordusu işğalçı Ermənistan qüvvələrindən dəfələrlə üstün olduğunu və üz-üzə qaldıqda onu qısa müddətdə məhv etməyə qadir olduğunu göstərdi. Azərbaycan silahlı qüvvələrinin bölmələri azad edilmiş torpaqlarda mühəndis-istehkam işlərini həyata keçirdi.

220 Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild, s. 536.
221 Əliyev İ.H. Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik hospitalında müalicə olunan yaralı hərbçiləri ziyarət. 5 aprel 2016-cı il // İnkişaf – məqsədimizdir. 73-cü kitab, s. 184.

Bu qələbə Azərbaycan Ordusunun, dövlət idarəetmə sisteminin və iqtisadiyyatının gücünü göstərdi. Hərbi əməliyyatlar ölkədə yürüdülən iqtisadi siyasətin düzgünlüyünü təsdiq etdi.

Qələbə Azərbaycan cəmiyyətinin Ermənistan cəmiyyəti üzərində üstünlüyünü göstərdi. Döyüşlərin gedişində azərbaycanlı gənclərin cəbhəyə getmək üçün can atmaları yüksək mənəvi-psixoloji hazırlığın və vətənpərvərlik ruhunun təzahürü idi.

Azərbaycan dövləti döyüşlərdə fərqlənən əsgər və zabitlərin fədakarlığını yüksək qiymətləndirdi. Ölkə başçısının 2016-cı il 19 aprel tarixli müvafiq sərəncamları ilə silahlı qüvvələrin 3 hərbçisi Azərbaycanın Milli Qəhrəmanı, 7 hərbçisi "Azərbaycan bayrağı", 1 hərbçisi 2-ci dərəcəli və 4 hərbçisi 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 19 hərbçisi "Vətən uğrunda" medalı, 43 hərbçisi "İgidliyə görə" medalı, 45 hərbçisi "Hərbi xidmətlərə görə" medalı, 2 nəfər isə general-mayor ali hərbi rütbəsi ilə təltif edildilər.

Azərbaycandan fərqli olaraq döyüşlər Ermənistanın siyasi idarəetmə və hərb sisteminin, iqtisadiyyatının geriliyini, erməni cəmiyyətinin mənəvi-psixoloji böhranını göstərdi. Nəinki işğal edilmiş ərazilərdən, həmçinin Ermənistanın özündən ermənilər qaçmağa başladılar. Orduya səfərbər etmək üçün Ermənistan yaşayış məntəqələrində gəncləri küçələrdən yığmağa çalışsalar da, bu, mümkün olmadı. Çünki bərbad idarəçilik, korrupsiya və kriminal şərait səbəbindən ölkədən kütləvi şəkildə köçmə nəticəsində Ermənistanda demoqrafik böhran hökm sürürdü.

Aprel zəfəri Azərbaycanda milli ruhu yüksəltdi. Millət işğalçıya daha qətiyyətli zərbə vurulmasını istəyirdi.

Qazanılan qələbə eyni zamanda Ermənistanı müdafiə edən xarici ölkələrə də açıq-aydın bir işarə oldu. Bununla Azərbaycan dövləti ərazilərinin işğalı faktı ilə barışmayacağını bir daha bəyan etdi.

Qələbə Azərbaycan dövlətinin beynəlxalq mövqelərini möhkəmləndirdi və nüfuzunu artırdı. Məlum olduğu kimi, Aprel döyüşlərindən əvvəl Ermənistan tərəfi Minsk qrupu çərçivəsində münaqişənin həllinə dair danışıqlardan imtina etmişdi. Aldığı ağır zərbə Ermənistanı danışıqlar masası arxasına qayıtmağa məcbur etdi. 2016-cı ilin may ayında Azərbaycan və Ermənistan prezidentləri münaqişənin tənzimlənməsi üzrə Minsk qrupu həmsədrlərinin iştirakı ilə Vyanada görüşdülər. İyunun 20-də Sankt-Peterburqda Rusiya Federasiyası Prezidentinin iştirakı ilə üçtərəfli danışıqlar keçirildi. Görüşlərdə münaqişə bölgəsində etimad tədbirlərinin möhkəmləndirilməsi, insidentlərin araşdırılması mexanizmlərinin yaradılması və ATƏT-in fəaliyyətdə olan sədri ofisinin genişləndirilməsi haqqında razılıq əldə edildi.

Aprel döyüşlərində qazanılan qələbə azad edilmiş ərazilərdə dinc quruculuğa imkan verdi. Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərin, xüsusən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpasına başlamaq haqqında qərar qəbul etdi. Bu, əslində düşmən tapdağındakı ərazilərin azad ediləcəyi, dirçəldiləcəyi və böyük qayıdışın olacağı anlamına gəlirdi.

8.2. Böyük qayıdışın başlanğıcı

Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı nəticəsində Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində sakinlərin təhlükəsiz yaşaması mümkün oldu. Bununla da kənddən məcburi köçkün düşmüş dinc əhalinin doğma yurdlarına qayıtması üçün şərait yarandı.

Prezident İlham Əliyev 2017-ci il 24 yanvar tarixində "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" sərəncam imzaladı. Sərəncama əsasən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası üçün görüləcək işlər çərçivəsində birinci mərhələdə 50 fərdi yaşayış evinin, məktəb binasının və müvafiq infrastrukturun tikintisi üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ilkin olaraq 4 milyon manat vəsait ayrıldı.[222]

Sərəncama uyğun olaraq Cocuq Mərcanlıda aparılan tikinti-bərpa işlərinin birinci mərhələsində yeni salınan qəsəbədə 50 fərdi yaşayış evi, 96 şagird yerlik ümumtəhsil məktəbi, elektrik yarımstansiyası, hidrometeoroloji stansiya, qaz, elektrik, içməli su xətləri, avtomobil yolu, Şuşadakı Aşağı Gövhər Ağa məscidi üslubunda məscid tikildi.

Azərbaycan Ordusunun aprel qələbəsinin ildönümü ilə əlaqədar 2017-ci il martın 31-də bir qrup hərbçi ilə görüşdə çıxış edən dövlət başçısı Ermənistanın təxribatı barədə dedi:

"Bu təxribat nəticəsində hərbçilərimiz şəhid oldu, yaralandı, mülki şəxslər arasında da həlak olanlar oldu. Onların arasında azyaşlı bir qız uşağı da həlak olmuşdur... Azərbaycan Ordusu öz doğma torpaqlarını müdafiə edərək, uğurlu əks-hücum əməliyyatı keçirmiş və düşmənə sarsıdıcı zərbələr endirmişdir. Əməliyyat

222 İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 24 yanvar 2017 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi. URL: https: president.az/articles // 22533.

nəticəsində minlərlə hektar Azərbaycan torpağı işğalçılardan azad edilmişdir, biz indi on minlərlə hektar torpaq sahəsinə nəzarət edirik".[223]

Aprel döyüşlərini şanlı hərbi qələbə adlandıran ölkə rəhbəri həmin döyüşlərin Azərbaycan xalqı və dövlətinin heç vaxt işğalla barışmayacağını bütün dünyaya nümayiş etdirdiyini vurğuladı. Azərbaycan Ordusunun bu şücaətinin hərb tarixi baxımından da əhəmiyyətli olduğunu dövlət başçısı belə ifadə etdi:

"Ermənistan uzun illər ərzində öz ordusu haqqında miflər yaradırdı ki, onların güclü ordusu var və bu ordu böyük qələbə əldə etmişdir. Halbuki biz hamımız yaxşı bilirik ki, 1990-cı illərin əvvəllərində nələr baş vermişdir. O vaxt Azərbaycanda xaos, anarxiya hökm sürürdü, hakimiyyət uğrunda mübarizə gedirdi. O vaxt - 1992-ci ildə AXC-Müsavat cütlüyü hərbi çevriliş etmişdir və bundan sonra biz cəbhədə torpaqlarımızı itirməyə başladıq.

... Aprel döyüşləri bu mifləri, bu əfsanələri darmadağın etdi və göstərdi ki, bu gün əgər bölgədə güclü ordu varsa, o da Azərbaycan Ordusudur. Bu döyüşlər göstərdi ki, xarici yardım almadan Ermənistan işğal edilmiş torpaqları işğal altında saxlaya bilmir və bilməz. Onlar özləri də məcbur qalıb bunu etiraf etməyə başlamışlar".[224]

2017-ci il iyunun 15-də Azərbaycan Respublikasının Prezidenti Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində bərpa işlərinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzaladı. Sərəncama əsasən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində tikinti-bərpa və abadlıq-quruculuq işlərinin davam etdirilməsi, o cümlədən 100 fərdi yaşayış evinin, uşaq bağçasının, həkim məntəqəsinin, digər zəruri sosial və infrastruktur obyektlərinin tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə 9 milyon manat ayrıldı.[225]

İyunun 28-də Cocuq Mərcanlı kəndinə səfərə gələn dövlət başçısı görülən işlərlə tanış oldu. Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılan, lakin azad edilən, dövlət başçısının xüsusi diqqəti sayəsində qısa müddətdə tikilən bu kənd diqqət çəkirdi. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin qətiyyəti və iradəsi sayəsində hələ 1993-cü ilin dekabrından 1994-cü ilin yanvarına qədər davam edən və hərb tarixində xüsusi yeri olan uğurlu Horadiz əməliyyatı nəticə-

223 Əliyev İ.H. Aprel qələbələrinin ildönümü ilə əlaqədar bir qrup hərbçi ilə görüş. 31 mart 2017-ci il // İnkişaf – məqsədimizdir. 79-cu kitab. Bakı, 2019, s. 172-173.

224 Yenə orada, s. 173-174.

225 Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində bərpa işlərinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 15 iyun 2017 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi. URL: https:president.az/articles/24222.

sində Füzuli rayonunun 20 kəndi, həmçinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan qurtarılmışdı. Lakin təhlükəsizlik baxımından uzun müddət məskunlaşmanın qeyri-mümkün olduğu bu kəndin təhlükəsizliyini təmin etmək strateji əhəmiyyətli Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində mümkün olmuşdu.

Aprel döyüşləri nəticəsində Ağdərə, Cəbrayıl və Füzulinin işğaldan azad olunmuş torpaqlarında Azərbaycan bayrağı dalğalanırdı.

Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin mütəxəssisləri qısa müddətdə 2 milyon 600 min kvadratmetr ərazini minalardan və partlamamış döyüş sursatlarından təmizlədilər. Həmin ərazilər yaşayış üçün əlverişli vəziyyətə gətirildi. Bununla da kənddə böyük quruculuq işlərinə başlanıldı.

Prezident İlham Əliyev əvvəlcə yeni salınmış kənd yolunu açdı.[226] Yolun ümumi uzunluğu 9 kilometr, eni 12 metr idi. İki hərəkət zolaqlı yolun tikintisi dövlət başçısının 2017-ci ilin fevralında imzaladığı "Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə gedən avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" sərəncama əsasən həyata keçirilmişdi. Strateji əhəmiyyəti ilə seçilən bu yolun inşası zamanı zəruri olan yerlərdə su keçidləri tikilmiş, uzunluğu 24 metr olan ikiaşırımlı mövcud körpü bərpa edilmişdi. Yol üzərində 76 yol nişanı və məlumatverici lövhələr quraşdırılmış, piyada zolaqları, yol-cizgi və yolgöstərici xətləri çəkilmişdi.[227]

Səfərdən sonra Cocuq Mərcanlı kəndində tikinti-bərpa və abadlıq-quruculuq işlərinin növbəti mərhələsinə başlanıldı. Bu mərhələdə 100 fərdi yaşayış evinin, 50 yerlik uşaq bağçasının, tibb məntəqəsinin, klub-icma mərkəzi, inzibati bina, poçt binası və digər zəruri sosial-infrastruktur obyektlərinin tikintisi nəzərdə tutulmuşdu. 17 hektar ərazidə inşa edilən evlərin 14-ü birotaqlı, 38-i ikiotaqlı, 36-sı üçotaqlı, 12-si dördotaqlı idi. Hər bir ailə üçün 0,10 hektar torpaq sahəsinin ayrılması planlaşdırılmışdı.

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, işğalçı Ermənistan münaqişənin həllindən ötrü yaradılmış Minsk qrupunun səyləri ilə keçirilən danışıqlardan boyun qaçırmaqla bərabər, 2016-cı ilin aprel ayının əvvəllərində Xocavənd – Füzuli, Tərtər – Ağdərə – Ağdam istiqamətində təxribatlar törətmişdir. Təxribatlar nəticəsində yaşayış evləri, mülki obyektlər dağıdılmış və bir neçə

226 Əliyev İ.H. Cocuq Mərcanlı kəndinə səfər 14 iyun 2017-ci il // İnkişaf – məqsədimizdir. 80-ci kitab. Bakı, 2019, s. 239-240.
227 Yenə orada.

mülki şəxs öldürülmüşdür. Azərbaycan dövlətinin xəbərdarlıqları nəticə vermədiyindən işğalçı ölkəyə zərbə endirilməsi barədə qərar qəbul olunmuşdur. Azərbaycan Ordusunun hücumu nəticəsində qısa müddət ərzində düşmən darmadağın edilmiş və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində normal yaşayışı təmin etmək üçün strateji əhəmiyyətli Lələtəpə yüksəkiliyi işğalçılardan azad edilmişdir. Tərtər və Goranboy istiqamətində də uğurlar qazanılmışdır.

Aprel döyüşlərində Azərbaycanın qələbəsi təkcə hərbi deyil, eyni zamanda iqtisadiyyatın, səmərəli dövlət idarəçiliyinin, cəmiyyətin, xalqın milli-mənəvi və psixoloji ruhunun qələbəsi olmuşdur. Qələbədən sonra Ermənistan danışıqlar masasına qayıtmışdır.

Hərbi əməliyyatların gedişində Türkiyə və Pakistan Azərbaycanın haqq işini dəstəklədiklərini bəyan etmişdir. Gürcüstan, Belarus və digər dövlətlər münaqişənin Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduqlarını bildirmişdir.

Qələbə Ermənistanı müdafiə edən ölkələrə də açıq-aydın bir xəbərdarlıq olmuşdur. Bəyan edilmişdir ki, Azərbaycan dövləti ərazilərinin işğal altında qalması ilə heç bir zaman barışmayacaq və onu bütün vasitələrlə azad edəcəkdir.

Döyüşlər dayandırıldıqdan sonra Prezident İlham Əliyev Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında sərəncam imzalamışdır. Qısa müddətdə kənddə yaşayış evləri tikilmiş, müasir infrastruktur yaradılmış, yol inşa edilmiş, Şuşadakı Aşağı Gövhər ağa məscidinin üslubunda məscid tikilmişdir. Kəndin tikilməsi bir daha göstərmişdir ki, Azərbaycan dövləti ərazilərini işğalçılardan qurtaracaq, dirçəldəcək və məcburi köçkünlərin doğma yurdlarına dönmələrini təmin edəcəkdir. Cocuq Mərcanlının bərpası Qarabağa böyük qayıdışın əsasını qoymuşdur.

Aprel döyüşlərindəki qalibiyyət sonrakı qələbələrin baş məşqi olmuş və Azərbaycan Respublikasının beynəlxalq mövqelərini gücləndirmişdir. Qələbə eyni zamanda ölkədə islahatların dərinləşdirilməsini, idarəçiliyin daha çevik və səmərəli aparılmasının zəruriliyini irəli sürmüşdür.

9-cu FƏSİL

İSLAHATLARIN DƏRİNLƏŞDİRİLMƏSİ VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN GENİŞLƏNDİRİLMƏSİ

9.1. 2016-cı il 26 sentyabr tarixli konstitusiya referendumu

Azərbaycanın inkişafı və yeni reallıqlar ölkənin əsas qanununda – konstitusiyada müvafiq dəyişikliklərin aparılmasını zəruri edirdi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 26 iyul tarixli 2241 saylı sərəncamı ilə "Azərbaycan Respublikasının konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktının layihəsi 2016-cı il sentyabrın 26-da ümumxalq səsverməsinə (referenduma) çıxarıldı.[228] Konstitusiyanın 42 maddəsinə 29 dəyişiklik təklif edilmişdi.

Referenduma hazırlıq və onun keçirilməsi prosesi seçki qanunvericiliyinin tələbləri əsas götürülməklə Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq edilmiş referendumun hazırlanıb keçirilməsinə dair əsas hərəkət və tədbirlərin təqvim planına uyğun ardıcıl, sistemli və mütəşəkkil qaydada yerinə yetirildi.

Referendum təyin olunduqdan sonra seçicilərin aktiv seçki hüquqlarının təmin edilməsi məqsədilə qanunvericiliklə müəyyən edilmiş müddətdə dəqiqləşdirmələrin aparılmasından ötrü seçki məntəqələrində yerləşdirilmiş seçici siyahılarının ölkədə daimi siyahı kimi tərtibinə və ictimailəşdirilməsinə hələ ilin əvvəlindən başlanılmış, komissiyalar və aidiyyəti qurumlar tərəfindən geniş və əhatəli iş aparılmış, siyahılar dəqiqliklə hazırlanaraq Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilmişdi.

Seçicilərin referenduma çıxarılan məsələlərlə yaxından tanış olması məqsədilə çoxsaylı tədbirlər həyata keçirildi. Referendum aktının layihəsi rəsmi dərc edilərək Azərbaycan Respublikası Prezidentinin, Mərkəzi Seçki Komissiyasının və bir sıra digər qurumların internet səhifələrində yerləşdirildi.

228 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsinə (referenduma) yekun vurulması və yekunların elan edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı. 11 oktyabr 2016-cı il // Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Normativ Hüquqi Aktların vahid internet elektron bazası. URL: www.e-qanun.az/framework/33891.

Referendum elan edildikdən qısa müddət sonra referendum aktının layihəsinin və ümumxalq səsverməsinə çıxarılan məsələlərin seçicilər üçün daha aydın və anlaşılan olması məqsədilə Mərkəzi Seçki Komissiyası tərəfindən referendum aktı layihəsi konstitusiyanın mövcud variantı ilə müqayisəli şəkildə aşağı seçki komissiyaları vasitəsilə seçicilərin ünvanlarına çatdırılmış və arzu edən şəxslərin əldə edə bilmələri üçün seçki məntəqələrinə paylanılmışdı. Bütün bunlar səsvermə günü seçicilərin seçiminin asanlaşdırılmasına xidmət edirdi.

Kütləvi informasiya vasitələri referendum aktı layihəsinin müzakirəsinə, habelə Azərbaycan Respublikasının konstitusiyasına təklif olunan dəyişikliklərə dair çoxsaylı şərhlərə, ekspert rəylərinə və ictimaiyyət nümayəndələrinin fikirlərinə geniş yer ayırmışdı. Referendumun keçirilmə tarixinə və səsvermə qaydalarına dair müxtəlif məzmunlu 40-dan artıq növdə yüz minlərlə plakat çap edilərək yaşayış məntəqələrinin ərazisində asılmış, oxşar mövzulara həsr edilmiş 7 reklam çarxı səsvermə günü də daxil olmaqla, mütəmadi şəkildə hər gün müxtəlif televiziya və radio kanallarında nümayiş etdirilirdi.

Mərkəzi Seçki Komissiyası tərəfindən üç təşviqat qrupu qeydə alınmışdı. Bunlar Yeni Azərbaycan, Bələdiyyə və Vətəndaş Cəmiyyəti idi. Referendum aktı layihəsinin geniş və hərtərəfli müzakirəsində vacib rol oynamış həmin qruplara qanunvericilikdə nəzərdə tutulmuş qaydada referenduma çıxarılan məsələlərin lehinə və ya əleyhinə təşviqat aparmaq üçün bərabər əsaslarla geniş imkanlar yaradılmışdı. Təşviqat qruplarına İctimai Televiziya və Radio Yayımları Şirkətinin kanalında və "Azərbaycan", "Xalq qəzeti" və "Bakinski raboçi" qəzetlərində bərabər ödənişsiz vaxt ayrılmışdı.[229] 33 kütləvi informasiya vasitəsində isə ödənişli əsaslarla efir vaxtı və dərc olunma imkanları yaradılmışdı. Təşviqat qruplarına seçicilərlə görüşlər keçirmək üçün respublikanın şəhər və rayonlarında yarısı açıq, yarısı qapalı olmaqla, ümumilikdə 256 yer ayrılmış, təşviqat kampaniyası zamanı plakatların və digər çap materiallarının yerləşdirilməsi üçün 10 mindən çox xüsusi məlumat lövhələri onların sərəncamına verilmişdi.

2016-cı il sentyabrın 3-də başlanmış təşviqat kampaniyası sentyabrın 25-dək davam etdi. Təşviqat qrupları tərəfindən seçiciləri konstitusiyada dəyişikliklər edilməsi haqqında referendum aktı layihəsinin lehinə və ya əleyhinə səs verməyə çağıran 35 minədək plakat, 10 minlərlə digər çap materialları yayılmış, təşviqat kampaniyası müddətində seçicilərlə 1500-ə yaxın görüş keçirilmişdi.

229 Azərbaycan Respublikasının konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə 2016-cı il sentyabrın 26-na təyin edilmiş ümumxalq səsverməsi (referendum) üzrə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasından olan müşahidəçi missiyasının Rəyi // URL: http:iacis.az/wp-content/uploads/2017/10/Azərbaycan-Respublikasının-Konstitusiyasında-dəyişikliklər-edilməsi-məqsədi-ilə-2016cı-il-sentyabrın-26na-təyin-edilmiş-ümumxalq-səsverməsi-eferendum-üzrəMüstəqil-Dövlətlər-Birliyinin-iştirakçısı.pdf/.

Səsvermə günü bütün seçki məntəqələri vaxtında açıldı. Referendum iştirakçıları seçki məntəqələrinə gələrək azad və sərbəst şəkildə öz iradələrini ifadə etdilər. Onların 69,70%-nin iştirak etdiyi referendum baş tutdu.

Səsvermə prosesi müxtəlif siyasi partiyaları, qeyri-hökumət təşkilatlarını, referendum üzrə təşviqat qruplarını təmsil edən, habelə öz təşəbbüsləri ilə referendumun müşahidəsinə qatılan 53 mindən çox yerli, 33 ölkədən 117 beynəlxalq müşahidəçinin, 16 nüfuzlu beynəlxalq və yerli KİV-in çoxsaylı nümayəndələrinin müşahidəsi ilə, habelə işğal olunmuş ərazilər istisna olmaqla respublikanın bütün ərazisini əhatə edən 1000 seçki məntəqəsində (səsvermə keçirilən məntəqələrin təxminən 20%-də) quraşdırılmış veb-kameralardan izlənməklə azad, ədalətli, şəffaf və aşkarlıq şəraitində keçdi.

Referendumun legitim və milli qanunvericiliyin tələblərinə tam cavab verdiyini, səsvermənin yüksək səviyyədə təşkilini, səsvermənin nəticələrinə təsir etmək baxımından qanun pozuntusunun aşkar edilməməsi faktlarını qeyd edən Avropa Şurası Parlament Assambleyası referendum prosesini müsbət qiymətləndirən digər yerli və beynəlxalq müşahidəçilərlə eyni mövqedə idi. Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası ABŞ-ın AJF&Associates İnc. Təşkilatı ilə birgə, Vətəndaş Cəmiyyəti Uğrunda Müstəqil Məsləhət və Yardım Mərkəzi Fransa Respublikasının Opinion Way Sosioloji Tədqiqatlar İnstitutu ilə birgə, ELS Müstəqil Araşdırmalar Mərkəzi və RƏY Monitorinq Mərkəzi ayrılıqda səsvermə günü keçirilmiş exit-pollun nəticələrini səsvermənin ilkin nəticələrindən daha tez ictimailəşdirdi. Bu, rəsmi nəticələrə çox yaxın idi.[230]

Səsvermə başa çatdıqdan və seçki məntəqələri üzrə səsvermənin nəticələri rəsmiləşdirildikdən sonra seçki məntəqələrinin 70%-dən çoxundan online rejimdə internet səhifəsinə daxil olmuş səsvermənin nəticələrinə dair protokoldakı məlumatlar səsvermə günü başa çatdıqdan dərhal sonra Mərkəzi Seçki Komissiyası tərəfindən ilkin nəticələr kimi elan edildi. Elə həmin günün birinci yarısında ölkədə bütün seçki məntəqələrinin protokol məlumatları əsasında Mərkəzi Seçki Komissiyası tərəfindən səsvermənin ilkin nəticələri tam şəkildə ictimaiyyətə çatdırıldı.

Referendumda səsvermə prosedurlarına tam əməl edilməməsinə, səsvermənin təşkilində yol verilmiş nöqsanlara, habelə seçicilərin iradəsinin müəyyən edilməsinin qeyri-mümkünlüyünə görə 11 saylı Qaradağ seçki dairəsinin 14, 12 saylı Qaradağ-Binəqədi-Yasamal seçki dairəsinin 10 və 68 saylı Cəlilabad kənd seçki dairəsinin 2 saylı seçki məntəqələrində səsvermənin nəticələri tam, 64 saylı Sabirabad ikinci seçki dairəsinin 35 saylı seçki məntəqəsində isə referen-

230 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsinə (referenduma) yekun vurulması və yekunların elan edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı // "Azərbaycan" qəzeti, 2016, 12 oktyabr.

dum aktı layihəsinin 25, 26, 27, 28 və 29-cu hissələri üzrə səsvermənin nəticələri etibarsız hesab edildi. Səsvermənin nəticələri etibarsız hesab edilmiş 11 saylı Qaradağ seçki dairəsinin 14, 12 saylı Qaradağ-Binəqədi-Yasamal seçki dairəsinin 10, 68 saylı Cəlilabad kənd seçki dairəsinin 2, 64 saylı Sabirabad ikinci seçki dairəsinin 35 saylı seçki məntəqələrinin məntəqə seçki komissiyaları, habelə səsvermə prosedurlarına tam əməl ediməməsinə və səsvermənin təşkilində yol verilmiş nöqsanlara görə 15 saylı Yasamal birinci seçki dairəsinin 21 və 19 saylı Nərimanov birinci seçki dairəsinin 34 saylı seçki məntəqələrinin məntəqə seçki komissiyaları buraxıldı.[231]

Yol verilmiş pozuntular səsvermənin ümumi nəticələrinə təsir etməmişdi. Referendumun nəticələri barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolu təsdiq edildi. Siyahıda olan seçicilərin 25%-dən çoxu, yəni, 69,70%-i səsvermədə iştirak etdiyindən referendum baş tutmuş hesab olundu. Referendum aktı layihəsində təqdim edilən 29 hissənin hər birinin lehinə səsvermədə iştirak etmiş seçicilərin yarısından çoxu səs verdiyindən "Azərbaycan Respublikasının konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktının layihəsi qəbul olunmuş hesab edildi.

Referendumun nəticəsində Azərbaycan Respublikası konstitusiyasının 9-cu maddəsinin I hissəsində edilən dəyişikliklə Azərbaycan Respublikasının təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr yaratması, Silahlı Qüvvələrin Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarət olması təsbit edildi. 24-cü maddədə edilən əlavələr insan ləyaqətinin qorunması və hüquqlardan sui-istifadəyə yol verilməməsi ilə bağlı idi. Əlavələrin edildiyi maddələrdən biri 32-ci maddə idi. Buraya VI, VII və VIII bəndlər əlavə edilmişdi. VI bənddə yazılırdı ki, qanunla müəyyən edilmiş hallar istisna olmaqla üçüncü şəxslər haqqında məlumat almaq məqsədi ilə elektron formada və ya kağız üzərində aparılan informasiya ehtiyatlarına daxil olmaq qadağandır. VII bənd məlumatın aid olduğu şəxsin buna razılığını aşkar ifadə etdiyi hallar, ayrı-seçkiliyə yol verməmək şərtilə anonim xarakterli statistik məlumatların emalı və qanunun yol verdiyi digər hallar istisna olmaqla, informasiya texnologiyalarından şəxsi həyata, o cümlədən əqidəyə, dini və etnik mənsubiyyətə dair məlumatların açıqlanması üçün istifadə edilə bilməməsini təsbit edirdi. VIII bənddə isə yazılırdı ki, fərdi məlumatların dairəsi, habelə onların emalı, toplanması, ötürülməsi, istifadəsi və mühafizəsi şərtləri qanunla müəyyən edilir.

60-cı maddədə edilən dəyişikliklər hüquq və azadlıqların inzibati və məhkəmə təminatı ilə bağlı idi. Burada yazılırdı ki, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Hər bir şəxsin

231 Yenə orada.

hüququ var idi ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın. Hər bir şəxsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ var idi. Hər bir şəxs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilərdi.

Azərbaycan Respublikası konstitusiyasının 98-ci maddəsinə əlavə edilən birinci və ikinci bəndlər Milli Məclisin buraxılması ilə bağlı idi. Birinci bənddə yazılırdı ki, Azərbaycan Respublikası Milli Məclisinin eyni çağırışı bir il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra qanunla müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə bu, konstitusiyanın 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisini buraxır.

İkinci bənddə yazılırdı ki, növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti beş ildən az ola bilər. Bu halda Milli Məclisə növbəti seçkilər növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayının birinci bazar günü keçirilirdi.

101-ci maddədə edilən dəyişikliklər Azərbaycan Respublikasında prezident seçkilərinin və növbədənkənar prezident seçkilərinin keçirilməsi ilə bağlı idi.

Əlavələrdən biri 103^1-ci maddə idi. "Azərbaycan Respublikasının vitse-prezidentləri" adlanan bu maddə dövlət strukturunun modernləşdirilməsinə, islahatların daha mütəşəkkil və mütərəqqi forma almasına şərait yaradırdı. Maddənin birinci bəndində yazılırdı ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və vitse-prezidentləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər. İkinci bənddə qeyd olunurdu ki, Azərbaycan Respublikasının vitse-prezidenti vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı təyin edilir.

105-ci, 106-cı və 108-ci maddələrdə edilən əlavə və dəyişikliklər də idarəçilik üçün yeni olan vitse-prezidentlik institutu ilə bağlı idi.

Azərbaycan Respublikasının konstitusiyasına edilən dəyişikliklərin böyük əhəmiyyəti var idi. Azərbaycanın yeni inkişaf yoluna qədəm qoymasının başlanğıcı olan bu əlavə və dəyişikliklər dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının etibarlı qorunmasına yönəlmişdi. Silahlı Qüvvələrin yaradılmasına dair, bütövlükdə digər dəyişikliklər Azərbaycan dövlətinin qarşısına qoyduğu başlıca məqsədə nail olmağa xidmət edirdi.

9.2. Mehriban Əliyevanın Birinci vitse-prezident təyin edilməsi

Konstitusiya referendumundan sonra Azərbaycan Respublikasında dövlət idarəetməsinin təkmilləşdirilməsini, daha çevik və səmərəli komandanın formalaşmasını, demokratik dəyişikliklərə hüquqi əsaslar yaradılmasını özündə ehtiva edən siyasi islahatlar daha da sürətləndirildi. Dövlət idarəçiliyində yeni təsisatın – Birinci vitse-prezidentlik institutunun yaradılması Azərbaycanın dövlətçilik tarixində yeni hadisə idi.

Prezident İlham Əliyevin 2017-ci il fevralın 21-də imzaladığı sərəncama əsasən Yeni Azərbaycan Partiyasının sədr müavini, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, tanınmış ictimai-siyasi xadim Mehriban Arif qızı Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olundu. Mehriban Əliyevanın bu vəzifəyə təyin edilməsi bir sıra amillərlə bağlı idi. Hər şeydən əvvəl, o, Azərbaycanda və xarici ölkələrdə humanitar fəaliyyəti ilə geniş tanınır və hörmətlə qarşılanırdı. Sivilizasiyalararası, dinlərarası dialoq sahəsində xüsusi xidmətləri var idi. Həmin fəaliyyətlər Azərbaycan dövlətinin qarşısına qoyduğu başlıca məqsəd olan torpaqların işğaldan azad edilməsindən ötrü bir vasitə idi. Bununla əlaqədar olaraq Təhlükəsizlik Şurasının iclasında Birinci vitse-prezidenti təqdim edən Prezident İlham Əliyev dedi:

"Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır. Mehriban Əliyeva Yeni Azərbaycan Partiyasının sədr müavinidir...

Mehriban Əliyeva 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır... Eyni zamanda, Mehribanın deputat kimi çox geniş beynəlxalq fəaliyyəti də var. Bu fəaliyyət nəticəsində müxtəlif ölkələrdə qazandığımız dostların sayı artıb".[232]

Dövlət başçısı Mehriban Əliyevanın Heydər Əliyev Fondunun rəhbəri kimi fəaliyyətindən bəhs edərkən vurğuladı:

232 Əliyev İ.H. Təhlükəsizlik Şurasının iclası. 21 fevral 2017-ci il // İnkişaf—məqsədimizdir. 78-ci kitab. Bakı, 2019, s. 287.

"2004-cü ildən bu günə qədər Mehriban Əliyeva Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondunun prezidentidir. Heydər Əliyev Fondu onun rəhbərliyi ilə nəinki Azərbaycanın, hesab edirəm ki, regionun ən böyük və nüfuzlu ictimai təşkilatına çevrilmişdir".[233]

Təyinatdan sonra keçən müddətdə Birinci vitse-prezidentlik institutu uğurla fəaliyyət göstərməyə başladı, idarəetmənin çevikliyi və səmərəliliyi artdı. Bu məsələdə Birinci vitse-prezident Mehriban Əliyevanın şəxsiyyəti, yüksək idarəçilik təcrübəsi və bacarığı böyük rol oynadı.

Mehriban Əliyeva Birinci vitse-prezident vəzifəsində keçirdiyi ilk müşavirəsini məcburi köçkünlərin problemlərinə həsr etdi. Onun fəaliyyəti əhalinin həssas təbəqələrinə qayğını təcəssüm etdirən faktlarla zəngin oldu. Birinci vitse-prezidentin iştirakı ilə 2017-ci il 3 aprel tarixində təqdim olunan "2016-cı ilin aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsi böyük sosial əhəmiyyət daşıyırdı. Qeyd etmək lazımdır ki, layihə çərçivəsində döyüşlərdə xəsarət almış əsgər və zabitlər dünyanın müasir protez istehsalçıları olan Almaniyanın "Ottobock", İslandiyanın "Ossur", İngiltərənin "RSL Steeper" və ABŞ-ın "Fillauer" şirkətlərinin yüksək texnologiyalı məhsulları ilə təmin olundular. Layihəyə uyğun olaraq müvafiq işlər həyata keçirildi, hərbçilərin amputasiya olunan orqanlarına protezlər quraşdırıldı. Hər bir əsgər və zabitin bir çox fərdi xüsusiyyətləri, xüsusilə aktivlik dərəcələri, həyat tərzləri, əmək məşğuliyyətləri və hər bir istifadəçinin fərdi tələbləri nəzərə alınaraq onlar üçün uyğun və yüksək keyfiyyətli protezlər tətbiq olundu.

9.3. IV İslam Həmrəyliyi Oyunları Azərbaycan gerçəklərinin təbliğində vasitə kimi

Ölkə həyatında mühüm hadisələrdən biri IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi oldu. İslam Həmrəyliyi İdman Federasiyası ilə Azərbaycan Respublikası arasında hələ 2015-ci ilin aprel ayında IV İslam Həmrəyliyi Oyunlarına Azərbaycanın ev sahibliyi etməsi barədə müqavilə imzalanmışdı. Sentyabrın 18-də Prezident İlham Əliyev IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzaladı.[234] Heydər Əliyev Fondunun prezidenti, Milli Olimpiya

233 Yenə orada, s. 287-288.

234 IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Normativ-hüquqi aktların elektron bazası. URL: www.e-qanun.az/framework/30700.

Komitəsi İcraiyyə Komitəsinin üzvü, UNESCO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Təşkilat Komitəsinin sədri təyin olundu. Sentyabrın 23-də Prezident İlham Əliyevin sədrliyi ilə IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin birinci iclası keçirildi.

2017-ci il aprelin 5-də Bakıdakı Daş Salnamə Muzeyində "Bakı- 2017" IV İslam Həmrəyliyi Oyunlarının Xəzərdən başlayan su səyahətinə start verildi. İslamiadanın rəmzi həyat və əbədiyyət mənbəyi olan su idi.

Prezident İlham Əliyevin Xəzər dənizindən götürülmüş suyu özləri ilə aparmaqdan ötrü Azərbaycanın bütün guşələrindən gəlmiş uşaqlara təqdim etməsi mərasimin ən yadda qalan anlarından biri idi. Paklıq və birlik rəmzi olan su səyahəti ölkənin 15-dən çox tarixi şəhərini, 5 gölü, 1 su anbarını, 3 çayı, 1 bulağı, 3 şəlaləni və Xəzər dənizini əhatə edirdi. 3 min kilometrdən çox məsafəni qət edən su səyahəti Naxçıvan, Astara, Şirvan, Sabirabad, Ağcabədi və Horadizdə böyük coşqu ilə qarşılandı və əsl bayrama çevrildi. Səyahət ilkin təqdimat mərasiminin keçirilməsindən 37 gün sonra, mayın 12-də Bakı Olimpiya Stadionunda başa çatdı. Ölkənin müxtəlif guşələrindən toplanan su Bakıya gətirilərək açılış mərasiminin tərkib hissəsi hesab olunmaqla Azərbaycanın İslam Həmrəyliyi Oyunlarının idmançılarını salamlamağın rəmzi oldu. İslamiada yarışlarının əsas şüarı isə "Həmrəylik bizim gücümüzdür!" idi.

Oyunların açılış mərasimi, yarışların gedişi və təntənəli bağlanış mərasimi müstəqil Azərbaycan tarixinin ən yaddaqalan səhifələrindən biri oldu. Mayın 12-22-də Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimi göstərdi ki, İslam dini mütərəqqi, elm, mədəniyyət, sülh, mərhəmət, birgəyaşayış dini, Azərbaycan isə tolerantlıq məkanıdır.

Oyunlarda iştirak etmək üçün Bakıya 54 ölkəni təmsil edən 3 mindən çox idmançı, 2000-dək komanda rəsmisi və texniki nümayəndə gəlmişdi. İslam Həmrəyliyi Oyunlarına bu qədər ölkənin və idmançının qatılması heç vaxt müşahidə olunmamışdı.

Açılış və bağlanış mərasimlərində Əfqanıstan, Albaniya, Əlcəzair, Bəhreyn, Banqladeş, Benin, Bruney, Burkina-Faso, Kamerun, Çad, Komor Adaları, Kot d'İvuar, Cibuti, Misir, Qabon, Qambiya, Qvineya, Qvineya-Bisau, Qayana, İndoneziya, İran, İraq, İordaniya, Qazaxıstan, Qırğızıstan, Livan, Malayziya, Maldiv, Mali, Mavritaniya, Mərakeş, Mozambik, Niger, Nigeriya, Oman, Pakistan, Fələstin, Qətər, Səudiyyə Ərəbistanı, Seneqal, Sierra-Leone, Somali, Surinam, Suriya, Tacikistan, Toqo, Tunis, Türkiyə, Türkmənistan, Uqanda, Birləşmiş Ərəb Əmirlikləri, Özbəkistan, Yəmən və Azərbaycan idmançıları öz dövlət bayraqları ilə meydana çıxmışdılar.

İdmanın 24 növü üzrə keçirilən yarışlarda Azərbaycan idmançıları 162 medal (75 qızıl, 50 gümüş və 37 bürünc) qazanaraq birinci oldular. Azərbaycan millisinin aktivinə ən çox medalı cüdoçular yazdılar. Onlar 26 medal – 11 qızıl, 12 gümüş və 3 bürünc əldə etdilər. Güləşçilər 23 medal? gimnastlar isə 20 medal qazandılar. Türkiyə ikinci, İran üçüncü, Özbəkistan dördüncü, Bəhreyn isə beşinci yeri tutdu.

IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsinin böyük əhəmiyyəti var idi. Prezident İlham Əliyev mayın 23-də oyunlarda qalib gəlmiş Azərbaycan idmançıları, onların məşqçiləri və idman ictimaiyyətinin nümayəndələri ilə görüşündə İslamiadanın tarixi əhəmiyyətini aşağıdakı kimi səciyyələndirdi:

"...bu oyunlar eyni zamanda, İslam həmrəyliyini gücləndirəcək. Mən oyunlar ərəfəsində demişdim, bizim əsas məqsədimiz ondan ibarətdir ki, müsəlman ölkələrini təmsil edən idmançılar, qonaqlar Bakıda bir yerdə olsunlar, bir-biri ilə tanış olsunlar, bir-birinin əlini sıxsınlar və dostluq, əməkdaşlıq gücləndirsin. Belə də oldu".[235]

IV İslam Həmrəyliyi Oyunları Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsinə və nüfuzunun artmasına təsir edən amillərdən biri oldu. Qonaqlar Azərbaycan tarix və mədəniyyəti ilə yaxından tanış oldular, bir sıra ölkələrin kütləvi informasiya vasitələrində proqramlar hazırlandı.

9.4. Bakı – Tbilisi – Qars dəmiryolunun istifadəyə verilməsi

Qeyd edildiyi kimi, Azərbaycan dövlətinin xarici siyasətinin əsas hədəflərindən biri ölkənin beynəlxalq nəqliyyat-kommunikasiya mərkəzlərindən birinə çevrilməsi idi. Bu baxımdan Bakı – Tbilisi – Qars dəmiryolunun tikintisi əhəmiyyətli rol oynadı. Məlum olduğu kimi, regionda dəmiryol tikintisinin bəlli bir tarixi vardır. Tikintisi hələ 1883-cü ildə başa çatdırılmış Cənubi Qafqaz və ya Bakı-Tbilisi-Poti xətti regionda əsas dəmiryolu olaraq qalırdı. Çar Rusiyası 1878-ci ildə Şərqi Anadolunun bir hissəsini işğal etdikdən sonra 1899-cu ildə Tiflisdən Marabdaya, Gümrüyə və Qarsa qədər olan qolun tikintisi başa çatdırılmışdı.

Birinci Dünya müharibəsi ərəfəsində çar hökuməti Bakı – Culfa dəmiryolunun tikintisi üçün vəsait ayırmış və müvafiq işlər görülmüşdü. Lakin müharibənin gedişində Rusiya imperatorluğu dağılmış və yeni reallıqlar yaranmışdı. Azərbaycan Cümhuriyyəti hökuməti ölkənin dünya bazarlarına çıxarılması üçün

235 Əliyev İ.H. IV İslam Həmrəyliyi oyunlarının qalib idmançıları, onların məşqçiləri və idman ictimaiyyətinin nümayəndələri ilə görüş // İnkişaf – məqsədimizdir. 80-ci cild. Bakı, 2019, s. 156.

yollar axtarmışdı. Ona görə də hökumətin fəaliyyətinin vacib sahələrindən biri Bakı – Culfa dəmiryolunun tikintisinin davam etdirilməsi olmuşdu. Azərbaycan parlamenti 1919-cu il mayın 8-də keçirilmiş 35-ci iclasında yolun tikintisinin davam etdirilməsinə dair qanun layihəsini müzakirə etmişdi. Layihəyə görə, bu yol işə düşdükdən sonra Təbriz və Urmiyə ilə mallar gətiriləcək, Osmanlı ilə əlaqələrin qurulmasına imkan yaranacaq, birbaşa yol Ələtə gəldiyindən Rusiya, Türküstan və İran ilə geniş ticarət əlaqələri qurulacaq, Qars və Gümrüdən mallar daşınacaq, Qarabağın mis mədənlərinin işə salınması üçün şərait yaranacaq, yeni fabrik və zavodlar tikiləcəkdi. O zaman yolun tikintisını başa çatdırmaqdan ötrü 258 milyon, işləri davam etdirmək üçün 100 milyon manat vəsait lazım idi. Layihə səsə qoyulmuş və qəbul edilmişdi.[236] Lakin bolşevik Rusiyasının Azərbaycanı işğal etməsi həmin işi başa çatdırmağa imkan verməmişdi. Başlanan işi sovet hökuməti özünün strateji məqsədləri naminə davam etdirərək İkinci Dünya müharibəsi illərində başa çatdırmışdı. Həmin yoldan istifadə etmək Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində mümkün deyildi. Naxçıvan blokadaya düşmüşdü. 1993-cü ildə Ermənistan Kəlbəcəri işğal etdikdən sonra Türkiyə təcavüzkar ölkə ilə sərhədlərini bağlamışdı. Bağlanan yola alternativ olaraq Azərbaycan ilə Türkiyə arasında Gürcüstan dəmiryolu xəttinin tikintisi məsələsi ilk dəfə olaraq hələ 1993-cü ilin iyulunda müzakirə olunmuşdu.

Dəmiryolunun tikintisinə dair razılaşma Azərbaycan, Gürcüstan və Türkiyə arasında 2005-ci ilin yanvar ayında imzalandı. O zaman maliyyə çatışmazlığı ucbatından layihə təxirə salındı. Lakin Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərinin 2005-ci ilin may ayında keçirilən açılışı zamanı hər üç ölkənin prezidenti dəmiryolu xəttinin tikintisində maraqlı olduqlarını bildirdilər.

Gürcüstanın Tbilisi və Axalkələk şəhərlərindən Türkiyənin Qars şəhərinə gedən dəmiryolu və ya Bakı – Tbilisi – Qars dəmiryolu layihəsinə dair anlaşmanı 2007-ci ilin fevral ayında Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğan və Gürcüstan Prezidenti Mixeil Saakaşvili imzaladılar. Dəmiryolunun Gürcüstan hissəsinin təməlinin qoyulmasına həsr olunmuş mərasim 2007-ci il noyabrın 21-də Gürcüstanın Tetri-Skaro rayonunda – Marabda stansiyasında keçirildi. Mərasimdə Prezident İlham Əliyev, Türkiyə Cümhuriyyətinin Prezidenti Abdullah Gül və Gürcüstan Prezidenti Mixeil Saakaşvili, habelə Avropa İttifaqından, ABŞ-dan və digər ölkələrdən qonaqlar iştirak edirdilər. "Dəmir İpək yolu" adlandırılan, Avropadan Çinə qədər birbaşa əlaqəni təmin etməyə imkan verəcək Bakı–Tbilisi–Qars dəmiryolunun işə düşməsilə həm də Ermənistanın

236 Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabat). I cild. Bakı, 1998, s. 539-548.

Azərbaycana hərbi təcavüzü nəticəsində 1993-cü ildə Türkiyə ilə Orta Asiya arasında kəsilmiş dəmiryolu əlaqəsi yenidən bərpa olunacaqdı. Qarsdan Axalkələkə qədər olan 105 kilometrlik dəmiryolunun tikintisinə 420 milyon dollar sərmayəyə ehtiyac duyulurdu. Qarsdan Gürcüstan sərhədinədək 76 kilometrlik hissəni Türkiyə maliyyələşdirməli və 220 milyon dollar vəsait qoymalı idi.

Ermənistan, erməni lobbisi, xarici ölkələrdəki ermənilər və onların təsiri altında olan mərkəzlər bu yolun tikintisinin əleyhinə çıxırdılar. Hətta ABŞ və Avropa İttifaqında da dəmiryolunun əleyhinə olanlar var idi. Onlar Bakı – Tbilisi – Qars dəmiryolunun tikintisi əvəzinə Qars – Gümrü – Tbilisi dəmiryolu xəttinin açılmasını tələb edirdilər. Lakin Dağlıq Qarabağ münaqişəsi səbəbindən həmin tələblər rədd edildi və dəmiryolu xəttinin tikintisinin maliyyələşdirilməsini Azərbaycan dövləti üzərinə götürdü. Azərbaycan dövləti dəmiryolunun təcavüzkar Ermənistanın ərazisindən keçirilməsinə imkan vermədi. Gürcüstan ərazisində bu yolun təməlinin qoyulması ilə Ermənistan həmin nəhəng layihədən kənarda qaldı.

Gürcüstan Azərbaycandan ildə 1% dərəcəsi ilə 25 illiyinə aldığı 220 milyon dollarlıq kreditlə Türkiyə sərhədindən Axalkələkə qədər olan təqribən 30 kilometrlik xətti inşa etməli və Azərbaycan sərhədinədək mövcud olan 160 kilometrlik xətti yenidən qurmalı idi. Layihənin 2009-cu ildə tamamlanması nəzərdə tutulurdu. İlkin hesablamalara görə, 2010-cu ildə 1,5 milyon sərnişin və ildə 3 milyon ton yük daşınmalı idi. 2034-cü ildə bu yolla 3,5 milyon sərnişin və ildə 16,5 milyon ton yükün daşınacağı proqnozlaşdırılırdı. Qazaxıstanın da bu yola qoşulmasından ötrü protokol imzalanmışdı.[237] Mərasimdə çıxış edən Prezident İlham Əliyev yolun tarixi əhəmiyyəti barədə belə dedi:

"Bu gün üç ölkə – Gürcüstan, Türkiyə və Azərbaycan bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət kəsb edən yeni layihənin təməlini qoyur.

Bizim əməkdaşlığımızın çox böyük tarixi var. Xalqlarımız əsrlər boyu birlikdə yaşamışlar, yaratmışlar...

Şübhəsiz, Bakı – Tbilisi – Qars dəmiryolunun tikintisi tarixi hadisədir. Bu layihə uzun illərdir ki, müzakirə olunurdu, yəni mövcud idi, ancaq layihənin gələcəyi qeyri-müəyyən idi. Uzun illər ərzində müxtəlif beynəlxalq maliyyə qurumları ilə, beynəlxalq təşkilatlarla apardığımız danışıqlar, əfsuslar olsun ki, heç bir nəticə verməmişdi. Ancaq bu gün ölkələrimiz iradəmizi ortaya qoyaraq, bu layihəni özümüz həll edirik...

Bakı – Tbilisi – Qars layihəsinə də şübhə ilə yanaşanlar, buna müqavimət göstərənlər var idi və biz bilirik, onları tanıyırıq. Amma buna rəğmən bizim ölkələ-

237 Əliyev İ.H. Azərbaycan Prezidenti İlham Əliyev Baki – Tbilisi – Qars dəmiryolunun Gürcüstan hissəsinin təməlqoyma mərasimində // İnkişaf – məqsədimizdir. 27-ci kitab. Bakı, 2015, s. 263-264.

rimizin iradəsi əsas rol oynamışdır. Bu, çox böyük məna daşıyan bir hadisədir. Bu, sadəcə olaraq, bir nəqliyyat layihəsi, yaxud da üç ölkəni birləşdirən layihə deyil, halbuki, bu baxımdan da çox böyük əhəmiyyəti var".[238]

Azərbaycan, Gürcüstan və Türkiyə bölgədə həm böyük əməkdaşlığa təkan verəcək layihələrin təşəbbüskarları, həm maliyyələşdirənlər, həm də icra edənlər idilər. Onların ortaq iradəsi bölgənin inkişafına müsbət təsirini göstərirdi. Heç bir dövlətə qarşı yönəlməyən bu layihələr Azərbaycan, Gürcüstan və Türkiyənin çox böyük regional qüvvə olduğunu təsdiq edirdi. Azərbaycan tərəfdaş ölkələrlə birlikdə əngəlləri dəf etmişdi.

2008-ci il iyulun 24-də Türkiyənin Qars şəhərində Bakı – Tbilisi – Qars dəmiryolunun Türkiyə hissəsinin təməli qoyuldu. Türkiyə Cümhuriyyətinin Prezidenti Abdullah Gül, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti Mixeil Saakaşvilinin iştirak etdiyi mərasimdə çıxış edən natiqlər yolun əhəmiyyətini vurğuladılar.

Dəmiryolu xəttinin Gürcüstan hissəsinin tikintisini Azərbaycanın "Azərinşaatservis" şirkəti, Türkiyə ərazisindəki 76 km-lik hissəsinin tikintisini Türkiyənin "Özgün Yapı Çeliklər" şirkəti həyata keçirdi. Türkiyə ərazisində 68 km və Gürcüstan ərazisində 30 km dəmiryolu tikildi. Lakin tikinti işlərini 2008-ci ilin avqust ayında baş vermiş Rusiya – Gürcüstan müharibəsi və qlobal maliyyə böhranı ləngitdi.

Tbilisidən Axalkələkə gedən ilk sınaq sərnişin qatarı 2017-ci il sentyabrın 27-də yola salındı. Ələtdə keçirilən təntənəli mərasimdə etdiyi nitqində Prezident İlham Əliyev yolun əhəmiyyətini belə qiymətləndirdi:

"Bakı – Tbilisi – Qars dəmiryolu tarixi, strateji əhəmiyyətli layihədir... Bu yolun uzunluğu təxminən 850 kilometrdir, onun da 504 kilometri Azərbaycan ərazisindən keçir. Bakı – Tbilisi – Qars dəmiryolu Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur... ...Bakı – Tbilisi – Qars dəmiryolu Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilir... Bu yoldan istifadə edən bütün ölkələr arasındakı əməkdaşlıq dərinləşəcəkdir. Bu yol sabitliyə və təhlükəsizliyə xidmət edəcəkdir. Bu yolun istifadəsi zamanı əminəm ki, turizmin inkişafı da geniş vüsət alacaq, turistlərin sayı artacaqdır. Bakı – Tbilisi – Qars dəmiryolunun uğurlu fəaliyyəti ölkələrimizin geosiyasi əhəmiyyətini artıracaq və bizim üçün əlavə imkanlar yaradacaqdır.

Biznesin inkişafı, qarşılıqlı faydalı əməkdaşlıq üçün Bakı – Tbilisi – Qars dəmiryolunun çox böyük əhəmiyyəti vardır...

Bakı – Tbilisi – Qars tarixi İpək yolunun bir hissəsinin bərpası deməkdir və bundan Çin, Qazaxıstan, Orta Asiya, Azərbaycan, Gürcüstan, Türkiyə, Avropa ölkələ-

238 Əliyev İ.H. Bakı – Tbilisi – Qars dəmiryolunun Gürcüstan hissəsinin təməlqoyma mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin nitqi // İnkişaf – məqsədimizdir. 27-ci kitab, s. 266-267.

ri istifadə edəcəkdir. Şimal – Cənub nəqliyyat dəhlizi Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Avropa ölkələrini birləşdirəcəkdir...

Azərbaycanın Xəzər dənizində ən böyük dəniz donanması vardır – 270 gəmidən ibarət donanma Xəzərdə yükdaşımalarının təşkili üçün xüsusi rol oynayır. ...nəqliyyat infrastrukturumuzun önəmli hissəsi, bax, bu gün burada toplaşdığımız Bakı Beynəlxalq Dəniz Ticarət Limanıdır".[239]

Azərbaycan dövləti bütün təzyiqləri və maneələri qətiyyətlə dəf edərək layihəni reallaşdırdı. Dəmiryolu 2017-ci il oktyabrın 30-da istismara verildi. Məqsədi Türkiyə və Azərbaycanı, beləliklə, Mərkəzi Asiya və Çini Avropa ilə dəmiryolu vasitəsilə birləşdirməkdən ibarət olan Böyük İpək yolu, TRASEKA-nın tərkib hissəsi olan Bakı – Tbilisi – Qars layihəsinin reallaşdırılması nəticəsində Asiyadakı məhsulların Avropaya 15 günə çatdırılması mümkün olurdu. Dəmiryolu Azərbaycan üçün siyasi, iqtisadi və strateji baxımdan böyük əh'miyyət daşıyırdı. Onun vasitəsi ilə Azərbaycan beynəlxalq nəqliyyat dəhlizlərinə və Türkiyəyə gediş əldə edirdi. Bakı – Tbilisi – Qars dəmiryolu Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərindən sonra Azərbaycanın iqtisadiyyatını daha da inkişaf etdirir, tranzitdən gəlirlər götürülür və ölkədə infrastruktur təkmilləşdirilirdi. Dəmiryolu Azərbaycan Respublikasını dünyanın iqtisadi güc mərkəzi olan Avropa İttifaqı, Çin və Cənub-Şərqi Avropa ölkələrini birləşdirən mühüm geosiyasi və geoiqtisadi mərkəzə çevirirdi.

***

Fəsildə araşdırılan məsələlər göstərir ki, ölkənin inkişaf tələbinə uyğun olaraq siyasi sistemin təkmilləşdirilməsindən ötrü konstitusiya referendumu keçirilmişdir. Konstitusiyaya bir sıra əlavə, düzəliş və dəyişikliklər edilmişdir. Azərbaycan Respublikası Milli Məclisinin vaxtından əvvəl buraxılması, növbədənkənar prezident seçkilərinin keçirilməsi, vitse-prezidentlik institutunun yaradılması təsbit edilmişdir. Həm ölkədə, həm də xaricdə geniş ictimai-siyasi fəaliyyəti ilə yaxşı tanınmış Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının sədr müavini, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Birinci vitse-prezident təyin olunmuşdur.

Mehriban Əliyevanın rəhbərlik etdiyi IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsi bütün təşkilati məsələləri uğurla həll etmişdir. Bunun sayəsində İslamiada ən yüksək səviyyədə keçmiş, bütün dünyada böyük tamaşaçı

239 Əliyev İ.H. Bakı – Tbilisi – Qars dəmiryolunun açılışı mərasimində iştirak. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı // İnkişaf – məqsədimizdir. 83-cü kitab. Bakı, 2019, s. 111-114.

marağına səbəb olmuş və Azərbaycan Respublikasının nüfuzunun artmasına təsir göstərmişdir. Mehriban Əliyeva qısa müddətdə Birinci vitse-prezidentlik vəzifəsinin tələblərinə uyğun olaraq ölkə rəhbərinin apardığı islahatlar prosesində, dövlət idarəçiliyində ən yaxın silahdaşına çevrilmişdir. Bu isə Azərbaycan dövlətinin uğurlarını şərtləndirən amillərdən biri olmuşdur.

Prezident İlham Əliyevin səyləri, Azərbaycan, Gürcüstan və Türkiyə arasında səmərəli əməkdaşlıq nəticəsində Bakı – Tbilisi – Qars dəmiryolu istifadəyə verilmişdir. Azərbaycan Avropa və Asiyanı birləşdirən mühüm məntəqəyə çevrilmiş, dünya siyasətində yeri möhkəmlənmiş və rolu artmışdır.

10-cu FƏSİL

KEŞMƏKEŞLİ 2018-ci İL

10.1. 2018-ci il növbədənkənar prezident seçkiləri

Ölkə tarixində ilk dəfə olaraq 2018-ci ildə iqtidar partiyası növbədənkənar prezident seçkilərinin keçirilməsi təşəbbüsü ilə çıxış etdi. Həmin təşəbbüsə uyğun olaraq fevralın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsi haqqında sərəncam imzaladı. Sərəncama əsasən seçkilər 2018-ci il aprelin 11-nə təyin edildi.[240]

Növbədənkənar prezident seçkilərinin keçirilməsini bir sıra amillər şərtləndirmişdi. Hər şeydən əvvəl, Azərbaycan ərazilərinin işğalına son qoymaq üçün dövlətin daha da gücləndirilməsinə, ölkə daxilində islahatları sürətləndirərək çevik idarəetmənin qurulmasına, millətin hakimiyyətə olan etimadının bir daha sınaqdan çıxarılmasına ehtiyac duyurdu. Digər tərəfdən, yaranmış mürəkkəb beynəlxalq şərait, müxtəlif dövlətlər arasında münasibətlərin gərginləşməsi çevik addımların atılmasını irəli sürürdü. Regional və qlobal miqyasda proqnozlaşdırılmayan proseslər getdiyindən keçirilən demokratik seçkilər həm də Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirəcəkdi.

Prezident seçkiləri Azərbaycanın dövlət müstəqilliyi tarixində əhəmiyyətinə görə ən taleyüklü hadisələrdən biri idi. Ölkənin kifayət qədər güclənməsi, regional proseslərdə həlledici söz sahibinə çevrilməsi və beynəlxalq proseslərə təsir imkanları qazanması seçkilərə beynəlxalq diqqəti artırırdı. Seçkilərin nəticələri təkcə Azərbaycanda deyil, regionda geosiyasi proseslərin gələcəyi üçün də böyük əhəmiyyət daşıyırdı.

Seçkilərdə 8 namizəd mübarizə aparırdı. Prezident İlham Əliyevin namizədliyi hakim Yeni Azərbaycan Partiyası, Araz Əlizadənin namizədliyi Azərbaycan Sosial

240 Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 05.02.2018-ci il // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: www.president.az/articles/26943.

Demokrat Partiyası, Qüdrət Həsənquliyevin namizədliyi Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Fərəc Quliyevin namizədliyi Milli Dirçəliş Hərəkatı Partiyası, Hafiz Hacıyevin namizədliyi Müasir Müsavat Partiyası, Sərdar Məmmədovun namizədliyi Azərbaycan Demokrat Partiyası, Razi Nurullayevin namizədliyi Cəbhəçilərin təşəbbüs qrupu, Zahid Orucun namizədliyi isə özü tərəfindən irəli sürülmüşdü.[241]

125 dairənin 5641 seçki məntəqəsində keçirilən seçkiləri 61 təşkilat, 59 ölkədən olmaqla 894 beynəlxalq müşahidəçi izləyirdi. Seçkiləri müşahidə edən yerli müşahidəçilərin sayı isə 58 min 175 nəfər idi.[242] Şəffaflığın təmin olunması məqsədilə digər vasitələrlə yanaşı, işğal olunmuş ərazilər istisna olmaqla bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində və ya seçki məntəqələrinin təqribən 20%-də veb-kameralar quraşdırılmışdı.

Seçki məcəlləsinin tələbinə uyğun olaraq exit-poll keçirməkdən ötrü Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası AJF&Associates İnc. təşkilatı, ABŞ-ın Vətəndaş Cəmiyyəti Uğrunda Müstəqil Məsləhət və Yardım Mərkəzi, Opinion Way Sosioloji Tədqiqatlar İnstitutu, Fransanın ELS Müstəqil Araşdırmalar Mərkəzi və Rəy Monitorinq Mərkəzi MSK-da qeydiyyatdan keçmişdilər .[243]

Namizədlərin təbliğat və təşviqat kampaniyası aparmalarına bərabər imkanlar yaradılmışdı. Radio və televiziyada ödənişsiz təbliğat aparılırdı. Seçicilərlə açıq və qapalı görüş yerləri müəyyənləşdirilmişdi.

Seçkidə Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyev seçicilərin 86,02% səsini qazanaraq qalib gəldi. Zahid Oruca (3,12%), Sərdar Məmmədova (3,03%), Qüdrət Həsənquliyevə (3,02%), Hafiz Hacıyevə (1,52%), Araz Əlizadəyə (1,38), Fərəc Quliyevə (1,17%), Razi Nurullayevə isə 0,74% seçici səs vermişdi.[244]

Azərbaycan xalqının iradəsini əks etdirən seçkinin nəticələri bir daha sübut etdi ki, vətəndaşlar dövlətin gələcək inkişafını Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilmiş siyasi kursun Prezident İlham

241 2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyası tərəfindən qeydə alınmış namizədlərin siyahısı // Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəsmi internet saytı. www.msk.gov.az/az/elections/prezident-seckileri/11-04-2018/979/.

242 Prezident seçkiləri ilə əlaqədar qısa statistik məlumat (10.04.2018) // Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəsmi internet saytı. URL: www.msk.gov.az/az/elections/prezident-seckileri/11-04-2018/987/.

243 Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının hesabatı. Prezident seçkiləri – 2018. 11.04.2018 // Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəsmi internet saytı. URL: www.msk.gov.az/az/elections/prezident-seckileri /11-04-2018/1014/.

244 Səsvermənin nəticələri haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolu. 15.04.2018-ci il // Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəsmi internet saytı. URL: www.msk.gov.az/uploads/Secki-2018/MSK_protokol-2018.pdf.

Əliyev tərəfindən mövcud şəraitə uyğun olaraq davam və inkişaf etdirilməsində görür. Azərbaycan xalqı real işlərə, inkişafa, tərəqqiyə, təhlükəsizliyə və gələcək inkişafa səs vermişdi.

Seçkilər ədalətli və şəffaf şəkildə keçirilmişdi. Seçkilərdən əvvəl yerli və beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları, seçkilər günü beynəlxalq və yerli təşkilatlar tərəfindən keçirilmiş exit-pollar seçkilərin rəsmi nəticələri ilə üst-üstə düşürdü.

2018-ci il aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirildi. Mərasimdə Azərbaycanın dövlət rəsmiləri, hökumətin üzvləri, Milli Məclisin deputatları və Prezidentin ailə üzvləri iştirak edirdilər. Andiçmə mərasimi açıq elan olundu. Mərasim iştirakçıları Prezidenti hərarətlə qarşıladılar. Silahlı Qüvvələrin əsgərləri Azərbaycan Respublikasının dövlət bayrağını və Azərbaycan Prezidentinin ştandartını (bayrağını) təntənəli marşın sədaları altında səhnəyə gətirdilər. Prezident seçilmiş İlham Əliyev Azərbaycan Respublikası konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə andiçməyə dəvət edildi. O, əlini Azərbaycan Respublikası konstitusiyasının üzərinə qoyaraq and içdi:

"Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!"

Azərbaycan Respublikasının dövlət himni səsləndirildi. Sonra Prezident müqəddəs Qurani-Şərifə əl basaraq and içdi:

"Əlimi Qurani-Şərifə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam".

Prezident İlham Əliyev təzim edərək Azərbaycan Respublikasının dövlət bayrağını öpdü və geniş nitq söylədi.[245] İlk növbədə, seçkilərdə göstərilən yüksək etimada görə Azərbaycan xalqına dərin təşəkkürünü bildirən Prezident bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyini bildirdi. Son 15 il ərzində Azərbaycanın keçdiyi yola nəzər yetirən ölkə rəhbəri dedi ki, təməlini Heydər Əliyevin qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur.[246] Ötən illər ərzində Azərbaycan xalqı təhlükəsizlik və sabitlik şəraitində yaşamışdı. Ölkədə daxili risklərin hamısı aradan qaldırılmışdı. Dövlət xarici risklərdən özünü qoruya bilmişdi. Təminatçısı Azərbaycan

245 Əliyev İ.H. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi. 18 aprel 2018-ci il // İnkişaf – məqsədimizdir. 86-cı kitab. Bakı, 2019, s. 196-212.
246 Yenə orada, s. 198.

xalqının olduğu təbii sabitlik inkişafın əsas şərti olmuşdu. Xalq vahid milli ideya ətrafında birləşərək uğurla inkişaf edirdi. Azərbaycanda dinlərarası münasibətlər nümunəvi xarakter daşıyırdı.[247]

Azərbaycanın beynəlxalq aləmdə böyük uğurlara imza atdığını və dünyada mövqelərinin möhkəmləndiyini söyləyən dövlət başçısı 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildiyini vurğuladı. [248] Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsindən danışan Prezident dedi:

"Beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini dəstəkləyir, xüsusilə Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bizim ədalətli mövqeyimizi dəstəkləyir. Təkcə onu demək kifayətdir ki, son 15 il ərzində bir çox ən mötəbər beynəlxalq təşkilatlar münaqişə ilə bağlı bizim təklifimizi qəbul edərək çox önəmli qətnamələr qəbul etmişlər. Orada göstərilir ki, münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT-nin Baş Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM və digər təşkilatlar münaqişə ilə bağlı bizim mövqeyimizi dəstəkləyən qətnamələr qəbul etmişdir. Ondan əvvəlki dövrdə isə BMT Təhlükəsizlik Şurası və ATƏT qətnamələr qəbul etmişdir.

Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində beynəlxalq təşkilatların dəstəyini tam qazana bilmişik, Ermənistanın işğalçı siyasətini ifşa etmişik".[249]

Dağlıq Qarabağın Azərbaycanın tarixi torpağı olduğunu bildirən ölkə rəhbəri son illərdə görülən işləri belə ifadə etdi:

"Biz son 15 il ərzində münaqişə ilə bağlı həqiqətləri dünya birliyinə çatdıra bildik, kitablar yazıldı, qədim xəritələr ortaya qoyuldu, təqdimatlar, sərgilər keçirildi. 10-dan çox ölkə Xocalı qətliamını soyqırımı kimi tanıdı. Bizim diplomatik və siyasi uğurlarımız öz nəticəsini verməkdədir" .[250]

Dövlət başçısı qətiyyətlə bildirdi:

"Biz... istədiyimizə nail olacağıq. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Azərbaycan heç vaxt imkan verməz ki, bizim ərazimizdə ikinci qondarma erməni dövləti yaradılsın".[251]

247 Yenə orada, s. 200.
248 Yenə orada, s. 201.
249 Yenə orada, s. 201-202.
250 Yenə orada, s. 202.
251 Yenə orada.

Nəinki Dağlıq Qarabağ bölgəsinin, indiki Ermənistanın da tarixi Azərbaycan torpaqları olduğunu deyən Prezident İlham Əliyev güclü dövlətin mövcudluğunun vacibliyini belə ifadə etdi:

"Eyni zamanda, biz yaxşı bilirik və bunu tarix, yaxın tarix və bölgədə gedən proseslər göstərir ki, bir çox hallarda beynəlxalq hüquq normaları işləmir. Kim güclüdür, o da haqlıdır... Demək olar ki, son 15 il ərzində beynəlxalq davranış qaydaları dəyişdi, beynəlxalq hüquq normaları arxa plana keçdi. Güc amili daha önəm qazandı. Bu, reallıqdır. Biz real həyatda yaşayırıq və reallıqla hesablaşmalıyıq".[252]

Ordu quruculuğu siyasətinin düzgün olduğunu, son 15 il ərzində bu prosesin sürətlə getdiyini söyləyən ölkə rəhbəri bildirdi:

"Bəzi hallarda bizi tənqid edirdilər ki, siz nəyə görə bu məsələlərə bu qədər vəsait xərcləyirsiniz. Ancaq həyat göstərdi ki, biz düzgün siyasət aparmışıq. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Təchizat, silah-sursat, texnika, döyüş qabiliyyəti baxımından ordumuz güclü ordular sırasındadır. Ordumuz üçün nə lazımdırsa, biz onu da təmin edirik. Ən müasir silahlar alınır və bundan sonra da alınacaqdır".[253]

2016-cı ilin aprel döyüşlərində qazanılan qələbəni tarixi, böyük qələbə adlandıran Prezident vurğuladı ki, bu hərbi qələbə Azərbaycan xalqının gücünü və yenilməz ruhunu göstərmişdir. Dövlət başçısı qətiyyətlə dedi:

"... Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. ...biz öz torpaqlarımızı azad edəcəyik. Buna nail olmaq üçün daha da güclü olmalıyıq və olacağıq".[254]

Cocuq Mərcanlı qəsəbəsini dirçəliş rəmzi olaraq qiymətləndirən Prezident bəyan etdi:

"Bu, bir daha onu göstərir ki, biz heç vaxt işğalla barışmayacağıq".[255]

Məcburi köçkünlərin problemlərinin həllinin diqqət mərkəzində olduğunu bildirən ölkə rəhbəri vurğuladı ki, köçkünlərlə bağlı olan məsələlər uğurla həll edilir, gələcəkdə də bu istiqamətdə addımlar atılacaqdır. Yürüdülən siyasət nəticəsində son 15 il ərzində maaşlar təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artmışdı. 3100-dən çox məktəb, 640-dən çox xəstəxana tikilmiş və təmir edilmişdi. Yoxsulluq təxminən 50%-dən 5,4%-ə düşmüşdü. İşsizlik Azərbaycanda 5% səviyyəsində idi. Sənaye istehsalı 2,6 dəfə, valyuta ehtiyatları 24 dəfə artaraq 44 milyard dollar olmuşdu. Ölkəyə 230 milyard dollardan çox sərmayə qoyulmuşdu. Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanı rəqabət qabiliyyətliliyinə görə 35-ci yerə layiq görmüşdü.[256] Azərbaycan dünyada baş vermiş böhranlardan ən az itkilərlə çıxa bilmişdi. Ölkədə sahibkarlığın inkişafı sürətlə getmiş, sahibkar-

252 Yenə orada, s. 203.
253 Yenə orada.
254 Yenə orada.
255 Yenə orada, s. 204.
256 Yenə orada, s. 205.

lara 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilmişdi.[257] Yeni texnologiyaların tətbiqinə böyük diqqət yetirilirdi. Azərbaycan dünyanın məhdud sayda üzvü olan kosmik kluba daxil olmuşdu. Təhsilə, elmə xüsusi diqqət verilirdi. Azərbaycan qaz ixrac edən ölkəyə çevrilmişdi. Yeni layihələr üzərində iş gedirdi.[258] Ölkə daxilində 30-dan çox elektrik stansiyası tikilmişdi. Qazlaşdırma 95%-ə çatırdı. Bakı – Tbilisi – Qars dəmiryolunun açılışı tarixi nailiyyət idi. Açıq dənizlərə çıxışı olmayan Azərbaycan Respublikası Avrasiyanın vacib nəqliyyat mərkəzlərindən birinə çevrilmişdi. Beynəlxalq tədbirlərin keçirilməsi, Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, "Formula-1" yarışları, siyasi və humanitar tədbirlər Azərbaycanı dünyaya təqdim etmişdi. Gələcək planlardan danışan dövlət başçısı dedi:

"Hər bir sahə üzrə... bizim konkret proqramlarımız, planlarımız var... Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var. Xalq-iqtidar birliyi var... Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar".[259]

Qazanılan bütün bu uğurlar yalnız müstəqillik şəraitində, dövlət başçısının yürütdüyü düzgün müstəqil siyasət və qəti iradəsi sayəsində mümkün olmuşdu. Ölkə rəhbəri nitqinin sonunda vurğuladı:

"Azərbaycan xalqı görür ki, müstəqilliyimizin üstünlükləri nədən ibarətdir. Bizim taleyimiz öz əlimizdədir, biz öz taleyimizin sahibiyik. Biz ancaq müstəqillik dövründə belə böyük uğurlara nail ola bilərdik. Bu gün müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir, ən böyük xoşbəxtlikdir. Biz bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik".[260]

Prezident İlham Əliyevin nitqi Azərbaycan dövlətinin ölkənin inkişafına dair konkret planlarının olduğunu və qarşıya qoyduğu başlıca məqsədə nail olmaq üçün əzmlə irəlilədiyini göstərirdi.

Dövlət başçısının təqdimatı ilə Milli Məclis Azərbaycan Respublikası Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi Novruz Məmmədovun[261] Baş nazir vəzifəsinə təyin edilməsinə razılıq verdi. O, Azərbaycan Respublikasının 9-cu Baş naziri oldu və bu vəzifədə 2018-2019-cu illərdə işlədi.

Növbədənkənar prezident seçkilərindən sonra ölkə həyatında yeni səhifə açıldı. Bu, islahatların dərinləşdirilməsi və təcavüzkar Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsinə son hazırlıq işləri ilə səciyyələnirdi.

257 Yenə orada, s. 207.
258 Yenə orada, s. 208-209.
259 Yenə orada, s. 212.
260 Yenə orada.
261 Novruz Məmmədov (1997) –Azərbaycan Respublikasının 9-cu Baş naziri (2018-2019).

10.2. Günnüt əməliyyatı

Torpaqların işğaldan azad edilməsi məqsədilə 2018-ci ilin may ayında Azərbaycan Ordusu daha bir uğurlu əməliyyat həyata keçirdi. Məlum olduğu kimi, hələ 1992-ci ildə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün gedişində Şərur rayonunun Günnüt kəndinin əraziləri də işğal edilmişdi.

2018-cı il mayın 20-dən 27-nə qədər Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi istiqamətində həyata keçirilən əməliyyat nəticəsində Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu Günnüt kəndini, Ağbulaq yüksəkliyini, Qızılqaya dağını və Qaraqaya dağını işğaldan azad etdi. Dərələyəz mahalının Arpa kəndi Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Ümumi olaraq 11 min hektarlıq ərazi işğaldan azad edildi. Uğurlu hərbi əməliyyat Azərbaycan Silahlı Qüvvələrinə İrəvan – Keşişkənd (Yeğeqnadzor) – Gorus – Laçın – Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan verdi.

İşğaldan azad edilmiş ərazinin etibarlı müdafiəsi və təminatı məqsədi ilə 50 km yeni yol çəkildi, 50 km-dən artıq yararsız yollar bərpa edildi. Strateji əhəmiyyətli Arpaçay dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri quruldu.

Qısa müddət ərzində yüksək dağlıq şəraitdə ən azı 20 kilometr enində cəbhə xəttində belə əməliyyatın uğurla həyata keçirilməsi dövlət müstəqilliyinin bərpa edilməsindən sonra ordu quruculuğu sahəsində Azərbaycanın qazandığı böyük nailiyyət idi.

2018-ci ilin may ayında Azərbaycan Xalq Cümhuriyyətinin və Silahlı Qüvvələrin yaranmasının 100 illiyi ərəfəsində Günnüt zəfərinin qazanılması millətə gözəl hədiyyə oldu. Silahlı Qüvvələrin 100 illiyi münasibətilə iyunun 26-da keçirilən hərbi paradda Ali Baş Komandan, Prezident İlham Əliyev bu barədə dedi:

"Naxçıvanın ötən əsrin 90-ci illərinin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11000 hektar torpağı... Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad edildi. Çox böyük mühəndislik və kəşfiyyat işləri aparıldı. Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirildi. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərmişdir... Naxçıvan əməliyyatı bir daha göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur".[262]

Bu zaman Azərbaycan milləti bütün müsəlman Şərqində yaratdığı ilk demokratik Xalq Cümhuriyyətinin qurulmasının 100 illiyinə hazırlaşırdı. Günnüt əməliyyatı bayrama gözəl hədiyyə idi.

262 Əliyev İ.H. Azərbaycan Silahlı qüvvələrinin 100 illiyi münasibətilə keçirilən təntənəli hərbi paradda iştirak. 26 iyun 2018-ci il // İnkişaf – məqsədimizdir. 87-ci kitab. Bakı, 2019, s. 320.

10.3. Cümhuriyyətin 100 illiyinin bayram edilməsi

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi 2018-ci ildə tamam olurdu. Prezident İlham Əliyev hələ 2017-ci il mayın 16-da Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında sərəncam imzalamışdı.[263] Sərəncamda 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsinin qəbul edildiyi, yeni qurulan Azərbaycan Xalq Cümhuriyyətinin üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdiyi, Azərbaycanın ilk parlamenti və hökumətinin, dövlət aparatının təşkil edildiyi, ölkənin sərhədlərinin müəyyənləşdirildiyi, bayrağı, himni və gerbinin yaradıldığı, ana dilinin dövlət dili elan edildiyi, dövlət quruculuğu sahəsində ciddi tədbirlərin həyata keçirildiyi, ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyinin təmin edildiyi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələrin yaradıldığı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanlarının qurulduğu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildiyi, Azərbaycanın ilk universitetinin təsis olunduğu, təhsilin milliləşdirildiyi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlərin görüldüyü vurğulanırdı. Qeyd edilirdi ki, mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini və sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyətində qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan vermişdi.

Sərəncamda Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasət fəaliyyəti barədə yazılırdı ki, daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərilirdi. Dünya birliyi tərəfindən tanınmış Cümhuriyyətin fəaliyyəti 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını almışdı. Sənəddə Cümhuriyyətin süquta uğradılması və dövlət müstəqilliyinin bərpası məsələləri aşağıdakı kimi səciyyələndirilirdi:

"Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində

263 Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 16.05.2017 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi. URL: https:president.az/articles/23701.

milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi".[264]

Sərəncama uyğun olaraq ölkədə geniş tədbirlər həyata keçirildi. 2018-ci il mayın 28-də Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibəti ilə rəsmi qəbul oldu. Dövlət və hökumət rəsmiləri, diplomatik korpus və ictimaiyyətin nümayəndələrinin iştirak etdiyi qəbulda geniş nitq söyləyən Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin həyata keçirdiyi taleyüklü məsələlərdən danışarkən qeyd etdi ki, qısa müddət ərzində böyük işlər görülmüş, Azərbaycanın dövlət bayrağı, vətəndaşlığı təsis edilmiş, milli ordu, sərhəd dəstəsi, təhlükəsizlik orqanları yaradılmış, Gəncənin tarixi adı bərpa edilmiş, parlamentdə 200-dən çox qanun qəbul edilmiş, qadınlara səsvermə hüququ verilmiş, Bakı Dövlət Universiteti yaradılmış, kadrların yetişdirilməsində, təhsilin inkişafında əzm göstərilmiş, ana dili bütün təhsil müəssisələrində qəbul edilmişdir. Cümhuriyyət ənənələrinin dirçəldilməsində Ümummilli lider Heydər Əliyevin xidmətlərindən bəhs edən Prezident bildirdi:

"...Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət bayrağını ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında dövlət bayrağı kimi məhz Heydər Əliyev təsdiq etmişdir. Sovet İttifaqının saxlanmasına dair referendumun Naxçıvanda keçirilməsinə imkan verməmişdir, baxmayaraq ki, Azərbaycanın bütün başqa yerlərində bu referendum keçirilmişdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirmiş və Sovet Sosialist sözlərini oradan çıxarmışdır".[265]

Azərbaycanın 100 il ərzində keçdiyi tarixi yolu dərindən təhlil edən dövlət başçısı müstəqil Azərbaycan Respublikasının gələcək inkişaf istiqamətlərini, siyasi, iqtisadi və mədəni sahədə əldə etdiyi nailiyyətlərə də diqqəti cəlb etdi. Azərbaycanın beynəlxalq təşkilatlara üzv olmağa cəhd göstərən ölkədən beynəlxalq təşkilatların idarə edilməsində iştirak edən dövlətə çevrilməsi üçün atılan addımlardan danışan Prezident vurğuladı ki, Azərbaycan beynəlxalq are-

264 Yenə orada.

265 Əliyev İ.H. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi münasibətilə təşkil olunmuş qəbulda iştirak. Azərbaycan Prezidenti İlham Əliyevin nitqi // İnkişaf – məqsədimizdir. 87-ci kitab. Bakı, 2019, s. 121-122.

nada öz mövqelərini gücləndirir, beynəlxalq aləmdə çox böyük nüfuza malik olan bir ölkədir. Azərbaycanla əməkdaşlıq edən ölkələrin sayı getdikcə artırdı. Azərbaycan dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına iki dəfə sədrlik etmişdi. 2019-cu ildə BMT-dən sonra ikinci böyük təşkilata – Qoşulmama Hərəkatına sədrlik edəcəkdi.

Azərbaycan iqtisadiyyatının dinamik inkişaf edən, dayanıqlı, qlobal risklərin təzyiqini aradan qaldıran iqtisadiyyat olduğunu qeyd edən dövlət başçısı bildirdi ki, dünyada baş verən risklərə baxmayaraq, ölkə inkişaf edir. Əldə olunan uğurlar, həyata keçirilən irimiqyaslı layihələr Azərbaycanın istər rəqabət qabiliyyətli indeksinə, istərsə də digər keyfiyyət göstəricilərinə görə dünya ölkələri arasında nüfuzu artan, seçilib-sayılan ölkələr sırasına daxil olmasına imkan vermişdi. Nitqinin sonunda dövlət başçısı bəyan etdi:

"Azərbaycanın müstəqilliyi əbədidir".[266]

2018-ci ilin sentyabrın 21-də Milli Məclisdə Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin 100 illiyinə həsr olunmuş təntənəli iclas keçirildi. İclasda Prezident İlham Əliyev, 10-a yaxın beynəlxalq təşkilatın, 44 ölkənin nümayəndə heyəti və diplomatik korpusun təmsilçiləri iştirak edirdilər.[267] Təntənəli iclasda etdiyi nitqində dövlət başçısı Cümhuriyyətin yaradılmasının tarixi hadisə olduğunu belə səciyyələndirdi:

"... ilk dəfə idi ki, müsəlman aləmində demokratik respublika yaradılmışdır və Azərbaycan xalqı haqlı olaraq fəxr edir ki, bu respublikanı yaradan biz olmuşuq".[268]

Cümhuriyyətin süqut etməsinə baxmayaraq, qısa müddət ərzində həyata keçirilən tədbirlərin əhəmiyyətini xüsusi qiymətləndirən Prezident XX əsrin sonlarında Azərbaycanın yenidən dövlət müstəqillliyini əldə etməsindən danışdı və müstəqil Azərbaycan Respublikasının Cümhuriyyət ilə oxşar ağrılı taleyi yaşamaması üçün Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin misilsiz tarixi fəaliyyəti barədə dedi:

"1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmuşdur. Bu, tarixi şans, tarixi xoşbəxtlik idi. Çünki Azərbaycan xalqı əsrlər boyu müstəqillik, azadlıq eşqi ilə yaşamışdır. Ancaq uzun illər ərzində başqa dövlətlərin tərkibində idi. 1991-ci ildə ikinci dəfə bizə belə imkan yarandı. Ancaq əfsuslar olsun ki, müstəqilliyimizin ilk illəri Azərbaycanda çox böyük fəlakətlərlə müşayiət olunurdu. Ölkə iqtisadiyyatı ağır vəziyyətdə idi, siyasi proseslər vəziyyəti gərginləşdirirdi, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti vüsət alırdı, daxildə çəkişmələr imkan vermirdi ki, Azərbaycan uğurla

266 Yenə orada, s. 130.
267 Azərbaycan Parlamenti – 100. 1918-2018. Bakı, 2018.
268 Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi // Azərbaycan parlamenti – 100. 1918-2018, s. 5.

inkişaf etsin. 1992-ci ildə dövlət çevrilişindən sonra vəziyyət daha da ağırlaşdı və Azərbaycan çox çətin çağırışlarla üz-üzə qalmışdı.

...Bu ağır, çətin günlərdə Azərbaycan xalqı müdriklik göstərərək yeganə düzgün addım atmışdır, Heydər Əliyevi hakimiyyətə dəvət etmişdir və bu tarixi addım ölkəmizin müasir tarixində dönüş nöqtəsi idi".[269]

Azərbaycanın uğurlu inkişafında Milli Məclisin roluna diqqəti yönəldən Prezident İlham Əliyev qeyd etdi ki, məhz parlamentin fəaliyyəti nəticəsində ölkənin qanunvericilik bazası ən yüksək meyarlara cavab verir, parlament demokratik inkişaf siyasətinin aparılmasında çox böyük rola malikdir. Dövlət başçısı bildirdi:

"Azərbaycan parlamenti ölkəmizdə çoxpartiyalı sistemin təkmilləşdirilməsində önəmli rol oynayır. Parlamentdə bir çox partiyaların nümayəndələri fəaliyyət göstərir və əlbəttə ki, onların müxtəlif məsələlərə fərqli baxışları var. Ancaq mən çox şadam ki, milli maraqlarla bağlı məsələlərdə bizim deputatlar bir nöqtəyə vurur və vətənpərvərlik göstərərək Azərbaycan dövlətinin maraqlarını beynəlxalq müstəvidə müdafiə edirlər".[270]

Parlament diplomatiyasının milli maraqlara xidmət etdiyini vurğulayan dövlət başçısı Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətlərin dünyaya çatdırılmasında, beynəlxalq təşkilatlarda Azərbaycanın haqlı mövqeyinin müdafiəsində deputatların fəal iş aparmasını təqdirəlayiq hal kimi qiymətləndirərək dedi:

"Azərbaycan deputatları bir çox parlamentlərarası assambleyalarda ölkəmizdə gedən proseslər, iqtisadi, siyasi islahatlarla bağlı Azərbaycan həqiqətlərini çatdırır, lazım olan vaxtda Azərbaycanı çox ciddi müdafiə edir, haqq-ədaləti bərpa edir, imkan vermirlər ki, Azərbaycana qarşı əsassız ittihamlar hansısa qərarlara gətirib çıxarsın.

Əlbəttə ki, Azərbaycan deputatlarının fəaliyyətinin əsas istiqaməti Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dünya birliyinə, öz həmkarlarına həqiqətlərin çatdırılmasıdır. Mən hesab edirəm ki, bu işdə çox böyük uğurlara nail olmuşuq. Son illərdə bir neçə təşkilat, o cümlədən Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli, beynəlxalq hüquqa söykənən, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qətnamələr qəbul etmişlər və bu sahədə fəaliyyət davam etdiriləcək".[271]

269 Yenə orada, s. 6.
270 Yenə orada, s. 7.
271 Yenə orada.

Ölkənin müasir dövrdə iqtisadi, hərbi, mədəni sahələrdə əldə etdiyi uğurların dövlət müstəqilliyinin möhkəmləndirilməsinə xidmət etdiyini Prezident belə vurğuladı:

"...Azərbaycan dünya xəritəsində bir uğur nümunəsidir. Bu gün Azərbaycan tam müstəqil siyasət aparır. Qeyd etdiyim bütün məsələlər – istər xarici siyasətlə, daxili siyasətlə, iqtisadiyyatla bağlı olan bütün nailiyyətlər bu məqsədə xidmət göstərir ki, bizim müstəqilliyimiz daha da möhkəmlənsin... ...bu gün tam şəkildə müstəqil siyasət aparan Azərbaycan öz milli maraqlarını tam şəkildə təmin edir".[272]

Dövlət başçısının nitqindən sonra Azərbaycan parlamentinin 100 illik tarixini əks etdirən qısa sənədli film nümayiş etdirildi.

Təntənəli iclasda çıxış edən Bolqarıstan Milli Assambleyasının sədri, Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisinin sədri, Pakistan İslam Respublikası Senatının sədri, Belarus Respublikası Nümayəndələr Palatasının sədri, Küveyt Millət Məclisinin sədri, Qırğızıstan Respublikası parlamentinin sədri, Bəhreyn Nümayəndələr Şurasının sədri, Cibuti Milli Assambleyasının sədri, Sudan Milli Assambleyasının sədri, ATƏT PA-nın sədri, Rusiya Dövlət Dumasının sədr müavini, Misir Nümayəndələr Palatası sədrinin birinci müavini, Qazaxıstan Respublikası Senatının sədr müavini, Çex Respublikası parlamentinin Deputatlar Palatasının sədr müavini, Tacikistan Respublikası Nümayəndələr Palatası sədrinin birinci müavini, İndoneziya Nümayəndələr Palatasının sədr müavini, Macarıstan Respublikası Milli Assambleyasının sədr müavini, Monteneqro parlamentinin sədr müavini, Monteneqro-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, Polşa Senatının sədr müavini, Serbiya parlamentinin sədr müavini, Özbəkistan parlamentinin sədr müavini, Vyetnam Milli Assambleyasının sədr müavini, Avstriya Milli Şurasının üzvü, Avstriya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, Böyük Britaniya parlamentində Azərbaycan üzrə dostluq qrupunun rəhbəri, Fransada Azərbaycan Dostları Assosiasiyasının prezidenti, İordaniya, Hindistan, İtaliya, Litva, Livan, Malta, Slovakiya, Sloveniya, Əlcəzair, Birləşmiş Ərəb Əmirlikləri parlamentlərinin üzvləri, Avropa Parlamentinin, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının nümayəndələri Milli Məclisin fəaliyyətini, parlamentlərarası əlaqələrin inkişafına verdiyi töhfəni yüksək qiymətləndirərək Azərbaycan parlamentinin 100 illiyinin təntənəli şəkildə qeyd olunmasını mühüm hadisə kimi dəyərləndirdilər.[273]

Müsəlman Şərqinin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyinin bayram edilməsinin tarixi əhə-

272 Yenə orada, s. 12-13.
273 Yenə orada, s. 24-89.

miyyəti var idi. Bu, zəngin dövlətçilik ənənələri olan Azərbaycan xalqının tarixi keçmişinə hörmət və ehtiramla yanaşdığını göstərirdi.

Bakı şəhərinin 1918-ci il sentyabrın 15-də yadelli qüvvələrdən azad edilməsinin 100 illiyi münasibətilə Azərbaycan və Türkiyə hərbçilərinin iştirak etdiyi parad keçirildi. Bu parad birliyin və qardaşlığın növbəti təzahürü oldu.

10.4. İslahatların dərinləşdirilməsi

Ötən illər ölkə həyatında geniş, hərtərəfli, sürətli islahatlar ili olmuşdu. Prezident İlham Əliyevin rəhbərliyi altında ölkənin sabit və təhlükəsiz inkişafı təmin edilmiş, ardıcıl islahatlar aparılmaqla sosial-iqtisadi tərəqqiyə nail olunmuş, iqtisadiyyatın bütün istiqamətlərində, xüsusilə qeyri-neft sektorunda artım müşahidə edilmiş, ənənəvi kənd təsərrüfatı sahəsinin səmərəliliyinin artırılması, dirçəldilməsi, turizmin inkişafı, əhalinin məşğulluğunun yaxşılaşdırılması üçün tədbirlər həyata keçirilmişdi. Dünyada qlobal maliyyə və iqtisadi böhranın hökm sürdüyü şəraitdə Azərbaycan iqtisadi rəqabət qabiliyyətinə görə Davos Dünya İqtisadi Forumunun hesabatında 140 ölkə sırasında 35-ci yerə yüksəlmiş və MDB məkanında liderliyini qoruyub saxlamışdı. Azərbaycanın təşəbbüskarı olduğu iri miqyaslı neft və qaz layihələrinin uğurla həyata keçirilməsi, "Əsrin müqaviləsi"nin müddətinin uzadılması ilə bağlı yeni sazişin imzalanması, həmçinin Avropa ilə Asiyanı birləşdirən dünya əhəmiyyətli Bakı – Tbilisi – Qars dəmiryolu xəttinin istifadəyə verilməsi böyük hadisələr olmuşdu. Bu yol Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilmişdi. Multikultural və tolerant dəyərlərə sadiq ölkə kimi tanınan Azərbaycanda 2017-ci il İslam həmrəyliyi ili çərçivəsində keçirilmiş dünya miqyaslı ictimai, mədəni tədbirlər, mötəbər beynəlxalq forumlar, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi və təşkilatçılığı ilə ölkənin uğurla ev sahibliyi etdiyi IV İslam Həmrəyliyi Oyunları dünya ictimai rəyinə təsir etmişdi. Azərbaycan dövlətinin geosiyasi və geoiqtisadi mövqeləri möhkəmlənmişdi.

Yerli özünüidarəetmə haqqında Avropa xartiyasına uyğun olaraq demokratik quruluşun əsaslarından biri olan yerli özünüidarəetmənin inkişafı, bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində zəruri tədbirlər görülmüş və yeni normativ hüquqi aktlar qəbul olunmuşdu. Yeni kadrların yüksək vəzifələrə irəli çəkilməsinin əhəmiyyəti barədə dövlət başçısı deyirdi:

"Müasir dünyagörüşlü, müasir iqtisadiyyatı bilən, savadlı gənc kadrlar işə cəlb edilməlidir. Biz XXI əsrdə yaşayırıq, köhnə təfəkkürlə, köhnə biliklərlə gələcəyə necə gedə bilərik? Nə qədər biz təbii resurslara arxalanaraq, necə deyərlər, belə ətalət

yolu ilə gedə bilərik? Bilirik ki, əgər hər hansı dövlət və ya özəl quruma təmiz, bilikli və Vətənə bağlı kadr gətirilirsə, biz orada dərhal dəyişiklikləri görürük".[274]

2018-ci ildə keçirilən prezident seçkilərindən sonra ölkə islahatların həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinə görə yeni mərhələsinə qədəm qoymuşdu. Azərbaycan Respublikasının icra, qanunvericilik və məhkəmə hakimiyyəti strukturlarında islahatlar sistemli, məqsədyönlü və zaman etibarı ilə çevik şəkildə həyata keçirilməyə başlanmışdı. Dövlət idarəçiliyini ləngidən qurumların ləğvi, dövlət siyasətinin çevik şəkildə həyata keçirilməsindən ötrü müasir və çevik strukturların təşkili, dövlət büdcəsinin əlavə yükdən azad edilməsi üçün büdcədən maliyyələşdirilən bir sıra qurumların publik hüquqi şəxsə çevrilməsi, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri, kadr dəyişiklikləri bu siyasətin əsas mahiyyətini təşkil edirdi. Bu islahatlar vətəndaş-dövlət münasibətlərini də möhkəmləndirirdi.

Nazirlər Kabinetində ciddi kadr islahatları aparıldı. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının iqtisadi məsələlər şöbəsinin müdiri və Prezidentin iqtisadi məsələlər üzrə köməkçisi işləyən Əli Əsədov [275] 2019-cu ilin oktyabrında Baş nazir vəzifəsinə təyin edildi.

Struktur islahatları dərinləşdirildi. Vergilər Nazirliyinin, Əmlak Məsələləri Dövlət Komitəsinin ləğv edilərək xidmət kimi İqtisadiyyat Nazirliyinə birləşdirilməsi iqtisadi sahədə vahid idarəetmə sistemini təmin etdi. İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, kölgə iqtisadiyyatı ilə mübarizə istiqamətində görülən işlər öz bəhrəsini verməyə başladı. İslahatlar büdcə daxilolmalarını xeyli artırdı, iqtisadiyyatın sürətli inkişafına imkan verdi. Aparılan islahatlar tezliklə həm iqtisadi yüksəlişdə, həm də əhalinin sosial həyatında öz əksini tapdı.

2019-cu ilin sonlarından etibarən dünyanı bürüyən koronavirus pandemiyası şəraitində Azərbaycan iqtisadi inkişafını qoruyub saxlaya bildi. Neft və xarici ticarət gəlirlərinin azalmasına baxmayaraq, kölgə iqtisadiyyatı ilə mübarizə tədbirləri nəticəsində sosial-iqtisadi tarazlığı təmin etmək mümkün oldu. 2020-ci ilin birinci yarısında iqtisadiyyatın 2,7%, o cümlədən, qeyri-neft sektorunda əlavə dəyərin 2,5% azalmasına baxmayaraq, İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə daxilolmalar proqnozdan 327 milyon manat və yaxud 8,9% çox oldu. 2019-cu ildə qeyri-neft sektorunun özəl bölməsində əməkhaqqı fondu 29,1% artmışdırsa və əhalinin gəlirlərinin artım sürətini 3,9 dəfə üstələyirdisə, 2020-ci ilin birinci rübündə ötən ilin eyni döv-

274 Azərbaycan Prezidenti: "Köhnə təfəkkürlə, köhnə biliklərlə gələcəyə necə gedə bilərik?" // URL: http:www.aztv.az/az/news/2132/azerbaycan-prezidenti-eli-esedov-uzun-iller-menim-komekcim-olub.

275 Əli Əsədov (1956) – Azərbaycan Respublikasının 10-cu Baş naziri (2019-cu ildən).

rü ilə müqayisədə artım davam edərək 23,6% oldu. Bu isə əhalinin gəlirlərinin artım sürətindən 3,5 dəfə çox idi.

İqtisadi sahədə olduğu kimi, sosial sahədə də aparılan islahatlar əhalinin rifah halının yaxşılaşdırılmasına, hər bir vətəndaşın daha rahat və keyfiyyətli həyat yaşamasına xidmət edirdi. Sosial müdafiə və aktiv məşğulluq tədbirlərinin gücləndirilməsi ilə yanaşı, sosial sahədə xidmətlərin vahid mərkəzdən şəffaf, operativ və əlçatan şəkildə təşkilinə yönələn zəruri islahatlar aparıldı. Dövlət başçısının 2018-ci il 9 avqust tarixli fərmanı əsasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST (Dayanıqlı və Operativ Sosial Təminat) Agentliyi yaradıldı və DOST mərkəzlərinin tikintisinə başlanıldı. 2025-ci ilə qədər paytaxtda və respublikanın regionlarında 31 belə mərkəzin yaradılması nəzərdə tutulmuşdu. DOST layihəsi əmək, məşğulluq, sosial müdafiə, əlillik, reabilitasiya sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu sahələrdə şəffaflığın artırılması və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədi daşıyırdı. Prezident İlham Əliyev bu sahədə görülən işlər barədə deyirdi:

"Bildiyiniz kimi, Azərbaycan bu sahədə də liderlik göstərir və "DOST" mərkəzlərinin fəaliyyətə başlaması sosial sahədə görülən işlərin, aparılan islahatların əyani təzahürüdür".[276]

Dövlət rəhbərinin müvafiq fərmanlarına uyğun olaraq əmək, məşğulluq, sosial müdafiə sahələrində elektron xidmətlərin genişləndirilməsindən ötrü vacib addımlar atıldı. Ölkədə ilk dəfə sosial reyestri formalaşdıran, vətəndaşlara onlarla bağlı əmək müqavilələri, məşğulluq, pensiya kapitalı, mənzil və avtomobil növbəsi, əlillik, reabilitasiya və s. üzrə məlumatlara bir ünvanda çıxış imkanı verən e-sosial internet portalı yaradıldı.

"Pensiyaçının dostu" proqramı hazırlanaraq işə salındı və bununla da elektron texnologiyalar üzərində şəffaf və operativ pensiya təyinatı mexanizmi quruldu. Sosial sahədə geniş miqyas alan elektronlaşdırma proqramı çərçivəsində 2019-cu ildə 2-si pensiya, 19-u müavinət-təqaüd növü olmaqla, 21 sosial təminat növünün e-təyinat sistemi işə salındı.

Qısa müddət ərzində Azərbaycan hökumətində, ordu sistemində, hüquq-mühafizə və gömrük orqanlarında, nəqliyyat, rabitə, yeni texnologiyalar, energetika, kənd təsərrüfatı, turizm, kosmik sənaye və digər sahələrdə, yerli icra hakimiyyəti strukturlarında aparılan ciddi dəyişikliklər və islahatlar nəticəsini verməyə başladı.

276 Azərbaycan sosial təşəbbüslərdə də liderlik göstərir. İlham Əliyev: "DOST mərkəzlərinin fəaliyyətə başlaması sosial sahədə görülən işlərin, aparılan islahatların əyani təzahürüdür" // "Azərbaycan" qəzeti, 2020, 20 may.

10.5. Növbədənkənar parlament seçkiləri

Qanunverici orqanın ölkədə aparılan islahatlara uyğunlaşdırılmasını təmin etmək məqsədi ilə Yeni Azərbaycan Partiyasından olan deputatların təşəbbüsü ilə parlamentin özünü buraxması məsələsi gündəliyə gəldi. 2019-cu il noyabrın 28-də Yeni Azərbaycan Partiyası Siyasi Şurasının bir saat davam edən iclasında V çağırış Milli Məclisin buraxılması barədə dövlət başçısına müraciət edilməsinə dair qərar qəbul olundu. Parlamentin dekabrın 2-də keçirilən iclasında həmin təklif dəstəkləndi və dövlət başçısına müraciət ünvanlandı. Elə həmin gün Prezident İham Əliyev müraciəti Konstitusiya Məhkəməsinə göndərdi. Konstitusiya Məhkəməsi dekabrın 4-də keçirilən iclasında təklifin konstitusiyaya uyğun olduğu barədə qərar qəbul etdi. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 dekabr tarixli sərəncamı ilə parlament seçkiləri 2020-ci il fevralın 9-na təyin edildi.[277]

Milli Məclisə VI çağırış seçkilər majoritar seçki sistemi ilə fevralın 9-da keçirildi. Seçkilərdə iştirak etmək üçün 2431 nəfər müraciət etmişdi. 1637 nəfər qeydə alınsa da, yanvarın 31-dək onlardan 312-si namizədliyini geri götürdü. Nəticədə namizədlərin sayı 1325-ə endi. 360 nəfər 19 siyasi partiyanı təmsil edirdi. Ən çox namizədlə Yeni Azərbaycan Partiyası təmsil olunurdu. Partiya 123 namizəd irəli sürmüşdü. Seçkilərdə Müsavat Partiyasından 60, Milli Dirçəliş Hərəkatı Partiyasından 33, Real Cümhuriyyətçilər İttifaqından 31, Ümid Partiyasından 21, İslahatlar Naminə Açıq Media Blokundan 21, Ağ Partiyadan 20, Hərəkət Seçki Blokundan 18, Ana Vətən Partiyasından 14, Azərbaycan Demokrat Partiyasından 10, Azərbaycan Milli İstiqlal Partiyasından 9, Müasir Müsavat Partiyasından 5 namizəd mübarizə aparırdı. Böyük Quruluş Partiyası, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Böyük Azərbaycan Partiyası, Azərbaycan Təkamül Partiyası, Azərbaycan Sosial Rifah Partiyası, Vəhdət Partiyası, Demokratik İslahatlar Partiyası, Azərbaycan Liberal Demokrat Partiyası, Azərbaycan Demokratik Maarifçilik Partiyası və digərlərindən də seçkidə iştirak edən namizədləri var idi.

Təbliğat-təşviqat kampaniyasının müddəti 20 gün idi. Namizədlərin seçicilərlə görüşlər keçirməsi üçün açıq və qapalı yerlər müəyyənləşdirilmişdi.

Seçkinin nəticələrinə görə, Yeni Azərbaycan Partiyasından 70 nəfər, müstəqillərdən 41 nəfər deputat seçildi. Qalan yerləri digər partiyalar qazandı.

277 Beşinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/35112.

Müəyyən pozuntulara yol verildiyi üçün 4 dairədə seçkilərin nəticələri ləğv edildi. Həmin dairələrdə ilkin nəticələrə görə, qalib elan edilmiş şəxslərdən iki nəfəri siyasi mənsubiyyətinə görə YAP üzvü, ikisi isə müstəqil idi. Mərkəzi Seçki Komissiyası 80 saylı İmişli-Beyləqan seçki dairəsi, 74 saylı Lənkəran kənd seçki dairəsi, 35 saylı Xətai üçüncü seçki dairəsi, 33 saylı Xətai birinci seçki dairəsində, ümumilikdə ölkə üzrə 328 seçki məntəqəsində seçki nəticələrini ləğv etdi.

Parlament seçkiləri ölkənin seçki tarixinə demokratik, azad və şəffaf seçkilərdən biri kimi daxil oldu. Parlamentin ilk iclasında Sahibə Qafarova [278] Milli Məclisin sədri seçildi. Sədrin müavinləri, komitə sədrləri və müavinləri də seçildi. Onların arasında digər siyasi partiyaların və müstəqillərin nümayəndələri var idi.

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, bir sıra daxili və beynəlxalq şərtlər səbəbindən ölkədə 2018-ci il aprelin 11-də prezident seçkiləri keçirilmişdir. Çoxlu namizədin iştirak etdiyi, bərabər imkanların yaradıldığı seçkilərdə seçicilər görkəmli dövlət və siyasi xadim İlham Əliyevi yenidən Azərbaycan Respublikasının Prezidenti seçmişdir. Xalq sabit, davamlı inkişafa və tərəqqiyə səs vermişdir. Andiçmə mərasimində etdiyi nitqində dövlət başçısı keçilən yolu, mövcud vəziyyəti dərindən təhlil etmiş və ölkə qarşısında dayanan vəzifələri bəyan etmişdir. Bir daha əmin olunmuşdur ki, hakimiyyətin ölkənin bütün sahələrdə inkişafına dair konkret planları mövcuddur.

Naxçıvan Muxtar Respublikası ərazisində uğurla həyata keçirilən Günnüt əməliyyatı nəticəsində bir sıra starteji yüksəkliklər düşmən işğalından azad edilmişdir.

2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi tamam olmuşdur. Cümhuriyyətin yubileyinin keçirilməsi barədə Azərbaycan Respublikasının Prezidenti sərəncam imzalamışdır. Sərəncama uyğun olaraq ölkədə geniş tədbirlər həyata keçirilmişdir. Bu münasibətlə mayın 28-də Heydər Əliyev Mərkəzində qəbul təşkil edilmişdir. Nitq söyləyən ölkə rəhbəri Cümhuriyyətin qurulması, fəaliyyəti, süquta uğraması, sovet dövründə Azərbaycanın keçdiyi yol, Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında 1990-cı il noyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiya iclasında dövlət bayrağı kimi qəbul edilməsi, dövlət müstəqilliyinin bərpasından sonra ölkədə baş verən prosesləri geniş təh-

278 Sahibə Qafarova (1955) – Azərbaycan Respublikası Milli Məclisinin Sədri (2020-ci ildən).

lil etmişdir. 100 illik yubileyin keçirilməsi Cümhuriyyət irsinə diqqət və qayğının göstəricisi olmuşdur.

Cümhuriyyət parlamentinin 100 illik yubileyinə həsr edilmiş təntənəli iclas 2018-ci il sentyabrın 21-də Milli Məclisdə keçirilmişdir. Dünyanın müxtəlif ölkələrindən parlament sədrlərinin və nümayəndə heyətlərinin iştirak etdiyi iclasda nitq söyləyən Prezident İlham Əliyev müsəlman Şərqinin ilk demokratik respublikasının fəaliyyətini və dövlət müstəqilliyinin bərpasına gətirən yolu təhlil etmiş, Ümummilli lider Heydər Əliyevin xidmətlərini vurğulamışdır.

Prezident İlham Əliyevin rəhbərliyi altında ölkədə dərinləşdirilən ardıcıl struktur və kadr islahatları bəhrəsini vermişdir. İqtisadiyyatda inkişafa nail olunmuş, əhalinin həyat şəraiti yaxşılaşdırılmış və vətəndaş-dövlət münasibətləri daha da möhkəmlənmişdir.

Qanunvericilik orqanını aparılan islahatlara uyğunlaşdırmaq üçün hakim partiyanın tələbinə uyğun olaraq Milli Məclis buraxılmış, 2020-ci il fevralın 9-da majoritar qaydada növbədənkənar parlament seçkiləri keçirilmişdir. Seçkilər nəticəsində Yeni Azərbaycan Partiyasının nümayəndələri mandat sayında çoxluq qazanmışlar. İkinci yeri müstəqil namizədlər tutmuşdur. Parlamentdə digər partiyaların da namizədləri təmsil olunmuşdur. Qanunverici orqanın sədrinin müavinləri, komitə sədrləri və müavinləri vəzifələrinə müstəqillərin və digər siyasi partiyaların nümayəndələri də seçilmişdir. Bu, ölkədə yeni siyasi mədəniyyətin formalaşması üçün atılan addımlardan biri olmuşdur. Milli Məclisin ilk iclasında nitq söyləyən dövlət başçısı ölkənin və parlamentin qarşısında dayanan vəzifələri dərindən təhlil etmişdir. Bildirmişdir ki, qarşıda dayanan başlıca vəzifə Azərbaycanın təcavüzkar Ermənistan tərəfindən işğal edilmiş torpaqlarının azad edilməsidir.

11-ci FƏSİL

ERMƏNİSTANIN MÜNAQİŞƏNİN DİNC YOLLARLA TƏNZİMLƏNMƏSİNDƏN İMTİNA ETMƏSİ

11.1. Münaqişənin həlli istiqamətində diplomatik-siyasi fəaliyyət

Azərbaycan dövlətinin xarici siyasətinin başlıca istiqaməti Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsini həll etmək idi. Hələ 2003-cü il oktyabrın 31-də keçirilən andiçmə mərasimindəki nitqində Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin ölkə qarşısında dayanan ən ağır problem olduğunu belə ifadə etmişdi:

"Bu məsələ öz həllini tapmalıdır. Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".[279]

Ermənistan münaqişənin nizama salınmasına dair BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrini yerinə yetirmir və işğalı "oldu-bitdi" kimi qəbul etdirməkdən ötrü danışıqlar prosesini uzadırdı.

Minsk qrupunun təşəbbüsü ilə 2004-cü ildən etibarən "Praqa prosesi" çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında birbaşa danışıqlar başladı. Ermənistan münaqişəyə son qoymaq istəməsə də, Azərbaycan dövləti diplomatik səylərini artırdı. 2005-ci il yanvarın 25-də Avropa Şurası Parlament Assambleyasının qəbul etdiyi 1416 saylı qətnamədə Azərbaycan ərazisinin böyük bir hissəsinin işğal olunduğu təsdiqlənir, etnik düşmənçilik və onu

279 Əliyev İ.H. Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə əlaqədar andiçmə mərasimində nitq // İnkişaf– məqsədimizdir. 2-ci kitab. Bakı, 2009, s. 10-11.

müşayiət edən hərbi əməliyyatlar nəticəsində çoxlu sayda insanın qovulması və etnik təmizləmə kimi dəhşətli konsepsiyanı xatırladan monoetnik ərazilərin yaradılmasından narahatlıq ifadə edilirdi. Sənəddə Avropa Şurasının üzvü olan bir dövlətin digər dövlətin ərazisini işğal etməsinin həmin dövlətin üzvlük öhdəliklərinin kobud şəkildə pozuntusu olduğu açıq şəkildə bəyan edilir, münaqişə zonasından didərgin düşmüş şəxslərin təhlükəsiz və ləyaqətlə öz evlərinə geri qayıtmaq hüququ bir daha təsdiq olunurdu. Parlament Assambleyası münaqişə tərəflərini BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini yerinə yetirməyə, xüsusilə də işğal olunmuş ərazilərdən hərbi qüvvələri çıxarmağa çağırırdı.[280]

Azərbaycan Respublikasının təşəbbüsü ilə BMT Baş Assambleyasının 59-cu sessiyasının gündəliyinə daxil edilmiş "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı bəndinin nəzərdən keçirilməsi məqsədilə 2005-ci il yanvarın 30-dan fevralın 5-dək Minsk qrupunun faktaraşdırıcı missiyası işğal olunmuş ərazilərə səfər etdi. İşğal olunmuş ərazilərdə əhalinin köçürülmə proseslərini aşkarlayan missiya Azərbaycanın bu məsələ ilə bağlı narahatlığını təsdiqlədi və müvafiq hesabat hazırladı. Minsk qrupunun həmsədrləri "danışıqlar yolu ilə nizamlamaya nail olmaq üçün gələcək səyləri daha da çətinləşdirdiyi"ndən işğal edilmiş ərazilərin demoqrafik strukturunda dəyişikliklərdən çəkinməyin zəruri olduğunu bildirdilər. Bununla əlaqədar olaraq həmsədrlər bəyan etdilər:

"İşğal olunmuş ərazilərdə [məskunlaşanlar] daha çox qaldıqca, onların indiki yaşayış yerlərinə bağlılıqları dərinləşəcəkdir" və "bu vəziyyətin uzun müddət davam etməsi sülh prosesini ciddi şəkildə çətinləşdirəcək fait accompli (oldu-bitdi) vəziyyətinə gətirib çıxara bilər".[281]

Minsk qrupunun həmsədr ölkələrinin xarici işlər nazirlərinin müavinləri 2006-cı ilin may ayında bölgəyə səfər etdilər.[282] Səfərin nəticəsi olaraq həmin il iyunun 22-də həmsədrlər ATƏT-in Daimi Şurasına təqdim etdikləri məruzədə danışıqların münaqişənin bütün aspektlərinin bir dəfəyə həlli əvəzinə daha asanlıqla razılaşdırılan məsələlərdə irəliləyişin əldə olunması və çətin məsələlərin gələcək danışıqlara saxlanılması əsasında davam etdirməyi tövsiyə etdilər.

Rusiyanın təklifi ilə 2007-ci il iyunun 9-da Azərbaycan və Ermənistan prezidentləri MDB iştirakçısı olan ölkələrin dövlət başçılarının toplantısı çərçivəsində

280 AŞPA Sənəd 1416 (2005): [Elektron resurs] // Virtual Qarabağ. URL: https: www.virtualkarabakh.az/az/post-item/32/124/aspa-sened-1416-2005.html.

281 Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü. Münaqişənin həlli prosesi (1991-2020): [Elektron resurs]. // Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəsmi internet sayt. URL: https:mfa.gov.az/az/category/munaqisenin-helli-prosesi-1991-2020.

282 Əliyev İ.H. Minsk qrupunun həmsədri olan dövlətlərin nümayəndə heyəti ilə görüş // İnkişaf–məqsədimizdir. 17-ci kitab. Bakı, 2014, s. 154.

Sankt-Peterburqda görüşdülər.[283] Lakin Ermənistan tərəfi münaqişənin həllində konstruktiv mövqe tutmadı. Qeyd etmək lazımdır ki, bütövlükdə 2003-2007-ci illərdə Azərbaycan və Ermənistan prezidentləri arasında 9 görüş keçirilmişdi.

Vasitəçilərin təklifi ilə münaqişənin tənzimlənməsində yumuşaltma mühiti yaratmaq məqsədilə Azərbaycan və Ermənistan ziyalılarının bir qrupunun Bakı və İrəvana, həmçinin işğal edilmiş ərazilərə səfərləri təşkil edildi. Minsk qrupunun həmsədrləri 2007-ci il iyulun 13-də bəyanat verərək digər məsələlərlə yanaşı, Azərbaycan və Ermənistanın bir qrup ziyalısının Bakı və İrəvana, eləcə də Azərbaycanın işğala məruz qalmış bölgələrinə birgə səfərinin təşkili təşəbbüsünü ilk konkret etimad quruculuğu tədbiri kimi alqışladı və təqdir etdi. Buna baxmayaraq, Ermənistanın pozucu mövqeyi səbəbindən belə səfərlər sonradan davam etdirilmədi.

ATƏT-in xarici işlər nazirlərinin 2007-ci ilin noyabrında İspaniyanın paytaxtı Madriddə keçirilən konfransında Minsk qrupu həmsədrləri Azərbaycan və Ermənistana Praqa prosesində bərpa edilmiş Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həllinin baza prinsiplərinə əsaslanan təşəbbüs irəli sürdülər. Mərhələli həllə əsaslanan təşəbbüs Kəlbəcər rayonu və Ermənistanla Dağlıq Qarabağ regionunu birləşdirən Laçın dəhlizi də daxil olmaqla Azərbaycan torpaqlarından erməni qüvvələrinin mərhələli şəkildə çıxarılmasını, əvvəllər işğal olunmuş ərazilərin hərbsizləşdirilməsini, beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsini, ərazilərin minalardan təmizlənməsini, yenidənqurma işlərinin və münaqişənin təsirini aradan qaldırmaq üçün tədbirlərin görülməsini, məcburi köçkünlərin evlərinə qaytarılması prosesinin sürətləndirilməsini, regionun gələcək statusunu müəyyən etmək üçün referendumun keçirilməsini nəzərdə tuturdu.

Tərəflər bir sıra məsələlərdə razılığa gəlsələr də, Azərbaycan dövləti Dağlıq Qarabağ regionunun tamamilə ayrılmasına qarşı çıxdı. 2008-ci il oktyabrın 24-də İlham Əliyev prezident kimi ikinci dəfə andiçmə mərasimində etdiyi nitqində birmənalı olaraq bildirdi ki, Azərbaycanın ərazi bütövlüyü danışıqların mövzusu deyil, olmayıb və heç vaxt olmayacaqdır, Dağlıq Qarabağa heç vaxt – nə bu gün, nə sabah, nə 10 ildən sonra, nə 50 ildən sonra müstəqillik verilməyəcəkdir, Azərbaycan bunu heç vaxt tanımayacaqdır.

Beləliklə, Azərbaycan münaqişənin tənzimlənməsinə dair qəti mövqeyini bəyan etdi. Azərbaycan dövləti işğal altında olan torpaqlarını bütün vasitələrlə azad və ərazi bütövlüyünü isə təmin etmək əzmində idi.

283 Əliyev İ.H. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sankt-Peterburqa səfəri // İnkişaf– məqsədimizdir. 25-ci kitab. Bakı, 2015, s. 5-6.

Bundan sonra Rusiyanın təşəbbüsü ilə Azərbaycan, Ermənistan və Rusiya prezidentləri 2008-ci il noyabrın 2-də Moskva bəyannaməsini imzaladılar.[284] Bəyannamədə münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, eləcə də bu çərçivədə qəbul edilmiş qərar və sənədlər, o cümlədən BMT Təhlükəsizlik Şurasının, həmçinin BMT Baş Məclisinin 2006 və 2008-ci illərdəki qətnamələri əsasında nizamlanmalı olduğu göstərilir, münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan həllinin regionda iqtisadi inkişaf və hərtərəfli əməkdaşlıq üçün əlverişli şərait yaradacağı bəyan olunurdu.

Münaqişənin tənzimlənməsindən ötrü aparılan danışıqlar 2009-cu ildə intensivləşdi. Minsk qrupunun həmsədrlərinin iştirakı ilə Ermənistan və Azərbaycan prezidentlərinin 6, xarici işlər nazirlərinin isə 3 dəfə keçirilən görüşü nəticəsiz oldu. "Böyük səkkizlər"in həmin il iyulun 10-da İtaliyanın Akvil şəhərində keçirilən zirvə görüşündə həmsədr dövlətlərin prezidentlərinin birgə bəyanatında Ermənistan və Azərbaycan prezidentlərinə 2007-ci ilin noyabr tarixli Madrid sənədinin yenilənmiş versiyasının təqdim edilməsi barədə vasitəçilərə tapşırıq verildiyi bildirilirdi. Yenilənmiş Madrid prinsipləri Dağlıq Qarabağ regionunun ətraf ərazilərinin Azərbaycanın nəzarətinə qaytarılmasını, Dağlıq Qarabağa təhlükəsizlik və özünüidarə hüququnu təmin edən müvəqqəti statusun verilməsini, Dağlıq Qarabağla Ermənistanı birləşdirən dəhlizin yaradılmasını, Dağlıq Qarabağın yekun hüquqi statusunun gələcəkdə müəyyən edilməsini, bütün məcburi köçkünlərin və qaçqınların öz keçmiş yaşayış yerlərinə qayıtmaq hüququnu, sülhməramlı əməliyyatların daxil olduğu beynəlxalq təhlükəsizlik zəmanətini nəzərdə tuturdu.

ATƏT Nazirlər Şurasının Afinada 2009-cu il dekabrın 1-2-də keçirilən 17-ci iclası zamanı Minsk qrupunun həmsədr ölkələrinin nümayəndələri – Rusiya və Fransanın xarici işlər nazirləri, eləcə də ABŞ dövlət katibinin müavini birgə bəyanatla çıxış etdilər. Nazirlər Şurası da münaqişəyə dair bəyanat qəbul etdi. Hər iki bəyanatda münaqişənin nizamlanması prosesinin vacib elementləri kimi tərəflər arasında imzalanmış Moskva bəyannaməsi və Helsinki Yekun Aktında təsbit olunmuş baza prinsiplərinə istinad olunurdu.

Münaqişənin həllinə dair danışıqlar 2009-cu ilin dekabrında Minsk qrupu həmsədrləri tərəfindən təqdim edilmiş yenilənmiş Madrid prinsipləri əsasında aparıldı. Rusiya Prezidenti Dmitri Medvedevin vasitəçiliyi ilə Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının prezidenti 2010-cu

284 Əliyev İ.H. Azərbaycan, Ermənistan və Rusiya prezidentləri bəyannamə imzalamışlar // İnkişaf–məqsədimizdir. 33-cü kitab. Bakı, 2016, s. 306.

il yanvarın 25-də Soçidə,[285] iyunun 17-də Sankt-Peterburqda[286] və oktyabrın 27-də Həştərxanda[287] görüşdülər. Tərəflər hərbi əsir və girovların, həmçinin, atəşkəs rejiminin pozulması nəticəsində həlak olmuş şəxslərin cəsədlərinin qaytarılmasına dair birgə bəyanat qəbul etdilər. Danışıqlardan sonra işğalçı Ermənistan Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov və digər hərbçi Fərid Əhmədovun cəsədlərini geri qaytardı. Qeyd etmək lazımdır ki, gizir Mübariz İbrahimov 2010-cu il iyunun 18-də gecə Tərtər rayonunun Çaylı kəndi yaxınlığında bir kilometrlik minalanmış ərazini keçərək təkbaşına 5 saatlıq döyüşdə işğalçı ordunun çox sayda əsgər və zabitini məhv etmişdi. Düşmən onun meyitini geri vermirdi. Baş leytenant Fərid Əhmədov isə 2010-cu il sentyabrın 3-dən 4-nə keçən gecə həmin rayonun Çiləbürt kəndi yaxınlığındakı döyüşdə şəhid olmuş və nəşi düşmən tərəfdə qalmışdı.

Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında 2010-cu ildə 5 görüş keçirildi: iyulun 17-də Almatıda, noyabrın 6-da Moskvada, noyabrın 19-da Lissabonda, noyabrın 22-də və dekabrın 22-də Moskvada.[288] Lakin bu görüşlər də işğalçı ölkənin qeyri-əməli mövqeyindən münaqişənin tənzimlənməsində irəliləyişə gətirmədi.

Minsk qrupu həmsədr dövlətləri başçılarının 2010-cu il iyunun 26-da Kanadanın Muskoka şəhərində qəbul etdikləri bəyanatda işğal altındakı ərazilərin azad edilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması kimi addımları nəzərdə tutan mərhələli həll modelinin əhəmiyyəti qeyd olunurdu. İşğal edilmiş ərazilərdə Ermənistanın davam edən qeyri-qanuni fəaliyyətləri, o cümlədən qanunsuz məskunlaşdırma, bu ərazilərin iqtisadi istismarı və viran edilməsi barədə Azərbaycanın müraciəti əsasında Minsk qrupu həmsədrləri işğal edilmiş ərazilərdə ümumi vəziyyətin qiymətləndirilməsi məqsədilə həmin ilin oktyabrın 7-12-də Sahə Qiymətləndirmə Missiyasını həyata keçirdilər. Missiya Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin məskunlaşdırılması siyasətinin davam etdirildiyini, həmçinin infrastruktur dəyişikliklərinin və qanunsuz iqtisadi fəaliyyətlərin həyata keçirildiyini bir daha aşkarladı. Hesabatda işğal olunmuş ərazilərdə status-kvonun qəbul olunmazlığı və bütün qanunsuz fəaliyyətlərə son qoyulmasının vacibliyi bildirilirdi.

285 Əliyev İ.H. Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin birgə görüşü // İnkişaf–məqsədimizdir. 39-cu kitab. Bakı, 2017, s. 226.
286 Əliyev İ.H. Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin görüşü // İnkişaf–məqsədimizdir. 41-ci kitab. Bakı, 2017, s. 132.
287 Əliyev İ.H. Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin görüşü // İnkişaf–məqsədimizdir. 43-cü kitab. Bakı, 2017, s. 33.
288 Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü. Münaqişənin həlli prosesi (1991-2020): [Elektron resurs] // Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəsmi internet saytı. URL: https:mfa.gov.az/az/category/munaqisenin-helli-prosesi-1991-2020.

ATƏT-in dövlət və hökumət başçılarının 2010-cu il dekabrın 1-2-də Qazaxıstanın Astana şəhərində keçirilən zirvə görüşündə[289] Minsk qrupu həmsədr ölkələrinin nümayəndə heyətlərinin başçıları, Azərbaycan və Ermənistan prezidentləri tərəfindən qəbul olunmuş birgə bəyanatda münaqişənin beynəlxalq hüququn prinsip və normaları, BMT nizamnaməsi, Helsinki Yekun Aktı, həmsədr dövlətlərin prezidentlərinin Akvil və Muskoka bəyanatları əsasında həllinin vacibliyi vurğulanırdı.[290]

Rusiya Prezidenti Dmitri Medvedevin dəvəti ilə Ermənistan və Azərbaycan prezidentləri 2011-ci il martın 5-də Soçidə[291] və iyunun 24-də Kazanda[292] görüşdülər. Görüşlər Ermənistanın status-kvonu davam etdirməsi və "fait accompli" – "oldu-bitdi" vəziyyətini yeritməsi səbəbindən nəticəsiz başa çatdı.

Dmitri Medvedevin təşəbbüsü ilə 2012-ci il yanvarın 23-də Ermənistan və Azərbaycan prezidentlərinin Soçidə keçirilən yeni görüşündə qəbul olunmuş birgə bəyanatda yekun sülh sazişinə dair işin başlanmasının vacibliyi vurğulanır, bu məqsədlə prezidentlərin baza prinsipləri haqqında razılaşmanı sürətləndirməyə hazır olduqları qeyd edilirdi.[293] Lakin Ermənistan tərəfi imzasına yenə də hörmət etmədi.

Azərbaycan dövləti səylərini artırdı. Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov[294] 2012-ci il sentyabrın 27-də BMT Baş Assambleyasının 67-ci sessiyası çərçivəsində Minsk qrupu həmsədrləri ilə görüşündə işğal olunmuş ərazilərdən Ermənistan silahlı qüvvələrinin çıxarılmamasının və status-kvonun uzadılması cəhdlərinin danışıqlar prosesində durğunluq yaratdığını, işğalçı ölkənin status-kvonun saxlanması üçün bütün bəhanələrə əl atdığını bildirdi. Minsk qrupu həmsədrləri öz ölkələrinin prezidentlərinin verdiyi bəyanatlarını bir daha təsdiq edərək, status-kvonun qəbuledilməz olduğunu vurğuladılar. Azərbaycanın xarici işlər naziri Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində qaldığı müddətdə regionda sülhün, təhlükəsizliyin və sabitliyin təhdid altında olacağını həmsədrlərin diqqətinə bir daha çatdırdı.

Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsinin iştirakı ilə Azərbaycan və Ermənistanın xarici işlər nazirləri-

289 Əliyev İ.H. ATƏT-in VII sammitində iştirak // İnkişaf – məqsədimizdir. 43-cü kitab, s. 260-263.
290 Kəngərli R. Azərbaycan beynəlxalq təşkilatlarda Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətləri daim ön plana çəkir // "Xalq qəzeti", 2012, 17 noyabr.
291 Əliyev İ.H. Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin görüşü // İnkişaf – məqsədimizdir. 44-cü kitab. Bakı, 2017, s. 295.
292 Əliyev İ.H. Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin birgə görüşü // İnkişaf – məqsədimizdir. 46-cı kitab. Bakı, 2017, s. 251.
293 Əliyev İ.H. Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin birgə görüşü // İnkişaf – məqsədimizdir. 49-cu kitab. Bakı, 2017, s. 261.
294 Elmar Məmmədyarov (1960) - Azərbaycan Respublikasının 6-cı xarici işlər naziri (2004-2020).

nin 2012-ci il oktyabrın 27-də Parisdə keçirilən görüşündə münaqişə ətrafındakı vəziyyətdən narahatlıq bildirildi, mövcud status-kvonun dəyişdirilməsinin zəruriliyi və münaqişənin həlli prosesində yaranmış durğunluqdan çıxış yolları müzakirə edildi. Status-kvonun qəbulolunmazlığı 2013-cü il martın 4-də Azərbaycanın xarici işlər nazirinin Minsk qrupu həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi ilə görüşündə də vurğulandı. Azərbaycanın xarici işlər naziri Ermənistanın qeyri-konstruktiv mövqeyinin münaqişənin həllinə mane olduğunu qeyd edərək, sülh prosesinin irəliləməsindən, regionda sülh və sabitliyin bərqərar olunmasına zəmin yaradılmasından ötrü Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasının zəruri olduğunu bildirdi.

Minsk qrupu həmsədrlərinin, Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə 2013-cü il mayın 17-də Polşanın Krakov şəhərində keçirilən görüşdə danışıqlar prosesinin irəliləməsi üçün mümkün yollar müzakirə edildi. Xarici işlər nazirləri ilə barışıq mühitinin yaradılmasına zəmin yaradacaq mümkün tədbirləri müzakirə edən həmsədrlər sülh prosesinə zərbə vuracaq və gərginliyi artıra biləcək çağırış və addımlardan çəkinməyin zəruriliyini bir daha təkrarladılar.

Azərbaycan və Ermənistan prezidentlərinin 2013-cü il noyabrın 19-da Vyanada keçirilən görüşündə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi də iştirak edirdi. Prezidentlər təkbətək görüşdə, sonra isə həmsədrlərin və nazirlərin iştirakı ilə aparılan məsləhətləşmələrdə münaqişənin nizamlanmasına dair məsələləri müzakirə edərək gələcək danışıqlara təkan vermək barədə razılığa gəldilər, sülh prosesinin intensivləşdirilməsi üçün daha əvvəl görülən iş əsasında xarici işlər nazirlərinə həmsədrlərlə birlikdə işi davam etdirməyi tapşırdılar.

ATƏT Nazirlər Şurasının 2013-cü il dekabrın 4-də keçirilən 21-ci iclası çərçivəsində Azərbaycanın xarici işlər naziri Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə görüşərək münaqişənin həllinə dair danışıqlar prosesi və həmsədrlərin qarşıdan gələn ildə bu istiqamətdə plan və təkliflərini müzakirə etdi. Azərbaycan tərəfi qəti mövqeyini bir daha təkrarlayaraq vurğuladı ki, Ermənistanın silahlı qüvvələri işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmalıdır.

Münaqişənin tənzimlənməsindən ötrü Azərbaycan və Ermənistan prezidentləri 2014-cü ildə üç dəfə görüşdülər. Birinci görüş Rusiya Prezidentinin vasitəçiliyi ilə avqustun 10-da Soçi şəhərində,[295] ikincisi ABŞ-ın dövlət katibi-

295 Əliyev İ.H. Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin birgə görüşü // İnkişaf–məqsədimizdir. 64-cü kitab. Bakı, 2018, s. 133-135.

nin vasitəçiliyi ilə sentyabrın 4-də Uelsin Nyuport şəhərində,[296] üçüncüsü isə Fransa Prezidentinin vasitəçiliyi ilə oktyabrın 27-də Paris şəhərində[297] oldu. Lakin az sonra işğalçı Ermənistan yenidən təxribatlara əl ataraq işğal olunmuş Azərbaycan ərazilərində genişmiqyaslı hərbi təlimlər keçirdi. Bu təxribat cavabsız qalmadı. Azərbaycan silahlı qüvvələrinin mövqelərinə qarşı təxribat həyata keçirən Ermənistanın helikopterlərindən biri vuruldu. Bununla Azərbaycan hərb meydanında qəti iradəsinin olacağını nümayiş etdirdi.

Azərbaycanın xarici işlər naziri 2014-cü il iyulun 22-də Brüsseldə Avropa İttifaqının Şərq tərəfdaşlığı proqramına daxil olan ölkələrin xarici işlər nazirlərinin toplantısı çərçivəsində Minsk qrupu həmsədrləri ilə görüşərək münaqişənin həlli prosesinin sürətləndirilməsi yollarını müzakirə etdi.

Minsk qrupu həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə 2015-ci il yanvarın 27-də Polşanın Krakov şəhərində görüşən Azərbaycanın xarici işlər naziri münaqişənin həllinin uzanmasının regionda davamlı sülh və sabitliyin bərqərar olmasına əngəl olduğunu qeyd etdi və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasının vacibliyini vurğuladı. Ermənistan siyasi rəhbərliyinin danışıqlar prosesində qeyri-konstruktiv mövqe tutduğunu bildirən xarici işlər naziri və Minsk qrupunun münaqişənin nizamlanması prosesində fəallığının artırılmasının vacibliyini qeyd etdi.

Həmsədrlərin 2015-ci il fevralın 16-da Bakıya səfəri zamanı Azərbaycanın xarici işlər naziri ilə keçirilən görüşdə münaqişənin həllinə dair danışıqlar prosesi ətrafında fikir mübadiləsi aparıldı. Azərbaycan tərəfi atəşkəsin pozulması hallarından danışarkən ilk növbədə, beynəlxalq hüquq və BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin tələblərinə uyğun olaraq, həmsədrlər tərəfindən Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılmasının tələb olunmasının vacibliyini vurğuladı.

Azərbaycanın xarici işlər naziri 2015-ci il iyunun 1-də ATƏT-in fəaliyyətdə olan sədri, Serbiya baş nazirinin birinci müavini və xarici işlər naziri İvitsa Daçiçi ilə görüşərək münaqişənin yalnız beynəlxalq hüququn norma və prinsipləri, xüsusilə beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət və BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi əsasında həllinin mümkün olacağını nəzərə çatdırdı. BMT Baş Məclisinin 70-ci sessiyası çərçivəsində Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin həmin il sentyabrın 25-də Minsk qrupu həmsədrləri və ATƏT-in fəaliyyətdə olan

296 Əliyev İ.H. Azərbaycan, Ermənistan prezidentlərinin və ABŞ Dövlət Katibinin birgə görüşü // İnkişaf– məqsədimizdir. 64-cü kitab, s. 257.

297 Əliyev İ.H. ATƏT-in Minsk Qrupunun həmsədrləri və Ermənistan Prezidenti Serj Sarkisyan ilə görüş // İnkişaf– məqsədimizdir. 65-ci kitab. Bakı, 2018, s. 292.

sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə keçirilən görüşündə Azərbaycan tərəfi münaqişənin həllinə dair mövqeyini bir daha vurğuladı.

ATƏT-in fəaliyyətdə olan sədrinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin rəhbərlik etdiyi nümayəndə heyətini 2016-cı il martın 17-də qəbul edərkən Azərbaycanın xarici işlər naziri münaqişənin həllindən ötrü aparılan danışıqlar haqqında məlumat verdi, Ermənistanın əsl məqsədinin müxtəlif təxribatçı əməllərlə danışıqlar prosesinə xələl gətirmək, işğal və təcavüzə əsaslanan mövcud status-kvonu davam etdirmək və sonda Azərbaycan ərazilərini ilhaq etmək olduğunu bildirdi. Nəzərə çatdırdı ki, Ermənistan tərəfi insidentlərin araşdırılması kimi texniki məsələni qəsdən gündəmə gətirməklə münaqişənin həllindən diqqəti yayındırmağa çalışır.

Keçirilən bütün görüşlərdə Azərbaycan tərəfi münaqişənin həlli üçün aşağıdakı zəruri şərtləri həmsədrlərin diqqətinə çatdırırdı: BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində göstərildiyi kimi, Ermənistan Azərbaycana qarşı hərbi təcavüzünə son qoymalı və silahlı qüvvələrini Azərbaycanın işğal olunmuş bütün ərazilərindən çıxarmalıdır; Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi təmin olunmalıdır.

Münaqişənin tənzimlənməsindən boyun qaçıran işğalçı ölkə bu zaman təxribatlarını davam etdirirdi. Qeyd edildiyi kimi, 2016-cı ilin aprelində Ermənistanın təxribatına cavab verən Azərbaycan Ordusu düşmənə ağır zərbə endirərək strateji əhəmiyyətli Lələtəpə yüksəkliyini azad etmişdi. Bu, bir daha göstərmişdi ki, Azərbaycan bütün vasitələrlə ərazilərini işğaldan azad etmək əzmindədir.

BMT Baş Məclisinin 71-ci sessiyası çərçivəsində Azərbaycanın xarici işlər naziri 2016-cı il sentyabrın 22-də Minsk qrupu həmsədrləri ilə keçirdiyi görüşündə danışıqların intensivləşdirilməsinə dair müzakirələr apardı. Azərbaycan tərəfi Ermənistanın təxribatçılıq əməllərinin, o cümlədən işğal olunmuş Ağdam rayonunda həyata keçirdiyi hərbi təlimlərin danışıqlar prosesini pozmaq məqsədi daşıdığını bildirdi.

Minsk qrupu həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi ilə 2017-ci il iyunun 19-da keçirdiyi görüşündə Azərbaycanın xarici işlər naziri dayanıqsız və qəbuledilməz olan status-kvonun dəyişdirilməsi üçün mahiyyəti üzrə danışıqların aparılmasının zəruriliyini vurğuladı. Ermənistanın təmas xəttində törətdiyi son təxribatlara diqqəti çəkərək, bu kimi təxribatların vəziyyəti məqsədyönlü şəkildə gərginləşdirdiyi və danışıqlar prosesini pozduğu qeyd edildi. Azərbaycan tərəfi Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində həyata keçirdiyi qanunsuz iqtisadi və digər fəaliyyətlər, mədəni irs abidələrinin məhv edilməsi və qeyri-qanuni uçuşların təşkil edilməsi

kimi məsələlərə toxundu. Bildirildi ki, işğal olunmuş ərazilərdə həyata keçirilən belə fəaliyyətlər münaqişənin həllinə dair danışıqlara ciddi maneədir.

BMT Baş Məclisinin 72-ci sessiyası çərçivəsində Azərbaycanın xarici işlər naziri 2017-ci il sentyabrın 23-də ATƏT-in baş katibi ilə görüşərək münaqişəyə dair danışıqlar prosesinin son vəziyyətinə dair ətraflı məlumat verdi, Minsk qrupu həmsədrləri və bütün beynəlxalq ictimaiyyətin mövcud status-kvonun qəbuledilməz və dayanıqsız olması faktını qəbul etdiyini diqqətə çatdırdı, münaqişənin həllində irəliləyişə nail olmaq üçün Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən çıxarılmalı, güc tətbiq edərək dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin dəyişdirilməsi cəhdlərinin qəbuledilməz olduğunu vurğuladı. Münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, eləcə də BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında həll edilməli olduğunu bir daha qeyd etdi. Azərbaycan və Ermənistan xarici işlər nazirləri sentyabrın 25-də Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirakı ilə görüşsələr də, irəliləyiş əldə edilmədi.

Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin 2018-ci il iyulun 11-də Brüsseldə keçirilən görüşündə münaqişənin həllinə dair danışıqlar prosesi müzakirə olundu. Lakin Ermənistan hər vəchlə münaqişənin tənzimlənməsini uzadırdı. Minsk qrupu həmsədrləri və bəzi Qərb ölkələri də ərazilərin işğalı nəticəsində yaradılmış mövcud vəziyyəti Azərbaycana qəbul etdirməyə çalışsalar da, istəklərinə nail ola bilmədilər.

11.2. Nikol Paşinyan hökumətinin siyasi avantüraları

Azərbaycanın 2016-cı ilin aprelində qazandığı hərbi qələbə Ermənistanda mövcud böhranı daha da dərinləşdirmişdi. Yaranmış şərait hakimiyyəti ələ almaq istəyən, xüsusən bütün dünyada "rəngli inqilablar"ın himayədarı hesab edilən "Soros Fondu"nun təsiri altında olan siyasi qüvvələr üçün əlverişli imkan yaratmışdı. Onlar xalqın narazılığından, ölkədə yaranmış gərgin sosial-psixoloji vəziyyətdən, hərbi xuntaya olan nifrətdən istifadə edərək hərəkətə keçmiş və "rəngli inqilab" avantürist bir şəxsin - Nikol Paşinyanın[298] baş nazir kürsüsünü ələ keçirməsinə gətirib çıxarmışdı.

298 Nikol Paşinyan (1975) – Ermənistan Respublikasının baş naziri (2018-ci ildən...).

Armen Sarkisyanın[299] prezident vəzifəsinə yiyələnməsindən sonra Serj Sarkisyanın özünü Baş nazir təyin etdirməsi fonunda Ermənistanda ABŞ və Avropanın bir sıra qurumlarının qeyri-rəsmi maliyyə yardımları ilə müəyyən proseslər baş vermişdi. Hələ 2012 və 2017-ci illərdə Ermənistan Milli Assambleyasına keçirilən seçkilərdə deputat seçilən N.Paşinyan qatı anti-Rusiya mövqeyindən çıxış etmişdi. S.Sarkisyanın Baş nazir vəzifəsini tutmasına kəskin etiraz edən N.Paşinyan Qərbin bəzi ölkələrinin qurduğu xüsusi mexanizmləri sayəsində 2018-ci il aprelin 12-də Ermənistanda başlayan etirazların başçısına çevrilmişdi. Etirazlar nəticəsində aprelin 23-də Baş nazir S.Sarkisyan istefa vermişdi. Mayın 8-də N.Paşinyan Ermənistanın 16-cı Baş naziri olmuşdu. Bundan sonra Prezident A.Sarkisyan parlamenti buraxmış və dekabrın 9-da vaxtından əvvəl parlament seçkilərinin keçirilməsinə dair fərman imzalamışdı. Seçkidə N.Paşinyanın "Mənim addımım" bloku 70,43% səs qazanmışdı. 2019-cu il yanvarın 14-də o, yenidən Ermənistanın baş naziri olmuşdu.

N.Paşinyanın qəbul etdiyi müəmmalı qərarlar və gördüyü tədbirlər iqtisadi böhran içində olan Ermənistanda şəraiti daha da ağırlaşdırdı. Nəticədə ermənilərin ümidləri az vaxt keçməmiş puça çıxdı. Küçə demokratlarının əsl kimliyi aydınlaşmağa başladıqca vəziyyət daha da pisləşdi. Ölkə kriminallaşdığı üçün sahibkarlar ölkəni tərk edir, siyasətlə məşğul olan şəxslər təqib edilir, repressiyaya məruz qalır, hətta erməni siyasətində güclü rol oynayan kilsə və hakimiyyət arasında ziddiyyətlər kəskinləşirdi. Sadə insanlar da katolikosun istefasını tələb edirdilər. Azərbaycanın işğal olunmuş ərazilərində, Xankəndidə iki klan arasında mübarizə gedirdi.

Ermənistanda baş verən hadisələr, daxili narazılığın artması ölkəni dərin uçuruma aparırdı. Sosial zəmində keçirilən aksiyaların sayı artır və hökumət qarşısında daha sərt tələblər qoyulurdu. "Rəngli inqilab"ın ilk aylarında N.Paşinyana inanaraq arxasınca gedən adamlar onun da ölkəni ağır iqtisadi şəraitdən çıxarmaq qabiliyyətində olmadığını gördüyündən etiraz edirdilər.[300]

N.Paşinyanın Azərbaycanın işğal edilmiş əraziləri haqqında fikirləri bir neçə dəfə dəyişmişdi. 2018-ci ilin aprelində N.Paşinyan dedi:

"Qarabağ məsələsi dialoq vasitəsilə həll olunmalıdır. Siz bilirsiniz ki, Azərbaycan... özünü çox aqressiv aparır və bu hal danışıq üçün mənfi fon yaradır. İndi elə təsəvvür yaranır ki, Azərbaycanın məqsədi Ermənistanın və Dağlıq Qarabağın kapitulyasiyasıdır. Bu ki cəfəngiyyatdır, bu ki qeyri-konstruktivdir. Və mən düşünürəm ki, ilk növbədə dialoq, danışıqlar üçün müvafiq atmosfer yaratmaq lazımdır....Dağlıq Qarabağ məsələsi dialoq vasitəsilə həll olunmalıdır və biz

299 Armen Sarkisyan (1953) – Ermənistan Respublikasının 4-cü Prezidenti (2018...).

300 Hacıyev Q., Kəlbizadə E., Eyvazov A., İsmayılova T., Əzmizadə A., İmaməli Ş. Ermənistan: daxili sosial-iqtisadi və siyasi şərait. Bakı, 2017, s. 95.

kiminsə bu məsələni güc tətbiqiylə çözmək qərarında olduğu qənaətinə gəlməyə əsas verən ritorikanı istisna etməliyik" .[301]

Qarabağ klanının ciddi təzyiqləri ilə üzləşən və Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış hərbi xuntanın nəzarətdən çıxacağını görən N.Paşinyan 2018-ci ilin may ayında işğal edilmiş ərazilərə gələrək Xankəndidə təxribatçı bəyanat verib, danışıqların formatını dəyişdirmək niyyətini ortaya qoydu. Baş nazir münaqişəyə dair danışıqlarda yalnız Ermənistanın adından danışmağa hazır olduğunu bildirdi. Xarici jurnalistlər üçün keçirdiyi mətbuat konfransında o, danışıqların mövcud formatının məsələni həll edə bilməyəcəyini, guya münaqişənin "əsas tərəflərindən biri"nin danışıqlarda iştirak etmədiyini belə ifadə etdi:

"Məsələnin həllinin başlıca komponenti danışıqların düzgün formatda aparılmasıdır".[302]

Daha sonra bildirdi:

"Mənim Qarabağ tənzimlənməsinə dair bəyanatlarımda çox ciddi yeniliklər vardır, ən ciddisi ondadır ki, mən Azərbaycan Prezidenti ilə Ermənistan Respublikası adından danışıqlar aparmağa hazıram, Artsax Respublikası adından isə danışıqları respublika prezidenti simasında Artsax hakimiyyəti aparmalıdır".[303]

Bu avantürist bəyanatı ilə faktiki olaraq illər boyu tərəflər, beynəlxalq təşkilatlar və vasitəçi dövlətlər tərəfindən qəbul edilmiş danışıqların formatını dəyişdirməyə cəhd edən N.Paşinyan qondarma rejimi tanıtdırmağa çalışırdı. O, Xankəndidəki çıxışı zamanı dedi:

"Buna yalnız o zaman gedə bilərlər ki, erməni tərəflərinə Azərbaycandan Bakının Artsax xalqının öz müqəddəratını həll etmək hüququnu tanımağa hazır olduğu haqqında konkret siqnal verilsin".[304]

N.Paşinyanın belə avantürist açıqlamalarını qətiyyətlə rədd edən Azərbaycan tərəfi hələ hakimiyyətdə möhkəmlənməmiş bu siyasətçinin hansısa təzyiqlər altında belə fikirlər səsləndirə biləcəyini də başa düşürdü. Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin verdiyi bəyanatda ümid edilirdi ki, Ermənistanın yeni siyasi rəhbərliyi sələflərinin səhvlərini təkrar etməyəcək və sülh şəraitində yaşamaq üçün sivil münasibətlər qurmağa çalışacaqdır. Bəyanatda daha sonra yazılırdı:

301 Nikol Paşinyan: "Qarabağ məsələsi dialoq vasitəsilə həll olunmalıdır". 30.04.2018 // BBC. URL: www.bbc.com/azeri/region-43908211.
302 Paşinyan Xankəndidə Qarabağ münaqişəsinin həlli barədə danışıb. 09.05.2018 // BBC. URL: www.bbc.com/azeri/international-44030272.
303 Yenə orada.
304 Yenə orada.

"...Azərbaycan ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə mövcud gündəlik əsasında münaqişənin tezliklə həlli üçün substantiv danışıqlara hazırdır".[305]

N.Paşinyan Tacikistanın paytaxtı Düşənbədə 2018-ci il sentyabrın 28-də keçirilən MDB Dövlət Başçıları Şurasının iclasında Prezident İlham Əliyevlə qeyri-rəsmi söhbət zamanı daxili məsələlərin həlli üçün möhlət istədi, təmas xəttində və Ermənistan-Azərbaycan dövlət sərhədində gərginliyin azaldılmasını xahiş etdi. Bu xahişdən sonra sərhəddə hər iki tərəfdən gərginliyə və insidentlərə yol verməmək məqsədilə konkret tədbirlər görmək üçün müdafiə nazirlərinə tapşırıq verildi. N.Paşinyan görüşlə bağlı sosial şəbəkə hesabları vasitəsi ilə paylaşdığı yazılarında bildirdi:

"Ümid edirəm ki, əldə etdiyimiz razılaşmalara əməl olunar. Bu razılaşmaların vacibliyini hamı anlayır və biz öz tərəfimizdən bu razılaşmanın səmərəliliyi üçün əlimizdən gələni edərik".[306]

MDB dövlət başçılarının Sankt-Peterburqda keçirilən qeyri-rəsmi zirvə toplantısı çərçivəsində İlham Əliyev və N.Paşinyan 2018-ci il dekabrın 6-da görüşərək Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair fəal danışıqların davam etdirilməsinə və atəşkəs rejiminin möhkəmləndirilməsinə dair müzakirələr apardılar. Azərbaycan tərəfinin qəti mövqeyi ondan ibarət idi ki, işğala əsaslanan status-kvo tezliklə dəyişdirilməlidir.

2019-cu il yanvarın 22-də Davos Dünya İqtisadi Forumu çərçivəsində Prezident İlham Əliyevin və baş nazir N.Paşinyanın qeyri-rəsmi görüşü oldu. Görüşdən sonra Minsk qrupu həmsədrləri fevralın 20-dən 23-dək Ermənistana və Azərbaycana səfər edərək ölkə rəhbərləri ilə görüşdülər. Həmsədrlər Azərbaycan və Ermənistan liderlərinin gözlənilən görüşünə dair martın 9-da bəyanat yayaraq bildirdilər ki, münaqişənin ədalətli və davamlı həlli Helsinki Yekun Aktının əsas prinsipləri - xüsusən də gücdən istifadə etməklə təhdid etməmək, ərazi bütövlüyü, bərabər hüquqluluq, xalqların öz müqəddəratını təyin etməsi üzərində qurulmalıdır, bu həmçinin 2009-2012-ci illərdə həmsədr ölkələrin prezidentləri tərəfindən təklif edilən əlavə elementləri də ehtiva etməlidir. Həmin elementlərə Dağlıq Qarabağ bölgəsi ətrafındakı ərazilərin Azərbaycanın nəzarətinə qaytarılması, Dağlıq Qarabağa təhlükəsizliyi və özünüidarəetməni təmin edən müvəqqəti statusun verilməsi, Ermənistanı Dağlıq Qarabağla birləşdirən dəhliz, Dağlıq Qarabağın yekun hüquqi statusunun müəyyən edilməsi, qaçqınların və məcburi köçkünlərin yaşayış yerlərinə qayıtma

305 Hikmət Hacıyev: Ümid edirik ki, Ermənistanın yeni siyasi rəhbərliyi sələflərinin səhvlərini təkrar etməyəcək // "Azərbaycan" qəzeti, 2018, 9 may.

306 Nikol Paşinyan Düşənbədə İlham Əliyevlə nədən danışıb?. 29.09.2018 // https:www.bbc.com/azeri/region-45690851.

hüququnun və sülhməramlı əməliyyatların daxil olduğu beynəlxalq təhlükəsizliyin təmin edilməsi kimi məsələlər daxil idi. Həmsədrlər hesab edirdilər ki, bu prinsiplər və elementlər münaqişənin ədalətli və davamlı həlli üçün bünövrə kimi qəbul edilməlidir. Bəyanatda o da qeyd edilirdi ki, prinsiplərin və ya elementlərin birinin digərindən üstün tutulmasına yönəlmiş hər hansı cəhd tarazlaşdırılmış sülhə nail olmağı imkansız edəcəkdir.

Prezident İlham Əliyev və baş nazir N.Paşinyanın martın 29-da Vyanada keçirilən görüşündə münaqişənin tənzimlənməsi məsələsi yenidən müzakirə edildi. Baş nazir danışıqlar yoluna sadiq olduğunu bildirsə də, az sonra tədricən əvvəlki Ermənistan rəhbərlərindən daha avantürist, dağıdıcı, davakar mövqe tutdu. Onunla bərabər digər şəxslər də davakar bəyanatlarla çıxış etməyə başladılar. Vyanada görüş keçirilən gün Ermənistanın müdafiə naziri David Tonoyan[307] Nyu Yorkdakı erməni icmasının nümayəndələri ilə görüşdə "sülh üçün ərazilər" formulunun artıq mövcud olmadığını, erməni tərəfinin bunu "yeni ərazilər üçün yeni müharibə" formulu ilə əvəz etdiyini bildirdi.[308] Belə mövqe təcavüzkar ölkənin Azərbaycan ərazilərini boşaltmaq istəmədiyini, yeni torpaqları işğal etmək niyyətlərini və hazırlıqlarını göstərirdi.

Azərbaycanın işğal edilmiş ərazilərinə 2019-cu ilin may ayında gələn N.Paşinyan tarix boyunca türk-müsəlman ruhunu daşımış, Azərbaycanın mədəniyyət paytaxtı olmuş Şuşada keçirilən tədbirlərdə iştirak etdi, sərxoş vəziyyətdə Cıdır düzündə yallı getməklə Ermənistan siyasi elitasının əsl əxlaqi və mənəvi simasını nümayiş etdirdi. Belə davranışlar Azərbaycan xalqının milli heysiyyətini təhqir etmək, Azərbaycan dövlətini təxribata çəkmək niyyəti güdürdü. O, bir qədər də irəli gedərək 2019-cu ilin avqustunda Ümumerməni Oyunları keçirilən zaman Xankəndiyə gələrək Ermənistanın Dağlıq Qarabağ regionuna əsassız iddiasını indiyədək erməni rəsmilərinin söyləmədiklərini açıqlığı ilə bəyan etdi. İdman tədbirinin açılışında çıxış edən N.Paşinyan "Dağlıq Qarabağın Ermənistanın olması" barədə aşağıdakı sərsəm fikirlərini səsləndirdi:

"Əminəm, indi sizdən çoxları soruşur ki, bəs nə üçün Artsax haqqında heç nə deyilmir? Cavabı aydındır. Çünki Artsax Ermənistandır, vəssalam!".[309]

Nitqində bir neçə dəfə "Artsax Ermənistandır, vəssalam" ifadəsini səsləndirən N.Paşinyan həmçinin dedi ki, Ermənistan və "Dağlıq Qarabağ hökumətləri"

307 David Tonoyan (1967) – Ermənistanın müdafiə naziri (2018-2020).

308 Kucera J. After peace negotiations, threats of war break out between Armenia and Azerbaijan: [Electronic resource] // Euroasia.net. -2019, April 1. URL: https://eurasianet.org/after-peace-negotiations-threats-of-war-break-out-between-armenia-and-azerbaijan

309 Nikol Paşinyanın Xankəndidəki nitqi (Azərbaycan dilində tam versiyası). 19.08.2019 // Ermənistan İctimai Radiosunun Rəsmi Facebook Səhifəsi. URL: www.facebook.com/449619228915322/videos/2400912910189516/.

üçün "yalnız Ermənistan və Qarabağ xalqları tərəfindən təqdir edilən danışıqların yekunları əsasında qəbul olunmuş istənilən həll məqbul hesab edilə bilər".[310]

Bu çıxış başdan-başa avantüra idi. Çünki "Qarabağ xalqı" mövcud deyildi və dünya birliyi işğal olunmuş bütün əraziləri Azərbaycanın tərkib hissəsi kimi tanıyırdı. Belə sərsəm bəyanat danışıqlardan imtina etmək anlamına gəlirdi.

Ermənistanın təcavüzkar və işğalçı mövqeyini bir daha təsdiqləyən bu çıxış, ölkəsinin gələcək inkişafına dair səsləndirdiyi fikirlər də N.Paşinyanın konkret məqsədini nümayiş etdirirdi. Baş nazir dedi:

"...nəinki milyonlarla diaspora ermənilər vətənə dönməlidir, həm də diasporada yaşayan, erməni kimliyini itirmiş milyonlarla ermənilər gərək yenidən erməni mənliyi, erməni məsələsi ilə maraqlansınlar və onun həyatına cəlb olunaraq erməni reallığına dönsünlər.

Beləliklə, ümumermənilyin növbəti hədəfləri gərək Ermənistanın inkişafında strateji məqsədləri həyata keçirtməklə bağlı olsun, bizim milli potensialımızı birləşdirsin. Bizim milli ehtiyatlarımızı həmin məqsədlərə çatmaq üçün mərkəzləşdirsin.

Bu gün ümumilli müzakirəyə həmin strateji məqsədlərin iş versiyasını təqdim etmək istəyirəm ki, onları da Ermənistan Respublikası 2050-ci ilə kimi həll etməyi bacarmalıdır. 2050-ci ilədək aşağıdakı məsələləri həll etməliyik:

1. *Ermənistan əhalisini ən azı beş milyona çatdırmaq.*
2. *1 milyon 500 min iş yeri yaratmaq.*
3. *2 milyon yarım insanın məşğulluq problemini həll edib yoxsulluğu aradan qaldırmaq.*
4. *Ermənistanı sənaye ölkəsinə çevirmək.*
5. *Ermənistanın Ümumi Daxili Məhsulunu 15 dəfə artırmaq.*
6. *15 milyard dolları aşan ən azı 5 erməni şirkəti, 10 min işləyən startapa malik olmaq.*
7. *Orta əmək haqqını 7 dəfə artırmaq.*
8. *Ordunun döyüş hazırlığı göstəricisi ilə aparıcı ölkələrin ən azı iyirmiliyində yer almaq.*
9. *Dünyanın ən effektli 10 kəşfiyyat xidmətlərindən birinə malik olmaq.*
10. *Vətəndaşlara səhiyyə xidmətlərinə çıxışı tam təmin etmək.*
11. *Səhiyyə sahəsinin maliyyələşdirilməsini 20 dəfə artırmaq.*
12. *Təhsili milli həyat tərzi halına gətirmək, təhsil və elmin maliyyələşdirilməsini 20 dəfə artırmaq.*
13. *Ermənistana gələn turistlərin sayını 15 milyona çatdırmaq.*
14. *Ermənistan milli futbol komandasının Avropa və ya Dünya çempionatının medalçısı olmasını təmin etmək.*

310 Yenə orada.

15. 25 qızıl olimpiya medalı və dünya şahmat çempionu titulunu qazanmaq".[311]

Gerçəklikdən uzaq, ucuz populizmin göstəricisi olan bu vəzifələri reallaşdırmaqdan ötrü Ermənistanın imkanları və potensialı mövcud deyildi.

N.Paşinyan 2019-cu ilin sentyabrında Böyük Qarakilsə (Vanadzor) şəhərində keçirdiyi mətbuat konfransında Xankəndidə səsləndirdiyi cəfəng sözlərini yenidən təkrar edərək dedi ki, Azərbaycan danışıqlar prosesini ərazi bütövlüyü çərçivəsində aparmaq istəyir:

"Əgər Azərbaycan Qarabağın Azərbaycanın bir hissəsi olduğunu iddia edirsə, bu tələbində qətidirsə, onda Ermənistan da Qarabağın Ermənistan olduğunu deməlidir və nöqtə qoymalıdır".[312]

Bütün bunlar Ermənistan rəhbərliyinin avantürist yol tutduğunu, danışıqlardan boyun qaçırdığını və ölkəsini müharibəyə sürüklədiyini göstərirdi. Ermənistanın bu avantüralarına Azərbaycanın cavabı özünü çox da gözlətmədi.

11.3. Ermənistanın avantüralarına Azərbaycanın diplomatik-siyasi cavabları

Ermənistan Baş nazirinin təxribat xarakterli bəyanatlarının cavabını Prezident İlham Əliyev 2019-cu il oktyabrın 3-də Rusiyanın Soçi şəhərində keçirilən "Valday" beynəlxalq diskussiya klubunun 16-cı illik iclasının plenar sessiyasında verdi. Nitqində əvvəlcə münaqişənin tənzimlənmə problemlərindən danışan dövlət başçısı məsələnin daimi müzakirələrin mövzularından biri olduğunu deyərək vurğuladı ki, Rusiya ATƏT-in Minsk qrupunun həmsədridir və onun vasitəçilik üçün mandatı vardır. Dağlıq Qarabağ bölgəsinin və Azərbaycanın digər 7 rayonunun 25 ildən artıq Ermənistanın işğalı altında olduğunu diqqətə çatdıran Prezident ərazinin tarixinə də nəzər yetirərək dedi ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Sovet dövründə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılması məsələsi üzərində dayanan dövlət başçısı vurğuladı ki, bu münaqişə ilə əlaqədar çox vaxt reallığı əks etdirməyən fikir müxtəlifliyi vardır. Tarixi faktlara əsaslanan Prezident İlham Əliyev 1921-ci ildə Qafqaz Bürosunun qərarında Dağlıq Qarabağın çox vaxt erməni tərəfinin yalan şərh etdiyi kimi, Azərbaycana

311 Nikol Paşinyanın Xankəndidəki nitqi (Azərbaycan dilində tam versiyası). Ermənistan İctimai Radiosunun Rəsmi Facebook Səhifəsi // https:www.facebook.com/449619228915322/videos/2400912910189516/. [19.08.2019]

312 Paşinyan yenə təkrar etdi: "Qarabağ Ermənistandır və nöqtə". 17.09.2019 // https:www.yeniavaz.com/az/news/index/118946/pasinyan-yene-tekrar-etdi-qarabag-ermenistandir-ve-noqte.

verilməsi deyil, onun Azərbaycanın tərkibində qalması yazıldığını dedi. Dövlət başçısı bölgədə mövcud olmuş demoqrafik vəziyyəti aşağıdakı kimi təqdim etdi:

"Münaqişə başlayana qədər Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan azərbaycanlı və erməni əhalinin say nisbəti 25:75 faiz kimi olub. Münaqişə nəticəsində Dağlıq Qarabağdan, həmçinin digər 7 rayondan bütün azərbaycanlı əhali qovulub, başqa sözlə desək, orada etnik təmizləmə aparılıbdır. Bu gün də işğal olunmuş ərazilərdə azərbaycanlı əhali yoxdur və işğal olunmuş ərazilər, onların böyük bir hissəsi yandırılmış, dağıdılmış torpaqlar, viran qoyulmuş evlər, məktəblər, ictimai binalardır".[313]

Münaqişə nəticəsində Azərbaycan humanitar fəlakətlə üzləşmişdi. Bununla əlaqədar olaraq Prezident dedi ki, Dağlıq Qarabağ regionundan və Azərbaycanın işğal olunmuş digər ərazilərindən 700 mindən çox məcburi köçkün, müasir Ermənistan ərazisindən öz tarixi torpaqlarından isə azərbaycanlılar qovulmuşdur. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsinin 25 ildən artıq müddətdə yerinə yetirilmədiyinə diqqəti yönəldən dövlət başçısı dedi:

"Əgər 25 ildən çox müddətdə Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarlar yerinə yetirilmirsə, onda bu həmin təşkilatın səmərəliliyi ilə bağlı bir çox suallar doğurur. Azərbaycanda bizi qətnamələrin yerinə yetirilməsinin reallaşdırılmasının seçmə xarakteri narahat edir. Bəzən onlar bir neçə gün ərzində yerinə yetirilir, bəzən isə müəyyən hərbi əməliyyatların həyata keçirilməsində onlara, ümumiyyətlə, ehtiyac qalmır. Bizimlə bağlı məsələdə isə qətnamələr kağız üzərində qalır".[314]

Prezident İlham Əliyevin çıxışının növbəti hissəsi bilavasitə baş nazir N.Paşinyanın pozucu fəaliyyətinə həsr olunmuşdu. Dövlət başçısı konkret, aydın və qəti şəkildə dedi:

"Ermənistanın baş naziri son vaxtlar tez-tez təkrarlayır ki, münaqişənin həlli Azərbaycan xalqı, Ermənistan xalqı və Dağlıq Qarabağ xalqı üçün məqbul olmalıdır. İndi deməliyəm ki, «Dağlıq Qarabağ xalqı» məfhumu mövcud deyil. Dağlıq Qarabağın əhalisi var, münaqişə başlayana qədər bu, bərabər hüquqlara malik olan Azərbaycan və erməni əhalisindən ibarət idi. Azərbaycan üçün hansı həll variantının məqbul olmasına gəldikdə isə, o, Azərbaycanın bütün dünya tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa olunması, qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmasından ibarətdir. Bu, Təhlükəsizlik Şurasının qətnamələrinə və Helsinki Yekun Aktına uyğundur.

313 Əliyev İ.Ə. "Valday" beynəlxalq diskussiya klubunun 16-cı illik iclasının plenar sessiyasında iştirak // İnkişaf – məqsədimizdir. 96-cı kitab, s. 186.
314 Yenə orada, s. 187.

...Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də «Valday» Forumu çərçivəsində müvafiq cavab verilibdir. Beləliklə, bəyanat sözbəsöz belədir: «Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə». Birincisi, yumşaq şəkildə desək, bu yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".[315]

Dövlət rəhbərinin nitqində ərazilərin həm tarixi, həm də hüquqi olaraq Azərbaycana məxsusluğunu təsdiqləyən mötəbər faktlar daha bir beynəlxalq kürsüdən bəyan olundu. Əvvəlki nitqlərində olduğu kimi, Prezident İlham Əliyev BMT qətnamələrinin yerinə yetirilməsinin zəruriliyini dünya liderləri qarşısında irəli sürdü, Ermənistan Baş nazirinin "Qarabağ Ermənistandır. Nöqtə." sayıqlamasının qarşısında "Qarabağ Azərbaycandır. Nida işarəsi!" fikrini qətiyyətlə söylədi. Bu cavab Ermənistanın "diplomatik nokautu" idi.

Ermənistanın siyasi təxribatlarına növbəti cavab 2019-cu il oktyabrın 11-də Aşqabadda N.Paşinyanın da iştirak etdiyi MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə keçirilən iclasında verildi. Prezident İlham Əliyev Ermənistanın təcavüzkar və pozucu fəaliyyətini bir daha ifşa edərək, bu ölkədə faşizmin dövlət siyasətinə çevrildiyini belə ifadə etdi:

"Biz – dövlət başçıları faşistlərin qəhrəman kimi qələmə verilməsinin əleyhinə dəfələrlə çıxış etmişik. Təəssüf ki, MDB məkanında, xüsusən Ermənistanda belə hallar baş verir. Orada əvvəlki hakimiyyət İrəvanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib".[316]

Daha sonra Prezident əlavə etdi:

"Rusiya Federasiyasının müdafiə naziri Sergey Şoyqunun sədrliyi ilə Müdafiə Nazirliyinin baş redaksiya heyəti tərəfindən nəşr edilmiş 12 cildlik "1941-1945-ci illərin Böyük Vətən müharibəsi" ensiklopediyasının "Böyük Vətən müharibəsi illərində gizli müharibə, kəşfiyyat və əks-kəşfiyyat" adlı 6-ci cildində dərc edilmiş "Müharibənin son dövründə hərbi əks-kəşfiyyatın fəaliyyəti" adlı məqalədə deyilir: "Əks-kəşfiyyatçılar 114-cü Dromedar ober qrupu barəsində agentura işi çərçivəsində daşnak ordusunun keçmiş generalı, almanların yanında Njde ləqəbi ilə xidmət etmiş mühacir Ter-Arutyunyanı aşkar edib və həbsə alıblar. Böyük Vətən

315 Yenə orada, s. 187-188.

316 Əliyev İ.H. MDB Dövlət başçıları Şurasının məhdud tərkibdə keçirilmiş iclasında iştirak // İnkişaf – məqsədimizdir. 96-cı kitab, s. 246.

müharibəsi illərində o, Bolqarıstan ərazisində milliyyətcə erməni olan 30-dan çox agent cəlb etmiş, onların təxribat hazırlığında və pozucu fəaliyyət üçün sovet ordusunun arxa cəbhəsinə atılmasında iştirak etmişdir. SMERŞ qrupunun əməkdaşları olan 17 təxribatçı saxlanılıb, qalanları barədə axtarış elan edilibdir. Njde həm də Avropanın yəhudi əhalisinə qarşı Holokostda iştirak edib. 1942-ci ildə o, Sovet İttifaqına qarşı döyüşən erməni legionu təşkil edib. Yeri gəlmişkən, Njdenin əsas şüarı belə idi: "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur". Burada şərhə ehtiyac yoxdur. Njde həbs olunub və Vladimir həbsxanasında ömrünü başa vurubdur. 2016-cı ildə Ermənistan paytaxtının mərkəzində bu satqın cəllada hündürlüyü 6 metrə yaxın olan heykəl qoyulub. Təəssüf ki, Ermənistanın yeni hakimiyyəti bu heykəli sökməyib. Hesab edirəm ki, MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer yoxdur".[317]

N.Paşinyan Azərbaycan Respublikası Prezidentinin çıxışındakı tutarlı dəlillərə cavab verməyə uğursuz cəhd edərkən özünü gülünc vəziyyətə saldı:

"İlham Heydər oğlunun nitqindən belə təəssürat yaranır ki, ümumiyyətlə, bu müharibədə Hitler yalnız ikinci dərəcəli rol oynayıb və nasist hərəkatının lideri Qaregin Njde olub. Həqiqət isə budur ki, Qaregin Njde türk işğalına və türklərin təşkil etdikləri ermənilərin "soyqırımı"na qarşı mübarizə aparıb. Həqiqət ondan ibarətdir ki, Qaregin Njde, yeri gəlmişkən, 1918-ci ildə erməni-türk müharibəsi zamanı bir çox rusiyalı zabitlərlə birgə cəbhənin mühüm hissəsinə rəhbərlik edib. Mən bir daha qeyd etmək istəyirəm ki, bizim tarixi hadisələrə obyektiv qiyməti verməyimiz çox vacibdir. Deyilir ki, Qaregin Njde Vladimir həbsxanasında ölüb. Bir çox sovet xadimləri Vladimir həbsxanasında ölüblər. Soljenitsin "QULAQ"da olub. 1937-50-ci illərə qədər məhkum edilənlərin hamısının xalq düşməni olduğunu hesab edirik? Əgər belədirsə, onda bir çox görkəmli xadimlər məhkum olub, öz həyatlarını həbsxanalarda bitiriblər. Bu o demək deyil ki, biz bütün bunları fakt kimi qəbul etməliyik. Mən bu formatdan tarixi təhrif etmək, bu kifayət qədər vacib iclasın ab-havasına hansısa gərginlik gətirilməsi üçün istifadə olunmasını yersiz hesab edirəm. Hesab edirəm ki, Azərbaycan Prezidentinin sözləri ilk növbədə, erməni xalqına hörmətsizlikdir. Mən bunu dövlət başçılarına və onların təmsil etdiyi xalqlara qarşı hörmətsizlik hesab edirəm. Hörmətli həmkarlar, mən belə gərginliyə görə üzr istəyirəm. Amma siz gördünüz ki, onun müəllifi mən deyiləm".[318]

Ermənistan baş nazirinin nitqindən sonra çıxış etməli olan Belarus Respublikasının Prezidentindən icazə alan Prezident İlham Əliyev səsləndirilən fikirləri belə alt-üst etdi:

317 Yenə orada, s. 247-248.
318 Yenə orada, s. 248-249.

"Mən sadəcə, şərh verməyə məcburam. Belə ki, Ermənistanın baş nazirinin çıxışında söhbət məndən getdi. Halbuki mənim çıxışımda söhbət Ermənistanın baş nazirindən, xüsusən də erməni xalqından getməyib. Hesab edirəm ki, Sovet İttifaqının digər xalqları kimi, bizim ümumi qələbəmizə böyük töhfə verən erməni xalqı, ilk növbədə, özü əvvəlki rəhbərliyin ölkəyə vurduğu bu ləkədən təmizlənməlidir. Əgər Baş nazir mənim çıxışıma diqqətlə qulaq asıbsa, onda yəqin ki, o da bunu tutub. Həmçinin hesab edirəm ki, nasist əlaltıları və cinayətkarları ilə "QULAQ"ın və digər düşərgələrin repressiyaya məruz qalmış dustaqlarını müqayisə etmək qətiyyən yolverilməzdir. Mən öz çıxışımı təsadüfən sitatlarla möhkəmləndirmədim. Onları kitabxanada, internetdə tapmaq olar. Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin 2019-cu ilin may sitatında və Rusiyanın Müdafiə naziri Şoyqunun redaksiyası altında 12 cildlik nəşrdən gətirdiyim sitatda kifayət qədər aydın deyilir ki, o, necə bir "xadim" olub. Həmçinin nə qədər iyrənc olsa da, onun sitatını mən bir daha təkrar edəcəyəm: "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur". Bu, Böyük Vətən müharibəsi illərində deyilib. Buna görə də hesab edirəm ki, özünü demokratik seçilmiş təqdim edən yeni hakimiyyət, ilk növbədə, bu ləkədən, bu rüsvayçılıqdan təmizlənməli və həmin heykəli sökməlidir. Mənim dövlət başçılarına hörmətsizlik göstərdiyimə gəlincə, düşünürəm ki, bizim iclasımız, yəqin ki, bundan daha absurd tezis eşitməyib".[319]

MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə keçirilən bu iclasında da işğalçı ölkə daha bir ağır diplomatik-siyasi zərbə aldı. Azərbaycan dövləti Ermənistanın neonasist siyasətini ifşa etdi.

Siyasət meydanında aldığı zərbələrə baxmayaraq, Ermənistan təxribatçılıq əməllərini davam etdirirdi. 2019-cu ilin dekabr ayının əvvəllərində işğal edilmiş ərazilərə daha bir qanunsuz səfər edən N.Paşinyan Qarabağdakı oyuncaq qurumun başçıları ilə görüşdü və cəbhə xəttinin şimal istiqamətində yerləşən ərazilərə baxdı. İşğal altında olan ərazilərdə keçiriləcək növbəti qondarma "prezident seçkiləri" haqqında danışıqlar apardı. Bu səfər Azərbaycanın ərazilərinin işğalına məhz Ermənistanın məsuliyyət daşıdığını və nəzarəti bilavasitə həyata keçirdiyini göstərirdi.

İşğalçı ölkə növbəti diplomatik-siyasi zərbəni Münhen Təhlükəsizlik Konfransında aldı. 2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Prezident İlham Əliyevin və N.Paşinyanın iştirakı ilə münaqişəyə həsr olunmuş panel müzakirələr keçirildi. Çıxışında Prezident İlham Əliyev münaqişənin necə həll edilməsi haqqında danışmaq üçün hər şeydən əvvəl, tarixə baxılmalı olduğu fikrini irəli sürdü. O, qeyd etdi ki, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir, bu, tarixi həqiqətdir və beynəlxalq hüququn normalarına əsaslanır.

319 Yenə orada, s. 249-250.

Azərbaycanın ərazi bütövlüyünün bütün dünya tərəfindən tanındığını deyən ölkə başçısı iştirakçıların diqqətinə çatdırdı ki, tarixi nöqteyi-nəzərdən 1805-ci ildə Qarabağ xanı İbrahim xan Rusiya imperiyasının generalı Pavel Sisianovla saziş imzalamış, Azərbaycanın Qarabağ xanlığı müstəqil ölkə kimi Rusiya imperiyasının tabeçiliyinə keçmişdir. Kürəkçay adlandırılan həmin sazişdə Qarabağın erməni əhalisi barədə heç nə deyilmirdi. 1813-cü və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələrinə əsasən Azərbaycanın qalan hissələri Rusiya imperiyasının tərkibinə keçmişdi. Prezident İlham Əliyev daha sonra dedi:

"...Rusiya imperiyasının süquta uğradığı, Gürcüstan və Azərbaycan Demokratik respublikaları yaradıldığı zamanlarda Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ildə verdiyi ilk fərmanlardan biri İrəvanın Azərbaycandan Ermənistana verilməsi və onun Ermənistanın paytaxtı elan edilməsi ilə bağlı idi. Bu da həmçinin tarixi faktdır. Əgər siz kiməsə nəsə verirsinizsə, bu, o deməkdir ki, həmin o nə isə sizə məxsus olubdur. 1921-ci ildə bolşevik partiyasının Qafqaz Bürosu Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılması barədə qərar qəbul etdi. Saxlanılması barədə qərar, bəzi erməni tarixçilərinin yazdığı kimi, verilməsi barədə yox. Bu da həmçinin tarixi faktdır. Digər tarixi fakt isə ondan ibarətdir ki, 1923-cü ildə Azərbaycan Sovet Sosialist Respublikası Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması barədə fərman qəbul etdi. Beləliklə, bu, tarixdir. Sonralar, 1980-ci illərin sonunda Ermənistan Azərbaycana qarşı təcavüzə başladı, 300 min azərbaycanlı Ermənistan ərazisindən deportasiya olundu. Sonra Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində 1990-cı illərin əvvəlində bizim ərazilərimizin təxminən 20 faizi işğal altına düşdü və 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkünə çevrildi. Xalqımız etnik təmizləməyə məruz qalıb. 1992-ci ildə Ermənistanın əvvəlki rejimi müharibə cinayəti - Xocalı soyqırımını törətdi. Nəticədə aralarında 106 qadın, 63 uşaq olmaqla, 613 günahsız mülki şəxs vəhşicəsinə öldürüldü. Xocalı soyqırımını 10-dan artıq ölkə tanıyır".[320]

Məsələnin tarixi tərəfini faktlarla əsaslandıran dövlət başçısı beynəlxalq hüquqi məsələləri belə izah etdi:

"Beynəlxalq hüquq məsələsinə gəlincə, yenə deməliyəm ki, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələrin tələbləri hələ də yerinə yetirilməyib. Ona görə də sülh danışıqları nəticə-

320 Əliyev İ.H. Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrdə iştirak // İnkişaf – məqsədimizdir. 100-cü kitab. Bakı, 2020, s. 316-317.

sində əldə ediləcək istənilən həll yolu Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün saxlanılmasını təmin etməlidir".[321]

Azərbaycan rəhbərinin tutarlı dəlilləri qarşısında N.Paşinyan saxtakar erməni tarixçiləri tərəfindən uydurulmuş, "mif yaradıcılığı"nın məhsulu olan hansısa "böyük Tiqran"dan bəhs etdi. Sonrakı dövr hadisələrinə gəlincə isə o, sözün əsl mənasında dilini doğrunu söyləməkdən güclə saxladı:

"Dağlıq Qarabağın ölkə kimi hesab olunmasına gəlincə, deməliyəm ki, mən Prezident Əliyevlə razı deyiləm. Çünki Qafqaz bürosu Dağlıq Qarabağın Azərbaycanın ... yox üzr istəyirəm, Ermənistanın tərkib hissəsi olmasına qərar verdi. Bu tamamilə qanuni qərar idi və bundan sonra İosif Stalinin şəxsi təşəbbüsü əsasında bu qərar Moskvada dəyişdirildi. Bu bir növ, Stalin, Lenin və Atatürkün gizli sövdələşməsi idi. Qarabağ heç vaxt müstəqil Azərbaycan dövlətinin tərkib hissəsi olmayıb. Qarabağ Sovet İttifaqının formalaşması prosesi zamanı Azərbaycana verilib".[322]

Baş nazir bu fikirləri ilə tarixi və hüquqi savadsızlığını göstərdi, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin məzmununu təhrif etməyə çalışdı. Hətta bir qədər də irəli gedərək işğalı "oldu-bitdi" kimi qələmə verdiyini və münaqişənin "artıq həll olunduğunu" özünəməxsus tərzdə hiyləgərliklə belə ifadə etdi:

"Bir məsələ aydındır ki, Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həlli yoxdur. Hərbi yolla həll yoxdur. Beynəlxalq ictimaiyyət bunu güclü və aydın şəkildə bəyan etməlidir. Əgər kimsə əksini düşünürsə, deyirsə ki, Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həlli mümkündür, güman edirəm ki, Dağlıq Qarabağ münaqişəsi tərəflərinin xalqları cavab verərdi. Bu halda, biz deyə bilərik ki, münaqişə artıq həll edilib. Lakin mən düşünürəm ki, bizim davamlı sülhə ehtiyacımız var. Ermənistan Dağlıq Qarabağı danışıqlar prosesində təmsil etmir. Lakin mən bilirəm ki, Ermənistan və Dağlıq Qarabağ regionumuzda davamlı sülh yaratmaq üçün real cəhdlər ortaya qoymağa hazırdır. Ermənistanın baş naziri kimi, mən bu vəziyyəti anlayıram".[323]

Prezident İlham Əliyev oxşar suala cavab verərkən təcavüzkar Ermənistanın bütün siyasətini darmadağın etdi:

"Beynəlxalq ictimaiyyətin nə etməli olduğu məsələsinə gəlincə, düşünürəm ki, ən vacib olan odur ki, beynəlxalq ictimaiyyət - biz beynəlxalq ictimaiyyətdən danışan zaman əsasən ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətini nəzərdə tuturuq – nəhayət, Ermənistan tərəfinə çox aydın şəkildə izah etməlidir ki, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ müstəqil ölkə deyil! Heç kim bu qeyri-qanuni qurumu tanımır. Bu birincisi.

321 Yenə orada, s. 317.
322 Yenə orada, s. 318.
323 Yenə orada, s. 320.

İkincisi, düşünürəm ki, Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməklə bağlı beynəlxalq təzyiq daha çox Ermənistana göstərilməlidir. Çünki BMT Təhlükəsizlik Şurasından daha yuxarı olan beynəlxalq orqan yoxdur. Onlar 4 qətnamə qəbul ediblər. Onları yoxlamaq çox asandır. Mütəxəssislərə onların nömrələri məlumdur. Onlar nə deyir: Ermənistan qoşunları işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Təkcə Dağlıq Qarabağ işğal edilməyib. Həmçinin onun ətrafındakı 7 rayon da işğal olunub. Ermənistan bunu gizlətmək istəyir. Bu 7 rayonda ermənilər heç vaxt yaşamayıblar. 1989-cu ilin son sovet əhali siyahıyaalınmasında Dağlıq Qarabağın əhalisi 189 min nəfər olaraq qeydə alınıb. Onlardan 139 mini ermənilər, 48 mini azərbaycanlılar və digər xalqların nümayəndələri idi. Beləliklə, Dağlıq Qarabağ və qədim şəhərimiz olan Şuşadan bütün azərbaycanlılar etnik təmizləməyə məruz qalıb. Sonra bütün azərbaycanlılar 7 rayonda etnik təmizləməyə məruz qalıb. Ermənilər bizim xalqımıza, mədəniyyətimizə qarşı soyqırımı törədiblər, məscidlərimizi, məzarlarımızı dağıdıblar, şəhərlərimizin adlarını dəyişdiriblər. Onlar hazırda bütün işğal edilmiş ərazilərdən ibarət olan Dağlıq Qarabağın xəritəsini çap ediblər. Sonra onlar deyirlər ki, biz bu reallıqlarla razılaşmalıyıq. Ona görə də beynəlxalq ictimaiyyət izah etməlidir ki, Dağlıq Qarabağ Azərbaycandır. İkincisi, təcavüzkara ciddi təzyiq göstərməlidir ki, dayansın... Baş nazir indicə sülhdən danışdı. Yaxşı, mən razılaşıram. Lakin onda bu, bu gün baş verənlə, təmas xəttində azərbaycanlı əsgərin erməni snayperi ilə öldürülməsi ilə necə uzlaşır?".[324]

Danışıqlar prosesinin davamından bəhs edən Prezident İlham Əliyev dedi:

"Azərbaycan danışıqlar prosesinə sadiqdir, ona görə də biz ərazi bütövlüyümüzü danışıqlar yolu ilə bərpa edə biləcəyimizlə bağlı ümidlərimizi itirməmişik. Bu səbəbdən də hələ də bu ümidləri bəsləyərkən, ola bilsin ki, bu, ən yaxşı seçim olmayacaq. Lakin əgər Ermənistan tərəfdən yeni yanaşma nəticəsində danışıqlar tamamilə pozulsa, onda, əlbəttə ki, bu seçim nəzərdən keçirilə bilər...".[325]

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, Ermənistanın baş naziri N.Paşinyan danışıqların formatını dəyişdirməyə cəhd edərək siyasi avantüralarını davam etdirmiş, Azərbaycanın işğal edilmiş ərazilərinə gələrək "Qarabağ Ermənistandır və nöqtə" deməklə sülh prosesinə zərbə vurmuşdur. 2019-cu ilin oktyabr ayında keçirilən "Valday" toplantısında yenidən belə siyasi avantürasını təkrar etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin

324 Yenə orada, s. 323-324.
325 Yenə orada, s. 328.

avantüralara təkzibolunmaz dəlillərlə cavab verərək onu yerində oturtmuş, Ermənistanda faşizmin qəhrəmanlaşdırılmasına və neonasizmin yayılmasına diqqəti yönəltmişdir.

N.Paşinyan 2020-ci ilin fevral ayında Münhen Təhlükəsizlik Konfransında aparılan müzakirələrdə də tarixi gerçəklikləri saxtalaşdıran və beynəlxalq hüququ pozan fikirləri ilə münaqişənin dinc yollarla nizama salınmasına tərəfdar olmadığını göstərmişdir. Azərbaycan dövlət başçısı onun bütün söylədiklərinin əsassız olduğunu sübut edərək rəzil vəziyyətə salmışdır. Ermənistan növbəti dəfə diplomatik-siyasi uğursuzluğa düçar olmuşdur.

12-ci FƏSİL

DÖVLƏT SƏRHƏDİNDƏ TƏCAVÜZKAR ERMƏNİSTANIN TƏXRİBATI VƏ AZƏRBAYCANIN TƏDBİRLƏRİ

12.1. Dövlət sərhədində Ermənistanın təxribatı

Dünya ölkələrində 2019-cu ilin dekabr ayından etibarən sürətlə yayılmağa başlayan koronavirus pandemiyası 2020-ci ilin mart ayında Azərbaycan Respublikasına da gəlib çatdı. Pandemiya əleyhinə mübarizədə Ümumdünya Səhiyyə Təşkilatı və digər beynəlxalq qurumlarla fəal əməkdaşlıq edən Azərbaycan dövləti bu qlobal bəlanın fəsadlarının ölkə daxilində qarşısının alınması üçün vacib işləri görərək çevik idarəçilik mexanizmini formalaşdırdı. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı. Qısa müddətdə xəstəxanalar pandemiya şəraitinə uyğunlaşdırıldı, yeni tipli tibb müəssisələri, xəstəxanalar tikildi və ən müasir avadanlıqlarla təchiz edilərək istifadəyə verildi.

Yaranmış şərait dövlətlər arasında əməkdaşlığı zəruri edirdi. Ona görə də Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci il aprelin 10-da Türk Şurasının videoformatda fövqəladə zirvə görüşü keçirildi.[326] Az sonra Qoşulmama Hərəkatının Təmas Qrupu formatında zirvə görüşü oldu. Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri statusunda üzv dövlətlər adından BMT Baş Məclisinin COVID-19-a həsr olunmuş xüsusi sessiyasının çağırılması barədə BMT Baş katibinə müraciəti 130-dan çox dövlət tərəfindən dəstəklənmişdi. Azərbaycan dövləti pandemiya əleyhinə mübarizə məqsədi ilə bəzi beynəlxalq təşkilatlara və xarici dövlətlərə maliyyə yardımları ayırmışdı.

Pandemiya yayıldıqdan sonra Ermənistanda daxili siyasi, sosial-iqtisadi böhran daha da dərinləşdi. Dünyada yaranmış ağır şəraitdən istifadə edən Ermənistan Dağlıq Qarabağ münaqişəsi zonasından xeyli uzaqda, Ermənistan – Azərbaycan dövlət sərhədinin Tovuz rayonu ərazisində 2020-ci il iyulun 12-də

326 Əliyev İ.H. Türk Şurasının videobağlantı formatında Fövqəladə Zirvə Görüşü // İnkişaf – məqsədimizdir. 102-cı kitab. Bakı, 2020, s. 115.

növbəti hərbi təxribat törətdi.[327] İşğalçı ölkə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Tovuz rayonunda yerləşən mövqelərini artilleriya atəşinə tutdu, strateji əhəmiyyətli Qaraqaya yüksəkliyini ələ keçirmək üçün hərəkətə keçdi.[328]

Təxribatın törədilməsinin bir neçə səbəbi var idi. Birincisi, Ermənistan bununla Azərbaycanın işğal edilmiş ərazilərindən, Dağlıq Qarabağ münaqişəsindən diqqəti yayındırmaq, işğalı "oldu-bitdi" kimi qələmə vermək məqsədilə sərhəddə təxribat törədib Rusiya başda olmaqla Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan dövlətləri münaqişəyə cəlb etməyə çalışırdı. İkincisi, Azərbaycanın Qərbə bütün çıxışı – Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft, Bakı – Tbilisi – Ərzurum qaz boru kəmərləri, TAP, TANAP, Bakı – Tbilisi – Qars dəmiryolu, Böyük İpək yolu təxribat törədilən ərazinin yaxınlığından keçirdi. Bununla işğalçı ölkə Azərbaycan Respublikasının Qərbə çıxış yolunu bağlamaqla hədələməyə çalışırdı. Üçüncüsü, Ermənistan hakimiyyəti təxribatı törətməklə ölkə daxilində yaranmış vəziyyətdən diqqəti yayındırmaq niyyəti güdürdü.

Hərbi təxribatın məqsədini ört-basdır etməkdən ötrü Ermənistan belə bir yalan informasiya yaydı ki, guya Azərbaycan hərbçiləri məlum olmayan səbəblərdən UAZ markalı avtomobil ilə Ermənistanın dövlət sərhədini pozmağa cəhd göstərmişlər.

Döyüşün ilk saatlarında Azərbaycan Silahlı Qüvvələrinin 2 hərbi qulluqçusu şəhid oldu, 5 nəfər yaralandı. Ermənistan ordusunun şəxsi heyəti çoxsaylı itkilər versə də, məlumatlar gizlədilirdi. Sonradan aydın oldu ki, təxribatı törədənlərin çoxu xarici ölkələrdən Ermənistan ordusuna cəlb edilmiş muzdlu terrorçular olduğundan həmin məlumatlar gizlədilmişdir.

Gərginlik iyulun 13-nə keçən gecə davam etdi. Erməni kütləvi informasiya vasitələri Ermənistan hərbi bölmələrinin Tovuz rayonunun Ağdam kəndi istiqamətində yerləşən Qaraqaya yüksəkliyini ələ keçirməsi barədə məlumat yaysa da, tezliklə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi bunun yalan olduğunu faktlarla sübut etdi.

İşğalçı ordunun bölmələrinin iyulun 14-də səhər saatlarından başlayaraq Tovuz rayonunun Ağdam və Əlibəyli kəndlərini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə tutması nəticəsində mülki obyektlərə ziyan dəydi. Ağdam kəndinin 76 yaşlı sakini həlak oldu. Ermənistanın hərbi təxribatının qarşısını

327 Əliyev İ.H. Dövlət Təhlükəsizlik Şurasının iclası // İnkişaf – məqsədimizdir. 104-cü kitab. Bakı, 2020, s. 145.

328 Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuz istiqamətində təxribat törədib // Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet saytı. URL:https:mod.gov.az/az/news/ermenistan-silahli-quvvelerinin-bolmeleri-tovuz-istiqametinde-texribat-toredib-31439.html. 12.07.2020.

alarkən Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov,[329] polkovnik İlqar Mirzəyev [330] və həmçinin 5 hərbi qulluqçu qəhrəmancasına şəhid oldu.

Prezident İlham Əliyev Ermənistana qarşı cəza əməliyyatının başlanmasına dair qəti göstəriş verdi. Təcavüzkar ölkə ordusunun postları, komanda məntəqəsi, müxtəlif təyinatlı hərbi texnika, döyüş vasitələri, müdafiəsinin dərinliyindəki ehtiyatlar və canlı qüvvə məhv edildi. Hərbi qulluqçulardan bir mayor və bir kapitan öldürüldü. Ermənistan hərbi-siyasi rəhbərliyi çoxsaylı itkiləri gizlətməkdə davam edirdi. Saxta məlumatlar yayan Ermənistan tərəfi iddia edirdi ki, guya Azərbaycan hücum dronları vasitəsilə sərhəddəki Tovuzqala (Berd) şəhərini bombalamışdır. Əslində isə Azərbaycana məxsus mülki məntəqələrə doğru uçuşa cəhd göstərən Ermənistana məxsus pilotsuz uçuş aparatı vurulmuşdu. Düşmənin atəş mövqeyində yerləşən artilleriya qurğusu döyüş heyəti ilə birlikdə məhv edilmişdi.

Döyüşlər iyulun 16-da səhər saatlarında yenidən başladı. Ermənistan tərəfi sərhədə əlavə qüvvələr göndərdi. Böyük Qarakilsədən (Vanadzor) 3 AK 63853, Dərəçiçəkdən (Razdan) 96583 nömrəli motoatıcı briqadalar və Dilicandakı briqada döyüş zonasına yeridildi. Sərhəddə şəxsi heyətin sırasında böyük boşluqlar yarandığından Ermənistan ordusunun rəhbərliyi keçmiş hərbi qulluqçuları, çağırışçıları, o cümlədən ikinci və üçüncü qrup əlilləri, habelə məhbusları Tavus (Tavuş) bölgəsinə göndərmək üçün tələsik səfərbər etdi.[331] Həmin gün gecə saat 04 radələrindən başlayaraq Ermənistan tərəfi Tovuz rayonunun Ağdam, Dondar Quşçu, Əlibəyli və Hacallı kəndlərini yenidən ağır artilleriya atəşinə tutdu. Daha intensiv atəş Ağdam kəndi istiqamətində oldu. Dondar Quşçu kəndinə atılan 20-dək top mərmisindən biri vətəndaşın həyətinə, digəri isə digər həyətyanı sahəyə düşərək köməkçi tikilini dağıtdı.

Ermənistana aid X-55 taktiki pilotsuz uçuş aparatı vuruldu. Buna cavab olaraq Ermənistan tərəfi Azərbaycanın mülki obyektlərini, o cümlədən Mingəçevir Su Anbarını vuracağı ilə hədələdi.

Döyüşlərdə düşmənin 20-yə yaxın canlı qüvvəsi, 1 zirehli texnikası, 1 radioelektron mübarizə vasitəsi, döyüş postları və dayaq məntəqəsi məhv edildi. Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət keçən bir hərbi qulluqçusu həlak oldu.

329 Polad Həşimov (1975-1920) – Azərbaycanın Milli Qəhrəmanı. General-mayor. 3-cü ordu korpusunun komandir müavini - Qərargah rəisi (2017-2020).

330 İlqar Mirzəyev (1973-2020) – Azərbaycanın Milli Qəhrəmanı. Silahlı Qüvvələrin polkovniki. 3-cü ordu korpusunun artilleriya rəisi (2019-2020).

331 MN: Sərhəddə düşmənin şəxsi heyəti sırasında böyük boşluqlar yaranıb // Report İA. URL: https: report.az/qarabag/vaqif-dergahli-ermenistan-ordusuna-kecmis-cagiriscilarin-ve-elillerin-seferberliyi-baslayib/. 16.07.2020.

İyulun 17-də Ermənistan bölmələri cəbhənin müxtəlif istiqamətlərində Tovuz rayonunun Ağdam və Muncuqlu kəndlərini sutka ərzində 97 dəfə atəşə tutdu. İşğalçı ölkə iyulun 18-də cəbhənin müxtəlif istiqamətlərində təxribatlarını davam etdirdi. Tovuz rayonunun Koxanəbi, Əsrik Cırdaxan kəndləri və Gədəbəy rayonunun Zamanlı kəndi atəşə tutuldu.

İyulun 21-də gecə saat 00:30 radələrində cəbhənin Ağdam rayonu, səhər saat 08:45 radələrində isə Ermənistan – Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətlərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərən Ermənistana məxsus iki ədəd PUA, iyulun 22-də isə Ağdam kəndi istiqamətində növbəti taktiki PUA vuruldu.

Məğlub olduğunu başa düşən Ermənistan müxtəlif ölkələrdəki erməni terrorçu qruplaşmalarını prosesə qoşmağa, xaricdəki azərbaycanlılara qarşı terror hərəkətləri törətməyə cəhdlər etdi. Bu isə bir daha göstərirdi ki, terror Ermənistanda dövlət siyasətidir.

Döyüşlər davam edərkən Azərbaycan və Ermənistan arasında informasiya müharibəsi də gedirdi. Azərbaycanlı hakerlər 30-dan çox erməni saytını sındıraraq "Azərbaycan əsgəri", "Qarabağ Azərbaycandır və Nida işarəsi" şüarlarını yerləşdirdilər. Eyni zamanda Ermənistanın bəzi dövlət qurumlarının və bir sıra şirkətlərin, ən çox izlənilən media resurslarından olan "Ermənistanın səsi", habelə Baş nazir N.Paşinyanın saytları dağıdıldı.

Döyüşdə məğlub olan təcavüzkar ölkə Tovuz rayonunun Ağdam, Dondar Quşçu, Vahidli, Əlibəyli, Yuxarı Öysüzlü və Aşağı Öysüzlü kəndlərində mülki əhaliyə ciddi ziyan vurdu. Ziyanın aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Fövqəladə Hallar Nazirliyinə 1,0 (bir) milyon manat məbləğində vəsait ayrıldı.[332]

Döyüşlər zamanı Azərbaycan xalqı dövlətə və orduya dəstəyini daha da artırdı. Bakıda və ölkənin digər şəhər və rayonlarında Azərbaycan Silahlı Qüvvələrinə dəstək aksiyaları keçirildi. Əllərində Azərbaycan bayraqlarını tutmuş on minlərlə insan küçələrə axışaraq "Qarabağ", "Qarabağa azadlıq" şüarlarını səsləndirdi. Əsasən gənclərin iştirak etdiyi aksiyada hərbçilərə dəstək nümayiş etdirildi, şəhidlərin xatirəsi ehtiramla yad olundu. İyulun 14-də keçirilən aksiya Şəhidlər Xiyabanına yürüşlə davam etdi. Bu, millət, ordu və iqtidar arasında sıx birliyin göstəricilərindən biri idi.

332 Azərbaycan Respublikasının Tovuz rayonunu Ermənistan Respublikası Silahlı Qüvvələrinin intensiv atəşə tutması nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılmasına dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. 2020, 06 avqust. URL: https:president.az/articles/40303.

Dövlət sərhədində təxribatların qarşısı alındıqdan sonra, iyulun 17-dən başlayaraq avqustun ayının ortalarına kimi Qazaxıstan, Türkmənistan və İranın hava məkanından istifadə edilməklə Rusiyadan İl-76 hərbi nəqliyyat təyyarələri ilə Ermənistana hərbi təyinatlı yüklərin daşınması artdı. Avqustun 12-də Prezident İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə[333] zəng edərək bunun Azərbaycan ictimaiyyətində narahatlıq və ciddi suallar doğurduğunu bildirdi. Daha sonra müdafiə naziri Sergey Şoyqu [334] Rusiyanın hər il təşkil etdiyi Ordu Oyunlarının dəniz mərhələsi ilə əlaqədar Bakıda olarkən təyyarələrin guya "inşaat materialları" daşıdığı haqqında inandırıcı olmayan izahat verdi. Rəsmi Bakı isə bəyan etdi ki, Rusiya tərəfinin bu izahatını inandırıcı hesab etmir və daha tutarlı izahat gözləyir. Ermənistana silah daşınması avqustun 25-dən etibarən sentyabrın ilk günlərinə qədər Mozdok (Rusiya) – Aktau (Qazaxıstan) – Türkmənbaşı (Türkmənistan) – Nevşəhr (İran) – Rəşt (İran) – Meğri (Ermənistan) – İrəvan marşrutu ilə İl-76 hərbi nəqliyyat təyyarələri ilə yenidən davam etdirildi.

Sərhəddə hərbi əməliyyatların başlamasından bir neçə gün əvvəl Serbiyadan da Ermənistana iri partiyada müxtəlif çaplı minaatan mərmiləri çatdırılmışdı. Serbiyanın Azərbaycan Respublikasındakı müvəqqəti işlər vəkili bununla əlaqədar olaraq iyulun 20-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə çağırılaraq izahat tələb edilmişdi. Serbiya qanunlarına uyğun olaraq silah ixracına icazə verən ticarət, turizm və telekommunikasiya naziri silahların Ermənistana verilməsini qismən etiraf etmişdi.

Ermənistanın hərbi təxribatı nəticəsində baş verən toqquşmalar geniş beynəlxalq əks-səda doğurdu. İyulun 12-də Türkiyə Cümhuriyyəti Xarici İşlər Nazirliyi Ermənistan silahlı qüvvələrinin Azərbaycan Ordusunun mövqelərini atəşə tutması barədə bəyanat yayaraq Azərbaycanın Tovuz bölgəsinə hücumunu qətiyyətlə pislədi. Xarici işlər naziri Mövlud Çavuşoğlu[335] Azərbaycanı dəstəkləyən bəyanat verdi. Ukrayna Xarici İşlər Nazirliyi Ermənistanın Azərbaycan – Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində mövqeləri ələ keçirmək məqsədilə açılan artilleriya atəşlərindən dərin narahatlığını ifadə edən bəyanat yaydı və münaqişənin Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünə hörmət əsasında siyasi yollarla həllinə tərəfdar olduğunu bildirdi. İyulun 13-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov[336] tərəfləri atəşi dərhal dayan-

333 Vladimir Putin (1952) – Rusiya Federasiyasının Prezidenti (2000-2004, 2004-2008, 2012-2018, 2018-ci ildən). Baş nazir (1999-2000; 2008-2012).
334 Sergey Şoyqu (1955) – Rusiya Federasiyasının müdafiə naziri (2012-ci ildən).
335 Mövlud Çavuşoğlu (1968) – Türkiyə Cumhuriyyətinin xarici işlər naziri (2014-cü ildən).
336 Sergey Lavrov (1950) – Rusiya Federasiyasının xarici işlər naziri (2004-cü ildən).

dırmağa, təmkin nümayiş etdirməyə və üzərlərinə götürdüyü öhdəlikləri, habelə Rusiya, ABŞ və Fransa nümayəndələrinin Minsk qrupu həmsədrləri qismində irəli sürdüyü təklifləri nəzərə almağa çağırdı. Gürcüstan dövləti Azərbaycan və Ermənistan sərhədində baş verən silahlı qarşıdurmaya görə narahatlığını ifadə etdi. İran İslam Respublikasının Xarici İşlər Nazirliyi ölkəsinin bütün münaqişələrin, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdar olmasına dair açıqlama verdi. Pakistan İslam Respublikasının Xarici İşlər Nazirliyi birmənalı mövqe nümayiş etdirərək Ermənistanın hərbi təxribatını pislədi və həyatını itirmiş azərbaycanlıların ailələrinə dərin hüznlə başsağlığı verdi. Qazaxıstan Respublikasının Xarici İşlər Nazirliyi açıqlamasında Qazaxıstana dost olan Azərbaycan və Ermənistanı təmkinli olmağa və mübahisəli məsələləri güc yolu ilə həll etməkdən çəkinməyə çağırdı, pandemiya fonunda və dünyada sosial-iqtisadi şəraitin pisləşdiyi bir vaxtda qarşıdurmanın dərinləşməsinin nəticələrinin məlum olmayan mənfi proseslərə gətirib çıxara biləcəyini, ikitərəfli formatda sülh və razılaşmanın tezliklə əldə ediləcəyinə ümid etdiklərini və münaqişənin beynəlxalq təşkilatlar çərçivəsində dinc yolla həlli üçün yardım göstərməyə hazır olduqlarını bildirdi. Moldova Respublikasının Xarici İşlər Nazirliyi həlak olanların ailələrinə başsağlığı verdi və tərəfləri güc tətbiq etməkdən çəkinməyə, vəziyyətin kəskinləşməsinin qarşısını almaq üçün səyləri davam etdirməyə və beynəlxalq hüququn prinsip və normalarına hörmət əsasında uzunmüddətli siyasi həll yolu tapmağa çağırdı. Yaponiya Xarici İşlər Nazirliyi 15 iyul tarixli bəyanatında Azərbaycan-Ermənistan sərhədində baş verən qarşıdurma və insanların həlak olması ilə əlaqədar narahatlıq keçirdiyini, bütün münaqişə tərəflərini hərbi əməliyyatları dayandırmağa və maksimum təmkin nümayiş etdirməyə çağırdı. Böyük Britaniya parlamentinin bir qrup üzvü Ermənistanı təcavüzkar ölkə adlandıraraq hərəkətlərini qınayan bəyanat imzaladılar.

Sərhəddəki döyüşlərə beynəlxalq təşkilatlar da münasibət bildirdilər. BMT Baş katibinin rəsmi nümayəndəsi hərbi əməliyyatları dərhal dayandırmağa, tərəfləri vəziyyətin həlli istiqamətində addımlar atmağa, eləcə də təxribatçı ritorikadan çəkinməyə çağırdı. Türk Şurası baş verənlərdən dərin narahatlığını bildirərək, Azərbaycanın sıx əhaliyə malik sərhədyanı Tovuz rayonunun artilleriya atəşinə tutulmasını və beləliklə, bölgədə gərginliyin artmasını qətiyyətlə pislədi. GUAM-ın baş katibliyi Ermənistan ordusunun hücumlarını pisləyərək münaqişələrin GUAM regionunun rifaha, sabitliyə və firavanlığa əngəl olduğunu bildirdi. ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi itkilərin olmasına təəssüfləndi və həlak olanların ailələrinə başsağlığı verdi.

Qeyd olunduğu kimi, təcavüzkar Ermənistan xarici ölkələrdəki erməni terror təşkilatlarını prosesə cəlb etməyə və dinc azərbaycanlılara, Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinə hücumlar təşkil etməyə çalışırdı. İyulun 16-da Azərbaycan Respublikasının Polşadakı səfirliyinin qarşısında aksiya keçirməyə çalışan 30 ermənininin qarşısını 150 azərbaycanlı gənc kəsdi.[337] Ermənilər iyulun 17-də Londonda Ermənistan səfirliyi önündə dinc aksiya keçirən azərbaycanlılara hücum etdilər.

Rusiyada bəzi azərbaycanlı iş adamları iyulun 18-də erməni sahibkarlardan məhsulları almaqdan imtina etdikləri üçün 30-dan çox şirkətdə minlərlə ton məhsul xarab oldu. Buna cavab olaraq ermənilər müxtəlif bölgələrdə azərbaycanlılara qarşı terror hərəkətləri törətməyə cəhdlər göstərdilər.

ABŞ-ın Los Anceles şəhərində Azərbaycan Respublikasının Baş Konsulluğu qarşısında iyulun 21-də aksiya keçirən ermənilər oraya toplaşmış azərbaycanlılara hücum etdilər. Biri qadın olmaqla yeddi azərbaycanlı müxtəlif dərəcəli bədən xəsarətləri aldı. Onlardan 4 nəfər xəstəxanaya müraciət etdi.

Azərbaycan Respublikasının Belçika Krallığı və Lüksemburq Böyük Hersoqluğundakı səfirliyinin, Avropa İttifaqı yanında nümayəndəliyinin inzibati binası önündə iyulun 22-də keçirilən aksiya zamanı Belçikadakı ermənilər tərəfindən vandalizm aktları ilə müşayiət olunan kütləvi nümayiş oldu.[338] Ermənilərin daş və iti kəsici alətlərlə, partlayıcı vasitələrlə hücumu nəticəsində Azərbaycan diaspor nümayəndələrindən 6 nəfər, o cümlədən öz vəzifə borcunu yerinə yetirən bir azərbaycanlı jurnalist yaralandı, diplomatik missiyanın əməkdaşları xəsarətlər aldılar, missiyanın inzibati binası dağıntılara məruz qaldı. Azərbaycanlı icma nümayəndəsinin şəxsi avtomobili yararsız hala salındı və diplomatların ailə üzvlərinin yaşadığı əraziyə hücum cəhdi oldu. Belçikanın hüquq-mühafizə orqanları tərəfindən 17 erməni təxribatçısı saxlanıldı. İyulun 23-də Moldova Respublikasında Ermənistan səfirliyi qarşısında azərbaycanlılar və ermənilər arasında qarşıdurma baş verdi.

Həm cəbhə xəttində, həm də dünyanın müxtəlif yerlərində Azərbaycan dövlətinin və xalqının ortaya qoyduğu qətiyyətli mövqe Ermənistanın, erməni terror təşkilatlarının təxribatlarının qarşısını almağa imkan verdi. Ermənistan ordusunun yeni ərazilər işğal etmək cəhdlərinin qarşısı alındı. Sərhəddə baş verən

337 Azərbaycan diasporu Polşada ermənilərin təxribat cəhdini boşa çıxardı // "Xalq qəzeti", 2020, 17 iyul.

338 Azərbaycan Respublikasının Belçika Krallığı və Lüksemburq Böyük Hersoqluğundakı Səfirliyi, Avropa İttifaqı yanında Nümayəndəliyinin 23.07.2020-ci il tarixli bəyanatı // Azərbaycan Respublikasının Belçika Krallığı və Lüksemburq Böyük Hersoqluğundakı Səfirliyi, Avropa İttifaqı yanında Nümayəndəliyinin rəsmi internet saytı. URL:https: brussels.mfa.gov.az/az/news/3430/statement-of-the-embassy-of-the-republic-of-azerbaijan-in-the-kingdom-of-belgium-and-the-grand-duchy-of-luxembourg-mission-to-the-european-union-dated-23072020.

toqquşma bir daha göstərdi ki, Azərbaycan dövləti düşmənə zərbə endirməyə hazırdır və ərazilərinin işğalı ilə heç bir zaman barışmayacaqdır.

12.2. Azərbaycan-Türkiyə birgə hərbi təlimləri

Ermənistanın yeni hərbi təcavüz cəhdlərinin artması və havadarlıq edən ölkələrin onu gizli şəkildə silahlandırmaları Azərbaycan dövlətini bəzi tədbirlər görməyə vadar etdi. Ölkənin müdafiə qüdrətini artırmaqdan ötrü əlavə addımlar atıldı. Bunlardan biri Türkiyə ilə hər il keçirilən hərbi təlimlər idi. Qeyd etmək lazımdır ki, hələ 2010-cu ildə Azərbaycan və Türkiyə arasında imzalanmış strateji əməkdaşlıq sazişi iki ölkənin hərbi əməkdaşlığını yeni səviyyəyə qaldırmışdı. Sazişə görə, sənədi imzalayan ölkələrdən birinə qarşı hərbi hücum və ya hücum vəziyyəti olardısa, hücuma uğramayan ölkə bütün imkanlarını istifadə edərək hücuma uğrayan ölkəyə yardım etməli idi.[339] İmzalanmış saziş və müqavilələrə əsasən Azərbaycan və Türkiyə arasında dövr olaraq birgə hərbi təlimlərin keçirilməsi ənənəvi hal almışdı. 2020-ci ildə keçirilən hərbi təlimlər isə ənənəvi təlimlərin davamı olmaqla, həm də işğalçı ölkəyə bir işarə idi. Birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərində iştirak etmək üçün Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin şəxsi heyətinin bir qrupu Azərbaycana gəldi. Təlimlərə iki ölkə ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, Hərbi Hava Qüvvələrinin döyüş və nəqliyyat helikopterləri, həmçinin hava hücumundan müdafiə və zenit-raket bölmələri cəlb edilmişdi. Təlimlər avqustun 1-dən 5-dək quru qoşunlarının da cəlb edilməsilə Bakıda və Naxçıvanda, hərbi aviasiya vasitələrinin iştirakı ilə iyulun 29-dan avqustun 10-dək Bakı, Naxçıvan, Gəncə, Kürdəmir və Yevlax şəhərlərində keçirildi.

Naxçıvanda hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərinin keçirilməsi məqsədilə Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətinin bir qrupu və hərbi texnikaları iyulun 27-də Naxçıvana gəldi.[340] İyulun 28-də təlimdə iştirak edəcək Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətinin digər bir qrupu Bakı şəhərinə gəldi. Həmin gün birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərinə

339 "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında" Müqavilənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu // Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin normativ-hüquqi aktların elektron bazası. URL: www.e-qanun.az/framework/21158.

340 Naxçıvanda Azərbaycan – Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri keçiriləcək // Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet saytı. URL: https: mod.gov.az/az/news/naxcivanda-azerbaycan-turkiye-birge-genismiqyasli-doyus-atisli-taktiki-ve-taktiki-ucus-telimleri-kecirilecek-video-31625.html.

cəlb edilmiş Türkiyə Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusu və aviasiya vasitələri də Naxçıvana gətirildi.[341]

İyulun 29-dan etibarən başlayan təlimlərdə ilk olaraq birgə genişmiqyaslı döyüş atışlı taktiki təlimlərinin birinci mərhələsi başladı. Plana uyğun olaraq mövcud vəziyyət qiymətləndirildi, döyüş tapşırıqları dəqiqləşdirildi və real şəraitdə ərazinin kəşfiyyatı aparıldı.

"TurAz Qartalı – 2020" birgə taktiki-uçuş təlimlərində iştirak etmək üçün Türkiyə Hərbi Hava Qüvvələrinin geniş tərkibdə uçuş və mühəndis-texniki heyəti iyulun 30-da Gəncə şəhərinə gəldi. Təlimlərə hazırlıq məqsədilə heyətlərin yerləşdirilməsi, təlimin planlaşdırılması və digər təşkilati tədbirlər həyata keçirildi. Bir gün sonra "TurAz Qartalı – 2020" birgə təlimlərində iştirak etmək üçün Türkiyə Hərbi Hava Qüvvələrinin F-16 təyyarələri Azərbaycana gətirildi.

Avqustun 1-də Naxçıvanda birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri həyata keçirildi. Təlim planına əsasən Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Muxtar Respublikasının güc strukturlarının, eləcə də Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin bölmələri tam döyüşə hazırlıq vəziyyətinə gətirilərək "Həyəcan" siqnalı ilə təlim rayonuna çıxarıldı.[342]

Birgə genişmiqyaslı döyüş atışlı taktiki təlimlərinin növbəti mərhələsi avqustun 2-dən 5-dək keçirildi. Plana əsasən ilk mərhələdə tapşırıqların yerinə yetirilməsinin operativliyi və əlaqələndirilməsi, qarşılıqlı fəaliyyətin və uzlaşmanın təşkili, döyüş əməliyyatları zamanı təminatın həyata keçirilməsi, eləcə də şəxsi heyətin, silah və döyüş texnikasının səmərəli fəaliyyəti yoxlanıldı.Təyin edilmiş məntəqələrə çıxarılan motoatıcı və zirehli texnika bölmələri tapşırıqları icra etdilər. İkinci mərhələdə bölmələr silah və zirehli texnikanın tətbiqi ilə müxtəlif relyefli ərazilərdən keçməklə əks-hücum əməliyyatının təşkili və keçirilməsi, şərti düşmənin canlı qüvvəsi və döyüş texnikasına önləyici zərbələrin endirilməsi, həmçinin strateji cəhətdən əlverişli rayon və hədlərin azad edilməsi təlim-döyüş tapşırıqlarını yerinə yetirdilər.

Avqustun 5-də "TurAz Qartalı - 2020" təlimlərinə döyüş helikopterləri də cəlb olundu. Birgə atış təlimləri çərçivəsində təlimlərin planına uyğun olaraq avqustun 6-da bölmələr zirehli texnika və helikopterlərdən istifadə edərək müxtəlif döyüş elementlərini, eləcə də digər təlim-döyüş tapşırıqlarını icra etdilər. Təlimlərin Naxçıvanda keçirilən hissəsində birləşmə və tabor qərargahları ilə

341 Türkiyə Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusu və aviasiya vasitələri Naxçıvana gəlib // Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet saytı. URL: https:mod.gov.az/az/news/turkiye-silahli-quvvelerinin-bir-qrup-herbi-qulluqcusu-ve-aviasiya-vasiteleri-naxcivana-gelib-video-31638.html.

342 Naxçıvanda Azərbaycan-Türkiyə birgə genişmiqyaslı təlimləri keçirilir // Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet saytı. URL: https:mod.gov.az/az/news/naxcivanda-azerbaycan-turkiye-birge-genismiqyasli-telimleri-kecirilir-video-31687.html.

hərbi qərar qəbuletmə prosesinə uyğun tapşırığın aydınlaşdırılması, vəziyyətin qiymətləndirilməsi, ərazidə tapşırıqların dəqiqləşdirilməsi, birgə danışıq cədvəllərinin işlənilib hazırlanması kimi tədbirlər həyata keçirildi. Təlimlərdə idarəetmənin və rabitə əlaqəsinin təşkili fəaliyyətləri yerinə yetirildi.

Azərbaycan–Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki təlimlərinin birinci mərhələsinə avqustun 9-da xüsusi təyinatlı bölmələr də cəlb edildi. Xüsusi təyinatlılar helikopterlərlə müəyyən edilmiş ərazilərə çatdırılma, müxtəlif relyefli ərazilərdən gizli keçməklə vacib strateji və hərbi obyektlərə basqınetmə, həmçinin əlverişli mövqelərin tutulması üzrə təlim-döyüş fəaliyyətlərini məşq etdilər.

Bir gün sonra "TurAz Qartalı - 2020" birgə taktiki-uçuş təlimlərinin birinci mərhələsində Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin qırıcı təyyarələrinin ekipajları təlim-məşq uçuşları keçirdilər. Plana uyğun olaraq hərbi təyyarəçilər pilotaj texnikası, həmçinin qoşa və manqa ilə uçuşları məşq etdilər.

Avqustun 11-də quru qoşunlarının bölmələri mürəkkəb taktiki elementləri məşq etdilər. Bölmələr müasir döyüş vasitələrindən istifadə edərək şərti düşmən hücumunun dəf edilməsi tapşırıqlarını yerinə yetirdilər.[343]

Türkiyə Cümhuriyyətinin milli müdafiə naziri Hulusi Akar,[344] Baş Qərargah rəisi, ordu generalı Yaşar Güler,[345] qoşun növü komandanları və digər yüksək rütbəli zabitlər avqustun 12-də Azərbaycana səfərə gəldilər. Prezident İlham Əliyev avqustun 13-də hərbi nümayəndə heyətini qəbul edərkən birgə təlimlərin keçirilməsinin əhəmiyyətini belə vurğuladı:

"Hərbi təlimlərin birinci mərhələsi başa çatır. Bu, çox əlamətdar hadisədir, bizim birliyimizi, qardaşlığımızı bir daha göstərir. Bir neçə gün ərzində ölkəmizin müxtəlif şəhərlərində təlimlər keçirilir. Həm hərbi əməkdaşlıq baxımından bu təlimlərin çox böyük önəmi var, eyni zamanda, insanlar arasındakı əlaqələrin, xalqlar arasındakı qardaşlığın gücləndirilməsi üçün təlimlərin çox böyük əhəmiyyəti və faydası var. Bu, bir ənənədir. Bildiyiniz kimi, hər il həm Azərbaycanda, həm də Türkiyədə 10-dan çox birgə təlimlər keçirilir. Ona görə bu təlimlərin keçirilməsi adi haldır. Burada hansısa bir fövqəladə hal axtarmaq lüzumsuzdur. Biz də müşahidə edirik ki, bu təlimlər bəzi ölkələrdə narahatlıq doğurur. Ancaq buna heç bir əsas yoxdur. Bu, Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təzahürüdür".[346]

343 Taktiki təlimlərin birinci mərhələsi Quru Qoşunları bölmələrinin iştirakı ilə davam edir // URL: https:mod.gov.az/az/news/taktiki-telimlerin-birinci-merhelesi-quru-qosunlari-bolmelerinin-istiraki-ile-davam-edir-video-31803.html.

344 Hulusi Akar (1952) –Türkiyə Cümhuriyyətinin milli müdafiə naziri (2018-ci ildən).

345 Yaşar Güler (1954) – Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin Baş Qərargah rəisi (2018 -ci ildən).

346 İlham Əliyev Türkiyənin Milli Müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. 13.08.2020 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/40473.

İki ölkə arasında bütün sahələrdə olduğu kimi, hərbi və hərbi-texniki sahədə də əməkdaşlığın sürətlə inkişafına diqqəti cəlb edən Prezident dedi:

"...Türkiyənin hazırda çox güclü hərbi sənaye potensialı vardır və biz də bu potensialdan faydalanırıq. Biz çox sevinirik ki, Türkiyə bu gün ən müasir silahlar, hərbi texnika istehsal edir... Əminəm ki, yaxın zamanlarda Türkiyə bütün başqa sahələrdə olduğu kimi, hərbi-texniki əməkdaşlıq sahəsində də bizim üçün bir nömrəli tərəfdaş olacaqdır. Bildiyiniz kimi, həm siyasi, həm iqtisadi, həm də başqa sahələrdə bizim əlaqələrimiz bütün ölkələr üçün örnəkdir. ...bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın və bağlı olan ölkələr yoxdur".[347]

Prezident İlham Əliyev qeyd etdi ki, iyul ayında işğalçı Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi hücumu nəticəsində hərbçilərin və mülki şəxsin həlak olması təcavüzkarlıq siyasətinin davam etdiyini göstərir. Belə bir vəziyyətdə Azərbaycanı ilk və birmənalı şəkildə dəstəkləyən ölkə Türkiyə olmuşdu. Təlimlərin keçirilməsinin vacibliyinə toxunan dövlət başçısı söylədi:

"Bu təlimlərin uğurla keçməsi, əlbəttə, hesab edirəm ki, çox önəmli hadisədir... Əminəm, bizim qardaşlarımız – Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyəti bu günlər ərzində Azərbaycanda olarkən özləri də gördülər ki, onlar burada öz Vətənindədirlər".[348]

Tovuzdakı son hücum hadisəsindən bəhs edən müdafiə naziri Hulusi Akar dedi ki, bu ilk gündən etibarən Türkiyə Prezidenti başda olmaqla bütün 83 milyonluq əhali tərəfindən nifrətlə qınanmışdır. Təxribatların beynəlxalq hüquqa zidd olduğunu, Xocalı soyqırımından, Dağlıq Qarabağ bölgəsinin işğalından etibarən cinayətkar hərəkətlərin davamı olduğunu vurğulayan nazir iki ölkə arasında əməkdaşlıq məsələləri barədə dedi:

"...bizim hərbi çərçivə müqavilələrimiz, hərbi təhsil sahəsində əməkdaşlığa dair razılaşmalarımız, müdafiə sənayesi sahəsində əməkdaşlığımız var. Bütövlükdə bunların məntiqi nəticəsi olaraq, 2010-cu ildə imzalanan strateji əməkdaşlıq sazişimiz var. Beləliklə, bu müqavilələr çərçivəsində bizim buraya gəlməyimiz, getməyimiz, birlikdə olmağımız, yeməyimiz-içməyimiz, təlimlərdə bərabər olmağımız son dərəcə təbii bir fəaliyyətdir. Biz ölkələrimizin suverenliyi, müstəqilliyi və təhlükəsizliyi üçün lazım olan nə varsa bu günə qədər etdik və bundan sonra da etməyə davam edəcəyik".[349]

Türkiyənin geniş tərkibdə hərbi nümayəndə heyəti Azərbaycan-Türkiyə quru qoşunları və hərbi hava qüvvələrinin birgə döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərinin Yüksək Səviyyəli Müşahidəçi Günü çərçivəsində birinci mərhələsi-

347 Yenə orada.
348 Yenə orada.
349 Yenə orada.

nin son epizodunu izlədi. Əvvəlcə təlimin planlaşdırılması, ona hazırlıq prosesi, qoşunların yerləşdirilməsi, mərhələlər üzrə icra olunan tapşırıqlar haqqında brifinq təqdim edildi. Təlimlər haqqında ərazinin maketi üzərində ətraflı məruzə olunduqdan sonra qonaqlar təlimlərə cəlb edilən şəxsi heyət və hərbi texnika ilə tanış oldular, qarşıya qoyulan tapşırıqların praktiki icrasını müşahidə etdilər. Birgə taktiki təlimlərdə hər iki ölkə ordularının hərbi qulluqçuları və bölmələri yüksək peşəkarlıq, bacarıq göstərdilər, fəaliyyətlərin planlaşdırılmasında və icrasında qərargahların və bölmələrin şəxsi heyəti əvvəlki təlimlərdə əldə etdikləri təcrübələrini artırdılar, hər iki ölkənin milli maraqlarından irəli gələn strateji məqsədlərə nail olmaqdan ötrü qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlməyə hazır olduqlarını nümayiş etdirdilər.[350]

Sentyabrın 3-də Türkiyə Cümhuriyyətinin 3-cü ordu komandanının rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərində iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına gəldi. Hərbi əməkdaşlıq haqqında sazişə uyğun olaraq Naxçıvanda iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təliminin birinci mərhələsi keçirildi. Təlimin keçirilməsində məqsəd Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birləşmə, hissə və bölmələrinin şəxsi heyəti arasında təcrübə mübadiləsinin genişləndirilməsindən, eləcə də Əlahiddə Ümumqoşun Ordunun Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi, Naxçıvan Əlahiddə Sərhəd Diviziyası, Naxçıvan Əlahiddə Əməliyyat briqadası və Naxçıvan Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlı bölmələri ilə qərargahlar arasında qarşılıqlı əlaqənin təşkili və idarəetmənin təmin edilməsindən ibarət idi.

Plana uyğun olaraq döyüş atışlı mərhələ şərti düşmənin mülki əhali arasında çaxnaşma yaradan və dövlət sərhəddində təxribat törədən kəşfiyyat-diversiya qruplarının Naxçıvan Əlahiddə Sərhəd Diviziyasının Çevik Hərəkət Taboru və Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlıları tərəfindən zərəsizləşdirilməsi ilə başladı. Şərti düşmən təxribatlarına cavab olaraq Əlahiddə Ümumqoşun Ordusunun raket və artilleriya birləşmə və hissələri tərəfindən atəş zərbələri endirildi. Naxçıvan Qarnizonu Qoşunları və Türkiyə Silahlı Qüvvələrinin bölmələri birgə hücuma keçib şərti düşmənin dayaq məntəqələrində canlı qüvvəsini, atəş vasitələri və zirehli texnikalarını məhv edərək hakim yüksəklikləri və əlverişli mövqelərini ələ keçirdi. Hücumun gedişində düşmənin aviasiyası məhv

350 Azərbaycan-Türkiyə birgə təlimlərində "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib // Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet saytı. URL: https:mod.gov.az/az/news/azerbaycan-turkiye-birge-telimlerinde-yuksek-seviyyeli-musahideci-gunu-kecirilib-video-31847.html.

edildi, kiçik ölçülü pilotsuz uçuş aparatları zərərsizləşdirildi və dərinlikdən hərəkət edən ehtiyatlarına aviazərbələr endirildi.

Təlimin gedişində mühəndis, təminat və təxliyə qrupları qətiyyətli fəaliyyət göstərərək hücuma keçən qoşunların maneəsiz hərəkətini təmin etdilər. Əlahiddə Əməliyyat Briqadası tərəfindən şərti düşmənin kəşfiyyat-diversiya qrupları məhv edildi. Mülki Müdafiə Alayının pirotexniki taqımı ələ keçirilmiş mövqeləri və hərəkət yollarını minalardan, partlayan və partlamayan maneələrdən təmizlədi. Təyin edilmiş rayonlara taktiki və hava desantı endirildi. Təlimdə birləşmə və hissələr arasında əməliyyatların birgə planlaşdırılması, bölmələrin vahid mərkəzdən idarə olunması, qarşılıqlı əlaqənin və qoşunların hərtərəfli təminatının təşkili üzrə qarşıya qoyulmuş məqsədlərə nail olundu. Şəxsi heyətin birgə fəaliyyəti zamanı xəbərdaretmə, idarəetmə, qarşılıqlı əlaqə, qarşılıqlı tanınma və hədəf göstərmə üzrə tapşırıqların eyni qaydada icrasına nail olundu, komandirlər arasında təcrübə mübadiləsi aparıldı. Sonda döyüş təyyarələri və helikopterlərinin keçidi ilə Azərbaycan və Türkiyə dövlət bayraqlarının, eləcə də kanatla desantın daşınması nümayiş etdirildi. Təlimdən sonra silahlanmaya yeni qəbul edilən hərbi radio-kəşfiyyat vasitələrinə baxış oldu.

Təlimin hazırlanması və keçirilməsinə 5 min nəfərə qədər, döyüşatışlı mərhələnin keçirilməsinə isə 2 min 600-dən artıq şəxsi heyət, 200-dən artıq tank və digər zirehli texnika, 180-ə yaxın müxtəlifçaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemlər və minaatan, 18 təyyarə, helikopter və pilotsuz uçuş aparatı, 30-dan çox hava hücumundan müdafiə vasitəsi və 320-ə yaxın avtomobil texnikası cəlb edildi. Hazırlıq zamanı keçirilən məşqlərdə qərargahlar arasında müxtəlif səviyyədə qarşılıqlı əlaqənin təşkili diqqət mərkəzində saxlanıldı. Düşmən fəaliyyətlərinin təqlid edilməsi məqsədilə təlim sahəsində 28 hədəf rayonunda 800-ə yaxın hədəf və 90-dan çox maketdən istifadə olundu. Yaradılmış hədəf rayonunun 100%-i, hədəflərdən 85%-dən, maketlərdən isə 90%-dən çoxu məhv edildi. İdarəetmənin və atəşin düzgün planlaşdırılması nəticəsində 32 raketə, 220 iriçaplı mərmiyə, 4 aviasiya bombasına və 7800-dən çox atıcı silahların döyüş sursatına qənaət edildi.[351]

Yekunda Azərbaycan Respublikasının orden və medallarının təltif edilməsi mərasimi keçirildi. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 25 iyun tarixli sərəncamı ilə Əlahiddə Ümumqoşun Ordusunun zabitlərindən 1-i 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 2-i "Vətən uğrunda" medalı, 2-i isə "İgidliyə görə" medalı ilə təltif olundu. Təlimdə fərqlənən zabit, gizir və əsgərlər qiymətli hədiyyələrlə mükafatlandırıldılar.

351 Naxçıvanda Azərbaycan-Türkiyə birgə hərbi təlimləri keçirilib // Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet saytı. URL: https:mod.gov.az/az/news/naxcivanda-azerbaycan-turkiye-birge-herbi-telimleri-kecirilib-video-32109.html.

Sentyabrın 15-də Bakının azad olunmasının 102-ci ildönümü ilə əlaqədar Gəncə şəhəri üzərində Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələri aviasiya vasitələrinin nümunəvi uçuşları keçirildi. Uçuşlara hər iki ölkənin döyüş təyyarələri və helikopterləri cəlb olunmuşdu.[352]

Azərbaycan Ordusunun gücünün və döyüş bacarığının artırılmasına təsir edən amillərdən biri olan hərbi təlimlər göstərdi ki, Azərbaycan milləti və dövləti ərazilərinin işğal altında qalması ilə heç bir zaman barışmayacaq və onu bütün mümkün vasitələrlə azad edəcəkdir. Ordu qarşıya qoyulan istənilən vəzifəni yerinə yetirməyə hazır idi.

Hərbi qüdrətini artırmaqla yanaşı Azərbaycan dövləti xarici siyasət fəaliyyətini genişləndirdi və diplomatiyasının səmərəliliyini artırdı. Bu baxımdan BMT Baş Məclisinin BMT-nin 75 illiyinə həsr edilmiş yüksək səviyyəli iclasında Prezident İlham Əliyevin nitqi mühüm rol oynadı.

12.3. BMT Baş Məclisinin BMT-nin 75 illiyinə həsr edilmiş yüksək səviyyəli iclasında iştirak

2020-ci il sentyabrın 21-də BMT Baş Məclisinin 75-ci sessiyası çərçivəsində təşkilatın 75 illiyinə həsr edilmiş yüksək səviyyəli iclası keçirildi. 182 ölkənin dövlət və hökumət başçısının videoformatda çıxış etdiyi iclasda Prezident İlham Əliyevin nitqi sayca altıncı idi. İlham Əliyev nitqini iki hissədə - Qoşulmama Hərəkatının sədri və Azərbaycan Respublikasının Prezidenti olaraq təqdim etdi.[353]

Qoşulmama Hərəkatının sədri olaraq İlham Əliyev dünyada yaranmış şəraiti belə təhlil etdi:

"Azərbaycan Respublikası 120 ölkənin yekdil qərarı ilə 2016-cı ildə Qoşulmama Hərəkatının sədri seçilmişdir. 2019-cu ilin oktyabrında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində Bakıda keçirilmiş 18-ci Zirvə toplantısında Azərbaycan sədrliyi öz üzərinə götürmüşdür.

352 Azərbaycan və Türkiyə HHQ-nin aviasiya vasitələri Gəncə şəhəri üzərində birgə uçuşlar keçirib // Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet saytı. URL: https:mod.gov.az/az/news/azerbaycan-ve-turkiye-hhq-nin-aviasiya-vasiteleri-gence-seheri-uzerinde-birge-ucuslar-kecirib-video-32179.html.

353 BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclas keçirilib. Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyev iclasda videoformatda çıxış edib. 21.09.2020 // Azərtac. URL: https:azertag.az/xeber/BMT_Bas_Assambleyasinin_75_ci_Sessiyasi_cherchivesinde_BMT_nin_75_illiyine_hesr_edilmis_Yuksek_Seviyyeli_Iclas_kechirilib__Azerbaycan_Prezidenti_Qosulmama_Herekatinin_sedri_Ilham_Aliyev_iclasda_videoformatda_chixis_edib_VIDEO-1591023.

...Qoşulmama Hərəkatına üzv dövlətlər BMT Nizamnaməsinin imzalanmasının 75-ci ildönümünə həsr edilmiş bu Yüksək Səviyyəli İclasın keçirilməsini yüksək qiymətləndirirlər...

...BMT Nizamnaməsinin prinsip və məqsədlərinin, beynəlxalq hüququn prinsiplərinin bərqərar olunması və qorunması üçün beynəlxalq ictimaiyyət tərəfindən müvafiq öhdəlik yenidən nümayiş etdirilməlidir.

İnsan hüquqlarının pozulması, maliyyə böhranları və ekologiyanın pisləşməsi ilə müşahidə olunan silahlı münaqişələr, təcavüzkar ekspansionist siyasətlər, terrorçuluq, separatizm, beynəlxalq mütəşəkkil cinayətkarlıq və ekstremizm dünyada milyonlarla insana mənfi təsir etməkdə davam edir".[354]

Qəbul etdiyi sənədlərin icrasına bir çox hallarda nail ola bilməyən BMT-yə inam azalırdı. Təşkilatın nüfuzunun artırılmasının zəruriliyi barədə İlham Əliyev dedi:

"...Yaranmasının 75-ci ildönümündə biz BMT-nin gücləndirilməsi və müasirləşdirilməsi, Baş Assambleyanın canlandırılması, beynəlxalq sülh və təhlükəsizlik sahəsində təşkilatın demokratik, məsuliyyətli, universal və təmsilçiliyi təmin edən orqanı kimi nüfuzunun möhkəmləndirilməsi, habelə müasir geosiyasi reallıqlara cavab verən daha demokratik, məhsuldar, səmərəli, şəffaf və təmsilçiliyi təmin edən orqana çevrilməsi üçün BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasına çağırırıq.

...BMT-nin qlobal iqtisadi idarəçilikdə rolu gücləndirilməlidir.

...Qoşulmama Hərəkatı artmaqda olan, BMT Nizamnaməsini və beynəlxalq hüququ sarsıdan, birtərəflilik və birtərəfli tədbirlərdən istifadə halları ilə bağlı ciddi narahatlığını vurğulayır...".[355]

Azərbaycan Respublikasının Prezidenti olaraq çıxışında İlham Əliyev Azərbaycan-BMT əməkdaşlığının tarixinə, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsinə və Təhlükəsizlik Şurasının qətnamələrinin icra edilməməsinə diqqəti çəkərək söylədi:

"Bütün üzv dövlətlər BMT Nizamnaməsinə qoşulmaqla hər hansı bir ölkənin siyasi müstəqilliyinə və ərazi bütövlüyünə qarşı güclə hədələməkdən və gücün tətbiqindən çəkinmək öhdəliyini götürmüşlər. Lakin Ermənistan öz öhdəliklərini kobud şəkildə pozmuş və Azərbaycana qarşı hərbi güc tətbiq etmişdir. Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf yeddi rayonunu işğal etmişdir. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından tam,

354 Yenə orada.
355 Yenə orada.

dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Təəssüflər olsun ki, Ermənistan hələ də bu qətnamələrə məhəl qoymamaqda davam edir".[356]

Dövlət başçısı bildirdi ki, Ermənistan işğal olunmuş ərazilərdə azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə həyata keçirmiş, bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, Xocalı soyqırımını törətmişdir. Ondan çox ölkə Xocalı soyqırımını tanımışdı. İşğal olunmuş ərazilərdə beynəlxalq hüquq normalarının kobud şəkildə pozularaq qanunsuz məskunlaşdırma siyasətinin həyata keçirildiyinə diqqəti yönəldən ölkə rəhbəri dedi ki, Ermənistan Azərbaycan xalqına məxsus tarixi və dini abidələri məhv etmişdir. İşğalçı Ermənistan qoşunlarının təmas xətti və Ermənistan – Azərbaycan dövlət sərhədi boyunca mülki əhalini qəsdən hədəf alır və təxribatlar törədir. Ermənistanın iyul ayında Ermənistan-Azərbaycan sərhədində törətdiyi təxribatdan bəhs edən Prezident bildirdi ki, Azərbaycanın Tovuz rayonunun artilleriya atəşinə məruz qalması nəticəsində hərbçilər və bir mülki şəxs öldürülmüş, mülki infrastruktura ciddi zərər vurulmuşdur. Dövlət başçısı Ermənistanın təxribatçı dəstəsinin təmas xəttini keçməyə cəhd etdiyini, Azərbaycan hərbçiləri tərəfindən 2020-ci il avqustun 23-də yaxalanan həmin dəstənin başçısı azərbaycanlı hərbçilərə və mülki vətəndaşlara qarşı terror aktlarının törədilməsinin planlaşdırıldığını etiraf etdiyini dedi. Münaqişənin tənzimlənməsidən ötrü aparılan danışıqları Ermənistanın pozduğunu və yeni müharibəyə hazırlaşdığını Prezident İlham Əliyev belə ifadə etdi:

"Ermənistanın baş naziri ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların format və mahiyyətini məqsədyönlü şəkildə pozur. Onun "Qarabağ Ermənistandır" bəyanatı danışıqlar prosesinə ciddi zərbədir. O, danışıqlar prosesində əsassız şərtlər irəli sürür. Onun Azərbaycana qarşı irəli sürülmüş qəbuledilməz "yeddi şərti" tərəfimizdən rədd edilmişdir. Sülhə nail olunması üçün bizim yeganə şərtimiz var. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmalıdır. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır.

Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələrinin yaradılmasını elan etmişdir. Bu, Ermənistan rəhbərliyinin yeni təcavüzkar niyyətini açıq şəkildə nümayiş etdirir. Ermənistanın müdafiə naziri Azərbaycanı "yeni ərazilər uğrunda yeni müharibə" bəyanatları ilə hədələyir".[357]

356 Yenə orada.
357 Yenə orada.

Nasizmin şöhrətləndirilməsinin Ermənistanın dövlət siyasəti olduğunu və nasist Qaregin Njdenin milli qəhrəmana çevrildiyini söyləyən dövlət başçısı vurğuladı:

"Ermənistanın rəsmi ideologiyasında "Azərbaycanofobiya" siyasəti hökm sürür. Gənc nəslə Azərbaycan xalqına nifrət aşılanır. Ermənistan bu yaxınlarda təcavüzkar və hücum xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiyası qəbul edib. Milli təhlükəsizlik strategiyasında irqçi, şovinist və "Azərbaycanofob" fikirlər əks olunub.

Təcavüzkar ritorika və təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını nümayiş etdirir".[358]

BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə çağıran dövlət başçısı bildirdi:

"Təxribatların baş verməsinə və gərginliyin artırılmasına görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür".[359]

Münaqişənin həlli barədə dövlətinin mövqeyini Prezident İlham Əliyev qəti şəkildə bir daha bəyan etdi:

"Ermənistan-Azərbaycan münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll edilməlidir".[360]

Azərbaycanın mədəniyyətlərarası dialoqun təşviqində vacib rol oynadığını söyləyən Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan dünyanın tanınmış multikulturalizm mərkəzlərindəndir.

Dövlət başçısının nitqi Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun dünya siyasətində yeri və rolunun artdığını təsdiq edirdi. Eyni zamanda bir daha göstərirdi ki, Azərbaycan Respublikası işğal altında olan ərazilərini azad etməkdə qətiyyətli mövqedədir. Yaranacaq gərginlik üçün bütün məsuliyyət təcavüzkar Ermənistanın üzərinə düşürdü.

***

Fəsildə araşdırılan məsələlərdən məlum olur ki, koronavirus pandemiyasının dünyada yaratdığı ağır şəraitdən istifadə edən təcavüzkar Ermənistan bir neçə məqsəd güdərək Azərbaycan ilə dövlət sərhədinin Tovuz rayonu istiqamətində 2020-ci il iyulun 12-də hərbi təxribat törətmişdir. Azərbaycanın işğal edilmiş ərazilərindən, Dağlıq Qarabağ münaqişəsindən diqqəti yayındırmaq, işğalı "oldu-bitdi" kimi qələmə vermək məqsədilə sərhəddə təxribat törədən Ermənistan Respublikası Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü

358 Yenə orada.
359 Yenə orada.
360 Yenə orada.

olan dövlətləri münaqişəyə cəlb etməyə, Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəməri, Bakı – Tbilisi – Ərzurum qaz boru kəməri, TAP, TANAP, Bakı – Tbilisi – Qars dəmiryolu, Böyük İpək yoluna nəzarəti əldə etmək üçün yüksəklikləri tutub Azərbaycan Respublikasının Qərbə çıxışının qarşısını almağa çalışmışdır. Ermənistan hakimiyyəti ölkə daxilindəki ağır şəraitdən diqqəti yayındırmaq niyyəti də güdmüşdür. Bəzi ölkələr işğalçıya dəstək verərək silahlar göndərmişlər.

Azərbaycan düşmənə layiqli cavab vermişdir. Təxribatın qarşısını alarkən Azərbaycan ordusunun generalı, yüksək rütbəli zabitləri və digər hərbçiləri qəhrəmancasına həlak olmuşlar. İşğalçı ölkə geri oturdulmuş və məqsədinə nail ola bilməmişdir.

Azərbaycan Ordusuna dəstək məqsədilə Bakıda küçələrə çıxan insanlar dövlətin və silahlı qüvvələrin yanında olduqlarını bildirmişlər. Bu yürüş millətin dövlət və ordu ilə sıx birliyinin daha bir təcəssümü olmuşdur.

Türkiyə və Pakistan birmənalı olaraq Ermənistanın hərəkətlərini pisləmiş və Azərbaycanı müdafiə etmişdir. Həmin dövlətlər beynəlxalq hüquq normalarına sadiq olduqlarını göstərmişdir.

Ermənistanın hərbi təxribatı başa çatdıqdan sonra da Rusiya Ermənistana silah və sursat göndərməkdə davam etmişdir. Belə hərəkətlərə Azərbaycan dövləti qəti etiraz etmişdir.

İmzalanan ikitərəfli sənədlərə müvafiq olaraq Türkiyə ilə hər il keçirilən ənənəvi hərbi təlimlər bu dəfə Naxçıvanda və Azərbaycanın digər yerlərində keçirilmişdir. Hərbi təlimlər gücün nümayişi olmuş və ordunun döyüş bacarığını artırmışdır.

Azərbaycan dövləti fəal xarici siyasət yürütmüşdür. Ölkə rəhbəri BMT Baş Məclisinin yaradılmasının 75 illiyinə həsr edilmiş yüksək səviyyəli iclasda Qoşulmama Hərəkatının sədri və Prezident olaraq nitq söyləmişdir. İki hissədən ibarət olan nitqinin birinci hissəsində İlham Əliyev BMT-nin nüfuzunun artırılması üçün təkliflərini söyləmiş, təşkilatın qəbul etdiyi qərarlarının yerinə yetirilməsinə nail olunmağın vacibliyini vurğulamış və koronavirus pandemiyası dövründə görülən işlərdən bəhs etmişdir.

Azərbaycan Respublikasının Prezidenti olaraq nitqində İlham Əliyev Ermənistanın hərbi təcavüzünün mahiyyətini açmış, BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmədiyini və yeni hərbi təxribatlar törətdiyini diqqətə çatdırmışdır. Ölkə başçısı dünya birliyini təcavüzkar Ermənistana qarşı tədbirlər görməyə çağırmış, bir daha bəyan etmişdir ki, Azərbaycan dövləti ərazilərinin işğal altında qalması ilə barışmayacaqdır.

13-cü FƏSİL

VƏTƏN MÜHARİBƏSİNİN BAŞLANMASI

13.1. Ermənistanın növbəti təxribatı

Ermənistan rəhbərliyinin müharibəyə hazırlaşmasına və yeni ərazilər işğal etmək məqsədilə müharibə çağırışlarına, törətdiyi təxribatlara Minsk qrupu həmsədrlərinin, beynəlxalq təşkilatların ikili standartlardan yanaşması Azərbaycan Respublikası dövlətini problemin hərbi-siyasi yollarla həllindən ötrü addımlar atmağa məcbur edirdi.

Sentyabrın 27-də səhər saat 06:00 radələrində bütün cəbhə boyu genişmiqyaslı təxribatlar törədən işğalçı ölkə Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və artilleriya qurğularından intensiv atəşə tutdu. Düşmənin Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərini intensiv atəşə tutması nəticəsində mülki əhali arasında həyatını itirənlər və yaralananlar oldu, infrastruktur obyektlərinə ciddi ziyan dəydi.

Azərbaycan Ordusunun ön xətt bölmələri düşmənin təxribatının qarşısını almaq və qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə cavab tədbirləri gördü. Cəbhənin Tərtər-Ağdam və Füzuli-Cəbrayıl istiqamətlərində yerləşən hərbi hissələri, raket və artilleriya bölmələri, aviasiya, zirehli texnika və digər qoşun növlərinin qarşılıqlı fəaliyyəti ilə Ermənistan silahlı qüvvələrinin atəş nöqtələri susduruldu və hücumunun qarşısı alındı.

Ölkədə informasiya təhlükəsizliyini təmin etmək, əhali arasında çaşqınlıq salmamaq, həmçinin hərbi qulluqçuların təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Respublikası Müdafiə Nazirliyi sosial şəbəkə istifadəçiləri, elektron media və digər kütləvi informasiya vasitələri nümayəndələrinə rəsmi olmayan, dəqiqləşdirilməmiş və qeyri-obyektiv məlumatlardan istifadə etməmək barədə

çağırış etdi. Söhbət vətənin taleyindən getdiyi üçün bu çağırış millət tərəfindən anlayışla qarşılandı.

Ermənistanın hücumlarının qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə qoşunların bütün cəbhə boyu əks-hücum əməliyyatına başlaması barədə qərar verildi. Şəxsi heyət və tank bölmələri raket-artilleriya qoşunlarının, aviasiya və pilotsuz uçuş aparatlarının köməyi ilə Ermənistan silahlı qüvvələrinin ön xəttdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsini, hərbi obyektlərini və döyüş texnikasını aşkarlayaraq məhv etdilər. Müharibənin ilk günü səhər saatlarında müxtəlif istiqamətlərdə işğalçı ölkənin hava hücumundan müdafiə bölmələrinin 12 ədəd "OSA" zenit-raket kompleksi sıradan çıxarıldı. Cəbhənin Tərtər istiqamətində Azərbaycan Hərbi Hava Qüvvələrinin bir döyüş helikopteri vurulsa da, ekipaj üzvləri sağ qaldı.

Aldığı ağır zərbələri ört-basdır etmək məqsədilə Ermənistan tərəfi təxribatçı məlumatlar yaymağa başladı. Məsələn, yayılan uydurma məlumatların birində deyilirdi ki, guya Azərbaycan Ordusuna məxsus 3 tank, 2 helikopter və 3 PUA vurulmuşdur. Azərbaycan Respublikası Müdafiə Nazirliyi dərhal bu məlumatın yalan olduğunu ifşa etdi.

Azərbaycan Ordusu mülki əhalini, obyektləri və mülki xarakterli infrastrukturları hədəfə almır, işğalçı Ermənistandan fərqli olaraq hərbi əməliyyatlar zamanı Cenevrə konvensiyaları da daxil olmaqla beynəlxalq humanitar hüququn tələblərinə riayət edirdi. Ermənistan ordusu isə özünün atəş nöqtələrini qəsdən mülki əhalinin yaşayış yerlərinin içərisində və yaxınlığında yerləşdirirdi. Belə vəziyyətdə Azərbaycan tərəfi işğal altında olan ərazilərdəki mülki əhalini hərbi obyektlərdən kənar durmağa çağırdı.

Prezident İlham Əliyev sentyabrın 27-də xalqa müraciətində dedi:

"Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür".[361]

Ermənistanın davamlı hərbi təxribatlarına diqqəti cəlb edən dövlət başçısı 2020-ci ilin iyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində artilleriya atəşi nəticəsində hərbçilərin və mülki şəxsin həlak

361 İlham Əliyev xalqa müraciət edib. 27.09.2020 // Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet saytı. URL: https: president.az/articles/40968?fbclid=IwAR0PEj9hkVKptDdhVj0xJaRrUkfoMkL3okKak3Kk_rJJ_FkzTXfe_kPhBSc.

olduğunu, düşmənə layiqli cavabın verildiyini və işğalçı ölkənin bir santimetr irəliyə gedə bilmədiyini belə ifadə etdi:

"...əgər bizim istəyimiz olsaydı, hərbi döyüşləri Ermənistan ərazisinə keçirə bilərdik. Ancaq bizim Ermənistan ərazisində hərbi hədəflərimiz yoxdur və belə olan halda bir neçə gündən sonra atəş dayandırılmışdır.

Ermənistan bu təxribatı törətməklə hansı məqsədi güdürdü? İlk növbədə, Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər. Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur, bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub... Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir".[362]

Artıq qeyd edildiyi kimi, 2020-ci ilin avqust ayında da Ermənistan növbəti hərbi təxribata əl atmış və diversiya qrupu göndərmişdi. Azərbaycan hərbçiləri tərəfindən saxlanılan qrupun başçısı verdiyi ifadələrdə məqsədin Azərbaycanda terror aktları törətmək olduğunu demişdi. Danışıqların dalana dirənməsi barədə Azərbaycan xalqına məlumat verən Prezident dedi:

"Ermənistanın baş naziri bir il bundan əvvəl işğal edilmiş torpaqlarda – Xankəndidə demişdir ki, "Qarabağ Ermənistandır və nöqtə". Birincisi bu, yalandır, Qarabağ Azərbaycandır və mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə bildirmişəm. Qarabağ Azərbaycandır və nida işarəsi. İkincisi, bu təxribat xarakterli bəyanat faktiki olaraq danışıqlar prosesinə vurulan böyük zərbə idi. Əgər Ermənistanın baş naziri deyirsə ki, "Qarabağ Ermənistandır", onda hansı danışıqlardan söhbət gedə bilər?! Bununla paralel olaraq, Ermənistanın rəhbərliyi artıq iki il ərzində dəfələrlə bəyan edir ki, Azərbaycan Ermənistanla yox, qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Bu da danışıqlar prosesinə vurulan böyük zərbədir. İlk növbədə, Azərbaycan heç vaxt oyuncaq xunta rejimi ilə hər hansı bir danışıqlar aparmayacaq. İkincisi, danışıqlar formatını dəyişdirmək cəhdləri bir daha onu göstərir ki, Ermənistanın əsas məqsədi danışıqları pozmaq və status-kvonu saxlamaqdır. Halbuki ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət baş-

362 Yenə orada.

çıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbul edilməzdir və bu, o deməkdir ki, işğala son qoyulmalıdır".[363]

Dövlət rəhbərinin çıxışının əsas leytmotivi bundan ibarət idi ki, təcavüzkar Ermənistan dayandırılmalıdır və dayandırılacaqdır. Azərbaycan millətinin və dövlətinin buna qüdrəti çatırdı.

Müraciətdə işğal edilmiş torpaqlarda Ermənistanın qanunsuz məskunlaşma siyasəti, Livan ermənilərindən ibarət bir neçə ailənin işğal edilmiş ərazilərdə, o cümlədən Şuşada yerləşdirilməsi hərbi cinayət kimi qiymətləndirildi, bunun Cenevrə konvensiyasına tamamilə zidd olduğu vurğulandı. İşğal olunmuş rayonların, kəndlərin adlarının dəyişdirilməsindən, azərbaycanlıların tarixi irsinin silinməsindən və abidələrin dağıdılmasından bəhs edən Prezident bildirdi:

"Azərbaycan məscidləri dağıdılır, təhqir edilir. Bizim məscidlərimizdə Ermənistan inək, donuz saxlayır. Bu, bütün müsəlman aləminə ən böyük təhqirdir. Bizim əcdadlarımızın qəbirləri traktorla dağıdılır. Bunu edən faşistlərdir, vandallardır, vəhşilərdir.

...işğal edilmiş torpaqlarda bu yaxınlarda keçirilmiş hərbi təlimlər bizim üçün Ermənistanın növbəti təxribatı sayılmalıdır. Çünki bu təlimlərin bir məqsədi var: Azərbaycana hücum etmək, mülki əhalini atəşə tutmaq və yeni torpaqları işğal etmək! Sadaladığım bütün faktlar bir daha onu göstərir ki, bu gün regionda təhlükə mənbəyi Ermənistandır və onun çirkin siyasətidir".[364]

Münaqişəyə dair beynəlxalq hüquq məsələlərinə toxunan ölkə rəhbəri qeyd etdi ki, bütün beynəlxalq təşkilatlar, dövlətlər Azərbaycanın ərazi bütövlüyünü tanıyır, beynəlxalq təşkilatlarda qəbul edilmiş qərar və qətnamələr işğal edilmiş ərazilərin, o cümlədən Qarabağın dağlıq hissəsinin də Azərbaycan Respublikasına məxsus olduğunu açıq-aydın təsbit edir. BMT Təhlükəsizlik Şurasının qətnamələrində yazılırdı ki, erməni silahlı qüvvələri dərhal, tamamilə və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Dövlət başçısı bildirdi ki, otuz ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalır, Minsk qrupu çərçivəsində aparılan danışıqları Ermənistan iflic vəziyyətinə salmışdır.

Millətin qəlbinin səsini söyləyən və iradəsini ifadə edən Prezident İlham Əliyevin müraciəti ətrafında bütün Azərbaycan birləşdi. Başlıca məqsəd torpaqları düşmən işğalından azad etmək idi.

Sentyabrın 27-də Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevlə telefonla danışaraq Ermənistanın hərbi təxribatı nəti-

363 İlham Əliyev xalqa müraciət edib. 27.09.2020 // Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet saytı. URL: https: president.az/articles/40968?fbclid=IwAR0PEj9hkVKptDdhVj0xJaRrUkfoMkL3okKak3Kk_rJJ_FkzTXfe_kPhBSc.

364 Yenə orada.

cəsində mülki şəxslərin və hərbi qulluqçuların həlak olması ilə əlaqədar başsağlığı verdi. Türkiyənin Azərbaycanın haqq işinin yanında olduğu bəyan edildi.

Həmin gün günorta saatlarında Azərbaycan Ordusunun bölmələri cəbhənin Tərtər-Ağdam, Füzuli-Cəbrayıl və Murovdağ istiqamətlərində Ermənistan qoşunlarının işğalı altında olan strateji əhəmiyyətli yüksəkliklərin azad edilməsi uğrunda döyüşlərə başladı. Raket-artilleriya qoşunları və aviasiya vasitələri düşmənin komanda məntəqələrinə zərbələr endirdi, manevr edən çoxlu sayda canlı qüvvəsini, döyüş texnikasını və hərbi obyektlərini məhv etdi. Bütün cəbhə boyu şiddətli döyüşlər gedirdi. Qoşun növləri və bölmələrinin həyata keçirdiyi uğurlu əks-hücum nəticəsində işğal altında olan bir sıra kəndlər, strateji yüksəkliklər və ərazilər azad edildi. Cəbhənin Füzuli-Cəbrayıl istiqamətində aparılan döyüşlər nəticəsində uzun illər ərzində düşmən işğalı altında olan Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri işğaldan qurtarıldı. Ağdərə rayonu istiqamətində və Murovdağ silsiləsindəki hündürlüklərdə yerləşən düşmən postları darmadağın edilərək bir sıra hakim yüksəkliklər nəzarətə götürüldü. Müxtəlif istiqamətlərdə Ermənistan qoşunlarının çoxlu sayda canlı qüvvəsi və döyüş texnikası məhv edildi.

13.2. Təhlükəsizlik Şurasının iclası

Prezident İlham Əliyevin sədrliyi ilə sentyabrın 27-də keçirilən Təhlükəsizlik Şurasının iclasında yaranmış şərait müzakirə edildi. Çıxış edən dövlət başçısı işğalçı Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribat törətməsi və itkilər barədə məlumat verərək bildirdi ki, bu, işğalçılıq siyasətinin davam etdiyini və faşist mahiyyətini bütün dünyaya göstərir. Düşmənə verilən cavabdan danışan Ali Baş Komandan dedi:

"Səhər tezdən məlumatı alan kimi, mən müdafiə naziri, digər aidiyyəti qurumların rəhbərləri ilə əlaqə saxladım, müvafiq göstərişlər verdim və bu göstərişlər əsasında hazırda Azərbaycan Ordusu genişmiqyaslı əks-hücum əməliyyatına başlamışdır".[365]

Əvvəlcədən planlaşdırılan bu təxribatların qarşısında Azərbaycan əhalisinin nümayiş etdirdiyi dəyanəti yüksək qiymətləndirən Prezident bildirdi:

"Bu, bir daha Ermənistanın, Ermənistan faşizminin eybəcər sifətini göstərir. Çünki dinc əhaliyə qarşı belə qəddarlıq ancaq faşist dövlətlərə aid ola bilər

365 Yenə orada.

və birinci dəfə deyil, Tovuz hadisələrində, ondan sonra digər hadisələrdə, Xocalı soyqırımı erməni vəhşiləri tərəfindən əliyalın dinc əhaliyə qarşı törədilmişdir və bu dəfə də Ermənistanın əsas hədəfi bizim yaşayış məntəqələrimizdir. Onlar bu atəşi açmaqla istəyirlər ki, Azərbaycan ictimaiyyəti, Azərbaycan vətəndaşları arasında, cəbhəboyu yerləşən kəndlərdə, şəhərlərdə yaşayan insanlar arasında təşviş yaransın. Amma tam qətiyyətlə deyə bilərəm ki, - bu gün səhər mən bütün bölgələrdən, cəbhəyanı bölgələrdən məlumat almışam, - Azərbaycan vətəndaşları cəsarət göstərirlər, hər kəs öz yerindədir, ordumuza, dövlətimizə hər an dəstək verməyə hazırdırlar və bunu edirlər".[366]

Dövlətin başlıca vəzifəsinin münaqişənin həlli olduğunu deyən Prezident İlham Əliyev vurğuladı:

"Dağlıq Qarabağ məsələsinin həlli bizim tarixi vəzifəmizdir. ... bu məsələni elə həll etməliyik ki, Azərbaycan xalqı bundan razı olsun. Biz bunu elə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin. Biz bunu elə etməliyik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun.

... bizə bu məsələnin, bu münaqişənin yarımçıq həlli lazım deyil. Biz öz torpağımızdayıq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Amma öz torpağımızı heç kimə verən deyilik. ...biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycan torpaqlarında ikinci qondarma erməni dövləti yaradılsın...

Dağlıq Qarabağ bizim əzəli tarixi torpağımızdır".[367]

İclasda çıxış edən müdafiə naziri Zakir Həsənov[368] mövcud vəziyyət haqqında məlumat verərək dedi:

"...saat 6-ya bir neçə dəqiqə qalmış erməni silahlı qüvvələri Füzuli, Cəbrayıl, Tərtər və Ağdam rayonlarının kəndlərini artilleriyadan atəşə tutmuşdur. Dağıntılar, əhali arasında yaralananlar və itkilər olmuşdur. Hərbi hissələrin ön xətti də atəşə tutulmuşdur. Eyni vaxtda Ağdam, Füzuli, Cəbrayıl istiqamətindən düşmənin silahlı qüvvələrinin cəmləşməsi müşahidə olunmuşdur və onların hücuma hazırlaşdığı müşahidə edilmişdir...Əməliyyat şəraitini nəzərə alaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatı həyata keçirib. Əks-hücum əməliyyatı nəticəsində düşmənin ön xətti yarılmışdır. ...yeddi kənd işğaldan azad olunmuşdur".

Təhlükəsizlik Şurasının qalan hissəsi qapalı keçirildi.

Ölkədə fəaliyyət göstərən siyasi partiyalar da qəti mövqe nümayiş etdirdilər. Sentyabrın 27-də 50 siyasi partiya birgə bəyanat verərək ölkənin bütün vətəndaşlarını və dünya azərbaycanlılarını milli birliyə, hər kəsi Azərbaycanın haqq

366 Yenə orada.
367 Təhlükəsizlik Şurasının iclasında İlham Əliyevin nitqi. 27.09.2020 // Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet saytı. URL: https: president.az/articles/42459.
368 Zakir Həsənov (1959) – Azərbaycan Respublikasının müdafiə naziri (2013-cü ildən). General - polkovnik.

səsinin dünya birliyinə çatdırılmasına töhfə verməyə, beynəlxalq ictimaiyyəti isə Azərbaycanın həm tarixi həqiqətlər, həm də beynəlxalq hüquqla dəstəklənən haqq mübarizəsinə biganə qalmamağa çağırdı. İctimai təşkilatlar da ümumi düşmənə, işğalçıya qarşı azadlıq müharibəsində haqq işi uğrunda dəmir yumruq kimi birləşdilər.

Həmin gün axşam saatlarında əks-hücum əməliyyatı həyata keçirən Azərbaycan Ordusu bölmələrinin zərbələri nəticəsində düşmən çoxlu sayda zirehli texnikanı döyüş meydanında qoyub qaçdı. Cəbhənin Goranboy istiqamətində Murovdağ silsiləsindəki Murov zirvəsi azad edildi. Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistanla birləşdirən hərbi əhəmiyyətli Basarkeçər (Vardenis) – Ağdərə avtomobil yolu vizual, eləcə də atıcı silahların və artilleriya vasitələrinin atəş nəzarətinə götürüldü. Əldə edilən üstünlük Ermənistandan əlavə hərbi yüklərin işğal altında olan Kəlbəcər və Ağdərə istiqamətindəki marşrutla daşınmasının qarşısını almağa imkan verdi.

Azərbaycanın qətiyyətli hərəkətə keçməsi Ermənistanı himayə edən ölkələrdə narahatlıq yaratdı. Sentyabrın 27-də Fransa Respublikasının Prezidenti Emmanuel Makron[369] Prezident İlham Əliyevə zəng edərək təmas xəttində silahlı qarşıdurmanın baş verməsindən ölkəsinin narahatlıq hissi keçirdiyini və münaqişənin danışıqlar yolu ilə həllinin vacibliyini vurğuladı. Azərbaycan Respublikasının Prezidenti bildirdi ki, Ermənistan rəhbərliyi şüurlu şəkildə danışıqlar prosesini pozur və "Dağlıq Qarabağ Ermənistandır" bəyanatı danışıqlara ciddi zərbə vurmuşdur. Ermənistanın baş nazirinin "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatı isə danışıqlar formatının dəyişdirilməsi cəhdidir ki, bu da qəbuledilməzdir və hətta Minsk qrupunun rəhbərliyi tərəfindən də bildirilmişdir. Dövlət başçısı sentyabrın 27-də Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən və davam edən hərbi təxribatla bağlı hadisələrin gedişi barədə məlumat verərək qeyd etdi ki, Ermənistanın Azərbaycan silahlı qüvvələrinin mövqelərini və cəbhə xətti boyunca yerləşən yaşayış məntəqələri ağır artilleriya silahlarından atəşə tutması nəticəsində mülki şəxslər və hərbi qulluqçular həlak olmuşdur, Azərbaycan Silahlı Qüvvələri buna cavab olaraq uğurlu əks-hücum əməliyyatları həyata keçirir. Hərbi təxribatla bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşürdü. Azərbaycan və Fransa dövlət başçıları diplomatik kanallar vasitəsilə təmasların həyata keçirilməsi barədə razılığa gəldilər. Bu, bir daha göstərdi ki, Azərbaycan dövləti heç bir təzyiq qarşısında geri çəkilməyəcək və təcavüzkara layiq olduğu cavabı verməkdə qətiyyətli mövqedədir.

369 Emmanuel Makron (1977) – Fransa Respublikasının 25-ci Prezidenti (2017-ci ildən).

13.3. Ölkədə hərbi vəziyyətin və qismən səfərbərliyin elan edilməsi. Düşmənə vurulan ilk zərbələr

Təhlükəsizlik Şurasının iclasından sonra Azərbaycan Respublikasının Prezidenti "Hərbi vəziyyət elan edilməsi haqqında" fərman imzaladı. Fərmanda yazılırdı:

"2020-ci il sentyabrın 27-də Ermənistan Respublikasının silahlı qüvvələrinin beynəlxalq hüquq normalarını yenidən kobud surətdə pozaraq, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutduğunu, nəticədə mülki şəxslər və hərbçilər arasında ölən və yaralananların olduğunu, bu hücumların qarşısının alınması məqsədi ilə Azərbaycan Ordusunun əks-hücum əməliyyatlarına başladığını nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 29-cu bəndini və 111-ci maddəsini rəhbər tutaraq qərara alıram:

1. Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, Azərbaycan Respublikasına qarşı silahlı hücumlar etməsi və mütəmadi hərbi təxribatlar törətməsi ilə əlaqədar, 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edilsin.

2. Hərbi vəziyyətin təmin edilməsi məqsədi ilə "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş tədbirlər həyata keçirilsin.

3. Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Qazax və Ağstafa rayonlarında hərbi vəziyyət dövründə saat 21:00-dan saat 06:00-dək komendant saatı tətbiq edilsin. Komendant saatının tətbiq edildiyi ərazilərdə:

3.1. şəxslərin xüsusi icazə və şəxsiyyəti təsdiq edən sənədləri olmadan küçələrdə və digər ictimai yerlərdə olmaları qadağan edilsin;

3.2. xüsusi giriş-çıxış rejimi tətbiq edilsin, nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılması üçün tədbirlər görülsün.

4. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi komendant saatının tətbiqindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsin.

5. Hərbi vəziyyət dövründə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatların hüquqlarının və qanuni mənafelərinin, vətəndaşların hüquq və azadlıqlarının qismən və müvəqqəti məhdudlaşdırılmasını nəzərdə tutan tədbirlər vəziyyətin kəskinliyindən irəli gələn hüdudlar daxilində və Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının tərəf-

dar çıxdığı beynəlxalq müqavilələrə və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tətbiq edilsin.

6. Bu Fərman təsdiq olunması üçün Azərbaycan Respublikasının Milli Məclisinə göndərilsin.

7. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsindən irəli gələn vəzifələrin həyata keçirilməsini təmin etsin".[370]

İşğalçı ölkə yalan məlumatlar yaymaqla itkilərini gizlətməyə və erməni əhalisi arasında hökm sürən təşvişi, ordudakı xaosu azaltmağa çalışırdı. Döyüşlərdə düşmənin 22 ədəd tankı və digər zirehli texnikası, 15 ədəd "OSA" zenit-raket kompleksi, 18 ədəd pilotsuz uçuş aparatı, 8 ədəd artilleriya qurğusu məhv edildi, Ermənistan ordusu ölən və yaralı olmaqla canlı qüvvə baxımından 550 nəfərdən artıq itki verdi. Müxtəlif istiqamətlərdə düşmənin 3 silah-sursat anbarı məhv edildi.

Talış kəndi istiqamətində gedən döyüşlərdə düşmənin desant həmlə taborunun komandiri öldürüldü, şəxsi heyət isə darmadağın edildi. Yaralıların say çoxluğu səbəbindən düşmənin hərbi hospital və mülki xəstəxanalarında yer çatışmazlığı yaranmışdı.

Sentyabrın 28-də Azərbaycan Ordusunun bölmələri düşmənin döyüş texnikasını sərrast atəşlə məhv etdi. Döyüş meydanında məğlub olan Ermənistan silahlı qüvvələrinin müharibə cinayəti törədərək Tərtər şəhərini atəşə tutması nəticəsində mülki obyektlərə ziyan dəydi.

Azərbaycan Ordusu xeyli düşmən qüvvəsini məhv etdi. Azad edilən yüksəkliklərdən və əlverişli mövqelərdən hərəkətə keçən bölmələr əldə olunmuş uğuru artırmaq məqsədilə əks-hücumu davam etdirdi. Talış kəndi ətrafındakı bir neçə əlverişli yüksəklik işğalçı qüvvələrdən təmizləndi.

Azərbaycan Respublikasının Prezidenti sentyabrın 28-də qismən səfərbərlik elan edilməsi haqqında sərəncam imzaladı. Sərəncamda yazılırdı:

"Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 25-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilsin.

2. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti təsdiq edilmiş planlara uyğun olaraq hərbi vəzifəlilərin səfərbərlik üzrə hərbi xidmətə çağırılmasını və hərbi-nəqliyyat vəzifəsindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsin.

370 Hərbi vəziyyət elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. 27.09.2020 // Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet saytı. URL: https: president.az/articles/40979.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir".[371]

Ermənistanın uydurma məlumatlar yaymasının və beynəlxalq ictimai rəyi çaşdırmasının qarşısını almaq məqsədi ilə operativ addımlar atıldı. Sentyabrın 28-də Müdafiə Nazirliyi tərəfindən Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelərə və beynəlxalq təşkilatların nümayəndələrinə Ermənistanın hərbi təcavüzü, cəbhə xəttində yaranmış vəziyyət, qoşunların əks-tədbirləri və əməliyyat şəraiti, azad edilmiş ərazilər və yüksəkliklər, düşmənin itkiləri, təxribatları və yalan məlumatlar yayması haqqında ətraflı məlumat verildi.

Həmin gün işğalçı qüvvələrin Ağdərə istiqamətində yerləşən artilleriya bölmələrinə zərbələr endirildi. Ağır itkilərə məruz qalan düşmən bölmələri yerləşdiyi mövqelərindən geri çəkilməyə məcbur oldu.

Sentyabrın 28-dən 29-na keçən gecə bütün cəbhə boyu ağır döyüşlər davam etdi. İşğalçı qüvvələr cəbhənin Füzuli-Cəbrayıl və Ağdərə-Tərtər istiqamətlərində itirdikləri mövqeləri geri qaytarmaq üçün bir neçə dəfə əks-hücuma cəhd göstərsələr də, Azərbaycan Ordusunun bölmələri uğurla müdafiə olunaraq düşmənin bütün cəhdlərinin qarşısını dərhal aldı. Gecə döyüşlərində cəbhənin Ağdərə istiqamətində düşmənin Madagizdən hərəkət edən zirehli və avtomobil texnikasından ibarət qarışıq kolonu və onların hərəkətinə atəş dəstəyi verən artilleriya batareyası Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri və cəbhənin bu istiqamətdə yerləşən qoşunları tərəfindən darmadağın edildi. Füzuli-Cəbrayıl istiqamətində səhər saatlarında yerdəyişmə etmək istəyən düşmənin 1 tankı, 1 avtomobil texnikası və 10 nəfərədək şəxsi heyəti artilleriya zərbəsi ilə məhv edildi.

Hərbi əməliyyatların aparılmasından BMT narahatlığını bildirdi. Sentyabrın 28-də BMT-nin baş katibi Antonio Quterreşin[372] təşəbbüsü ilə Prezident İlham Əliyevlə videokonfrans formatında görüş oldu.[373] Dövlət rəhbəri Ermənistanın Azərbaycana qarşı törətdiyi hərbi təxribat və hadisələrin gedişinə dair məlumat verərək bildirdi ki, sentyabrın 27-də Ermənistanın təmas xətti boyunca Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və yaşayış məntəqələrini ağır artilleriya atəşinə tutması nəticəsində mülki şəxslər və hərbi qulluqçular həlak

371 Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 28.09.2020 // Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/41026.

372 Antonio Quterreş (1949) – BMT-nin 9-cu baş katibi (2017-ci ildən).

373 İlham Əliyevlə BMT-nin baş katibi Antonio Quterreş arasında videokonfrans formatında görüş olub. 28.09.2020 // Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/41087.

olmuşdur. Ona görə də Azərbaycan tərəfi özünümüdafiə məqsədilə əks-hücum əməliyyatları həyata keçirir. Dövlət başçısı vurğuladı ki, Ermənistan tərəfi belə hərbi təxribatları dəfələrlə törətmişdir. İşğalçı ölkə iyul ayında da Azərbaycan-Ermənistan dövlət sərhədində buna oxşar təxribat həyata keçirmiş, avqust ayında isə erməni təxribatçı dəstəsi təmas xəttini keçməyə cəhd etmişdi. Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində başqa ölkələrdən xarici ölkə vətəndaşlarının qanunsuz məskunlaşmasını həyata keçirirdi ki, bu da beynəlxalq hüququn kobud şəkildə pozulması idi. Dövlət başçısı onu da qeyd etdi ki, Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələri yaratmışdır. Ermənistan rəhbərliyinin şüurlu şəkildə danışıqlar prosesini pozması üzərində dayanan ölkə başçısı işğalçı dövlətin rəhbərliyinin "Dağlıq Qarabağ Ermənistandır" bəyanatının danışıqlara ciddi zərbə vurduğunu bildirərək əlavə etdi ki, "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatı danışıqlar formatının dəyişdirilməsi cəhdi olduğundan qəbuledilməzdir. Prezident dedi ki, münaqişə yalnız beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həll olunmalıdır.

Görüş Azərbaycan dövlətinin işğal altında olan torpaqlarının azad edilməsi işində qəti mövqeyini, eyni zamanda BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinin vacibliyini bir daha göstərdi.

Ermənistan növbəti təxribat törədərək sentyabrın 29-da səhər saat 07:30-dan etibarən Basarkeçər (Vardenis) rayonu ərazisindən Azərbaycanın Daşkəsən rayonunun ərazisini artilleriya atəşinə tutdu. Həmin gün səhər saatlarından etibarən Füzuli şəhərinin işğaldan azad edilməsi uğrunda Azərbaycan Ordusunun hücumu davam etdi. Cəbhənin Füzuli-Cəbrayıl istiqamətində Ermənistan qoşunlarının daha 4 tankı, döyüşlərə cəlb edilmiş Eçmiədzin rayonunda dislokasiya olunan 61-ci əlahiddə mühəndis alayının 13516 saylı hərbi hissəsinin komandiri məhv edildi.

İşğalçı ölkənin genişmiqyaslı hücumunun ilk saatlarından Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin bütün hərbi tibbi heyəti gücləndirilmiş iş rejimində fasiləsiz tibbi xidmət göstərirdi. Qaynar xətt yaradılmışdı. Döyüşlər gedən bütün istiqamətlərdə mobil səhra cərrahiyyə hospitalları fəaliyyət göstərirdi və tibb müəssisələri peşəkar həkim kadrları ilə tam komplektləşdirilmişdi. Qaynar xəttin qurulmasında məqsəd hərbi qulluqçuların valideynlərini narahat edən məsələlərlə bağlı müraciətləri qəbul etmək idi.

Cəbhədə baş verənləri diplomatik korpusa olduğu kimi çatdırmaq məqsədilə Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi tərəfindən sentyabrın 29-da Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşeləri və beynəlxalq təşkilatların ölkədəki nümayəndələri üçün brifinq keçirildi.[374] Brifinq erməni uydurmalarının alt-üst edilməsində mühüm rol oynadı.

Sentyabrın 29-da Almaniya Federativ Respublikasının Kansleri Angela Merkel[375] Prezident İlham Əliyevlə telefonla danışaraq silahlı qarşıdurmanın baş verməsi ilə bağlı ölkəsinin narahatlığını ifadə etdi. Prezident qeyd etdi ki, sentyabrın 27-də səhər saatlarında Ermənistanın Azərbaycana qarşı hərbi təxribat törədərək ağır artilleriya qurğularından təmas xətti boyu yerləşən hərbi birləşmələri, şəhər və kəndləri atəşə tutması nəticəsində iki gün ərzində hərbçilər, 10 mülki şəxs, o cümlədən iki uşaq həlak olmuş, 29 mülki şəxs yaralanmış, 150 yaşayış evi dağıdılmışdır. Azərbaycan tərəfinin əks-hücum əməliyyatına başladığını bildirən dövlət başçısı dedi ki, bundan əvvəl də iyul-avqust aylarında Ermənistan tərəfindən törədilmiş hərbi təxribatlar nəticəsində hərbçilər və mülki şəxslər həlak olmuşdur. Prezident bu təxribatların təcavüzkarlıq siyasətinin davamı olduğunu vurğulayaraq əlavə etdi ki, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərinə başqa ölkələrdən xarici vətəndaşların qanunsuz məskunlaşmasını həyata keçirir. Bu da beynəlxalq hüququn kobud surətdə pozulması və müharibə cinayəti idi.

Həmin gün Xocalı rayonunun Şuşakənd ərazisində düşmənin 1 ədəd S-300 zenit-raket qurğusu sıradan çıxarıldı. İtirilmiş mövqeləri geri qaytarmaq məqsədilə Madagiz istiqamətinə əlavə qüvvələr cəmləşdirən düşmən sentyabrın 30-da səhər saatlarından başlayaraq hücuma cəhd göstərsə də, qarşısı alındı. Döyüş meydanında məğlub olan Ermənistan silahlı qüvvələrinin artilleriya bölmələri Goranboy rayonunun Aşağı Ağcakənd kəndini atəşə tutdu.

Sentyabrın 30-da cəbhənin Cəbrayıl rayonu istiqamətində düşmənin döyüş texnikaları məhv edildi. Səhər saat 08:00-dan etibarən Ermənistan silahlı qüvvələrinin bölmələrinin Tərtər şəhərini artilleriya atəşinə tutması nəticəsində mülki infrastruktura ziyan dəydi. Bu vəhşi hərəkət düşmənin döyüş meydanında acizliyinin əvəzini mülki vətəndaşlardan çıxmaq cəhdi idi. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatından aydın olurdu ki, sentyabrın 27-dən 30-dək düşmənin 2300 nəfərədək canlı qüvvəsi məhv edilmiş və yaralanmış, 130-dək tank və digər zirehli texnikası, 200-dən artıq artilleriya, yaylım

374 Ölkəmizdəki xarici hərbi attaşelər və beynəlxalq təşkilatların nümayəndələri əməliyyat şəraiti haqqında məlumatlandırılıb // Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet saytı. URL: https:mod.gov.az/az/news/olkemizdeki-xarici-herbi-attaseler-ve-beynelxalq-teskilatlarin-numayendeleri-emeliyyat-seraiti-haqqinda-melumatlandirili-32415.html.

375 Angela Merkel (1954) – Almaniya Federativ Respublikasının Kansleri (2005-2021).

atəşli raket sistemləri, minaatanı, 25-dək hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 5 silah-sursat anbarı, 50-dək tank əleyhinə vasitələri, 55 ədəd avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdı.

Əməliyyatların genişlənməsi Azərbaycan xalqında vətəni müdafiə və işğal olunmuş torpaqların azad edilməsi uğrunda döyüşlərə qoşulma əzmini daha da gücləndirirdi. Azərbaycan Ordusunun düşmənə qarşı apardığı döyüşlərdə əldə etdiyi uğurlar millətdə döyüş ruhunun daha da yüksəlməsinə səbəb oldu. Azərbaycan əsgərinin qazandığı qələbələrdən ruhlanan on minlərlə şəxs Müdafiə Nazirliyinə müraciət edərək könüllü olaraq döyüşlərə qatılmaq istədiyini bildirdi. Nazirliyin sentyabrın 30-da yaydığı bəyanatda Azərbaycan əsgərinə mənəvi dəstək olduqlarına görə könüllülərə təşəkkür edilərək bildirilirdi ki, orduya qatılmaq arzusunda olan döyüş və müharibə təcrübəsinə malik vətəndaşlar hərbi hissələrə deyil, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etsinlər.

Azərbaycandan fərqli olaraq işğalçı ölkənin ordusunda vəziyyət bərbad halda idi. Ermənistanın 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyasının 7-ci dağatıcı alayının 2-ci taboru ağır itkilərə məruz qaldığından komandanlıqdan sentyabrın 30-da təcili surətdə kömək istədi. Köməyə gələn ehtiyat qüvvələr, həmçinin iki tank məhv edildi. Vurulan ağır zərbə düşmənin məğlubiyyətindən xəbər verirdi. İşğalçı orduda ruh düşkünlüyü yaranmış və fərarilik artmışdı. Azərbaycanda isə həm orduda, həm də millətdə döyüş ruhu yüksək idi.

13.4. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında yaralı hərbçilərlə görüşü

Hərbi əməliyyatlar başladıqdan üç gün sonra, sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşdülər. Onların vəziyyəti ilə maraqlanan dövlət başçısı dedi:

"...bizim bütün yaralı əsgər və zabitlərimiz bir arzu ilə yaşayırlar ki, tezliklə sağalıb yenə də döyüş bölgələrinə getsinlər, Vətən uğrunda haqlı savaşını davam etdirsinlər. Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi

bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar".[376]

Dövlət şəhid ailələrinə xüsusi diqqət və qayğı göstərirdi. Bununla bağlı olaraq Prezident bildirdi:

"...şəhid ailələrinə ölkəmizdə xüsusi diqqət göstərilir, dövlət tərəfindən bütün lazımi işlər görülür. ...Azərbaycan şəhid ailələrinə göstərilən diqqətə görə dünya miqyasında nümunə sayıla bilər. Bilirsiniz ki, mənim göstərişimlə bütün şəhid ailələri dövlət tərəfindən mənzillərlə, evlərlə təmin edilir. Təkcə bu il 1500 şəhid ailəsi dövlət tərəfindən mənzillərlə təmin ediləcəkdir. Yaxın 2-3 il ərzində birinci Qarabağ müharibəsində həlak olmuş qəhrəman övladlarımızın ailələri tam miqyasda evlərlə, mənzillərlə təmin olunacaqdır. Biz bu gün də şəhidlər veririk, Vətən uğrunda gedən döyüşlərdə şəhidlərimiz olubdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin, Allah onların ailələrinə, yaxınlarına səbir versin. Onların qanı yerdə qalmır və qalmayacaqdır".[377]

Dövlət qazilərə də xüsusi qayğı göstərirdi. Həmin qayğıdan danışan ölkə başçısı Azərbaycanın ədalətli müharibə apardığını və əsgərinin qəhrəmanlığını belə ifadə etdi:

"Bizim əsgərlərimiz xilaskar əsgərlərdir. Erməni əsgərləri işğalçı əsgərlərdir. Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında – Azərbaycan torpağında ölür. Bizim əsgər və zabitlərimiz öz torpağında həlak olur, öz torpağında yaralanır və biz öz torpaqlarımızı azad edirik... Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz, biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik.

... Biz tarixi ədaləti bərpa edirik, tarixi ədaləti! Qarabağ bizim doğma, əzəli, tarixi torpağımızdır. Qarabağ xanlığının tarixinə baxmaq kifayətdir ki, hər kəs görsün, Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, qurub, yaradıb. Bizim müqəddəs ocağımız Şuşa şəhəri azərbaycanlılar tərəfindən salınıb. Bu gün işğal altında olan torpaqlar bizim tarixi torpaqlarımızdır. Bizim işimiz haqq işidir. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik, buna bizim haqqımız çatır, bunu edirik və edəcəyik".[378]

Cəmiyyətdə və orduda ruh yüksəkliyi hökm sürürdü. İnsanlar müraciət edərək ordu sıralarına qatılmaq istəyirdilər. Bu barədə Prezident söylədi:

---

376 Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərlə görüşüblər. 30.09.2020 // Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet saytı. URL: https: mod.gov.az/az/news/prezident-ilham-eliyev-ve-birinci-xanim-mehriban-eliyeva-mudafie-nazirliyinin-merkezi-herbi-klinik-hospitalinda-mualice-32461.html.

377 Yenə orada.

378 Yenə orada.

"Orduda ruh yüksəkliyi var... Cəmiyyətdə ruh yüksəkliyi var. Mənə artıq bu son 3-4 gündə hər gün çoxlu məktublar gəlir, həm ölkə vətəndaşlarından, həm də digər ölkələrin vətəndaşlarından. Xaricdən ən çox məktublar qardaş Türkiyədən gəlir. Türk qardaşlarımız o məktublarda bizimlə bərabər bu haqlı davada vuruşmaq barədə öz istəklərini ifadə edirlər. Mən onlara təşəkkür edirəm. Amma bir daha demək istəyirəm ki, buna ehtiyac yoxdur. Azərbaycan Ordusu kifayət qədər güclü ordudur, təchiz edilmiş ordudur".[379]

İşğalçı ölkə aldığı zərbələrdən nəticə çıxarmır və mülki əhalini atəşə tuturdu. Azərbaycan Ordusu isə dinc əhalini hədəfə almır, hərbi obyektləri vururdu. Bu vəziyyətə diqqəti cəlb edən dövlət rəhbəri dedi:

"...son üç-dörd günün hadisələri Ermənistan rəhbərliyi üçün dərs olmur. Onlar yeni təxribatlar hazırlayır, bizim yaşayış məntəqələrimizi yenə də atəşə tutmaq istəyirlər və bunu davam edirlər. Hər gün mülki əhali arasında itkilərimiz artır. Dünən səhərə olan məlumata görə bizim 10 mülki vətəndaşımız həlak olmuşdur. Bu gün səhər mənə verilən məlumata görə isə həlak olan mülki vətəndaşların sayı 13-ə çatıb. Bu, nə deməkdir? Bu, erməni faşizminin eybəcər sifətini göstərir. Biz mülki əhaliyə qarşı heç vaxt vuruşmamışıq. Əks-hücum əməliyyatı başlanan kimi mən bizim bütün komandanlara və Müdafiə Nazirliyinə göstəriş verdim ki, mülki əhaliyə qarşı heç bir addım atılmamalıdır. Bizim hədəflərimiz erməni silahlı birləşmələrinin mövqeləri, texnikası, canlı qüvvəsidir.

Amma onlar bizim kəndlərimizi, şəhərlərimizi atəşə tuturlar, 13 dinc insan həlak olub, 40-dan çox mülki şəxs yaralanıb, 168 ev dağıdılıb. Budur erməni faşizminin sifəti. Onlar döyüş meydanında bizim qarşımızda dura bilmirlər, kəndlərimizi, şəhərlərimizi vururlar. Amma orada yaşayan soydaşlarımızın hamısı yerindədir, hamısı "Vətən sağ olsun" deyirlər. Bir santimetr geri addım atmayıblar və əminəm ki, atmayacaqlar. Onlar əmindirlər ki, Azərbaycan Ordusu onları müdafiə edəcək".[380]

Hərbi hospitalda yaralılarla keçirilən görüş əhəmiyyətli idi. Azərbaycan cəmiyyəti bir daha əmin oldu ki, bütün hərbçilərin sağlamlığı dövlətin yüksək nəzarətindədir.

Azğınlaşan işğalçı ölkə sentyabrın 30-da "Toçka-U" taktiki raket kompleksini tətbiq etdi. Lakin hərbi texnikanın köhnə və keyfiyyətsiz olması səbəbindən atılan raketlərdən üçü partlamadı.

Azərbaycanın Ordu hissələri tərəfindən cəbhənin müxtəlif istiqamətlərində saat 17:30-dək düşmənin 2 ədəd "OSA-AKM" zenit-raket kompleksinin döyüş maşını, 1 ədəd BM-21 "Uraqan" yaylım atəşli reaktiv sistemi, 4 ədəd BM-21

379 Yenə orada.
380 Yenə orada.

"Qrad" yaylım atəşli reaktiv sistemi, 4 ədəd "D-20" haubitsa-topu, 16 ədəd tank, 1 ədəd piyadanın döyüş maşını və şəxsi heyətlə 2 ədəd yük maşını məhv edildi və sıradan çıxarıldı.

Ağdərə istiqamətində gedən döyüşlərdə Ermənistan ordusunun darmadağın edilən 6-cı dağ atıcı alayına köməyə gələn 193-cü əlahiddə həmlə taborunun döyüş bayrağı və sənədləri ələ keçirildi. Düşmənin 8 ədəd "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edildi.

Müdafiə Nazirliyinin verdiyi məlumatlardan aydın olurdu ki, sentyabrın 27-də səhər saatlarından sentyabrın 30-da saat 21:30-dək düşmən canlı qüvvədə, hərbi və döyüş texnikasında xeyli itki vermiş və bütün cəbhə boyunca tutduqları mövqelərdən və ərazinin vacib sahələrindən geri çəkilməyə məcbur edilmişdi. İşğalçı ölkənin 200-dək tankı və digər zirehli texnikası, 228 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 30 ədəd hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 5 silah-sursat anbarı, 110-dan artıq avtomobil texnikası, 1 ədəd S-300 zenit-raket kompleksi məhv edilmişdi.

Hərbi əməliyyatların başlamasından narahatlığını ifadə edən Avropa İttifaqı Şurasının rəhbəri sentyabrın 30-da Prezident İlham Əliyevlə telefon danışığında münaqişənin dinc yolla nizamlanmasının zəruri olduğunu bildirdi. Dövlət başçısı qəti şəkildə söylədi ki, Ermənistan rəhbərliyi şüurlu şəkildə danışıqlar prosesini pozur, baş nazirin "Dağlıq Qarabağ Ermənistandır" bəyanatı danışıqlara ciddi zərbə vurmuşdur, "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatı isə danışıqlar formatının dəyişdirilməsi cəhdi olduğundan qəbuledilməzdir və Minsk qrupunun rəhbərliyi də bunu bildirmişdir. Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərinə başqa ölkələrdən xarici vətəndaşları gətirərək qanunsuz məskunlaşdırdığını deyən dövlət başçısı bildirdi ki, Ermənistanın baş naziri hələ sentyabrın 27-si hərbi toqquşmalar baş verməzdən əvvəl on minlərlə könüllüdən ibarət hərbi birləşmələrin yaradılması barədə qərar vermişdi. Bu da Ermənistanın növbəti təcavüzə hazırlaşması mənası daşıyırdı.

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, münaqişənin dinc siyasi vasitələrlə tənzimlənməsindən boyun qaçıran Ermənistan daim təxribatlar törətmiş, yeni ərazilər işğal etmək üçün planlar hazırlamışdır. 2020-ci il sentyabrın 27-də Füzuli, Cəbrayıl, Ağdam, Tərtər, Goranboy istiqamətlərində təmas xəttində törətdiyi təxribatlar nəticəsində dinc insanlar öldürülmüş və mülki obyektlərə ziyan vurulmuşdur. Azərbaycan tərəfi zəruri tədbirləri görmüşdür.

Prezident İlham Əliyev xalqa müraciət etmiş və Təhlükəsizlik Şurasının iclasını keçirmişdir. Düşmənə qəti cavab verməkdən və işğal altındakı torpaqları azad etməkdən ötrü müharibəyə başlamaq barədə qərar qəbul edilmişdir. Prezidentin fərmanları ilə ölkədə hərbi vəziyyət və fövqəladə vəziyyət elan edilmişdir. Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirərək çoxlu canlı qüvvəsini məhv etmiş və döyüş texnikasını sıradan çıxarmışdır.

Müharibə öz xarakterinə görə Azərbaycan tərəfindən ədalətli, təcavüzkar Ermənistanın işğalı altında olan torpaqların azad edilməsi uğrunda Vətən müharibəsi olmuşdur.

Qısa müddətdə bir sıra ərazilər işğaldan azad edilmişdir. Hərbi əməliyyatların gedişində bəzi ölkələrin rəhbərləri Prezident İlham Əliyevə zəng etmişlər. Telefon danışığı zamanı Azərbaycan dövlət başçısı müharibənin səbəblərini izah etmiş və başlıca məqsədin işğal altında olan ərazilərin azad edilməsi olduğunu birmənalı bildirmişdir. Hərbi əməliyyatlar başlayan kimi Türkiyə, Pakistan və Əfqanıstan dövlətləri bəyanat verərək Azərbaycanın haqq işini müdafiə etmiş, torpaqların işğaldan azad edilməsinə, ərazi bütövlüyünün bərpasına tərəfdar çıxmışlar.

Döyüşlər zamanı Azərbaycan hərbçilərindən şəhid olanlar və yaralananlar da olmuşdur. Yaralıların bir qismi Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Hospitalında müalicə almışlar. Dövlət bütün yaralılara xüsusi qayğı göstərmişdir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mərkəzi Hərbi Hospitalda hərbçilərə baş çəkərək vəziyyətləri ilə tanış olmuşlar. Dövlət başçısı çıxış edərək vətəndaşların yüksək milli ruhundan, döyüşlərin gedişindən, Azərbaycan dövlətinin şəhid ailələrinə və qazilərə yönəlik siyasətini izah etmiş, işğalçı Ermənistanın siyasətinin iç üzünü açmışdır. Döyüşlərdə məğlub olmasına baxmayaraq, Ermənistan yalan informasiyalar yaymaqda davam etmiş və müxtəlif dövlətlərin vasitəsilə Azərbaycana təzyiqlər etməyə çalışmışdır. Hərbi əməliyyatların dayandırılması barədə yersiz çağırışlara və təzyiqlərə məhəl qoymayan Azərbaycan dövləti işğal altındakı torpaqlarının azad edilməsinə dair qəti iradəsini bir daha bəyan etmişdir.

14-cü FƏSİL

CƏBRAYIL ŞƏHƏRİNİN DÜŞMƏNDƏN AZAD EDİLMƏSİ

14.1. Oktyabr döyüşləri və xalq-ordu birliyinin daha da güclənməsi

Ağır döyüşlər oktyabr ayında davam etdi. Düşmənin müxtəlif istiqamətlərdə hərəkət edən hərbi kolonları oktyabrın 1-də gecə Azərbaycan Ordusunun bölmələri tərəfindən məhv edildi. Ermənistan hərbi birləşmələri bütün cəbhə boyu ağır itkilər verdi və maddi-texniki təminatı daha ağır vəziyyətə düşdü. Qorxuya düşən arxa cəbhə hərbi qulluqçuları döyüş sursatını və yanacaq-sürtkü materiallarını ön xətt bölmələrinə çatdırmaqdan imtina etdilər. Həmin gün Tərtər şəhəri, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi, Füzuli rayonunun Horadiz şəhəri, Goranboy, Tərtər və Ağdam rayonlarının cəbhəboyu kəndləri, Şəmkirin Sabirkənd kəndi artilleriya atəşinə tutuldu. Yaşayış evləri dağıdıldı və təsərrüfatlara ziyan dəydi.

Beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədilə Ermənistan tərəfi Hadrut və Xocavənd yaşayış məntəqələrində mülki əhalinin guya Azərbaycan Ordusunun atəşinə məruz qalması barədə növbəti yalan məlumat yaydı. Amma Azərbaycan Ordusu mülki əhaliyə deyil, yalnız hərbi obyektlərə zərbə endirirdi.

Hadrutdakı işğalçı Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun 18-ci motoatıcı diviziyasının qərargahına, onun tabeliyində olan 1-ci motoatıcı alayının infrastrukturuna və Xocavənddəki 3-cü motoatıcı alayın qərargahına zərbələr vuruldu.[381]

Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların nümayəndələri üçün Azərbaycanı önləyici tədbirlər görməyə vadar edən hadisələr haqqında oktyabrın 1-də brifinq keçirdi. Brifinqdə işğal olunmuş ərazilərdə həyata keçirilən əməliyyatların gedişi, düşmən qüvvələrinə vurul-

381 Azərbaycan Ordusu yalnız hərbi obyektlərə zərbə endirir. 01.10.2020 // Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet saytı. URL: https: mod.gov.az/az/news/azerbaycan-ordusu-yalniz-herbi-obyektlere-zerbe-endirir-32495.html.

muş zərbə və digər məsələlər barədə də məlumat verildi. İşğalçı ölkənin mülki əhaliyə və infrastruktura qarşı yönəlmiş təxribat fəaliyyətləri diqqətə çatdırıldı. Bildirildi ki, Ermənistan tərəfi beynəlxalq humanitar hüquq prinsiplərinə məhəl qoymayaraq qoşunların qarşıdurma xəttindən xeyli uzaqda olan mülki yaşayış məntəqələrini məqsədli şəkildə hədəf alır. Əlavə olaraq sosial media vasitəsilə ermənilərin yaydıqları uydurma xəbərlər və həqiqətləri əks etdirməyən məlumatlar barəsində də məlumat verildi.

Oktyabrın 2-də gecə və səhər saatlarında cəbhənin müxtəlif istiqamətlərində döyüş əməliyyatlarını davam etdirən Azərbaycan qoşunları Madagiz ətrafındakı hakim yüksəklikləri azad edərək məntəqəni nəzarətə götürdü. Cəbrayıl-Füzuli istiqamətində müqaviməti qırılan düşmən geri çəkildi. Murovdağ istiqamətində də əməliyyat şəraiti Azərbaycan qoşunlarının nəzarəti altında idi. Düşmənin 5 zirehli və avtomobil texnikası, 3 hərbi infrastruktur obyekti və xeyli sayda şəxsi heyəti məhv edildi. İşğal edilmiş ərazilərə Ermənistandan gətirilən erməni "könüllüləri" qorxaraq müxtəlif bəhanələrlə döyüşdən imtina etdilər.[382]

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Ermənistan tərəfinə yaşayış məntəqələrini atəşə tutmamaq barədə dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq, Ağdam rayonunun Xındırıstan, Əlibəyli, Əhmədağalı və Səfərli kəndləri düşmən tərəfindən intensiv artilleriya atəşinə məruz qaldı.

Ermənistan ərazisindən yenidən Şəmkirin Sabirkənd yaşayış məntəqəsinə "Toçka-U" taktiki raket kompleksindən 10-a yaxın raket buraxıldı. Tərtər şəhərinin, rayonun Şıxarx qəsəbəsinin və Bərdə rayonunun Soğanverdilər kəndinin intensiv artilleriya atəşinə tutulması nəticəsində mülki əhali arasında ölən və yaralananlar oldu.

İşğalçı ölkədən fərqli olaraq, Azərbaycan Ordusu zərbəni yalnız döyüş meydanında vururdu. Düşmənin yüksək dağ zirvəsində yaratdığı dayaq məntəqəsinə silah-sursat çatdıran təminat vasitələri və döyüş texnikaları məhv edildi. Rəsmi məlumata görə, sentyabrın 27-dən oktyabrın 2-də saat 20:00-dək düşmənin ümumi itkiləri aşağıdakı kimi idi: 230-dək tank və digər zirehli texnika; 250 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatan; 38 ədəd hava hücumundan müdafiə vasitələri; 10 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi; 7 silah-sursat anbarı; 130-dan artıq avtomobil texnikası; 1 ədəd S-300 zenit-raket kompleksi.[383]

382 Gecə ərzində və səhər saatlarında cəbhənin müxtəlif istiqamətlərində döyüş əməliyyatları davam edib. 02.10.2020 // Azərtac. URL: https:azertag.az/xeber/Gece_erzinde_ve_seher_saatlarinda_cebhenin_muxtelif_istiqametlerinde_doyus_emeliyyatlari_davam_edib-1601377.

383 Düşmənin məhv edilən döyüş texnikasının siyahısı. 03.10.2020 // Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet saytı. URL: https:mod.gov.az/az/news/dusmenin-mehv-edilen-doyus-texnikasinin-siyahisi-32554.html.

Hərbi əməliyyatlar davam edərkən oktyabrın 2-də Prezident İlham Əliyevə zəng edən Fransa Respublikasının Prezidenti Emmanuel Makron təmas xəttində döyüşlərin davam etməsindən narahatlığını bildirərək, atəşkəsin bərpa edilməsinə və tezliklə danışıqların aparılmasına çağırdı. Prezident İlham Əliyev dedi ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın yaşayış məntəqələrinin ağır artilleriya atəşinə tutulması nəticəsində 19 mülki şəxs həlak olmuş, 60-dan çox adam yaralanmış, yüzlərlə ev dağıdılmışdır. Azərbaycan Ordusunun əks-hücum əməliyyatlarını həyata keçirərək işğal olunmuş ərazilərin bir hissəsini azad etdiyini deyən dövlət başçısı vurğuladı ki, Ermənistan danışıqlar prosesinə böyük zərbə vurmuşdur və silahlı qarşıdurmanın yaranmasına görə məsuliyyət tamamilə onun üzərinə düşür.

Azərbaycan Ordusu oktyabrın 3-də gün ərzində müəyyən olunmuş istiqamətlərdə irəliləyərək yeni dayaq məntəqələrini azad etdi, düşmənin xeyli sayda canlı qüvvəsini, hərbi və digər döyüş texnikasını məhv etdi. Axşama yaxın Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər şəhəri, rayonun Səhləabad, Qəzyan, Qapanlı, Qaynaq, Əskipara, Hüsənli, Ağdam rayonunun Ayaq Qərvənd, İmamqulubəyli, Qaradağlı, Təzəkənd, Ağcabədi rayonunun Muğanlı, Qiyaməddinli, Rəncbərlər və Goranboy rayonunun Tapqaraqoyunlu kəndləri intensiv artilleriya atəşinə tutuldu.

İşğal olunmuş ərazilərin azad edilməsi uğrunda əməliyyatlara tam dəstək verən Azərbaycan xalqı Silahlı Qüvvələrə müxtəlif formalarda yardımlar edirdi. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 nömrəli fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrə Yardım Fonduna oktyabrın 1-dək 120.106.408,24 AZN, 218.680,68 ABŞ dolları, 18.341,0 avro və 5000,0 rubl vəsait daxil olmuşdu. Qeyd etmək lazımdır ki, sentyabrın 1-dən oktyabrın 1-dək Silahlı Qüvvələrə Yardım Fonduna 6.691.593,07 AZN və 5102.8 ABŞ dolları vəsait verilmişdi.

Müdafiə Nazirliyinə Azərbaycan Ordusunun ön xətt bölmələrinə müxtəlif növ yardımların edilməsi barədə çoxlu sayda vətəndaş müraciətləri daxil olurdu. Lakin Azərbaycan Ordusunun hərbi hissələri, xüsusilə də ön xətt bölmələri tam təmin olunduğundan əlavə yardıma ehtiyac yox idi.

Ağır döyüşlər başladığı ilk gündən cəbhə bölgəsində təbliğat-təşviqat işləri də əməliyyat şəraitinə uyğun qurularaq həyata keçirilirdi. Azərbaycan Ordusunun qazandığı uğurların, döyüşçülərin rəşadətinin geniş ictimaiyyət arasında təbliği, Vətən torpaqlarının işğaldan azad edilməsində igidlik göstərən hərbi qulluqçuların xalqa tanıdılması işi təşkil edildi. Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının, Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin, "Azərbaycan Ordusu" qəzeti redaksiyasının əməkdaşları döyüş bölgəsinə ezam

edilmişdi. Cəbhəboyu zonada quraşdırılan səyyar mətbəələrdə "Sən qalib gələcəksən!", "Qalibiyyət döyüşü" və "Böyük Qələbə uğrunda" təşviqat vərəqələri, "Azərbaycan Ordusu" qəzetinin xüsusi buraxılışları, bukletlər hazırlanaraq cəbhədə olan şəxsi heyət və cəbhəboyu zonada yerləşən yaşayış məntəqələrinin sakinləri arasında yayılırdı.

Gəncə qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi tərəfindən təşkil edilmiş 4 təbliğat-təşviqat qrupu veteranların, ictimaiyyət nümayəndələrinin şəxsi heyət qarşısında çıxışlarını təşkil edir və konsertlər verirdi. Bundan əlavə səsgücləndirici maşınlar vasitəsilə Ümummilli lider Heydər Əliyevin və Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusu haqqında çıxışları, hərbi vətənpərvərlik mahnıları və döyüşlər barədə operativ məlumatlar cəbhəboyu zonadakı yaşayış məntəqələrində səsləndirilir, vətənpərvərlik mövzusunda bədii və sənədli filmlər nümayiş olunurdu. Bu tədbirlər döyüşən əsgər və zabitlərin mənəvi-psixoloji ruhunun yüksəlməsinə müsbət təsir göstərir, döyüş əzmini və qələbə ruhunu daha da artırırdı.

Strateji əhəmiyyətli Madagizin azad edilməsi Azərbaycan Ordusunun mövqelərini daha da gücləndirdi. Madagiz qələbəsini Prezident İlham Əliyev özünün rəsmi Twitter səhifəsindən belə bəyan etdi:

"Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!".[384]

Həmin gün dövlət başçısı Tərtər rayonunun Talış, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndlərinin azad edildiyini də rəsmi Twitter səhifəsi vasitəsi ilə millətə çatdırdı.

Prezident İlham Əliyev tərəfindən Madagizə tarixi adı olan Suqovuşan qaytarıldı. Suqovuşan-Ağdərə istiqamətində gedən döyüşlərdə Ermənistan silahlı qüvvələrinin 77-ci tank taborunun 4 tankı məhv edildi, 3 tankı isə qənimət götürüldü. İşğalçı ölkənin Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayına artilleriya zərbələrinin endirilməsi nəticəsində alayın 4 ədəd avtomobil texnikası məhv edildi, şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan oldu. 5-ci dağatıcı alayın bir neçə bölməsinin şəxsi heyəti döyüş mövqeyini tərk edərək qaçdı.

Döyüş meydanında savaşla yanaşı informasiya sahəsində də mübarizə davam edirdi. Bu baxımdan dövlət başçısının müsahibələri müstəsna rol oynayırdı. Prezident İlham Əliyev oktyabrın 2-də "Əl-Cəzirə" televiziya kanalına verdiyi

384 Prezident İlham Əliyev: Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. 03.10.2020 // Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet saytı. URL: https:mod.gov.az/az/news/prezident-ilham-eliyev-bu-gun-azerbaycan-ordusu-madagizde-azerbaycan-bayragini-qaldirdi-32648.html.

müsahibəsində münaqişənin yenidən alovlanmasının səbəbkarının Ermənistan olduğunu belə izah etdi:

"Ermənistan sülh istəmir. Onlar bizim torpaqları həmişəlik işğal altında saxlamaq istəyirlər. Onlar status-kvonu dəyişmək istəmirlər və bu da münaqişənin bu qədər uzun çəkməsinin səbəbidir. Əgər Ermənistan iradə göstərsəydi və əsas beynəlxalq təşkilatların qətnamələrinə uyğun şəkildə davransaydı, münaqişə uzun illər bundan əvvəl həll edilmiş olardı. Çünki 1993-cü ildə Ermənistan ərazilərimizin bir hissəsini işğal etdikdə BMT Təhlükəsizlik Şurası qoşunların bizim ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması ilə bağlı dörd qətnamə qəbul etdi. Lakin bu qətnamələr kağız üzərində qalmaqdadır. ...Minsk qrupu artıq 28 ildir ki, fəaliyyət göstərir və heç bir nəticə yoxdur. ...əsas səbəb Ermənistanın mövqeyidir, ikinci səbəb Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına başlamaq üçün vasitəçilər tərəfindən təkid göstərilməməsi və təzyiqin olmamasıdır".[385]

Jurnalistin Ermənistanla yenidən mümkün danışıqlar barədə verdiyi suala cavabında dövlət başçısı dedi:

"Əslində, danışıqlar dayanıb. Çünki onun (Ermənistanın baş naziri N.Paşinyan nəzərdə tutulur – M.Q.) *"Qarabağ Ermənistandır" ifadəsindən sonra mən danışıqlar üçün heç bir imkanın olmadığını dedim. Lakin Minsk qrupunun həmsədrləri Ermənistan hakimiyyətinin yeni olduğunu, ola bilsin emosiyalarına və sözlərinə tam hakim ola bilmədiyi üçün məndən xahiş edərək deyirdilər ki, Azərbaycan daha çox anlayış göstərsin. Mən dedim ki, yaxşı, gəlin cəhd edək... Bu bəyanatdan sonra mənim Ermənistanın baş naziri ilə görüşüm oldu. Lakin görüşlər tamamilə mənasız idi, rəsmi xarakter daşıyırdı. O, mənə əraziləri geri qaytarmayacaqlarını deyirdi. Əgər onlar bunu etmək istəmirlərsə, əgər onlar neçə illər ərzində Minsk qrupu tərəfindən hazırlanmış prinsiplərə qarşı çıxırlarsa və danışıqları məhv edirlərsə, bundan sonra nədən danışmaq olar ki? Danışıqlar birtərəfli qaydada aparıla bilməz".*[386]

Rusiya Federasiyasının vasitəçilik səyləri haqqında jurnalistin sualına cavabında isə ölkə rəhbəri bildirdi:

"Rusiya Amerika Birləşmiş Ştatları və Fransa ilə birlikdə vasitəçi olan ölkələrdən biridir... ...Rusiyanın xüsusi mövqeyi var, çünki o, regionda Azərbaycana qonşu ölkədir, onun Ermənistanla dövlət sərhədi yoxdur. Lakin buna baxmayaraq, Rusiya Azərbaycan və Ermənistanla yaxşı münasibətləri və tarixi münasibətləri olan bir ölkədir. Buna görə əlbəttə ki, vasitəçilik etmək üçün onların rolu və bacarığı obyek-

385 Yenə orada.
386 Yenə orada.

tiv səbəblərə görə regiondan uzaqda yerləşənlərlə və ola bilsin, son onillikdə burada nələrin baş verdiyini tam şəkildə bilməyənlərlə müqayisədə çox yüksəkdir.

Ona görə də düşünürük ki, üç ölkə birlikdə işləməyə davam etməlidir, əgər onların hamısı neytrallığı qorusa. Bu, mühümdür. Son günlərdə əks-təsir göstərən, neytrallıq mövqeyində müəyyən dəyişikliyi nümayiş etdirən bəzi bəyanatlar görməyimiz bizi narahat edir. Hər bir ölkənin öz mövqeyi ola bilər, bu, normaldır. Lakin əgər siz belə həssas məsələdə vasitəçisinizsə, bu mövqedən çıxış etməlisiniz. Əgər milli mövqeyinizdən çıxış etmək istəyirsinizsə, onda siz Minsk qrupunun həmsədrliyindən çıxmalısınız, istədiyinizi deyin, kimi istəyirsinizsə onu günahlandırın, baş verənlərlə bağlı sübutu olmayan xəbərlər verin və sözsüz ki, heç kim etiraz etməyəcək. Lakin əgər siz vasitəçisinizsə, neytral olmalısınız, vasitəçi olmalısınız. Əks halda, vasitəçilik bizim tərəfimizdən qəbul edilməyəcək".[387]

Atəşkəsə birtərəfli qaydada nail olmağın mümkünsüzlüyünü deyən dövlət başçısı bildirdi ki, müharibəni Azərbaycan tərəfi başlamamışdır, özünü müdafiə etməli idi və əgər bu dəfə cavab verilməsəydi, mülki şəxslər arasında yüzlərlə itki olacaqdı. İşğal altında saxlanılan ərazilərin qədim Azərbaycan torpaqları olduğunu deyən Prezident vurğuladı ki, bu, azərbaycanlıların əsrlər boyu yaşadığı ərazilərdir, onlar ermənilər tərəfindən işğal olunmuş və dağıdılmışdır. Azərbaycanın şəhərləri, kəndləri yenidən quracağını, onların əvvəlki adlarını qaytaracağını deyən dövlət başçısı əlavə etdi ki, ermənilər Azərbaycan mədəniyyətinə qarşı soyqırım törətmiş, işğal olunmuş ərazilərdə bütün məscidləri dağıtmış, məscidlərdə donuz və inək saxlamaqla bütün müsəlmanları təhqir etmiş, şəhər və kəndlərin adlarını dəyişdirmişlər.

Ermənistanın öz müqəddəratını təyinetmə prinsipindən sui-istifadə etməsi üzərində dayanan Prezident vurğuladı ki, bu, erməni təbliğatının əsas etibarilə beynəlxalq hüquq üzrə mütəxəssis olmayan sadə insanlardan ibarət beynəlxalq ictimai rəyi çaşdırmaq üçün tez-tez istifadə etdiyi məsələdir. Öz müqəddəratını təyinetmə beynəlxalq hüququn mühüm prinsiplərindən biridir, lakin BMT nizamnaməsində, Helsinki Yekun Aktında yazılırdı ki, bu prinsip ölkələrin ərazi bütövlüyünə ziyan vurmamalıdır, ölkənin ərazi bütövlüyü güc yolu ilə və əhalinin razılığı olmadan dəyişdirilə bilməz. Ona görə də Dağlıq Qarabağ məsələsində öz müqəddəratını təyinetmə ermənilərin etmək istədikləri şəkildə işləmirdi. Başqa bir dəlil o idi ki, erməni xalqı artıq öz müqəddəratını təyin etmişdi, müstəqil Ermənistan dövləti var idi. Ermənilərin Fransa, Amerika, Rusiya, Yaxın Şərqdə yaşadıqlarına diqqəti cəlb edən Prezident birmənalı olaraq bildirdi ki, onlar öz

387 Prezident İlham Əliyev: Ermənistan sülh istəmir, onlar bizim torpaqları həmişəlik işğal altında saxlamaq istəyirlər. 03.10.2020 // URL: https: azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Ermenistan_sulh_istemir_onlar_bizim_torpaqlari_hemiselik_isgal_altinda_saxlamaq_isteyirler_VIDEO-1602531.

müqəddəratlarını həmin ölkələrdə istəsinlər. Dövlət başçısı belə bir sual etdi ki, əgər ermənilər özlərinə məxsus olmayan torpaqlarda sadəcə əksəriyyət olduqlarına görə öz müqəddəratını təyin etmək istəsəydilər, həmin ölkələrin rəhbərliklərinin reaksiyası necə olardı? Ermənilərin uzun illər boyu istifadə etdikləri taktika gəlmək, görmək, torpaq istəmək və sonra özlərinin qondarma qədim tarixləri barədə uydurma xəbərlər hazırlamaqla və həmin torpaqları özləri üçün tələb etməklə ərazinin tarixi kimliyini dəyişməyə başlamaq olmuşdu. Prezident ermənilərə öz müqəddəratını təyinetmə hüququ vermək istəyən ölkələrin rəhbərlərinə bildirdi ki, qoy onlar öz torpaqlarının bir hissəsini Dağlıq Qarabağ regionundan olan ermənilərə versinlər, qəbul etsinlər və orada öz müqəddəratını təyinetmə hüququ versinlər.

Dövlət başçısı münaqişənin regional münaqişəyə çevrilməsinin qəti əleyhinə olduqlarını bildirdi. Döyüş meydanında çox ciddi məğlubiyyətlə üzləşdiyi bir vaxtda Ermənistanın əsas hədəfi bu münaqişəni regional münaqişəyə çevirmək idi. Lakin region dövlətləri olan Türkiyə, Rusiya və İran buna imkan verməzdilər.

Prezident Türkiyə hərbi təyyarələrinin döyüşlərdə iştirakı barədə xəbərlərin yalan olduğunu bildirərək dedi ki, Türkiyə qardaş ölkədir, Ermənistanın hücumunun ilk günündən Azərbaycana tam dəstəyini ifadə etmişdir. Azərbaycanda hər hansı xarici ölkənin iştirakına dair heç bir dəlilin olmadığını deyən ölkə başçısı bildirdi ki, Azərbaycanın güclü ordusu və ehtiyatda kifayət qədər insanı vardır. Ermənistanın isə xarici yardıma ehtiyacı vardır, çünki əhalisinin sayı azalır, cəmi 2 milyon nəfərdir, ona görə də Yaxın Şərqdən insanları cəlb edir.

Prezident döyüşlərin dayandırılmasına dair Azərbaycan dövlətinin mövqeyini bəyan edərək bildirdi ki, Ermənistan beynəlxalq hüquqa riayət etsə, ərazilərin bir hissəsindən vaxt cədvəlinə müvafiq olaraq dərhal çıxmağa başlasa, hərbi əməliyyatlar dayandırıla və diplomatiya işləyə bilər.[388]

Dövlət başçısının müsahibəsi müharibənin başlanmasının səbəbləri, gedişi və dövlətin mövqeyinin dünyaya yayılması baxımından əhəmiyyətli olub, Ermənistana, xarici ölkələrdəki ermənilərə və lobbisinə vurulan ağır informasiya zərbəsi idi.

Oktyabrın 3-də Xankəndi şəhərindən şimalda Ballıca adlanan yerdə yerləşən düşmənin hərbi hissəsindən Azərbaycan Ordusunun bölmələrinin mövqeləri və yaşayış məntəqələri intensiv atəşə tutuldu. Tərtər və Horadiz şəhərləri də vuruldu.

388 Prezident İlham Əliyev: Ermənistan sülh istəmir, onlar bizim torpaqları həmişəlik işğal altında saxlamaq istəyirlər. 03.10.2020 // Azərtac. URL: https:azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Ermenistan_sulh_istemir_onlar_bizim_torpaqlari_hemiselik_isgal_altinda_saxlamaq_isteyirler_VIDEO-1602531.

Döyüş meydanında məğlubiyyəti ilə barışmaq istəməyən işğalçı ölkə oktyabrın 4-də Gəncəni raket atəşinə tutdu. Mülki əhalini hədəf alan düşmən guya Gəncə şəhərindəki hərbi obyektlərin vurulmasına dair yalan xəbər yaydı. Atəş nəticəsində dinc sakinlərə, mülki infrastruktura və qədim tarixi tikililərə ziyan dəydi. Eyni zamanda Ağcabədi rayonunun Sarıcalı, Ağdam rayonunun Baharlı, Çıraqlı, Üçoğlan və Bərdə rayonunun Şahvəllər yaşayış məntəqələri intensiv artilleriya atəşinə tutuldu. Mülki obyektlər dağıdıldı. Belə bir vəziyyətdə Azərbaycanın Hərbi Komandanlığı döyüşlər gedən istiqamətlərdəki yaşayış məntəqələrindəki erməni vətəndaşlara aşağıdakı məzmunda müraciət etdi:

"Azərbaycan Ordusunun hədəfi işğal olunmuş ərazilərimizdəki atəş mövqeləri, hərbi obyektlər və hərbi infrastrukturdur. Bununla əlaqədar bu ərazilərdə məskunlaşan mülki əhalini döyüşlər gedən bölgələrdən uzaq durmağa çağırırıq.

Bildiririk ki, onların ağır döyüşlərdən ziyan çəkməməsi və ərazidən maneəsiz təxliyəsi üçün tərəfimizdən müvafiq şərait yaradılacaq. Mülki əhali ilə Cenevrə konvensiyasının tələblərinə uyğun rəftar olunacaq və onların insan hüquqları qorunacaq".[389]

Bu müraciət Azərbaycan dövlətinin müharibə siyasətinin işğalçı Ermənistanın siyasətindən köklü şəkildə fərqləndiyini bir daha göstərdi. Azərbaycan Ordusunun hədəfi əhali və mülki obyektlər deyil, işğalçı hərbi hissələr və obyektlər idi.

14.2. Cəbrayıl şəhərinin işğaldan qurtarılması

Prezident İlham Əliyev oktyabrın 4-də xalqa müraciət edərək Cəbrayıl şəhərinin və rayonunun 9 kəndinin işğaldan azad edilməsi barədə belə məlumat verdi:

"Əziz həmvətənlər. Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəh-

389 Azərbaycanın Hərbi Komandanlığı işğal altında olan ərazilərimizdə yaşayan dinc əhaliyə müraciət etdi. 04.10.2020 // URL: http:xalqqazeti.com/az/news/58562.

mət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm. Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir!".[390]

Azərbaycanın apardığı müharibənin məqsədi və hərbçilərin şücaəti barədə ölkə rəhbəri dedi:

"...Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerinə oturdur, düşməni torpaqlarımızdan qovur, canı-qanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaqdır.

...Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib".[391]

İşğaldan azad edilmiş ərazilərdə görüləcək işlər barədə danışan Prezident vurğuladı:

"Biz bütün şəhərləri bərpa edəcəyik. Ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik. Bu bölgələrə həyat qayıdacaq. Biz ermənilər tərəfindən bizim tarixi adlarımızı dəyişdirib tarixi saxtalaşdırmaq, eyni zamanda, Azərbaycan xalqının tarixi-mədəni irsini silmək cəhdlərinə son qoyduq. Bizim yaşayış məntəqələrinin tarixi adları bərpa edilir və bərpa ediləcəkdir".[392]

Məlum olduğu kimi, münaqişənin tənzimlənməsinə dair qəbul edilmiş sənədlər uzun illər boyu kağız üzərində qalmışdı. BMT Təhlükəsizlik Şurası öz qətnamələrinin yerinə yetirilməsi üçün səy göstərməmişdi. İyirmi yeddi il ərzində Azərbaycan danışıqların bütün dövrlərində konstruktiv, ədalətli mövqe göstərmişdi. Ancaq bunun müqabilində təcavüzkar ölkə daha da azğınlaşmışdı. Ölkə rəhbəri bununla bağlı bildirdi:

"Təcavüzkarın tamahı daha da böyüyüb, bizim dədə-baba torpağımıza göz dikib. Nəticədə işğal edilmiş bütün torpaqları qondarma "Dağlıq Qarabağ respublikası"na aid edib, yeni xəritələr dərc edib və bu xəritələrdə işğal edilmiş bütün ərazilər Dağlıq Qarabağ kimi təqdim edilir. Ondan sonra nə oldu? Ondan sonra bəyan etdilər ki, bir qarış torpağı Azərbaycana qaytarmayacağıq".[393]

Prezident İlham Əliyev Azərbaycan dövlətinin işğalla barışmayacağına dair Azərbaycan dövlətinin və millətinin qəti, aydın mövqeyini bəyan etdi:

"Hesab edirdilər ki, Azərbaycan xalqı və mən – Azərbaycan Prezidenti bu vəziyyətlə barışacağam?! Hesab edirdilər ki, bizim müqəddəs şəhərimiz olan Şuşa erməni tapdağında qalacaq, mən bununla barışacağam?! Azərbaycan xalqının tarixinə

390 Prezident: Bu gün Cəbrayılın işğaldan azad edilməsi Ermənistana, onun havadarlarına dərs olmalıdır. 04.10.2020 // Azərtac. URL: https:azertag.az/xeber/Prezident_Bu_gun_Cebrayilin_isgaldan_azad_edilmesi_Ermenistana_onun_havadarlarina_ders_olmalidir_VIDEO-1603881.

391 Yenə orada.

392 Yenə orada.

393 Yenə orada.

zərbə vuran erməni cəlladları ilə biz danışıqlarmı aparmalıyıq? Azərbaycan xalqı təhqir edildi, Şuşada qondarma rejimin başçısı özünə "andiçmə mərasimi" keçirmişdir. Baxım görüm, indi andiçmə mərasimi harada keçiriləcək, yas mərasimini keçirəcək! İndi qaçıb siçan kimi gizlənib. Çıxsın ortalığa! Ermənistanın baş naziri gedib Şuşada, Cıdır düzündə rəqs edir, hesab edir ki, biz bununla barışacağıq?! Səhv edir! Heç vaxt biz bununla barışmayacağıq. Qondarma "Dağlıq Qarabağ respublikası"nın parlamentinin Şuşaya köçürülməsi nə deməkdir?! Yenə də Azərbaycan xalqını təhqir etmək cəhdidir. Cəbrayıla Ermənistandan yeni yolun çəkilməsi nə deməkdir?! O deməkdir ki, orada qanunsuz məskunlaşma aparılacaq. Artıq Livandan, başqa yerlərdən ermənilər gətirirlər, köçürürlər bizim qədim şəhərimizə, Şuşada yerləşdirirlər, televiziyada göstərirlər, beynəlxalq konvensiyaları pozurlar, Cenevrə Konvensiyasını tapdalayırlar. Bunlara söz deyən var?!".[394]

İşğalçı ölkənin qanunsuz hərəkətlərinə qarşı Azərbaycanın diplomatik səylərinə münasibətdə beynəlxalq təşkilatların mövqeyi susqun olmuşdu. Onlar işğalçını müdafiə etmişdilər. Prezident dedi:

"Tapşırıq vermişəm bütün bizim xarici diplomatik orqanlara – məsələ qaldırın, BMT-də, ATƏT-də, Avropa İttifaqında, başqa təşkilatlara, deyin ki, bu, qanunsuzdur! Qanunsuz məskunlaşma cinayətdir! Buna reaksiya oldu?! Minsk qrupu bir açıqlama verdimi?! Vermədi! Avropa İttifaqı verdimi?! Vermədi! Dedi ki, bu, bizi maraqlandırmır. Maraqlandırmırsa, indi də maraqlandırmasın. İndi nə əl-ayağa düşmüşünüz? İndi nə hoqqalardan çıxırsınız? Azərbaycana qarşı iftiralar irəli sürülür, bəzi ölkələr, Avropa ölkələri bizi ittiham edirlər. Getsinlər güzgüyə baxsınlar. Bu ittihamların heç bir əsası yoxdur...".[395]

Yaranmış şərait üçün bütün təqsir işğalçı dövlətin və onu müdafiə edən dairələrin üzərinə düşürdü. Azərbaycan öz ərazilərini təkbaşına azad edirdi. Ölkə başçısı bildirdi:

"...indiki vəziyyətdə birinci günahkar Ermənistan rəhbərliyidir. Eyni zamanda, bu məsələyə biganə yanaşan və daim Ermənistanın tərəfini saxlayan və bu işğalı əbədi etmək istəyən bəzi ölkələrin dairələridir. Azərbaycan özü bu məsələni həll edir və mən 27 sentyabr hadisələrindən əvvəl Ermənistana demişdim, gəl, təkbətək vuruşaq. Baxaq kim-kimdir! İndi nə oldu? Paşinyan hər gün bir dünya liderinə zəng edir".[396]

Döyüşlərdə Azərbaycan hərbçiləri qəhrəmanlıqlar göstərir, torpaqları bir-birinin ardınca işğaldan azad edir, düşmənin hərbi texnikasını, silah və sursatını ələ keçirirdi. Dövlət bayrağı azad olunmuş ərazilərdə ucaldılırdı. Bu barədə Prezident dedi:

394 Yenə orada.
395 Yenə orada.
396 Yenə orada.

"İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!".[397]

Ermənistanın Azərbaycan qarşısında şərt qoyması gülünc bir şey idi. Dövlət başçısı işğalçı ölkəyə qəti şəkildə xəbərdarlıq etdi:

"Ermənistan rəhbərliyi yaxşı düşünsün, hələ ki, gec deyil. Bizə yeddi şərt irəli sürür. Sən kimsən ki, bizə şərt qoyasan?! İndi baxım görüm nə şərt qoyursan bizə! Yıxılıb diz çöküb yalvarırsan ki, atəşkəs bərpa olunsun. Atəşkəs Ermənistanın baş nazirinin xahişi ilə 2 il ərzində bərpa olunmuşdu. Məndən xahiş etmişdi ki, daxildə vəziyyət ağırdır, oradan-buradan məni sıxırlar, mənə vaxt verin, mən bu məsələni həll edəcəyəm, mən yeni fikirlərlə gəlmişəm. Mən keçmişdə nə olub hamısının üstündən xətt çəkmişəm, imkan verin, vaxt verin. Dedim yaxşı. Nə oldu? Bir ildən sonra çıxış edib deyir ki, "Qarabağ Ermənistandır". İndi desin "Qarabağ Ermənistandır".[398]

Bəzi xarici ölkələr işğalçı Ermənistana deyil, işğala məruz qalan Azərbaycana təzyiqlər edirdilər. Lakin Azərbaycan dövləti həmin təzyiqləri rədd edirdi. Göstərilən təzyiqlərə heç bir məhəl qoymadığını və hərbi əməliyyatların dayandırılmasından ötrü tək şərtinin olduğunu Azərbaycan rəhbəri belə ifadə etdi:

"Mənim şərtim birdir - çıxsın bizim torpaqlarımızdan, çıxsın, qarşıdurma dayansın. Amma sözdə yox, əməldə. Desin ki, mən Azərbaycanın ərazi bütövlüyünü tanıyıram, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən işğal edilmiş torpaqlardan qoşunlarımızı çıxaracağam, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən Azərbaycan xalqından üzr istəyirəm və desin ki, Qarabağ Ermənistan deyil. Sonuncu şərt budur ki, qrafik versin, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması cədvəli verilsin bizə. Onda biz əlbəttə ki, atəşkəs rejimini bərpa edəcəyik. Halbuki, indi şiddətli döyüşlər getdiyi zaman bunu etmək çətindir. Çünki biz dayansaq, onlar dayanmayacaq. Amma hər halda, bunun üzərində işləmək olar. Yoxsa ki, siz dayanın, onlara vaxt verin. Nəyə vaxt verək? Vaxt verək ki, güc toplasınlar? Vaxt verək ki, yenə də adam toplasınlar bizə hücum etsinlər? Bizi belə sadəlövh sayırlar bunlar? Vaxt verin ki, bunlar gəlsinlər danışıqlara. Mən nə lazımdır dedim, vəssalam".[399]

397 Yenə orada.
398 Yenə orada.
399 Yenə orada.

Haqq-ədalətin tərəfində olan Azərbaycan tarixinin şərəfli günlərini yaşayırdı. Müraciətinin sonunda ölkə rəhbəri bir daha qətiyyətlə bildirdi:

"Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".[400]

Dövlət başçısının müraciəti Azərbaycan Respublikasının siyasətinin birmənalı, aydın və konkret olduğunu göstərdi. Bir daha məlum oldu ki, işğaldan azad edilmiş bütün ərazilər planlı şəkildə dirçəldiləcəkdir.

"Əl-Ərəbiyə" televiziya kanalına oktyabrın 4-də müsahibə verən Prezident İlham Əliyev Azərbaycanın mülki əhalisinə, yaşayış məntəqələrinə qarşı törədilən təxribatlardan, Azərbaycanın uğurlu əks-hücum əməliyyatlarından və vasitəçilərin mövqelərindən danışdı, Azərbaycanın guya muzdlulardan istifadə etməsinə dair Ermənistanın uydurmalarını belə darmadağın etdi:

"Biz bunu tamamilə rədd edirik. Son on gün ərzində, ötən həftə Fransa Prezidenti mənə iki dəfə telefon zəngi edib. Mən ona dedim ki, bizə dəlil verin. Bizim ərazimizdə guya suriyalı döyüşçülərin olmasına dair heç bir dəlil yoxdur. O, mənə sentyabrın 27-də zəng edəndə mən ondan soruşdum və o vaxtdan bu yana məndə heç bir dəlil yoxdur. Əgər belə dəlilləri varsa, niyə bizə təqdim etmədilər? Sonra o, mənə bir neçə gün əvvəl zəng edəndə bu məsələni yenidən qaldırdı. Dedi ki, onlarda kəşfiyyat məlumatı var. Mən dedim onu bizimlə paylaşın. Heç bir dəlil və sübut təqdim etmədən ölkəni ittiham etmək doğru deyil və bu gün mən bu qəbuledilməz ittihamla bağlı Fransadan bir dəlil belə almamışam. Azərbaycan torpağında əcnəbi döyüşçülər yoxdur və mən Fransa Prezidentinə dedim ki, bizim ordumuz demək olar ki, yüz min nəfərdən ibarətdir. Bizim indi döyüş zonasında etdiyimiz internetdə göstərilir. Bizim müasir dronlarımızın erməni tanklarını və hava hücumuna qarşı sistemlərini necə dağıtdığını hər kəs görə bilər... ...bu ittihamlar tamamilə əsassızdır".[401]

Türk təyyarələrinin döyüşlərdə iştirakına dair Ermənistan tərəfi yalanlar uydururdu. Bu iftiraları ifşa edən dövlət başçısı Avropa siyasətçilərinə də xəbərdarlıq etdi:

400 Yenə orada.

401 "Biz işğal olunmuş bütün ərazilərdə Azərbaycan bayrağını qaldıracağıq". Prezident İlham Əliyev "Əl-Ərəbiyə" televiziya kanalına müsahibə verib // "Azərbaycan" qəzeti, 2020, 6 oktyabr.

"...ermənilər başqa bir feyk xəbər yayıblar ki, Türkiyəyə məxsus F-16 Ermənistanın Su-25 təyyarəsini vurub. Bu, feyk xəbər idi. Bu feyk xəbər mediaya təqdim olundu. Siyasətçilər, avropalı siyasətçilər bu feyk məlumatı istifadə etməyə başladılar və indi sübut olunanda ki, bu, baş verməyib, heç kim üzr belə istəmədi. Mən bizi ittiham edənlərdən üzrxahlıq tələb edirəm. Mən onlardan məsuliyyətli olmağı, söylədiklərinə nəzarət etməyi tələb edirəm...".[402]

Regionda çirkin niyyətləri olan həmin dövlətlər münaqişənin davam etməsində, bir ovuc ermənivə muxtariyyət və ya müstəqillik verilməsində maraqlı idilər. Ölkə rəhbəri dedi:

"Onlar Azərbaycandan əl çəkməlidirlər, onlar regiondan əl çəkməlidirlər. Biz burada öz torpağımızdayıq. Bizim torpağımız işğal olunub.

Əgər Fransa Dağlıq Qarabağ üçün öz müqəddəratını təyinetmə istəyirsə, qoy onlar demək olar ki, sakinlərinin yarısı ermənilərdən ibarət olan Marsel şəhərini onlara versinlər və onlara Dağlıq Qarabağ respublikası elan etməyə icazə versinlər və qoy onlara müstəqillik versinlər. Qoy Korsikaya müstəqillik versinlər, qoy basklara müstəqillik versinlər. Niyə onlar bizdən Dağlıq Qarabağ üçün müstəqillik tələb edirlər? Onların bunu bizdən tələb etməyə nə haqqı var?... Əgər biz muzdlular və terrorçular barədə danışmağa başlasaq, düşünürəm ki, bizi günahlandıranlar özləri çox utancverici vəziyyətə düşəcəklər. Yaxşı olar ki, onlar bizi günahlandırmazdan əvvəl güzgüyə baxsınlar".[403]

Ermənistanı müdafiə edən dövlətlər münaqişənin hərbi yolla həllinin mümkün olmadığını deyərək, nəticəsi olmayan diplomatik danışıqlar aparmaqla onu dondurmağa çalışır, problemi həll etmirdilər. Həmin iddiaları dövlət başçısı belə alt-üst etdi:

"Mən çox eşidirəm münaqişənin hərbi yolla həlli yoxdur. Birincisi, mən bununla razı deyiləm. İkincisi, yaxşı, əgər hərbi həll yolu yoxdursa, bizə qeyri-hərbi həll yolu verin, bizə diplomatik həll verin. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl edin. Onlar dünyanın ən ali beynəlxalq qurumu tərəfindən qəbul olunub və bu qətnamələr erməni qoşunlarının işğal olunmuş ərazilərdən heç bir şərt olmadan çıxarılmasını tələb edir. Biz 1992-ci ildən bu yana danışıqlar aparırıq və bu 28 il ərzində hər hansı diplomatik həll olubmu? Vasitəçilər və ya digər beynəlxalq təşkilatlar bizə siyasi həll təqdim ediblərmi? Xeyr. Onlar bu münaqişəni dondurulmuş etdilər. Lakin o dondurulmuş deyil. Biz nə qədər gözləməliyik? Daha 30 il? Ermənilər bizim torpağımızda oturmağa və bizim insanlarımıza öz evlərinə geri qayıtmağa icazə verməməyə nə qədər davam edəcəklər? Əgər beynəlxalq ictimaiyyət beynəlxalq qətnamələrin yerinə yetirilməsini təmin edə bilmirsə, Azərbaycan

402 Yenə orada.
403 Yenə orada.

bunu özü edəcək. Bu da baş verir. Mən bir daha münaqişənin həllinə kömək etmək istəyən bütün tərəflərə, həmçinin Ermənistan rəhbərliyinə deyirəm ki, nə qədər gec deyil işğala indi son qoyun. Bəyanat verin ki, siz həll prinsiplərini qəbul edirsiniz, Azərbaycanın ərazi bütövlüyünü qəbul edirsiniz, işğal olunmuş bütün ərazilərdən çıxmaqla bağlı bizə vaxt cədvəli verəcəksiniz və Azərbaycan ərazisində "Qarabağ Ermənistandır" deyən Ermənistanın baş naziri Azərbaycan xalqı qarşısında üzr istəməli və deməlidir "Qarabağ Ermənistan deyil" və onda biz dayanarıq".[404]

Dövlət rəhbərinin müsahibəsi Azərbaycan Respublikasının müharibə siyasətinin bütün mahiyyətini və məqsədlərini aydın ifadə edir və bir daha göstərirdi ki, heç bir təzyiq onu yolundan döndərə bilməz. Dünya ölkələri Azərbaycanın ədalətli müharibə apardığına bir daha əmin olurdu.

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, döyüş meydanında məğlubiyyəti ilə barışmayan işğalçı Ermənistanın oktyabrın 1-dən başlayaraq Cəbrayıl rayonunun Cocuq Mərcanlı, Füzuli rayonunun Horadiz şəhərini, Goranboy, Tərtər, Ağdam rayonlarını, Ermənistan ərazisindən isə Şəmkir rayonunun ərazisini atəşə tutması nəticəsində dinc əhaliyə və mülki obyektlərə ziyan dəymişdir. Təcavüzkar ölkə müharibə qanunlarını kobudcasına pozaraq hərbi cinayətlər törətmişdir.

Azərbaycan Ordusu Füzuli-Cəbrayıl istiqamətində bir sıra əraziləri işğalçılardan azad etmişdir. Düşmən geri çəkilməyə məcbur olmuşdur.

Prezident İlham Əliyevə zəng edən Fransa Respublikasının Prezidenti Emmanuel Makron qondarma erməni təbliğatının uydurmalarına əsaslanaraq guya muzdlulardan istifadə edilməsinə və b. məsələlərə dair əsassız iddialar səsləndirmişdir. Azərbaycan rəhbəri həmin iddiaları qətiyyətlə rədd edərək sübutların verilməsini istəmişdir. Lakin qarşı tərəf konkret bir söz söyləyə bilməmişdir.

Əməliyyatların gedişində hərbçilərin döyüş ruhunu artırmaq üçün təbliğat-təşviqat qrupları yaradılmışdır. Həmin qruplar hərbçilər qarşısında çıxışlar etmişlər.

"Əl-Cəzirə" televiziya kanalına verdiyi müsahibəsində Azərbaycan Prezidenti Ermənistanın işğalçılıq siyasətinin, uydurmalarının bütün mahiyyətini, müharibənin aparılmasının məqsədlərini və xarakterini izah etmişdir. Qeyd etmişdir ki, Azərbaycanın hədəfi mülki obyektlər deyil, işğalçı ordu və hərbi obyektlərdir.

404 Yenə orada.

Təcavüzkar ölkənin müharibə cinayəti törədərək Gəncə şəhərini raket atəşinə tutması nəticəsində yaşayış binaları dağıdılmış, dinc əhalidən öldürülənlər olmuş və mülki obyektlərə ziyan dəymişdir. Prezident İlham Əliyev xalqa müraciət edərək Ermənistanın barbar siyasətinin mahiyyətini bir daha açmışdır. Hərbi əməliyyatlar meydanından uzaqda yerləşən Gəncə şəhərinin raket atəşinə tutulması təcavüzkar ölkənin acizliyinin göstəricisi olmuşdur. Dövlət başçısı Cəbrayıl şəhərinin azad edilməsini xəbər verərək Azərbaycan ordusunun qəhrəmanlığından bəhs etmiş, bir daha bildirmişdir ki, hərbi əməliyyatların dayandırılmasının yalnız bir şərti vardır: Ermənistan işğal edilmiş ərazilərdən çıxmalı və konkret vaxt cədvəli verməlidir.

15-ci FƏSİL

TƏCAVÜZKAR ERMƏNİSTAN MÜHARİBƏ CİNAYƏTLƏRİNİ DAVAM ETDİRİR

15.1. Mülki əhali işğalçı ölkənin hədəfində

Döyüş meydanında ağır məğlubiyyətilə barışmayan işğalçı Ermənistan oktyabrın 4-də yenidən müharibə cinayəti törədərək Mingəçevir şəhərinə raket, Tərtər şəhərinə isə artilleriya zərbələri endirdi. Bu vəhşi hərəkət nəticəsində yaralananlar oldu.

Azərbaycan Hava Hücumundan Müdafiə Qüvvələrinin radiolokasiya sistemlərinin texniki vasitələri oktyabrın 5-də səhər saatlarında Ermənistan ərazisindən Azərbaycana atılan raket buraxılışını qeydə aldı. Bütün cəbhə boyu sıxışdırılan düşmən artıq bir neçə gün idi ki, Ermənistan ərazisindən Azərbaycanda əhalinin yığcam şəkildə yaşadığı məntəqələrə və mülki infrastruktura ardıcıl raket zərbələri endirirdi. Lakin işğalçı ölkənin Müdafiə Nazirliyi Azərbaycan ərazisinin atəşə tutulması faktını inkar edirdi.

İşğalçı ölkə Mingəçevirlə yanaşı, Beyləqan, Bərdə və Tərtər şəhərlərinə də zərbə endirdi. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yaydığı məlumatda yazılırdı ki, oktyabrın 5-də saat 11 radələrində Füzuli rayonunun Horadiz şəhəri, Ağcabədi rayonunun kəndləri, Tərtər şəhəri və rayonun kəndləri, Goranboy və Göygöl rayonlarının əraziləri təcavüzkar Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulmuşdur. İşğalçı ölkə mülki əhaliyə qarşı davranışla bağlı beynəlxalq konvensiyaları bir daha kobudcasına pozdu.

Törədilən bu müharibə cinayətlərini beynəlxalq ictimaiyyətə çatdırmaq üçün həmin gün Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların nümayəndələri üçün növbəti brifinq keçirdi. Brifinq iştirakçılarına hərbi əməliyyatların gedişi və azad olunmuş ərazilər, düşmən qüvvələrinə vurulmuş ziyan barədə məlumat verildi. Bundan əlavə, təmas xəttindən xeyli uzaqda yer-

ləşən Azərbaycanın şəhər və rayonlarına düşmənin raket və artilleriya zərbələri endirməsi, nəticədə dinc əhali və mülki infrastruktura dəyən ziyan, eləcə də işğalçı ordunun öz hərbi qulluqçularına göstərdiyi qeyri-insani münasibət və digər hərəkətləri barədə faktlar da nümayəndələrin diqqətinə çatdırıldı.

Azərbaycan Ordusu döyüş əməliyyatlarını genişləndirirdi. Prezident İlham Əliyev oktyabrın 5-də döyüş meydanında qazanılan növbəti qələbələr haqqında Twitter hesabında məlumat verərək bildirdi ki, Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəklik azad edilmişdir.

Döyüş meydanı ilə yanaşı olaraq mübarizə informasiya məkanında da aparılırdı. Bu baxımdan Prezident İlham Əliyevin xarici ölkələrin nüfuzlu kütləvi informasiya vasitələrinə verdiyi əhatəli və dərin məzmunlu müsahibələri təcavüzkar Ermənistanın siyasətinin və münaqişənin mahiyyətini dərk etmək baxımından müstəsna əhəmiyyət daşıyırdı.

15.2. Prezident İlham Əliyevin "TRT Haber" televiziya kanalına müsahibəsi

Prezident İlham Əliyev oktyabrın 5-də Türkiyənin "TRT Haber" televiziya kanalına verdiyi müsahibəsində mövcud münaqişədə Türkiyə Cümhuriyyətinin tutduğu yer və oynadığı rol barədə belə dedi:

"Türkiyə güclü bir dövlətdir, dünya miqyasında böyük potensiala malik olan ölkədir, bizim qonşumuzdur, Ermənistanın qonşusudur, Cənubi Qafqazın qonşusudur. Ona görə təbii ki, Türkiyə bu işlərdə fəal olmalıdır... Türkiyənin ilk saatlardan bizə göstərdiyi dəstək xüsusi önəmə malikdir. Bu, təkcə öz qardaşlarına verilən dəstək deyil. Odur ki, biz - bütün Azərbaycan xalqı buna görə dərin təşəkkür hissi ilə yaşayırıq. Eyni zamanda, bu döyüşlərin daha böyük müstəviyə çıxmaması üçün Türkiyənin qəti münasibəti çox önəmlidir. Çünki Türkiyə dedi ki, biz Azərbaycanın yanındayıq, sona qədər Azərbaycanın yanındayıq. Azərbaycan haqq yolundadır, haqq-ədalət Azərbaycanın tərəfindədir... Ona görə bundan sonrakı sülh prosesində Türkiyə mütləq olmalıdır. Təbii ki, sülh prosesi başlanacaq, müharibə daim aparıla bilməz və bu, nə qədər tez olsa, o qədər də yaxşıdır. Məhz, bizim fikrimiz bundan ibarətdir və beləliklə, artıq bu bölgədə uzunmüddətli dayanıqlı sülh təmin edilə bilər".[405]

405 Bizim mövqeyimiz dəyişməzdir. Prezident İlham Əliyev Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibə verib // "Azərbaycan" qəzeti, 2020, 6 oktyabr.

Azərbaycanın guya Yaxın, Orta Şərqdən terrorçular gətirməsinə və türk hərbi təyyarələrindən istifadə etməsinə dair Fransa Prezidenti Emmanuel Makronun heç bir əsası olmayan iddialarını və uydurmalarını dövlət başçısı rədd etdi. Bildirdi ki, bizə qarşı ittiham irəli sürdü, olmayan şeyləri üstümüzə atdı. Minsk qrupunun həmsədr ölkəsinin Prezidenti E.Makron demişdi ki, guya "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermərik." Fransa rəhbərinin uydurmalarına cavab verən İlham Əliyev qətiyyətlə vurğuladı:

"Dağlıq Qarabağ bizim torpağımızdır. Bir dövlət öz torpaqlarını fəth edə bilərmi? Yəni, həmsədr bilmirmi ki, bu torpaqlarda qanunsuz olaraq ermənilər oturub bizim bütün tarixi abidələrimizi, məscidlərimizi, qəbirlərimizi, evlərimizi yerlə-yeksan ediblər. Ağdamın, Füzulinin görüntülərinə baxın. Bizim yarıdağılmış məscidlərimizdə donuz, inək saxlayır. Bütün müsəlmanları təhqir edir. Görmürlərmi bunu? Ona görə "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermərik" sözləri qəbuledilməzdir. Ona görə Fransa özü-özünü artıq bu bərabər üçlüyün xaricinə qoyur və biz buna səssiz qala bilmərik".[406]

Müharibədə Türkiyə, Pakistan və Əfqanıstan ədalətli və beynəlxalq hüquqa uyğun mövqe tutmuşdular. Buna görə təşəkkür edən Azərbaycan Prezidenti dedi:

"Türkiyədən sonra bizə ikinci dəstək verən ölkə Pakistan oldu, ondan sonra Əfqanıstan oldu, ondan sonra daha bir neçə ölkə bizə öz dəstəyini göstərdi. Onların hər birinə, o ölkələrin prezidentlərinə təşəkkürümü bildirirəm. Bu çətin dönəmdə təbii ki, onların həmrəyliyi, dəstəyi bizim üçün çox önəmlidir və bizə mənəvi güc verir".[407]

Dövlət rəhbəri müharibə günlərində Rusiyanın yürütdüyü siyasətə və Azərbaycanla münasibətlərinə də aydınlıq gətirdi. Məlum olduğu kimi, qonşu Rusiya ilə münasibətlər uğurla inkişaf edirdi. Bir çox sahələrdə Rusiya ilə Azərbaycan arasındakı münasibətlər çox yüksək səviyyədə idi. Hər iki ölkə münasibətlərə strateji tərəfdaşlıq münasibətləri kimi yanaşır və bu, birgə imzalanmış müqavilələrdə də öz təsdiqini tapmışdı. Ermənistan isə daim Rusiyanın köməyinə ümid etmişdi. Dövlət başçısı dedi:

"Bu məsələ ilə bağlı Rusiya çox məsuliyyətli və böyük ölkə kimi davranır. Rusiyadan müsbət mesajlar gəlir və hər hansı bir tərəfi dəstəkləmək müzakirə mövzusu deyil. Halbuki Ermənistan buna çox ümid edirdi. Ermənistanın bu toqquşmanı bölgənin xaricinə çıxarmaq məqsədi də Rusiyanı buraya cəlb etməkdir. Ermənistan Azərbaycana hazırda Ermənistan ərazisindən niyə hücum edir? Məhz ona görə ki, biz də hücum edək, o da Rusiya ilə, başqa ölkələrlə birgə iştirak etdiyi Kollektiv

406 Yenə orada.
407 Yenə orada.

Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibliyinə müraciət etsin və desin ki, Azərbaycan bizə hücum edir, gəlin bizə yardım edin. İyul ayında, niyə onlar bu təxribatı Ermənistan – Azərbaycan sərhədində törətdilər? Tovuz Qarabağ bölgəsindən uzaq məsafədə yerləşir. Orada onların hansı hədəfləri var idi - bir hədəfi ki, biz hücum edək, biz dövlət sərhədini keçək, - mən dedim bizdə belə bir fürsət var idi, - və ondan sonra müraciət etsin o təşkilata ki, gəlin bizimlə bərabər Azərbaycana qarşı vuruşun. Yəni, Rusiyanı bu işlərə cəlb etmək istəyir və bu, növbəti təxribatdır, mən əminəm ki, buna müvəffəq olmayacaq".[408]

Məlum olduğu kimi, böhran, münaqişə və müharibələrin olduğu bölgələrdə həmişə qara təbliğat da meydana çıxır. Ermənistan bu məsələdə peşəkar idi. İşğalçı ölkənin bu sahədə də iyrənc üsullarla xeyli fəal olduğuna diqqəti cəlb edən Prezident birmənalı olaraq söylədi:

"...Azərbaycana qarşı qara təbliğat bir dəqiqə, bir saniyə dayanmır. Bunun bir neçə səbəbi var. Birincisi, erməni lobbisi bizə qarşı daim hərəkətdədir. Azərbaycanı qaralamaq, bizim üstümüzə ləkə atmaq, bizim imicimizi korlamaq səyləri dayanmır. Dünyanın bir çox ölkələrində erməni lobbiləri var. Bu, heç kəs üçün sirr deyil. Müntəzəm olaraq mütəmadi qaydada bizə hücum edirlər. Olmazın yalanlarını, iftiralarını uydururlar. Bu münaqişə dönəmində təbii ki, erməni lobbisi bütün gücünü səfərbər edib və bizə qarşı yeni qara təbliğat səylərini ortaya qoyubdur. Ancaq bizə yapışmır. Mən demişəm, dəlil verin, sübut verin, fakt verin. O cümlədən Fransa prezidentinə, - o, mənə telefonla iki dəfə zəng etmişdi, - dedim ki, fakt verin. Sentyabrın 27-dən artıq 8 gün keçir".[409]

Dövlət başçısı Ermənistanın Yaxın, Orta Şərqdən terrorçuları gətirməsinə dair yayılan məlumatlara da münasibət bildirdi. Dedi ki, belə məlumatlar var və bu məlumatlar əsaslıdır, artıq onlar dəqiqləşdirilir. Azərbaycan çox məsuliyyətli dövlət olduğu üçün rəsmi bəyanatlarda buna toxunmurdu. Mediada, siyasətçilər, politoloqlar arasında belə məlumatlar dolaşsa da, bu, təsdiqlənməli idi. Azərbaycanın əlində kəşfiyyat məlumatı var idi ki, Dağlıq Qarabağa terrorçular gətirilib yetişdirilir, onlara PKK terror qruplaşmaları təlim keçir. Amma Ermənistandan və bəzi başqa ölkələrdən fərqli olaraq Azərbaycan 100 faiz təsdiqini tapmamış məlumatı ortaya atmırdı.

Hərbi əməliyyatların gedişində Azərbaycan Ordusunun döyüş texnikası və pilotsuz uçuş aparatları mühüm rol oynayırdılar. Bu barədə danışan dövlət başçısı vurğuladı:

"...bu silahlı uçuş aparatları dünyanın ən yüksək səviyyəsində olan aparatlardır və onların Azərbaycan Ordusunda olması bizim ordumuzu böyük dərəcədə güc-

408 Yenə orada.
409 Yenə orada.

ləndirmişdir. Bu aparatlar bizə böyük imkanlar yaratdı və eyni zamanda, canlı qüvvə itkisinin çox da böyük olmamasına gətirib çıxardı. Çünki əgər bu imkanlar bizdə olmasaydı, Ermənistanın Dağlıq Qarabağda və işğal edilmiş torpaqlarda 30 il ərzində qurduğu istehkamları, tankları, topları, yaylım atəş qurğularını məhv etmək daha çətin ola bilərdi. Daha çox insan həlak ola bilərdi".[410]

Türkiyə və Azərbaycan arasında münasibətlərin səviyyəsi yüksək idi. Göstərilən mənəvi dəstək, eyni zamanda, Türkiyə müdafiə sənayesinin məhsullarının Azərbaycanda olması gücü artırırdı. Prezident dedi:

"Bu gün Türkiyə Ordusu NATO-da ikinci ordudur. Heç kim türk ordusunun qabağında dura bilməz. Bunu hər kəs gördü, hər kəs anladı. Biz də Türkiyə Ordusunun daha kiçik modelini qururuq və inşallah bərabər quracağıq. Bizim də qarşımızda bölgədə heç kim dura bilməz. Bizim və Türkiyənin işi haqq işidir" .[411]

Müharibənin aparılmasında Azərbaycan dövlətinin mövqeyi aydın və konkret idi. Azərbaycan özünü, vətəndaşlarını müdafiə edir və ərazi bütövlüyünü saxlamaq istəyirdi. Ölkə rəhbəri qətiyyətlə bildirdi:

"Bizim başqa ölkənin torpağında gözümüz yoxdur. Amma bizə mənsub olan bizə qalmalıdır".[412]

Terrorçu və işğalçı dövlət olan Ermənistanın Tərtəri və döyüş bölgəsi olmayan Gəncə şəhərini raketlərlə vurması Cenevrə konvensiyalarına zidd olub, müharibə cinayəti idi. Bu, bir daha göstərirdi ki, Ermənistan terrorçu ölkədir. Prezident dedi:

"Gəncə şəhəri döyüş bölgəsi deyil. Gəncə şəhərinin içərisində hər hansı bir top, tank yoxdur. Niyə bunu vurursan? Yəni, nifrətə görə. Azərbaycana, Türkiyəyə qarşı nifrət onların qanındadır. Əfsuslar olsun ki, Ermənistanın gənc nəsli də bu nifrət əsasında tərbiyə edilir. Ancaq bu, bizi yolumuzdan döndərə bilməz. Bilirsiniz, Tərtər şəhərini demək olar ki, dağıdıblar. Tərtər şəhərində bizim vətəndaşlar kişi kimi, mərd-mərdanə durublar. Deyiblər ki, öldü var, döndü yoxdur, torpağımızdan heç yerə getməyəcəyik. Nə qədər mərmi düşüb? Gün var idi ki, təkcə Tərtər şəhərinə iki min mərmi düşdü. O da balaca bir şəhərdir, böyük şəhər deyil".[413]

O qədər də böyük olmasa da, Madagizin azad edilməsinin böyük strateji əhəmiyyəti var idi. Azərbaycan Ordusu çətin bir vəzifəni yerinə yetirmişdi. Dövlət başçısı bununla əlaqədar olaraq bildirdi:

"Oranı götürmək çox çətin bir işdir. Bunu hər bir hərbçi deyər. İnanılmaz çətin bir işdir. Amma o götürüldü, Madagizdə indi Azərbaycan bayrağı qaldı-

410 Yenə orada.
411 Yenə orada.
412 Yenə orada.
413 Yenə orada.

rıldı və həmin gün o qəsəbəyə tarixi adı qaytarıldı – Suqovuşan. Bu, bizim tarixi adımızdır".[414]

Azərbaycan Ordusu mülki erməni əhalisi ilə döyüşmürdü, onları hədəf seçmirdi. Azərbaycanın erməni xalqı ilə heç bir işi yox idi. Torpaqlar azad olunandan və işğala son qoyulandan sonra ermənilər və azərbaycanlılar bir yerdə, bir ölkə ərazisində yaşaya bilərdilər. Azərbaycanda minlərlə erməni yaşayırdı. Gəncədə Ermənistanın hücumu nəticəsində yaralanmış insanlardan biri də milliyyətcə erməni idi. Prezident ermənilərə münasibətdə Azərbaycan dövlətinin siyasətinin əsaslarını bir daha xatırlatdı:

"Onlara söz deyən yoxdur. Onlar bizim vətəndaşlarımızdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur... Mən tam əminəm ki, erməni və Azərbaycan xalqları barışacaq. Bu gün bir çox ölkələrdə ermənilər və azərbaycanlılar bir yerdə yaşayırlar. Gürcüstanda, orada 300 minə yaxın azərbaycanlı, 200 minə yaxın erməni var. Bəzən onlar bir kənddə yaşayırlar. Onların arasında problem yoxdur. Türkiyədə, Rusiyada, - Rusiya vətəndaşı olan azərbaycanlıların sayı 700 minə yaxındır, - bir yerdə yaşayırlar. Heç bir problem yoxdur. Nə üçün burada yaşamasınlar? Onsuz da yaşayıblar bir yerdə".[415]

Qarabağ bölgəsinin yerli əhalisi olmayan, çarizm tərəfindən köçürülmüş ermənilər sovet dövründə azərbaycanlılarla birgə yaşamışdırlar. Bir çox erməni şair və yazıçıları əsərlərini Azərbaycan dilində də yazmışdılar. 1982-ci ildə iştirakçısı olduğu bir hadisəni xatırladan dövlət başçısı dedi:

"Mənim xatirəmdədir, 1982-ci ildə mərhum atamla birlikdə Dağlıq Qarabağa - Şuşaya getmişdik. Bizim böyük şairimiz Vaqifin məqbərəsi açılırdı. Bu məqbərənin açılışı mərasimində erməni və Azərbaycan şairləri şeirlər deyirdilər, Azərbaycan dilində, erməni dilində. O bir dostluq bayramı idi. Yəni, o, mənim şahidi olduğum mənzərədir. Bizim Bakı şəhərində ermənilər yaşayırdı. Yəni, bizim heç bir problemimiz yox idi. Biz istəyirik ki, yenə də birlikdə yaşayaq. Yenə də Ermənistanla yaxşı qonşular kimi yaşayaq. Dağlıq Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır. Biz onları belə tanıyırıq. Ümid edirəm ki, bu işğalçı siyasətə son qoyulandan sonra bizim xalqlarımız barışacaq".[416]

Prezidentin söylədikləri faktlar ermənilərin azərbaycanlılarla birlikdə yaşamasının mümkünlüyünü və Azərbaycan Respublikasının birgəyaşayış üçün ən əlverişli ölkə olduğunu bir daha təsdiq edirdi. Müsahibə işğalçı Ermənistanın siyasətinin mahiyyətini, aparılan müharibənin xarakterini və məqsədlərini bilmək baxımından əhəmiyyətli idi.

414 Yenə orada.
415 Yenə orada.
416 Yenə orada.

Hərbi əməliyyatlar və informasiya savaşı ilə bərabər diplomatik-siyasi fəaliyyət də uğurla aparılırdı.

15.3. Türkiyə Cümhuriyyətinin diplomatik-siyasi və mənəvi-psixoloji dəstəyi

Oktyabrın 6-da Azərbaycan Respublikasına səfərə gələn Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini Prezident İlham Əliyev qəbul etdi.[417] Azərbaycana açıq dəstəyin təzahürü olan bu səfərlə Türkiyə bir daha göstərdi ki, ədalətli mübarizəsində Azərbaycan tək deyildir. Görüşdə dövlət başçısı dedi:

"Bu dəstək bizi ruhlandırır, bizə əlavə güc verir və eyni zamanda, bölgədə sabitliyin, əmin-amanlığın təmin edilməsi üçün önəmli rol oynayır. Mən bunu bu günlər ərzində demişəm ki, Türkiyə bölgədə sabitləşdirici rol oynayır. Türkiyənin bölgədə və dünyada yalnız sülhə hesablanmış siyasəti artıq öz nəticələrini verməkdədir, həm Yaxın Şərq bölgəsində, eyni zamanda, Qafqaz bölgəsində. ...Türkiyə həm regionda, həm dünyada söz sahibidir. Əlbəttə ki, bu, bizi gücləndirir, ruhlandırır. Bu gün həm bizim xalqlarımız, həm də bütün dünya görür ki, Türkiyə-Azərbaycan birliyi nə deməkdir".[418]

Hərbi əməliyyatların aparılmasında İlham Əliyevin qəti iradəsi, yüksək liderlik keyfiyyətləri və sərkərdəlik bacarığı başlıca rol oynayırdı. Türkiyənin mənəvi-siyasi və diplomatik dəstəyi barədə Mövlud Çavuşoğlu bildirdi:

"Bu gün Sizin liderliyinizlə Azərbaycan öz torpaqlarını azad etmək üçün mübarizə aparır və buna qadirdir, gücü vardır, potensialı vardır. Əlbəttə, Türkiyə olaraq və türk xalqı olaraq, biz də nə vaxt ehtiyacı olarsa, hansı sahədə ehtiyac duyarsa Azərbaycana hər cür dəstəyi verməyə hazırıq... ."[419]

Bu səfərlə Türkiyə dövləti bir daha göstərdi ki, haqq işində Azərbaycanın yanındadır və beynəlxalq hüquq normalarına riayət olunmasını tələb edir.

15.4. Dövlət başçısının Rusiyanın "Pervıy kanal" televiziyasına müsahibəsi

417 İlham Əliyev Türkiyənin Xarici İşlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. 05.02.2020 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/35716.

418 Yenə orada.

419 Yenə orada.

Azərbaycan dövləti fəal informasiya siyasəti aparırdı. Rusiyanın "Pervıy kanal" televiziyasına oktyabrın 6-da müsahibə verən Prezident İlham Əliyev mümkün danışıqlar prosesi barədə suala cavabında bildirdi ki, ilk növbədə, BMT Təhlükəsizlik Şurasının qəbul edilmiş dörd qətnaməsi yerinə yetirilməlidir. Bu qətnamələrdə işğal olunmuş ərazilərin dərhal, qeyd-şərtsiz və tamamilə qaytarılmasının təmin edilməsi yazılırdı. O vaxtdan 27 il keçsə də erməni tərəfi həmin qətnamələri yerinə yetirmir, onlara məhəl qoymur və hər vasitə ilə münaqişəni mümkün qədər uzun müddətə dondurmağa çalışırdı. Bununla əlaqədar olaraq ölkə rəhbəri dedi:

"...BMT Təhlükəsizlik Şurasının qətnamələri Ermənistan tərəfindən yerinə yetirilən, Ermənistan öz qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasına razılıq verən kimi hər iki tərəf qısa müddətdə razılığa gələ bilər. Bu razılıq Qafqazda sülhü bərqərar edər".[420]

Təcavüzkar ölkənin dinc azərbaycanlı əhalini öldürməsinə diqqəti yönəldən Prezident qeyd etdi ki, artilleriya atəşləri nəticəsində oktyabrın 6-na olan məlumata görə, 27 dinc sakin həlak olmuş, 170-dən çox dinc sakin müxtəlif dərəcəli xəsarətlər almış, 800-dən çox ev dağıdılmışdır. Azərbaycan ərazilərinə artilleriya atəşləri Ermənistan tərəfindən uzaqvuran artilleriya vasitəsilə aparılır, "Toçka U" və "Elbrus" kimi ölümsaçan sistemlərdən istifadə edilirdi. Bu, Cenevrə konvensiyalarının çox kobud şəkildə pozulması və müharibə cinayəti idi. Dövlət başçısı vurğuladı:

"Əhalisinin sayına görə Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin əhalisi də atəşə tutulub. Mingəçevirdə bizim ən böyük elektrik stansiyasının ərazisinə bir raket düşüb, 10-dan çox şəhərimiz, yüzlərlə kəndimiz şiddətli artilleriya bombardmanına məruz qalır. Bu, erməni tərəfin köhnə taktikasıdır. Onlar hər dəfə döyüş meydanında məğlubiyyətə uğrayanda dinc əhaliyə ziyan vurmağa və beləliklə, Azərbaycan Ordusunun əks-hücumunu dayandırmağa çalışaraq belə alçaq hərəkətlərə əl atırlar. Lakin onlar bu əks-hücumu dayandıra bilmirlər və bilməyəcəklər".[421]

Məlum olduğu kimi, Ermənistan münaqişəyə Rusiyanı və digər dövlətləri cəlb etməkdən ötrü müxtəlif iyrənc üsullara əl atırdı. Bu barədə Prezident bildirdi:

"...Ermənistan hər vasitə ilə çalışır ki, bu münaqişəyə mümkün qədər çox ölkə cəlb edilsin. Mən müsahibələrimin birində belə siyasətin yolverilməz olduğunu

420 İlham Əliyev Rusiyanın "Pervıy Kanal" televiziyasına müsahibə verib. 06.10.2020 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/41881/print.

421 Yenə orada.

demişəm. Münaqişə Ermənistanın və Azərbaycanın hüdudlarından kənara çıxmamalıdır. Əslində, münaqişə hətta Ermənistan ərazisinə də çıxmır. Odur ki, Ermənistan ərazisindən artilleriya atəşlərinə baxmayaraq, biz Ermənistan ərazisinə heç bir zərbə endirmirik, Ermənistan ərazisinə keçmirik, hərçənd bunun üçün hər cür imkanımız var. Erməni tərəfi bu qarşıdurmaya KTMT-ni cəlb etməyə çalışır. Uğursuz cəhddir. O, Avropa ölkələrini cəlb etməyə çalışır. Mahiyyət etibarilə bu münaqişəni beynəlmiləlləşdirməyə çalışır. Müvafiq surətdə biz belə yanaşmanın yolverilməz olması barədə öz mövqeyimizi bildiririk".[422]

Münaqişədə Türkiyənin iştirakı barədə yayılan xəbərlərin uydurma olduğunu qeyd edən dövlət başçısı nizamasalma prosesində türk hökumətinin rolunu belə izah etdi:

"...Türkiyə bununla bağlı heç bir faktla təsdiqlənməmiş müxtəlif şayiələrə... baxmayaraq, əsla münaqişəyə cəlb edilmiş tərəf deyil. ...fəal döyüş əməliyyatları başa çatandan sonra həyata keçiriləcək vasitəçilik missiyasında Türkiyənin böyük ölkə kimi, bizim qonşumuz, Cənubi Qafqazda qonşumuz kimi iştirak etməyə tamamilə haqqı var. Əlbəttə, hesab edirəm ki, bunlar, ilk növbədə, Türkiyə və Rusiyadır".[423]

Fransa Prezidentinin guya Azərbaycan tərəfindən muzdluların vuruşması iddiasına dair suala cavab verən ölkə rəhbəri qətiyyətlə bildirdi ki, belə informasiya tullantılarına görə heyrətlənir. Fransa prezidenti ilə telefon söhbətlərində İlham Əliyev ilk növbədə, ondan sübutlar təqdim etməsini, əgər belə sübutlar yoxdursa, onda Azərbaycan xalqından üzr istəməsini xahiş etmişdi. İkincisi, demişdi ki, Azərbaycanın muzdlulara ehtiyacı yoxdur, ordusu güclüdür. Bütün beynəlxalq reytinqlərə görə Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusunun siyahısına daxil idi. Ehtiyatda olanları, döyüşə hazır olan digər hərbiləşdirilmiş dəstələr nəzərə alınmazdısa, nizami orduda 100 min döyüşçü var idi. Dövlət başçısı dedi:

"Bu gün Azərbaycan Ordusu bizim əraziləri azad edir. Buna görə də bu ittihamlar əsassızdır, biz onları qətiyyətlə rədd edirik və bu cür şayiələrin, yoxlanılmamış məlumatların ictimai rəylə necəsə manipulyasiya etməsinə yol verə bilmərik. Qoy, sübutlar təqdim etsinlər. Bu gün fəal döyüş əməliyyatlarının onuncu günüdür, bizə heç bir sübut təqdim edilməyib".[424]

Qarabağ regionunda yaşayan ermənilərin gələcəyi barədə suala aydınlıq gətirən Prezident dedi:

"...biz Qarabağ ərazisində yaşayan ermənilərə öz vətəndaşlarımız kimi baxırıq. Hesab edirik ki, münaqişə nizamlanandan, işğala son qoyulandan sonra Dağlıq

422 Yenə orada.
423 Yenə orada.
424 Yenə orada.

Qarabağın erməni və azərbaycanlı əhalisi uzun illər boyu olduğu kimi birlikdə yaşamalıdır. 1980-ci illərin sonunda münaqişə başlayanda Dağlıq Qarabağ ərazisində əhalinin 75 faizi erməni, 25 faizi isə azərbaycanlı idi. Onların cinayətkar rejiminin başçısının qondarma "inauqurasiyası"nı keçirdikləri və Azərbaycan xalqını təhqir etdikləri Şuşa şəhərinin əhalisinin 98 faizi azərbaycanlılar idi... Beləliklə, sülh sazişi əldə ediləndən sonra, - bunun baş verəcəyinə ümid edirəm, - azərbaycanlılar Dağlıq Qarabağa qayıdacaq və orada əvvəl yaşadıqları kimi yaşayacaqlar. Mənim mövqeyim həmişə belə olub ki, biz 1980-ci illərin sonunda münaqişə başlayana qədər mövcud olmuş ab-havanı qaytarmalıyıq. Düşünürəm ki, bu, mümkündür".[425]

Təcavüzkar Ermənistanın törətdiyi hərbi cinayətlər səbəbindən bu proses xeyli çətin idi. Yaranmış vəziyyəti dövlət başçısı belə ifadə etdi:

"Erməni cəlladların Xocalıda törətdiklərindən, dinc əhalini məhv etmələrindən, bizim tarixi, dini abidələri dağıtmalarından, bu ərazilərdə azərbaycanlıların tarixi irsini yerlə-yeksan edəndən sonra bu, asan olmayacaq. Lakin hesab edirəm ki, biz buna çalışmalıyıq".[426]

Müharibədən sonra formalaşacaq şərait barədə danışmağın çətin olduğunu bildirən dövlət başçısı dedi ki, erməni işğalçılarının Azərbaycan xalqına çoxlu müsibətlər verməsinə baxmayaraq, regionun gələcəyi əməkdaşlıqdan keçir.

Bu zaman təcavüzkar Ermənistan tərəfindən yaşayış məntəqələrinin atəşə tutulması davam edirdi. Oktyabrın 7-də Tərtər, Bərdə Ağdam, Ağcabədi, Füzuli və Cəbrayıl rayonlarının kəndlərinə zərbələr endirildi. Həmin gün ərzində Azərbaycan Ordusu müəyyən olunmuş istiqamətlərdə irəliləyərək yeni dayaq məntəqələrini azad etməklə xeyli ərazini işğalçı qüvvələrdən təmizlədi, çoxlu sayda canlı qüvvəsini, hərbi texnikasını və digər döyüş vasitələrini məhv etdi. Rəsmi məlumata görə, sentyabrın 27-dən oktyabrın 7-də saat 05:30-dək düşmənin ümumi itkiləri aşağıdakı kimi olmuşdu: 250-dək tank və digər zirehli texnika; 270-dək artilleriya, yaylım atəşli raket sistemləri, minaatan; 60-dək hava hücumundan müdafiə vasitələri; 11 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi; 8 silah-sursat anbarı; 150-dək avtomobil texnikası; 1 ədəd S-300 zenit-raket kompleksi.[427]

Torpaqların yadellilərdən azad edilməsi uğrunda hərbi əməliyyatlar planlı şəkildə aparılırdı. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Müdafiə Nazirliyinin

425 Yenə orada.
426 Yenə orada.
427 Düşmənin məhv edilən döyüş texnikasının siyahısı. 07.10.2020 // Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet saytı. URL: https:mod.gov.az/az/news/dusmenin-mehv-edilen-doyus-texnikasinin-siyahisi-32721.html.

rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə oktyabrın 7-də keçirilən operativ müşavirədə düşmənə sarsıdıcı zərbələrin endirilməsinə və işğal altında olan ərazilərin azad edilməsinə dair qəti tapşırıqlar verildi. Həmin gün saat 22:00 radələrində Ermənistan-Azərbaycan dövlət sərhədinin Ağstafa rayonu sahəsində uçuş keçirməyə cəhd göstərən düşmən PUA-sı məhv edildi.

Gün ərzində cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdə Azərbaycan Ordusunun endirdiyi zərbələr nəticəsində düşmən xeyli itki verdi, 10-dək tankı, 6 ədəd D-20 topu, 1 ədəd "Akasiya" özüyeriyən artilleriya qurğusu, 30-dək avtomobil texnikası və xeyli sayda canlı qüvvəsi məhv edildi. İşğalçı ordunun 1-ci və 7-ci alaylarının müdafiə sahələrində yerləşən bölmələrinin bir qrup hərbçisi mövqelərini tərk edərək qaçdı.

Döyüş meydanı ilə yanaşı düşmənə informasiya sahəsində də ağır zərbə vurulur, bütün yalanları ifşa edilir və iç üzü açılırdı. Bu baxımdan Prezident İlham Əliyevin müsahibələri müstəsna rol oynayırdı.

15.5. Prezident İlham Əliyevin "CNN Türk" və "Euronews" televiziya kanallarına müsahibəsi informasiya savaşında üstünlüyü təmin edən başlıca amillərindən biri kimi

"CNN Türk" televiziya kanalına oktyabrın 7-də verdiyi müsahibəsində uğurlu döyüş əməliyyatlarından danışan Prezident İlham Əliyev işğalçı Ermənistanın mülki əhaliyə qarşı törətdiyi terror aktlarını müharibə cinayəti kimi qiymətləndirdi. Döyüş meydanında uduzan işğalçı Ermənistan azadlıq müharibəsi aparan Azərbaycanı dayandırmaq üçün hərbi əməliyyatlar bölgəsindən uzaqda yerləşən Gəncə və Mingəçevir şəhərlərində mülki əhaliyə qarşı maksimum dərəcədə cinayət törədir, döyüş bölgəsinə yaxın olan şəhərləri hər gün atəşə tuturdu. Bu, Ermənistanın faşist mahiyyətini göstərirdi. Dövlət başçısı dedi:

"Ancaq bu, Azərbaycan xalqını qorxutmur, bunun heç bir təsiri yoxdur".[428]

Ermənistandan fərqli olaraq Azərbaycan mülki əhaliyə qarşı müharibə aparmırdı və hədəf erməni xalqı deyildi. Dövlət başçısı əlavə etdi ki, Azərbaycanda minlərlə erməni yaşayır və onlar, o cümlədən Dağlıq Qarabağ regionunda yaşayan ermənilər də Azərbaycan vətəndaşlarıdır. Hərbi hədəfləri məhv etmək isə Azərbaycanın hüququ idi. Düşmən tərəfi Azərbaycan ordusuna, şəhərlərə böyük

428 İlham Əliyev CNN-Türk televiziyasına müsahibə verib. 07.10.2020 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/42038.

ziyan vurduğundan həmin hərbi obyektləri məhv edib əhalinin təhlükəsiz həyatını təmin etmək tələb olunurdu .

Müxtəlif dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən edilən atəşkəs çağırışlarına dair suala cavab olaraq Prezident dedi:

"Hesab edirəm ki, bu çağırışlar, sadəcə, atəşkəs çağırışları olmamalıdır. Biz dəfələrlə demişik ki, işğalçı dövlətə, Ermənistana sanksiyalar tətbiq edilməli idi. Əgər vaxtında sanksiyalar tətbiq edilsəydi, bəlkə də bu məsələ çoxdan həll olunardı. Ermənistana qarşı çox ciddi təzyiq göstərilməliydi, sözdə deyil, əməldə. Amma təəssüf ki, bu, olmadı. Ona görə bu proses 30 il çəkdi. Otuz il heç bir nəticə verməyən danışıqlar artıq mənasını itirməkdədir... Ona görə atəşkəsin bərpası şərtlərlə təmin edilməlidir. İlk növbədə, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan çıxış təqvimi, yəni, çıxış cədvəli bizə təqdim edilməlidir..."[429]

Azərbaycan əleyhinə uzun illər ərzində aparılan böhtan kampaniyasının birinci səbəbi Azərbaycan Respublikasının dünya miqyasında müstəqil siyasət aparması ilə əlaqədar idi. Başqa ölkələrin əlində alət olmayan Azərbaycan dünya miqyasında məsuliyyətli və etibarlı ölkə kimi tanınır, Birləşmiş Millətlər Təşkilatından sonra ikinci böyük beynəlxalq təsisata, Qoşulmama Hərəkatına sədrlik edirdi. 120 ölkənin dəstəyi ilə buna nail olan Azərbaycan Avropa ilə Asiya arasında həm siyasi, həm coğrafi, həm də enerji körpüsü idi. Azərbaycan uğurlarını müstəqil siyasət sayəsində əldə etmişdi. Bu isə bəzi ölkələrin xoşuna gəlmirdi və onlar Azərbaycana yuxarıdan aşağı baxmağa çalışırdılar. Lakin həmin iddialar boşa çıxmışdı. Prezident bildirdi:

"...bizə olan təzyiqlərin səbəblərinin biri də məhz budur ki, müstəqil siyasət aparırıq, öz yolumuzla gedirik, heç kimin sözü ilə oturub-durmuruq, heç kimin qarşısında baş əymirik. Digər səbəblər də var".[430]

Əsassız ittihamlara qarşı təkbaşına mübarizə apararaq uğurlar qazanıldığını qeyd edən ölkə rəhbəri vurğuladı ki, ancaq imkanlar məhduddur. Bir çox hallarda Azərbaycanın səsi eşidilmir, beynəlxalq platforma verilmir, beynəlxalq media qurumları daha çox Ermənistanın tərəfini tuturlar və münaqişə ilə bağlı yalan məlumatlar yayırlar.

İnformasiya sahəsində hücum "Euronews" televiziya kanalına oktyabrın 7-də verilən müsahibədə də davam etdirildi. Prezident ilk növbədə atəşkəs barədə Azərbaycan dövlətinin mövqeyini izah edərək bildirdi ki, bu, birtərəfli qaydada əldə oluna bilməz, ikitərəfli qərar olmalı və həm də yerində həyata keçirilməlidir. Atəşkəsdən ötrü Azərbaycanın ərazi bütövlüyü bərpa edilməli, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılmasına dair vaxt cədvəli vermə-

429 Yenə orada.
430 Yenə orada.

li, bu cədvəl vasitəçi ölkələr olan Minsk qrupunun həmsədrləri tərəfindən təsdiqlənməli və bundan sonra atəşkəsin əldə olunmasına cəhd göstərilməli idi.

Müharibənin başlanmasına görə Ermənistan məsuliyyət daşıyırdı. İşğal edilmiş ərazilərdə yerləşən ordunun mülki əhalini və yaşayış məntəqələrini atəşə tutduğunu, Ermənistanın danışıqları pozmaq üçün hər şeyi etdiyini, bir il əvvəl baş nazirin Azərbaycanın işğal olunmuş ərazisində keçirilən aksiyada "Qarabağ Ermənistandır" söyləməklə faktiki olaraq danışıqlar prosesini məhv etdiyini bildirən dövlət başçısı dedi ki, danışıqlar masasında olan və münaqişənin həlli üçün əsas təşkil edən prinsiplər işğal altındakı ərazilərin Azərbaycana qaytarılmasını tələb edir. Ermənistanın baş naziri Azərbaycana bir santimetr torpağın belə qaytarılmayacağını, "Qarabağ Ermənistandır" deyəndə, əcnəbi şəxslərin işğal olunmuş ərazilərdə məskunlaşmasını təşkil edəndə danışıqlar prosesini məhv etmişdi.

Türkiyənin münaqişədə Azərbaycana nə dərəcə təsir göstərdiyini və hərəkətlərini sürətləndirdiyi barədə suala cavab verən dövlət başçısı bunu tamamilə yanlış informasiya adlandıraraq bildirdi ki, Türkiyə güclü müttəfiq, tərəfdaş və qardaş ölkədir, verdiyi bəyanatlar onun mövqeyini ifadə edir, lakin heç bir digər şəkildə münaqişəyə cəlb olunmamışdır. Ermənistan mediaya belə yalan xəbərlər yaymaqla Azərbaycan Ordusunun bacarığını azaltmaq istəyirdi. Azərbaycan pul ödəyərək təkcə Türkiyədən deyil, digər ölkələrdən də silahlar alırdı, silah təchizatçısı Türkiyə deyildi. Ermənistan isə silahları pulsuz əldə edirdi.[431]

Oktyabrın 8-də səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam rayonlarının kəndlərini artilleriya atəşinə tutdu, Bərdə rayonu ərazisinə "Toçka-U" taktiki raket kompleksindən atəş açdı. Bu vəhşi və cinayətkar hərəkətin nəticəsində ölən və yaralananlar oldu.

Həmin gün Füzuli rayonunun işğaldan azad olunan Horadiz kəndində qaçan düşmənin zirehli texnikaları ələ keçirildi, yerdəyişməyə cəhd göstərən döyüş texnikası məhv edildi. Gecə döyüşləri zamanı Ermənistan silahlı qüvvələrinin hərbi hissəsinin qərargahına, infrastrukturuna və silah-sursat anbarlarına artilleriya zərbələri endirildi.

Bütün cəbhə boyu gərgin döyüşlər oktyabrın 8-dən 9-na keçən gecə Azərbaycan Ordusunun üstünlüyü ilə davam etdi. Düşmənə endirilən zərbələr onun hərəkət fəaliyyətini tamamilə məhdudlaşdırdı. Görülən tədbirlər nəticəsində düşmən qoşunları arasında idarəetmə və qarşılıqlı əlaqə qırıldı, nizamsızlıq yarandı, şəxsi heyətin intizamı pozuldu və döyüş mövqelərinin tərk edilməsi kütləvi hal aldı. Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının qərargah

431 Yenə orada.

binası dağıdıldı. Binada olan 10-cu dağatıcı diviziyanın qərargah rəisi ağır yaralandı, alayın artilleriya rəisi və xeyli sayda hərbi qulluqçusu məhv edildi.

Xankəndi şəhərindəki hərbi obyektlərə Azərbaycan Ordusunun endirdiyi zərbələr nəticəsində ağır itkilərə məruz qalan işğalçı ordunun burada yerləşən hərbi hissələrinin şəxsi heyəti təxliyə edilməyə başladı. Hərbi hissələrdən birinin sığınacağına endirilən artilleriya atəşi nəticəsində xeyli sayda hərbi qulluqçu məhv edildi və yaralandı. Ümumilikdə, oktyabrın 8-də və 9-na keçən gecə düşmənin 13 ədəd T-72 tankı, 2 ədəd PDM-i, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 2 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 3 ədəd D-30 haubitsa topu, 2 ədəd radar sistemi və xeyli sayda avtomobil texnikası məhv edildi. İşğalçı ölkənin 49-cu tank briqadasına məxsus 6 ədəd T-72 tankı tam işlək vəziyyətdə ələ keçirildi.

Açıq döyüşdə rüsvayçılıqla məğlub olan düşmən Goranboy, Tərtər və Ağdam rayonlarında mülki əhalini hədəfə alaraq atəş açdı. Ermənistan ərazisindən Mingəçevir istiqamətində atılan ballistik hədəf Azərbaycan HHM sistemləri tərəfindən aşkar edilərək 20 kilometrdən artıq hündürlükdə məhv edildi.

Oktyabrın 9-da Fransa Prezidenti Emmanuel Makron Prezident İlham Əliyevə yenidən zəng etdi. Dövlət başçıları yaranmış şəraiti müzakirə etdilər. Prezident İlham Əliyev Azərbaycan dövlətinin mövqeyini bir daha ona izah etdi.

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, işğalçı Ermənistan hərbi əməliyyatların gedişində Azərbaycanın mülki əhalisini və şəhərlərini bombardman etməklə müharibə cinayətlərini törətməkdə davam etmişdir. Təcavüzkar ölkənin Mingəçevir, Beyləqan, Bərdə, Tərtər, Ağcabədi, Füzuli, Horadiz və Gəncəni raket atəşinə tutması nəticəsində mülki obyektlərə ziyan dəymiş və sakinlər qətlə yetirilmişlər.

Hərbi əməliyyatları böyük ruh yüksəkliyi ilə genişləndirən Azərbaycan Ordusu Cəbrayıl rayonunun bir neçə kəndini və strateji yüksəklikləri düşmən qüvvələrindən azad etmişdir. Yeni hərbi uğurların qazanılması üçün əlavə imkanlar yaranmışdır.

Mübarizə informasiya məkanında da getmişdir. Prezident İlham Əliyev Türkiyənin "TRT-Haber", "CNN Türk", "Euronews", Rusiyanın "Pervıy kanal" televiziya kanallarına müsahibə verərək müharibədə Azərbaycan dövlətinin mövqeyini, aparılan hərbi əməliyyatların məqsədini, işğalçı ölkənin siyasətinin mahiyyətini və müharibə cinayətləri törətdiyini bəyan etmişdir.

Hərbi əməliyyatlar davam edərkən Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun rəhbərliyi altında nümayəndə heyəti Azərbaycan Respublikasına səfər etmişdir. Prezident İlham Əliyev ilə keçirilən görüşdə Türkiyə tərəfi Azərbaycanın haqq işini və beynəlxalq hüquqa əsaslanan mövqeyini diplomatik-siyasi, mənəvi baxımdan müdafiə etdiyini birmənalı olaraq bildirmişdir. Belə mövqe Türkiyə dövlətinin təkcə Azərbaycan ilə qardaşlığının deyil, eyni zamanda beynəlxalq hüquq normalarına ciddi riayət etməsinin göstəricilərindən biri olmuşdur.

16-cı FƏSİL

HADRUT QƏSƏBƏSİNİN İŞĞALDAN AZAD OLUNMASI

16.1. Hadrut qəsəbəsinin və bəzi kəndlərin azad edilməsi. Prezident İlham Əliyevin xalqa 9 oktyabr tarixli müraciəti

Azərbaycan Ordusu oktyabrın 9-da Hadrut qəsəbəsini işğalçılardan azad etdi. Prezident İlham Əliyev həmin gün xalqa etdiyi müraciətində bununla əlaqədar dedi:

"Bu gün müzəffər Azərbaycan Ordusu bir neçə yaşayış məntəqəsini işğaldan azad edib. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

İşğaldan azad edilmiş yaşayış məntəqələrinin adlarını sizin diqqətinizə çatdırmaq istərdim: Hadrut qəsəbəsi, Çaylı kəndi, Yuxarı Güzlək kəndi, Gorazıllı kəndi, Qışlaq kəndi, Qaracallı kəndi, Əfəndilər kəndi, Süleymanlı kəndi, Sur kəndi".[432]

Hadrut qəsəbəsinin və bir sıra kəndlərin işğaldan azad edilməsi böyük hadisə idi. Azərbaycan əsgər və zabitləri döyüş tapşırıqlarını şərəflə yerinə yetirir, strateji yüksəklikləri ələ keçirərək daha əlverişli mövqelərə yiyələnirdilər. Azərbaycan Ordusu həm maddi-texniki təchizat, həm döyüş hazırlığı, həm də mənəvi-psixoloji ruh baxımından döyüş meydanında tam üstünlüyə sahib idi.

Döyüşlərdə düşmənin çoxlu hərbi texnikası məhv edildi və qənimət olaraq götürüldü. Müraciətdən aydın olurdu ki, bütövlükdə sentyabrın 27-dən oktyabrın 9-dək Ermənistanın itkiləri aşağıdakı kimi idi: 16 komanda məntəqəsi, 196 tankı, 38 BM-21, 1 "Uraqan", 10 özüyeriyən artilleriya qurğusu, onlardan 8-i "Akasiya", 2-si "Qvozdika", 36 piyadaların döyüş maşını, 24 artilleriya batareyası, 2 RM və ya hava hücumuna qarşı müdafiə vasitəsi, 2 S-300 kompleksinin buraxıcı qurğusu, 25 "OSA" zenit-raket kompleksi, 2 "KUB" zenit-raket kompleksi, 4 "Repelend" radio-texniki maneə vasitəsi, 136 top, 56 minaatan, 1 "TOS-1A" odsaçan sursatı, 2 radiolakasiya stansiyası, 1 "Kalçuqa" anteni.

432 "Düşməni sonadək qovacağıq!" Prezident İlham Əliyevin xalqa müraciəti // "Azərbaycan" qəzeti, 2020, 10 oktyabr.

Qənimət olaraq 18 tank, 4 top, 22 piyadaların döyüş maşını, 12 minaatan, 4 UAZ maşını, 1 ekskavator, 27 "İqla" kompleksi, 1 ZİL maşını, 9 QAZ maşını götürülmüşdü. Düşmənin əlində Azərbaycan Silahlı Qüvvələrinə məxsus olan heç bir hərbi texnika yox idi.

Özünü tamamilə itirmiş vəziyyətdə olan Ermənistan rəhbərliyi müxtəlif ölkələrin dövlət və hökumət başçılarına gündə bir neçə dəfə zəng edir, yardım istəyir, imdad diləyir, yalvarır və onların ayaqlarının altına yıxılırdı.

Müraciətində Prezident İlham Əliyev Ermənistanın çıxış yolunu da göstərdi:

"Onların xilasının yeganə yolu budur ki, torpaqlarımızdan çıxsınlar... BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirin, yoxsa, peşman olacaqsınız. Hesab edirsiniz ki, Azərbaycan bu vəziyyətlə barışacaq? Barışmayacaq, dəfələrlə demişəm".[433]

Bütün istiqamətlərdə mövqelərini möhkəmləndirən, təcavüzkarı sülhə məcbur etmək məqsədi güdən Azərbaycan göstərdi ki, döyüş meydanı ilə yanaşı diplomatik-siyasi və informasiya meydanında qalib gəlir. Qəti şəkildə aydın oldu ki, dünyada heç bir qüvvə Azərbaycanı haqq yolundan döndərə və iradəsinə təsir edə bilməz. Bununla əlaqədar olaraq dövlət başçısı bildirdi:

"... işğalçıya bəlkə də sonuncu dəfə şans veririk ki, çıxın bizim torpaqlarımızdan. Çıxın, öhdəlik götürün, danışıqlara qayıdın, danışıqların formatına qayıdın. Yoxsa, Ermənistanın baş naziri özünü nə hesab edir? Bizimlə bu tərzdə danışmaqmı olar? İndi biz ona yerini göstərdik. "Qarabağ Ermənistandır" deməklə Qarabağ heç vaxt Ermənistan olmayacaq. İndi görüm necə deyir "Qarabağ Ermənistandır". Səsini belə çıxara bilmir".[434]

Azərbaycan xalqının dövlət rəhbərinə inamı və yüksək etimadı uğurları şərtləndirən amillərdən biri idi. Prezident dedi:

"Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Azərbaycan xalqı mənə inanır. Mən də bu inama arxalanaraq bütün lazımi tədbirləri görürəm, ölkəmizi inamla idarə edirəm, bütün sahələrdə, o cümlədən hərbi quruculuq sahəsində".[435]

Beynəlxalq təşkilatların rəhbərlərinin guya münaqişənin hərbi yolla həllinin olmaması barədə söylədikləri mülahizələr üzərində dayanan dövlət başçısı bildirdi ki, otuz ilə yaxın danışıqlar aparılsa da, məsələ yerindən tərpənmədi, bir santimetr torpaq danışıqlar yolu ilə azad edilmədi, təcavüzkarı torpaqlardan çıxmağa və BMT Təhlükəsizik Şurasının qətnamələrini yerinə yetirməyə məcbur etmədilər. Prezident dedi:

"Bəs, bu məsələ indi necə həll olunur? Bu, hərbi yol deyilmi? Məhz hərbi yolla bu məsələ həll olunur. Hərbi, ondan sonra siyasi. Bu əməliyyat olmasaydı, biz təca-

433 Yenə orada.
434 Yenə orada.
435 Yenə orada.

vüzkara lazımi zərbələr endirməsəydik, onların dərsini verməsəydik, indi o qaçardımı Moskvaya danışıqlar aparmaq üçün?! Oturacaqdı özündən razı, deyəcəkdi ki, torpaqları vermirik. Biz məcbur etdik onları. Biz onları elə günə saldıq ki, indi gizlənməyə deşik axtarırlar, tapa bilmirlər. Oturublar, siçan kimi ağzına su alıb susurlar. Bəs, hanı sənin hikkən?! Hanı sənin təkəbbürün?! Hanı sənin "qəhrəmanlığın"?! Deyirdin "Qarabağ Ermənistandır". Qarabağ Azərbaycandır. Bunu hamı bilməlidir, o cümlədən bu gün Ermənistanın başında oturanlar da bilməlidir".[436]

Humanitar atəşkəsə dair Moskvada keçirilən danışıqlardan sonra yenə də saxtakarlıq edəcəyi təqdirdə Ermənistanın peşman olacağını deyən Prezident vurğuladı:

"Status-kvo belə olmalıdır, elə olmalıdır. Mən dəyişdirdim status-kvonu, dəyişdirdim! Bax, orada, döyüş meydanında. Yoxdur status-kvo. Təmas xətti, yoxdur təmas xətti. Yarmışıq onu. Onlar 30 il idi ki, qururdular bu təmas xəttini. Özü də o bölgənin relyefi təbii istehkamdır. Biz aşağıdan yuxarı gedirik. Özü də 30 il ərzində orada beton istehkamlar qurulub. Yarıb keçmişik. Azərbaycan əsgərinin qabağında heç kim heç nə edə bilməz. Biz bu gün o təmas xəttini darmadağın etdik. Yoxdur təmas xətti. İndi deyirlər yeni təmas xətti olacaq. Olmayacaq! Biz torpaqlarımızı geri alacağıq. Hansı təmas xəttindən söhbət gedə bilər?! Yoxdur bu, biz dağıtmışıq, biz etmişik, iradə göstərmişik, güc göstərmişik, xalqımızın iradəsinə arxalanmışıq və bu gün qələbə çalırıq. Tarixi qələbə çalırıq! Bu qələbə Azərbaycan xalqının əldə etdiyi qələbələr arasında ən parlaq qələbədir. Gələcəkdə bu qələbələr davam edəcək. Biz torpaqlarımızı azad edəcəyik, ərazi bütövlüyümüzü bərpa edəcəyik!... Bayrağımız işğal edilmiş bütün torpaqlarda qaldırılacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək".[437]

16.2. Döyüş və informasiya meydanında mübarizə

Prezident İlham Əliyev oktyabrın 9-da "CNN International" televiziya kanalının "Connect the World" verilişində yayımlanan müsahibəsində hərbi əməliyyatların gedişinə və Azərbaycan dövlətinin mövqeyinə bir daha aydınlıq gətirərək bildirdi ki, ordunun inventarında türk avadanlığı olsa da, türk qüvvələri yoxdur. Türkiyə Azərbaycana siyasi, diplomatik dəstək verirdi. Ermənistan münaqişənin coğrafiyasının genişləndirilməsində və mümkün qədər çox ölkənin bu münaqişəyə cəlb olunmasında maraqlı idi. Dövlət başçısı Ermənistan rəhbərliyinə 1990-cı illərin əvvəllərində torpaqlar işğal edilərkən onun arxasında hansı

436 Yenə orada.
437 Yenə orada.

ölkənin durduğunu xatırladaraq həmin köməyə dair kifayət qədər sübut olduğunu dedi. Ermənistan tərəfindən "Azərbaycana kimsə kömək edir" barədə yayılan informasiya səhv idi.[438] Azərbaycan təkcə pulla aldığı türk silahlarından deyil, eyni zamanda Rusiya, İsrail, Belarus, Ukrayna və digər ölkələrin silahlarından da istifadə edirdi. Qiyməti milyardlarla dollar olan silahları kasıb Ermənistanın almağa imkanı olmadığından ona bağışlayırdılar.

Məlum olduğu kimi, Türkiyənin F-16 qırıcı təyyarələri Azərbaycana hərbi təlimlərdə iştirak etmək üçün gəlmişdi. Azərbaycan və Türkiyənin 2019-cu ildə birgə 10 hərbi təlimi keçirilmişdi. Hərbi Hava Qüvvələrinin iştirakı ilə hərbi təlimlər də imzalanan sənədlərə uyğun idi.

Jurnalistin Türkiyənin Azərbaycanın arxasında dayanmasının bu münaqişənin beynəlxalq münaqişəyə çevrilməsi riskini artırmasına dair sualına cavab verən Prezident söylədi ki, regionda və xüsusilə münaqişədə sabitləşdirici rol oynayan Türkiyə Azərbaycan ilə tərəfdaş, müttəfiq və qardaş ölkədir. Azərbaycan tərəfi Ermənistanın Fransanı özünə müttəfiq saymasına etiraz etmirdi. Ermənistana ən çox dəstək verən ölkənin Fransa olduğunu bildirən dövlət başçısı dedi ki, məsələn, Fransanın xarici işlər naziri Rusiyanın Ermənistana pulsuz silah verərək onu dəstəkləməsindən narahat olmur, o, bunun münaqişəni beynəlxalq münaqişəyə çevirəcəyini düşünmür, lakin Türkiyə legitim, siyasi dəstəyini ifadə etdikdə narahatlıq keçirir.

Aparılan hərbi əməliyyatların məqsədlərini izah edən Prezident bildirdi ki, Azərbaycanın məqsədi xalqı, ölkəni və öz torpağında yaşamaq hüququnu müdafiə etməkdən ibarətdir. Azərbaycanın hərbi mövqelərinə, şəhər və kəndlərinə artilleriya atəşi açan Ermənistan olmuş, nəticədə mülki şəxslər qətlə yetirilmiş, yaralanmış, mindən çox ev dağıdılmış və ya onlara ciddi ziyan dəymişdi. Azərbaycan tərəfi düşmənə cavab verməyə məcbur olmuşdu.

Dağlıq Qarabağ regionunun gələcəyi barədə danışan Prezident vurğuladı ki, müharibə başa çatdıqdan və işğalçı qüvvələr çıxarıldıqdan sonra multietnik əhalisi olan istənilən digər ölkədə olduğu kimi, bölgədə də ermənilər və azərbaycanlılar yan-yana yaşayacaqlar.[439] İşğalçı ölkənin prezidentinin Dağlıq Qarabağ regionunda yaşayan əhalinin 95%-nin erməni olması, Azərbaycan tərəfinin erməni qoşunlarının çıxarılması ilə bağlı vaxt cədvəlinin müəyyən olunmasına dair tələbi və Azərbaycan hökuməti torpaqları geri götürəcəyi təqdirdə ermənilərin etnik təmizləməyə məruz qala biləcəkləri haqqında təxribatçı suala cavab verən Prezident İlham Əliyev Azərbaycanda sülh və ləyaqət içində

438 İlham Əliyevin "CNN International" televiziya kanalının "Connect the World" verilişində müsahibəsi yayımlanıb. 09.10.2020 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/42434.

439 Yenə orada.

yaşayan minlərlə ermənin olduğuna diqqəti cəlb edərək bildirdi ki, onlar ölkənin müxtəlif şəhərlərində, əsasən paytaxt Bakıda yaşayır. İkinci ən böyük şəhər olan Gəncəyə hücum üçün ermənilərin istifadə etdiyi uzunməsafəli dağıdıcı mərmilərdən biri olan "Smerç" erməni qadının evinə düşmüşdü. Bundan fərqli olaraq, Ermənistanda azərbaycanlılara qarşı etnik təmizləmə törədilmişdi və burada əhalinin 99%-ni ermənilər təşkil edirdi. Ermənistan başçısı yalan danışırdı. Ermənistan Azərbaycan torpaqlarını işğal etdikdən və orada yaşayan 25% azərbaycanlı əhalini etnik təmizlənməyə məruz qoyub məcburi köçkünə çevirdikdən sonra Dağlıq Qarabağ regionunda əhalinin 95%-i deyil, 100%-i ermənilər olmuşdu.

Tarixi sənədlərə istinad edən Azərbaycanın rəhbəri dedi ki, XIX əsrin əvvəlində Azərbaycanın Qarabağ xanı və rus generalı arasında imzalanmış Kürəkçay sülh müqaviləsində erməni əhalisi haqqında heç bir şey deyilmir. Çünki o zaman ermənilər burada yaşamırdılar. Erməni əhali Azərbaycan torpaqlarına Rusiya-İran müharibələrindən sonra çarizm tərəfindən regionun dini tərkibini dəyişdirmək məqsədilə köçürülmüşdü.

Azərbaycanın beynəlxalq vasitəçiliyi necə qəbul etməsinə və hərbi əməliyyatı dayandırması məsələsinə bir daha aydınlıq gətirən Prezident bildirdi ki, Minsk qrupunun vasitəçiliyi nəticə vermədiyindən müharibə başladı. Vasitəçilik Ermənistanı onlara məxsus olmayan əraziləri tərk etməyə məcbur etmək üçün yetərli olmadığından Minsk qrupunun həmsədri olan üç ölkə eyni hüquq və məsuliyyət daşıyırdı. Vaşinqtonun mövqeyi də digər həmsədrlərin mövqeyindən fərqlənmirdi. ABŞ, Rusiya və Fransa tərəfindən işlənib hazırlanmış prinsiplər münaqişənin həlli üçün əsas olmalı idi. Lakin Ermənistanın baş naziri bunları rədd edərək "Qarabağ Ermənistandır", "Azərbaycan Ermənistanla deyil, Dağlıq Qarabağla danışıqlar aparmalıdır" deməklə danışıqlar formatını dəyişdirməyə cəhd etmişdi.

Prezident İlham Əliyev bildirdi ki, vəziyyət daha da gərginləşməməli, Azərbaycan və Ermənistan arasında ikitərəfli məsələdə bütün ölkələr kənarda qalmalıdırlar. Vasitəçilərin mandatı yerdə müdaxilə etmək deyil, həll yolunu tapmaq üçün şərait yaratmaq olsa da, onlar buna nail ola bilməmişdilər. Ermənistan isə özünü xilas etmək üçün münaqişəni beynəlmiləlləşdirməyə çalışırdı.[440]

"Amnesty International"ın guya Azərbaycan qüvvələrinin İsrail istehsalı olan M095 DPICM kasetli mərmiləri atdığına dair iddiaları tamamilə əsassız və yalan idi. Ermənipərəst və anti-Azərbaycan mövqeyi tutduğuna görə həmin təşkilatla Azərbaycanın heç bir təması mövcud deyildi. Prezident bildirdi ki, bu təşkilat Ermənistanın kasetli bombalardan, "Smerç"dən, "Elbrus"dan, "Toçka U"dan,

440 Yenə orada.

ballistik raketlərdən Azərbaycan şəhərlərinə qarşı necə istifadə etdiyinə, Gəncə, Goranboy, Naftalan, Yevlax və digər şəhərlərin bombardman altında olmasına baxsın. Hədəfi yalnız hərbi obyektlər olan Azərbaycan tərəfi kasetli silahlardan istifadə etmirdi.[441]

Ermənistanın siyasətinə növbəti zərbəni Prezident İlham Əliyev oktyabrın 9-da Sky News televiziya kanalında yayımlanan müsahibəsində vurdu. Jurnalistin "25 faiz azərbaycanlı əhalinin Dağlıq Qarabağa qayıtmasına icazə verilsə, siz Dağlıq Qarabağın müstəqilliyini tanıyarsınız?" sualına dövlət başçısı qəti şəkildə belə cavab verdi:

"Xeyr. Heç vaxt. Bu məsələ heç vaxt danışıqlar masasında olmamışdır. Bizim mövqeyimiz çox aydın idi ki, Azərbaycan heç vaxt Dağlıq Qarabağın müstəqilliyini tanımayacaq. Çünki bu, bizim qədim torpağımızdır. Dağlıq Qarabağın tarixi indi yaxşı məlumdur. İkincisi, bu, Azərbaycanın tərkib hissəsidir və biz kiçik sayda olan insanlara nəyə görə müstəqillik verməliyik? Azərbaycan dünyadakı bütün ölkələr kimi multietnik ölkədir. Milli azlıqlar Azərbaycanda və dünyanın bir çox ölkələrində sülh və ləyaqət içində yaşayırlar. Milli azlıq olmaq o demək deyil ki, sizin ayrılmağa, separatizmə hüququnuz var. Separatizm beynəlxalq ictimaiyyət üçün böyük təhlükədir və dünyanın bütün ölkələri separatizmi qınayır. Bizə qarşı edilənlər Dağlıq Qarabağdakı ermənilərin separatizmi və Azərbaycana qarşı Ermənistan dövlətinin hərbi təcavüzü idi".[442]

Dövlət başçısının müsahibələri Azərbaycanın haqlı mövqeyinin dünyaya çatdırılmasında və Ermənistanın bütün sahələrdə siyasətinin ifşa edilməsində mühüm rol oynayırdı. Eyni zamanda müharibə başa çatdıqdan sonra ermənilərlə münasibətin əsaslarının necə qurulacağı məsələsinə aydınlıq gətirirdi.

Bu zaman cəbhədə döyüşlər davam edirdi. Oktyabrın 9-da günün ikinci yarısından oktyabrın 10-u səhər saatlarınadək bütün cəbhə boyu müxtəlif intensivliklə davam edən döyüşlərdə düşmənə ağır zərbələr endirildi. Bu müddətdə düşmənin xeyli sayda canlı qüvvəsi, 13 ədəd tankı, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-20 və D-30 topu, 3 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 2 ədəd M55 "Zastava" zenit qurğusu, 2 radiolokasiya stansiyası və radioelektron mübarizə vasitələri məhv edildi.

Düşmən oktyabrın 10-da Xocalı istiqamətindən Hadrut qəsəbəsini yaylım atəşli reaktiv sistemlərdən intensiv atəşə tutdu. Paralel olaraq Goranboy, Tərtər, Ağdam, Ağcabədi və Füzuli rayonlarının yaşayış məntəqələri hədəf alındı. Azərbaycan Ordusu düşmənə qarşı cavab tədbirləri gördü.

441 Yenə orada.
442 İlham Əliyevin "Sky News" televiziya kanalında müsahibəsi yayımlanıb. 09.10.2020 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/42435/print.

Qeyd edildiyi kimi, həmin ərəfədə Moskvada Azərbaycan, Ermənistan və Rusiya xarici işlər nazirlərinin iştirakı ilə humanitar atəşkəs haqqında razılıq əldə olunmuşdu. Oktyabrın 10-da saat 12:00-da atəşkəs elan olunması barədə razılıq əldə edilməsinə baxmayaraq, işğalçı ordu cəbhənin Ağdərə-Tərtər və Füzuli-Cəbrayıl istiqamətlərində hücuma cəhd göstərdi, bir sıra yaşayış məntəqələrini artilleriya atəşinə tutdu. Düşmənin bütün hücum cəhdlərinin qarşısı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alındı.

Humanitar atəşkəs rejiminə riayət etməyən işğalçı ölkənin silahlı qüvvələrinin bölmələri Tuğ kəndi istiqamətindən Hadruta, Aragül və Banazur istiqamətlərindən isə Cəbrayıla hücuma cəhd göstərsə də, irəliləməsinin qarşısı alındı, tələyə salınaraq darmadağın edildi. Xeyli canlı qüvvə və döyüş texnikasını itirən düşmən geri çəkilməyə məcbur oldu. İşğalçı qüvvələrin 38 nəfər canlı qüvvəsi, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 7 ədəd topu və sursatla dolu 2 yük maşını məhv edildi.

Hərbi əməliyyatlar davam edərkən Prezident İlham Əliyev oktyabrın 10-da Rusiyanın RBK televiziya kanalına müsahibə verdi. Jurnalistin Moskvada humanitar atəşkəsə dair üç ölkənin xarici işlər nazirlərinin iştirakı ilə əldə edilmiş razılaşma barədə sualı cavablandıran dövlət başçısı Moskvada baş verənləri bütövlükdə müsbət qiymətləndirdi. Çünki danışıqların yekunlarına dair yayılmış bəyanatda humanitar mülahizələrə əsasən atəşkəs rejiminin elan edilməsi bildirilir, Ermənistan ilə Azərbaycan arasında substantiv danışıqlar başlanır, danışıqların formatının dəyişməz qalması təsdiqlənirdi. Ermənistanın yeni hakimiyyəti bu iki mövqeyi, yəni substantiv danışıqları pozmağa və danışıqların formatını pozmağa çalışırdı. Moskva danışıqlarında Ermənistan tərəfi anlamağa məcbur olmuşdu ki, baza prinsipləri nizamlama üçün əsasdır, həmin prinsiplərdə isə münaqişənin necə nizamlanmalı, Azərbaycanın işğal edilmiş ərazilərinin hansı ardıcıllıqla qaytarılmalı olduğu dəqiq göstərilirdi. İkincisi, danışıqların formatı dəyişməz qalırdı. Bu, o demək idi ki, danışıqlar yalnız Azərbaycan ilə Ermənistan arasında aparılırdı. Ermənistan rəhbərliyinin bu məsuliyyəti oyuncaq rejimin üzərinə qoymaq üçün göstərdiyi bütün cəhdlər uğursuz olmuşdu. Prezident İlham Əliyev dedi:

"...əminəm ki, bundan sonra Paşinyandan "Qarabağ Ermənistandır" sözlərini bir daha eşitməyəcəyik. Həmçinin onun belə bəyanatlarını eşitməyəcəyik ki, Azərbaycan danışıqları qondarma "Dağlıq Qarabağ respublikası"nın qondarma "rəhbərliyi" ilə aparmalıdır".[443]

443 "Moskvada baş verənləri bütövlükdə müsbət qiymətləndirirəm". 10.10.2020 // URL: http:www.azerbaijan-news.az/view-200353/moskvada-bas-verenleri-butovlukde-musbet-qiymetlendirirem.

Azad edilən ərazilərin dirçəldiləcəyinə və məcburi köçkünlərin daimi yaşayış yerlərinə qayıdacağına dair planları ölkə rəhbəri belə izah etdi:

"Biz köçkünlərimizi öz evlərinə qaytaracağıq. ...azad edilmiş ərazilərdən çəkilmiş videokadrları nümayiş etdiririk. Bu kadrlardan görünür ki, orada hər şey dağıdılıb... Bu, Stalinqraddan da betərdir. Dağıdılmayanların isə hamısı oğurlanıb, qarət edilib. Başa düşürsünüzmü, onlar hətta pəncərə çərçivələrini də, unitazları da oğurlayıblar. Bu, sadəcə, dövlət siyasəti dərəcəsinə çatdırılmış quldurluqdur. ...biz bu əraziləri bərpa edəcəyik".[444]

Bütün cəbhə boyu humanitar atəşkəs rejiminə riayət etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 10-dan 11-ə keçən gecə canlı qüvvə və döyüş texnikasını cəmləşdirərək yenidən kiçik qruplarla cəbhənin Hadrut və Cəbrayıl istiqamətlərində hücuma keçməyə cəhd göstərsə də, ağır zərbə alaraq geri qaçmağa məcbur oldu.

Azərbaycan Ordusunun keçirdiyi əməliyyatların nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 5 ədəd T-72 tankı, 6 ədəd D-20 və D-30 haubitsası, 5 ədəd sursatla dolu yük maşını, 11 ədəd digər avtomobil texnikası, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 5 ədəd 2S1 "Qvozdika" özüyeriyən haubitsası, 8 ədəd hava hücumundan müdafiə sistemi və radiolokasiya stansiyası məhv edildi. Düşmənin 1-ci, 5-ci və 9-cu motoatıcı alaylarında döyüş mövqelərini özbaşına tərk edən hərbi qulluqçuların sayı artdı.

Humanitar atəşkəs rejimini pozaraq oktyabrın 11-də səhər saat 08:00 radələrində Mingəçevir istiqamətində uçuşlara cəhd edən Ermənistana məxsus PUA məhv edildi. Həmin gün işğalçı ölkə Gəncəyə dördüncü dəfə raket zərbələri endirdi. Nəticədə 10 mülki vətəndaş şəhid oldu və 40-dan çox insan yaralandı. Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yaydığı bəyanatda yazılırdı:

"Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələri döyüş əməliyyatları aparılan ərazidən xeyli aralıda yerləşən şəhər və kəndlərimizi raket və artilleriya atəşinə tutmaqda davam edir.

Oktyabrın 10-u və 11-i tarixlərində müxtəlif saatlarda Gəncə və Mingəçevir şəhərləri, Goranboy, Tərtər, Ağdam, Ağcabədi, Füzuli və Cəbrayıl rayonlarının kəndləri işğalçı ordu tərəfindən atəşə məruz qalıb. Nəticədə xeyli sayda dinc sakin həlak olub və yaralanıb, mülki infrastruktura ciddi ziyan dəyib.

444 Yenə orada.

Bölgədəki vəziyyətin gərginləşməsinə görə məsuliyyət tam şəkildə Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür".[445]

Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 11-dən 12-ə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Cəbrayıl istiqamətlərində kiçik qruplarla bir neçə dəfə Azərbaycan Ordusunun mövqelərinə hücuma cəhd göstərsələr də, ağır zərbə aldılar. Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd T-72 tankı, bir neçə avtomobil texnikası məhv edildi.

İşğalçı ölkənin 9-cu alayının artilleriya rəisi tabeliyində olan bölmə ilə Hadrut yaşayış məntəqəsi istiqamətindən geri çəkildi, 5-ci alayın şəxsi heyəti isə təhkim olunmuş texnikanı döyüş mövqelərində qoyub qaçdı. Qırmızı Bazar məntəqəsi istiqamətinə endirilən artilleriya zərbələri nəticəsində 1-ci alayın daimi dislokasiya məntəqəsində yeraltı sığınacaq və düşmənin geri çəkilən bölməsinin 2 texnikası məhv edildi. Təcavüzkar ölkənin 1-ci alayının geri çəkilən bölmələri arasında rabitə və qarşılıqlı əlaqənin pozulması səbəbindən bir-birinə atəş açdılar. Digər bölmələrin şəxsi heyəti də döyüş mövqelərini tərk etdi.

Rüsvayçı məğlubiyyətin əvəzini çıxmaq üçün işğalçı ölkə yenidən müharibə cinayətinə əl ataraq həmin gün Goranboy, Tərtər və Ağdam rayonlarını atəşə tutdu. Mülki obyektlərə ziyan dəydi.

Prezident İlham Əliyev oktyabrın 12-də Türkiyənin "Haber Global" televiziya kanalına verdiyi müsahibəsində Gəncəyə terror hücumundan və əməliyyat meydanındakı son vəziyyətdən bəhs etdi. Humanitar atəşkəs rejimi tətbiq olunandan sonra çirkin əməllərini davam etdirən Ermənistanın mülki şəxslərə qarşı dəhşətli cinayət törədərək Gəncə şəhərini "Toçka-U" raketləri ilə bombardman etməsi erməni faşizminin eybəcər simasının növbəti təzahürü idi. Ermənistanda terrorçuluq və qurama dövlət siyasəti çulğalaşmışdı. Ermənistan terror dövləti idi. Bütün bunların gizlədilməsinin mümkün olmadığını deyən dövlət başçısı vurğuladı:

"Artıq dünya ermaniliyi, Ermənistanın havadarları, onların hamiləri və islamofob dairələr bu cinayəti gizlədə bilməyəcəklər. Çünki artıq hər şey göz qabağındadır. Dünən o hadisə yerində təşkil olunan mətbuat açıqlamaları və bu gün oraya gedən xarici səfirliklərin nümayəndələri öz gözləri ilə hər şeyi görürlər. ...Ermənistan dövləti terror dövlətidir, faşist dövlətidir və insanlığa qarşı törədilmiş bu cinayət bunu bir daha göstərdi".[446]

445 Azərbaycan Müdafiə Nazirliyinin Bəyanatı. 11.10.2020 // Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet saytı. URL: https:mod.gov.az/az/news/azerbaycan-mudafie-nazirliyinin-beyanati-32894.html.

446 İlham Əliyev Türkiyənin "Haber Global" televiziya kanalına müsahibə verib. 12.10.2020 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/42723/print.

Humanitar atəşkəs rejiminə riayət etməyən işğalçı ölkənin bölmələri yenidən qruplaşma və yerdəyişmə apararaq cəbhənin bəzi istiqamətlərində Azərbaycan Ordusunun mövqelərinə hücuma cəhd etdi. Oktyabrın 13-də səhər saatlarından etibarən Goranboy, Tərtər və Ağdam rayonlarının əraziləri yenidən atəşə tutuldu. Cavab olaraq cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd "Tor-M2KM ZRK", 1 ədəd ZSU-23-4 "Şilka" özüyeriyən zenit qurğusu, 2 ədəd PDM-2, 3 ədəd 2A36 "Qiasint-B" topu, 1 ədəd KS-19 zenit topu, 1 ədəd D-20 haubitsa topu, 3 ədəd PUA-sı, bir neçə avtomobil texnikası, 5-ci dağatıcı alayının müdafiə sahəsində mövqe tutan şəxsi heyəti, 1-ci motoatıcı alayın bir bölüyə qədər canlı qüvvəsi pusquya salındı və hərəkətdə olan avtomobil texnikası, Əsgəran istiqamətində hərəkət edən 4-cü motoatıcı alayın avtomobil texnikası kolonu və Ermənistanın Qarakilsə (Sisian) yaşayış məntəqəsi istiqamətindən işğal olunmuş ərazilərə doğru hərəkət edən könüllülərdən ibarət bir qrup məhv edildi. Müqaviməti qırılan düşmən bölmələrində kütləvi fərarilik daha da artdı.

Döyüş meydanında yaranmış şəraiti və ondan sonrakı mümkün prosesləri Türkiyənin "Haber Türk" televiziya kanalına oktyabrın 13-də verdiyi müsahibəsində izah edən Prezident İlham Əliyev bölgəyə sülhməramlı qüvvələrin gəlməsi məsələsi barədə dedi:

"...hər kəs anlamalıdır bu gün sülhməramlıların göndərilməsi deyəndə Azərbaycan torpaqlarından, suveren Azərbaycan ərazisindən söhbət gedir. Bizim icazəmiz olmadan hər hansı ölkə sülhməramlılarını bizim torpağımıza göndərə bilməz. Bu, qanuna ziddir. Bu, beynəlxalq hüquqa ziddir. Bu, qəbuledilməzdir".[447]

Müharibə haqqında həqiqətləri Prezident İlham Əliyev oktyabrın 14-də France 24, oktyabrın 15-də Türkiyənin NTV televiziya kanallarına, Rusiyanın "Ria Novosti" agentliyi üçün "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyi media qrupunun baş direktoruna verdiyi müsahibələrində bir daha dünyaya çatdırdı. Ria Novosti agentliyinə müsahibəsində Suriyadan və ya Liviyadan olan muzdluların guya Azərbaycan Ordusu tərəfindən iştirak etməsi barədə yayılan yalan xəbərlərə münasibət bildirən dövlət rəhbəri bildirdi ki, Azərbaycanda hər hansı xarici hərbi iştiraka ehtiyac yoxdur, orduda 100 mindən çox döyüşçü var, o, qarşıya qoyulan istənilən vəzifəni yerinə yetirməyə tam qadirdir. Heç bir muzdlunun bu dərəcədə ixtisası və belə texniki imkanları yox idi. Azərbaycan təkcə pilotsuz zərbə uçuş aparatları vasitəsilə düşmənin 1 milyard dollardan artıq dəyərində hərbi texnikasını məhv etmişdi. Buraya əldə olan başqa vasitələr daxil deyildi. Prezident bildirdi:

447 İlham Əliyev Türkiyənin "Haber Türk" televiziya kanalına müsahibə verib. 13.10.2020 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/42869.

"Azərbaycan Ordusunun potensialı məlumdur. Bizim nəyə malik olduğumuz heç kəs üçün sirr deyil. Buna görə bizim əlavə hərbi qüvvələrə ehtiyacımız yoxdur. Azərbaycan beynəlxalq terrorizmə qarşı həmişə ardıcıl mübariz olub. ...hansısa terror təşkilatlarının bizim ərazimizdə yuva salmalarına, xüsusən bizim xalqımız və qonşularımız üçün təhdid mənbəyi olmalarına heç vaxt imkan verməyəcəyik".[448]

Ölkə rəhbərinin müsahibələri Ermənistanın işğalçılıq siyasətini, vurduğu ziyanları, Azərbaycan dövlətinin məqsədlərini və gələcək siyasətini dərk etmək baxımından faydalı idi. Bir daha əminlik yaranırdı ki, təcavüzkar Ermənistan həm də terror dövlətidir və Azərbaycan işğal altındakı torpaqlarını azad edəcəkdir.

16.3. Ermənistan ərazisində Azərbaycana tuşlanmış əməliyyat-taktiki ballistik raketlərin məhv edilməsi

Oktyabrın 13-dən 14-ə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində vəziyyət gərgin olaraq qalırdı. Ermənistan silahlı qüvvələrinin bölmələri gecə ərzində cəbhənin Azərbaycan Ordusunun mövqelərinə hücum etsələr də, ağır itki verərək geri oturduldu. Düşmənin 5 ədəd T-72 tankı, 3 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd "Osa-AKM ZRK", 1 ədəd PDM-2, 1 ədəd KS-19 zenit topu, 2 ədəd D-30 haubitsa topu, bir neçə avtomobil texnikası, cəbhənin Füzuli rayonu istiqamətində PUA-sı məhv edildi.

Ermənistan Respublikası tərəfindən Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonu ilə yaxın sərhəd zonasında bir neçə əməliyyat-taktiki ballistik raket kompleksinin start mövqeyində yerləşdirilməsi oktyabrın 14-də müşahidə olundu. Bu ərazidəki raket kompleksləri Azərbaycanın Gəncə, Mingəçevir və digər şəhərlərindəki dinc əhali və infrastruktura qarşı yönəlmişdi. Gəncə şəhərində oktyabrın 11-də törədilmiş hərbi cinayətə bənzər növbəti hadisənin təkrarlanmaması və raket hücumunun qarşısının alınması məqsədilə Azərbaycan Ordusu tədbirlər gördü. Atəş üçün hazırlıq vəziyyətinə gətirilən əməliyyat-taktiki raket kompleksləri legitim hərbi hədəf kimi dəqiqliklə məhv edildi.

Prezident İlham Əliyev oktyabrın 14-də Twitter səhifəsində Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndlərinin işğaldan azad edilməsi barədə məlumat verdi.

448 İlham Əliyev Rusiyanın Ria Novosti agentliyi üçün "Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibə verib. 15.10.2020 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/43208.

Hərbi əməliyyatların gedişi barədə Azərbaycandakı səfirlərə, akkreditə olunmuş xarici hərbi attaşelərə və beynəlxalq təşkilatların nümayəndəliklərinin rəhbərlərinə brifinq yolu ilə müntəzəm məlumat verilirdi. Belə toplantılardan biri oktyabrın 14-də Müdafiə Nazirliyinin Hərbi İnformasiya Mərkəzində təşkil edildi. Brifinqdə mülki əhalini hədəf alan Ermənistan silahlı qüvvələrinə məxsus operativ-taktiki komplekslərin taktiki xüsusiyyətləri və onların imkanları, düşmənin cəbbəxanasında olan taktiki və operativ taktiki raket sistemlərinin hədləri barədə fotoslaydlar əsasında məlumat verildi. Diqqətə çatdırıldı ki, işğalçı ölkə oktyabrın 11-də Mingəçevir və Gəncə şəhərlərinə zərbələr endirmişdir. Ballistik raketlərə qarşı xüsusi əməliyyatların nəticəsində oktyabrın 12-də saat 14 radələrində işğal altındakı Qubadlı rayonu ərazisində bir ədəd "Toçka-U" raketi, oktyabrın 14-də gecə saat 01 radələrində iki ədəd və səhər 08:30 radələrində bir ədəd olmaqla ümumilikdə üç ədəd "Elbrus" ballistik raket qurğusu raketləri ilə birlikdə aşkarlanaraq məhv edilmişdi. 300 kilometr atış məsafəsinə malik "Elbrus" ballistik raketi kifayət qədər ön cəbhəyə gətirildiyi zaman Bakı şəhərinə çatacaq uçuş məsafəsinə də malikidi. Əgər Dağlıq Qarabağ regionuna həmin raket gətirilsəydi, hansı dağıntılara səbəb ola biləcəyi aydın təsəvvür etmək mümkünidi. Əldə edilmiş kəşfiyyat məlumatları Dağlıq Qarabağ regionunda yerləşən 1-ci ümumqoşun ordusunun tərkibində belə hərbi hissəsinin olmadığını sübut edirdi. Bu silah Ermənistanın 71-ci raket alayının tərkibində idi. Həmin hərbi hissə Cəlaloğlu (Stepanavan) şəhərində yerləşirdi. Brifinqdə hava hücumundan müdafiə bölmələri tərəfindən məhv edilən həmin sistemlərin döyüş mövqeyi tutduğu, köməkçi avtomobillərin də yaxınlaşdığı və raketlərin atışa hazırlandığı əks olunan video nümayiş olundu.

Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 14-dən 15-ə keçən gecə cəbhənin bəzi istiqamətlərində Azərbaycan Ordusunun mövqelərinə hücum cəhdi göstərdi. Həyata keçirilən tədbirlər nəticəsində düşmən itki verdi və geri çəkilməyə məcbur edildi. İşğalçı ölkənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd "Tor-M2KM" zenit raket kompleksi, 4 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-20, 1 ədəd D-30 və 2 ədəd D-1 haubitsa topu, bir neçə PUA-sı və avtomobil texnikası sıradan çıxarıldı.

Döyüş meydanında məğlub olan Ermənistan silahlı qüvvələrinin Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarını atəşə tutması nəticəsində mülki obyektlərə ziyan dəydi.

Prezident İlham Əliyev özünün rəsmi Twitter səhifəsində Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çıraquz kəndlərinin işğaldan azad edilməsi haqqında məlumat verdi.

Düşmən oktyabrın 15-də gün ərzində və 16-na keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut istiqamətlərində yerləşən Azərbaycan bölmələrinin mövqelərini, eləcə də cəbhə xəttinə yaxın kəndləri raket, artilleriya və minaatanlardan atəşə tutdu. Lakin həyata keçirilən tədbirlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd BM-21 "Qrad" YARS, 5 ədəd D-30 haubitsa topu, 2 ədəd ZSU-23-4 "Şilka" özüyeriyən zenit qurğusu və döyüş sursatı ilə yüklənmiş 8 ədəd avtomobil texnikası məhv edildi.

İşğalçı ordunun hərbi qulluqçuları və ehtiyatdan çağırılmış hərbi vəzifəliləri arasında kütləvi fərarilik daha da artdı. Belə hərəkətlərin qarşısını almaq məqsədilə təcavüzkar ölkə rəhbərliyi Gorus və Turşsu yaşayış məntəqələrinin avtomobil yollarında hərbi polisin komendant postlarını qurdu. Ordunun təchizatını təmin etməkdə çoxlu çətinliklər mövcud idi.

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, oktyabr ayında Azərbaycan Ordusu əraziləri işğalçılardan təmizləməkdən ötrü uğurlu hücum əməliyyatlarını davam etdirmişdir. Azərbaycan milləti və ordusu arasında sıx birlik daha da möhkəmlənmişdir. Hadrut qəsəbəsi düşmən işğalından azad edilmiş, təcavükar ölkəyə texnika və canlı qüvvə sarıdan ağır zərbə vurulmuşdur.

Prezident İlham Əliyev oktyabrın 9-da xalqa müraciət edərək işğaldan azad edilən ərazilər barədə məlumat vermiş, düşməni torpaqlardan çıxmağa və vaxt cədvəli verməyə çağırmış, əks-təqdirdə hərbi əməliyyatların sona qədər davam etdiriləcəyini bildirmişdir. Dövlət başçısı Azərbaycan dövlətinin qəti və aydın mövqeyini bir daha izah etmişdir.

Hərb meydanı ilə paralel olaraq informasiya sahəsində də gərgin mübarizə getmişdir. Prezident İlham Əliyevin "CNN International", Rusiyanın RBK, Türkiyənin "Haber Global" televiziya kanallarına verdiyi müsahibələr Azərbaycanın apardığı hərbi əməliyyatların məqsədinin, işğalçı Ermənistanın siyasətinin xarici ölkələrdə dərk edilməsində müstəsna rol oynamışdır.

Moskvada əldə edilən razılaşmaya əsasən oktyabrın 10-da saat 12:00-dan etibarən humanitar atəşkəs elan edilsə də, onu kobudcasına pozan Ermənistanın müharibə cinayəti törədərək oktyabrın 11-də hərbi əməliyyatlar zonasından uzaqda yerləşən Gəncə şəhərini raket atəşinə tutması nəticəsində mülki binalar dağıdılmış, dinc insanlar həlak olmuş və infrastruktura ciddi ziyan dəymişdir. Bununla kifayətlənməyən düşmən Mingəçevir, Goranboy, Tərtər, Ağdam, Ağcabədi, Füzuli və Cəbrayıl rayonlarına da raket atmışdır. Azərbaycan

Ordusu düşmənə ağır zərbə vurmuşdur. Ermənistan ərazisində oktyabrın 14-də Azərbaycan şəhərlərinə zərbə endirmək üçün hazırlıq vəziyyətinə gətirilən əməliyyat-taktiki ballistik raketləri məhv edilmişdir.

Ermənistanın törətdiyi hərbi cinayətlərin Azərbaycan Respublikasında akkreditasiya olunmuş diplomatik korpusun nümayəndələrinə çatdırmaqdan ötrü Müdafiə Nazirliyində brifinq təşkil edilmişdir. Düşmən ölkənin törətdiyi müharibə cinayətləri foto və video sənədlərlə təqdim olunmuşdur.

Hərbi əməliyyatların gedişində erməni əsgər və zabitlərin bir çoxu döyüşə girməkdən qorxaraq qaçmış, fərarilik artmışdır. İşğalçı ordunun təchizatını təmin etməkdə çətinliklər yaranmışdır.

17-ci FƏSİL

FÜZULİ VƏ ZƏNGİLAN RAYONLARINDAN İŞĞALÇILARIN QOVULMASI

17.1. Füzuli şəhərinin işğalçılardan azad edilməsi

Azərbaycan Ordusu işğalçılardan əraziləri azad etdikcə düşmən daha da azğınlaşır, mülki əhalini hədəf alaraq ağır müharibə cinayətləri törədirdi. Belə cinayətlərdən biri işğal altındakı Qubadlı rayonu ərazisindən Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisinə oktyabrın 15-də saat 10:44-də əməliyyat-taktiki raketin atılması oldu. Raket partlasa da, dinc sakinlərə və mülki obyektlərə zərər dəymədi.

Prezident İlham Əliyev oktyabrın 16-da Xocavənd rayonunun Xırmancıq, Ağbulaq və Axullu kəndlərinin işğaldan azad edilməsi haqqında xalqa məlumat verdi.

Həmin gün Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində dövlət başçısı İlham Əliyev Şuşanın azad edilməsinin mümkünlüyü barədə suala cavabında bildirdi ki, hər bir kəndin dəyəri, qiyməti o biri kənd və şəhərlə müqayisədə eynidir, bərabərdir. Şuşa şəhərinin Azərbaycan tarixində tutduğu yer barədə ölkə rəhbəri dedi:

"Ancaq ...Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar". [449]

Oktyabrın 16-da gün ərzində və 17-nə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində əməliyyat şəraiti gərgin olaraq qalırdı. Düşmənin oktyabrın 17-də hərbi əməliyyatlar zonasından kənarda yerləşən Gəncə və Mingəçevir şəhərlərinə növbəti dəfə raket atması nəticəsində ölənlər oldu, mülki obyektlərə ziyan dəydi.

449 İlham Əliyev Türkiyənin "A Haber" televiziya kanalına müsahibə verib. 16.10.2020 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/43250.

Azərbaycan Ordusu düşmənin əvvəlcədən hazırlanmış müdafiə sədlərini müxtəlif istiqamətlərdə yarmağa, onu tutduğu mövqelərdən sıxışdırıb çıxarmağa, qaçmağa məcbur etməyə və irəliləməyə nail oldu. Düşmənin xeyli sayda canlı qüvvəsi, 7 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" YARS, 8 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları, döyüş sursatı ilə yüklənmiş 10 ədəd yük maşını və 7 ədəd digər avtomobil texnikası məhv edildi. 1-ci motoatıcı alayının müdafiə zolağında ehtiyatdan çağırılmış 300 nəfərədək hərbçisi döyüş mövqelərini özbaşına tərk etdi. Çoxlu sayda ölən və yaralanan oldu. Gücləndirmə məqsədilə alaya təhkim edilmiş xüsusi təyinatlı polis dəstəsi də döyüş mövqelərindən qaçdı.

Prezident İlham Əliyev oktyabrın 17-də millətə müraciətində bildirdi ki, bu gün Ermənistanın faşist rəhbərliyi növbəti hərbi cinayət törətmiş, Gəncə və Mingəçevir şəhərlərini raket atəşinə məruz qoymuş, bu namərd atəş nəticəsində soydaşlarımız həlak olmuş və yaralanmışlar. Belə vəhşi hərəkət Ermənistanın terrorçu və faşist mahiyyətini göstərirdi. Dövlət rəhbəri söylədi:

"Bu, bir daha Ermənistan rəhbərliyinin faşist mahiyyətini göstərir. Birinci dəfə deyil ki, bizim şəhərlərimiz atəşə məruz qalır və demək olar ki, hər gün Tərtər, Ağdam, Goranboy, Ağcabədi və digər şəhərlərə Ermənistan atəş açır. Bu atəş nəticəsində vətəndaşlarımız həlak olur, yaralanır, 2 mindən çox ev dağıdılıb, ya da ki, bu evlərə çox böyük ziyan vurulubdur. Ancaq bu namərd hərəkətlər Azərbaycan xalqının iradəsini qıra bilməz".[450]

Dövlət başçısı vurğuladı ki, Ermənistan rəhbərliyi hərbi cinayət törədir. Dinc əhaliyə əməliyyat operativ raket komplekslərindən atəş açmaq hərbi cinayət olduğundan işğalçı ölkə məsuliyyət daşıyırdı. Prezident 27 sentyabr tarixindən sonra Ermənistanın hərbi potensialına vurulan zərbə haqqında məlumat verdi. Bildirdi ki, Azərbaycan döyüş meydanında tam üstünlüyü əldə etmiş və Ermənistanın hərbi-texniki potensialını böyük dərəcədə sıradan çıxarmışdır. Ancaq sual olunurdu ki, bu qədər silah və texnika Ermənistanda haradandır? Ermənistanın dövlət və hərbi büdcəsi bəlli idi. İflas etmiş bu ölkənin xarici dövlət borcu ümumi daxili məhsulun 60-70%-ni təşkil edirdi. Ermənistanın sərbəst valyuta ehtiyatları cəmi 1,5 milyard dollar idi. Onlar da sərbəst vəsait deyil, bank ehtiyatları idi. Soruşulurdu ki, Ermənistan hansı pulla bu silah və texnikanı alırdı? Təkcə oktyabrın 17-dək məhv edilmiş və qənimət kimi götürülmüş texnikanın qiyməti təqribən 2 milyard dollar təşkil edirdi. Ancaq hələ də Ermənistanın texnikası qalmışdı. Sual olunurdu ki, onları kim silahlandırır? Kasıb, yoxsul

450 Prezident İlham Əliyev: Əminəm ki, erməni xalqı da öz cinayətkar xunta rejimi başçılarını məsuliyyətə cəlb edəcək. 17.10.2020 // Azərtac. URL: https:azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Aminem_ki_ermeni_xalqi_da_oz_cinayetkar_xunta_rejimi_baschilarini_mesuliyyete_celb_edecek_VIDEO_-1616595.

Ermənistanda bu qədər silah-texnika haradan idi? İşğalçı ölkəyə böyük dağıdıcı gücə malik olan silah və texnika göndərilirdi. Azərbaycan dövləti bu suallara cavab istəyirdi. Prezident işğalçı ölkənin məhv edilmiş hərbi texnikasının bir hissəsi barədə aşağıdakı məlumatları diqqətə çatdırdı:

"...məhv edilmiş Ermənistan texnikası: tank – 234 ədəd məhv edilib, 36 tank hərbi qənimət kimi götürülüb, piyadaların döyüş maşını – 49-u məhv edilib, 24-ü hərbi qənimət kimi götürülüb. Özüyeriyən artilleriya qurğusu 16 ədəd məhv edilib, müxtəlifçaplı toplar 190, "Uraqan" sistemi 2, TOS odsaçan 1, əməliyyat taktiki raket kompleksi "Elbrus" 2, "Toçka-U" 1, "OSA" zenit raket kompleksi 35, "TOR" zenit-raket kompleksi 3, "KUB" və "Kruq" zenit raket kompleksi 5, radioelektron mübarizə sistemləri 9, S-300 zenit raket kompleksi 2, yük avtomobilləri 196-sı məhv edilib, 98-i qənimət kimi götürülüb".[451]

Müraciətinin sonunda dövlət başçısı oktyabrın 17-də Füzuli şəhərinin və rayonun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı və Dədəli kəndlərinin düşmən işğalından azad edildiyini bildirdi.

Uğurlu hərbi əməliyyatlar nəticəsində məcburi köçkünlərin uzun illər sürən doğma torpaq həsrəti sona çatırdı. Azərbaycan Ordusu üzərinə düşən missiyanı şərəflə yerinə yetirərək ölkənin ərazi bütövlüyünü bərpa edirdi. Füzuli uğrunda yüksək peşəkarlıq, məharət, şücaət, fədakarlıq tələb edən döyüşlərin ağır olduğunu bildirən dövlət başçısı vurğuladı ki, vaxt keçəcək bu döyüşlər haqqında kitablar, əsərlər yazılacaqdır. Çünki 30 il ərzində düşmən təmas xəttində möhkəm istehkam qurmuşdu. Ən tanınmış hərbi mütəxəssislər belə hesab edirdilər ki, Füzulini işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaqdır və əməliyyatın uğurla nəticələnəcəyi də böyük sual altında idi. Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndlərini və Füzuli şəhərini düşmənin tapdağından azad etdi.

Füzuli şəhərində bir dənə də salamat bina qalmamışdı. Bütün binaların, dini abidələrin söküldüyünə, evlərin dam örtüklərinin, pəncərələrin, əşyaların, hər şeyin talandığına diqqəti cəlb edən dövlət başçısı vurğuladı:

"Sanki vəhşi bir qəbilə bu şəhəri zəbt etmişdir. Füzuli şəhərinin qalıqları erməni faşizminin təzahürüdür və erməni faşizminin şahididir".[452]

Azərbaycan dövlətinin gələcək planları barədə danışan Prezident bildirdi ki, bütün kəndlər yenidən qurulacaqdır.

451 Yenə orada.
452 Yenə orada.

Füzulinin azad edilməsinin böyük əhəmiyyəti var idi. Azərbaycan Ordusu tarixi, qədim yaşayış məskənini geri qaytardı, on minlərlə insanın dədə-baba yurdlarına dönməsini təmin etdi.

Azərbaycan Ordusu böyük hərbi peşəkarlıq və rəşadət nəticəsində Füzulini işğalçılardan qurtarmışdı. Şəhərin azad edilməsinin əhəmiyyətindən danışan dövlət başçısı bildirdi ki, 17 oktyabr nəinki füzulilərin xatirəsində qalacaq, eyni zamanda bütün Azərbaycan millətinin və dövlətinin ən parlaq səhifələrindən biridir. Ermənistanın faşist rəhbərliyinə qəti xəbərdarlıq edən Prezident erməni xalqına müraciətlə dedi:

"Ermənistan əhalisi, nəhayət, bu kriminal rejimin başçılarını məsuliyyətə cəlb etməlidir. ...Mən də erməni xalqına müraciət etmişdim və bir daha müraciət edirəm: Qoymayın uşaqlarınızı! Nə işi var onların bizim torpağımızda? Öz ölkənizdə yaşayın. Bizim sizinlə heç bir işimiz yoxdur. Gedin yaşayın öz ölkənizdə, nə edirsiniz edin, amma bizim torpaqdan çıxın".[453]

Oktyabrın 17-də gündüz saatlarında işğalçı ölkənin Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində PUA vasitəsilə hücumunun qarşısı alındı. Gün ərzində düşmənin canlı qüvvəsi, 2 ədəd S-300 ZRK-nin raket tuşlama stansiyası, 5 ədəd T-72 tankı, 3 ədəd BM-21 "Qrad" YARS, 2 ədəd "Smerç" YARS, 1 ədəd D-20 haubitsa-topu, 1 ədəd KS-19 zenit topu və 6 ədəd avtomobil texnikası məhv edildi.

Yeni humanitar atəşkəs rejiminin oktyabrın 18-də saat 00:00-da elan olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri növbəti dəfə razılaşmanı kobud surətdə pozaraq Cəbrayıl şəhərinin ətraf ərazilərini, eləcə də rayonun Araz çayı boyu yerləşən və işğaldan azad olunmuş kəndlərini gecə ərzində minaatan və artilleriya qurğularından atəşə tutdu, səhər saatlarından başlayaraq cəbhənin Ağdərə, Füzuli, Hadrut və Cəbrayıl istiqamətlərində hücuma keçməyə cəhd göstərdi. Lakin Azərbaycan Ordusunun bölmələri düşmənin hücum cəhdlərinin qarşısını aldı.

Dövlət sərhədində də vəziyyəti gərginləşdirməyə cəhd göstərən işğalçı ölkə oktyabrın 18-də Çəmbərək rayonu istiqamətindən Gədəbəy rayonu, Tovuzqala (Berd) rayonu istiqamətindən isə Azərbaycan Ordusunun Tovuz rayonu ərazisindəki döyüş mövqelərini iriçaplı silahlardan atəşə tutdu. Cəbrayıl istiqamətində aviazərbələr endirməyə çalışan işğalçı ölkənin Su-25 hücum təyyarəsi məhv edildi. Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağı qaldırıldı.

Oktyabrın 18-dən 19-a keçən gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində, eləcə də Araz çayı boyu müqavimət göstərməyə cəhd edən düşmənə ağır zərbə endirildi, çoxlu sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı,

453 Yenə orada.

2 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları və 11 ədəd avtomobil texnikası məhv edildi.

Prezident İlham Əliyev Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı və İsaqlı kəndlərinin azad edilməsi haqqında millətə məlumat verdi.

Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 19-da Tovuzqala (Berd) rayonu istiqamətindən Tovuz rayonu, Basarkeçər (Vardenis) rayonu istiqamətindən isə Daşkəsən rayonu ərazisində Azərbaycan mövqelərinə zərbə endirdi. Eyni zamanda işğal altında olan Kəlbəcər rayonu istiqamətindən Göygöl rayonu ərazisindəki Azərbaycan Ordusunun döyüş mövqelərini 82 və 120 millimetrlik minaatanlar və iriçaplı atıcı silahlardan atəşə tutdu. Düşmənə cavab zərbələri endirildi.

Həmin gün Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun[454] başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi. Görüş zamanı parlamentin rəhbəri Türkiyə dövlətinin Azərbaycanın haqq işini mənəvi və diplomatik-siyasi baxımdan sona qədər müdafiə edəcəyini bildirdi.

17.2. Prezident İlham Əliyevin TASS İnformasiya Agentliyinə müsahibəsi

Azərbaycan rəhbəri oktyabrın 19-da Rusiyanın TASS informasiya agentliyinə videomüsahibə verdi. Jurnalistin "26 il ərzində dünya hər halda başa düşməyib ki, Ermənistan ilə Azərbaycan arasında Qarabağ üzrə yekun razılaşma necə görünə bilərdi. Siz bunu necə görürsünüz, hər halda sülh naminə hansısa güzəştlər mümkündürmü?" sualına cavabında ölkə başçısı dedi ki, Minsk qrupunun həmsədrləri heç bir nəticəyə nail olmasalar da, səy göstərmiş, təkliflər vermiş və fəaliyyətsiz qalmamışdır. Məlum olduğu kimi, müəyyən mərhələdə nizamlamaya həddən artıq yaxınlaşılan zaman erməni tərəfi geriyə addım atmış, Kəlbəcər və Laçının qaytarılmasından imtina etmişdi. Prezident dedi:

"...erməni tərəfi bir addım geri çəkildi və Kəlbəcərlə Laçının qaytarılması məsələsi həll edilməmiş qaldı. ...elə mexanizm təklif olunurdu ki, bu iki rayon həmişəlik ermənilərin nəzarəti altında qalmalı idi və mən bununla qətiyyən razı ola bilməzdim".[455]

454 Mustafa Şentop (1968) –TBMM-nin 29-cu sədri (2019-cu ildən).

455 İlham Əliyev Rusiyanın TASS İnformasiya Agentliyinə videomüsahibə verib. 19.10.2020 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/43547.

Minsk qrupunun nizamlama üçün bünövrə yaratdığını söyləyən dövlət başçısı vurğuladı ki, buraya ərazilərin işğaldan azad edilməsi, məcburi köçkünlərin qaytarılması, kommunikasiyaların açılması, azərbaycanlı və erməni icmalarının birgə yaşayışı daxildir. Bütün bunlar beynəlxalq hüququn və ümumiyyətlə, bəşəri əxlaqın normalarına tamamilə uyğun idi. Ən dəhşətlisi o idi ki, Ermənistan prezidentlərindən biri ermənilərin və azərbaycanlıların milli uyuşmazlığından danışaraq özünün faşist mahiyyətini yenidən nümayiş etdirmişdi. Bununla bağlı olaraq Azərbaycan Prezidenti bildirdi:

"Niyə azərbaycanlılar və ermənilər Rusiyada sakit yaşaya, ümumi biznesə, qarışıq ailəyə sahib ola bilirlər? Niyə bəzi gürcü kəndlərində ermənilər və azərbaycanlılar bir yerdə yaşayır, həm müsəlman, həm də xristian bayramlarını qeyd edirlər? Niyə Azərbaycanda minlərlə erməni bizim vətəndaşlarımız kimi layiqli həyat yaşayır? Buna görə də bu cür faşist niyyətli tezislər, əlbəttə ki, nizamlamaya kömək etmirdi".[456]

Ermənistan baş nazirinin Azərbaycana bircə qarış da torpaq verməyəcəkləri barədə söylədiyi fikirlər üzərində dayanan dövlət başçısı dedi ki, onlar qondarma "Dağlıq Qarabağ respublikası"nın xəritələrini dərc etmiş, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından kənarda olan yeddi rayonun hamısını da oraya daxil etmiş, Azərbaycanın bütün şəhərlərinin və kəndlərinin adlarını dəyişmişlər. Döyüş meydanında görünənlər onların bu əraziləri verməyə hazırlaşmadıqlarını göstərirdi. Mühəndis kommunikasiya və möhkəmləndirici qurğulara qoyulan sərmayə onların həmin torpaqlardan çıxıb getmək istəmədiklərini təsdiq edirdi.

Ermənistanın hərbi cinayətlər törətməsinə diqqəti cəlb edən Prezident dedi ki, gecə vaxtı Gəncə şəhərinə ballistik raketlərdən, özü də mümkün qədər daha çox insanı məhv etmək üçün yaşayış massivlərinə bilərəkdən zərbə endirilməsi qanlı cinayətdir.[457]

17.3. Zəngilan şəhəri və Mincivan qəsəbəsinin işğaldan azad edilməsi

Azərbaycan Ordusu əraziləri bir-birinin ardınca düşmən işğalından azad edirdi. Prezident İlham Əliyev oktyabrın 20-də millətə yeni müraciətində işğaldan azad edilmiş aşağıdakı yaşayış məntəqələrinin adlarını açıqladı:

"Füzuli rayonu: Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri.

456 Yenə orada.
457 Yenə orada.

Cəbrayıl rayonu: Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri.

Xocavənd rayonu: Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli, Vəng kəndləri. Vəng kəndinə yeni Azərbaycan adı verirəm. Bundan sonra Vəng kəndi Çinarlı kəndi adlandırılsın. Adı mübarək olsun!

Zəngilan rayonu: Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!".[458]

Ağdərə, Füzuli-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları oktyabrın 20-də gün ərzində və 21-nə keçən gecə müxtəlif intensivliklə davam etdi. Cəbrayıl və Qubadlı istiqamətlərində düşmənin 18-ci motoatıcı diviziyasının bölmələri şəxsi heyət və hərbi texnikada itki verərək geri çəkilməyə məcbur edildi. 5-ci dağatıcı alayın müdafiə sahəsində düşmənin mövqeləri ələ keçirildi, çoxlu sayda silah və sursat qənimət götürüldü. Alayın artilleriya rəisi, artilleriya diviziyasının komandiri və 4-cü taborunun komandiri taborun şəxsi heyəti ilə birlikdə məhv edildi. 3 ədəd artilleriya qurğusu, bir neçə minaatan, şəxsi heyətlə birlikdə 3 ədəd yük avtomobili sıradan çıxarıldı. Oktyabrın 21-də saat 12:00 radələrində düşmənə məxsus PUA Horadiz istiqamətində məhv edildi.

Prezident İlham Əliyev oktyabrın 21-də rəsmi Twitter səhifəsində Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər, Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndlərinin, Zəngilan rayonunun Mincivan qəsəbəsinin, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndlərinin işğaldan azad edildiyi barədə məlumat verdi.

Oktyabrın 21-də gün ərzində və 22-nə keçən gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Cəbrayıl və Zəngilan-Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam etdi. Düşmən atıcı silahlar, minaatanlar və toplardan Azərbaycan Ordusunun mövqelərini atəşə tutdu. Döyüşlərdə cəbhənin Qubadlı istiqamətində işğalçı qüvvələr şəxsi heyət və hərbi texnikada itki verərək strateji əhəmiyyətli yüksəkliklərdən və bir sıra mövqelərdən geri çəkilməyə məcbur edildi.

Ermənistan silahlı qüvvələrinin cəbhənin Xocavənd istiqamətində mövqe tutan 155-ci artilleriya alayının D-20 batareyasının şəxsi heyəti arasında çoxlu sayda yaralanan oldu. Düşmənin Hadrut qəsəbəsindən şimalda yerləşən artilleriya bölmələrinə yeni gətirilmiş "könüllülər", əslində terrorçular mövqelərini tərk edərək qaçdı.

458 Füzuli, Cəbrayıl, Xocavənd və Zəngilan rayonlarının 18 kəndi işğaldan azad edilib. 20.10.2020 // AzTV. www.aztv.az/index.php/az/news/9812/fuzuli-cebrayil-xocavend-rayonlarinin-18-kendi-isgaldan-azad-edilib.

Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayın müdafiə xəttinə endirilən artilleriya zərbələri nəticəsində düşmən ölən və yaralananlar olmaqla çoxlu sayda itki verdi. Alayın 3-cü taborunun komandiri itkin düşdü, qərargah rəisi isə məhv edildi. Yeraltı sığınacağın sıradan çıxarılması nəticəsində düşmənin şəxsi heyətinin çoxu öldürüldü. 543-cü alayın komandiri yaralandı, müavini, tabor komandiri, onun müavinləri, minaatan batareyası və bölüyünün komandirləri məhv edildi. 1-ci taborun bir bölüyünün şəxsi heyəti döyüşə girməkdən imtina etdi. Cəbhədə yaranmış vəziyyət Ermənistan ordusu, cəmiyyəti və rəhbərliyində böhranın və xaosun daha dərin olduğunu göstərirdi.

Hərbi əməliyyatlar davam edərkən Prezident İlham Əliyevin xarici ölkələrin kütləvi informasiya vasitələrinə verdiyi müsahibələr həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynayırdı. Belə müsahibələrdən birini Prezident oktyabrın 21-də Yaponiyanın "Nikkei" qəzetinə verdi. Həmin müsahibə Uzaq Şərqdə ermənilərin Azərbaycan haqqında yaydıqları uydurma informasiyaları darmadağın etmək baxımından əhəmiyyətli idi. Müxbirin Dağlıq Qarabağ regionunda referendumun keçirilib-keçirilməyəcəyi barədə sualını cavablandıran dövlət başçısı müharibədən əvvəlki və hərbi əməliyyatların gedişində yaranmış vəziyyəti müqayisə edərək dedi:

"Xeyr, əlbəttə ki, xeyr. Dağlıq Qarabağda heç bir referendum olmayacaq. Biz bununla heç vaxt razılaşmayacağıq. Biz danışıqlar zamanı buna razılıq vermədik və indi ərazinin böyük bir hissəsini geri aldığımız bir vaxtda bundan söhbət gedə bilməz. Öz müqəddəratını təyinetməyə gəldikdə, ermənilər artıq öz müqəddəratlarını təyin ediblər. Onların müstəqil Ermənistan dövləti var. Təsəvvür edin, əgər ermənilər yaşadıqları hər yerdə öz müqəddəratlarını təyin etsələr nə baş verər, dünyada neçə kiçik Ermənistan olar... ...biz heç vaxt Azərbaycan ərazisində ikinci Ermənistan dövlətinin yaradılmasına icazə verməyəcəyik. Bundan söhbət gedə bilməz. Bir sözlə, referendum olmayacaq, heç vaxt".[459]

Bu zaman işğalçı ölkə mülki azərbaycanlı əhalini atəşə tutmaqda davam edirdi. Azərbaycan ərazisi oktyabrın 22-də səhər saatlarında Ermənistan ərazisindən əməliyyat-taktiki raket kompleksindən ballistik raketlərlə atəşə tutuldu. Düşmən səhər saatlarında Siyəzən rayonu istiqamətində 3 raket, Qəbələ rayonu istiqamətində 2 raket və Kürdəmir rayonu istiqamətində 1 raket atdı. Ermənistan silahlı qüvvələrinin hədəfi dinc əhali, mülki infrastruktur və şimala gedən neft boru kəməri olsa da, tələfat olmadı. Həmin gün Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun Füzulidəki mövqelərini reaktiv artilleriya sistemlərindən atəşə tutdu. Səhər saatlarında Naxçıvan Muxtar Respublikasının Sədərək və

459 Prezident: "Dağlıq Qarabağda heç bir referendum olmayacaq". 22.10.2020 // AzTV. URL: www.aztv.az/az/news/9868/prezident-dagliq-qarabagda-hec-bir-referendum-olmayacaq.

Şərur rayonları istiqamətində uçuş keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus daha bir PUA-sı məhv edildi.

Uğurlu döyüşlər aparan Azərbaycan Ordusu bir sıra əraziləri azad etdi. Prezident İlham Əliyev rəsmi Twitter hesabından Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli, Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili, Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərinin və Ağbənd qəsəbəsinin azad edilməsi xəbərini verdi.

Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların Azərbaycan Respublikasındakı nümayəndələri üçün oktyabrın 22-də keçirdiyi növbəti brifinqdə Ermənistan Respublikasının münaqişədə birbaşa iştirakı, Ermənistan ərazilərindən döyüş əməliyyatları zonasından uzaqda yerləşən Qəbələ, Kürdəmir və Siyəzən rayonlarında yaşayan dinc əhalinin və mülki infrastrukturun raket zərbələrinə məruz qalması, eləcə də humanitar atəşkəs razılığına əməl etməyərək açıq şəkildə onu pozması haqqında ətraflı məlumat verildi. İşğaldan azad edilmiş Cəbrayıl, Füzuli və Zəngilan rayonlarının ərazilərində inzibati yaşayış mərkəzlərinin, tarixi-memarlıq və dini abidələrinin dağıdılması və talan edilməsi, eləcə də döyüş texnikasının tibbi təyinatlı texnika adı altında döyüşlərdə istifadə edilməsi barədə də faktlar diqqətə çatdırıldı.

Cəbhənin Ağdərə, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları oktyabrın 22-də gün ərzində və 23-nə keçən gecə müxtəlif intensivliklə davam etdi. İşğalçı qüvvələrə ağır zərbələr vuruldu, bir neçə dayaq məntəqəsi dağıdıldı və yüksəkliklər azad olundu. Ermənistandan gətirilmiş şəxsi heyət döyüşlərə girməkdən imtina etdi və fərarilik edərək mövqelərindən qaçdı.

Ermənistan silahlı qüvvələrinə məxsus iki pilotsuz uçuş aparatı oktyabrın 23-də məhv edildi. Digər iki PUA isə xüsusi texniki vasitələrlə yerə endirildi. Həmin gün Prezident İlham Əliyev Xocavənd rayonunun Dolanlar, Bünyadlı, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli, Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndlərinin azad edilməsi barədə millətə məlumat verdi.

İşğalçı qüvvələr oktyabrın 24-də Ağdərə istiqamətindən Naftalan və Tərtər rayonlarının ərazisini reaktiv sistemlərdən atəşə tutdu. Döyüş mövqelərini itirərək geri çəkilməyə məcbur edilən düşmən Laçın və Qubadlı istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin həyata keçirdiyi əməliyyatların qarşısını almaq məqsədilə növbəti təxribata əl atdı. Ermənistanın Gorus və Qafan rayonları ərazisində, dövlət sərhədinə yaxın yerdə yerləşən düşmənin raket və artil-

leriya qurğularından Laçın və Qubadlı əraziləri güclü atəşə tutuldu. Qarşı tərəfin məqsədi Azərbaycan Ordusunu Ermənistan ərazisinə atəş açmağa təhrik və Kollektiv Təhlükəsizlik Müqavilə Təşkilatını müharibəyə cəlb etmək idi. Lakin Azərbaycan tərəfi Ermənistan ərazisinə zərbələr endirmədi.

Azərbaycan Ordusu əks-hücum əməliyyatlarına başladıqdan sonra Ermənistan informasiya sahəsində böhtan atırdı. Bununla da düşmən ölkə həqiqətləri əks etdirməyən məlumat, video və fotolar yaymaqla beynəlxalq aləmdə Azərbaycan barəsində mənfi rəy formalaşdırmağa çalışırdı. Yayılan saxta video və fotolarda guya Azərbaycan əsgərinin erməni əsir və meyitləri ilə beynəlxalq hüquqla müəyyən edilmiş normalardan kənar, kobud davranması nümayiş etdirilirdi. Əslində isə Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrindən fərqli olaraq hərbi əsirlər, düşmənin yaralı hərbi qulluqçuları, mülki əhali, o cümlədən meyitləri ilə Cenevrə konvensiyaları və onlara əlavə edilmiş protokolların tələblərinə uyğun davranmaqla bərabər, mərhəmət də nümayiş etdirirdi.

Təxribatların qarşısını almaq məqsədi ilə Azərbaycanın Hərbi Komandanlığı döyüşlər gedən istiqamətlərdəki yaşayış məntəqələrində məskunlaşan dinc əhaliyə bir daha müraciət edərək xəsarət almamaları üçün hərbi obyekt və infrastrukturdan uzaq durmalarını tövsiyə etdi. Eyni zamanda Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən aldadılaraq Azərbaycanın işğal olunmuş ərazilərinə gətirilən şəxslərə də müraciət edərək silahı yerə qoymağa və təslim olmağa çağırdı.

Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 24-də günorta saatlarında Zəngəzur *(ermənilər Azərbaycanın bu tarixi ərazisinə Sünik deyirlər – M.Q.)* Zəngilan yolu istiqamətindən hücuma cəhd etsələr də, sərt müqavimətlə qarşılaşaraq geri çəkilməyə məcbur oldu. Düşmənin xeyli sayda canlı qüvvəsi məhv edildi və əsir götürüldü. Həmin gün döyüş aviasiyası cəbhənin Ağdərə və Ağdam istiqamətlərində işğalçı qüvvələrin 3 tankını, 2 sığınacağını və bölüyün 4 dayaq məntəqəsini məhv etdi.

Prezident İlham Əliyev oktyabrın 24-də Fransanın "Figaro" qəzetinə müsahibə verərək ermənilərin Gəncənin guya orada Türkiyə qırıcılarının olması səbəbindən vurulması ilə bağlı yaydıqları yalan xəbərə münasibət bildirərək dedi ki, bu, uydurma xəbərdir. Türkiyənin F-16 qırıcı təyyarələri ona görə Azərbaycanda idi ki, toqquşmalar başlamazdan əvvəl birgə hərbi təlimdə iştirak etmişdilər və səmada deyil, yerdə idilər. [460] Ermənistan ərazisindən buraxılan ballistik raketlərin hədəfi mülki şəxslərə zərbə endirmək idi. Onlar Gəncə şəhərində insan-

460 Prezident İlham Əliyevin Fransanın "Figaro" qəzetinə müsahibəsi. 24.10.2020 //Azərtac. URL: https:azertag.az/xeber/Prezident_Ilham_Aliyevin_Fransanin_Figaro_qezetine_musahibesi_VIDEO-1622843.

ların yaşadığı ərazini vurmuşdular. Beynəlxalq terror əməli olan bu hadisə Ermənistanın hərbi cinayət siyasətinin daha bir təzahürü idi.

Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi oktyabrın 24-də Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların nümayəndələri üçün növbəti brifinq keçirdi. İştirakçılara Ermənistanın münaqişədə birbaşa iştirakı, Gorus və Qafan rayonlarından Azərbaycanın Qubadlı və Laçın rayonlarının ərazilərini, Ağdərə rayonunun işğal altında olan ərazilərindən Goranboy, Tərtər və Naftalan rayonlarında yaşayan mülki əhalini və infrastrukturu raket zərbələrinə məruz qoyması, eləcə də humanitar atəşkəs rejimini kobud şəkildə pozması haqqında ətraflı məlumat verildi.

Oktyabrın 24-də və 25-nə keçən gecə cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut, Qubadlı və Laçın istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam etdi. Xocavənd, Qubadlı və Laçın rayonları ərazisində düşmənə ağır zərbə endirildi. Canlı qüvvə və hərbi texnikada itkilər verən düşmən geri çəkildi. Ermənistandan göndərilən ehtiyatdan çağırılmış hərbçilərin böyük hissəsi məhv edildi. Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 2 tank, 2 PDM, 4 D-30 haubitsa topu, 1 2A36 "Qiasint-B" topu, 7 ədəd avtomobil texnikası sıradan çıxarıldı.

17.4. Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə operativ müşavirə

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə oktyabrın 25-də operativ müşavirə keçirildi. Ali Baş Komandan nitqində müharibə başlayandan sonra yaranmış şərait barədə dedi:

"Bir aya yaxındır ki, müharibə gedir. Bu müddət ərzində ölkəmiz döyüş meydanında böyük uğurlar əldə edib. ...Gün ərzində müntəzəm olaraq mənə döyüş bölgələrində aparılan əməliyyatlar haqqında məlumat verilir və mənim tərəfimdən müvafiq göstərişlər verilir. ...100-dən çox yaşayış məntəqəsi - şəhərlər, kəndlər işğalçılardan azad edilibdir. Azad edilmiş şəhər və kəndlərimizdə artıq Azərbaycan bayrağı ucaldılıbdır. Bu şəhər və kəndlərimizin videogörüntüləri Azərbaycan ictimaiyyətinə təqdim edilir və hər kəs görə bilər ki, vəhşi düşmən bizim şəhər və kəndlərimizi nə günə qoyub. Bir dənə də salamat bina qalmayıb, bütün binalar, evlər, inzibati binalar, sosial obyektlər, tarixi-dini abidələrimiz mənfur düşmən tərəfin-

dən dağıdılıb. İşğal edilmiş torpaqlar və dağıntılar erməni vandalizminin canlı şahidləridir. Ermənistan dövləti bu cinayətlərə görə məsuliyyət daşıyır və cavab verəcəkdir".[461]

İşğaldan azad edilmiş ərazilərdə görüləcək işlər barədə məlumat verən dövlət başçısı bildirdi:

"Mən tapşırıq vermişəm ki, işğaldan azad edilmiş bütün bölgələrdə təftiş işləri aparılsın, bütün dağıntılar qeydə alınsın, aktlar tərtib edilsin, bizim vətəndaşlarımızın dağıdılmış əmlakı uçota alınsın və əlbəttə ki, Ermənistan dövləti bu hərbi cinayətlərə görə cavab verəcəkdir. Bir daha bütün dünya gördü ki, biz hansı vəhşilərlə üz-üzəyik".[462]

Azərbaycan Ordusu döyüş meydanında düşmənə dərs verir, onu işğal etdiyi torpaqlardan qovurdu. Təcavüzkar ölkə isə hər zaman olduğu kimi, yenə də yaşayış məntəqələrini, mülki əhalini atəşə tuturdu. Belə vəhşi hərəkətlərin nəticəsində 60-dan çox mülki şəxs həlak olmuş, 300-ə qədəri yaralanmışdı.[463] Prezident təcavüzkar Ermənistanın siyasəti barədə belə dedi:

"Bu günlər ərzində biz bir daha gördük ki, Ermənistan bu torpaqlardan öz xoşu ilə çıxmaq fikrində deyil. Bir daha gördük ki, Ermənistan bu 30 il ərzində, sadəcə olaraq, vaxt udmaq, danışıqlarda imitasiya aparmaq və status-kvonu əbədi etmək fikrində idi".[464]

Beynəlxalq vasitəçilər işğalçı ölkəyə lazımi təzyiq göstərə bilməmiş, yaxud da ki, bunu etmək istəməmişdilər. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi kağız üzərində qalmışdı. Bir neçə gün əvvəl həmsədr ölkələr tərəfindən BMT Təhlükəsizlik Şurasının iclası keçirilmişdi. İclasda 1993-cü ildə qəbul edilmiş qətnamələr üzərindən faktiki olaraq xətt çəkmək mənası daşıyan sənəd 2020-ci ildə irəli sürülmüşdü. Ədalətsizliyin, ikili standartların növbəti təzahürü olan bu sənədə Azərbaycan qəti şəkildə etiraz etmişdi. 1993-cü ildə qəbul edilmiş qətnamələr Azərbaycanın ərazi bütövlüyü haqqında açıq-aydın mövqe bildirir və tələb edirdi ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan tamamilə, dərhal və qeyd-şərtsiz çıxarılsın. Lakin təqdim edilən layihədə həmin müddəalar yox idi. Bunu təxribat kimi qiymətləndirən dövlət başçısı bildirdi:

"Bir sözlə, bu addım Azərbaycana qarşı növbəti təxribat kimi qiymətləndirilir. Biz öz səsimizi ucaltmışıq və şadam ki, Təhlükəsizlik Şurasına üzv ölkələrin

461 Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində operativ müşavirə keçirilib. 25.10.2020 // Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet saytı. URL: https:mod.gov.az/az/news/prezident-ali-bas-komandan-ilham-eliyevin-rehberliyi-ile-mudafie-nazirliyinin-merkezi-komanda-menteqesinde-operativ-musa-33315.html.

462 Yenə orada.

463 Yenə orada.

464 Yenə orada.

bir neçəsi buna etiraz etmişdir. Baxmayaraq ki, onlara böyük dövlətlər tərəfindən təzyiqlər göstərilmişdir. Ancaq bu ölkələr Azərbaycanın hazırda sədrlik etdiyi Qoşulmama Hərəkatına üzv ölkələrdir... Bir sözlə, bu siyasi addım iflasa uğradı, heç bir sənəd qəbul edilmədi və hesab edirəm ki, bu, bizim növbəti siyasi qələbəmizdir. Necə ki, döyüş meydanında biz qələbə qazanırıq, siyasi müstəvidə də qələbə qazanırıq. Düşməni necə ki, döyüş meydanından qovuruq, düşmənin havadarlarının təxribat xarakterli addımlarına da lazımi cavab veririk".[465]

Təcavüzkar ölkənin Azərbaycanı dəfələrlə təxribata çəkməyə cəhd etməsinə, hərbi mövqeləri və yaşayış yerlərini atəşə tutmasına, Gəncə şəhərinə iki dəfə ballistik raketlərlə zərbə vurmasına, bunun nəticəsində günahsız insanların həlak olmasına diqqəti yönəldən dövlət başçısı dedi ki, hər gün Tərtər, Ağdam və digər cəbhəboyu şəhərlərə və kəndlərə yüzlərlə, minlərlə mərmi atılır, amma beynəlxalq birlik buna səssiz qalır. Bəzi dövlətlərin Ermənistanı bu vəziyyətdən çıxarmağa çalışmaları üstündə dayanan ölkə rəhbəri söylədi ki, bunun bir yolu var: Ermənistan öz xoşu ilə torpaqlardan çıxmalı, rədd olmalıdır. Bunu beynəlxalq hüquq tələb etsə də, işğalçıya deyil, Azərbaycana təsir və təzyiq cəhdləri müşahidə olunurdu. Belə cəhdlərə qarşı mövqeyini bəyan edən Prezident İlham Əliyev qətiyyətlə dedi ki, heç kim Azərbaycana təsir edə bilməz. Bu, həm cəbhədə, həm siyasi həyatda çox ciddi mübarizənin getdiyini göstərirdi. Dövlət başçısı bildirdi:

"Biz döyüş meydanında qan tökürük, bu qəhrəmanlarımızın canı-qanı bahasına torpaqlarımızı işğalçılardan azad edirik, eyni zamanda, siyasi səhnədə də müqavimət göstəririk, mərdlik göstəririk, öz mövqeyimizi müdafiə edirik".[466]

Humanitar atəşkəsin şərtlərinin hər dəfə işğalçı dövlət tərəfindən kobudcasına pozulduğuna diqqəti cəlb edən ölkə rəhbəri vurğuladı:

"İki dəfə Ermənistanın xahişi ilə, böyük dövlətlərin təklifi ilə atəşkəs elan olunmuşdur. İki dəfə də Ermənistan bu atəşkəsi pozub. Birinci dəfə elə bir gün keçməmiş Gəncəni bombalamışdır. İkinci dəfə atəşkəsdən iki dəqiqə sonra atəşkəsi pozmuşdur. Belə olan halda, Azərbaycan əlbəttə ki, onlara layiqli cavabını verib və verəcək. Bundan sonra da düşməni torpaqlarımızdan qovacaq, sona qədər qovacaq".[467]

Azərbaycan dövlətinin mövqeyini açıqlayan Prezident yalnız bir şərtinin olduğunu bildirdi:

"...əgər Ermənistanın təəssübkeşliyini çəkən, onlara havadarlıq edən və faktiki olaraq 30 ilə yaxın bizim torpaqlarımızın işğal altında qalması üçün ermənilərə, Ermənistana şərait yaradan ölkələr atəşkəs istəyirlərsə Ermənistana təzyiq göstə-

465 Yenə orada.
466 Yenə orada.
467 Yenə orada.

rilməlidir. Ermənistanın baş naziri bəyanat verməlidir ki, Ermənistan işğal edilmiş torpaqlardan çıxacaq. Belə bir bəyanatı biz eşitməmişik...

Atəşkəs qeyd-şərtsiz ola bilməz".[468]

Ermənistana hər gün göndərilən ən müasir silahların siyahısının Azərbaycanda olduğunu deyən dövlət başçısı bildirdi ki, həmin təyyarələrin nə vaxt, haradan, hansı şəhərdən uçması, nə vaxt gəlməsi və içində nə olduğu barədə məlumatlar vardır. Döyüşlər zamanı Ermənistanın 300-ə yaxın tankı ya məhv edilmiş, ya da hərbi qənimət kimi götürülmüşdü. Düşmənin 6 ədəd S-300 hava hücumuna qarşı zenit-raket kompleksinin məhv edildiyini bildirən dövlət başçısı sual etdi ki, onların qiyməti bəllidir, haradandır bu? "Tor", "OSA" zenit-raket kompleksləri, pilotsuz uçuş aparatları, təyyarələr, artıq Azərbaycan tərəfindən məhv edilmişdir. "Toçka-U", "SCUD", haradandır? Pulsuz verilmişdir və verilir. Azərbaycanın buna səssiz qalmayacağını söyləyən Prezident torpaqların nəyin bahasına işğalçılardan azad edildiyini millətə belə çatdırdı:

"...əgər Ermənistana bu 27-28 il ərzində maliyyə, hərbi, siyasi yardım göstərilməsəydi, çoxdan torpaqlarımız işğalçılardan azad olunardı, özü də sülh yolu ilə. İndi baxın, erməni əsgərləri döyüş meydanından necə qaçır... Əgər bu silahlar olmasaydı, bu siyasi dəstək olmasaydı, Ermənistan bizim torpaqlarımızı işğal altında saxlaya bilərdimi! Əlbəttə ki, yox... Azərbaycanın qarşısında heç kim dura bilməz. Biz haqlıyıq, biz öz torpağımızda vuruşuruq, öz ərazi bütövlüyümüzü bərpa edirik...".[469]

Haqq-ədalətin, beynəlxalq hüququn və tarixi ədalətin Azərbaycanın tərəfində olduğunu bildirən ölkə başçısı əminliklə bir daha dedi:

" Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da biz haqq yolumuzdan dönməyəcəyik! Heç bir qüvvə bizim iradəmizə təsir edə bilməz. Düşməni sona qədər qovacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik!".[470]

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, işğalçı ölkə Azərbaycanın mülki obyektlərini raket atəşinə tutmaqda davam etmişdir. Ermənistanın müharibə cinayəti törədərək oktyabrın 17-də Gəncə və Mingəçevir şəhərlərinə raket zərbələri endirməsi nəticəsində mülki obyektlərə və dinc əhaliyə ziyan dəymişdir. Prezident İlham Əliyev millətə müraciət edərək bu qanlı əməllərin cavabsız qalmayacağını bildirmiş, Füzuli şəhərinin və bir sıra kəndlərin azad edilmə-

468 Yenə orada.
469 Yenə orada.
470 Yenə orada.

si xəbərini vermişdir. Şəhərin azad edilməsinin əhəmiyyətindən danışan dövlət başçısı qarşıda dayanan planları da açıqlayaraq bildirmişdir ki, dəymiş ziyanlar qiymətləndiriləcəkdir.

Hərbi əməliyyatlar davam edərkən diplomatik-siyasi fəaliyyət də sürdürülmüşdür. TBMM sədri Mustafa Şentop başda olmaqla nümayəndə heyətinin Bakıya səfəri zamanı Azərbaycanın haqq işinin mənəvi-psixoloji və diplomatik-siyasi baxımdan müdafiə olunacağı bəyan edilmişdir. Türkiyə dövləti bununla beynəlxalq hüququn və haqq-ədalətin yanında olduğunu bir daha göstərmişdir.

Zəngilan rayonunun işğalçılardan azad edilməsi hərbi-strateji əhəmiyyət daşımış, əməliyyatların aparılmasında yeni üstünlüklər qazanılmışdır. Düşmən ordusunda ruh düşkünlüyü dərinləşmiş, təchizat pisləmiş və fərarilik artmışdır.

Xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinə, hərbi attaşelərinə və beynəlxalq təşkilatların nümayəndələrinə hərbi əməliyyatların aparılmasına və Ermənistanın törətdiyi müharibə cinayətlərinə dair məlumatlar verilmişdir. Ermənistanın uydurmaları təkzibedilməz faktlarla ifşa edilmişdir.

Hərbi əməliyyatların aparılması ilə paralel olaraq informasiya sahəsində Prezident İlham Əliyevin fəaliyyəti müstəsna rol oynamışdır. Dövlət başçısının Türkiyənin "A Haber" televiziya kanalına, Rusiyanın TASS agentliyinə, Yaponiyanın "Nikkei" qəzetinə verdiyi müsahibələr Ermənistanın beynəlxalq hüquqa zidd siyasəti və törətdiyi müharibə cinayətləri, Azərbaycan dövlətinin məqsədləri, Türkiyə qırıcılarının olmasının səbəbi, Dağlıq Qarabağ regionunda referendumun keçirilib-keçirilməyəcəyi, Minsk qrupu həmsədrlərinin fəaliyyəti barədə məsələlərə aydınlıq gətirmişdir.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə keçirilən operativ müşavirədə döyüşlərin aparılması, yaranmış şərait, qarşıda dayanan məsələlər geniş müzakirə edilmişdir. Nitqində Ali Baş Komandan Azərbaycan Ordusunun uğurlarından, işğalçı ölkənin törətdiyi müharibə cinayətlərindən geniş danışmış və bildirmişdir ki, Azərbaycanın işi haqdır və ərazilər düşməndən azad ediləcəkdir.

18-ci FƏSİL

QUBADLI RAYONUNUN AZAD EDİLMƏSİ

18.1. Qubadlı şəhərindən işğalçıların qovulması

Azərbaycan Ordusu böyük qəhrəmanlıqla əraziləri bir-birinin ardınca işğaldan azad edirdi. Prezident İlham Əliyev Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndinin və Qubadlı şəhərinin işğalçılardan azad edilməsi barədə oktyabrın 25-də rəsmi Twitter hesabından məlumat verdi.

Həmin gün dövlət başçısı ABŞ-ın "Foks Nyus" və İtaliyanın "Rai-1" televiziya kanallarına verdiyi müsahibələrində aparılan hərbi əməliyyatların məqsədlərini, Ermənistanın işğalçılıq siyasətinin mahiyyətini və müxtəlif dövlətlərin münasibətini izah etdi. Bu müsahibələr həqiqətlərin yayılmasında müstəsna rol oynayırdı.

Azərbaycan Ordusunun bölmələri bu dəfə ABŞ-ın təşəbbüsü ilə oktyabrın 26-da saat 08:00-dan qüvvəyə minmiş humanitar atəşkəs rejiminə bütün cəbhə boyu tam riayət etməyə başladı. Lakin işğalçı Ermənistan silahlı qüvvələri əldə olunmuş razılaşmanı növbəti dəfə kobud surətdə pozaraq saat 08:05-də işğal altında olan Laçın şəhəri istiqamətindən Azərbaycan Ordusunun Laçın rayonunun Səfiyan kəndində yerləşən bölmələrini, digər istiqamətdən isə Tərtər şəhərini və rayonun kəndlərini artilleriya atəşinə tutdu. Ermənistanın ərazisindən Azərbaycanın Tovuz, Gədəbəy və Daşkəsən rayonlarının ərazilərinə zərbələr endirildi. Eyni zamanda Ağdam, Füzuli, Laçın və Qubadlı istiqamətlərində yerləşən bölmələrin mövqeləri də atəşə məruz qaldı.[471]

Prezident İlham Əliyev oktyabrın 26-da xalqa müraciət edərək İkinci Qarabağ müharibəsinin bir aya yaxın davam etdiyini və Vətən müharibəsi olduğunu belə ifadə etdi:

471 Ermənistan silahlı qüvvələri bölmələrimizi artilleriya atəşinə tutub. 26.10.2020 // Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet səhifəsi.URL:https:mod.gov.az/az/news/ermenistan-silahli-quvveleri-bolmelerimizi-artilleriya-atesine-tutub-33330.html.

"Biz Vətən torpaqlarını işğalçılardan azad edirik... Biz döyüş meydanında tarixi ədaləti bərpa edirik. Çünki Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır".[472]

Dövlət başçısı işğalçı Ermənistanın siyasətinin mahiyyətini dünya birliyinə çatdırmaqdan ötrü aparılan təbliğat işləri barədə dedi:

"Son illər ərzində ardıcıl fəaliyyət nəticəsində biz dünya ictimaiyyətini Qarabağın tarixi ilə bağlı, münaqişənin tarixi ilə bağlı kifayət qədər məlumatlandırmışıq. Görülən bütün bu işlər, bax, bu gün bizə kömək göstərir, çünki artıq dünyada bu məsələ ilə bağlı daha obyektiv fikir var, daha obyektiv təsəvvür var. Məhz bizim yorulmaz səylərimiz nəticəsində buna nail ola bilmişik... Mən Münhen Təhlükəsizlik Konfransında bütün dünyaya və bu, canlı formatda aparılmış diskussiya əsnasında sübut edə bilmişəm ki, bu, bizim tarixi torpağımızdır".[473]

Məlum olduğu kimi, ermənilər Cənubi Qafqazda aborigen deyil, gəlmədirlər. Çar Rusiyası tərəfindən ermənilərin Qarabağa köçürülməsi məsələsi üzərində dayanan Prezident İlham Əliyev tarixi həqiqətləri xalqa çatdıraraq dedi ki, XIX əsrin əvvəllərində Kürəkçay sülh anlaşması haqqında dünyada geniş ictimai fikirdə heç bir məlumat yox idi. Kürəkçay sülh müqaviləsini Qarabağ və Şuşa xanı İbrahimxəlil xan, digər tərəfdən, çar Rusiyasının generalı Pavel Sisianov imzalamışdı. Dövlət başçısı bildirdi:

"...o müqavilədə erməni xalqı haqqında bir kəlmə də yoxdur. Çünki erməni xalqı o vaxt orada yox idi. Erməni xalqı Kürəkçay, Gülüstan, Türkmənçay sülh müqavilələrindən sonra bizim dədə-baba torpaqlarımıza gətirildi. Məqsədyönlü şəkildə gətirildi və ölkəmizin ən dilbər guşələrindən biri olan Qarabağda yerləşdirildi, onlara şərait yaradıldı. Məqsəd aydın idi - imperiyanın yeni torpaqlarında dini tərkibi dəyişdirmək, müsəlmanları öz dədə-baba torpaqlarından qovmaq, didərgin salmaq və yeni reallıq yaratmaq idi. Bu idi məqsəd və əfsuslar olsun ki, bu məqsədə çatdılar. Ondan sonra erməni əhalisi qonşu ölkələrdən kütləvi qaydada gətirildi, Dağlıq Qarabağ bölgəsində, azərbaycanlıların dədə-baba torpaqlarına yerləşdirildi və ermənilər onlara xas olan xasiyyəti nümayiş etdirərək yavaş-yavaş bizim bütün torpaqlarımıza sahib çıxmağa başladılar".[474]

Sovet hakimiyyətinin ilk illərində Qarabağın yuxarı hissəsinin Ermənistana verilməsi cəhdləri barədə ölkə başçısı dedi:

"Qafqaz bürosunun protokollarında göstərilir ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın. Bütün bu illər ərzində saxta erməni alimləri, ermənilərə havadarlıq edən dairələr sübut etməyə çalışırdılar ki, Stalin Dağlıq Qarabağı Ermənistandan ayırıb Azərbaycana veribdir. Yalandır! Açın, baxın Qafqaz bürosu-

472 Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib. 26.10.2020 // URL: www.preslib.az/news_jfnr4.php.
473 Yenə orada.
474 Yenə orada.

nun protokoluna, orada deyilir ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın! Bu, bir daha onu təsdiqləyir ki, bu, bizim torpağımızdır. Əfsuslar olsun ki, ondan sonra Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı, o bölgəyə xüsusi status verildi. Amma onu da bildirməliyəm ki, bu, respublika deyildi, vilayət idi. Yəni, orada daha aşağı səviyyəli bir özünüidarəetmə mexanizmi mövcud idi. İndi tarixə baxmaq kifayətdir, hər kəs görsün ki, orada yaşayan ermənilər böyük hüquqlara, imkanlara malik idi".[475]

80-ci illərin sonlarında DQMV-də separatçılıq meyillərinin olduğuna diqqəti cəlb edən dövlət başçısı dedi ki, sovet vaxtında, münaqişəyə bir neçə il qalmış heç bir əsas olmadan separatizm meyilləri geniş vüsət aldı. Azərbaycan dövlət büdcəsindən bölgəyə lazımi qədər sərmayə qoyulduğu barədə Prezident bildirdi:

"Nə qədər Azərbaycan investisiya qoyub o bölgəyə, dəmiryolu çəkilib 1970-ci illərdə, Sərsəng su anbarı tikilib 1970-ci illərdə, Madagiz, – indi adını mən bərpa etmişəm, - Suqovuşan su anbarı tikilib. Bütün bunlar Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına edilən investisiyalardır".[476]

Vilayətdə yaşayan ermənilər Moskvada anti-Azərbaycan rəhbərliyinin mövcudluğundan istifadə edərək separatizm meyillərini genişləndirmişdilər. Çirkin niyyətlərini həyata keçirməkdən ötrü çalışan ermənilərin fəaliyyətləri barədə ölkə rəhbəri dedi:

"...yaxşı başa düşürdülər ki, Heydər Əliyevin varlığı, sovet rəhbərliyində onun böyük nüfuza malik olması onların planlarını alt-üst edirdi. Ona görə Ermənistandan, digər yerlərdən, əfsuslar olsun ki, milli satqınlar Azərbaycandan Moskvaya kütləvi surətdə anonim məktublar göndərirdilər. Qəsdən şər-böhtan kampaniyası aparılırdı ki, Heydər Əliyev amili aradan qaldırılsın. Heydər Əliyev bütün vəzifələrdən gedəndən sonra 2 həftə keçməmiş baş qaldıran erməni separatçılar məsələ qaldırmışdılar ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılsın, Ermənistana verilsin və bizim xalqımızın bəlaları o gündən başladı. Ondan sonra Dağlıq Qarabağda qanunsuz xüsusi idarəetmə komitəsi yaradıldı, qatı ermənipərəst bir insan ora rəhbər təyin edildi və faktiki olaraq Dağlıq Qarabağın Azərbaycandan qoparılması üçün zəmin yaradıldı".[477]

O vaxtkı Azərbaycan rəhbərliyi zəif olduğundan qanunsuz hərəkətlərin qarşısını almaq mümkün olmamışdı. Rəhbərlərin baş verən bütün bu təhlükəli hadisələrə tamaşa etdiyini dövlət başçısı aşağıdakı kimi ifadə etdi:

"Səsini qaldıra bilməyən, cəsarət göstərməyən, sadəcə olaraq başını aşağı salıb Moskvadan deyilənləri yerinə yetirən Azərbaycana rəhbərlik edən adamlarda bir

475 Yenə orada.
476 Yenə orada.
477 Yenə orada.

qram Azərbaycan qanı yox idi, azərbaycanlı sayılsalar da, bir qram milli ruh yox idi, kosmopolit insanlar idi...".[438]

1992-ci ildə yaradılan Minsk qrupuna həmsədrlik edən ölkələr müəyyən müddətdən sonra faktiki olaraq bütün səlahiyyətləri öz əllərində cəmləşdirmiş, münaqişənin həllini inhisara götürmüş və fəaliyyətləri iflic vəziyyətinə düşmüşdü. Ermənistan elə bu nəticəni istəyirdi ki, daim danışıqlar getsin, məsələ dondurulsun və torpaqlar əbədi əsarət altında qalsın. Minsk qrupu işğalçıya təzyiq və sanksiyalar tətbiq etmirdi. Prezident onlarla söhbət zamanı birmənalı olaraq demişdi:

"Siz BMT Təhlükəsizlik Şurasının daimi üzvlərisiniz, istənilən məsələni həll edə bilərsiniz. Xüsusilə bu ölkələrin rəsmi nümayəndələri deyirlər ki, bu məsələdə onların fikri üst-üstə düşür. O da maraqlı bir məsələdir. Necə olur, bütün başqa məsələlərdə - nüvə silahları ilə bağlı, Yaxın Şərqdə olan vəziyyətlə bağlı, Asiyada olan vəziyyətlə bağlı, Avropada olan vəziyyətlə bağlı bunların maraqları daban-dabana ziddir. Hansı başqa məsələdə bunların maraqları üst-üstə düşür? Heç bir məsələdə. Ancaq Dağlıq Qarabağ məsələsində. Nə üçün? Hər kəs başa düşür. Çünki bu dondurulmuş vəziyyət təbii ki, bu ölkələr arasında bizdən başqa hər kəsi qane edirdi, ilk növbədə, Ermənistanı qane edirdi".[478]

Ermənistanın ərəb ölkələrindən ermənilər gətirərək Azərbaycan torpaqlarında qanunsuz məskunlaşdırma aparması cinayət idi. Həmin siyasət torpaqların ermənilərdirilməsi və Azərbaycan mədəni irsinin silinməsi niyyətlərini güdürdü. Minsk qrupu dövlətlərinin təcavüzkara öz yerini göstərmədiyini deyən ölkə rəhbəri bildirdi ki, onlar Azərbaycanı bu vəziyyətlə barışmağa sürükləyirdilər. Deyirdilər ki, yeni reallıqlar yaranmışdır və bu reallıqlarla hesablaşmalısınız. Müharibədə Azərbaycanın özü yeni reallıq yaratmışdı. Prezident dedi:

"Biz yeni bir reallıq yaratmışıq. İndi hər kəs yeni reallıqla hesablaşmalıdır. Amma biz nəyi görürük? Biz öz torpaqlarımızı işğalçılardan azad etməyə başlayanda, görün, nələr baş verir. Nə qədər böyük təzyiq göstərirlər Azərbaycana, hər tərəfdən. Əl-ayağa düşdülər. Bəs, nə oldu? İyirmi səkkiz il bu məsələni belə süründürə-süründürə elə bil ki, həll edirdiniz. Gəlib-getmək, orada görüş, burada danışıqlar. Biz bu danışıqlardan boğaza yığılmışıq. Bu düşmənlə nə qədər danışıqlar aparmaq olar? Özü də düşmən harınlaşır, azğınlaşır, qudurur və bizə deyirlər ki, yox, ancaq sülh yolu ilə, bunun hərbi variantı yoxdur. Kim deyir ki, yoxdur? Bəs, indi məsələnin hərbi variantı deyilmi? Biz nə edirik? Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına yerinə yetiririk. Halbuki bu, BMT Təhlükəsizlik Şurasının vəzifəsidir. Biz təkbaşına icra edirik. Biz yeni reallıq yaratmışıq. Hesablaşın! Ancaq nə görürük? Orada görüş, burada görüş, atəşkəs belə oldu, atəşkəsi kim pozdu.

478 Yenə orada.

Deməli, bunların bütün fəaliyyəti indi Ermənistanı xilas etməkdir. Təcavüzkarı, Xocalı soyqırımını törədəni, Gəncəni Ermənistan ərazisindən ballistik raketlərlə bombalayanı. Budur, bu fəaliyyət".[479]

Ermənistanın humanitar atəşkəs rejimini pozaraq mülki əhalini hədəf alması üzərində dayanan Prezident bildirdi:

"Atəşkəs rejiminə gəldikdə, ayın 10-da (oktyabr ayı nəzərdə tutulur – M.Q.) *birinci dəfə atəşkəs qüvvəyə mindi. Mənim mövqeyim elə idi ki, bu, humanitar xarakter daşımalıdır və həlak olanların cəsədlərinin, girovların, əsirlərin dəyişdirilməsi üçün biz buna razılıq vermişik. Ancaq Ermənistan bir gün keçməmiş bu atəşkəsi kobudcasına pozdu, özü də namərd şəkildə, gecə vaxtı Gəncəni bombaladı. Ondan sonra oktyabrın 17-də yeni atəşkəs elan olundu. Yenə də iki dəqiqədən sonra Ermənistan bunu pozdu. İndi bu gün səhər saat 8-dən yeni bir təklif verildi. Ancaq səhər 9-da artıq mən maraqlandım, bir neçə dəqiqə keçmiş atəşkəs Ermənistan tərəfindən pozuldu, Tərtər rayonuna yenə də atəş açıldı. Ancaq mən yenə də göstəriş vermişəm, hələ ki, Azərbaycan Ordusu özünü təmkinlə aparsın, təxribata uymasın".*[480]

Azərbaycan dövlətinin mövqeyini Prezident İlham Əliyev bir daha bəyan etdi ki, bu məsələ öz həllini tapmalıdır, ya hərb yolu ilə, ya sülh yolu ilə. Dövlət başçısı Minsk qrupu həmsdərlərinə demişdi ki, əgər istəyirsinizsə sülh yolu ilə həll olunsun, onda Azərbaycan hərbi əməliyyatları dayandıra bilər. Bu şərtlə:

"...dərhal bizə deyilməlidir ki, Ermənistan bizim torpaqlarımızdan çıxır. Cədvəl verilməlidir - neçə gündən sonra bu rayondan, neçə gündən sonra bu rayondan, neçə gündən sonra bu rayondan çıxmalıdırlar. Cədvəl verilməlidir. Ermənistan bu cədvəli verib? Verməyib. Belə olan halda əgər atəşkəs davam edəcəksə və yenə də məsələ dondurulmuş vəziyyətdə qalacaqsa bu, bizi qane edə bilməz. Bu, birincisi.

İkincisi, bizdə dəqiq məlumat var ki, Ermənistan döyüş meydanında artıq bizim qabağımızda diz çöküb və sadəcə olaraq, atəşkəsdən istifadə edib öz qüvvələrini yenə də səfərbər etmək istəyir, yenə də silahlanmaq istəyir və bizə qarşı yeni işğalçılıq siyasəti aparmaq istəyir. Belə məlumatlar var və əfsuslar olsun ki, son bir ay ərzində Ermənistana kütləvi surətdə silahlar göndərilir, müxtəlif növ silahlar. Bütün siyahılar bizdə var... Bütün siyahı var, nə vaxt, hansı təyyarə gəlib, haraya gəlib, nəyi gətirib, necə boşaldıb, haraya göndərilib? Yaxşı, atəşkəsi istəyən niyə silah göndərir Ermənistana?... Yaxşı, silah verməyin qurtaraq da. Verməyin. Bizə kim verir? Heç kim vermir. Verməyin. İstəyirsinizsə qurtarsın, silah verməyin. İki gündən sonra gələcək yalvara-yalvara. Bir tərəfdən atəşkəs deyilir, digər tərəfdən onlara silah göndərilir. Bu, nə məsələdir? Biz buna səssizmi qalacağıq? ...

479 Yenə orada.
480 Yenə orada.

Ermənistanı xilas etmək istəyirsinizsə, deyin ki, çıxsın torpağımızdan, dərhal rədd olsun! Şuşada, Cıdır düzündə sərxoş vəziyyətdə oynayan o təlxək bəyan etsin ki, çıxıram. Yoxsa, gündə beş-altı dəfə dünya liderlərinə zəng etməklə məsələ düzəlməz. Bizim mövqeyimiz dəyişməz olaraq qalır və biz haqqı, ədaləti müdafiə edirik".[481]

Münaqişənin tənzimlənməsindən ötrü müvafiq beynəlxalq hüquqi baza kifayət qədər geniş idi. BMT Təhlükəsizlik Şurasının qətnamələri, BMT Baş Məclisinin, Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının, Avropa Parlamentinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə dair sənədləri qəbul edilmişdi.

Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın "dünya 5-dən böyükdür" fikrinə haqq qazandıran Prezident İlham Əliyev dedi ki, birləşdilər, yenə də Ermənistanın maraqlarına cavab verən sənədi BMT-də ortalığa atdılar, amma keçmədi. Nə qədər bu ədaləti pozsalar da, nə qədər bu haqqı yerə vursalar da, yenə də ədalət vardır. Ədalətin və beynəlxalq hüququn Azərbaycanın tərəfində olduğunu deyən Prezident bir daha söylədi ki, atəşkəs istəyirlərsə, işğalçı dövlətə desinlər rədd olsun, çıxsın Azərbaycan torpaqlarından, yoxsa axıra qədər gedəcəyik.

Son bir neçə il ərzində dünyanın artıq əvvəlki olmadığına, güc amilinin ön plana çıxdığına, həmin dövlətlərin beynəlxalq hüquqa məhəl qoymadıqlarına, istədiklərini etdiklərinə, əraziləri böldüyünə, beynəlxalq hüquqdan əsər-əlamət qalmadığına, Azərbaycan dövlətinin beynəlxalq hüququn kənarında heç bir addım atmadığına, Ermənistan torpağına girmədiyinə və beynəlxalq birlik tərəfindən tanınmış ərazilərini bərpa etdiyinə diqqəti cəlb edən Prezident bildirdi:

"Mane olmasınlar və Azərbaycan xalqının səbri ilə oynamasınlar. Sabah bu müharibə qurtaracaq, biz istədiyimizə nail olacağıq. Bəs, necə olacaq bizim münasibətlərimiz? Azərbaycan xalqı bu haqsızlığı unudacaqmı? Unutmayacaq. Bunu bir fikirləşsinlər. Azərbaycan indi o dövlət deyil ki, onun maraqlarını kimsə kənara qoya bilər... Bu, birincisi.

İkincisi, vasitəçi neytral olmalıdır. Neytral deyilsə, getsin öz namizədliyini geri götürsün. Vasitəçi neytral deyilsə, o, vasitəçi ola bilməz. İndi vasitəçi ölkələr gərək yeni bir funksiya fikirləşsinlər, nə ilə məşğul olacaqlar? İndi artıq beş rayonun azad edilməsindən danışa bilməzlər, hanı 5 rayon, bizdədir onların artıq 4-ü. O məsələ artıq getdi, qurtardı getdi. Özümüz götürmüşük - Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı. Bu rayonların böyük hissəsi bizdədir. Keçmiş Hadrut - indiki Xocavənd rayonunun bir hissəsi bizdədir. Ona görə fikirləşsinlər".[482]

Ermənistanın havadarlarına xəbərdarlıq edən dövlət başçısı qətiyyətlə dedi:

481 Yenə orada.
482 Yenə orada.

"Ermənistanın havadarları, sizə deyirəm: bu saxta dövləti xilas etmək istəyirsinizsə, deyin ki, çıxsın. Bir sözünüzlə çıxa bilər, bir sözünüzlə. Əgər Ermənistana maliyyə, iqtisadi, hərbi, siyasi dəstək verilməsə, onlar ayaq üstə dura bilərmi? Yox".[483]

Ölkə rəhbəri Azərbaycan dövlətinin mövqeyini birmənalı olaraq yenidən belə bəyan etdi:

"İndiki mərhələdə bizim mövqeyimiz bundan ibarətdir və biz hazırıq ki, bu məsələ hərbi-siyasi yollarla həll olunsun. Amma həll olunsun. Atəşkəs deyiblər, eybi yoxdur, qoy olsun. Ermənistan bunu pozub, hər bir pozuntunu biz qeydə alırıq... Tapşırıq vermişəm, qeydə alınır, dərhal ATƏT-in nümayəndəsinə və atəşkəsdə maraqlı olan digər ölkələrə göndərilir ki, baxsınlar, ermənilər atəşkəsi nə qədər pozublar... Hərbi-siyasi həll yalnız Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələsini reallaşdırmalıdır".[484]

200 il əvvəl azərbaycanlılara məxsus torpaqlara köçürülmüş ermənilərə münasibətdə Azərbaycanın siyasətinin necə olacağı barədə Prezident dedi:

"...bizim dədə-baba torpaqlarımıza 200 il bundan əvvəl köçürülmüş ermənilərin gələcəyinə, mən demişəm ki, onlar da bizim vətəndaşlarımızdır".[485]

Prezident sentyabrın 27-dən sonra düşmənin verdiyi hərbi-texniki itkilər barədə aşağıdakı məlumatları verdi:

"...252 tank məhv edilib, 53 tank qənimət kimi götürülüb. Toplam 305 tankdan Ermənistan məhrum edilib. Amma hələ tankları var... Piyadaların döyüş maşını – 50-si məhv edilib, 29-u qənimət kimi götürülüb – cəmi 79 ədəd. Müxtəlif çaplı toplar – 251-i məhv edilib, 24-ü qənimət kimi götürülüb, cəmi 275. Minaatan – 61-i məhv edilib, 45-i qənimət kimi götürülüb, toplam 106. Tank əleyhinə vasitə - 53-ü məhv edilib. 82 "Qrad" qurğusu məhv edilib. 2 "Uraqan" Yaylım Atəşli Raket Sistemi, 1 "TOS" məhv edilib. Zenit-raket kompleksləri - 4 "TOR", 40-a yaxın "OSA", 4 "KUB", 1 "KRUQ", 2 "S-125" qurğusu məhv edilib. "S-300" ən bahalı qurğulardan biridir, 6 "S-300" atıcı qurğusu məhv edilib. Bir aşkaretmə stansiyası, bir lokator. Qiyməti bəllidir. Hər kəs hesablaya bilər. Əməliyyat taktiki raket kompleksləri – "Elbrus", ikisi məhv edilib, "Toçka-U" biri məhv edilib. Yük avtomobilləri – 231 yük avtomobili məhv edilib, onlardan 20-si sursatı ilə. 173 yük avtomobili hərbi qənimət kimi götürülüb. Biz düşməni toplam 404 yük avtomobilindən məhrum etmişik".[486]

Dövlət başçısı Ermənistanı silahlandıran ölkələri ağır ittiham edərək dedi:

"İndi bir daha sual verirəm. Hər dəfə bu sualı verirəm və verəcəyəm. Cavab gələnə qədər verəcəyəm. Haradandır bu pul, haradan? Müşahidəçilər, vasitəçilər,

483 Yenə orada.
484 Yenə orada.
485 Yenə orada.
486 Yenə orada.

politoloqlar, ermənipərəstlər desinlər ki, haradan gəlir? Bizim pulumuz var, hər şey şəffaf. Nə qədər pulumuz var Azərbaycan xalqı bilir, dünya bilir, hər kəs bilir. Öz pulumuzla alırıq. Heç kimdən də asılı deyilik. Bu, borc içində olan, müflisləşən ölkə haradan alıbdır? Ermənistanın xarici dövlət borcu təxminən 8 milyard dollardır. Valyuta ehtiyatları isə 1,5 milyard dollardır. Özü də bu, sərbəst vəsait deyil, bu, bank rezervləridir. Onlardan istifadə edə bilməz. Əgər istifadə etsə, onların dırnaqarası valyutası da kəllə-mayallaq gedəcəkdir. Kim verib sənə bu qədər silahı? Niyə soruşan yoxdur?".[487]

Türkiyənin Azərbaycanda olan F-16-ları ilə bağlı məsələyə bir daha aydınlıq gətirən dövlət başçısı söylədi:

"Mən cavab verməkdən yorulmuşam. Gedin açın, peykiniz var, görmürsünüz nə gəzir? Gedin baxın F-16 neyləyir, havadadır, yerdədir? Hər kəs bilir ki, yerdədir. Özü də təlimlər üçün gəlib və müharibə başlayanda qalıbdır. Türkiyəli qardaşlarımız onları bizə mənəvi dəstək vermək üçün saxlayıblar. Bir də ki, əgər bizə qarşı kənardan təcavüz olarsa, o F-16-ları görəcəklər onlar. Yaxşı, orada, aeroportda cəmi 5-6 təyyarə qalıbdır. Bu barədə hər dəfə sual verirlər. Yaxşı, mən bu suallara cavab verirəm. Amma Ermənistana da, silahları onlara verənlərə də sual verin. Verin bu sualları, nə üçün silah verirsən? Pulunu vermisənmi? O silahları istehsal edən ölkələrin vətəndaşları bilirlərmi ki, bir ay ərzində onların nə qədər malı batıb? Biz onların nə qədər silahlarını məhv etmişik? Bir nəfər jurnalist bu sualı vermir mənə. Maraqlı deyilmi? Maraqlıdır... Biz buna artıq öyrəşmişik ki, bütün bu illər ərzində Azərbaycan haqqında iftiralar, yalanlar, uydurmalar baş alıb gedirdi".[488]

Müraciətinin sonunda dövlət başçısı oktyabrın 25-də Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd, Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər, Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndlərinin və Qubadlı şəhərinin azad edildiyini bildirdi. Düşmən həmin kəndləri tamamilə dağıtmışdı. Prezident işğaldan azad olunmuş ərazilərin bərpa ediləcəyi barədə dedi:

"...bərpa edəcəyik. Azərbaycan xalqının da, dövlətinin də buna gücü çatacaq. Təki torpağımız azad olsun. Təki bayrağımız işğaldan azad edilmiş bütün torpaqlarda qaldırılsın".[489]

Rüsvayçı məğlubiyyətlə barışa bilməyən işğalçı ölkə oktyabrın 26-da "Smerç" yaylım atəşli reaktiv sistemindən Tərtər şəhərinə atəş acdı. Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində hücum etmək cəhdlərinin qarşısı alınan düşmən itki verərək geri oturduldu. 18-ci motoatıcı diviziyasının ön idarəetmə məntəqəsi

487 Yenə orada.
488 Yenə orada.
489 Yenə orada.

məhv edildi. Ölənlər arasında diviziyanın qərargah rəisi də var idi. Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 1 ədəd T-72 tankı, 4 ədəd D-30 və 3 ədəd D-20 topu, 1 ədəd "Osa-AKM" ZRK, 1 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd radiolokasiya stansiyası və 6 ədəd avtomobil texnikası sıradan çıxarıldı.

İşğalçı ölkə oktyabrın 27-də Zəngilan rayonunun Ağbənd kəndini, Tərtər şəhərini və rayonun kəndlərini, Goranboy və Bərdə rayonlarını atəşə tutdu. Bərdə rayonunun ərazisi "Smerç" yaylım atəşli reaktiv sistemləri ilə vuruldu. Ermənistanın siyasi-hərbi rəhbərliyinin törətdiyi müharibə cinayəti nəticəsində mülki şəxslər, o cümlədən azyaşlı uşaq həyatını itirdi, aralarında uşaqlar və qadınlar olmaqla xeyli sayda mülki şəxs xəsarət aldı.

Ağdərə, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı istiqamətlərində düşmənin hücum etmək cəhdlərinin qarşısı qətiyyətlə alındı. Ermənistandan zorla toplanan şəxslərin Azərbaycanın işğal olunmuş ərazilərinə göndərilməsi prosesi davam edirdi. Lakin həmin şəxslər cəbhəyə gəlməkdən qorxurdular. Döyüşlərə cəlb etmək məqsədilə 2000 nəfərdən ibarət heyətin yığılması barədə tapşırığın verilməsinə baxmayaraq, cəmi 300 nəfəri toplamaq mümkün olmuşdu. Hətta bir çox hərbi müqaviləli şəxslər və polis əməkdaşları da cəbhəyə getməkdən imtina etmişdilər.

Oktyabrın 28-də düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 1 ədəd "Osa" ZRK, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-30, 5 ədəd D-20 və 1 ədəd D-44 topu, 2 ədəd 2A36 "Qiasint-B" topu, 1 ədəd 120-mm minaatan, 1 ədəd "Konkurs" tank əleyhinə raket kompleksi və 6 ədəd avtomobil texnikası məhv edildi.[490]

Həmin gün Ermənistanın Tovuzqala (Berd), Çəmbərək, Basarkeçər (Vardenis) və Gorus rayonları ərazisindən Azərbaycanın Tovuz, Gədəbəy, Daşkəsən və Qubadlı rayonlarının əraziləri vuruldu. Ağcabədi, Tərtər və Bərdənin atəşə tutulması nəticəsində ölən və xəsarət alanlar oldu, mülki infrastruktura ziyan dəydi. Goranboy və Tərtər rayonlarının ərazisi də atəşə tutuldu.

Prezident İlham Əliyev oktyabrın 28-də Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac, Qubadlının Qiyaslı, Əbilcə, Qılıcan kəndlərinin işğaldan azad edilməsi barədə özünün rəsmi Tvitter səhifəsində xəbər verdi.[491]

490 Cəbhə gündəliyi. 28 oktyabr // "Xalq qəzeti", 2020, 29 oktyabr.

491 Prezident İlham Əliyev: Azərbaycan Ordusu Zəngilan, Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının 13 kəndini işğaldan azad edib // "Azərbaycan" qəzeti. 28.10.2020. URL: http:www.azerbaijan-news.az/posts/detail/prezident-ilham-eliyev-azerbaycan-ordusu-zengilan-fuzuli-cebrayil-ve-qubadli-rayonlarinin-13-kendini-isgaldan-azad-edib-202554.

Bir-birinin ardınca qazanılan qələbələr həm millətdə, həm də orduda böyük ruh yüksəkliyi yaradırdı. Döyüş meydanındakı uğurlar informasiya sahəsində də davam edirdi.

18.2. Prezident İlham Əliyevin Rusiyanın "İnterfaks" agentliyinə müsahibəsi

Rusiyanın "İnterfaks" agentliyinə oktyabrın 28-də müsahibə verən Prezident İlham Əliyev, ilk növbədə, Azərbaycan Silahlı Qüvvələrinin azadlıq yürüşünə başlamasından ötən bir ay ərzində baş verən hadisələri və gücünü belə izah etdi:

"İşğal edilmiş ərazilərin xeyli hissəsi bu bir ay ərzində azad olundu. Erməni tərəfinin təqribən 30 il ərzində işğal olunmuş torpaqlarda möhkəmləndirilmiş rayonlar yaratmasını nəzərə alsaq, orada bir neçə müdafiə xətti var idi. Ərazinin relyefi də erməni tərəfi üçün daha əlverişlidir, çünki ora dağlıq ərazidir və bizim hərbi qulluqçular əks-hücum əməliyyatlarını həyata keçirərkən həm mühəndis qurğularını, həm də dağlıq relyefi adlamalı olurdu. Buna görə də bütün bu amillər nəzərə alınmaqla, ölkəmizin ərazilərinin xeyli hissəsi bir ay ərzində azad edildi və bu, göstərir ki, Azərbaycan Ordusunun dünyada ən yaxşı döyüş qabiliyyətinə malik ordulardan biri hesab edilməsi əbəs deyildi. Ölkələrin hərbi potensialının dəyərləndirilməsi ilə məşğul olan qurumların vaxtaşırı dərc etdiyi reytinqlərə əsasən, Azərbaycan Ordusu dünyanın aparıcı 50 ordusu sırasındadır. Həm peşəkarlıq, həm təlim, həm döyüş qabiliyyəti, ən başlıcası mənəvi döyüş ruhu, əlbəttə ki, Azərbaycan Ordusunun texniki təchizatı da çox cəhətdən bizim uğurumuza kömək edib. Biz Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərlərini, Xocavənd rayonunun bir hissəsini azad etmişik".[492]

Azərbaycan dövləti münaqişənin nizamlanmasının hərbi mərhələsindən siyasi mərhələsinə keçməsini istəyirdi. Lakin erməni tərəfi humanitar atəşkəs rejimini artıq üçüncü dəfə kobud şəkildə pozmuşdu. Bununla əlaqədar olaraq Prezident dedi:

"...hərbi-siyasi nizamlama yeganə mümkün yoldur. Biz istərdik ki, hərbi faza danışıqlar masası arxasında başa çatsın, Azərbaycan ərazilərinin bundan sonra da işğaldan azad olunması məsələləri həll edilsin".[493]

Müharibənin dayandırılmasına dair müxtəlif dövlətlərdən edilən təkliflərdən və Ermənistanın təcavüzkar siyasətindən, mülki əhalini hədəf almasından

492 İlham Əliyev Rusiyanın İnterfaks agentliyinə müsahibə verib. 28.10.2020 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/44692.
493 Yenə orada.

bəhs edən ölkə başçısı bildirdi ki, Azərbaycan Ermənistan tərəfindən onların yüksək rəhbərliyinin şəxsində qoşunları işğal olunmuş ərazilərdən çıxaracaqlarına dair öhdəlik almalıdır. Hələlik bu, eşidilməmişdi. Prezident dedi:

"Erməni rəhbərliyindən bu cür öhdəlik alınandan və bu, ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən təsdiq ediləndən dərhal sonra biz hərbi əməliyyatları dayandırmağa hazırıq. Bu şərtlə ki, erməni tərəfi də onları dayandırsın. Çünki atəşkəs üç dəfə pozulub və hər üçü erməni tərəfin təqsiri üzündən baş verib. Bilirsiniz ki, dünən kasetli raketlərlə atəşlər nəticəsində Bərdədə dörd dinc vətəndaş, o cümlədən 7 yaşlı qız həlak olub. Bərdə münaqişə zonası deyil. Yəni bu, Vaşinqtonda razılaşdırılmış atəşkəsin kobud şəkildə pozulmasıdır. Bundan əvvəl Moskvada razılaşdırılmış atəşkəs elə ertəsi gün ermənilər tərəfindən Ermənistan ərazisindən Gəncəyə ballistik raket atılması yolu ilə pozuldu. Bunun nəticəsində 10 nəfər həlak oldu. Gəncəyə ballistik raketlərlə ikinci hücum nəticəsində bu dinc şəhərdə daha çox, ümumilikdə isə 30-a yaxın insan həlak oldu. Ona görə də atəşkəsə riayət edilməməsi bizim təqsirimiz deyil. Buna görə erməni tərəfi indiyə qədər işğal altında saxladıqları ərazilərdən çıxacaqları barədə öhdəlik götürməlidir... o halda biz siyasi nizamlamaya keçməyə hazırıq".[494]

Ermənistanın qondarma rejimin müstəqilliyini tanımaq təhdidləri barədə sualı Prezident belə cavablandırdı:

" Vəziyyət kəskinləşəcəyi halda onların (Ermənistan – M.Q.) *Dağlıq Qarabağın müstəqilliyini tanıyacaqları barədə daimi şantaj və hədələri yenə də küy-kələk oldu... Bəs nə üçün onlar indiyə qədər Dağlıq Qarabağın müstəqilliyini tanımayıblar? Bunu etmək çox asandır. Qoy bəyan etsinlər ki, onu tanıyırlar. Onların siyasətinin bütün mahiyyəti də məhz bundadır. Onlar onilliklər boyu həmişə cəhd ediblər, - təəssüf ki, bəzən başqa ölkələrin arxasında gizlənməyə nail olublar, - onların problemlərini onların əvəzinə başqa ölkələr həll etsinlər".*[495]

Qafqazda aborigen olmayan ermənilərin ideologiyasının mahiyyətini açan dövlət rəhbəri vurğuladı:

"Son 200 ilin tarixini, Qafqazın tarixini izləsək, onların ucbatından neçə müharibə baş verməsini, onların başqa ölkələr üçün neçə təxribat yaratmasını görərik. Sonra isə kolluğa qaçaraq və kimlərinsə arxasında gizlənərək başqa xalqların qanının axıdılmasının və qarşıdurmanın bəhrələrini görürdülər. Onların Qafqaza gəlib çıxmalarının tarixini biz çox gözəl bilirik. Qafqaz regionunda tarixən erməni etnosu olmayıb. Onlar buraya necə gəlib çıxıblar – məhz belə yolla, hiyləgərliklə, məkrlilikla, necə deyərlər, ilanı başqasının əli ilə tutmaq cəhdləri ilə".[496]

494 Yenə orada.
495 Yenə orada.
496 Yenə orada.

Prezident müsahibəsində Ermənistanı silahlandıran dövlətləri ağır ittiham edərək bildirdi ki, silah verilməsi işğalçı ölkəni daha da şirnikləşdirir və ruhlandırır.

Dövlət başçısı Almaniyanın ADR Televiziyasına verdiyi müsahibəsində də münaqişəyə dair bütün həqiqətləri çatdırdı və işğalçı ölkənin siyasətinin mahiyyətini açdı. Bir daha bildirdi ki, Ermənistan işğal etdiyi ərazilərdən çıxmalı və müvafiq vaxt cədvəli verməlidir.

Bu zaman cəbhədə hərbi əməliyyatlar davam edirdi. Oktyabrın 29-da cəbhənin Qubadlı istiqamətində Azərbaycan Ordusunun mövqelərinə aviazərbələr endirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin iki Su-25 hücum təyyarəsi məhv edildi.

Humanitar atəşkəs rejimini növbəti dəfə kobudcasına pozan Ermənistan silahlı qüvvələri oktyabrın 29-da Azərbaycandakı diplomatik korpusun rəhbərlərini, səfirləri, hərbi attaşeləri və beynəlxalq təşkilatların nümayəndəliklərini dövlət rəsmiləri ilə birgə Tərtərə səfəri zamanı atəşə tutdu. Bu, işğalçı ölkənin növbəti hərbi cinayəti idi.

Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi oktyabrın 30-da artilleriya zərbələri ilə vuruldu. Qubadlı rayonunun ərazisi isə Ermənistan ərazisindən artilleriya atəşinə məruz qaldı. Ermənistan ərazisindən atəş açmaqla düşmən ölkə Azərbaycanı təxribata çəkmək və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv olan ölkələri müharibəyə cəlb etməyə çalışırdı. Lakin işğalçının bu avantürası baş tutmadı.

Prezident İlham Əliyev həmin gün Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı, Zəngilan rayonunun Aladin, Vejnəli, Qubadlı rayonunun Kavdadıq, Məmər və Mollalı kəndlərinin işğaldan azad edilməsi barədə millətə məlumat verdi. Gün ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 3 ədəd PDM, 2 ədəd "Smerç" və 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemləri, 12 ədəd müxtəlif tipli topu, 1 ədəd "Osa" ZRK, 1 ədəd radioelektron mübarizə stansiyası, 2 ədəd avtomobil texnikası məhv edildi və sıradan çıxarıldı.

Ağır zərbə alan Ermənistan işğal altında olan Xocavənd istiqamətində 1-ci ümumqoşun ordusunun 37-ci atıcı diviziyasının 3-cü motoatıcı alayının müdafiə sahəsindəki bölmələrinə xeyli sayda fosfor tərkibli yük gətirdi. Bu sursatın qeyd olunan ərazilərə gətirilməsində düşmənin məqsədi ilk növbədə ondan Azərbaycan Ordusunun bölmələrinə qarşı istifadə etmək, digər tərəfdən isə həmin sursatın guya Azərbaycan bölmələri tərəfindən əraziyə səpələndiyi barədə yalan məlumatlar yaymaq idi. Belə də oldu. Oktyabrın 30-da Ermənistan tərəfi guya Azərbaycan Ordusunun ağ fosfor tərkibli silah tətbiq etməsi barədə yalan

məlumatlar yayaraq gələcək təxribatlar üçün zəmin yaratsa da, çirkin niyyəti baş tutmadı. Həmin gün Tərtər şəhəri, rayonun Şıxarx qəsəbəsi, Əskipara kəndi, eləcə də Ağcabədi rayonunun Qiyaməddinli kəndi düşmən tərəfindən artilleriya atəşinə tutuldu.

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, Azərbaycan Ordusu uğurlu hərbi əməliyyatları davam etdirmiş və bir sıra kəndləri işğaldan azad etmişdir. Düşmən Qubadlı şəhərindən və bəzi kəndlərdən qovulub çıxarılmışdır. Prezident İlham Əliyev Azərbaycan xalqına müraciət edərək müharibənin aparılmasının məqsədləri, Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri, ermənilərin regiona gətirilib yerləşdirilməsi, sovet dövründə separatçılıq fəaliyyətləri, hərbi əməliyyatların dayandırılmasının şərtləri, Ermənistanın humanitar atəşkəsi pozaraq mülki əhalini hədəf alması, döyüşlərdə verdiyi hərbi-texniki itkilər barədə məlumat vermiş və havadarlarına, onu silahlandıranlara sərt şəkildə xəbərdarlıq etmişdir. Bildirmişdir ki, hərbi əməliyyatların dayandırılmasının başlıca şərti işğalçı qoşunların çıxarılması və vaxt cədvəlinin verilməsidir. Dövlət başçısı Türkiyənin Azərbaycanda olan F-16 qırıcı təyyarələri ilə bağlı yayılan məlumatların yalan olduğunu bildirmişdir.

Hərbi əməliyyatların aparılması ilə paralel olaraq informasiya sahəsində də savaş davam etmişdir. Prezident İlham Əliyevin ABŞ-ın Foks Nyus televiziya kanalına, Rusiyanın İnterfaks agentliyinə, Almaniya televiziyasına verdiyi müsahibələr həqiqətlərin dünyaya yayılmasında müstəsna rol oynamış, uydurma erməni təbliğatına sarsıdıcı zərbə vurmuşdur.

19-cu FƏSİL

ŞUŞA ŞƏHƏRİNİN İŞĞALDAN AZAD OLUNMASI

19.1. Hərbi əməliyyatların və diplomatik-siyasi fəaliyyətin uğurla aparılması

Döyüş meydanında bir-birinin ardınca məğlub olan təcavüzkar ölkə oktyabrın 31-də gün ərzində və noyabrın 1-nə keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutdu. Cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edən döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsi, 1 ədəd PDM, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 8 ədəd müxtəlif tipli topu, 2 rabitə qülləsi, 5 ədəd avtomobil texnikası məhv edildi.

Hərbi əməliyyatlar davam edərkən intensiv diplomatik fəaliyyət də yürüdülürdü. Bu baxımdan Prezident İlham Əliyevin noyabrın 1-də Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etməsi əhəmiyyətli oldu.[497] Dövlət başçısı hərbi əməliyyatların uğurla davam etdiyini, bir çox kənd, şəhər və qəsəbənin, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərlərinin, ümumiyyətlə, təqribən 200-ə yaxın yaşayış məntəqəsinin düşməndən azad edildiyini bildirdi. Vurğuladı ki, Ermənistan üç dəfə elan edilmiş humanitar atəşkəsi kobudcasına pozmuş, Gəncə və Bərdə şəhərlərini bombalamış və mülki əhali arasında çoxsaylı itkilər olmuşdur.

Azərbaycan Ordusunun uğurlarından danışan xarici işlər naziri Mövlud Çavuşoğlu dedi:

"Biz Sizin döyüş meydanındakı qələbələrinizlə fəxr edirik. Bütün dünyaya türkün gücünü göstərdiniz, qürur duyuruq".[498]

497 Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib // "Azərbaycan" qəzeti , 2020, 2 noyabr.

498 Yenə orada.

Səfər və keçirilən danışıqlar bir daha göstərdi ki, Türkiyə Cümhuriyyəti Azərbaycanın haqq işinin yanındadır. Bu mövqe təkcə qardaşlıq deyil, həm də beynəlxalq hüquq normalarının qorunmasından irəli gəlirdi.

Noyabrın 1-ə keçən gecə Ermənistanın Tovuzqala (Berd), Çəmbərək və Gorus rayonlarından Azərbaycanın Tovuz, Gədəbəy və Qubadlı rayonlarında yerləşən ordu bölmələrinin mövqelərinə atəş açıldı. Həmçinin Tərtər şəhəri, rayonun Şıxarx qəsəbəsi, Qapanlı, Əskipara, Səhləabad kəndləri, eləcə də Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndi artilleriya zərbələrinə məruz qaldı. Gün ərzində Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində bir sıra əlverişli yüksəklikləri ələ keçirmək məqsədilə minaatanlardan və müxtəlif iri çaplı silahlardan istifadə etməklə hücuma keçməyə cəhd edən düşmənə ağır zərbə endirildi. Döyüş nəticəsində canlı qüvvə sarıdan 30-dək itki verən düşmən Ermənistan ərazisinə çəkilməyə məcbur edildi. Havadan hücumun da qarşısı alındı. Düşmənin Su-25 döyüş təyyarəsi məhv edildi.

Ermənistanın Tovuzqala (Berd), Basarkeçər (Vardenis) və digər rayonlarından noyabrın 2-ə keçən gecə Azərbaycanın Qazax, Tovuz və Daşkəsən rayonlarında yerləşən hərbi bölmələrinin mövqeləri atəşə tutuldu. Azərbaycan Ordusu noyabrın 2-də Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərini işğaldan azad etdi.

Prezident İlham Əliyev noyabrın 2-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibini, Türkiyənin Odalar və Borsalar Birliyinin prezidentini, Özbəkistanın Ticarət və Sənaye Palatasının sədrini və Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidentini qəbul etdi. Səfərin başlıca məqsədi Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatasına üzv ölkələrin rəhbərlərinin növbədənkənar iclasında iştirak etmək, və Azərbaycana mənəvi-siyasi dəstəyi ifadə etmək idi.

Ölkə rəhbəri müharibənin ilk günlərindən Türkiyə, Pakistan, Əfqanıstan və digər ölkələrin dövlət və hökumət başçılarının Azərbaycana dəstək verdiyini bildirdi. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Azərbaycana dəstək verməsini və önəmli bəyanatını yüksək qiymətləndirən Prezident dedi ki, bu, türkdilli ölkələr arasındakı birliyin və həmrəyliyin təzahürüdür.[499]

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi və Türkiyənin Odalar və Borsalar Birliyinin prezidenti türk iş dünyasının qardaş Azərbaycanın səsi-

499 İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibini, Türkiyənin Odalar və Borsalar Birliyinin prezidentini, Özbəkistanın Ticarət və Sənaye Palatasının sədrini və Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidentini qəbul edib. 02.11.2020 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https: president.az/articles/45236.

ni bütün dünyaya çatdırmaq üçün Bakıya gəldiklərini dedilər.[500] Mənəvi dəstək olan bu səfər böyük əhəmiyyət daşıyırdı.

Noyabrın 2-də Prezident İlham Əliyev Türkiyənin keçmiş Baş naziri Binəli Yıldırımın[501] rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdi. Türkiyə tərəfi Azərbaycanın haqq işini sonuna qədər müdafiə edəcəyini bildirdi.

İtaliyanın məşhur "La Repubblica" qəzetinə noyabrın 2-də verdiyi müsahibədə Prezident İlham Əliyev hərbi əməliyyatların aparılmasının məqsədini, Ermənistanın işğalçılıq siyasətinin mahiyyətini, mülki obyektləri və dinc əhalini hədəf almaqla müharibə cinayəti törətdiyini, Minsk qrupu həmsədrlərinin fəaliyyətsizliyini vurğuladı.

Noyabrın 3-də cəbhədə uçuş keçirməyə cəhd göstərən düşmənə məxsus PUA məhv edildi. Həmin gün Ermənistan silahlı qüvvələri Füzuli şəhərini və ətraf kəndləri "Smerç" yaylım atəşli reaktiv sistemindən atəşə tutdu.

Zəngilan rayonu istiqamətində Ermənistan ilə dövlət sərhədində növbəti təxribatın qarşısı alındı. Ermənistan ərazisindən hücum edərək dövlət sərhədindəki əlverişli yüksəklikləri ələ keçirməyə cəhd edən düşmənin kəşfiyyat-təxribat qrupu məhv edildi.

Prezident İlham Əliyev noyabrın 4-də Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərinin işğaldan azad edildiyini özünün Twitter hesabından bildirdi. Bir neçə gün sonra, noyabrın 7-də isə daha 16 kəndin – Füzuli rayonunun Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar, Cəbrayılın Yuxarı Məzrə, Yanarhac, Qubadlı rayonunun Qəzyan, Balasoltanlı, Mərdanlı, Zəngilanın Beşdəli, Xocalının Qarabulaq, Moşxmaat, Xocavəndin Ataqut, Tsakuri kəndlərinin işğalçılardan azad edilməsi barədə xəbər verildi.

Daha bir müharibə cinayəti törədən işğalçı ölkə silahlı qüvvələri bölmələrinin noyabrın 7-də Bərdə rayonunun Əyricə kəndini atəşə tutması nəticəsində bir nəfər kənd sakini həlak oldu. Azərbaycan Ordusu isə azadlıq yürüşünü əzmlə davam etdirirdi. Hədəf Şuşa şəhərini işğaldan azad etmək idi.

500 Yenə orada.
501 Binəli Yıldırım (1955) – Türkiyə Cümhuriyyətinin 27-ci Baş naziri (2016-2018).TBMM-in 28-ci sədri (2018-2019).

19.2. Şuşa şəhərinin düşmən işğalından qurtarılması

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 8-də Fəxri xiyabanda və Şəhidlər Xiyabanında oldular. Əvvəlcə Fəxri xiyabanda Heydər Əliyevin məzarı ziyarət edilərək xatirəsinə ehtiram bildirildi. Abidənin önünə əklil qoyuldu. Azərbaycan Respublikasının dövlət himni səsləndirildi. Dövlət başçısı və xanımı görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın, görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim, alim Tamerlan Əliyevin məzarlarına gül dəstələri qoydular.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəhidlər Xiyabanına gələrək Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad etdilər, məzarlarına gül dəstələri düzdülər.

Dövlət başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu. Azərbaycan Respublikasının dövlət himni səsləndirildi. Şəhidlər Xiyabanında Prezident İlham Əliyev Azərbaycan xalqına müraciət edərək millətin həsrətində olduğu şad xəbəri verdi. Şuşa şəhərinin işğaldan azad edildiyini ölkə rəhbəri belə bəyan etdi:

"Əziz həmvətənlər, əziz bacılar və qardaşlar!

Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.

İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox".[502]

Uzun illər boyu davam edən mənasız danışıqlar heç bir nəticə verməmişdi. Dövlət başçısı vurğuladı ki, əzəli tarixi torpaqlar 30 ilə yaxın işğal altında qaldı, danışıqlar prosesində Ermənistan tərəfi vaxt udmaq, status-kvonu möhkəmləndirmək və əbədi etmək istəyirdi. Bu illər ərzində dəfələrlə müxtəlif güc mərkəzlərindən göndərilən siqnallar vəziyyətlə barışmağa təhrik etmək istəsə də, Azərbaycan dövləti qətiyyət, cəsarət, siyasi iradə göstərərək milli maraqlara cavab verməyən heç bir razılaşmaya getməmişdi. Azərbaycanın əsas vəzifəsi ərazi bütövlüyünü bərpa etmək idi. Aparılan danışıqlar nəticə verməmişdi. Prezident dedi:

502 Prezident İlham Əliyev: Bu gün Azərbaycan xalqı yumruq kimi birləşib! Bu birlik əbədi olacaq! 08.11.2020 // URL: https:azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Bu_gun_Azerbaycan_xalqi_yumruq_kimi_birlesib_Bu_birlik_ebedi_olacaq_VIDEO-1636885.

"Danışıqlar heç bir nəticə vermədi. Sadəcə olaraq, bizim başımızı aldadırdılar, sadəcə olaraq, məsələni dondurmaq istəyi müşahidə olunurdu. Biz bu Qələbəni döyüş meydanında qazandıq, şəhidlər verərək bu Qələbəni qazandıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! ...Biz xalqımızın, əsgərlərimizin, zabitlərimizin canı, qanı bahasına torpaqlarımızı işğalçılardan azad edirik. İşğalçıları torpaqlarımızdan qovuruq və qovacağıq!".[503]

Azərbaycan xalqının tarixində müstəsna yeri olan Şuşa şəhəri 28 ildən çox işğal altında qalmışdı. Azərbaycanlılar əsrlər boyu Şuşada yaşamış, qurmuş və yaratmışdı. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisi idi. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla Azərbaycanın mədəni irsinə böyük zərbə vurmuş, tarixi abidələri, məscidləri dağıtmış və təhqir etmişdi. Bununla əlaqədar olaraq ölkə rəhbəri bildirdi:

"Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik, bütün məscidləri bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir. Bir neçə il bundan əvvəl – 2016-cı ilin Aprel döyüşlərindən sonra işğaldan azad edilmiş Cocuq Mərcanlı qəsəbəsində mənim göstərişimlə tikilmiş məscidin açılışında bəyan etmişdim ki, bu məscid Şuşa məscidinin bənzəridir, ölçülərinə, memarlıq üslubuna görə eynidir. Demişdim ki, gün gələcək biz Şuşa şəhərində erməni vandalları tərəfindən dağıdılmış məscidlərimizi bərpa edəcəyik və bu gün gəlir. Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır. Bu gün bütün Azərbaycan xalqı qürur hissi ilə bu xoş xəbəri qarşılayır".[504]

Prezident qələbəyə gətirən başlıca amillərdən olan və gələcək nəsillərin də bilməsi zəruri olan iqtisadi güc məsələsinə diqqəti yönəldərək dedi:

"İqtisadi güc. Əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi və təmin edildi. Bu gün Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. Müstəqillik və bu, bizə imkan verdi ki, ölkəmizi inkişaf etdirək, eyni zamanda, Ordumuzu gücləndirək. Biz Ordumuz üçün lazım olan bütün hərbi texnikanı, silahları xarici bazarlardan alırıq. Əgər bizim iqtisadi imkanlarımız olmasaydı, biz bunları necə əldə edə bilərdik?".[505]

Qələbənin qazanılmasında milli birlik və siyasi iradə müstəsna rol oynamışdı. Ölkə daxilində uğurlu siyasətin aparılması nəticəsində Azərbaycan dünya üçün çox nadir inkişaf modelini yaratmışdı. Daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşmək əlavə güc vermiş, bəzi mənfur xarici dairələrin öz çirkin planlarını Azərbaycanda həyata keçirmələrinin qarşısını almışdı. Ölkə başçısı bildirdi:

503 Yenə orada.
504 Yenə orada.
505 Yenə orada.

" Biz siyasi iradə göstərərək, birlik göstərərək bu cəhdləri dəf etdik, xalq olaraq, millət olaraq öz qürurumuzu müdafiə etdik, öz müstəqil seçimimizi müdafiə etdik və sübut etdik ki, heç kim bizim işimizə qarışmasın və qarışa bilməz. Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Bu illər ərzində bizə qarşı aparılan qara piar kampaniyası, qarayaxma, şər-böhtan kampaniyasının da əsas məqsədi o idi ki, bizi əsas vəzifəmizdən uzaqlaşdırsınlar, biz uzaqlaşaq, daxili problemlər içində boğulaq və işğal edilmiş torpaqlar işğalçıların əlində əbədi qalsın. Güclü siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi".[506]

Qələbənin qazanılmasında səmərəli xarici siyasət müstəsna rol oynamışdı. Dağlıq Qarabağın Azərbaycanın tarixi torpağı olduğu dünyada sübut edilmiş və beynəlxalq təşkilatlar tərəfindən müvafiq qətnamələr qəbul edilmişdi. Prezident bununla əlaqədar olaraq dedi:

"Qələbəmizin üçüncü əsas amili beynəlxalq səviyyədəki uğurlarımızdır. Biz bütün dünyaya sübut etdik ki, Qarabağ əzəli Azərbaycan torpağıdır. Sübut etdik ki, əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb. Sübut etdik ki, erməni əhalisi bu torpaqlara 200 il bundan əvvəl köçürülübdür, necə köçürülübdür, hansı məqsədlərlə köçürülübdür, hamısını biz dünya ictimaiyyətinə təqdim etdik, sübutlarla, faktlarla. Biz sübut etdik ki, Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır və bu məsələ beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Dünyanın bütün aparıcı təşkilatları, bütün beynəlxalq təşkilatlar Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli qətnamələr, qərarlar qəbul edibdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, Qoşulmama Hərəkatının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatının qətnamələri, Avropa Parlamentinin qətnamələri və digər beynəlxalq təşkilatların qərar və qətnamələri birmənalı şəkildə Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdı. Bu, bizə əlavə güc verdi. Əgər biz bunu etməsəydik, bu gün münaqişənin ətrafında cərəyan edən proseslər bizə böyük problemlər yarada bilərdi. Biz bu illər ərzində bir çox ölkələrlə səmimi, işgüzar, qarşılıqlı hörmət əsasında münasibətlər qura bildik, bir çox ölkələr Azərbaycanı strateji tərəfdaş hesab edir və artıq bu ifadə beynəlxalq sənədlərdə öz əksini tapır".[507]

Qonşu dövlətlərlə mehriban və səmimi münasibətlərin qurulması qələbənin qazanılmasına müsbət təsir etmişdi. Bunu dövlət başçısı aşağıdakı kimi bəyan etdi:

506 Yenə orada.
507 Yenə orada.

"Biz bütün qonşu ölkələrlə səmimi dostluq əsasında münasibətlər qura bildik, qarşılıqlı hörmət, qarşılıqlı inam əsasında. Əgər biz bunu etməsəydik, bu gün münaqişə ətrafında tam başqa proseslər gedə bilərdi".[508]

Prezident İlham Əliyev torpaqların, o cümlədən Şuşa şəhərinin təcavüzkar Ermənistanın işğalı altına düşməsinin səbəbləri üzərində dayanaraq bildirdi:

"Şuşa işğal altına düşəndə bizim əsas problemlərimiz həm o idi ki, ordumuz yox idi, rəhbərlik öz vəzifə borcunu yerinə yetirə bilmirdi. Beynəlxalq müstəvidə Azərbaycan demək olar ki, bütün ölkələrlə münasibətləri gərginləşdirmişdi. Biz demək olar ki, təcrid edilmiş vəziyyətdə idik".[509]

Azərbaycan dövlətinin sistemli şəkildə yürütdüyü uğurlu xarici siyasət fəaliyyəti nəticəsində işğalçı Ermənistan dalana dirənmişdi. Mehriban Əliyevanın rəhbərliyi altında Bakıda keçirilən dinlərarası, sivilizasiyalararası dialoq forumları, İtaliya, Fransa və b. ölkələrdə kilsələrin təmiri Ermənistanın uydurma təbliğatını puça çıxarmışdı. Həyata keçirilən beynəlxalq layihələr Azərbaycanın mövqelərini möhkəmləndirmişdi. Prezident dedi:

"...biz Ermənistanı təcrid edilmiş vəziyyətə saldıq. Bizim transmilli layihələrimiz regionda tamamilə yeni mənzərə yaratdı. Biz regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdik.. Bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunu böyük dərəcədə gücləndirdi. Əgər bu nailiyyətlər olmasaydı, problem dondurulmuş vəziyyətdə qala bilərdi".[510]

Qələbənin qazanılmasının mühüm amillərindən biri güclü ordunun qurulması və müdafiə sənayesinin yaradılması olmuşdu. Heç də asan olmayan bu proseslərdən danışan dövlət başçısı vurğuladı:

"Nəhayət və ilk növbədə, ordu quruculuğu. Bu 17 il ərzində mənim işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək. O da asan məsələ deyildi. O silahları almaq üçün təkcə maddi vəsait kifayət etmir. Eyni zamanda, diplomatik, siyasi səylər göstərilməlidir və biz buna da nail olduq. Bu gün Azərbaycan öz hərbi təchizatını bir çox ölkələrdən təmin edir. Eyni zamanda, mənim təşəbbüsümlə Azərbaycanda müdafiə sənayesi yaradıldı. Biz ordumuzun tələbatını böyük dərəcədə daxili istehsal hesabına təmin edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir, o cümlədən ən müasir məhsullar... Ordu quruculuğu, hərbçilərin maddi-məişət problemlərinin həlli, təqaüdə çıxmış hərbçilərin məişət problemlərinin dövlət tərəfindən həll olunması, onlara mənzillərin verilməsi, hərbçilərimizin iş şəraitinin yaxşılaşdırılması. Biz demək olar ki, bütün hərbi şəhərciklərimizi, hərbi bazalarımızı yenidən qurduq və onlar ən yüksək standartlara cavab verir. Əlbəttə,

508 Yenə orada.
509 Yenə orada.
510 Yenə orada.

ilk növbədə, döyüş qabiliyyəti. Döyüş qabiliyyəti artdı... Döyüş qabiliyyətinin artırılması ordu quruculuğu sahəsində əsas amildir. Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik".[511]

Dağlardan, sıldırım qayalardan keçən və ağır texnikadan istifadə etməyən Azərbaycan əsgəri əlbəyaxa savaşda Şuşa şəhərini azad etmişdi. Döyüş meydanında Azərbaycan əsgəri qəhrəmanlıq göstərirdi. Bununla əlaqədar olaraq ölkə rəhbəri dedi:

"Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir".[512]

Münaqişənin həlli məsələsində Azərbaycan dövlətinin birmənalı mövqeyini Prezident belə ifadə etdi:

"...işğalçılara, deyirdik, düz yola gəlin, işğala son qoyun, hələ ki, gec deyil... Demişik ki, əgər məsələ sülh yolu ilə öz həllini tapmasa, hərbi yolla məsələni həll edəcəyik. Mən bunu dəfələrlə demişəm. Buna görə də tənqid olunmuşam bəzi ölkələr tərəfindən. Mən demişəm ki, bəs bizim torpaqlarımız məgər hərbi yolla zəbt edilməyibmi? Ermənistan bizim torpaqlarımızı sülh yolu iləmi zəbt edib? Hər bir ölkənin özünümüdafiə hüququ var. Bu hüququ bizə BMT Nizamnaməsi verir. Mən demişdim, əgər görsəm ki, danışıqlar artıq tamamilə səmərəsizdir, bizim başqa yolumuz qalmayacaq. Bunu hamı bilsin - düşmən, onun havadarları və bu məsələ ilə məşğul olan vasitəçilər. Həmişə sözümün üstündə durmuşam. Azərbaycan xalqına nə demişəmsə, onu da etmişəm. Bu məsələdə də sözümün üstündə durdum və artıq biz Qələbəni qeyd edirik".[513]

İşğal illərində düşmən hər yeri dağıtmış və xarabalığa çevirmişdi. Ölkə rəhbəri müharibənin gedişini və işğaldan azad edilmiş ərazilərdəki mövcud vəziyyət barədə dedi:

"Sentyabrın 27-dən bu günə qədər 200-dən çox şəhər, kənd, qəsəbə işğaldan azad edildi. O cümlədən Füzuli şəhəri, tamamilə darmadağın edilmiş, bir dənə də salamat bina qoymayıb mənfur düşmən. Cəbrayıl tamamilə dağıdılmış. Qubadlı, Zəngilan tamamilə dağıdılmış. Kəndlər, şəhərlər. Hadrut qəsəbəsi, Suqovuşan qəsəbəsi və bu gün Şuşa şəhəri".[514]

İşğalçı ölkə üzərində qələbə mənəvi ruh, güc və birlik hesabına qazanılmışdı. Azərbaycan ordusunun bundan sonrakı fəaliyyəti barədə danışan Prezident vurğuladı:

511 Yenə orada.
512 Yenə orada.
513 Yenə orada.
514 Yenə orada.

"Bizim zəfər yürüşümüz davam edir. Hələ də işğal altında torpaqlar var, hələ də döyüşlər gedir. Əgər Ermənistan rəhbərliyi mənim tələblərimə cavab verməsə, sona qədər gedəcəyik. Heç kim bizi dayandıra bilməz. Dünyada elə qüvvə yoxdur ki, bizi dayandıra bilsin. Ermənistan artıq öz acı məğlubiyyətini etiraf edib, özünü alçalda-alçalda, xalqını təhqir edə-edə. Ermənistan rəhbərliyi indi dünya ölkələrindən yardım istəyir, hərbi yardım istəyir, silah, texnika istəyir. Bəs, hanı sənin yenilməz ordun? Məhv etmişik onu. Onların bütün sözləri, onların bütün bəyanatları mif idi, yalan idi. Yenilməz ordu Azərbaycan Ordusudur! Bunu döyüş meydanında göstərir, düşməni torpaqlardan təkbaşına qovur. Otuz il ərzində milyardlarla dollar xərclənib oraya, istehkamlar qurulub, mühəndislik qurğuları inşa edilib. Amma hamısını vurub dağıtmışıq - mənəvi ruh, güc hesabına, birlik hesabına!

...İşğal edilmiş bütün torpaqlardan düşmən qüvvələri çıxarılmalıdır. Bu, bizim tələbimizdir. Beynəlxalq norma və prinsiplər, beynəlxalq təşkilatların qərar, qətnamələri bunu tələb edir".[515]

Vətən torpaqlarının işğalçılardan azad edilməsi uğrunda döyüşlərdə şəhid olan qəhrəmanların ruhu şad idi. Onları ehtiramla yad edən Prezident İlham Əliyev vurğuladı ki, şəhidlərin, erməni vəhşiliyinin, Xocalı qurbanlarının qanı yerdə qalmadı, intiqam döyüş meydanında alındı.

Dövlət başçısı İlham Əliyev atası Heydər Əliyevin ona etdiyi vəsiyyəti yerinə yetirdiyini millətə aşağıdakı kimi çatdırdı:

"Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".[516]

Qələbənin qazanılmasında millətin dövlət rəhbərinə böyük inam və etimadı mühüm rol oynamışdı. Gücünü millətdən alan Prezident müraciətinin sonunda vurğuladı:

"Bu günlərdə dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim... Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində - 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün

515 Yenə orada.
516 Yenə orada.

əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam.

Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir.

Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!
Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".[517]

Şuşa şəhərinin azad edilməsi böyük tarixi əhəmiyyət daşıyırdı. Şəhər dünya mədəniyyəti yaradan Azərbaycan milləti üçün təkcə ərazi, torpaq məsələsi deyil, xüsusi məna daşıyırdı. Hər şeydən əvvəl, Azərbaycan mədəniyyətinin beşiklərindən biri, dünyaya görkəmli mədəniyyət xadimləri bəxş etmiş Şuşa şəhərinin azad edilməsinin milli-mənəvi əhəmiyyəti var idi. 9 noyabr – Dövlət bayrağı günü ərəfəsində şəhərin azad edilməsi xüsusilə qürurverici idi.

Şuşanın işğaldan qurtarılmasının strateji və siyasi əhəmiyyəti vardır. Mühüm strateji mövqedə yerləşən Şuşa Qarabağın açarı və tacıdır. Şuşa kimdədirsə, Qarabağ da ondadır. Şuşanın azad edilməsi işğalçı ölkənin belinin qırılması, Azərbaycan qarşısında diz çökməsi oldu. Məğlub olaraq rəzil vəziyyətə düşən Ermənistan rəhbərliyi xilaskar axtarışında idi.

19.3. Türkiyə Cümhuriyyəti Azərbaycanın haqq işinin müdafiəsini davam etdirir

Şuşa şəhəri işğaldan azad edilən gün Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu və milli müdafiə naziri Hulusi Akar Bakıya səfər etdilər. Onları qəbul edən Prezident İlham Əliyev dedi:

"...bu gün xalqımız üçün çox əziz bir gündür, tarixi bir gündür. Bu gün Şuşa şəhərinin azad edilməsi günüdür. Belə bir gündə bizimlə bərabər olmağınız xüsusi önəm daşıyır. Bu, növbəti qardaşlıq nümunəsidir, növbəti qardaşlıq təzahürüdür. Hər zaman olduğu kimi, yaxşı günlərdə də, ağır günlərdə də biz bir yerdəyik".[518]

517 Yenə orada.
518 İlham Əliyev Türkiyənin xarici işlər və milli müdafiə nazirlərini qəbul edib. 08.11.2020 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. https:president.az/articles/45789.

Türkiyə dövlətinin Azərbaycanın haqq işinin, ədalətin və beynəlxalq hüququn yanında olduğunu yüksək qiymətləndirən ölkə rəhbəri vurğuladı:

"Qeyd edirdiniz ki, Türkiyə Azərbaycanın yanındadır. Əlbəttə ki, bu açıqlamalar, bu siyasi və mənəvi dəstək bu münaqişənin həlli üçün də önəmli rol oynamışdır".[519]

Şuşa şəhərinin işğalçılardan azad edilməsi münasibətilə Prezident İlham Əliyevi təbrik edən Mövlud Çavuşoğlu dedi:

"...bu gün xüsusilə çox məmnunuq. Çünki qəhrəman Azərbaycan Ordusu Ali Baş Komandan, Zati-alinizin rəhbərliyi ilə qədim Şuşa şəhərini işğalçı Ermənistandan geri alıb. Beləliklə, qəhrəman Azərbaycan Ordusunu, Ali Baş Komandan olaraq Sizi və bu çətin günlərdə, xüsusilə də Ermənistanın atdığı raketlərə baxmayaraq, ayaqda dayanan, Ali Baş Komandanının və onun qəhrəman ordusunun arxasında dayanan qardaş Azərbaycan xalqını cani-qəlbdən təbrik edirik".[520]

Noyabrın 9-da Prezident İlham Əliyev daha 23 kəndin – Füzuli rayonunun Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Xocalı rayonunun Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavəndin Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Cəbrayıl rayonunun Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlının Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilanın Keçikli, Ördəkli kəndlərinin işğalçılardan azad edilməsi barədə Twitter hesabında xəbər verdi.

Həmin gün axşam saatlarında Xocavənd rayonunun Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, Şəhər, Xocalı rayonunun Şuşakənd, Muxtar, Daşaltı, Füzuli rayonunun Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq, Zəngilan rayonunun Sobu, Qaragöz, İsgəndərbəyli kəndləri, Bartaz qəsəbəsi, Bartaz strateji yüksəkliyi (2300 metr), Sığırt yüksəkliyi (1370 metr), Şüküraraz yüksəkliyi (2000 metr) və əlavə 5 adsız strateji yüksəklik, Cəbrayıl rayonunun Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər, Qubadlının Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli, Laçının Güləbürd, Səfiyan, Türklər kəndlərinin işğalçılardan təmizləndiyi barədə məlumat verildi.

Hərbi əməliyyatların uğurla aparılması ilə yanaşı, diplomatik-siyasi və informasiya sahəsində də böyük fəaliyyət göstərilirdi. Həmin fəaliyyətin formalarından biri xarici ölkələrin kütləvi informasiya vasitələrinə verilən müsahibələr idi. Prezidentin noyabrın 6-da Böyük Britaniyanın "BBC Nyus" televiziya kanalına verdiyi müsahibə təsir gücü baxımından möhtəşəm idi. Kanal əməkdaşının

519 Yenə orada.
520 Yenə orada.

birtərəfli və qərəzli suallarını təkzibedilməz faktlarla və dərin məntiqlə cavablandıran Prezident İlham Əliyev dedi:

"Heç kim Paşinyandan nəyə görə Gəncəyə ballistik raketlərlə zərbə endirdiyini soruşmur. Nəyə görə o, 92 nəfəri qətlə yetirib? Nəyə görə o, Tərtərdə dəfn mərasiminə hücum edib? Nəyə görə onlar 21 insanı qətlə yetirərək və 70 nəfəri yaralayaraq Bərdəyə hücum etmək üçün kassetli bombalarla "Smerç"dən istifadə ediblər? Heç kim ondan soruşmur. Heç kim ondan silahları haradan əldə etdiyini soruşmur? Yalnız bizə hücum edirlər. Beynəlxalq media yalnız Azərbaycanı ləkələyir" .[521]

Bəzi beynəlxalq qeyri-hökumət təşkilatlarının işğalçı Ermənistanı müdafiə etməsinə toxunan dövlət başçısı vurğuladı:

"Human Rights Watch" təşkilatı Azərbaycana qarşı çox qərəzli mövqeyinə, hətta jurnalistlərin həbsxanalarda öldüyü zaman, hətta əsas müxalifət partiyasının rəhbəri həbsxanada olduqda belə Ermənistanda heç bir yanlışlıq görmədiyinə görə bunlar barədə heç bir məlumat vermir. Onlar yalnız bizə qarşı məlumat verirlər. Buna görə də biz "Human Rights Watch" təşkilatı ilə əməkdaşlığı beş-altı il bundan əvvəl dayandırdıq. Yalnız indi bu müharibə başlayanda biz onları bura gəlməyə və öz gözləri ilə görməyə dəvət etdik. Biz onların bu halları təsdiqləməsini istəyirdik, çünki onlar üçün "yox" demək imkanı yox idi. Buna görə biz onları dəvət etdik. ...bu təşkilata Azərbaycanda etimad yoxdur".[522]

Dövlət başçısının müsahibəsi beynəlxalq qeyri-hökumət təşkilatlarının qərəzli mövqeyi, Ermənistanın işğalçılıq siyasətinin mahiyyəti və Azərbaycanın apardığı müharibənin məqsədləri haqqında həqiqətlərin dünyaya çatdırılması baxımından əhəmiyyətli idi. Heç şübhəsiz, bundan əvvəlkilər kimi bu müsahibə də gerçəkləri olduğu şəkildə əks etdirdiyindən xarici dövlətlərin siyasətinə təsir edirdi.

Bu zaman Azərbaycan qarşısında diz çökən və məhv olmaq təhlükəsi qarşısında dayanan Ermənistan imdad diləyirdi.

19.4. Hərbi əməliyyatların başa çatması. Azərbaycan – Ermənistan – Rusiya üçtərəfli bəyanatı

Noyabrın 10-da Ermənistan ərazisindən Azərbaycana qarşı növbəti təxribat törədildi. Hansı səbəblərdənsə Naxçıvan Muxtar Respublikasının sərhədlərinə yaxın ərazilərdə alçaqdan uçuş həyata keçirən Rusiyanın Ermənistandakı hər-

521 Prezident İlham Əliyev "BBC News"a müsahibə verib. 09.11.2020 // Azərtac. URL: https:azertag.az/xeber/Prezident_Ilham_Aliyev_BBC_Newsa_musahibe_verib_VIDEO-1637413.
522 Yenə orada.

bi bazasına aid olan helikopter mümkün ola biləcək təxribatın qarşısını almaq məqsədi ilə Azərbaycanın Hava Hücumundan müdafiə qüvvələri tərəfindən vuruldu. Yalnız vurulduqdan sonra onun Rusiyaya məxsus olduğu bilindi.

Həmin gün Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Rusiya Federasiyasının müdafiə naziri ordu generalı Sergey Şoyquya başsağlığı verdi. Başsağlığında Azərbaycan-Ermənistan dövlət sərhədinin bilavasitə yaxınlığında, əvvəllər Rusiya Federasiyası Hava Kosmik Qüvvələrinə məxsus helikopterin müşahidə olunmadığı ərazidə, sutkanın qaranlıq vaxtı, aşağı hündürlükdə, hava hücumundan müdafiə radarlarının müşahidə sektorundan kənar, münaqişə zonasında aktiv döyüş əməliyyatları keçirilən bir vaxtda uçuş həyata keçirən Mi-24 helikopteri ilə baş vermiş faciəvi hadisənin təsadüfi xarakter daşıdığı və Rusiyaya qarşı yönəlmədiyi bildirilirdi.

Qeyd etmək lazımdır ki, Rusiyanın Ermənistandakı hərbi bazasında xidmət edən çoxsaylı ermənilər Azərbaycan – Rusiya münasibətlərini pozmaqdan ötrü daim müxtəlif üsullardan istifadə edirdilər. Bu dəfəki iyrənc təxribat da boşa çıxdı. Onu törədənlər iki ölkə arasında münasibətləri poza bilmədilər.

Ermənistanın darmadağın olduğunu görən baş nazir Nikol Paşinyan Prezident İlham Əliyevin şərtini qəbul etməyə məcbur oldu. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin videokonfrans formatında görüşdülər. Görüşün nəticəsində müharibənin dayandırılması və Azərbaycanın qələbəsini rəsmiləşdirən Rusiya, Azərbaycan və Ermənistan üçtərəfli bəyanatı qəbul edildi. Bəyanatda yazılırdı:

"Biz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin aşağıdakıları bəyan edirik:

1. 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikası və Ermənistan Respublikası hazırda tutduqları mövqelərdə qalacaqlar.

2. 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.

3. Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir.

4. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı

kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı Tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır.

5. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə ataşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır.

6. Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi 5 kilometr enliyində Rusiya sülhməramlı kontingentinin nəzarəti altına verilir. Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.

7. Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının ofisinin nəzarəti altında geri qayıdır.

8. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.

9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir, Ermənistan Respublikası vətəndaşlarının nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verilir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat-kommunikasiyalarının inşası təmin ediləcək.

Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri, Rusiya Federasiyasının Prezidenti".[523]

İmzalanma mərasimindən sonra Prezident İlham Əliyev xalqa müraciət edərək bəyanatın mətni ilə tanış etdi. 10 noyabrın Azərbaycan üçün tarixi bir gün olduğunu bildirən dövlət başçısı vurğuladı ki, münaqişəyə son qoyulur, imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır. Sənədi üç ölkənin başçısı bu videokonfrans vasitəsilə imzalamalı idilər.

523 İlham Əliyev xalqa müraciət edib. 10.11.2020 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/45924/print.

Ancaq son anda Ermənistanın baş naziri bundan imtina etmişdi. Bu da başadüşülən idi. Çünki faktiki olaraq bu bəyanat Ermənistanın hərbi kapitulyasiyası demək idi. Prezident dedi:

"...Ermənistan baş naziri Paşinyanın bu hərəkəti başadüşüləndir. Halbuki hesab edirəm ki, hər bir insan öz əməllərinə görə cavab verməlidir. Hər bir insan hətta onun üçün, ölkəsi üçün ən ağır, ən kritik vəziyyətdə özünə hörmət saxlamalıdır. Onsuz da Paşinyan bunu imzalayacaq. Biz onu məcbur etdik. Ancaq onu hansısa bağlı bir yerdə, qapalı bir yerdə, kameralardan uzaq bir yerdə qorxaqcasına, namərdcəsinə imzalayacaq. Öz xoşu ilə bunu imzalamır. Bunun - dəmir yumruğun hesabına imzalayır!".[524]

Bəyanatı Azərbaycanın böyük qələbəsi kimi qiymətləndirən dövlət başçısı vurğuladı:

"Bu bəyanat bizim şanlı qələbəmizdir. Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm. Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəblərindən biri də dünən qeyd etdiyimiz parlaq qələbəmizdir, tarixi qələbəmizdir, Şuşanın işğaldan azad edilməsidir, Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq və işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq, insanlarımızın 30 illik həsrətinə son qoyulur".[525]

Bəyanatın imzalanması səbəblərindən danışan Prezident aşağıdakı məsələlərə diqqəti cəlb etdi:

"Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəbi noyabrın 9-da – Dövlət Bayrağı Günündə bizim növbəti şanlı hərbi qələbəmiz olub. Çünki noyabrın 9-da 72 yaşayış məntəqəsini Azərbaycan Ordusu işğalçılardan azad edib. Şuşanın azad edilməsi, noyabrın 9-da 72 yaşayış məntəqəsinin azad edilməsi və sentyabrın 27-dən bu günə qədər 300-ə yaxın yaşayış məntəqəsinin azad edilməsi ilə Ermənistan ordusunun belini qırmışıq. Paşinyan məcbur olub bu bəyanata öz imzasını atır. Amma çox miskin, çox acınacaqlı durumda. Mən isə böyük fəxarət və sevinc hissi ilə bu bəyanata öz imzamı atmışam. Çünki bu bəyanat uzun illər davam edən işğala son qoyur. Bu bəyanat imkan verir ki, hələ də işğal altında olan digər rayonlarımızı - Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən qaytaraq. Qısa bir müddət qoyulur, bu ayın sonuna qədər bu rayonlar bizə qaytarılır".[526]

Döyüşsüz azad edilməsi nəzərdə tutulan Ağdam, Laçın və Kəlbəcər rayonlarının sakinlərini təbrik edən və məcburi köçkünlərə dövlət qayğısından danışan ölkə rəhbəri vurğuladı:

524 Yenə orda.
525 Yenə orada.
526 Yenə orada.

"Mən fürsətdən istifadə edərək, Ağdam, Laçın, Kəlbəcər rayonlarının sakinlərini, bütün Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Hər dəfə işğal altında olan hansısa rayon, şəhər işğaldan azad ediləndə mən o şəhər və rayonların sakinlərini təbrik edirdim, təsəvvür edirəm ki, onların həyatında bu nə deməkdir. Onların bəziləri, bəlkə də bir çoxları görəndə ki, uzun illər ərzində məsələ öz həllini tapmır artıq ümidlərini itirmişdilər. Mən son 17 il ərzində köçkünlərlə çoxsaylı görüşlərimdə, onlar üçün yeni evlərin təqdimat mərasimlərində görürdüm ki, ildən-ilə onların ümidləri azalır... Görürdüm ki, artıq onların bəziləri ümidlərini itirib... Amma onların əsas arzusu doğma torpaqlara qayıtmaqdır və məndən xahiş edirdilər, cənab Prezident, qaytar bizi. Mən də hər dəfə onlarla görüşəndə həm onlarda güclü iradə görürdüm, yenilməzlik görürdüm, dövlətə sədaqət görürdüm, eyni zamanda, onların gözlərində nisgil, həsrət görürdüm. Buna son qoyulub... biz qayıdırıq, Azərbaycan qayıdır! Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir. Bundan da böyük xoşbəxtlik ola bilərmi!".[527]

Düşmənin işğal etdiyi ərazilərdə hər şeyin dağıdıldığına diqqəti cəlb edən Prezident dedi ki, məcburi köçkünlərin dədə-baba torpaqlarına qayıtması üçün hər şey ediləcək, işğaldan azad edilmiş torpaqlar yenidən qurulacaqdır. Bütün dünya düşmənin bu torpaqları hansı vəziyyətə saldığını, binaları, tarixi abidələri, məscidləri dağıtdığını, təhqir etdiyini, muzeyləri talan etdiyini və təbiətə böyük ziyan vurduğunu görürdü.

Xocalı qurbanlarının və şəhidlərin qanının yerdə qalmadığını və qisaslarının alındığını dövlət başçısı belə ifadə etdi:

"Xocalı qurbanlarının da qisasını aldıq, şəhidlərimizin də qisasını aldıq. ...şəhidlərin ruhu qarşısında baş əyirəm. Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torpaqlarımıza qayıdırıq".[528]

Yaralı hərbçilərin tezliklə sağalıb normal həyata dönmələri üçün dövlət hər şeyi edirdi. Bununla əlaqədar olaraq ölkə rəhbəri dedi:

"Hətta ən ağır vəziyyətdə olan yaralı əsgərimiz, zabitimiz bilməlidir, əlimizdən gələni edəcəyik ki, onu normal həyata qaytaraq. Biz bu Qələbəyə görə onlara borcluyuq. Onlar torpağımızı işğalçılardan qarış-qarış azad edib, onlar bizim bayrağımızı işğal edilmiş və işğaldan azad edilmiş torpaqlarda qaldırıb, bayrağımızı orada dalğalandırıb".[529]

Müharibənin yekunu bütün millətin və dövlətin qələbəsi idi. Azərbaycan xalqı böyük, vətənpərvər, dəmir iradəyə malik olan xalq olduğunu bir daha

527 Yenə orada.
528 Yenə orada.
529 Yenə orada.

göstərdi. 30 ilin əzab-əziyyəti və ümidsizliyi, xalqı sındıra, iradəsinə mənfi təsir edə bilməmiş, əksinə, o, daha da bütövləşdirmiş, mətinləşmiş və güclənmişdi. Dövlət başçısı dedi:

"...özümüzü toparladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik. Dedik ki, düşməni torpaqlarımızdan qovacağıq!... Dedik yetər artıq, bu əsarət yetər! Bizim şəhərlərimiz əsarət altında nə qədər qalacaq?! Mənfur düşmən bizim təbiətimizi nə qədər murdarlayacaq, bizim torpağımızda gəzəcək, yeyəcək, içəcək, rəqs edəcək, bizi təhqir edəcək. Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq da!".[530]

Müharibənin başlanmasına gətirən səbəblərdən danışan dövlət başçısı bunun tarixçilərin araşdırma mövzusu olacağını deyərək əlavə etdi:

"Artıq Azərbaycan xalqının səbri tükənmişdi və mən Ermənistan Baş nazirinə son görüşlərdə demişdim ki, siz odla oynamayın, Azərbaycan xalqının səbri ilə oynamayın. Siz Azərbaycan xalqını tanımırsınız, siz tanıyacaqsınız bizi, amma gec olacaq. Düz yola gəlin, çıxın bu torpaqlardan, bu torpaqlar sizə mənsub deyil. Amma nə etdilər? Orada qanunsuz məskunlaşma aparmaq üçün beynəlxalq hüququ, beynəlxalq konvensiyaları, o cümlədən Cenevrə konvensiyalarını kobudcasına pozaraq nümayişkaranə şəkildə xaricdən ermənilər gətirib özü də məhz Şuşaya ki, bizi incitsin. Məhz Şuşada o dəstə başçısı hansı ki, indi deşik axtarır gizlənməyə, xunta başçısı özünə andiçmə mərasimi keçirmişdir və Ermənistan baş naziri gedib orada iştirak edib. Bu, bizə sataşmaq deyildimi? Bunun hesabını sizdən soruşan olmayacaqdımı?! Hesabını soruşduq, diz çökdürdük, diz üstə qoyduq!".[531]

Hərbi əməliyyatların gedişində məğlub olan Ermənistan baş naziri rəzil vəziyyətə düşmüşdü. Onun hərəkətlərinə diqqəti cəlb edən Prezident dedi:

"Onun-bunun ətəyindən yapışıb bu 40 gündən çox bir müddətdə adam qalmayıb ki, zəhləsini tökməsin, yardım istəməsin, özünü alçaltmasın. Biz alçaltmışıq onu, əcəb də etmişik. Bizim üçün müqəddəs olan Şuşa şəhərinin Cıdır düzündə sərxoş vəziyyətdə rəqs edəndə fikirləşəydi ki, bu gün gələcək, cəzasını alacaq, siçan kimi gizlənib bax bu sənədi götürüb ağlaya-ağlaya imzalayacaq. Yerini göstərdik, dərsini verdik. Qovmuşuq onları torpaqlarımızdan, iti qovan kimi qovmuşuq... Qorxularından indi bu sənədə imza atır, bilir ki, biz Ağdama da, Kəlbəcərə də, Laçına da gələcəyik. Heç kim bizi saxlaya bilməz".[532]

Dövlət başçısı bildirdi ki, işğalçı ölkənin demək olar bütün texnikası məhv edilmişdir. Azərbaycan əsgərləri işğalın davam etdiyi 30 il ərzində qurulmuş istehkamları, düşməni aslan kimi əzib keçmişdilər. Azərbaycan beynəlxalq hüquqa riayət etmiş və mülki şəxslərdən intiqam almamışdı. Ermənistan isə

530 Yenə orada.
531 Yenə orada.
532 Yenə orada.

dinc əhalini hədəf almışdı. Döyüş meydanında məğlub olan işğalçı ölkənin mülki əhaliyə qarşı törətdiyi hərbi cinayətlərə də diqqəti yönəldən Prezident dedi:

"Onlar döyüş meydanında duruş gətirə bilmədilər, qaçdılar, ondan sonra ballistik raketlərlə mülki vətəndaşlara atəş açdılar. Bu, hərbi cinayətdir. Onlar bu hərbi cinayətə görə cavab verəcəklər. Gəncə şəhərini Ermənistandan ballistik raketlərlə vurmaq alçaqlıqdır, alçaq hərəkətdir, cinayətdir. Bərdəni kasetli bombalarla atəşə tutmaq hərbi cinayətdir. Mən demişəm Tərtər şəhəri, İkinci Dünya müharibəsi dövründə dağılmış Stalinqrad şəhərinə bənzəyir. Gündə, - özü də böyük şəhər deyil, - yüzlərlə mərmi düşürdü, amma bir nəfər də tərpənmədi. Amma ermənilər qaçıb getdilər. Onların "yenilməz" ordusu məhv oldu, fərarilik başladı, xunta başçısı Dağlıq Qarabağda əmr verdi ki, kim oradan qaçacaq, o, məsuliyyətə cəlb olunacaq". [533]

Döyüş ruhu yüksək olan Azərbaycan Ordusunda bir nəfər də fərari olmamışdı. Evi dağılan, malı batan, yaxın insanını itirən azərbaycanlılar dövlət başçısına məktublar yazaraq "Vətən sağ olsun!", "Ancaq irəli, irəli!" deyərək, dəstək vermişdilər. Millət Ali Baş Komandanın ətrafında sıx birləşmişdi.

Tarixən müharibələr hər bir millətin və dövlətin taleyində ağır olsa da, azərbaycanlılar böyük sevinclə, şövqlə, mahnılar oxuyaraq, sanki toy-bayrama gedirmiş kimi Vətən topaqlarının azad edilməsi uğrunda döyüşlərə mərdliklə atılmışdılar. Bu, qəhrəman Azərbaycan millətinin və dövlətinin tarixində qürurverci səhifə idi.

Hərbi əməliyyatların aparıldığı günlərdə çoxsaylı müsahibələr verən Azərbaycan rəhbəri bildirdi:

"...30-a yaxın müsahibə vermişəm və o müsahibələrdə demişəm ki, biz beynəlxalq hüquqa hörmətlə yanaşırıq, biz beynəlxalq hüququ müdafiə edirik, biz ədaləti müdafiə edirik, biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik. Demişdim ki, bizim bütün addımlarımız beynəlxalq hüququn norma və prinsipləri əsasında, əxlaq əsasında görülüb və bütün addımlarımız bu istiqamətdə atılıb. İntiqamımızı düşməndən aldıq, işğalçıdan aldıq. Mülki vətəndaşlarla bizim işimiz olmayıb və olmayacaq. ...biz mülki obyektlərə atəş açmamışıq. Bax, bizim fərqimiz bundan ibarətdir".[534]

Münaqişənin həlli yollarından danışan dövlət başçısı bir çoxlarının hərb amilini istisna etdiyini, bu məsələ ilə məşğul olan siyasətçilərin hamısının hərbi həlli olmadığı barədə fikirləri ilə əlaqədar olaraq dedi:

" Mən nə deyirdim? Deyirdim ki, var! Məni tənqid edirdilər ki, İlham Əliyev nə danışır? Yoxdur hərbi həlli. Dedim yaxşı yoxdursa, onda bunu sülh yolu ilə həll

533 Yenə orada.
534 Yenə orada.

edin. Sizin əlinizdə bu imkanlar var. Siz böyük dövlətlərsiniz, böyük nüfuzunuz var, böyük imkanlarınız var. Nədir ki, sizin qabağınızda Ermənistan, nədir ki, ona təsir edə bilmirsiniz? Bəlkə təsir etmək istəmirsiniz? Yox, deyirdilər ki, olmaz müharibə aparmaq, sülh yolu ilə. Sülh yolu ilə 1 il, 2 il, daha 30 il sülh yolu ilə?... Amma biz sübut etdik ki hərbi həlli var".[535]

Azərbaycan torpaqlarını işğal edəndə Ermənistana "dayan", 30 il əsarət altında saxlayanda "buradan çıx get!" söyləməyənlər Azərbaycan torpaqlarını öz gücü ilə, şəhid verə-verə, qan tökə-tökə azad edəndə deyirdilər ki, "dayanın". Belə səhv mövqeni darmadağın edən dövlət başçısı qətiyyətlə söylədi:

"Bizə deyir dayan. Dedim dayanmayacağam mən. Heç kim məni dayandıra bilməz və dedim tələb edirəm səndən Paşinyan, şəxsən özün, sənin xarici işlər nazirin, nə bilim o biri, bu biri yox, şəxsən özün öhdəlik götürməlisən, tarix verməlisən nə vaxt rədd olursan bizim torpaqlarımızdan. Bax bu bəyanatda o öhdəlik var. Məcbur edirik onu, məcbur etdik, zorla məcbur etdik, başına vura-vura məcbur etdik, bütün bəd əməllərinə görə, o donuzları bizim məscidlərimizdə saxladığına görə. Bizim məscidlərimizdə donuz saxlayan özü donuzdur. İndi bu sənəddə öhdəlik var. Dekabrın 1-nə qədər rədd olacaq qalan işğal edilmiş torpaqlardan. Ona görə məsələnin hərbi yolu var. Amma mən deyirdim, istəyirəm ki, bu hərbi mərhələ də dayansın, keçək siyasi mərhələyə. Nə oldu? Mən deyən oldu. Bax, bu gün mən deyən oldu".[536]

Hərbi mərhələnin başa çatdığını, siyasi mərhələnin başlandığını və Azərbaycana maksimum sərf edən sənədin imzalandığını deyən Prezident vurğuladı:

"Paşinyan onu imzaladı. Başqa yolu yox idi... Bu, hərbi kapitulyasiyadır. Prinsip etibarilə mən tələb edə bilərdim ki, gəlsin otursun orada, aşağıda, bax orada imzalasın onu. Amma mən belə adam deyiləm. Mən nə üçün kimisə alçaldım. O onsuz da özünü alçaldıb. Bu rəzil duruma özü-özünü salıb... Heç kim bizimlə zarafat edə bilməz. Heç kim Azərbaycan xalqının səbri ilə oynaya bilməz. Heç kim bizi təhqir edə bilməz. Edərsən, dərsini alarsan. Necə ki, dərsini vermişik".[537]

İmzasına həmişə hörmətlə yanaşdığını deyən Prezident bildirdi ki, əgər Ermənistan atəşkəsə əməl etsə, Azərbaycan da dayanacaqdır. Əlavə etdi ki, döyüş meydanında qələbəni qazanan Azərbaycan ordusu 300-ə yaxın yaşayış məntəqəsini, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarını, Şuşa şəhərini, Hadrud, Suqovuşan və digər qəsəbələri işğaldan qurtarmışdır. Bu qələbələr Ağdam, Laçın və Kəlbəcər rayonlarının siyasi yollarla boşaldılmasını təmin edirdi.

535 Yenə orada.
536 Yenə orada.
537 Yenə orada.

Hərbi əməliyyatlar dayandırılandan sonra yaranmış şəraitə nəzarət etmək üçün sülhməramlı mərkəzin yaradılması məsələsinə aydınlıq gətirən dövlət başçısı bildirdi ki, orada Rusiya və Türkiyə hərbçiləri fəaliyyət göstərəcək, beləliklə, Türkiyə rəsmi qaydada bu münaqişənin həlli və atəşkəsə nəzarət etmək işində rol oynayacaqdır. Belə birgə fəaliyyət eyni zamanda bölgədə gələcək əməkdaşlıq formatını da müəyyən edirdi. Çünki həm Türkiyə, həm də Rusiya Azərbaycan üçün qardaş və dost ölkələrdir.

İmzalanan bəyanatın ən mühüm maddələrindən biri Prezident İlham Əliyevin təkidi ilə sənədə daxil edilən Naxçıvan Muxtar Respublikasının Azərbaycanın digər hissəsi ilə əlaqəsinin qurulmasının təsbit edilməsi idi. Ona əsasən bütün kommunikasiyaların, yolların açılması, eyni zamanda, yeni nəqliyyat-kommunikasiya infrastrukturunun yaradılması nəzərdə tutulurdu. Bu isə uzun illər boyu Ermənistan tərəfindən yolları bağlanan Naxçıvanın blokadadan çıxarılması demək idi.

İkinci Qarabağ müharibəsində Naxçıvandan Ağstafaya, Qusardan Astaraya qədər Azərbaycanın bütün şəhər, rayon, qəsəbə və kəndlərinin əhalisi qəhrəmanlıq göstərmişdi. Döyüşlərdə Naxçıvan igidlərinin rolundan bəhs edən Prezident dedi:

"...naxçıvanlılar da ikinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər. İndi müharibə başa çatır, bu günə qədər açıqlanmayan bəzi məsələlər də üzə çıxacaq və hər kəs biləcək ki, başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər".[538]

Müharibədə ölkədə yaşayan bütün etnik qrupların və dini konfessiyaların orduya dəstək verdiyini dövlət başçısı belə ifadə etdi:

"Bu günlərdə biz Azərbaycan xalqının birliyini gördük. Bütün bölgələrdən ordumuza dəstək gəldi. Bütün bölgələrdə hər bir vətəndaş böyük həyəcan hissi ilə bu günləri yaşayıb, hər gün televiziya önündə, radio qarşısında, internetdə cəbhədən gələn xəbərləri izləyib, uğurlarımıza sevinib. Bütün bölgələrdə biz bunu gördük. Bir daha gördük ki, ölkəmiz və xalqımız nə qədər gözəl ölkədir və gözəl xalqdır. Ölkəmizdə yaşayan bütün millətlərin nümayəndələri, bütün dini konfessiyaların nümayəndələri cəsarət göstərərək, düşmənlə vuruşaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etdilər. Bu, bizim böyük sərvətimizdir, böyük dəyərimizdir".[539]

Monoetnik dövlət olan Ermənistan isə bu xoşbəxtlikdən məhrum idi. Avrasiyada başqa belə bir ölkə tapmaq mümkün deyildi. Digər bir millətin nümayəndəsi Ermənistanda yaşaya bilmirdi. Ya onları qovur, azərbaycanlılar

538 Yenə orada.
539 Yenə orada.

kimi etnik təmizləməyə məruz qoyur, ya da sıxışdırırdılar. Ermənistanda antisemitizm hökm sürürdü. Azərbaycan isə etnik köklərindən asılı olmayaraq bütün vətəndaşların qardaşcasına birlikdə yaşadığı və dini konfessiyaların bərabər fəaliyyət göstərdiyi model ölkə idi. Dövlət başçısı bu baxımdan Azərbaycanın üstünlüyü barədə dedi:

"...bizim üstünlüyümüz bax, bundadır, çoxmillətli, çoxkonfessiyalı Azərbaycan bu müharibədə də özünü göstərdi, bütün xalqların nümayəndələri birlik göstərdilər, qəhrəmanlıq göstərdilər. Bir daha demək istəyirəm ki, bu müharibə bir çox məsələlərə bir daha aydınlıq gətirmişdir".[540]

Dağlıq Qarabağ regionunun statusu məsələsinə toxunan dövlət başçısı imzalanan bəyanatda bu barədə bir kəlmə də olmadığını belə ifadə etdi:

"Bəs hanı Ermənistan tərəfinin tələbləri ki, Dağlıq Qarabağa müstəqillik verilməlidir? Mən onlara muxtariyyət təklif edəndə buna razı olmadılar, dedilər ki, yox, bu, "müstəqil dövlətdir". Bunlar uzun illərdir "müstəqil dövlət" kimi yaşayır və onlar Azərbaycandan müstəqillik almalıdırlar. Bir kəlmə də yoxdur, Paşinyan. Nə oldu bəs?... Rəqs edirdin, nə oldu bəs status? Cəhənnəmə getdi status, gora getdi status, gorbagor oldu status, yoxdur status və olmayacaq. Nə qədər ki, mən Prezidentəm, olmayacaq".[541]

İmzalanan sənəd böyük əhəmiyyət daşıyırdı. Bununla bağlı olaraq dövlət başçısı bildirdi:

"...bu sənədin çox böyük mənası var. Əminəm ki, Azərbaycan xalqı bu sənədə böyük diqqət göstərərək onu dəqiq, böyük diqqətlə oxuyacaq və görəcək ki, biz nə qədər böyük siyasi qələbə qazanmışıq. Bu siyasi qələbənin qazanılmasında hərbi qələbəmiz müstəsna rol oynayır. Əlbəttə ki, son illər ərzində ölkəmizdə aparılan işlər, mövcud olan gözəl ab-hava, xalq-iqtidar birliyi, siyasi münasibətlərin müsbət səviyyəyə qalxması, beynəlxalq nüfuzumuz, beynəlxalq arenadakı fəaliyyətimiz - bütün bunlar, ordu quruculuğu təbii ki, bu qələbəmizi şərtləndirdi".[542]

Dövlət başçısı fərqli siyasi baxışlara malik olan, hakimiyyətin işinə tənqidi yanaşan, bir çox hallarda əsassız tənqidlər edən insanların müharibə günlərində yüksək şüur nümunəsi göstərdiyini qeyd edərək dedi:

"Mən həmişə deyirdim ki, siyasi müstəvidə fərqli baxışlar var, olmalıdır, bu, normaldır. Müxalifət olmalıdır, bu, normaldır. Hər bir demokratik ölkədə olduğu kimi, bizdə də əlbəttə ki, bütün bu azadlıqlar var. Amma bir şey olmamalıdır – dövlətə müxalifətdə olmaq olmaz, dövlətçiliyə müxalifətdə olmaq olmaz. "İqtidara, dövlətə nə qədər pisdir, mənim üçün bir o qədər yaxşıdır" fikri ilə yaşamaq olmaz. Mən deyə bilərəm, bu günlər ərzində mən gördüm ki, milli məsələlərdə biz hamımız bir-

540 Yenə orada.
541 Yenə orada.
542 Yenə orada.

ləşə bilirik. Bu da bizim gələcəyimiz üçün çox önəmlidir. Çünki biz hamımız istəyirik ki, Azərbaycan inkişaf etsin, hamımız istəyirik ki, daha güclü ölkə olsun…".[543]

Müharibənin bütün dünyaya Azərbaycan xalqının böyüklüyünü göstərdiyini Prezident qürurla belə ifadə etdi:

"… yenilməz xalq, dəmir iradəli xalq, müzəffər xalq, müzəffər ordumuz!".[544]

Müraciətinin sonunda ölkə rəhbəri bildirdi:

"Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!

"Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq bizim qələbəmizin rəmzi idi, rəmzinə çevrildi. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi... Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".[545]

19.5. Azərbaycanın qələbəsinin təbrik edilməsi

Hərbi əməliyyatlar zamanı olduğu kimi, üçtərəfli bəyanat imzalandıqdan sonra da Türkiyə dövləti Azərbaycanın haqq işinin yanında olduğunu bir daha göstərdi. Noyabrın 10-da prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasında olan telefon danışığında dövlət başçıları müharibədə Azərbaycanın qazandığı parlaq qələbə münasibətilə bir-birini təbrik etdilər. Prezident İlham Əliyev müharibə dövründə Türkiyə Prezidentinin və türk millətinin Azərbaycana göstərdiyi mənəvi-siyasi dəstəyə görə minnətdarlığını bildirdi. Dövlət başçıları atəşkəsə nəzarət mərkəzinin yaradılmasına dair fikir mübadiləsi etdilər.

Həmin gün Prezident İlham Əliyev Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunu, milli müdafiə naziri Hulusi Akarı və Milli Kəşfiyyat İdarəsinin rəisi Hakan Fidanı[546] qəbul edərkən dedi:

"...Qələbədən sonra ilk görüşümdür, təbii ki, qardaşlarımla görüşdür...Bütün bu 44 gün ərzində qardaş Türkiyənin dəstəyini biz hər an hiss edirdik, bütün Azərbaycan xalqı hiss edirdi. Dünən artıq bəyanatın imzalanmasından sonra Türkiyə televiziyalarında müşahidə olunan mənzərə çox ürəkaçan idi. Yəni, bizim türk qardaşlarımız bu Qələbəyə öz qələbələri kimi sevinirdilər...Bu, bizim müştərək

543 Yenə orada.
544 Yenə orada.
545 Yenə orada.
546 Hakan Fidan (1968) – Türkiyə Cümhuriyyəti Milli Kəşfiyyat İdarəsinin rəisi (2010-cu ildən).

qələbəmizdir, Türkiyə-Azərbaycan birliyinin təsdiqidir. Bu gün bu birlik tarixdə bəlkə də ən yüksək səviyyədədir".[547]

Azərbaycan hər zaman Türkiyə və Rusiyanın münaqişənin həllində bərabər səviyyədə rol almasını istəmişdi. Bu məqsədə nail olunmuşdu.

Ölkə rəhbərini qələbə münasibətilə təbrik edən xarici işlər naziri Mövlud Çavuşoğlu dedi:

" Ali Baş Komandan olaraq, Sizin rəhbərliyinizlə qəhrəman Azərbaycan Ordusu nə edə bildiyini dosta, düşmənə nümayiş etdirdi, eyni zamanda, türkün gücünü də göstərdi".[548]

Qələbənin qazanılmasında Prezident İlham Əliyevin diplomatik-siyasi fəaliyyəti və yüksək hərbi sərkərdəlik məharəti müstəsna rol oynamışdı. Bununla əlaqədar olaraq Mövlud Çavuşoğlu bildirdi:

"Bu prosesdə Sizin rəhbərliyinizlə qardaş Azərbaycan həm döyüş meydanında, həm də masada mövcudluğunu da göstərdi. Döyüş meydanında qələbələrinizə baxmayaraq, sülh yolu ilə, atəşkəs yolu ilə də bu münaqişənin həlli üçün böyük bir liderlik göstərdiniz...Döyüş meydanındakı qələbələrlə yanaşı, Azərbaycanın digər torpaqları qısamüddətli bir təqvimlə yenidən, inşallah, Can Azərbaycana qaytarılacaq".[549]

Azərbaycan həm döyüş meydanında, həm diplomatik-siyasi, həm də informasiya sahəsində böyük uğur qazanmışdı. Bundan qürur duyduqlarını Mövlud Çavuşoğlu belə ifadə etdi:

"Türkiyə olaraq hər zaman dedik ki, başda hörmətli Prezidentimiz olmaqla, həm döyüş meydanında, həm də masada Can Azərbaycanın yanındayıq".[550]

Həmin gün Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində müdafiə nazirləri Zakir Həsənov və Hulusi Akar arasında keçirilən görüşdə ikitərəfli hərbi əməkdaşlıq məsələləri müzakirə olundu.

Səfər bir daha göstərdi ki, Türkiyə dövlətinin Azərbaycanın haqq işini müdafiə etməsi təkcə qardaşlıq bağlarından deyil, eyni zamanda beynəlxalq hüquq normalarına dərin hörmətindən irəli gəlir. Bu, həm də türk xalqının, dövlətinin və rəhbərlərinin ədalət hissinin göstəricisi idi.

547 İlham Əliyev Türkiyənin xarici işlər, milli müdafiə nazirlərini və Milli Kəşfiyyat İdarəsinin rəisini qəbul edib. 10.11.2020 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/46077.

548 Yenə orada.

549 Yenə orda.

550 Yenə orada.

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, Azərbaycan Ordusu uğurlu döyüş əməliyyatlarını davam etdirmiş və işğal altında olan torpaqları bir-birinin ardınca azad etmişdir. Hərb meydanı ilə yanaşı diplomatik-siyasi sahədə də geniş fəaliyyət göstərilmişdir. Noyabrın 1-də Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu və milli müdafiə naziri Hulusi Akar Bakıya səfər edərək Azərbaycanın haqq işinin dəstəkləndiyini bir daha bəyan etmişlər. Səfər və keçirilən danışıqlar qardaşlığın növbəti nümunəsi olmuşdur.

Azərbaycan Ordusu ağır silahlardan istifadə etmədən, əlbəyaxa döyüşlərlə Şuşa şəhərini işğalçılardan azad etmişdir. Azərbaycan xalqı üçün təkcə ərazi deyil, xüsusən milli-mənəvi əhəmiyyət daşıyan Şuşanın azad edilməsi böyük tarixi hadisə və Ermənistanın diz çökməsi olmuşdur.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu və milli müdafiə naziri Hulusi Akar Bakıya səfər edərək bir daha Azərbaycan dövlətinin haqq işinin müdafiə edildiyini bildirmişlər.

Hərb meydanında məğlub olan işğalçı ölkə noyabrın 10-da 9 bənddən ibarət olan üçtərəfli bəyanatı imzalamağa məcbur olmuşdur. Sənəddə hərbi əməliyyatların dayandırılması, əsirlərin qaytarılması, kommunikasiyaların açılması, erməni silahlılarının çıxarılması ilə paralel olaraq Rusiya sülhməramlı qüvvələrinin yerləşdirilməsi, əsir və girovların qaytarılması, iqtisadi və nəqliyyat əlaqələrinin bərpası və b. məsələlər öz əksini tapmışdır.

Ermənistanın hərb meydanında danışıqsız məğlub olduğunu və müharibənin başa çatdığını elan edən bu sənəd böyük əhəmiyyət daşıyırdı. Bəyanatın imzalanmasından sonra Azərbaycan xalqına müraciət edən Prezident İlham Əliyev onun mahiyyətini izah etmişdir.

Bakıya səfər edən Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu, milli müdafiə naziri Hulusi Akar və Milli Kəşfiyyat İdarəsinin rəisi Hakan Fidan dövlət başçısı İlham Əliyev ilə görüşərək Azərbaycanı böyük zəfər münasibətilə təbrik etmişlər. Azərbaycanın haqq işini müdafiə edən Türkiyə dövləti beynəlxalq hüququn və ədalətin yanında olduğunu bir daha göstərmişdir.

Hərbi əməliyyatlar dayandırıldıqdan sonra Azərbaycan dövlətinin diqqəti şəhid ailələrinin və qazilərin problemlərinin həllinə, o cümlədən Kəlbəcər, Ağdam və Laçının döyüşsüz azad edilməsi məsələlərinə yönəldilmişdir.

20-ci FƏSİL

AĞDAM, KƏLBƏCƏR VƏ LAÇINDAN İŞĞALÇININ ÇIXARILMASI

20.1. Şəhid ailələrinə və qazilərə qayğı dövlətin sosial siyasətinin prioritet istiqaməti elan edilir

Hərbi əməliyyatlar başa çatdıqdan sonra Azərbaycan hökuməti şəhid ailələrinin və qazilərin problemlərinin həllinə xüsusi diqqət yetirməyə başladı. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 11-də 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşdülər. Çıxışında ölkə rəhbəri qazanılan qələbəni yüksək qiymətləndirərək dedi:

"...Vətən müharibəsi başa çatdı. Azərbaycan bu müharibədə parlaq qələbə qazandı, torpaqlarımız işğaldan azad olundu, işğalçıları torpaqlarımızdan qovmuşuq...

İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir. Atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın. Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Əgər döyüş meydanında biz bu qələbəni qazanmasaydıq, inanmıram ki, işğalçı qalan torpaqlardan çıxacaqdı". [551]

Qələbə şəhidlərin canı, qanı, hərbçilərin rəşadəti və dövlətin siyasəti hesabına qazanılmışdı. Həm döyüş meydanında, həm danışıqlar masası arxasında Azərbaycan istədiyinə nail olmuş, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarını, Şuşa şəhərini və digər ərazilərini hərbi güc hesabına azad etmişdi. Bütün dünya Azərbaycanın gücünü görmüşdü.

Düşmən işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmaq istəmirdi və 30 il ərzində istehkamlar qurmuşdu. O istehkamları yarıb keçmək, müdafiə xətləri-

551 Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşüblər. 11.11.2020 // Azərtac. https:azertag.az/xeber/Prezident_Ilham_Aliyev_ve_birinci_xanim_Mehriban_Aliyeva_1_sayli_Kliniki_Tibbi_Merkezde_mualice_olunan_herbchilerle_gorusubler_YENILANIB_VIDEO-1639231.

ni dəf etmək çox böyük qəhrəmanlıq və hərbi peşəkarlıq tələb edirdi. Bölgənin coğrafiyası özlüyündə təbii istehkam idi. İşğal edilmiş ərazilərdə hər şeyin dağıdıldığına diqqəti cəlb edən Prezident vurğuladı:

"İşğaldan azad edilmiş ərazilərimizin demək olar ki, 99 faizində bütün binalar dağıdılıbdır – yaşayış binaları, məktəblər, xəstəxanalar, ictimai binalar, tarixi abidələr, əcdadlarımızın qəbirləri, məscidlərimiz. İndi biz bu görüntüləri yayırıq, mətbuatda hər kəs bunu görə bilər. Bu, vəhşilikdir, vandallıqdır, bu, hərbi cinayətdir. Düşmən hərbi cinayət törədib və artıq göstəriş verilib ki, dəymiş ziyanın hesablanması, onun uçotu təmin edilsin. Artıq qruplar səfərbər edilib, beynəlxalq ekspertlər dəvət ediləcək. Beynəlxalq ekspertlərin iştirakı ilə bütün dağıntıların maddi və mənəvi ziyanı hesablanacaq və biz - həm insanlar fərdi qaydada, eyni zamanda, mütəşəkkil qaydada düşməni beynəlxalq məhkəmələrə verəcəyik, onlar təzminat ödəyəcəklər, öz çirkin əməllərinə cavab verəcəklər və cavab verirlər".[552]

Müharibənin başa çatmasını elan edən birgə bəyanat Ermənistanın danışıqsız təslimolma aktı idi. Bu, vaxtilə İkinci Dünya müharibəsində Hitlerin əlaltılarının müttəfiq ölkələrin hərbi rəhbərlərinin qarşısında kapitulyasiya aktına bənzəyirdi. Dövlət başçısı dedi:

"...mən də deyirdim ki, eyni qaydada Paşinyan canlı formatda, videokonfrans şəklində kapitulyasiya aktını imzalamalıdır. Amma açığını deyim, ondan sonra Rusiya Prezidenti Vladimir Putin məndən xahiş etdi ki, mən bu məsələdə çox da təkid etməyim. Mən hesab etdim ki, onsuz da Paşinyan kifayət qədər alçaldıldı, öz çirkin əməllərinə görə cəzalandırıldı, faktiki olaraq diz çökdü, mənim bütün şərtlərimi qəbul etdi".[553]

Müharibə Azərbaycan dövlətinin gücünü, millətin birliyini göstərmişdi. Aydın olmuşdu ki, heç bir qüvvə Azərbaycanın qarşısında tab gətirə və haqq yolundan döndərə bilməz. Bu tarixi missiyanı Azərbaycan əsgəri, giziri, zabiti icra etmişdi. Azərbaycanın Ordusu güclü, texniki təchizatı da yüksək səviyyədə idi. Bütün dünya hansı texniki imkanlardan istifadə edildiyini görmüşdü. Azərbaycanın əldə etdiyi qələbə və apardığı hərbi əməliyyatlar, texniki imkanlar, operativ addımlar, əməliyyatların hazırlanması və icra edilməsi baxımından bütün dünyada öyrənilirdi. Azərbaycan yeni nəsil müharibə aparmışdı. Texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərin döyüş qabiliyyəti və mənəvi ruhu birləşərək vəhdət təşkil etmişdi. Qələbəni millətin bağrından çıxan Azərbaycan Ordusu qazanmışdı. Dövlət başçısı bununla bağlı olaraq söylədi:

552 Yenə orada.
553 Yenə orada.

"...Bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir".[554]

Müharibənin Azərbaycan millətinin böyüklüyünü bir daha təsdiq etdiyini Prezident belə ifadə etdi:

"Biz sübut etdik ki, biz böyük xalqıq. Biz sübut etdik ki, biz həmrəylik göstəririk, birlik göstəririk və bu birlik onsuz da cəmiyyətdə var idi. Ancaq bu zəfərdən sonra bu, daha da yüksək səviyyəyə qalxdı".[555]

Milli birlik işğaldan azad edilmiş torpaqlarda həyatın yenidən qayıtmasına və məcburi köçkünlərin maksimum qısa müddət ərzində dönmələrinə imkan verirdi. Dövlət başçısı vurğuladı:

"Qarabağ bölgəsi, gözəl tarixi diyarımız sanki yenidən doğulacaq, yenidən canlanacaq, dirçələcək. Azərbaycanın ayrılmaz hissəsi və ən gözəl güşələrindən biri olan Qarabağ əsl cənnət məkanına çevriləcəkdir".[556]

Daimi yaşayış yerlərindən didərgin düşənlər artıq köçkün deyildilər. Onların həyatında yeni dövr başlayırdı. Ölkə rəhbəri "siz artıq köçkün deyilsiniz, siz qayıdırsınız, biz sizi qaytaracağıq" deyərək, əlavə etdi:

"Biz Azərbaycan dövləti isə əlimizdən gələni edəcəyik ki, sizi tezliklə qaytaraq. İlk növbədə, əlbəttə, təhlükəsizlik tədbirləri görülməlidir. Mənfur düşmən o bölgələrdə demək olar ki, hər yerə minalar döşəyib. İndi minalardan təmizləmə prosesi getməlidir. Biz indi beynəlxalq təşkilatları da cəlb edəcəyik. Çünki qısa müddət ərzində bunu etmək üçün bizdə daxili imkanlar məhduddur. İlk növbədə, təhlükəsizlik, ondan sonra infrastruktur, ondan sonra bütün başqa bərpa məsələləri öz həllini tapacaq".[557]

İşğaldan azad edilmiş ərazilərə göndərilən mütəxəssislərdən ibarət qruplar vurulmuş ziyanı hesablayırdı. Dağıdılmış bütün evlərin dövlət hesabına yenidən tikiləcəyi, zərər görmüş evlərin dövlət tərəfindən bərpa ediləcəyi və vətəndaşların itirilmiş mülkiyyətinin bərpa ediləcəyi barədə Prezident belə dedi:

"...bizim vətəndaşlarımız tam əmin ola bilərlər ki, onların itirilmiş bütün mülkiyyəti bərpa ediləcək. Mən söz verirəm ki, onlar üçün tikiləcək evlər, əvvəlki evlərdən daha yaxşı olacaq, daha keyfiyyətli olacaq, daha geniş olacaq. Biz bunu edəcəyik".[558]

554 Yenə orada.
555 Yenə orada.
556 Yenə orada.
557 Yenə orada.
558 Yenə orada.

Azərbaycan xalqının həyatında yeni dövr başlanırdı. Dövlətin qazilərə xüsusi qayğı göstərəcəyini ölkə rəhbəri aşağıdakı kimi ifadə etdi:

"Bu dövr ölkəmizin xoşbəxt gələcəyini təmin edəcək. Sizin həyatınızda yeni dövr başlayır. Siz yaralanmısınız. Amma bilin ki, biz sizi sağaldacağıq. Ən ağır yaralanmış hərbçilərimizi həyata qaytaracağıq. Bizim həkimlərimiz indi gecə-gündüz çalışırlar. Bundan sonra da normal həyata qayıtmaq üçün bütün lazımi tədbirlər görüləcək. Bilirsiniz ki, Birinci Qarabağ müharibəsində əlini, qolunu, ayağını itirmiş hərbçilərimiz üçün Mehriban xanımın şəxsi təşəbbüsü və nəzarəti altında müasir protezlər gətirilir. O protezlər ki, insanlar o protezlərdən istifadə edib futbol da oynaya bilərlər. Bütün bunlar təmin ediləcək. Siz əmin ola bilərsiniz".[559]

Şəhid ailələrinə xüsusi qayğı göstərən dövlət onları ev və mənzillərlə təmin edirdi. Bununla əlaqədar olaraq ölkə başçısı bildirdi:

"Şəhid ailələrinin problemləri öz həllini tapacaq. Biz növbədə dayanan əksər şəhid ailələrimizin məişət problemlərini demək olar ki, həll etdik".[560]

Ön və arxa cəbhədə qəhrəmanlıq göstərmiş şəxslərin təltif ediləcəyi barədə məlumat verən Prezident söylədi ki, Azərbaycanda yeni ordenlər və medallar təsis ediləcəkdir. Məhz Vətən müharibəsində fərqlənmiş hərbçilərə və mülki şəxslərə bu orden və medallar veriləcəkdi. Ölkə rəhbəri dedi:

"Bu orden və medalların adlarını da mən təklif etmişəm. Hesab edirəm ki, bu adlar da sizin xoşunuza, Azərbaycan xalqının xoşuna gələcək".[561]

Müharibənin gedişində düşməndən qənimət olaraq ələ keçirilmiş çoxlu sayda hərbi texnika və muzey yaradılacağı haqqında danışan dövlət başçısı bildirdi:

"Göstəriş vermişəm ki, düşmənin qənimət götürülmüş hərbi texnikası Bakıya gətirilsin. Tapşırmışam ki, yer seçilsin, o texnikanı biz nümayiş etdirəcəyik. Bütün Azərbaycan xalqı gedib görəcək ki, biz nəyi əldə etmişik... Özləri də etiraf edirdilər ki, Azərbaycan onlara qalib gəldi. ...qənimət götürülmüş o hərbi texnikanı nümayiş etdirəcəyik. Planlarım çoxdur".[562]

Hərb meydanında qazanılmış qələbənin hüquqi və diplomatik-siyasi sahədə də davam etdiriləcəyini bildirən Prezident İlham Əliyev vurğuladı:

"Bu tarixi Qələbəmizi hüquqi müstəvidə, siyasi müstəvidə daha da möhkəmləndirəcəyik. Bundan sonra vətəndaşlarımız rahat yaşayacaqlar, öz doğma torpağına qayıdacaqlar. Azərbaycan sizin sayənizdə yeni bir dövrə qədəm qoyacaq...".[563]

559 Yenə orada.
560 Yenə orada.
561 Yenə orada.
562 Yenə orada.
563 Yenə orada.

20.2. İşğaldan azad edilmiş torpaqlara səfər

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 16-da işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında oldular. Füzuli rayonundan Şuşa şəhərinə gedən yolun inşasının təməlini qoyan ölkə rəhbəri dedi:

"Bu gün Füzuli – Şuşa avtomobil yolunun təməli qoyulur. ...Bu yolun çox böyük əhəmiyyəti var. Çünki bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır.

...Eyni zamanda, bu layihə işğaldan azad edilmiş torpaqlarda icra edilən birinci layihədir".[564]

Həyat, iqtisadiyyat və mədəniyyət olan və strateji əhəmiyyət daşıyan bu yol bölgənin simasını dəyişdirirdi.

Dövlət başçısı və birinci xanım işğaldan azad olunmuş Füzuli şəhərinə gəldilər. Burada Azərbaycan bayrağını qaldıran Prezident gələcək planlar barəsində aşağıdakıları bildirdi:

"Bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki, əsrlər boyu biz yaşamışıq, bizim xalqımız yaşayıb.

...Bizim bütün hərbçilərimiz, Füzuli və işğaldan azad edilmiş başqa torpaqlarda yaşamış sakinlər bilməlidirlər ki, biz bütün bu yerləri bərpa edəcəyik. Mən demişdim, Füzulidə bir dənə də bina tapılmadı ki, orada Azərbaycan bayrağı ucaldılsın. Amma biz bərpa edəcəyik. İndi müvafiq göstərişlər verildi, planlı şəkildə bunu edəcəyik, beynəlxalq ekspertləri dəvət etmişik, onlar da gələcəklər. Bütün dəymiş ziyanı birlikdə hesablayacağıq. Ondan sonra şəhərsalma üzrə mütəxəssisləri - həm Azərbaycan mütəxəssislərini, həm xarici mütəxəssisləri dəvət edəcəyik. Onlar da gələcəklər, yeni bir şəhərsalma planı qurulacaqdır. Kəndlərin, şəhərlərin, infrastrukturun, ekologiyanın bərpası – bütün bu planlar var. Hamısını icra edəcəyik, İnşallah, hamısını! Allahın köməyi ilə hamısını icra edəcəyik. Necə ki, torpaqlarımızı qaytardıq, düşməni məhv etdik, bu üçrəngli bayrağımızı ucaltdıq, bütün qalan məsələləri də həll edəcəyik".[565]

Ölkə başçısı və birinci xanım tarixi Xudafərin körpüsünə gəldilər. Azərbaycan bayrağını ucaldan dövlət başçısı körpünü İranla dostluq körpüsü adlandırdı.

Daha sonra Cəbrayıl şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıldı.

---

564 Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar. 17.11.2020 // Azərtac. URL: https:azertag.az/xeber/Prezident_Ilham_Aliyev_ve_birinci_xanim_Mehriban_Aliyeva_isgaldan_azad_edilmis_Fuzuli_ve_Cebrayil_rayonlarinda_o_cumleden_Fuzuli_ve_Cebrayil_seherlerinde_olublar___YENILANIB_VIDEO-1643463.

565 Yenə orada.

Füzuli və Cəbrayıl rayonlarına səfər böyük əhəmiyyət daşıyırdı. Bu, göstərdi ki, işğaldan azad edilmiş ərazilərə dair Azərbaycan dövlətinin konkret planları mövcuddur.

20.3. Ağdamdan işğalçıların çıxarılması

Üçtərəfli bəyanata uyğun olaraq, noyabrın 20-də Ağdam şəhərindən Ermənistan silahlı qüvvələri çıxarıldı və oraya Azərbaycan Ordusu daxil oldu. Bununla da Azərbaycan döyüşsüz, bir güllə atmadan və şəhid vermədən işğal altında olan şəhərini azad etdi. Bununla bağlı olaraq xalqa müraciət edən ölkə başçısı dedi:

"Biz uzun illər ərzində bu məsələni siyasi yollarla həll etməyə çalışırdıq. Ancaq bütün dünya gördü ki, məhz Ermənistanın mövqeyinə görə bu məsələ öz həllini tapmamışdır və məsələnin hərbi yollarla həll edilməsi bizim qanuni hüququmuz idi. Bu hüququ beynəlxalq norma və prinsiplər tanıyır. Bu hüquq bizə BMT Nizamnaməsi tərəfindən verilibdir. Hər bir ölkə özünü müdafiə edə bilər və biz də özümüzü müdafiə etmişik".[566]

Ağdam rayonunun işğaldan azad edilməsi tarixi hadisə idi. İşğal edilmiş rayonların arasında əhalinin sayına görə Ağdam ən böyüyü idi. İşğaldan əvvəl burada 143 min nəfər yaşamışdı. 2020-ci ildə isə Ağdam rayon sakinlərinin sayı 204 min nəfərə çatmışdı. Rayon ərazisinin 73%-i işğal edilmişdi. Qalan ərazilərdə böyük quruculuq, abadlıq işləri aparılmış, Quzanlı kəndinə qəsəbə statusu verilmiş və faktiki olaraq Ağdam rayonunun mərkəzinə çevrilmişdi. Prezident dedi:

"Mənim göstərişimlə Quzanlıda sosial obyektlər, infrastruktur və sənaye müəssisələri yaradılmışdır. İnsanlar üçün iş yerləri yaradıldı. Quzanlı təbii qazla təchiz edildi, orada bütün digər infrastruktur layihələri icra olundu, böyük Olimpiya İdman Kompleksi, xəstəxana, məktəblər, Muğam Mərkəzi inşa edilmişdir. Bütün bu obyektlərin açılışlarında mən şəxsən iştirak etmişəm. Onu da bildirməliyəm ki, son illər ərzində mənim göstərişimlə Ağdam rayonunun bizim nəzarətimizdə olan hissəsində 18 köçkün şəhərciyi salınmışdır və biz Ağdam rayonuna 93 min köçkünü yerləşdirə bildik. Görülmüş işlər və böyük investisiyalar hesabına bu gün Ağdam rayonunun əhalisinin 45 faizi Ağdam rayonunun ərazisində yaşayır".[567]

566 Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib. 20.11.2020 // Azərtac. URL: https: azertag.az/xeber/Azerbaycan_Prezidenti_Ilham_Aliyev_xalqa_muraciet_edib_VIDEO-1646639.

567 Yenə orada.

Ağdam rayonunun həyatında yeni dövr başlayırdı. Şəhərin yenidən tikiləcəyinə dair Azərbaycan dövlətinin böyük planları var idi. Bununla bağlı olaraq ölkə rəhbəri bildirdi:

"Biz Ağdam şəhərini də bərpa edəcəyik. Əlbəttə ki, bunun üçün biz bütün işləri əsaslı şəkildə etməliyik. Baş plan hazırlanacaq, mütəxəssislər cəlb olunacaq, infrastruktur layihələri planlı şəkildə icra ediləcək, inzibati binalar, sosial obyektlər, yollar və digər lazım olan işlər görüləcək. Vətəndaşlara oraya qayıtmaq üçün dövlət tərəfindən kömək göstəriləcək. Ona görə Ağdam rayonunun bərpası bizim gələcək planlarımızda xüsusi yer tutacaq".[568]

Dövlət başçısının tapşırığına uyğun olaraq Əhmədbəyli – Alxanlı – Füzuli–Şuşa yolunun qısa müddətdə inşa edilməsindən ötrü yol hissələrə bölünmüş və işlərə bir neçə şirkət cəlb edilmişdi. Çünki əvvəllər Şuşaya gedən Ağdam – Xankəndi yolundan hələlik istifadə etmək mümkün deyildi. Prezident dedi:

"Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatda göstərilir ki, bütün kommunikasiyalar açılacaq, o cümlədən hesab edirəm ki, Ağdam – Xankəndi – Şuşa avtomobil yolu da müəyyən müddətdən sonra açılacaqdır".[569]

İşğalçı ölkə Azərbaycan ərazilərində tarixi-mədəni irsi məhv etmək, tarixi abidələri ermənilərşdirmək siyasəti yürütmüş, məscidləri dağıtmış və yeni saxta xəritələr tərtib etmişdi. Dövlət başçısı bununla bağlı olaraq bildirdi:

"Ermənistan məktəbləri üçün hazırlanan dərsliklərdə qondarma "Dağlıq Qarabağ respublikası"nın xəritələri dərc edilərkən orada işğal edilmiş bütün torpaqlar bu qondarma quruma aid edilir. Ermənistan xarici dillərdə nəşr etdiyi kitablarda, bukletlərdə qondarma qurumu təqdim edərkən işğal olunmuş bütün torpaqlar əhatə edilir...

İndi nə oldu bu xəritələr? İndi bu xəritələr cəhənnəmə getdi, bu xəritələr artıq yoxdur".[570]

Qələbənin qazanılmasında başlıca rolu qəhrəman Azərbaycan əsgər və zabiti oynamışdı. Ermənistan ordusundan fərarilik edənlərin sayı isə 10 min nəfəri ötüb keçmişdi. Ölkə rəhbəri vurğuladı:

"Onların ordusu, əslində, o quldur dəstəsi yalnız mülki, əliyalın insanlara qarşı müharibə apara bilərdi. Xocalı qatilləri, kəndlərimizi yandıran, insanlarımızı, mülki şəxsləri öldürən digər qatillər hərbçi sayıla bilməz. Onların ordusu oğrulardan ibarətdir".[571]

Ermənistan rəhbərləri cinayətkarlar idi. 1998-ci ildən 2018-ci ilə qədər bu ölkəyə quldurlar, oğrular, qorxaqlar və fərarilər rəhbərlik etmişdi.

568 Yenə orada.
569 Yenə orada.
570 Yenə orada.
571 Yenə orada.

Ermənistan daxili və xarici siyasətində müstəqil olmayan, uğursuz bir ölkə idi. Bu uğursuzluğun səbəbi işğalla bağlı idi. Dövlət başçısı bildirdi:

"Ermənistan bu 30 ilə yaxın müddətdə müstəqil ölkə ola bilmədi, bu gün də müstəqil deyil. Ermənistan faktiki olaraq müstəmləkədir... Onlar döyüş meydanında məğlub olaraq bütün dünya qarşısında rəzil oldular. Bundan sonra bu damğa ilə yaşayacaqlar, "məğlub edilmiş ölkə" damğası ilə yaşayacaqlar".[572]

Yürütdüyü təcavüzkarlıq siyasəti nəticəsində Ermənistan inkişaf edə bilməmiş, siyasi, hərbi cəhətdən asılı, iqtisadi baxımdan natamam olmuş, ideologiya baxımından isə çox ziyanlı əsaslar formalaşdırmışdır. Ermənilərin ideoloji əsasları yalan, tarixləri isə saxtakarlıq üzərində qurulmuşdur. Bu ünsür kin və ədavəti ürəyində yaşadır, uşaqları türkə nifrət ruhunda böyüdür. Məlum olduğu kimi, Sovet İttifaqı Almaniya ilə müharibə zamanı on milyonlarla insan itirmiş, lakin bir neçə il sonra barışmışdırlar. Rusiya və Almaniya arasındakı münasibətlər normal inkişaf edir. Fransa və İtaliya, Almaniya və Fransa bir zamanlar müharibələr aparsalar da, əməkdaşlıq edirlər. Qonşu dövlətlərlə normal münasibətlər qura bilməyən Ermənistanda isə fərqli vəziyyət hökm sürür. Bununla bağlı olaraq ölkə rəhbəri dedi:

"Onlar bütün öz bəlalarında özləri günahkardır. Digər tərəfdən, qonşularla normal münasibət qura bilməyən ölkə necə inkişaf edə bilər? Türkiyəyə qarşı ərazi iddiası. Heç ağlı yoxdur. Türkiyə kimi böyük bir ölkəyə qarşı ərazi iddiası irəli sürmək özünəqəsd deməkdir. Azərbaycana qarşı ərazi iddiası".[573]

Ermənistan müstəqil yaşaya bilmir və daim başqa ölkələrdən yardım gözləyirdi. Sanki bütün dünya ona borclu idi. Bununla əlaqədar olaraq Prezident bildirdi:

"Müstəqil ölkə kimi yaşaya bilmirsən, get başqa ölkənin tərkibinə gir. Endir o bayrağı dirəkdən, bük, qoy cibinə, get başqa ölkənin tərkibində yaşa. Onlar özləri öz bəlalarının səbəbkarlarıdır".[574]

Bölgədə sülh və əməkdaşlığın qurulmasının vacibliyini və erməni xalqı ilə heç bir problemin olmadığını qeyd edən dövlət başçısı vurğuladı:

"...biz bu bölgədə yaşayırıq və istər-istəməz bu qonşuluq davam edəcək, istəsək də, istəməsək də... ...bir daha deyirəm, bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur. Biz erməni xalqına qarşı etnik təmizləmə aparmamışıq, necə ki, onlar bizə qarşı aparıblar. Biz onların tarixi abidələrini dağıtmamışıq, biz onları qoruyuruq...".[575]

572 Yenə orada.
573 Yenə orada.
574 Yenə orada.
575 Yenə orada.

Vahid Azərbaycan dövlətində yaşayan bütün xalqların, o cümlədən ermənilərin bərabər hüquqları var idi. Ermənilər də digərləri kimi rahat yaşaya bilərdilər.

Dağlıq Qarabağ regionundan guya 90 min ermənin qaçmasına dair Ermənistanın apardığı təbliğat uydurma idi. İkinci Qarabağ müharibəsinə qədər burada 60-65 min nəfər yaşamışdı. Azərbaycan dinc ermənilərə qarşı vuruşmamış, işğalçı Ermənistan isə mülki əhalini hədəf almışdı. Azərbaycanın mülki vətəndaşları arasında 94 şəhid, 400-dən çox yaralı var idi, 3000-dən çox ev dağıdılmışdı. Mülki ermənilər arasında itkilər qat-qat aşağı idi.

Ermənistanın müharibə cinayəti törətmişdi. Dövlət başçısı bildirdi:

"...onlar bizim mülki əhalini məqsədyönlü şəkildə vururdular. Gəncəni ballistik raketlərlə vurmuşdular. Kasetli bombalarla Bərdəni vurmuşdular, fosforlu bombalarla. Bu, hərbi cinayətdir. Tərtər şəhəri demək olar ki, dağıdılıb. Ən çox mərmi düşən Tərtər idi. Hər səhər mənə məlumat verilirdi nə qədər mərmi düşür. Gün var idi ki, bir şəhərə, özü də balaca şəhərə iki min mərmi düşürdü. Bu, erməni vəhşiliyi deyilmi? Xocalı soyqırımının təkrarı deyilmi?".[576]

İşğalçı ölkə üzərində qazanılan qələbənin böyük beynəlxalq əhəmiyyəti var idi. Erməni faşizmi məhv edilmiş və onun əsl mahiyyəti bütün dünyaya göstərilmişdi. Dövlət başçısı dedi:

"...bu, təkcə ərazi bütövlüyümüzün bərpası deyil, erməni faşizminin belinin qırılmasıdır. Biz bölgəni erməni faşizmindən xilas etdik, dünyanı erməni faşizmindən xilas etdik".[577]

Erməni faşizminin yenidən baş qaldıra biləcəyi təqdirdə Azərbaycanın atacağı addımlar üzərində dayanan Prezident qətiyyətlə bildirdi:

"Amma baş qaldıra bilər. Ancaq biz imkan verməyəcəyik. Hər kəs bunu bilsin. Özümüzü müdafiə etmək üçün istənilən addımı atacağıq. Öz vətəndaşlarımızı müdafiə etmək üçün istənilən addımı atacağıq və heç kim bizi saxlaya bilməz... Heç kim bizim qabağımızda dura bilməz, bizə şərt qoya bilməz. ...biz o ölkələrdən deyilik ki, kiminsə qabağında baş əyək və mən də o liderlərdən deyiləm ki, kimdənsə nə isə qəbul edim, hansısa sözü... Ona görə əgər erməni faşizmi bir də baş qaldırsa, əgər bizə qarşı hər hansı bir təxribat törədilərsə, 10 qatını alacaqlar...".[578]

Azərbaycan dövlətinin işi haqq olub, ədalətə və beynəlxalq hüquqa əsaslanırdı. Bununla bağlı olaraq dövlət başçısı vurğuladı:

"Biz beynəlxalq hüququn kənarında bir iş görməmişik. Ancaq demişəm ki, güc amili ön plana çıxır və biz buna hazır olmalıyıq və hazırlıq işləri gedirdi, bütün bu illər ərzində, həm iqtisadi sahədə, həm beynəlxalq münasibətlər sahəsində, ilk növbədə, ordu quruculuğu sahəsində. Bu gücü topladıq, lazım olan anda vurduq,

576 Yenə orada.
577 Yenə orada.
578 Yenə orada.

əzdik düşmənin başını. Elə əzdik ki, onu əbədi yadda saxlayacaq, əbədi. O damğanı vurduq. Azərbaycan xalqı müzəffər xalqdır. Azərbaycan Ordusu müzəffər ordudur. Biz döyüş meydanında qələbə qazanmışıq, siyasi müstəvidə qələbə qazanmışıq, torpaqlarımızı işğalçılardan azad etmişik".[579]

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 23-də işğaldan azad edilmiş Ağdam şəhərində oldular. Dövlət başçısı Ağdamda Azərbaycan bayrağını qaldırdı və birinci xanımla birlikdə məscidi ziyarət etdi. Prezidentin Məkkədən gətirdiyi Qurani-Kərimi Ağdam məscidinə bağışlaması və birinci xanımla birlikdə məsciddə dua etmələri mənəvi köklərə dərin bağlılığı göstərirdi.

20.4. Kəlbəcər rayonunun işğaldan qurtarılması

İmzalanmış üçtərəfli bəyanata uyğun olaraq Kəlbəcər rayonu noyabrın 15-də Azərbaycana qaytarılmalı idi. Lakin Ermənistan tərəfinin müraciəti əsasında Rusiya dövlətinin xahişi ilə Kəlbəcərin təhvilindən ötrü 10 gün əlavə möhlət verildi. İşğalçı ölkənin möhlət istəməsində başlıca məqsədi sərhəd postunu Azərbaycan ərazisinin içərisinə doğru 1,5 km artırmaq idi. Az sonra bəlli olan bu hadisə Ermənistanın riyakarlığını, imzasına hörmət etmədiyini, üçtərəfli bəyanatı imzalayan Rusiya Federasiyasını və onun rəhbərini aldatmaq istədiyini göstərdi.

Noyabrın 25-də Kəlbəcər rayonu işğaldan azad edildi. Bu münasibətlə millətə müraciət edən Prezident 1993-cü ildə Kəlbəcər rayonunun işğal altına düşməsini böyük faciə adlandıraraq qeyd etdi ki, bundan sonra Ermənistanla Dağlıq Qarabağ regionu arasında bir çox yollar vasitəsilə əlaqə yaradıldı və ilk növbədə, silahlar, texnikalar, canlı qüvvə göndərilməyə başlandı. Rayonun işğal altına düşməsində başlıca təqsirkar olan Azərbaycan Xalq Cəbhəsinin fəaliyyətindən danışan dövlət başçısı dedi:

"Kəlbəcər rayonunun işğal altına düşməsi o vaxt hakimiyyətdə olmuş Azərbaycan Xalq Cəbhəsinin birbaşa məsuliyyətidir. Bütövlükdə torpaqlarımızın işğal altına düşməsində əsas günahkar Azərbaycan Xalq Cəbhəsidir. Çünki əgər 1992-ci ildə onlar qanunsuz yollarla hakimiyyətə gəlməsəydilər, əgər dövlət çevrilişi etməsəydilər, bəlkə də, torpaqlarımız işğal altına düşməyə bilərdi".[580]

579 Yenə orada.
580 İlham Əliyev xalqa müraciət edib. 25.11.2020 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/47778/print.

Kəlbəcərin əhəmiyyətini və rayon ərazisindəki tarixi abidələrin Azərbaycan xalqının sərvəti olduğunu qeyd edən Prezident vurğuladı:

"Kəlbəcər bizim qədim torpağımızdır. Qədim Azərbaycan torpağıdır. Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir. Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur".[581]

Tarixi mənbələrdən məlum olduğu kimi, 1836-cı ildə imperator I Nikolayın fərmanı ilə çar Rusiyası alban kilsəsini ləğv edərək bütün mülkiyyətini erməni qriqorian kilsəsinə vermişdi. Bundan sonra erməni keşişləri, onların havadarları kilsələri mənimsəməyə başlamış, saxtakar tarixçiləri isə qədim alban kilsələrini saxtakarlıqla ermənilərdirmiş və öz yazılarını oraya əlavə etmişdilər. Ermənilərin məqsədlərindən biri Qafqaz Albaniyasının tarixini silmək və unutdurmaq idi. Bununla əlaqədar olaraq dövlət başçısı dedi:

"Qafqaz Albaniyası böyük dövlət olub. Onun paytaxtı Qəbələ şəhəri olub. Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələr bizim tarixi-mədəni sərvətimizdir. Biz bu kilsələri qoruyuruq. Mən bu kilsələrdə dəfələrlə olmuşam, Şəki şəhərində, Qəbələ rayonunda, Udi kilsəsində".[582]

Azərbaycanda din dövlətdən ayrı olsa da, bütün dini abidələrə, o cümlədən kilsələrə xüsusi qayğı göstərilirdi. Buna dair bəzi Qərb ölkələrindəki narahatlıq yersiz idi. Müharibə zamanı Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun təşəbbüsü ilə Nic qəsəbəsində qədim Udi Qafqaz Albaniyası kilsəsinin təmir işləri yekunlaşmış və açılışı olmuşdu. Kilsələr Azərbaycanın mədəni sərvəti idi. Ölkə rəhbəri birmənalı olaraq vurğuladı:

"...heç kim narahat olmasın. Bu kilsələr bundan sonra da dövlət tərəfindən qorunacaq. Azərbaycanın multikulturalizmlə, dinlərarası münasibətlə bağlı apardığı siyasət bütün dünya tərəfindən, dünya liderləri tərəfindən təqdirlə qarşılanır".[583]

Təcavüzkar ölkə isə işğal edilmiş ərazilərdə müsəlman dini inanc yerlərini dağıtmış və təhqir etmişdi. Ağdam, Şuşa, Zəngilan, Cəbrayıl və Füzulidə məscidlər dağıdılmış və ya donuz tövləsinə çevrilmişdi.

İşğalçı ölkə Kəlbəcər rayonunda ekoloji və hidroterror törətmişdi. Azərbaycanın bir neçə çayı bu rayonun ərazisində idi. Onların arasında ən böyüyü uzunluğu təqribən 200 km olan Tərtərçay, Bazarçay, Xaçınçaydan düşmən Azərbaycanı məhrum etmişdi. Tərtər çayı 1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Sərsəng su anbarına axıdılırdı. Sərsəng su anbarı o vaxt Qarabağın Aran zonasında yerləşən 6-7 rayonda suvarma işləri təmin etmək üçün tikilmişdi. Ağdam, Goranboy, Yevlax, Bərdə, Tərtər və digər rayon-

581 Yenə orada.
582 Yenə orada.
583 Yenə orada.

lar oradan bəhrələnirdi. Düşmən yay aylarında suyu kəsir, qışda isə buraxırdı. Ermənistanın bu cinayətkar əməlləri barədə Prezident bildirdi:

"Ermənistan terror dövlətidir, bu terrorun bir çox əlamətləri var. Tarixi abidələrimizin dağıdılması, mülki əhaliyə qarşı törədilən soyqırımı, meşələrimizin qırılması, çaylarımızın məcrasının dəyişdirilməsi və digər əlamətlər var".[584]

Düşmən 24 min hektar meşə ərazisi olan Kəlbəcər rayonunda da ekoloji terror törətmiş, meşələri vəhşicəsinə qırmış, talamış və satmışdı.

Kəlbəcərdən çıxan ermənilər evləri, məktəbləri və tibb məntəqələrini yandırmışdılar. Bu əsl barbarlıq idi. Dövlət başçısı vurğuladı:

"Evləri yandırırlar, hansı ki, o evləri onlar tikməyiblər. Onlar kəlbəcərlilərin evlərinə giriblər, soxulublar, orada yaşayıblar. Məktəbləri yandırırlar, apara bilmədikləri ev heyvanlarını öldürürlər. Görün, biz kimlərlə, hansı vəhşilərlə üz-üzə idik!".[585]

20.5. Laçın rayonunun azad edilməsi

Üçtərəfli bəyanata uyğun olaraq, dekabrın 1-də Laçın rayonu işğaldan azad edildi. Zəngin təbiəti, tarixi abidələri, yeraltı sərvətləri ilə seçilən Laçın rayonunun azad edilməsi həm strateji, həm də iqtisadi inkişaf baxımından böyük əhəmiyyət daşıyırdı. İşğal olunanda rayonda təqribən 50 min nəfərdən çox əhali yaşayırdısa, azad edildiyi zaman əhalisi 80 min nəfərə çatmışdı. Prezident İlham Əliyev bununla əlaqədar olaraq müraciətində bildirdi:

"Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. ...bir şəhid vermədən qaytarmışıq".[586]

Laçın rayonu ərazisinin 22 min hektarı meşə sahəsi idi. Düşmən meşələri 30 il ərzində qırmış, talamış və çıxan zaman isə yandırmışdı.

Dövlət başçısı işğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatında oynayacağı rol barədə dedi:

"İşğaldan azad edilmiş torpaqların və orada həyatın bərpası üçün əlbəttə ki, çay resurslarımızın çox böyük əhəmiyyəti olacaqdır. Artıq müvafiq göstərişlər verilib və su anbarlarının tikintisi nəzərdə tutulur. Bu, özlüyündə kənd təsərrüfatının

584 Yenə orada.
585 Yenə orada.
586 Prezident İlham Əliyev Laçının işğaldan azad olunması münasibətilə Azərbaycan xalqını təbrik edib. 01.12.2020 // Azərtac. URL: https:azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Lachinin_isgaldan_azad_olunmasi_munasibetile_Azerbaycan_xalqini_tebrik_edib_VIDEO-1654967.

inkişafına, ekoloji tarazlığın təmin edilməsinə çox böyük təsir göstərəcək amillərdən biridir".[587]

Uzun illər ərzində aparılan danışıqlarda Laçın rayonunun Azərbaycana qaytarılması, xüsusilə Laçın dəhlizi ilə bağlı olan məsələ həmişə mühüm yer tutmuş və müzakirə olunmuşdu. Ermənistan tərəfi hesab edirdi ki, bütün Laçın rayonu onlara dəhliz kimi verilməlidir. Bəzi Qərb dairələrinin bu mövqeyi dəstəkləməsi Ermənistanın mövqeyini daha barışmaz etmişdi. Nəticədə işğalçı ölkə Laçın rayonunda məskunlaşma siyasəti aparmışdı. Danışıqlar zamanı həm Ermənistan, həm də onun havadarları qeyd edirdilər ki, Laçın rayonu hansısa formada Ermənistana verilməlidir, 5 rayon qaytarıla bilər, amma Laçın və Kəlbəcər rayonlarının qaytarılması üçün Azərbaycan qondarma qurumun müstəqilliyini ya tanımalıdır, ya da orada keçiriləcək səsverməni tanımalıdır, səsvermə üçün tarix müəyyən edilməlidir. Azərbaycan tərəfi qətiyyətli mövqe tutaraq həmin əsassız iddiaları rədd etmişdi. Bu məsələdə Azərbaycan dövlətinin mövqeyi barədə danışan dövlət başçısı bildirdi:

"Mən isə həmişə deyirdim ki, Laçın, Kəlbəcər və Şuşa Azərbaycana qayıtmasa, heç bir razılaşma ola bilməz... Mən deyirdim ki, bizim ərazi bütövlüyümüz bərpa edilməlidir".[588]

Qazanılan qələbənin tarixi əhəmiyyət daşıdığını Prezident İlham Əliyev belə ifadə etdi:

"Bizim qələbəmiz tarixi Qələbədir. Biz bir neçə rayonu döyüş meydanında düşməndən azad etdik, üç rayonu düşməni məcbur edərək qaytardıq və beləliklə, Dağlıq Qarabağ münaqişəsini həll etdik. İndi artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur. Əgər kimsə hesab edir ki, bu münaqişə hələ də davam edir, səhv edir".[589]

Azərbaycan dövlətinin mövqeyinə görə, Dağlıq Qarabağ bölgəsində yaşayanlar Azərbaycan Respublikasının vətəndaşlarıdır. Onlar qanunlara riayət edəcəkləri təqdirdə digər vətəndaşlar kimi bərabər şəkildə rahat və təhlükəsizlik şəraitində yaşaya bilərlər.

Bərdədən Ağdama dəmiryolu çəkilirdi. Ağdamdan Xankəndiyə məsafə 20-30 kilometr idi. Amma Ermənistan paytaxtından Xankəndiyə gəlmək üçün çox zaman sərf etmək lazım gəlirdi. Ağdamdan isə Xankəndiyə yarım saatlıq məsafə var idi.

Rüsvayçılıqla təslim olan işğalçı ölkənin ordusu dağıdılmış və ağır itkilərə məruz qalmışdı. Müharibə nəticəsində Ermənistan ordusunun məhv edilmiş hərbi texnika və döyüş vasitələri aşağıdakı kimi idi: Tank əleyhinə vasitələr - 53 ədəd, "Smerç" – 4 ədəd, "Qrad" - 97 ədəd, "Uraqan" - 2, "YARS" - 1, "TOS" odsaçan

587 Yenə orada.
588 Yenə orada.
589 Yenə orada.

– 1 ədəd, S-300 zenit-raket kompleksləri - 7 ədəd. Beləliklə, 7 atıcı qurğu, 1 S-300 radiolokatoru və iki S-300 aşkaretmə stansiyası məhv edilmişdi. "Oborona" radiolokasiya stansiyası - 1 ədəd, "TOR" zenit-raket kompleksi - 5 ədəd, "Osa" zenit-raket kompleksi - 40 ədəd, "KUB" zenit-raket kompleksi - 4 ədəd, "KRUQ" zenit-raket kompleksi - 1 ədəd, zastava - 14 ədəd, S-125 zenit-raket kompleksi - 2 ədəd, pilotsuz uçuş aparatları - 22 ədəd, "Elbrus" əməliyyat-taktiki raket kompleksi – 2 ədəd, ballistik raket – 1 ədəd, "Toçka-U" raket kompleksi – 1 ədəd, radioelektron mübarizə vasitələri - 5 ədəd, R-142 komanda qərargah maşını - 2 ədəd, "Nebo-M" radiolokasiya stansiyası - 1 ədəd, müxtəlif radiolokasiya stansiyaları - 7 ədəd, "Reppelent" radio-texniki maneə vasitəsi - 4 ədəd.

Düşmənin məhv edilmiş və qənimət götürülmüş digər texnikalarının sayı aşağıdakı kimi idi: Özüyeriyən artilleriya qurğuları "Akasiya" və "Qvozdika" – 28-i məhv edilmiş, 5-i qənimət götürülmüşdü. Müxtəlif çaplı toplar – 315-i məhv edilmiş 37-si hərbi qənimət kimi götürülmüşdü. Minaatanlar – 63-ü məhv edilmiş, 62-si qənimət götürülmüşdü. Xüsusi avtomobillər – 10-u məhv edilmiş, 93-ü qənimət götürülmüşdü. Qumbaraatan – 178-i qənimət götürülmüşdü. Traktor – 10, "Şilka" zenit qurğusu – 5 ədəd qənimət götürülmüşdü. 1380 atıcı silah qənimət götürülmüşdü. 7 komanda məntəqəsi, 11 sursat anbarı dağıdılmışdı. Tank – 287-si məhv edilmiş, 79-u qənimət götürülmüşdü. Piyadaların döyüş maşını – 69-u məhv edilmiş, 47-si qənimət götürülmişdi. 5 Su-25 təyyarəsi məhv edilmişdi. 252 yük avtomobili məhv edilmiş, 270-i hərbi qənimət kimi götürülmüşdü.

Müraciətində Prezident İlham Əliyev ölkənin və millətin həyatında yeni bir dövrün başlandığını elan edərək dedi:

"...ölkəmiz üçün yeni dövr başlayır. Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq".[590]

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, müharibə başa çatdıqdan sonra Azərbaycan dövlətinin sosial siyasətinin başlıca istiqamətlərindən biri şəhid ailələrinin və qazilərin problemlərinin həlli olmuşdur. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 1 saylı Tibbi Klinik Mərkəzdə müalicə olunan qazilərlə görüşmüşlər. Çıxış edən dövlət başçısı müharibədə qazanılan

590 Yenə orada.

qələbənin səbəblərindən, əhəmiyyətindən danışmış, şəhid ailələrinin və qazilərin problemlərinin həllinin prioritet olduğunu bildirmişdir.

İşğaldan azad edilmiş Füzuli və Cəbrayıla Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın səfərləri zamanı rayonlarda Azərbaycan Respublikasının Dövlət Bayrağı qaldırılmışdır. Dövlət başçısı Araz çayı üzərində yerləşən Xudafərin körpüsünü İranla dostluq körpüsü adlandırmışdır.

Üçtərəfli bəyanata uyğun olaraq, Ağdam şəhərindən işğalçı Ermənistan silahlı qüvvələri çıxarılmışdır. Azərbaycan şəhid vermədən, bir güllə atmadan işğal altında olan rayonu azad etmişdir. Bu münasibətlə dövlət başçısı millətə müraciət edərək şəhərin azad olunmasının əhəmiyyətindən və gələcək planlardan danışmışdır. Bildirmişdir ki, düşmən tapdağından xilas edilən bütün yaşayış məntəqələri dirçəldiləcəkdir.

Üçtərəfli bəyanatda Kəlbəcər rayonundan işğalçı qüvvələrin çıxarılması noyabrın 15-ə nəzərdə tutulsa da, Ermənistan əlavə 10 gün vaxt istəmişdir. Bu müddət ərzində işğalçı ölkə imzasına, Rusiya Federasiyasına və onun rəhbərinə xəyanət edərək hiyləgərliklə sərhəd postunu 1,5 km Azərbaycan içərilərinə doğru çəkmiş, yaşayış evlərini, məktəbləri və tibb məntəqələrini yandırmış, meşələri vəhşicəsinə qırmışdır. Bu, erməni vəhşiliyinin göstəricilərindən biri olmuşdur. Kəlbəcərdən düşmən qüvvələri çıxarılmışdır. Prezident İlham Əliyev müraciətində qələbənin tarixi əhəmiyyəti barədə danışmış və gələcək planlar haqqında məlumat vermişdir.

Laçın rayonundan da işğalçı qüvvələr çıxarılmışdır. Bu münasibətlə millətə müraciət edən dövlət başçısı yaranmış şəraiti bir daha izah etmişdir. Böyük tarixi əhəmiyyətli qələbə qazanan Azərbaycan milləti və dövlətinin həyatında yeni bir dövr başlamışdır.

21-ci FƏSİL

VƏTƏN MÜHARİBƏSİNDƏ QAZANILAN QƏLƏBƏNİN SƏBƏBLƏRİ VƏ ƏHƏMİYYƏTİ

21.1. Zəfər paradı

44 günlük müharibədə Azərbaycan Respublikasının işğalçı Ermənistan üzərində qazandığı parlaq qələbə münasibətilə 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında hərbi parad keçirildi. Paradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva ilə yanaşı, Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan, dövlət və hökumət nümayəndələri, deputatlar və ictimai xadimlər iştirak edirdilər.

Qələbənin rəmzi olan "Dəmir yumruğu" əks etdirən plakat Azadlıq meydanında asılmışdı. Parada müdafiə nazirinin müavini, Zəfər ordenli general-leytenant Kərim Vəliyev[591] komandanlıq edirdi. 3000 nəfərdən artıq şəxsi heyət, 150-dək hərbi texnika, o cümlədən Azərbaycan Ordusunun cəbbəxanasına yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər, həmçinin düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də paradda nümayiş etdirilirdi.

Əvvəlcə hərbi orkestr "Azərbaycan fanfarası"nı ifa etdi. Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğana raport verdi. Dövlət başçıları əsgərləri salamladıqdan sonra hərbi orkestr Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin dövlət himnlərini ifa etdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev paradda nitq söylədi. Həlak olmuş şəhidlərin əziz xatirəsi bir

591 Kərim Vəliyev (1961) – Azərbaycan Respublikası müdafiə nazirinin müavini (2014-2021). General-leytenant. Silahlı Qüvvələrin Baş Qərargah rəisi-müdafiə nazirinin birinci müavini (2021-ci ildən).

dəqiqəlik sükutla yad edildi. Zəfər paradının keçirildiyi günü tarixi gün adlandıran, Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında Türkiyədən gəlmiş böyük nümayəndə heyətinin, türk əsgər və zabitlərinin paradda iştirakını iki ölkə arasında birliyin, dostluğun və qardaşlığın təzahürü olduğunu bildirən dövlət başçısı dedi:

"Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşkanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi... Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür... Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk".[592]

Azərbaycan əsgəri və zabiti işğala, haqsızlığa son qoymaq amalı ilə qəhrəmancasına vuruşaraq tarixi ədalətin bərpa edilməsinə nail olmuşdu. Tarix boyunca Azərbaycan xalqına qarşı yol verilmiş ədalətsizliklərdən danışan dövlət başçısı bildirdi ki, ərazilər 30 ilə yaxın işğal altında idi. Ermənistanın təcavüzkar siyasəti hələ 1980-ci illərin sonlarından başlamışdı. O vaxt indiki Ermənistan Respublikasında yaşamış 100 minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salınmışdı. Prezident dedi:

"Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır. Bizim xalqımız bu torpaqlarda əsrlər boyu yaşayıb, ancaq Ermənistan rəhbərliyi o vaxt 100 minlərlə azərbaycanlını öz doğma torpaqlarından didərgin salmışdır".[593]

İşğalın davam etdiyi illərdə Azərbaycan dövləti başlıca məqsədinə nail olmaqdan ötrü fəal daxili və xarici siyasət yürütmüşdü. Bununla əlaqədar olaraq Prezident dedi ki, bu illər ərzində Azərbaycan ikitərəfli münasibətlərdə, beynəlxalq təşkilatlar çərçivəsində uğurlu fəaliyyət göstərmiş, iqtisadiyyatını, ordusunu gücləndirmişdi. Bunun nəticəsində Azərbaycan son illər ərzində çox uğurlu inkişaf yolu keçmiş və üstünlüyünü göstərmiş, Ermənistan isə daha da geri getmişdi. Dövlət başçısı vurğuladı:

"Ermənistan bizimlə rəqabət apara bilmədi. Mən son 17 il ərzində dəfələrlə demişdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan işğalçı qüvvələrini çıxarmasa, biz bu məsələni hərbi yollarla həll edəcəyik... Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi".[594]

592 İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak ediblər. 10.12.2020 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/48788.
593 Yenə orada.
594 Yenə orada.

Ermənistanın törətdiyi cinayətlərə diqqəti yönəldən dövlət başçısı dedi ki, son illərdə beynəlxalq hüquq və prinsiplər kobudcasına pozulurdu. Bəzi ölkələr güc tətbiq edərək öz məqsədlərinə çatırdılar, beynəlxalq hüquq, BMT Təhlükəsizlik Şurasının qətnamələri isə kağızda qalırdı. Belə olan halda münaqişənin hərbi yollarla həll edilməsi qaçılmaz idi. Bundan əlavə, son illər ərzində Ermənistanın təxribatçı addımları, bəyanatları, hərəkətləri müharibəni qaçılmaz etmiş, rəhbərliyi çox zərərli və təhlükəli bəyanatları ilə, "Qarabağ Ermənistandır" deməklə danışıqlara son qoymuşdu. İşğal edilmiş torpaqlarda xaricdən gətirilmiş ermənilər məskunlaşdırılırdı. Bütün bunların hərbi cinayət olduğunu deyən dövlət başçısı vurğuladı:

"Nəhayət, sentyabrın 27-də bizim kəndlərimiz, hərbi mövqelərimiz artilleriya atəşinə məruz qalmışdır, mülki şəxslər, hərbçilər arasında itkilər olmuşdur. Biz dedik yetər artıq, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Azərbaycan 44 gün ərzində istədiyinə nail oldu, ədaləti bərpa etdi".[595]

Şuşa şəhərinin azad edilməsi tarixi nailiyyət idi. Ölkə rəhbəri şəhərin azad edilməsində əsgər və zabitlərin qəhrəmanlığından aşağıdakı kimi bəhs etdi:

"Şanlı müharibəmizə Şuşa şəhərində yekun vuruldu. Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi tarixi nailiyyətimizdir... Şuşa işğaldan azad ediləndən sonra düşmənin beli qırıldı, düşmən təslim olmağa məcbur qaldı. Bizim Ordumuz, qəhrəman övladlarımız dağlardan, dərələrdən, meşələrdən, cığırlardan keçərək, sıldırım qayaları qət edərək, qayalara dırmaşa-dırmaşa Şuşaya qalxaraq orada əlbəyaxa döyüşdə düşməni məhv etdi, Azərbaycan bayrağını Şuşada qaldırdı. ...Ermənistan artıq təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü, öz layiqli cəzasını aldı və imdad dilədi. Biz Ermənistanı döyüş meydanında məhv etdik. Biz ermənilərin uzun illər yaratdıqları mifi darmadağın etdik. Onlar öz ordusu haqqında yalan məlumat ötürərək mif yaratmışdılar, guya Ermənistan ordusu yenilməz ordudur. Cəmi 44 gün ərzində Ermənistan ordusu məhv edildi, hərbi texnikası məhv edildi, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü, öz qüdrətini göstərdi".[596]

Ölkə həyatında yeni, quruculuq dövrünün başladığını, dağıdılmış şəhər və kəndlərin bərpa ediləcəyini, bunun üçün dövlətin bütün imkanlarının olduğunu və bu işdə hamının fəal olmasının vacibliyini dövlət başçısı belə ifadə etdi:

"İndi isə bizim üçün yeni dövr başlayır – quruculuq dövrü. Mənfur düşmən işğal edilmiş bütün torpaqları yerlə-yeksan edib... Bütün binalar, bütün tarixi abidələr, məscidlər, qəbirlər, məzarlıqlar mənfur düşmən tərəfindən dağıdılıb. Biz onların hamısını bərpa edəcəyik. Artıq bərpa işləri başlanmışdır.

595 Yenə orada.
596 Yenə orada.

...Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Bizim azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq. Mən demişəm ki, bizim hər birimiz bu işdə fəal olmalıyıq. Biz düşmən tərəfindən dağıdılmış şəhər və kəndlərimizi birlikdə bərpa edəcəyik. Bizim iradəmiz də var, imkanlarımız da var".[597]

Nitqinin sonunda Prezident qələbəyə aparan kəlamlarını bir daha təkrar etdi:

"...Qarabağ Azərbaycandır və nida". Bu gün bütün dünya görür ki, Qarabağ Azərbaycandır! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Türkiyə - Azərbaycan dostluğu, qardaşlığı! Yaşasın Azərbaycan əsgəri!".[598]

Qarabağı otuz illik həsrətdən sonra Ana Vətən ilə qovuşduran Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edən Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan nitqində qələbənin qazanılmasında Prezident İlham Əliyevin həm hərbi, həm də diplomatiya sahəsində müstəsna xidmətlərini aşağıdakı kimi vurğuladı:

"Azərbaycanın həm hərbi, həm də diplomatiya sahəsində əldə etdiyi bu uğurda ən böyük paylardan biri şübhəsiz ki, əziz qardaşım cənab Prezident İlham Əliyevə aiddir. Qardaşım İlham Əliyev bununla mərhum Heydər Əliyevin ona vəsiyyət olaraq etdiyi arzusunu da yerinə yetirmişdir. Fürsətdən istifadə edərək güclü Azərbaycanın əsasını qoyan Ümummilli lider Heydər Əliyevi də burada rəhmətlə yad edirəm. Azərbaycan qardaşım İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə, inşallah, dastan yazmaqda davam edəcək".[599]

Azərbaycan xalqının yaşadığı faciələrə baxmayaraq, Prezident İlham Əliyevin dayanıqlı sabitlik üçün təqdirəlayiq bir mövqe ortaya qoyduğunu qeyd edən Türkiyə rəhbəri bildirdi ki, ölkəsi bu xoşniyyətli cəhdləri dəstəkləyir. Azərbaycanı müdafiə etməklə Türkiyə beynəlxalq hüquq normalarına ehtiramını nümayiş etdirir və digər dövlətləri də dürüst davranmağa dəvət edirdi.

Dövlət başçılarının çıxışlarından sonra hərbi parad başladı. Silahlı Qüvvələrin şəxsi heyəti Azərbaycan Respublikasının Dövlət Bayrağı və hərb tarixinə qızıl hərflərlə yazılmış 44 günlük müharibənin Zəfər bayrağı altında tribunaya doğru irəlilədi. Dövlət Bayrağı və Zəfər bayrağının ardınca Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları Azadlıq meydanına gətirildi.[600]

Döyüş bayraqdarları qrupu qələbənin qazanılmasında müstəsna xidmətləri olan hərbi hissələrin döyüş bayraqlarını Azadlıq meydanına gətirdi. Müharibədə əsl qəhrəmanlıq, şücaət, rəşadət və yüksək peşəkarlıq nümunələri göstərərək

597 Yenə orada.
598 Yenə orada.
599 Yenə orada.
600 Yenə orada.

Azərbaycan millətinə böyük qələbənin sevincini yaşadan Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi qulluqçuları, Hərbi Dəniz Qüvvələrinin dəniz piyadaları, Xarici Kəşfiyyat Xidmətinin və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarından ibarət parad heyətləri, Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları, ordu korpuslarının, Raket və Artilleriya Qoşunlarının hərbi qulluqçuları, Zəfər paradında Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçular da tribuna önündən keçdilər.

Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının parad heyətləri, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçularından ibarət parad heyəti Azadlıq meydanına daxil oldular. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin parad heyətinin və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursant və zabitlərinin keçidi oldu. Naxçıvan Muxtar Respublikasındakı Heydər Əliyev adına Hərbi Liseyin kursantları ilk dəfə olaraq Azadlıq meydanında keçirilən paradda iştirak edirdilər.

Vətən müharibəsində qələbəyə həsr olunmuş paradı birləşmiş hərbi orkestr müşayiət edirdi.

Daha sonra hərbi texnikaların keçidi başladı. Paradda iştirak edən Hərbi Dəniz Qüvvələrinin və Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin döyüş gəmiləri və katerləri yüksək döyüş hazırlığı nümayiş etdirdilər. Qazilər Zəfər paradında tribuna önündən keçdilər.[601]

Müharibədə düşməndən qənimət götürülmüş hərbi texnikanın bir qismi Azadlıq meydanına gətirildi. Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad etdiyi ərazilərdə ermənilərdən qənimət götürdüyü və sıradan çıxardığı 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan kompozisiya paradda nümayiş olundu. Qənimət götürülmüş istifadəyə yararlı texnikalar – KamAZ markalı avtomobilin qoşqusunda D-30, Ural markalı avtomobilin qoşqusunda D-20 topları, qoşqu üzərində zenit qurğuları, "ŞİLKA", "OSA-1T", "KUB" zenit-raket kompleksləri, piyadaların döyüş maşınları, T-72 tankları, eləcə də istifadəyə yararsız texnikalar - zirehli UAZ Patriot, UAZ Hunter minik, ZİL-131, Ural, KamAZ markalı yük avtomobilləri, 122 millimetrlik "Qvozdika" özüyeriyən artilleriya qurğusu, BM-21 "Qrad" qurğuları, PDM-1 və PDM-2 texnikaları, T-72 tankları qəhrəman Azərbaycan Ordusunun düşmənə sarsıdıcı zərbələr vurduğunun əyani təsdiqi idi.[602]

Bundan sonra xüsusi təyinatlı avtomobil, zirehli texnika və silah sistemləri kolonu Azadlıq meydanına daxil oldu. Meydanda keçid edən, üzərində 12,7 millimetrlik NSV pulemyotları, tank əleyhinə idarə olunan "SPIKE-ER",

601 Yenə orada.
602 Yenə orada.

"NLOS", "LAHAT" raketləri, 120 millimetrlik "SPEAR" minaatanlar quraşdırılan "SandCat-Stormer" zirehli idarəetmə, çevik hərəkət maşınları, piyada daşıyan zirehli maşınlar, "Kobra" və BTR-82A zirehli transportyorları, PDM-2 və PDM-3 texnikaları, T-72, T-90S tankları Azərbaycan Ordusunun hərbi qüdrətinin göstəricilərindən biri idi.

Meydana Hava Hücumundan Müdafiə silahları sistemləri kolonu daxil oldu. Tribuna önündən modernləşdirilmiş "OSA-1T", "S-125 TM", "BUK-MB", "İldırım" zenit-raket komplekslərinin, "S-300 Favorit" sistemləri keçdi. Ardınca müharibədə qələbənin əldə edilməsində mühüm rol oynayan "Orbiter-1KM" - "İti qovan", "Orbiter-2B", "Orbiter-3B", "Orbiter-4", "Aerostar–BP", "Heron" pilotsuz uçuş aparatları, eləcə də ən müasir PUA-lar - "Bayraktar-TB2", habelə "Hermes-450", "Hermes-900", "Quzğun" və "Harop" PUA-ları nümayiş olundu.

Azadlıq meydanına artilleriya silahları sistemlərinin kolonu girdi. Meydanda özüyeriyən haubitsa və artilleriya qurğuları - 152 millimetrlik "Akasiya", 152 millimetrlik "MSTA-S", 203 millimetrlik "Pion", eləcə də 220 millimetrlik "TOS-1A" ağır odsaçan, tank əleyhinə "Xrizantema-S" kompleksləri, "DANA" özüyeriyən top-haubitsaları, "Qrad", "RM-70/85", "BM-21", "Smerç" yaylım atəşli reaktiv sistemləri, "TR-300 Qasırğa", "Ekstra" taktiki, "Polonez" və "LORA" əməliyyat-taktiki raket sistemlərinin keçidi oldu.

Azadlıq meydanı üzərində Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşu başladı. Mi-17 hərbi nəqliyyat-desant helikopterləri cütlüyü Azərbaycan və Türkiyə dövlət bayraqları ilə Bakı buxtasının üzərindən uçaraq Zəfər paradının iştirakçılarını salamladı. Bunun ardınca Mi-35 hücum helikopterləri qrupunun uçuşu oldu. "LAHAT" və "SPAYK" uzunmənzilli raketləri ilə silahlanmış Mi-17 helikopterlərinin və MİQ-29 çoxməqsədli qırıcı təyyarələr qrupları uçuşlar etdi. Zəfər paradında döyüş təyyarə və helikopterlərinin çıxışını müasir silahlarla təchiz olunmuş Su-25 hücum və hava dəstək təyyarələr qrupu tamamladı. Qrup səmada Azərbaycan Respublikasının Dövlət Bayrağının təsvirini yaratdı.[603]

Zəfər paradı müharibədə Azərbaycan Ordusunun qələbəsini bütün dünyaya nümayiş etdirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qazanılan qələbə müstəqil Azərbaycan dövlətinin hərbi, diplomatik-siyasi qüdrətinin, iqtisadi gücünün nümayişi ilə yanaşı, millətin milli-mənəvi ruhunun, yenilməz əzminin əyani təsdiqi oldu.

603 Yenə orada.

21.2. Qələbənin başlıca səbəbləri

Vətən müharibəsində qələbənin qazanılmasının bir sıra səbəbləri var idi. Hər şeydən əvvəl, qələbə milli birlik, əzmi, millətin dövlət rəhbərinə dərin inamı və yüksək milli ruh nəticəsində qazanıldı. Ölkədə yaşayan bütün etnik qrupların və dini konfessiyaların nümayəndələri olan gənclər işğalçıya qarşı azadlıq müharibəsində bir yerdə oldular. Dinindən və milli mənsubiyyətindən asılı olmayaraq, Azərbaycandakı bütün gənclərin işğalçılara qarşı döyüşlərə bərabər getməsi ölkənin böyük sərvəti idi. Prezident İlham Əliyev bununla əlaqədar olaraq deyirdi:

"Bütün xalqımız bir yumruq kimi birləşib, düşmənə sarsıdıcı zərbələr vurub öz tarixi torpaqlarını işğalçılardan azad etmişdir. Biz bu tarixi missiyanı yerinə yetirdik".[604]

Gənc vətənpərvər nəsil düşmənə qarşı mübarizədə fədakarlıq etdi. Ölkə rəhbəri torpaqların işğaldan azad edilməsində qəhrəmanlıqlar göstərmiş insanların fəaliyyətini belə qiymətləndirdi:

"Gənc nəsil yetişdi, Vətənə sevgi, düşmənə nifrət hissi ilə yetişdi və bu gənc nəsil torpaqlarımızı işğalçılardan azad etdi... Onlar yetişdi, onlar vətənpərvərlik və fədakarlıq göstərərək canlarından keçdilər, şəhid oldular, qazi oldular, qəhrəmanlıq göstərdilər və tarixi ədaləti bərpa etdilər".[605]

Ölkədə fəaliyyət göstərən siyasi partiyalar və ictimai təşkilatlar bəyanat verərək Vətən müharibəsində dövlətin yanında olsalar da, bəzi anti-milli qruplar fərqli mövqe nümayiş etdirdilər. Ümummili maraqların əleyhinə çıxan və Ermənistan rəhbərliyini nümunə gətirən anti-milli qruplara münasibətlər barədə dövlət başçısı qəti mövqeyini belə ifadə edirdi:

"... onlar satqınlardır, xaindirlər. Onlar təlimatları xaricdən alırlar. Onların emissarları xarici paytaxtlarda oturublar. Oradan pul alırlar bura göndərirlər, camaatı çaşdırmaq üçün, onlar bizim şanlı Qələbəmizə kölgə salmaq istəyirlər. Onlar Paşinyanı bizə nümunə gətirirdilər, onu təmiz adam adlandırırdılar, onu demokrat adlandırırdılar. Deyirdilər ki, kaş ki, Azərbaycanda da belə bir lider olaydı".[606]

Həmin qrupların məqsədi Azərbaycanı qarışdırmaq, xaos və anarxiya yaratmaq, rəhbərliyi hörmətdən salmaq, çirkin uydurmalar, iftiralar, yalançı məqalələr yazdırmaq idi. Onlar dövləti və milləti əsas vəzifəsindən çəkindirmək istəyirdilər ki, baş daxili çəkişmələrə qarışsın və işğal edilmiş torpaqlar ermənilərin əlində əbədi qalsın. Dövlət başçısı belə qruplar haqqında deyirdi:

604 İlham Əliyev: "Biz reallıqları yaradan ölkəyik" // "Azərbaycan" qəzeti, 2021, 6 mart.
605 Yenə orada.
606 Yenə orada.

"Bizim şanlı Ordumuzun Qələbəsinə kölgə salmaq istəyənlər də bu məqsədi güdür. Azərbaycan tarixində bəlkə də onlar kimi iyrənc insanlar olmayıb".[607]

İkincisi, qələbənin qazanılmasında iqtisadi amil, Azərbaycanın iqtisadi qüdrəti vacib rol oynadı. İqtisadi hazırlıq olmadan düşmənə qalib gəlmək mümkün deyildi. Ölkədə aparılan düzgün iqtisadi siyasət qüdrətli dövlətin yaradılmasında və düşmən üzərində qalib gəlməkdə başlıca rol oynadı. Ermənistan iqtisadi güc baxımından Azərbaycanla rəqabət apara bilməzdi. Dövlət başçısının fikrincə:

"...iqtisadi müstəqillik həm hazırlıq baxımından, həm siyasi müstəqilliyin möhkəmləndirilməsi baxımından əsas şərt idi. Buna da nail olduq. Bu gün istənilən meyar üzrə, istənilən parametr üzrə heç kimdən asılı deyilik, iqtisadi sahədə ən qabaqcıl yerlərdəyik - istər xarici borc baxımından, istər iqtisadi artım baxımından və adambaşına düşən valyuta ehtiyatları baxımından. Yəni, biz istənilən meyar üzrə qabaqcıl yerlərdəyik..."[608]

Üçüncüsü, müharibədə qələbə qazanılmasında ordu quruculuğu başlıca rol oynadı. Ötən illər ərzində ölkədə ordu quruculuğuna xüsusi diqqət yetirilmiş, müasir ordu, müdəfiə sənayesi, hərbi sənaye kompleksi yaradılmışdı. Azərbaycan Ordusu gücünə görə, dünyanın ilk 50 ordularının cərgəsində idi. Bununla əlaqədar olaraq ölkə başçısı bildirirdi:

"... ordu quruculuğu hazırlığı da əsas məsələlərdən biri idi və bizim şanlı Qələbəmiz hər şeyi özü deyir".[609]

Dördüncüsü, müharibədə qələbənin qazanılmasında yürüdülən uğurlu xarici siyasət fəaliyyəti, informasiya işi, qonşu dövlətlərlə mehriban münasibətlərin qurulması mühüm rol oynamışdı. Ötən illər ərzində Azərbaycan dövləti bölgədə şəraiti dəyişdirə, tərəfdaşlarının sayını artıra bilmişdi. 2003-2020-ci illərdə Azərbaycanın beynəlxalq məsələlərdə atdığı adımlar barədə danışan Prezident İlham Əliyev deyirdi:

"...biz köklü surətdə bölgəmizdə vəziyyəti dəyişdirə bildik. Mən xarici siyasətlə bağlı çıxışlarımda demişdim ki, prioritetlər arasında qonşu ölkələrlə bizim əməkdaşlığımız xüsusi yerə malikdir. Amma bununla bərabər, biz bütün başqa ölkələrlə də münasibətlər qurduq. Bu gün bir ölkə yoxdur ki, bizim o ölkə ilə hansısa problemimiz olsun. Biz Avropa İttifaqı ilə sıx əlaqələr qurmuşuq.".[610]

Qələbənin qazanılmasında beynəlxalq hüquqi baza əsaslı yer tutmuşdu. 2005-ci ilə qədər əsas hüquqi baza ancaq BMT Təhlükəsizlik Şurasının qətnamələri olsa da, onlar icra edilmirdi. 2005-ci ildə Avropa Şurası Parlament Assambleyası, BMT Baş Məclisi, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı,

607 Yenə orada.
608 Yenə orada.
609 Yenə orada.
610 Yenə orada.

Qoşulmama Hərəkatı və digərləri uzun müzakirələrdən sonra aparılan iş nəticəsində Azərbaycanı qane edən qətnamə qəbul etmişdi. Bütün bunlar ərazilərin işğaldan azad edilməsində beynəlxalq hüquqi baza olmuşdu.

Nəhayət, qələbənin qazanılmasında Azərbaycan Respublikasının Prezidenti, Silahli Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin üstün zəkası, yüksək sərkərdəlik məharəti, diplomatiyası, qəti iradəsi və hərbi strategiyası mühüm rol oynadı.

21.3. Zəfərin Azərbaycan üçün əhəmiyyəti

Üçtərəfli birgə bəyanatın imzalanması müharibədə Ermənistanın rüsvayçı hərbi təslim aktı idi. Çünki hərbi əməliyyatların başladığı ilk gündən Prezident İlham Əliyev Ermənistan qarşısında tək bir şərt irəli sürərək bildirmişdi ki, Ermənistanın xarici işlər naziri, müdafiə naziri və ya başqa kimsə deyil, şəxsən baş nazir N.Paşinyan işğalçı qoşunların nə zaman çıxarılacağına dair qəti fikrini söylədikdən və konkret cədvəl verdikdən sonra hərbi əməliyyatlar dayandırılacaqdır. Nəticə ondan ibarət oldu ki, bir neçə ay əvvəl Azərbaycan qarşısında 7 şərt irəli sürən N.Paşinyan Prezident İlham Əliyevin tək şərtini qəbul etməyə və onun Müzəffər Ali Baş Komandan çəkmələrinin qarşısında diz çökərək hərbi təslim aktını imzalamağa məcbur oldu. Qazanılan qələbənin həm Azərbaycan, həm region, həm də bütün dünya üçün böyük tarixi əhəmiyyəti var idi.

Müharibədə Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövləti qarşısına qoyduğu başlıca məqsədə – işğal altında qalan torpaqları azad etməyə nail oldu. Qəhrəman Azərbaycan əsgər, gizir və zabitlərinin şücaəti sayəsində düşmən darmadağın edildi. Vətən torpağı heç bir zaman ölməyəcək, Azərbaycan milləti və dövləti əbədi mövcud olduqca yaşayacaq şəhid qanları ilə suvarıldı. Azərbaycan dövləti, ordusu və milləti bu müharibədən qalib çıxdı, Ermənistan isə hərbi, diplomatik-siyasi, iqtisadi, idarəçilik, ideoloji, mənəvi-psixoloji və b. baxımdan rüsvayçı şəkildə məğlub edildi.[611] Dünyanın 50 qabaqcıl ölkəsinin orduları cərgəsində yer tutan Azərbaycan Ordusu uzun illər boyu uydurulmuş "yenilməz Ermənistan ordusu" mifini darmadağın etdi. İşğalçı Ermənistan ordusunun 10 mindən yuxarı əsgər və zabiti fərarilik edərək döyüş meydanından qaçdı. Azərbaycan Ordusu düşmənin külli miqdarda döyüş texnikası və sursatını qənimət olaraq ələ keçirməklə təkcə Ermənistanı deyil, onu silahlandıran dövlətlərin ümidlərini darmadağın etdi, əslində onların da üzərində qələbə qazandı.

611 Qasımlı M. İlham Əliyevin zəfəri // "Azərbaycan" qəzeti, 2020, 5 dekabr.

Qazanılan qələbə dünya mədəniyyəti yaradan Azərbaycan millətinin yüksək mədəniyyətinin erməni vandalizmi üzərində parlaq qələbəsi idi. Müharibənin nəticəsində Azərbaycan dövləti təkcə ərazilərini deyil, eyni zamanda mədəniyyətini barbarların işğalından azad etdi.

Hər bir azərbaycanlının qəlbində xüsusi milli-mənəvi yeri olan Şuşa şəhərinin azad edilməsi bütün Qarabağın Azərbaycana qaytarılması demək idi. Şuşa Qarabağın tacı, açarıdır. Şuşa kimdədirsə, Qarabağ da ondadır.Hələ Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev bildirmişdi ki, Şuşasız Azərbaycan yoxdur. Şuşanın işğaldan azad edilməsi və yenidən qovuşması Azərbaycanın varlığı, inkişafı və daha güclü dövlət olması demək idi. Bununla Azərbaycan dövləti və millətinin qarşısında yeni perspektivlər açılırdı.

Hərbi əməliyyatların əvvəllərində Azərbaycanın bədxahları yazırdılar ki, guya döyüşü PUA-lar, dronlar udur. Bütün bunlar cəfəngiyyatdan başqa bir şey deyildi. Döyüş meydanında düşməni əzərək dastan yazan igid Azərbaycan hərbçiləri idi. Sıldırım qayalıqlardan, dağlardan aşaraq Şuşa şəhərində əlbəyaxa döyüşlərdə Azərbaycan əsgəri qələbə qazanaraq dünya hərb tarixində parlaq səhifə yazdı.

Qazanılan qələbə Azərbaycan xalqını məğlub xalqdan qalib xalqa, məğlub dövlətdən qalib dövlətə çevirdi. Bu qələbə millətin başını uca etdi, üstündəki ləkəni sildi, əyilmiş qamətini, belini düzəltdi, başını dik etdi, özünə inam, güvən hissi yaratdı. Hələ ötən əsrin 80-ci illərində xarici ölkə tarixçiləri yazırdılar ki, Azərbaycanın şimal torpaqları çarizm tərəfindən işğal olunduqdan sonra azərbaycanlılar daim sındırılmış və özlərinə inamsız halda Bakı küçələrində gəzirdilər. Onların fikrincə, XX əsrdə azərbaycanlılar yalnız iki dəfə Bakı küçələrində başlarını dik tutaraq gəzmişdilər: birinci dəfə 1918-ci ildə Azərbaycan və Osmanlı hərbi hissələrindən ibarət qurulmuş Qafqaz İslam Ordusu tərəfindən Bakı şəhəri yadelli qüvvələrdən azad edildikdən sonra, ikinci dəfə isə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi Heydər Əliyev 1976-cı ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ildə isə Siyasi Büro üzvü seçildikdən və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edildikdən sonra.

Azərbaycanlılar Prezident İlham Əliyevin müdrik dövlət rəhbərliyi, planetar təfəkkürü, mahir strateqliyi, diplomatik-siyasi ustalığı və yüksək sərkərdəlik məharəti sayəsində son 200 ildə üçüncü, XXI əsrdə isə birinci dəfə təkcə Bakı küçələrində və ölkədə deyil, dünyanın hər bir yerində başını dik tutaraq, özünə güvənərək qalib millətin nümayəndələri kimi qürur hissi ilə addımlamağa baş-

ladılar. Azərbaycan milləti və dövləti mövcud olduqca qalacaq bu böyük zəfərin memarı Prezident İlham Əliyevdir.[612]

Azərbaycan təkcə hərb meydanında qələbə qazanmadı. Qazanılan qələbə Azərbaycan iqtisadiyyatının Ermənistan iqtisadiyyatı üzərində əzici qələbəsi oldu. Qələbə belə bir fikrin nəinki mövcud şəraitdə düzgün olduğunu təsdiq etdi, eyni zamanda gələcək nəsillər üçün də örnək oldu ki, iqtisadi cəhətdən müstəqil, güclü dövlət hər şeyə qadirdir. Cənubi Qafqaz iqtisadiyyatının təqribən 75%-ni təşkil edən Azərbaycan iqtisadiyyatı qarşısında Ermənistan tab gətirə bilmədi. Qələbənin dünya bazarlarında neftin qiymətinin aşağı düşdüyü, koronavirus pandemiyasının tüğyan etdiyi ağır bir şəraitdə qazanılması Prezident İlham Əliyevin uzun illərdən bəri yürütdüyü iqtisadi inkişaf strategiyasının düzgünlüyünü bir daha təsdiq etdi. Ordunun bütün təchizatı uğurla təmin edildi.

"Könüllü" adı altında küçələrdən ermənilər cəbhəyə zorla yığarkən "varınızdırsa, özünüzlə hərbi geyim, çəkmə gətirin" xahişləri edən, əsgərini yeməklə təmin edə bilməyən qurama Ermənistan dövlətinin qüdrətli Azərbaycan iqtisadiyyatı qarşısında diz çökməsi təbii idi. İşğalçı ölkə resurs müharibəsinə hazır deyildi və bundan ötrü potensialı da yox idi, məğlubiyyəti labüd idi.

Müharibədə Azərbaycanın hərbi-sənaye kompleksi və müasir texnologiyası Ermənistan üzərində qələbə qazandı. Dövlət büdcəsində hərbi xərclərin daim artırılması, ordu quruculuğuna xüsusi diqqətin yetirilməsi, yeni texnologiyaların işlənilməsi, tətbiqi və səmərəli beynəlxalq əməkdaşlıq nəticəsində Azərbaycanda inkişaf etmiş hərbi-sənaye kompleksi qurulmuşdu. Müasir hərbi-sənaye kompleksinin məhsulları döyüş meydanında düşmən üzərində hakim oldu.

Savaşda qazanılan böyük zəfər Azərbaycan hərb mütəxəssislərinin və azərbaycanlı zəkasının Ermənistan hərbi mütəxəssisləri və "intellekti" üzərində parlaq qələbəsi oldu. Müasir silahları idarə edən Azərbaycan mütəxəssislərinin biliyi, bacarığı və zəkası üstünlüyünü təsdiq etdi. Həmin azərbaycanlı mütəxəssislərin böyük əksəriyyəti bilavasitə Prezident İlham Əliyevin liderliyində yürüdülən dövlət siyasətinin nəticəsində yetişmişdi.

Qazanılan qələbə Azərbaycanda dövlət və millətin, milli-mənəvi birliyin təcəssümü idi. Əgər millət Prezident İlham Əliyevə güvənməsəydi, yürütdüyü siyasət nəticəsində dövlət hakimiyyəti və millət arasında sıx birlik və yekdillik yaradıla və deməli, qələbə də qazanıla bilməzdi. Qələbə indiki və gələcək nəsillərə belə bir dərs verdi ki, yalnız güclü dövlət, qüdrətli millət və lider hər şeyə qadirdir. Prezident İlham Əliyev Ümummilli lider Heydər Əliyev tərəfindən qurulan güclü Azərbaycan Respublikası dövlətini yeni şəraitə uyğun müasirləş-

612 Yenə orada.

dirərək qələbəni təmin etdi. Ən çətin və mürəkkəb şəraitdə Azərbaycan dövlətini qələbəyə gətirən dövlət və millət birliyinin rəmzi məhz Prezident İlham Əliyevin sarsılmaz iradəsi, qətiyyəti oldu.

Bu qələbə səmərəli və çevik Azərbaycan dövlət idarəçilik sisteminin qələbəsi idi. Qeyd etmək lazımdır ki, koronavirus pandemiyasının yaratdığı dünya böhranı, neft qiymətlərinin aşağı düşməsi, hər günü böyük məsrəflər tələb edən müharibənin aparılması ilə paralel olaraq dövlət həyatının bütün sahələrində aparılan islahatların uğurla başa çatdırılması, pandemiya ilə əlaqədar olaraq işləməyən milyonlarla insana sosial yardımların edilməsi, ali məktəblərə dövlət sifarişli yerlərin sayının artırılması, şəhid ailələri və müharibə əlilləri üçün evlərin və mənzillərin tikilməsi dünya ölkələrinin dövlətçilik tarixində nadir hadisə idi. İslahatların uğurla nəticələnməsi müharibədə zəfəri şərtləndirən amillərdən biri oldu. Bir daha aydın oldu ki, yalnız çevik və səmərəli idarəçilik dövlətin və millətin qarşıya qoyduğu məqsədlərə nail olmasının başlıca şərtlərindən biridir.

Qazanılan qələbə yaradıcı, dinamik, enerjili, yüksək milli ruhlu Azərbaycan cəmiyyətinin kin, küdurət, nifrət, qısqanclıq hissləri içərisində boğulan və yaradıcılığın nə olduğunu bilməyən erməni cəmiyyəti üzərində qələbəsi oldu. Müharibənin yekunu göstərdi ki, əgər erməni cəmiyyəti başına gələnlərdən düzgün nəticə çıxarmasa, qonşuları ilə normal münasibətlər qurmasa, düşdüyü ağır bataqlıqdan ya tamamilə çıxa bilməyib məhv olacaq, ya da hələ çoxlu onilliklər bundan sonra da onun içərisində çabalamalı olacaqdır.

Prezident İlham Əliyev təkcə hərb meydanında qazanılan qələbənin memarı deyil, eyni zamanda Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış münaqişənin gedişində blokadaya salınmış Naxçıvana gedən dəmiryolu və avtomobil yolunun tikintisinə dair maddənin üçtərəfli bəyanata daxil edilməsinə nail olmaqla həm bu regionun problemini həll edən, həm də bütövlükdə daha geniş miqyaslı geoiqtisadi layihənin icrasına imkan yaradan mahir strateq, görkəmli dövlət və siyasi xadim olduğunu təsdiq etdi.[613] Həmin maddədə nəzərdə tutulanların yerinə yetirilməsi nəticəsində Naxçıvanın blokadasına son qoyulacaq, İqdır-Naxçıvan dəmiryolunun tikintisi ilə Azərbaycan Türkiyə ərazisindən keçərək Avropaya çıxa, eyni zamanda Fars körfəzinə enə biləcək, Naxçıvan dünyanın mühüm nəqliyyat-kommunikasiya mərkəzinə çevriləcəkdir. Beləliklə, Bakı-Tbilisi-Qars dəmiryolu ilə yanaşı Naxçıvandan keçməklə işə düşəcək ikinci yol böyük faydalar gətirəcəkdir. Bu yolun işə düşməsi nəticəsində Türkiyənin türk dünyası ilə quru əlaqəsi qurulacaqdır. Rusiya və İran Azərbaycan və Türkiyə ərazisindən keçməklə Avropaya çıxmaq imkanı əldə edəcəklər. Beləliklə, region-

613 Yenə orada.

da iqtisadi əməkdaşlıq canlanacaqdır.[614] Ermənistan isə Azərbaycan ərazisindən keçməklə Rusiya ilə əlaqə quracaqdır.

Prezident İlham Əliyev təkcə hərb meydanında deyil, diplomatik-siyasi sahədə də böyük ustalıqla və məharətlə qələbə qazanaraq zəmanəsinin mahir diplomatı olduğunu təsdiq etdi.

Azərbaycan Respublikasının bir neçə il əvvəl BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olması, Qoşulmama Hərəkatına sədrliyi, Azərbaycan – Rusiya – İran, Azərbaycan – Türkiyə – Gürcüstan üçtərəfli formatda əməkdaşlığının səmərəliliyi müharibə zamanı öz təsirini göstərdi. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin "Dağlıq Qarabağ və ətraf rayonlar Azərbaycan Respublikasının ərazisidir" deyərək tarixi ədalətin tərəfində oldu. İran İslam Respublikası və Gürcüstan da eyni mövqe tutaraq sərhədlərini işğalçı ölkəyə silah daşınması üçün bağladılar. Bu siyasət Prezident İlham Əliyevin daim xüsusi diqqət yetirdiyi "bizim üçün qonşularla yaxşı münasibətlər başlıca məqsəddir" fikrinin təkcə mövcud şəraitdə nə qədər əhəmiyyətli olduğunu göstərmədi, eyni zamanda gələcək üçün də bir model yaratdı.

Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun həyata keçirdiyi uğurlu beynəlxalq humanitar siyasət və Prezident İlham Əliyevin müharibə zamanı dünyanın nüfuzlu media qurumlarına verdiyi müsahibələri uzun illər boyu aparılan uydurma erməni təbliğatını darmadağın etdi. Qisasçılıq, kin-küdurət içində boğulan dağıdıcı erməni ideologiyası birləşdirici, qurucu Azərbaycan ideologiyası qarşısında məğlub oldu.

Azərbaycana qarşı işğalçılıq siyasətinə və müharibə cinayətləri törədərək vurduğu ziyanlara görə işğalçı ölkə və xarici şirkətlər təzminat ödəməlidir. 30 il ərzində Azərbaycan ərazilərini, şəhər, kənd və qəsəbələri dağıdıb, təbii sərvətləri talayıb, satıb gəlirlər əldə edən işğlaçı ölkə, hərbi əməliyyatların gedişindən uzaqda yerləşən Gəncə və Bərdədə, eyni zamanda Tərtər və b. rayonlarda mülki əhalini qətlə yetirmiş, soyqırım törətmiş və mülki infrastruktura ağır ziyan vurmuşdur. Azərbaycan hökuməti 30 il ərzində məcburi köçkünlərin saxlanılması üçün külli miqdarda vəsait xərcləmiş və torpaqları azad etməkdən ötrü apardığı müharibədə məsrəflər çəkmişdir. Ermənistan yüz minlərlə azərbaycanlıya mənəvi ziyan vurmuşdur. Təzminat davasının açılması, Ermənistanın boynuna boyunduruğun salınması təkcə haqq-ədalətin bərpası, beynəlxalq hüququn tələbi deyil, həm də işğalçılıq xəyallarına düşən digər dövlətlərə, dərs kimi lazımdır.

614 Yenə orada.

21.4. Qələbənin region və dünya üçün əhəmiyyəti

Qazanılan qələbənin region və dünya üçün əhəmiyyəti vardır. Müharibədə qalib gələn Azərbaycan dövləti dünya siyasətində həllini gözləyən bir sıra məsələləri uğurla həll etdi. Hər şeydən əvvəl, Azərbaycan Respublikası bu qələbə ilə BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin icrasını yerinə yetirərək təşkilatın nüfuzunu, ona olan inamı bərpa etdi.[615]

Ermənistan təkcə hərb meydanında məğlub edilmədi. Prezident İlham Əliyev dünyanın məşhur KİV-lərinə verdiyi müsahibələri ilə bir neçə yüz il boyunca dünyanı aldadan uydurma erməni təbliğatını darmadağın etdi. Milyonlarla insan erməni yalanlarını anladı və erməni faşizminin iç üzünü gördü. Bir daha məlum oldu ki, erməni faşizmi nasizmdən daha qəddar və iyrəncdir.

Müharibənin əvvəlindən xristianların dini hisslərini hiyləgərliklə istismar edən Ermənistanın baş verənləri xristianlıq əleyhinə qələmə vermək cəhdləri puça çıxdı. Artıq uzun illər idi ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi altında Bakıda mədəniyyətlərarası, sivilizasiyalararası, dinlərarası dialoq, humanitar forumlar keçirilirdi. Dünya ölkələri və xalqları Azərbaycanda müxtəlif dini inanclı insanların birgə yaşayışının, məscidlərin, kilsələrin və sinaqoqların yanaşı fəaliyyət göstərməsinin şahidi olurdu. Bakıdakı erməni kilsəsi dövlət tərəfindən qorunurdu. Heydər Əliyev Fondu Vatikanda, Parisdə və b. şəhərlərdə kilsələri, Hun imperatoru Atilla ilə Roma Papasının görüşünü əks etdirən freskanı təmir etdirmişdi. Bütün bunlar Azərbaycan dövlətinin yürütdüyü siyasətin əyani təzahürü olmaqla dünya üçün də nümunə idi.

Bəs Ermənistan hansı siyasəti yürütmüşdü? Azərbaycanlılar tarixi torpaqları olan Ermənistandan vəhşicəsinə qovulmuş, məscidlər, müsəlman qəbiristanlıqları tamamilə dağıdılmış, işğal edilmiş ərazilərdə məscidlər donuz, mal-qara tövləsinə çevrilmişdi. Ayaqqabı ilə girilməyən Allahın evinə belə münasibətin yalnız bir adı var idi: vəhşi icma, qəbilə təfəkkürü! İşğal altındakı torpaqlarda qəbiristanlıqlar dağıdılmış və ölülərin qızıl dişləri çıxarılmışdı. Əslində Ermənistan bu barbar hərəkətləri ilə sülh dini olan xristianlığa və xristianlara daim ləkə gətirdiyini bir daha təsdiq etmişdi.[616]

Müharibənin gedişində Ermənistan təbliğatının guya "ikinci erməni soyqırımı" törədiləcək iddialarının da tamamilə əsassız olduğu təsdiq edildi. Azərbaycan dövləti "soyqırımı" həyata keçirsəydi, Bakıda bir neçə min nəfər erməni necə

615 Yenə orada.
616 Yenə orada.

yaşaya bilərdi?[617] Hətta Xankəndiyə daxil olmaq an məsələsi olsa da, Azərbaycan Ordusu bunu etməmişdi.

Azərbaycanın haqq işinin Türkiyə tərəfindən müdafiə edilməsini ermənilərin "turançılıq", "pantürkizm" və "yeni osmançılıq" kimi qələmə vermələrinə dair iyrənc təbliğat da puça çıxdı. Ermənistan baş nazirinin Avropa ölkələrinə müraciətlə "ermənilər Türkiyədən müdafiə etmirsiniz, o zaman az vaxt keçər Türkiyəni yenidən Vyana qapılarında görərsiniz" kimi cəfəng sözlərinə kimsə inanmadı. Türkiyənin Azərbaycanı mənəvi və siyasi baxımdan müdafiə etməsi "turançılıq", "pantürkizm" və "yeni osmançılıq" deyil, haqq-ədalətin və beynəlxalq hüquq prinsiplərinin yanında olması demək idi.

Azərbaycanın zəfəri eyni zamanda ermənilərin birbaşa və ya gizli şəkildə əsassız ərazi iddiaları irəli sürdükləri Gürcüstan, Rusiya, Türkiyə və İranın da qələbəsi idi. Məlum olduğu kimi, Gürcüstanın Samtsxe-Cavaxeti bölgəsini Ermənistana birləşdirmək məqsədilə separatçılıq fəaliyyətləri ilə məşğul olan erməni təşkilatları belə hesab edirlər ki, onların təminatçısı Tbilisi deyil, İrəvandır.[618] Azərbaycanın qələbəsi gürcü xalqının qələbəsi, Gürcüstanda yaşayan ermənilərin Ermənistana birləşmək xəyallarının puç olması, onların da böhranının dərinləşməsi demək idi. Heç əbəs deyildir ki, bir çox gürcü alimləri Azərbaycanın qələbəsini Gürcüstanın qələbəsi kimi qiymətləndirirdilər. Əvvəlki illərdə olduğu kimi, müharibə günlərində də Ermənistanın Azərbaycan – Gürcüstan münasibətlərini pozmaq cəhdləri iflasa uğradı.[619]

Azərbaycanın qələbəsi Rusiyada yaşayıb sərvət toplayan, yüksək məqamlara yüksələn, lakin rus xalqına arxadan zərbə vuran, ayaqlarının altını qazan və Qara dəniz sahilləri torpaqlarına əsassız iddialar irəli sürən ermənilər də böhrana düşürdü.

Qazanılan qələbə Türkiyəyə qarşı tarixdə olmayan qondarma "soyqırımı" tanıtma, təzminat, torpaq tələbləri irəli sürən ermənilər təkcə siyasi deyil, eyni zamanda mənəvi-psixoloji böhrana saldı.

İrandan yardımlar alan Ermənistanın rəsmi Tehrana xəyanət edərək ona düşmən olan ölkələrin əlində vasitəyə çevrilməsi də aydın oldu. Sərhədlərini bağlayan İran xəyanətkar Ermənistana silah daşınmasına imkan vermədi. Bu işdə cənubi azərbaycanlıların fəal mövqeyi də başlıca rol oynadı.

617 Qasimli M. Armenia: lies and realities // https:moderndiplomacy.eu/2020/10/28armenia-lies-andrealities/?Fbclid.

618 Bax: Qasımlı M., Ömərov V., Məmmədova N., Həbibbəyli S., Salayev K. Gürcüstanda erməni təşkilatlarının fəaliyyəti (XIX əsr-XXI əsrin əvvəlləri). Bakı, 2020.

619 Həbibbəyli S. Azərbaycan – Gürcüstan münasibətlərini pozmaq Ermənistanın əsas hədəflərindəndir // "Azərbaycan" qəzeti, 2020, 14 oktyabr.

Qələbə xarici ölkələrdə yaşayan ermənilərə və erməni lobbisinə ağır zərbə endirdi. Bundan sonra zəngin ermənilər heç bir gələcəyi olmayan Ermənistana sərmayə qoymaqda və pullarını havayı yerə göyə sovurmaqda maraqlı olmayacaqdır.

Müharibədə qazanılan qələbə uzun əsrlər boyu özlərini dünya ölkələrinə və xalqlarına hiyləgərliklə "mədəni xalq" kimi sırıyan ermənilərin iç üzünü açdı. Maskası yırtılan ermənilərin vəhşi olduğunu dünya ölkələri və xalqları əyani olaraq gördü. Tərtər şəhərində, hərbi əməliyyatlar meydanından uzaqda yerləşən Gəncə, Bərdə və Ağcabədidə yaşayış binalarının qadağan edilmiş raketlərdən atəşə tutularaq dağıdılması həm ağır müharibə cinayəti, həm də Ermənistan rəhbərliyinin vəhşiliyinin göstəricisi idi.

Döyüş meydanında hərbi mundirini, papağını, biletini qoyub qaçan, yaralı əsgərlərini və meyitlərini götürüb aparmayan ermənilərin Azərbaycanın işğal altında saxladıqları ərazilərini boşaltmağa məcbur olub Kəlbəcəri tərk edərkən unitazı qucaqlarına alıb daşımaları bir daha göstərdi ki, bunlar üçün bir unitaz döyüş meydanında gəbərmiş işğalçı erməni əsgərinin cəsədindən daha qiymətlidir. Müharibə ermənilərin nə qədər qorxaq olduğunu bir daha təsdiq etdi.

Dünyanın məktəbə, maairfə, səhiyyəyə ehtiyac duyduğu bir zamanda ermənilərin Kəlbəcər, Laçın və digər yerlərdə təkcə yaşayış evlərini deyil, kitabxanaları, məktəbləri, klubları və tibb məntəqələrini yandırması, dünyanın ağ ciyərləri hesab edilən meşələri doğrayıb məhv etməsi erməni vəhşiliyinin daha bir göstəricisi idi.

Ermənistan Azərbaycana qarşı amansız hidroterroru da həyata keçirmişdi.[620] Bir zamanlar Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinin guya ekologiyaya ziyan vuracağını söyləyən dairələrin, "yaşıllar"ın, qeyri-hökumət təşkilatlarının bu vəhşilik qarşısında susmaları onların riyakarlığını göstərdi. Belə mövqe ikili standartların iyrənc nümunəsi idi.

Ermənistan haqsız və gücsüz olduğu üçün müharibədə məğlub oldu. Həm haqq-ədalət, həm də beynəlxalq hüquq Ermənistanın tərəfində deyildi.

Hərbi əməliyyatların dayandırılmasının Ermənistan üçün faydası oldu. Azərbaycan dövlətinin şərtlərini qəbul etməsəydi, qurama Ermənistan Respublikası dünyanın siyasi xəritəsindən silinə bilərdi.

Tarixi fakt və materiallar göstərir ki, bəlli amillərin təsiri altında çarizm daim ermənilər himayə etmiş, əvəzində isə onlar rus xalqına və Rusiyaya daimi xəyanət etmişlər.[621] Məlum olduğu kimi, çarizm ermənilər XIX əsrdə və sonralar Cənubi Qafqaza gətirərək azərbaycanlılara məxsus torpaqlara yerləşdirmiş

620 Baxşıyeva Y. Hidroterror // "Azərbaycan" qəzeti, 2020, 16 oktyabr.
621 Qasımlı M. Erməni kilsəsinin xristianlıq və Rusiya əleyhinə fəaliyyətləri // "Azərbaycan" qəzeti, 2020, 12 noyabr.

və onlara əlverişli şərait yaratmışdı. Əvəzində 1905-1906-cı illərdə erməni terror-siyasi təşkilatları Rusiyanı zəiflətmək məqsədilə fəaliyyət göstərmiş və ona düşmən olan xarici ölkələrin agentləri kimi çalışmışdılar. Erməni terror-siyasi təşkilatları Birinci Dünya müharibəsi illərində çarizmdən silahlar alıb bandalar düzəltsələr də, sonradan həmin silahı ruslara və Rusiyaya qarşı yönəltmişdilər.[622] 1918-ci ildə Brest-Litovsk barışığı zamanı Cənubi Qafqazın xəritəsi müəyyənləşdirilərkən ermənilər üçün də nəzərdə tutulan, azərbaycanlılara məxsus bir ərazidə 1918-1920-ci illərdə qurulan daşnak Ermənistanından rusları qovmuşdular. Həmin illərdə Ermənistanda rusların sayı 15 min nəfərdən 14 min nəfərə düşmüş və ya 7% azalmışdı.[623] Sovet hakimiyyəti illərində Mərkəz Ermənistana nə qədər qayğı göstərsə, onu dotasiya ilə yaşatsa da, ermənilər daim ruslara nifrət etmiş, rus dilinə və mədəniyyətinə həqarətlə baxmışlar.

1991-ci ildən sonra mövcud olan bütün hakimiyyətlər zamanında Ermənistanda yürüdülən xarici siyasət xətti əslində Rusiyanın və rus xalqının əleyhinə olmuşdur. Ermənilər Rusiyadan hərbi-texniki və digər yardımlar alaraq, Azərbaycan ərazilərini işğal edib çirkin niyyətlərinə çatmış, arxadan isə Rusiyanın və rusların kürəyinə xəncər sancmışlar. Yürüdülən ayrı-seçkilik siyasəti nəticəsində Ermənistanda rus əhalisi demək olar ki, yoxdur. Rus məktəblərinin və kütləvi informasiya vasitələrinin çoxu bağlanmışdır.[624]

Çətin vəziyyətdə olan Ermənistan bir tərəfdən, Rusiyaya yalvarır, digər tərəfdən isə yenə də ona arxadan zərbə vurmağa hazırlaşır. Erməni təşkilatları Rusiyanın Qara dəniz sahili torpaqlarına iddia edirlər.[625]

Ermənistanda bəzi partiya və qruplar üçtərəfli bəyanatı təftiş etməyə, qisas almağa və yeni müharibəyə cəhdlər edirlər. Müharibə çağırışları birbaşa Rusiyanın nüfuzunu sarsıtmaq, regionda sabitliyin yaranmasında maraqlı olmayan dövlətlərin siyasətinə nökərçilik etməkdir. Bəzi erməni siyasətçiləri deyirlər ki, guya Ermənistan Cənubi Qafqazda Rusiyanın yeganə strateji müttəfiqidir. Əslində Ermənistan Rusiyanın çiyinlərində bir yükdür, siyasəti ilə rus xalqına və Rusiyaya yalnız hörmətsizlik gətirir. Regionda Rusiya əleyhinə olan ən xırda əhval-ruhiyyə varsa, onun kökü daim əsassız iddiaları ilə haqsız olan ermənilərin davakar davranışları ilə bağlıdır.

622 Yenə orada.
623 Qasımlı M. "Erməni məsələsi"ndən "erməni soyqırımı"na: gerçək tarix axtarışında (1724-1920). Bakı, 2014, s.424.
624 Мусаева Г. Ситуация с русским языком в Армении // Газ. "Бакинский рабочий", 10.10.2020.
625 Kəlbizadə E. Ermənilərin Abxaziyada məkrli niyyətləri və hədəfi: "Qaradənizsahili Ermənistan" // "Xalq qəzeti", 2020, 16 oktyabr.

Ermənistanda digər millətlər üçün yaşamağa təminatlar mövcud deyildir. Yəhudilər daim sıxışdırılımış və ölkədən çıxarılmışlar. Antisemitizmin tüğyan etdiyi ölkələr arasında Ermənistan ön yerlərdədir.[626]

Hərbi əməliyyatlar Ermənistanın rüsvayçı məğlubiyyəti ilə başa çatsa da, İrəvanda hələ revanşizm çağırışları eşidilir. Ermənistanın yeni müharibə cəhdi ilk növbədə özünü intihar etmək deməkdir. Müharibədə qalib gəlmək üçün dövlətin qüdrəti lazımdır. Ermənistanın belə bir gücü, insan ehtiyatı və potensialı yoxdur. Müharibənin gedişində Ermənistan ordu sıralarını doldurmağa adam tapa bilmir, uşaqları və qadınları cəbhəyə yollayırdı. Dərin demoqrafik böhranın mövcud olduğu, əhalisinin artmadığı, əksinə yaşayanların da tərk edib getdiyi Ermənistanın bir dövlət kimi gələcəyi yoxdur. Xarici ölkələrdən uzun on illər boyu olduğu kimi, ermənilərin aldadılıb Ermənistana gətirilməsi nağıllarına inanan daha yoxdur. Deməli, yeni müharibə olacağı təqdirdə Ermənistanda döyüşə getməyə heç qocalar da qalmayacaqdır. Prezident İlham Əliyevin dediyi kimi, Ermənistan əgər müharibə istəyəcəksə, eyni nəticəni alacaqdır.

Müharibə dövlətin maliyyə-iqtisadi qüdrəti, hərbi-sənaye kompleksinin gücü ilə aparılar. Xarici borc bataqlığında olan Ermənistanda belə bir sənayeni qurmağa imkan yoxdur. Ermənilərin elmi-intellektual potensialı da bu işləri görmək iqtidarında deyildir.

Azərbaycan dövlətinin qazandığı qələbə ermənilərin bədbəxtliyinin köklərini bir daha üzə çıxartdı. Göstərdi ki, erməni ünsürünün bədbəxtliyinin başlıca səbəbi son iki yüz ildə gəlib yerləşdiyi və aborigen olmadığı regionda yerli xalqlarla dil tapıb keçinməməkdə və üçüncü qüvvəni buraya gətirməkdədir. Müstəqil yaşamaq təfəkkürünə və potensialına sahib olmadığından daim qul psixologiyasına malik olan bu ünsür Rusiyadan istifadə edib istəklərinə çatır, sonra xəyanət edərək ona arxadan zərbə endirir, çətin vəziyyətə düşən kimi "bizi xilas edin" deyərək haray-həşir salır. Ermənilər belə hesab edirlər ki, rus əsgərləri gəlib onların avantürist xəyalları yolunda ölməli, anaları gözüyaşlı qalmalı, bu ünsür isə yenə də özünü həyasız aparmalı və Rusiyaya xəyanət etməlidir.

Müharibədə qazanılan qələbə eyni zamanda ermənilərin nicatının nədə olduğunu göstərdi. Ermənilərin nicatı qonşu xalqlarla, ilk növbədə Azərbaycanla mehriban qonşular kimi yaşamaqdan keçir. Ermənistan rəhbərliyi başa düşmür ki, hər bir xalqın inkişafı üçün başlıca amil təkcə təbii sərvətlər, ərazi deyil, qarşılıqlı faydalı əməkdaşlıqdır. Ermənistan əməkdaşlığa hazır olmayan ölkədir. Əsassız iddialarından əl çəkəcəyi və əməkdaşlığa hazır olacağı təqdirdə

626 Əzimzadə A. Ermənistanda antisemitizm // "Azərbaycan" qəzeti, 2020, 4 oktyabr.

Ermənistan nəsə qazanc əldə edə bilər. Yoxsa süni şəkildə yaradılmış dövlətin gələcəyi yoxdur.[627]

***

Fəsildə araşdırılan məsələlər göstərir ki, qazanılan qələbədən bir müddət sonra Bakıda Zəfər paradı keçirilmişdir. Paradda Prezident İlham Əliyevlə yanaşı Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan, prezidentlərin həyat yoldaşları və digər şəxslər iştirak etmişlər. Paradda dövlət başçısı İlham Əliyev və Türkiyə Prezidenti çıxış edərək qazanılan qələbənin tarixi əhəmiyyət daşıdığını bildirmişlər. Qəhrəman Azərbaycan əsgər və zabitləri paraddan keçmişlər. Eyni zamanda Türkiyə əsgərləri də Azadlıq meydanında paradda iştirak etmişlər. Düşmən üzərində qələbə qazanılmasında istifadə edilmiş silah və texnika, cəbbəxanada olan ən müasir silahlar, eyni zamanda döyüş meydanında qənimət kimi götürülmüş hərbi texnika paradda nümayiş etdirilmişdir. Parad Azərbaycan Ordusunun gücünü bütün dünyaya göstərmişdir.

Qazanılan qələbənin Azərbaycan, region və dünya üçün böyük tarixi əhəmiyyəti olmuşdur. Şəhidlərin müqəddəs qanı, əsgər və zabitlərin qəhrəmanlığı ilə qazanılan və millətə qürur yaşadan qələbənin memarı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev olmuşdur. Torpaqların işğaldan azad edilməsi Azərbaycan qarşısında yeni üfüqlər açmışdır.

627 Qasımlı M. Ermənistan heç bir gələcəyi olmayan dövlətdir // "Publika" qəzeti, 2020-ci il 1 dekabr.

22-ci FƏSİL

MOSKVA BƏYANATI VƏ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRƏ SƏFƏRLƏR

22.1. 2021-ci il 11 yanvar tarixli Moskva bəyanatı

Müharibə başa çatdıqdan sonra Ermənistan üçtərəfli bəyanatın müddəalarını tədricən yerinə yetirməyə məcbur oldu. İlk növbədə, verilmiş qrafikə uyğun olaraq ərazilərin azad edilməsi prosesi həyata keçirildi. Azərbaycan tərəfinin qətiyyəti nəticəsində iki ölkə arasında dövlət sərhədlərinin dəqiqləşdirilməsi prosesi məsələlərinə başlandı. Lakin Ermənistan hökuməti bəzi məsələlərdə tərəddüdlü addımlar ataraq tam sülhün əldə olunması prosesinə əngəllər yaradırdı. Məsələn, məlum bəyanat imzalandıqdan sonra Ermənistan tərəfi Azərbaycan ərazisinə terrorçular göndərmişdi. Azərbaycan onları tutub həbs etməklə bütün dünyaya Ermənistanın imzasına hörmət etmədiyini, rüsvayçı hərəkətlərini bir daha göstərmişdi. Ermənistan dünya ictimaiyyətini aldadaraq həmin terrorçuları "hərbi əsir" adlandırırdı. Bu isə bir daha göstərirdi ki, Ermənistanda terror dövlət siyasətidir və onun üçün imzası heç bir məna kəsb etmir.

Bu və ya digər, o cümlədən 10 noyabr bəyanatında nəzərdə tutulan bəzi iqtisadi xarakterli məsələlər barəsində razılaşmaların əldə edilməsi və atılacaq növbəti addımların müzakirəsi məqsədilə Prezident Vladimir Putinin təşəbbüsü ilə 2021-ci il yanvarın 11-də Moskvada Prezident İlham Əliyev, baş nazir Nikol Paşinyan arasında üçtərəfli görüş keçirildi.

Ermənistan tərəfinin döyüş meydanındakı rüsvayçı məğlubiyyətin əvəzini masa arxasında çıxmağa cəhd etməsinin qarşısı Prezident İlham Əliyevin yüksək diplomatik məharəti sayəsində alındı. Azərbaycan tərəfi sübut etdi ki, Ermənistan 10 noyabr tarixli bəyanatı kobudcasına pozmuş, terrorçuları yollamış və terroru himayə etmişdir.

Moskva görüşündə Ermənistan qondarma "hərbi əsir" məsələsində istəyinə nail ola bilmədi və növbəti ağır diplomatik-siyasi zərbə aldı.[628]

Görüşün yekununda imzalanan üçtərəfli bəyanatda yazılırdı:

"Biz, Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev, Ermənistan Respublikasının baş naziri N.V.Paşinyan və Rusiya Federasiyasının Prezidenti V.V.Putin aşağıdakıları bəyan edirik:

1. 2020-ci il 9 noyabr tarixli Bəyanatın 9-cu bəndinin regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı hissəsinin reallaşdırılması məqsədilə Rusiya Federasiyasının Prezidenti V.V.Putinin Azərbaycan Respublikasının, Ermənistan Respublikasının baş nazirləri müavinlərinin və Rusiya Federasiyası Hökumətinin sədr müavininin birgə həmsədrliyi ilə üçtərəfli İşçi qrupu yaradılması barədə təklifi dəstəklənir.

2. İşçi qrupu 2021-ci il yanvarın 30-dək ilk iclasını keçirəcək, bu iclasın nəticələrinə görə Bəyanatın 9-cu bəndinin reallaşdırılmasından irəli gələn işlərin əsas istiqamətlərinin siyahısını formalaşdıracaq, prioritet qismində dəmiryolu və avtomobil yollarını müəyyən edəcək, həmçinin bundan sonra Tərəflər adlanacaq Azərbaycan Respublikası, Ermənistan Respublikası və Rusiya Federasiyası arasında razılaşma əsasında digər istiqamətləri müəyyən edəcəkdir.

3. Fəaliyyətin əsas istiqamətlərinin reallaşdırılması məqsədilə İşçi qrupunun həmsədrləri bu istiqamətlər üzrə Tərəflərin səlahiyyətli hakimiyyət orqanları və təşkilatlarının vəzifəli şəxslərindən ibarət ekspert yarımqruplarının tərkibini təsdiq edəcəklər. Ekspert yarımqrupları işçi qrupunun iclasından sonra bir ay müddətində layihələrin siyahısını təqdim edəcək, onların reallaşdırılması və Tərəflərin yüksək səviyyədə təsdiq etməsi üçün zəruri resursları və tədbirləri əsaslandıracaqlar.

4. İşçi qrupu 2021-ci il martın 1-dək Azərbaycan Respublikası və Ermənistan Respublikası ərazisindən həyata keçirilən beynəlxalq daşımaların, həmçinin Azərbaycan Respublikası və Ermənistan Respublikası tərəfindən həyata keçirilən, yerinə yetirilməsi zamanı Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazilərinin kəsişməsi tələb olunan daşımaların təşkili, yerinə yetirilməsi və təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan yeni nəqliyyat infrastrukturu obyektlərinin bərpasını və tikilməsini nəzərdə tutan tədbirlərin siyahısını və reallaşdırılması qrafikini Tərəflərin yüksək səviyyədə təsdiqləməsi üçün təqdim edəcək".[629]

628 Qasımlı M. Moskva görüşü – Zəfərin siyasi və iqtisadi diplomatiya ilə uğurlu davamı. 13.01.2021 // Azərtac. URL: https:azertag.az/xeber/Moskva_gorusu___Zeferin_siyasi_ve_iqtisadi_diplomatiya_ile_ugurlu_davami-1687047.

629 Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin bəyanatı. 11 yanvar 2021 // Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/50070.

Nəqliyyat-kommunikasiya sistemlərinin açılması, ticarət-iqtisadi və digər əlaqələrin qurulması regionun bütün ölkələrinin faydasına olacaq, digər sahələrdə olduğu kimi, iqtisadi baxımdan da Cənubi Qafqazda onsuz da hakim rola malik olan Azərbaycanın hegemonluğuna gətirəcəkdir. Regionun digər ölkələri və xalqları öz maraqları naminə Azərbaycanın yanında yer almağa çalışacaqlar.

Sənədin imzalanmasından sonra tərəflər mətbuat üçün birgə bəyanatla çıxış etdilər. Keçirilən görüşün əhəmiyyəti və Rusiya sülhməramlı qüvvələrinin hər iki tərəf qarşısındakı öhdəliklərini tam şəkildə yerinə yetirməsi barədə Prezident Vladimir Putin dedi:

"Bugünkü görüşü son dərəcə vacib və faydalı hesab edirəm, çünki razılığa gələ bildik və bölgədəki vəziyyətin inkişafına dair birgə Bəyanat imzaladıq. İqtisadi əlaqələrin qurulması, infrastruktur layihələrinin inkişafı üzrə konkret addımları nəzərdə tuturam.

Bu məqsədlə üç hökumətin – Azərbaycan, Ermənistan və Rusiya Baş nazirləri müavinlərinin rəhbərlik edəcəyi işçi qrupu yaradılacaq. Yaxın zamanda onlar işçi ekspert alt qrupları yaradacaq, regionun nəqliyyat infrastrukturu və iqtisadiyyatının inkişafı üzrə konkret planlar təqdim edəcəklər.

Əminəm ki, bu razılaşmaların icrası həm Ermənistan, həm də Azərbaycan xalqlarına fayda verəcək və heç şübhəsiz, bütövlükdə regiona, deməli, Rusiya Federasiyasının mənafeyinə də fayda verəcək".[630]

Hərb, diplomatik-siyasi və informasiya meydanında əzici qələbə qazanan Azərbaycan dövləti regionun bundan sonrakı davamlı və təhlükəsiz inkişafını təmin etməkdə başlıca rol oynayacaqdı. Görüşün vacibliyinə diqqəti cəlb edən Prezident İlham Əliyev bildirdi ki, bəyanatı imzalamış üç ölkənin liderlərinin Moskvada toplanması tərəflərin nəticə əldə etmək, sentyabr və noyabr aylarında baş vermiş hadisələrə yekun vurmaq əzmində olmasıdır. Dövlət başçısı dedi:

"Bu gün imzalanmış bəyanat bizim niyyətlərimizə dəlalət edir, ona görə ki, hərbi əməliyyatların dayandırılmasının yekunlarına dair bəyanatın bir bəndi nəqliyyat kommunikasiyalarının bərpasına aid idi. Bu sahə regionun inkişafına böyük dinamizm gətirə, təhlükəsizliyi möhkəmlədə bilər. Ona görə ki, nəqliyyat kommunikasiyalarının açılması Azərbaycan, Ermənistan, Rusiya xalqlarının, bizim qonşularımızın mənafelərinə cavab verir. Əminəm ki, qonşu ölkələr də bizim regionda nəqliyyat dəhlizlərinin və nəqliyyat arteriyalarının şaxələndirilmiş şəbəkəsinin yaradılmasına fəal qoşulacaqlar".[631]

630 Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri mətbuata bəyanatla çıxış ediblər. 11.01.2021 // Azərtac. URL: https:azertag.az/xeber/Rusiya_Prezidenti_Azerbaycan_Prezidenti_ve_Ermenistanin_bas_naziri_metbuata_beyanatla_chixis_edibler_yenılanıb_vıdeo-1685473.

631 Yenə orada.

Ermənistandakı qisasçı qüvvələrin və hakimiyyətin əməli olmayan addımlarına diqqəti yönəldən Prezident İlham Əliyev bəyan etdi:

"Bütün bunlar belə əminlik yaradır ki, Vladimir Vladimiroviçin dediyi kimi, Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb və biz gələcək barədə, qonşular kimi birlikdə necə yaşamaq, nəqliyyat arteriyalarının açılması məsələlərini həll etməyə necə çalışmaq və gələcəkdə regional sabitliyi və təhlükəsizliyi möhkəmlətmək haqqında düşünməliyik".[632]

Nitqinə Rusiyaya təşəkkür etməklə başlayan baş nazir N.Paşinyan özlərinə xas olan ənənəvi pozuculuq mövqeyindən çıxış edərək bildirdi ki, guya münaqişə hələ nizamlanmamışdır, atəşkəs rejimi təmin edilsə də, həll edilməmiş bir sıra məsələlər qalır. Əlavə etdi:

"Bu məsələlərdən biri Dağlıq Qarabağın statusu məsələsidir. Əlbəttə, Ermənistan ATƏT-in Minsk qrupunun həmsədrliyi çərçivəsində, o cümlədən bu məsələyə dair danışıqları davam etdirməyə hazırdır. Təəssüf ki, bu günə qədər biz hərbi əsirlər məsələsini həll edə bilməmişik və bu, ən həssas və ağrılı məsələdir. Ona görə ki, bu, humanitar məsələdir. Biz bu istiqamətdə işi davam etdirmək barədə razılığa gəlmişik. Lakin hesab edirik ki, konkret olaraq bizim birgə Bəyanatın 8-ci bəndi, təəssüf ki, tam yerinə yetirilmir. Ümidvaram ki, biz qısa müddətdə konkret qərara gələ biləcəyik. Lakin deməliyəm ki, bizim bu gün imzaladığımız bəyanat həqiqətən çox vacibdir. Gizlətmirəm, bu bəyanatdakı razılaşmaların reallaşması bizim regionun iqtisadi obrazını və simasını, sadəcə, dəyişə bilər. İqtisadi yeniliklər təhlükəsizliyin daha etibarlı qarantiyalarına gətirib çıxara bilər və biz, əlbəttə, bu istiqamətdə konstruktiv iş aparmağa hazırıq. Lakin dediyim kimi, təəssüf ki, bütün məsələləri bir görüş ərzində həll etmək mümkün deyil. Ümidvaram ki, biz daha irəli gedəcəyik. Bir daha vurğulamaq istəyirəm, indiki məqamda bizim üçün ən başlıca məsələ humanitar məsələlər - bizim 9, yaxud 10 noyabr tarixli birgə Bəyanatın 8-ci bəndi ilə nəzərdə tutulmuş hərbi əsirlərin dəyişdirilməsi məsələləridir".[633]

N.Paşinyanın bəyanatı Ermənistanın məğlub vəziyyətini dəyişdirmir, sözü və əməli arasında böyük uçurumun olduğunu göstərirdi. 10 noyabr tarixli bəyanatın imzalanmasından sonra Azərbaycan ərazilərinə terrorçu göndərib, sonradan onları hiyləgərcəsinə "hərbi əsirlər" elan etmək cəhdləri növbəti riyakarlıq idi.

Sözü imzası qədər eyni gücə malik olan Azərbaycan rəhbəri isə bəyanatın müddəalarının yerinə yetirilməsində qərarlı olduğunu və 10 noyabr tarixli bəyanatdan sonra Ermənistanın terrorçular göndərməsini qəti şəkildə pislədi.

Moskva görüşünün və imzalanan birgə bəyanatın böyük əhəmiyyəti var idi. Bu, Azərbaycan dövlətinin hərb meydanında qazandığı qələbənin siyasi və iqti-

632 Yenə orada.
633 Yenə orada.

sadi diplomatiya ilə uğurlu davamı oldu. Ermənistan isə hərb meydanında olduğu kimi siyasi və diplomatik sahədə də əsassız iddialarına çata bilmədi.

22.2. Şuşaya səfər

Azərbaycan ərazilərini uzun illər ərzində işğal altında saxlayan təcavüzkar Ermənistan misli görünməmiş vandalizm aktları törətmiş, maddi-mədəni irs nümunələrini dağıtmış, bir hissəsini isə saxtalaşdıraraq mənimsəməyə cəhd göstərmişdi. 2018-ci ildə Ermənistanda çevriliş yolu ilə hakimiyyətə gələn N.Paşinyan daha da irəli getmiş, Azərbaycan mədəniyyətinin beşiklərindən biri olan Şuşa şəhərinin açıq şəkildə ermənilərdirilməsi prosesinə start vermiş, bir neçə dəfə buraya gələrək Azərbaycan xalqının milli hisslərini təhqir etməyə çalışmış, hətta qondarma rejimin parlamenti üçün bina da tikməyə başlamışdı. Lakin düşməni əzən Azərbaycan dövləti bütün bu iyrənc planların həyata keçirilməsinə imkan verməmişdi.

Prezident İlham Əliyev 2021-ci il yanvarın 14-15-də Şuşaya səfər etdi. Səfər zamanı dövlət başçısı yanvarın 14-də Əhmədbəyli – Füzuli – Şuşa avtomobil yolunun 27-ci kilometrliyində Füzuli – Şuşa avtomobil yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməlini qoydu. Çətin relyefə malik olan ərazilərdə dolama yolların yerində körpü və tunellərin tikintisi nəzərdə tutulurdu. Füzuli hava limanı ilə əlaqələndiriləcək bu yoldan İsa bulağına da yeni yolun inşası planlaşdırılırdı.

Hava limanının uçuş-enmə zolağının 2021-ci ildə istifadəyə verilməsi, zolağın uzunluğunun 2800 metr olması və beynəlxalq standartlara uyğun infrastrukturla təchiz edilməsi nəzərdə tutulurdu. Təməlqoyma mərasimində çıxış edən dövlət başçısı dedi:

"Bu gün yanvarın 14-də Füzuli Beynəlxalq Hava Limanının təməli qoyuldu... Bu, azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli bir layihədir. Füzuli Beynəlxalq Hava Limanı bu il istifadəyə verilməlidir...Bu hava limanının əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil. Nəzərə alsaq ki, bu gün Füzuli–Şuşa dördzolaqlı və bəzi yerlərdə altızolaqlı yeni avtomobil yolunun təməli qoyulub, xarici qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək, çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər".[634]

634 İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməlini qoyub, Şuşa şəhərində səfərdə olub. 15.01.2021 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/50184.

Müharibənin başa çatmasından cəmi iki ay keçməsinə baxmayaraq, Şuşa şəhərinin bərpası və tarixi simasının özünə qaytarılması istiqamətində işlərə start verilmişdi. Azərbaycan işğaldan azad edilmiş ərazilərini tez bir zamanda dirçəltməkdə qəti qərarlı idi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd rayonundan keçməklə Şuşa şəhərinə gəldilər. Dövlət müstəqilliyi bərpa edildikdən sonra ilk dəfə idi Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Şuşada olurdu. Dövlət başçısı Şuşa şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı və hərbçilərlə görüşdə çıxış etdi. Şəhər böyük qəhrəmanlıq, peşəkarlıq, qəti iradə və yenilməz milli ruhla azad edilmişdi. Azərbaycan Ordusu keçilməz dağlardan, sıldırım qayalıqlardan, sıx meşələrdən və dərələrdən keçərək onlarla kilometr məsafəni qət edib Şuşa şəhərini əlbəyaxa döyüşlərdə düşmən əsarətindən qəhrəmanlıqla qurtarmaqla dünya hərb tarixinə yenilik gətirmişdi. Bu barədə ölkə başçısı bildirdi:

"Əminəm ki, Şuşa əməliyyatı aparıcı beynəlxalq hərbi məktəblərin dərsliklərinə salınacaqdır. Artıq məndə məlumat var ki, inkişaf etmiş bir çox ölkələrin mütəxəssisləri 44 günlük Vətən müharibəsinin hər bir gününü təhlil edirlər. Çünki 44 günlük müharibənin hər bir günü qələbə, zəfər günüdür. Şuşanın işğaldan azad edilməsi düşmənə vurulan ən böyük zərbə idi. Çünki düşmən hesab edirdi ki, Şuşanı azad etmək mümkün deyil və yəqin ki, müəyyən dərəcədə haqlı idi. Çünki Pənahəli xan bu şəhəri elə salmışdır ki, hər tərəfdən sıldırım qayalar və təbii landşaft Şuşanı mühafizə edir".[635]

Şuşa şəhərinin 1992-ci ilin mayında Azərbaycan rəhbərliyinin və hakimiyyət uğrunda mübarizə aparan AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində işğal altına düşdüyünə diqqəti yönəldən dövlət başçısı dedi ki, ermənilər öz dırnaqarası əməliyyatına bir ad vermişdilər – dağlarda toy, halbuki heç əməliyyat da keçirilməmişdi, Şuşa şəhəri boşaldılmışdı. Prezident söylədi:

"O vaxtkı müdafiə naziri demişdi ki, Şuşa əldən getsə, başıma güllə çaxacağam, qorxaqcasına Şuşadan qaçmışdı. Ondan sonra isə ermənilər guya bu əməliyyat haqqında əfsanələr uydurmuşdular – dağlarda toy. İndi biz onlara elə toy tutmuşuq ki, onlar bu dərsi əbədi yadda saxlayacaqlar".[636]

Azərbaycan uzun illər boyu bu müharibəyə hazırlaşmışdı. XXI əsrin müharibəsini aparan Azərbaycan Ordusu dünya hərb tarixinə möhtəşəm imza atmışdı. Dövlət başçısı dedi:

"Mən dəfələrlə demişdim ki, o cümlədən hərbçilərlə görüşlərimdə, çoxsaylı görüşlərimdə, əgər düşmən torpaqlarımızdan öz xoşu ilə çıxmasa, məcbur edəcəyik onları, qovacağıq torpaqlarımızdan, güc amili öz rolunu oynayacaqdır və belə

635 Yenə orada.
636 Yenə orada.

də oldu, 44 günlük müharibənin hər bir günü zəfər günü idi... Müharibə başlayan gündən mən deyirdim ki, rədd olun bizim torpağımızdan, dərhal öhdəlik götürün. Özü də demişdim ki, bu öhdəliyi Ermənistan rəhbərliyi götürməlidir, deməlidir, tarix verməlidir ki, filan tarixdə mən torpaqlardan çıxıram, mən də müharibəni dayandırıram. Əks-təqdirdə, sona qədər gedəcəyik. Bütün təzyiqlərə, bütün telefon zənglərinə, bütün təhdidlərə baxmayaraq, dedim ki, sona qədər gedəcəyik, düşməni torpaqlarımızdan qovacağıq. Etdik də, getdik də, qovduq da və düşmən məcbur olub noyabrın 10-da kapitulyasiya aktını imzaladı və beləliklə müharibəyə son qoyuldu. Bu müharibə bizim tariximizdə əbədi yaşayacaq".[637]

Bütün şəhid ailələri dövlət tərəfindən qayğı ilə əhatə olunmuşdur. Onlara mənzillərin, evlərin veriləcəyini və müavinətin artırıldığını deyən Prezident vurğuladı ki, yaralı hərbçilər dövlət tərəfindən qayğı ilə əhatə olunmuşdur, əlil olmuş hərbçilərin sağlamlığının bərpası və onların müasir protezlərlə təmin edilməsi məsələsi həllini tapacaqdır.

Şuşaya səfərin yanvarın 14-də edilməsi təsadüfi deyildi. Bununla əlaqədar olaraq ölkə rəhbəri bildirdi:

"Mən Şuşaya son dəfə 39 il bundan əvvəl gəlmişəm. 39 il bundan əvvəl iki dəfə gəlmişəm və birinci dəfə yanvarın 14-də gəlmişəm. Bax, bu gün, yanvarın 14-də yenə də buradayıq. Bu dəfə müzəffər Azərbaycan Ordusunun, qalib Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi gəlmişəm. Düşmənin belini qıran Ordunun Ali Baş Komandanı kimi gəlmişəm və burada müqəddəs bayrağın altında, qəhrəman hərbçilərin önündə deyirəm ki, biz bu torpaqlarda əbədi yaşayacağıq!".[638]

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərindəki Saatlı məscidində oldular. Məkkədən gətirdiyi Qurani-Şərifi məscidə hədiyyə edən və işğaldan azad edilmiş ərazilərdə dağıdılmış bütün məscidlərin bərpa olunacağı barədə dövlət başçısı dedi:

"Düşmən bizim azad edilmiş torpaqlardakı dini abidələrimizi işğal dövründə məhv edib, 67 məscidi dağıdıb, yaxud da ki, belə yararsız vəziyyətə salıb. Şuşa işğaldan azad olunandan sonra bizim vətəndaşlar əl gəzdirib, məscidi təmizləyib və müəyyən təmir işlərini görüblər. Ancaq, əlbəttə ki, məscidin əsaslı təmiri bundan sonra aparılacaq, bütün müvafiq göstərişlər verilib, Heydər Əliyev Fondu bu missiyanı öz üzərinə götürüb. Mehriban xanım bu barədə açıqlama verib və biz bütün tarixi-dini abidələrimizi bərpa edəcəyik".[639]

Ziyarət olunan Ağdam Cümə məscidinin bərpası işlərinə start verilmiş və mütəxəssislər ezam edilmişdilər. Məscidlərə belə vəhşi münasibət bəsləməsinə

637 Yenə orada.
638 Yenə orada.
639 Yenə orada.

baxmayaraq, Ermənistan müsəlman ölkələri ilə hiyləgərliklə münasibətlər qurmağa çalışırdı. Bu məsələlər barəsində Prezident dedi:

"Ermənistan daim çalışır ki, müsəlman ölkələri ilə münasibətlər qursun, bəzi ölkələrlə münasibətləri inkişaf etdirsin, özünü sanki müsəlman xalqlarına müsbət münasibət bəsləyən bir ölkə kimi qələmə versin. Hamısı yalandır. Əgər buna kimsə bu günə qədər inanıbsa, gəlsin Şuşaya, Ağdama, Füzuliyə, Cəbrayıla, bizim azad edilmiş digər torpaqlara, görsün ki, Ermənistan rəhbərliyi nə günə salıb müsəlman məscidlərini. Hər bir müsəlman üçün müqəddəs olan məbədlərimizi nə günə salıb. Dağıdıb, təhqir edib, donuz saxlayıb, inək saxlayıb, məscidlərimizin üzərində təhqiramiz ifadələr yazdırıb. Belə bir ölkə müsəlman ölkələri ilə dost ola bilərmi? Əlbəttə ki, yox" .[640]

Məlum olduğu kimi, Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal edən təcavüzkar ölkə tarixi, mədəni abidələri dağıtmış və ev-muzeyləri qarət etmişdi. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşada Mədəniyyət evinin həyətində qoyulmuş büstləri də var idi. Güllələnmiş bu büstlər erməni vandalizminə şahidlik edirdi. Prezident əvvəlki çıxışlarının birində demişdi ki, ərazi bütövlüyü bərpa ediləndən sonra Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstləri yenə də Şuşada qoyulacaqdır. 30 ilə yaxın Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılan dahi şəxsiyyətlərin – Xurşidbanu Natəvan, Üzeyir Hacıbəyli və Bülbülün büstlərini dövlət başçısı Şuşaya gələrkən gətirmişdi. İşğal illərində Şuşa Mədəniyyət Evi dağıdılmışdı. Qeyd etmək lazımdır ki, Xurşidbanu Natəvanın büstünü Heydər Əliyev 1982-ci ilin yayında açmışdı. O zaman həmin mərasimdə İlham Əliyev də atasının yanında olmuşdu. Ermənilər dahi şəxsiyyətlərin büstlərini təhqir edəndən sonra onları əridib satmaq məqsədilə Ermənistana aparmışdılar. Bu, erməni vəhşiliyinin növbəti bir nümunəsi idi. Heydər Əliyevin səyləri nəticəsində bu büstlər Ermənistandan pulla alınmış və Bakıda İncəsənət Muzeyinin həyətində yerləşdirilmişdi. Müxtəlif vaxtlarda bəzi insanlar Prezident İlham Əliyevə müraciət edərək büstlərin Bakının hər hansı bir yerində qoyulmasını təklif etmişdilər. Dövlət başçısı isə Şuşa düşməndən azad edildikdən sonra gətirib öz yerlərində qoyulacağını demişdi. Şəhər xilas edilmiş və həmin gün yetişmişdi. Ölkə rəhbəri bildirdi:

"Dahi şəxsiyyətlərimizin büstləri bizim Qələbəmizin rəmzidir. Onların ruhu şaddır. Onlar doğma Vətənə qayıdıblar. Biz qaytarmışıq onları, düşməni qova-qova, düşməni məhv edərək, torpaqlarımızdan rədd edərək, Şuşanı geri alaraq, azad edərək qaytarmışıq. Burada duracaq, Şuşaya gələn hər bir insan yaxından görəcək erməni vəhşiliyini".[641]

640 Yenə orada.
641 Yenə orada.

Tarixi ədalət ölkə başçısının rəhbərliyi altında güc, əzm, iradə, cəsarət, mətanət və milli ruh sayəsində bərpa edilmişdi.

Dövlət başçısı və birinci xanım Mehriban Əliyeva keçmiş Şuşa Rayon Partiya Komitəsinin binasında oldular. İşğalçılar şəhərdən qaçarkən inzibati binalarda da kütləvi oğurluq və talançılığa yol vermiş, hətta kondisionerləri və su qızdırıcılarını da çıxarıb aparmışdılar.

Azad olunduqdan qısa müddət sonra Şuşa şəhəri su və elektrik enerjisi təchizatı ilə normal şəkildə təchiz olunmuşdu. İşğal zamanı ermənilər tərəfindən dağıdılan Natəvan sarayının Xan qızının evi kimi bərpa ediləcəyini söyləyən Prezident daha sonra Bülbülün dağıdılmış ev-muzeyinə də baxaraq binanın yenidən tikiləcəyini vurğuladı.

Dövlət başçısı Gövhərağa və Yuxarı Gövhərağa məscidlərinə Qurani-Şərif bağışladı.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşadakı Qazançı kilsəsində oldular. Kilsəyə getmək Azərbaycan dövlətinin ölkədəki bütün dinlərə bərabər münasibətini və hörmətini göstərirdi.

Şuşa şəhərində erməni vandalizminə məruz qalan abidələrdən biri XVIII əsrdə yaşamış Azərbaycan şairi, ictimai-siyasi xadim, Qarabağ xanının vəziri olmuş Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi idi. Heydər Əliyev hələ 1967-ci ildə Şuşa şəhərində olarkən Molla Pənah Vaqifin məzarını ziyarət etmək istəmişdi. Şəhər rəhbərliyi məzarı çətinliklə tapmışdı. Dağıdılmış və bərbad halda olan məzar Molla Pənah Vaqifə layiq deyildi.[642] Sonralar respublika rəhbəri vəzifəsində işləyərkən Heydər Əliyev məzarı bərpa etdirmiş və məqbərəni tikmişdi. Molla Pənah Vaqifin məqbərəsi 39 il bundan əvvəl - 1982-ci il yanvarın 14-də qarlı, çovğunlu havada açılmışdı. Qarabağ xanının vəziri olan insanın şərəfinə sovet dövründə məqbərə ucaltmaq qeyri-adi bir hadisə idi. İran inqilabından sonra regionda yaranmış şəraitdən bacarıqla istifadə edən Heydər Əliyevin təkidi və cəsarəti nəticəsində o vaxt Azərbaycan buna nail ola bilmiş, məzarın olduğu yerdə Molla Pənah Vaqifə 18 metrlik məqbərə ucaldılmışdı. Məqbərənin tikilməsi və açılışı Azərbaycan xalqının öz dahi şəxsiyyətlərinə olan hörmətini və Şuşanın Azərbaycan şəhəri olduğunu bir daha təsdiq edirdi.

Şuşa şəhərinin məşhur yerində – Cıdır düzünə yaxın bir ərazidə böyük şairin məzarı üstündə inşa edilən dördkünc quruluşa malik olan və mərmərlə bəzədilmiş məqbərədə Vaqifin Şuşa həyatını əks etdirən 80-ə yaxın eksponat saxlanılırdı. Şəhərin işğalı nəticəsində kompleksin binası və sərgilənən eksponatlar məhv edilmişdi. Molla Pənah Vaqifin büstünün olduğu yerə gələn dövlət başçısı illər öncə çəkilmiş bir fotoşəkli göstərərək dedi:

642 *Bax:* Qasımlı M. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər), s. 334.

"Bu da tarixi şəkildir. Heydər Əliyev Vaqifin büstünün önündə. Şəkildə məscidin minarələri də görünür. Vaqifin büstü ermənilər tərəfindən dağıdılıb. Onun yerində belə bir eybəcər dükan tikiblər. Bu, erməni vandalizminin növbəti təzahürüdür, növbəti cinayətdir".[643]

Şuşada görüləcək işlərdən danışan ölkə rəhbəri bildirdi ki, Vaqif Poeziya Günləri bərpa ediləcək və "Xarıbülbül" musiqi festivalı keçiriləcəkdir. Şuşanın bərpası məqsədi ilə şəhərin baş planı hazırlanır və binaların təftişi aparılırdı.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cıdır düzündə də oldular. Məlum olduğu kimi, bura tarixən at yarışlarının və yerli əhalinin Novruz bayramını keçirdiyi yer olmuşdu. Bu ərazidə milli xalq oyunları, güləş, qaçış, oxatma və sair oyunlar keçirilir, qalibə bəzən qızıl pullar, bəzən də taxıl, məişət əşyaları verilirdi. Sonralar həmin ərazidə at yarışları, çövkən oyunları keçirildiyinə görə bu ərazini Cıdır düzü adlandırmışdılar. Dövlət başçısı dedi:

"Bura Cıdır düzüdür. Hər birimiz üçün əziz, doğma Cıdır düzü. Şuşanı Cıdır düzüsüz təsəvvür etmək mümkün deyil, Azərbaycanı isə Şuşasız təsəvvür etmək mümkün deyil. Biz Şuşaya qayıtmışıq, Cıdır düzünə qayıtmışıq və tarixi yerdə bundan sonra muğam səsi eşidiləcək, Azərbaycan mahnıları ifa olunacaq, böyük tədbirlər keçiriləcək, toy-bayram olacaq...

İndi Cıdır düzü də, Şuşa da, Qarabağ da azaddır. Bu torpağın sahibləri qayıdıblar, əllərində silah, əllərində bayraq, ürəklərində Vətən sevgisi. Vətən sevgisi bizi Qələbəyə gətirdi. Vətən sevgisi, vətənpərvərlik Qələbəmizin əsas amilinə çevrildi".[644]

İşğal illərində düşmən qondarma qurumun "parlamentini" Şuşa şəhərinə köçürmək üçün bina tikməyə başlasa da, şanlı Azərbaycan Ordusu bu niyyəti puç etmişdi. Ermənilərin məqsədini Prezident belə ifadə etdi:

"Beləliklə, Şuşa şəhərini ermənilaşdırmək üçün növbəti cəhd edilməli idi. Bax, bu binanı onlar "Dağlıq Qarabağ respublikası"nın "parlament" binası kimi inşa etməyə başlamışdılar. Ancaq çatdıra bilmədilər. Biz gəldik, bu torpağın sahibləri gəldi, onları buradan qovdu və beləliklə, onların bu çirkin əməlləri həyata keçmədi. "Parlament" də gorbagor oldu...".[645]

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa Realnı Məktəbinin ermənilər tərəfindən dağıdılmış binası ilə tanış oldular. Qeyd etmək lazımdır ki, dövrünün qabaqcıl maarif ocağı hesab edilən Şuşa Realnı Məktəbinin məzunları arasından məşhur Azərbaycan yazıçıları Əbdürrəhim bəy Haqverdiyev və Yusif Vəzir Çəmənzəminli çıxmışdır. Şəhər işğal edildikdən sonra erməni vandalları Realnı Məktəbini də yandırmışdılar.

643 İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməlini qoyub, Şuşa şəhərində səfərdə olub. 15.01.2021 // Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı. URL: https:president.az/articles/50184.

644 Yenə orada.

645 Yenə orada.

Şuşa şəhərində gecələyən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 15-də yenidən Cıdır düzünə gəldilər və çay içdilər. Burada dövlət başçısı dedi ki, Şuşanı görmək və bu şəhərə qayıtmaq təkrarolunmaz bir hissdir. Prezident vurğuladı:

"...biz xoşbəxt xalqıq, biz öz ərazi bütövlüyümüzü bərpa etmişik. Xoşbəxt xalqıq ki, özümüzü müstəqil dövlət kimi təsdiq etmişik. Bir daha deyim ki, Şuşa bizimdir! Qarabağ Azərbaycandır!".[646]

Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşaya dövlət müstəqilliyi bərpa edildikdən və şəhər işğaldan qurtulduqdan sonra ölkə rəhbərinin ilk səfəri milli tarixin qürurverici səhifələrindən biri idi. Səfər bir daha göstərdi ki, Azərbaycan dövlətinin işğaldan azad edilmiş ərazilərlə bağlı konkret, aydın planları və qəti iradəsi vardır.

22.3. Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfər

İşğaldan azad edilmiş rayonlarda dirçəliş işlərinə bilavasitə Prezident İlham Əliyevin səfərləri zamanı start verilirdi. Fevralın 14-də dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfər etdilər.[647] Əvvəlcə Füzuli rayonunda Horadiz – Ağbənd dəmiryolu xəttinin təməli qoyuldu. Strateji əhəmiyyət daşıyan və ümumi uzunluğu 100 km nəzərdə tutulan bu dəmiryol xətti azad olunmuş torpaqlara gediş-gəlişin təmin olunması baxımından xüsusi əhəmiyyət daşıyırdı. Ən vacibi isə Azərbaycanın digər əraziləri ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmiryolu nəqliyyat əlaqəsi qurulacaqdı. Həmin yolla Naxçıvandan, oradan da Türkiyə ərazisindən keçməklə Avropa ölkələrinə və İran ərazisindən keçməklə Fars körfəzinə çıxmaq mümkün olacaqdı.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunun Üçüncü Ağalı kəndində oldular. İşğaldan azad edilmiş şəhərlərin baş planları dövlət başçısının tapşırığı ilə hazırlanır və kəndlərin bərpası üçün "ağıllı kənd" layihələrinin icrası nəzərdə tutulurdu. İlk belə layihə Zəngilan rayonunun Üçüncü Ağalı kəndində icra edilməli və əsasən 5 komponent üzrə aparılmalı idi: yaşayış; istehsal; sosial xidmətlər; "ağıllı kənd təsərrüfatı"; alternativ ener-

646 Yenə orada.

647 Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar. 15.02.2021 // Azərtac. URL: https:azertag.az/xeber/Prezident_Ilham_Aliyev_ve_birinci_xanim_Mehriban_Aliyeva_Fuzuli_Zengilan_Lachin_ve_Cebrayil_rayonlarinda_olublar_YENILANIB_VIDEO-1712005.

ji sahələri. İnşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaqdı. Dövlət başçısı görüləcək işlərin icrasına dair tapşırıq və göstərişlərini verdi.

Laçın rayonuna səfər edən ölkə rəhbəri yol boyunca Qubadlı rayonunun Xəndək, Muradxanlı, Bala Soltanlı, Padar, Yusifbəyli, Laçın rayonunun Mərdanlı kəndlərindən keçdi. Prezident Laçın rayonunun Güləbird kəndində qısa müddət ərzində inşa edilmiş və gücü 8 meqavat olan su elektrik stansiyasının açılışını etdi. Bu layihə azad edilmiş torpaqlarda birinci elektrik stansiyası, Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən ilk infrastruktur layihəsi idi. Stansiya təxminən 7000 nəfər əhalini elektrik enerjisi ilə təmin edəcəkdi. İstehsal olunan elektrik enerjisinin Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin etməsi nəzərdə tutulurdu. Güləbird kəndində Azərbaycan bayrağını qaldıran dövlət başçısı dedi:

"Bu gün bu torpaqlarda bir neçə tədbir keçirilir. Bu tədbirlərin məqsədi azad olunmuş torpaqları tezliklə bərpa etməkdir ki, insanlar buraya qayıtsınlar və bu torpaqlara həyat gəlsin. Bərpa işləri arasında elektrik enerjisi təchizatı, əlbəttə ki, xüsusi yer tutur. Bu məqsədlə müharibədən dərhal sonra ilk günlərdən biz bu işlərlə məşğul olmağa başlamışıq. İlk növbədə, Şuşa şəhərini elektrik enerjisi ilə təchiz etmək üçün əməli addımlara start verilmişdir və birinci mərhələ başa çatıb. "Azərişıq" artıq Şuşa şəhərinə elektrik xətlərini çəkib. Şuşa şəhərini dayanıqlı elektrik enerjisi ilə təmin etmək və ondan sonra şəhərin inkişafını təmin etmək üçün "Azərenerji" Səhmdar Cəmiyyəti də Şuşa şəhərinə yüksəkgərginlikli xətləri çəkir və Şuşa şəhərində elektrik yarımstansiyası inşa edir".[648]

Laçın rayonunun işğaldan azad olunmasından heç iki ay keçməmiş istismara verilən Su Elektrik Stansiyası Həkəri çayından səmərəli şəkildə istifadə etməyə imkan verəcəkdi. Kəlbəcər – Laçın zonasında su elektrik stansiyaları üçün təbii şərait əlverişli idi. Laçın rayonu ərazisində düşmənin dağıtdığı 5, Kəlbəcər rayonunun ərazisində isə 12 su elektrik stansiyası yenidən qurulacaq, beləliklə, yalnız bu rayonlarda dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdı. Həmin generasiya gücü ilə ərazilər bərpa və dayanıqlı enerji ilə təmin ediləcəkdi. Onların arasında ən böyük potensiala malik olan "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyalarının tikintisi barədə İran İslam Respublikası ilə razılığa gəlinmişdi.

Azad edilmiş torpaqların "yaşıl enerji" zonası olması, bundan ötrü xarici və yerli sərmayəçilərin dəvət edilməsi barədə danışan ölkə rəhbəri dedi:

648 Yenə orada.

"Bizim planlarımız bundan ibarətdir. Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin çox böyük potensialı var. Zəngilan, Cəbrayıl rayonlarında daha çox Günəş enerjisinin böyük potensialı var. Artıq ilkin tədqiqatlar aparılıb və beləliklə, biz enerji generasiya güclərimizi, ötürücü xətlərimizi yenidən quraraq Qarabağı "yaşıl enerji" zonasına çevirəcəyik".[649]

Horadiz – Zəngilan – Ağbənd dəmiryolu xətti strateji əhəmiyyət daşıyırdı. İlk növbədə ona görə ki, bu dəmiryolu azad edilmiş torpaqlara insanların gəlməsini və yüklərin daşınmasını asanlaşdıracaqdı. Türkiyəyə qədər uzanacaq dəmiryolu infrastrukturunun işə düşməsinin regional miqyasda böyük faydası olacaq və beləliklə, Azərbaycanı Türkiyə ilə birləşdirən Bakı – Tbilisi – Qars dəmiryolu ilə yanaşı ikinci dəmiryolu şəbəkəsi də yaradılacaqdı.

Bu, tarixi nailiyyət idi. Bölgə ölkələri həmin layihəyə öz müsbət münasibətlərini bildirmişdilər. Gürcüstanla münasibətlər səbəbindən Rusiyadan Ermənistana dəmiryolu xətti yalnız Azərbaycan ərazisindən keçə bilərdi. Rusiya və İran, İran və Ermənistan, Rusiya və Türkiyə arasında Naxçıvandan keçməklə dəmiryolu bağlantısı olacaqdı.

Səfər zamanı Zəngilan rayonunda hələ 1974-cü ildə Heydər Əliyevin tapşırığı ilə yaradılmış və ərazisi 100 hektardan çox olan Bəsitçay Dövlət Təbiət Qoruğuna baxıldı. Məlum olduğu kimi, işğalçı Ermənistan digər ərazilərdəki kimi Bəsitçay qoruğunda da ekoloji terror törətmişdi. Qoruğun meşəlik ərazisinin demək olar ki, yarısı məhv edilmiş, ağacların kökləri, oduncaqları yandırılmış, illərlə formalaşmış təbii ekosistemin tarazlığına erməni vandalizmi nəticəsində ciddi zərbə vurulmuşdu. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bəsitçay qoruğunda çinar ağacları əkdilər, çaya balıq buraxdılar. Sonra Cəbrayıl rayonunun Soltanlı kəndinə gəldilər. Burada suvarılmayan 100 min hektar torpaq sahələrinə su verilməsi nəzərdə tutulurdu. Dövlət başçısı bildirdi:

"...biz vaxt itirmədən kənd təsərrüfatını dirçəldəcəyik. Əlbəttə ki, azad edilmiş torpaqların kənd təsərrüfatı potensialı çox böyükdür... Azad edilmiş torpaqlarda bitkiçilik, meyvəçilik, heyvandarlıq sürətlə inkişaf edəcək".[650]

Soltanlı kəndində Prezident İlham Əliyevə işğaldan azad olunmuş torpaqlarda əkinlə bağlı görülən işlər barədə məlumat verildi. Əkin sahələrinin monitorinqi davam etdirilir və əlavə sahələr müəyyən olunduqca yenilənmiş təkliflər verilirdi.

649 Yenə orada.
650 Yenə orada.

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, müharibə başa çatdıqdan sonra Azərbaycan dövləti dinc quruculuq dövrünə qədəm qoymuşdur. Moskvada İlham Əliyev, Vladimir Putin və Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşdə 10 noyabr tarixli birgə bəyanatın müddəalarının yerinə yetirilməsi məsələləri müzakirə edilmiş və yekunda sənəd imzalanmışdır. Bu bəyanat regionda sülh və sabitliyin möhkəmləndirilməsi və qarşılıqlı faydalı əməkdaşlığın qurulması məqsədini daşımışdır. Yanvarın 14-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərinə səfər etmişlər. Səfər zamanı Füzuli – Şuşa avtomobil yolunun, Füzulidə beynəlxalq hava limanının təməli qoyulmuşdur. Böyük iqtisadi əhəmiyyət daşıyan bu layihələr regiona yeni nəfəs gətirəcəkdi.

Dövlət başçısının Şuşaya məhz yanvarın 14-də səfər etməsi təsadüfi deyildi.Belə ki, hələ 1982-ci il yanvarın 14-də Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevlə birlikdə 21 yaşlı oğlu İlham Əliyev də böyük Azərbaycan şairi Molla Pənah Vaqifin məqbərəsinin açılışında iştirak etmişdi. Səfər bu baxımdan əlamətdar olmuşdur. Şuşada Dövlət Bayrağı ucaldılmışdır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşadakı məscidlərdə olmuşlar. Hərbçilərlə görüşdə dövlət başçısı çıxış edərək Azərbaycan Ordusunun şücaətindən bəhs etmişdir. Xurşidbanu Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin ermənilər tərəfindən güllələnmiş büstləri Şuşada əvvəlki yerinə qoyulmuşdur.

Dövlət başçısı və birinci xanım Qazançı kilsəsinə də baş çəkmişlər. Bu, xrisitian dininə böyük hörmət və ehtiramın, eyni zamanda Azərbaycanda multikulturalizmin dövlət siyasəti olduğunu göstərmişdir.

Şuşada gecələyən dövlət başçısı növbəti gün şəhəri gəzmiş və Molla Pənah Vaqifin ermənilər tərəfindən dağıdılmış məqbərəsinə gəlmişdir. Prezident Cıdır düzündə ailəsi ilə birlikdə çay içmişdir.

Fevralın 14-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfər etmişlər. Səfər zamanı Horadiz – Ağbənd dəmiryolunun təməli qoyulmuşdur.

Laçın rayonunun Güləbird kəndində regiondakı infrastrukturun elektrik enerjisi ilə təmin olunmasında mühüm rol oynayacaq Su Elektrik Stansiyasının açılışı olmuşdur. Dövlət başçısı bərpa olunan enerjinin qurulmasına dair tapşırıqlarını vermişdir. İşğalçı Ermənistan tərəfindən Zəngilan rayonunda dağıdılmış Bəsitçay dövlət qoruğunun bərpası barədə də göstərişlər verilmiş, ağac əkilmiş və çaya balıqlar buraxılmışdır. Prezident İlham Əliyev “ağıllı kənd” layihəsinə və kənd təsərrüfatının inkişafına dair tövsiyələrini söyləmişdir.

23-cü FƏSİL

XARİCİ SİYASƏTDƏ UĞURLAR VƏ ÖLKƏ BÖYÜK DƏYİŞİKLİKLƏR ASTANASINDA

23.1. Xocalı soyqırımı günündə Prezident İlham Əliyevin dünya kütləvi informasiya vasitələrinə müsahibəsi

Xocalıda törədilən soyqırımı qurbanlarının anım günündə – 2021-ci il fevralın 26-da Prezident İlham Əliyev Azərbaycan tarixində daha bir ilkə imza ataraq 4 saatdan çox davam edən mətbuat konfransında dünyanın 35-dən çox kütləvi informasiya vasitəsi nümayəndələrinin 50-yə yaxın sualını dörd dildə cavablandırdı.[651] Azərbaycanın media qurumları ilə yanaşı, Türkiyənin "TRT Haber", CNN, "TRT World", "Haber Qlobal" televiziya kanalları, "Yeni Şəfəq", "Sözçü" qəzetləri, Anadolu Agentliyi, Qlobal Jurnalistlər Şurası, Rusiyanın RBK televiziya kanalı, TASS, "RİA-Novosti" agentlikləri, "Zvezda" və "Bolşaya Aziya" mediaholdinqləri, Ukraynanın "Ukraina-24", "1+1", "İnter" televiziya kanalları, Böyük Britaniyanın "Teleqraf", "İndependent" qəzetləri, "Reuters" İnformasiya Agentliyi, "Middle East Eye" media qurumu, Yaponiyanın JİJİ PRESS İnformasiya Agentliyi, İspaniyanın "La Vanguardia" qəzeti, Yunanıstanın "Real Group Media" şirkəti, İranın "Mehr" agentliyi, İraq media şəbəkəsi və b. mətbuat konfransında iştirak edirdilər.[652] Dövlət başçısı Azərbaycan xalqını və dövlətini qələbəyə gətirən amilləri, mövcud vəziyyəti, daxili və xarici siyasətdə perspektivləri əhatəli izah etməklə dövrün görkəmli dövlət və siyasi xadimi, mahir diplomatı olduğunu bir daha təsdiq etdi.

Mətbuat konfransının Xocalıda törədilən soyqırım günündə keçirilməsi faktının özü böyük məna daşıyırdı. İstənilən yöndən qiymətləndirildikdə möhtəşəm

651 Dörd dildə dörd saatlıq mətbuat konfransı: Prezident İlham Əliyev keçirdiyi mətbuat konfransında 35 media qurumunun 50-dək sualını cavablandırdı // "525-ci qəzet", 2021, 27 fevral.

652 Prezident İlham Əliyev yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirib // Azərtac. 2021, 26 fevral. URL: https:azertag.az/xeber/Prezident_Ilham_Aliyev_yerli_ve_xarici_media_numayendeleri_uchun_metbuat_konfransi_kechirib___YENILANIB_6_VIDEO-1722043.

olan mətbuat konfransı bir daha göstərdi ki, Azərbaycan dövləti və xalqının inkişafı ilə bağlı hakimiyyətin konkret planları mövcuddur və ölkə yeni üfüqlər astanasındadır. Prezident strateji əhəmiyyətə malik olan bir sıra məsələləri bəyan edərək bildirdi ki, Xocalıda törədilənlər Ermənistan tərəfindən Azərbaycan əhalisinə qarşı qanlı cinayət və soyqırımdır. Həm Xocalı soyqırımı, həm də İkinci Qarabağ müharibəsi zamanı ballistik raketlərlə dinc şəhərlərin bombalanması erməni faşizminin təzahürləri və müharibə cinayətləri idi. Xocalı soyqırımını törədən hərbi canilərin bir çoxu İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu tərəfindən məhv edilmişdi. Ölkə rəhbəri bildirdi ki, Xocalı soyqırımı heç vaxt unudulmamalı, Azərbaycanda, dünyada heç vaxt təkrarlanmamalı, dövlət heç vaxt 1990-cı illərin əvvəlində olan aciz duruma düşməməlidir.

Füzulidə hava limanı ilə eyni vaxtda Şuşa şəhərinə iki avtomobil yolu tikilirdi. Dövlət başçısı dedi ki, Azərbaycanın xüsusi təyinatlı qoşunları həmin yollardan biri ilə meşələrdən və vadilərdən keçərək Şuşa şəhərinə getdikləri üçün ona "Zəfər yolu" adı vermişdir. Nisbətən aran ərazidən keçən digər yol da hava limanından birbaşa gediş-gəlişi təmin edəcəkdi.

Zəngilanın çox mühüm logistika mərkəzinə çevriləcəyini nəzərə almaqla Laçında və Zəngilanda da aeroportlar tikmək planlaşdırılırdı. Dövlət başçısı Ermənistan ərazisində Azərbaycanı onun Naxçıvan Muxtar Respublikası, həmçinin Türkiyə ilə və eyni zamanda, Rusiyanı Türkiyə ilə birləşdirən dəhlizin açılacağını, Azərbaycanın vacib nəqliyyat-kommunikasiya mərkəzinə çevriləcəyini bildirdi.

Azərbaycan tərəfinin hərbi əsirlərin hamısını Ermənistana qaytardığını bildirən Prezident dedi ki, birgə bəyanatın imzalanmasından sonra tutulanlar terrorçulardır.

Dövlət başçısı Ermənistanın Azərbaycana vurduğu ziyanın hesablanması və müvafiq addımların atılması üçün zəruri işlərin görüldüyünü bildirdi. Bu, təkcə təzminat davası açmaq deyil, digərlərinə dərs olmaq, tarix və gələcək nəsillər üçün də əhəmiyyətli idi.

Azərbaycan dövləti davamlı sülh və regional əməkdaşlıq istədiyi üçün hesab edirdi ki, hər hansı revanşizm, qisasçılıq cəhdləri olmamalıdır. Belə hərəkətlər olacağı təqdirdə onların qarşısı qətiyyətlə alınacaqdır.

Dövlət başçısı bir daha bildirdi ki, Azərbaycan münaqişəni təkbaşına həll etmişdir. Azərbaycanın erməni xalqı ilə heç bir işi olmadığını təkrarən bəyan edən Prezident Xankəndinin və erməni əhalinin yaşadığı digər ərazilərin inteqrasiyasının labüd proses olduğunu vurğuladı. Azərbaycan qanunlarına riayət edən ermənilər rahat şəkildə ölkə ərazisində yaşaya bilərlər.

Mətbuat konfransında dövlət rəhbəri Türkiyənin tutduğu mövqeyə də münasibət bildirərək dedi ki, o, müharibənin ilk günlərindən sülhə, sabitliyə hesablanmış davranış göstərərək Azərbaycanın haqq işini müdafiə etmişdir və əməkdaşlıq bundan sonra da davam edəcəkdir. Türkiyənin belə mövqeyi təkcə qardaşlıq hisslərindən deyil, eyni zamanda beynəlxalq hüquq normalarına və haqq-ədalətə hörmətdən irəli gəlirdi.

Regionda əməkdaşlığın yaxşı perspektivləri vardır. Dövlət başçısı vurğuladı ki, Azərbaycan, Ermənistan və Rusiya arasında baş nazirlərin müavinləri səviyyəsində danışıqlar aparılır, Türkiyə, İran və Gürcüstan da ümumi platformaya qoşula bilərlər.

Türkiyə dünya miqyasında güc mərkəzi kimi bütün bölgələrdə, o cümlədən bütün dövlətləri ilə qonşu olduğu Cənubi Qafqazda da müsbət rol oynayır. Bu isə bölgənin sabitliyi üçün çox önəmlidir. Ortaq Monitorinq Mərkəzinin yaradılması Türk Silahlı Qüvvələrinin Qarabağ bölgəsinə, Azərbaycan torpağına gəlməsi mənasını daşıyır.

Müharibədə Azərbaycanın hədəfi barədə danışan Prezident dedi ki, başlıca məqsəd ərazi bütövlüyünün bərpa edilməsi idi və buna da nail olunmuşdur. Şəhidlərin qanı yerdə qalmamış və düşməndən intiqam döyüş meydanında alınmışdı.

İşğaldan azad edilmiş ərazilərlə bağlı planlardan danışan dövlət rəhbəri ilk növbədə, azad edilmiş torpaqların dirçəldiləcəyini, vətəndaşların qayıdacağını və "ağıllı kənd" layihəsinin həyata keçiriləcəyini bildirdi.

Regionun gələcəyini düşmənçilikdə deyil, əməkdaşlıqda görən Prezident bildirdi ki, Ermənistan Azərbaycan və Türkiyə ilə əməkdaşlıq etməsə, yalnız zəifləyəcəkdir. Çünki Ermənistanın bərpa üçün ehtiyatları mövcud deyildir, hər tərəfdən sıxılmış vəziyyətdə necə yaşayırdısa, elə də yaşayacaqdır. Əlavə etdi ki, ermənilər yaxşı başa düşməlidirlər, hansısa "arsax" adlı bir dövlətləri olduğunu deyə bilərlər, lakin belə dövlət yoxdur, heç vaxt olmayıb və olmayacaqdır, bu sərsəm ideyaları bir kənara atıb Azərbaycan vətəndaşları kimi normal yaşamaq lazımdır.

Ölkə rəhbəri Azərbaycan dövlətinin bütün dini abidələri qoruduğunu və bərpa etdiyini vurğuladı. Ermənistanın məscidlərə münasibəti bütün müsəlman aləminə qarşı təhqir idi.

Prezidentin yürütdüyü siyasət nəticəsində Azərbaycan dövləti uğurlu əməkdaşlığın nümunəsi idi. Artıq Azərbaycan – Türkiyə – Gürcüstan, Azərbaycan – Türkiyə – Türkmənistan, Azərbaycan – Türkiyə – İran, Azərbaycan – Rusiya – İran əməkdaşlıq formatları mövcud idi. Ermənistan isə yeganə ölkə idi ki, belə bir əməkdaşlıq formatı mövcud deyildi.

Mətbuat konfransı bir daha göstərdi ki, Azərbaycan millətinin və dövlətinin gələcək inkişafına dair strateji planları və qəti siyasi iradəsi vardır. Prezident İlham Əliyevin liderliyində Azərbaycan Respublikası aralarında soyuqluq olan müxtəlif dövlətləri barışdıran və ortaq məxrəcə gətirən güc dövlətidir. Bu baxımdan Türkiyə və İsrail arasında münasibətlərdə soyuqluğun aradan qaldırılmasında Azərbaycan rəhbərinin oynadığı rol nümunədir.[653]

Azərbaycan Respublikası birləşdirici güc və əməkdaşlıq nümunəsi idi. Bu, İqtisadi Əməkdşalıq Təşkilatının zirvə görüşündə bir daha özünü göstərdi.

23.2. İqtisadi Əməkdaşlıq Təşkilatının XIV onlayn zirvə toplantısında Azərbaycan Respublikasının iştirakı

Azərbaycan dövlətinin beynəlxalq fəaliyyətində İqtisadi Əməkdaşlıq Təşkilatının 2021-ci il martın 4-də keçirilən XIV onlayn zirvə toplantısında Prezident İlham Əliyevin iştirakı və nitqi mühüm yer tutdu. Toplantıya sədrlik edən Pakistanın Baş naziri İmran Xan[654] Azərbaycanı müharibədə qazandığı qələbə münasibətilə təbrik edərək dedi:

"Mən Azərbaycanın işğal olunmuş ərazilərinin müvəffəqiyyətlə azad edilməsi münasibətilə Prezident İlham Əliyevi xüsusilə təbrik etmək istəyirəm".[655]

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəsinin təşkilata sədrliyi dövründə görülən işlərdən danışaraq bir çox sahələrdə tənəzzülə gətirmiş pandemiyaya yalnız həmrəylik, regional əməkdaşlıq sayəsində qalib gəlməyin mümkün olduğunu qeyd etdi. O, Azərbaycanın işğal altında qalan torpaqlarını uğurla azad etdiyini belə ifadə etdi:

"Qardaşımız Azərbaycan erməni işğalı altındakı torpaqlarını şanlı bir Zəfərlə azad etmiş, bölgədə yeni bir dövrün qapılarını açmışdır. Bundan sonra hədəfimiz Qarabağda təhlükəsizlik və sabitliyin formalaşmasına yardım etmək, 30 illik işğalın fəsadlarını birlikdə aradan qaldırmaqdır. Bu prosesdə də təşkilat olaraq Azərbaycan ilə tam həmrəylik içində olacağımıza inanıram. Ermənistanın da atacağı sülhsevər addımlarla regional sabitliyin bir hissəsi olacağına ümid edirik".[656]

653 Prezident İlham Əliyevin mətbuat konfransından alınacaq dərslər. Milli Məclisin deputatı, AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktoru, professor Musa Qasımlının AzərTac-a müsahibəsi // Azərtac. 2020, 02 mart. URL: https:azertag.az/xeber/Prezident_Ilham_Aliyevin_metbuat_konfransindan_alinacaq_dersler-1724753.

654 İmran Xan (1952) – Pakistan İslam Respublikasının 22-ci Baş naziri (2018-ci ildən).

655 Azərbaycan müsəlman ölkələri arasında həmrəyliyə dəyərli töhfələr verir. İqtisadi Əməkdaşlıq Təşkilatının XIV onlayn Zirvə toplantısı keçirilib // "Azərbaycan" qəzeti, 2021, 5 mart.

656 Yenə orada.

Qarşıda dayanan vəzifələrdən danışan və təşkilat çərçivəsində iqtisadi-ticarət əlaqələrinin inkişafının prioritet olduğunu vurğulayan İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi investisiyaların təşviq edilməsinin və pandemiyaya qarşı mübarizədə kollektiv səylərin vacibliyini vurğuladı. O, Heydər Əliyevin təşəbbüsü olan və Prezident İlham Əliyev tərəfindən Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatının Tədqiqat Mərkəzinin yaradılmasına görə dövlət başçısına təşəkkür etdikdən sonra dedi:

"Gəlin Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi uğrunda həyatlarını qurban vermiş azərbaycanlı şəhidlərin xatirəsini də yad edək".[657]

Nitqində təşkilata uğurla sədrlik etmiş Türkiyəyə təşəkkürünü bildirən və yeni sədr Türkmənistana uğurlar arzulayan Prezident İlham Əliyev bildirdi:

"Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə münasibətlərinə böyük əhəmiyyət verir. Bu gün burada İqtisadi Əməkdaşlıq Təşkilatının Tədqiqat Mərkəzinin nizamnaməsini imzalayacağıq. Biz Azərbaycanın mərhum Prezidenti Heydər Əliyevin təşəbbüsünü dəstəklədiklərinə görə üzv dövlətlərə minnətdarıq və Azərbaycanda yerləşəcək Mərkəzin səmərəli fəaliyyəti üçün əlimizdən gələni edəcəyik".[658]

Azərbaycanın öz torpaqlarının Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına hərbi-siyasi yollarla son qoyduğunu, döyüş meydanında əldə edilmiş qələbənin siyasi vasitələrlə tam təmin edildiyini, BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinin 27 il kağız üzərində qaldığını bildirən Prezident dedi:

"Azərbaycan özü həmin qətnamələrin icrasını təmin edərək ərazi bütövlüyünü bərpa etdi. İşğalçılar qədim Azərbaycan torpağı olan Qarabağdan qovuldu. 44 gün ərzində Ermənistan ordusu tam darmadağın edildi. 2020-ci il noyabrın 10-da Azərbaycan Ermənistanı kapitulyasiya aktı imzalamağa məcbur etdi".[659]

Prezident Azərbaycanın haqq işini müdafiə etdiklərinə görə Türkiyə, Pakistan və digər ölkələrin rəhbərlərinə təşəkkür etdi.

Ermənistanın müsəlman dini abidələrini təhqir etdiyini və eyni zamanda müsəlman ölkələri ilə əlaqələrini genişləndirməyə çalışdığını dövlət başçısı belə xarakterizə etdi:

"İşğal zamanı Ermənistan işğal etdiyi ərazilərdə Azərbaycanın kənd və şəhərlərini, bütün mədəni və dini abidələrini qəsdən dağıtmışdır. Bizim məscidlər donuz və inək saxlanılan yerlərə çevrilmişdir. Bütün bunların foto və videoları internetdə var. Bu, bütün İslam dünyasına qarşı düşmənçilikdir. Azərbaycan xalqının mədə-

657 Yenə orada.
658 Yenə orada.
659 Yenə orada.

ni və dini irsinin qəsdən dağıdılması və təhqir edilməsi faktları beynəlxalq media nümayəndələri tərəfindən əks etdirilmişdir. Bütün müsəlmanların hisslərini təhqir edən Ermənistanın müsəlman ölkələri ilə əlaqələrini genişləndirmək cəhdləri riyakarlıqdan başqa bir şey deyil. Azərbaycan müsəlman ölkələri arasında həmrəyliyə dəyərli töhfələr vermişdir. Biz müxtəlif beynəlxalq kürsülərdən İslam ölkələrini birliyə çağırmışıq".[660]

Sülh və birgəyaşayış dini olan islamın zorakılıq və terrorçuluqla əlaqələndirilməsini qəti şəkildə pisləyən Prezident İlham Əliyev vurğuladı:

"Azərbaycan İslam dininin zorakılıq və terrorla əlaqələndirilməsini kəskin şəkildə pisləyir. Biz islamofobiyaya qarşı mübarizə aparmalı və İslamın həqiqi dəyərlərini - sülh, tolerantlıq və ədaləti təşviq etməliyik. Bu mənada, qardaş Pakistanın təşəbbüsü ilə İslam Əməkdaşlıq Təşkilatının martın 15-nin Beynəlxalq İslamofobiya ilə Mübarizə Günü elan olunması qərarını alqışlayırıq".[661]

Azərbaycan Avrasiyada enerji təhlükəsizliyini təmin edən vacib tərəfdaş ölkə kimi nüfuz qazanmışdır. Müharibə başa çatdıqdan az sonra, 2020-ci il dekabrın 31-də istismara verilən və yeddi ölkəni birləşdirən Cənub Qaz Dəhlizi dünyanın ən böyük enerji infrastrukturu layihələrindən biri idi. Azərbaycanın Şərq-Qərb, Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrində fəal iştirak etdiyinə, Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrildiyinə diqqəti cəlb edən Prezident bildirdi ki, tərəfdaşlarla birgə Azərbaycanın nəqliyyat infrastrukturu 2017-ci il noyabrın 15-də Aşqabadda Türkiyə, Gürcüstan, Azərbaycan, Türkmənistan hökumətləri arasında imzalanan müqaviləyə əsasən yaradılmış Lapis Lazuli nəqliyyat dəhlizi ilə birləşdirilmişdir.

Münaqişəyə son qoyulduğunu və onun tarixdə qaldığını deyən ölkə rəhbəri vurğuladı ki, bölgədə sülh və sabitliyi təmin etmək üçün bir çox ölkələri birləşdirən nəqliyyat layihələri müzakirə olunur, Azərbaycan, Türkiyə və İran bölgədə nəqliyyat layihələrinin icrası ilə bağlı vahid mövqe sərgiləyir. Nitqinin sonunda Prezident bildirdi:

"...Azərbaycanın tarixi ərazisi olan Zəngəzurdan keçəcək və Azərbaycanın əsas hissəsi ilə ölkəmizin ayrılmaz hissəsi Naxçıvan Muxtar Respublikasını və Türkiyəni birləşdirəcək yeni bağlantı dəhlizi regionda nəqliyyat sektorunda yeni imkanlar yaradacaq. Biz İqtisadi Əməkdaşlıq Təşkilatının üzv dövlətlərini Zəngəzur dəhlizindən faydalanmağa dəvət edirik".[662]

660 Yenə orada.
661 Yenə orada.
662 Yenə orada.

Toplantıda İqtisadi Əməkdaşlıq Təşkilatının Tədqiqat Mərkəzinin nizamnaməsi imzalandı, növbəti zirvə toplantısının Türkmənistanda keçirilməsi barədə razılığa gəlindi.

Zirvə görüşü Azərbaycan Respublikasının artan beynəlxalq nüfuzunun göstəricilərindən biri oldu. Ölkə rəhbərinin nitqi müharibədə qazanılan qələbənin əhəmiyyətini və dövlətin siyasətini bilmək baxımından əhəmiyyətli oldu.

Beynəlxalq aləmdə qazanılan uğurlar hakim Yeni Azərbaycan Partiyasının rəhbərliyi ilə daxili siyasətdə də davam etdirilirdi. Partiyanın VII qurultayı və qəbul edilən qərarlar ölkə həyatının vacib hadisələrindən biri oldu.

23.3. Yeni Azərbaycan Partiyasının VII qurultayı

Yeni Azərbaycan Partiyasının 2021-ci il martın 5-də keçirilən VII qurultayı ölkə həyatının yeniləşməsi və qarşıda dayanan vəzifələrin müəyyənləşdirilməsi baxımından əhəmiyyətli rol oynadı. Qeyd etmək lazımdır ki, YAP-ın birinci qurultayı 1999-cı ildə, sonrakı qurultayları 2001, 2005, 2008, 2013, 2018-ci illərdə keçirilmişdi. Partiyanın VI qurultayından üç il ötürdü.

Yeni qurultayın çağırılmasını bir sıra amillər zəruri etmişdi. Hər şeydən əvvəl, bu illər ölkə və bölgə üçün həlledici olmuşdu. Üç il ərzində ölkə həyatında bir çox önəmli hadisələr baş vermişdi. Onların arasında ən mühümü Vətən müharibəsində qələbənin qazanılması və ərazi bütövlüyünün bərpa edilməsi olmuşdu.

Qurultayda videoformatda etdiyi açılış nitqində Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev dedi ki, müharibədə qazanılan qələbə qürur mənbəyidir və dünyanın aparıcı ölkələrinin aparıcı ali məktəblərində öyrənilir. Azərbaycan xalqı birlik, həmrəylik, Azərbaycan Ordusu rəşadət, qəhrəmanlıq və peşəkarlıq göstərmişdi. Dövlət başçısı vurğuladı:

"Bütün xalqımız bir yumruq kimi birləşib, düşmənə sarsıdıcı zərbələr vurub öz tarixi torpaqlarını işğalçılardan azad etmişdir. Biz bu tarixi missiyanı yerinə yetirdik".[663]

Münaqişənin həllinə dair 2003-cü ildən sonra Azərbaycan dövlətinin mövqeyini bir daha bəyan edən Prezident dedi:

"Mən son 17 il ərzində münaqişə ilə bağlı bütün çıxışlarımda deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu işğalla barışmayacaq. Heç vaxt Azərbaycan imkan verməyəcək ki, tarixi, əzəli torpaqlarında ikinci erməni dövləti yaradılsın. Heç vaxt bizi tam qane etməyən razılaşma ilə barışmayacağıq və müharibədən əvvəl müxtə-

663 İlham Əliyev: "Biz reallıqları yaradan ölkəyik" // "Azərbaycan" qəzeti, 2021, 6 mart.

lif çıxışlarda, müsahibələrdə deyirdim ki, bizə hansısa yarımçıq sülh müqaviləsi lazım deyil. Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik. Biz tarixi ədaləti tam bərpa etməliyik. Çünki yarımçıq razılaşma bizim xalqımızın maraqlarına cavab vermirdi, tarixi ədalətə cavab vermirdi. Yarımçıq razılaşma istər-istəməz gələcəkdə müharibə risklərini artıra bilərdi. Bizə isə tam, mütləq qələbə lazım idi. Biz bu mütləq qələbəni qazandıq, düşməni darmadağın etdik, düşmən ordusunu məhv etdik və istədiyimizə nail olduq".[664]

Qurultayın çağırılmasını zəruri edən amillərdən biri son üç ildə prezident və parlament seçkilərinin keçirilməsi və islahatların aparılması ilə bağlı idi. Prezident və parlament seçkilərindən sonra islahatlar yeni mərhələyə qədəm qoymuşdu və bəyan olunan proqram icra edilirdi. Bununla bağlı olaraq dövlət başçısı bildirdi:

"Prezident seçkilərindən sonra mən ərazi bütövlüyümüzün bərpasını qarşıya birinci dərəcəli vəzifə kimi qoymuşdum və biz buna nail olduq. Eyni zamanda, siyasi, iqtisadi, sosial və başqa sahələrdə, o cümlədən xoşagəlməz hallara qarşı mübarizədə də qarşımıza açıq-aydın hədəflər qoyuldu. Biz ardıcıllıqla və məqsədyönlü şəkildə bu hədəflərə çatırıq".[665]

Ölkənin müasir inkişaf səviyyəsinə çatmasında Ümummilli lider Heydər Əliyevin siyasi ideyaları xüsusi əhəmiyyət daşımışdı. Yeni Azərbaycan Partiyası məhz Heydər Əliyevin ətrafında yaradılmışdı. Onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı illərdə göstərdiyi əsl vətənpərvərlik və xalqına sədaqət Azərbaycanın mütərəqqi insanlarını ətrafında birləşdirmişdi. Bu birləşmədə Heydər Əliyevin 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər önəmli rol oynamışdı.

Heydər Əliyevin fəaliyyətinin Naxçıvan illəri ibrətamiz idi. O vaxt Naxçıvan həm Ermənistanın hərbi təcavüzünə, həm də Azərbaycan rəhbərliyinin əsassız hücumlarına, təqiblərinə məruz qalmış, blokada şəraitində işıqsız, qazsız, susuz, heç bir maddi imkanı olmadan yaşamışdı. Belə ağır şəraitdən çıxmaqda Heydər Əliyev amili əsas rol oynamışdı. Ermənilər nə qədər cəhd etsələr də, Naxçıvanda öz istəklərinə nail ola bilməmişdilər. Dövlət başçısı vurğuladı:

"Halbuki Qarabağdan sonra onların növbəti hücum hədəfi Naxçıvan idi. Heydər Əliyev və onun ətrafında birləşmiş insanlar Naxçıvanı qoruya bildilər, düşməni yerinə oturtdular və orada sərhəddə gedən şiddətli döyüşlərdə qalib gəldilər". [666]

Müstəqil Azərbaycan dövlətinin yaradılmasında Heydər Əliyevin müstəsna xidmətlərinin üzərində dayanan dövlət başçısı dedi ki, müstəqillik barədə onun birmənalı, qətiyyətli addımları xalq tərəfindən yüksək qiymətləndirilirdi, o vaxt

664 Yenə orada.
665 Yenə orada.
666 Yenə orada.

Azərbaycan Respublikasında Sovet İttifaqının saxlanmasına dair referendum keçirilmiş və nəticələri kobudcasına saxtalaşdırılmışdı. Sanki Azərbaycan xalqı müstəqillik deyil, Sovet İttifaqının tərkibində yaşamaq istəyirdi. Naxçıvanda isə referendum baş tutmamışdı. Prezident bildirdi:

"Ancaq Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev referendumun keçirilməsinə imkan verməmişdir. Bu, böyük cəsarət, qəhrəmanlıq tələb edən addım idi. Eyni zamanda, o vaxt Bakıda sovet Azərbaycanının bayrağı altında oturan rəhbərlik sanki o keçmişdən elə ikiəlli yapışmışdı ki, onu buraxmaq istəmirdi. Ancaq Heydər Əliyevin göstərişi və təşəbbüsü ilə Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı rəsmi bayraq kimi təsis edildi və Sovet İttifaqının dağılmasına hələ çox vaxt var idi".[667]

Ölkədə yaranmış ağır şəraitdə Yeni Azərbaycan Partiyasının qurulması zərurətə çevrilmişdi. Bununla əlaqədar olaraq Prezident İlham Əliyev dedi:

"O vaxt, cəsarətli, qorxmaz insanlar açıq-aydın görürdülər ki, təzə-təzə müstəqilliyə qovuşmuş gənc ölkəmiz böyük fəlakətlə üz-üzədir və artıq ölkədə gedən proseslər idarəolunmaz xarakter almışdır. Hərbi məğlubiyyət, eyni zamanda, daxili böhranla tamamlanır. Ölkə daxilində gedən xoşagəlməz proseslər, siyasi çəkişmələr, hakimiyyət uğrunda mübarizə ölkəmizin müstəqil yaşamasını sual altına qoymuşdur... Kim bu vəziyyəti dəyişdirəcəkdi? O vaxt hakimiyyətdə olan AXC-Müsavat cütlüyü ancaq öz maraqlarını güdürdü".[668]

Yaranmış böhranlı şəraitdə ölkəni idarə edənlərə inamın olmadığını Prezident belə ifadə etdi:

"Belə insanlara xalq tərəfindən inam ola bilərdimi? Ölkə tamamilə idarəolunmaz vəziyyətdə idi. Köhnə partnomenklatura demək olar ki, tamamilə iflic vəziyyətə düşmüşdü, hakimiyyətə qanunsuz yollarla gəlmiş AXC-Müsavat cütlüyü ölkəni talayırdı, dağıdırdı, müharibə gedə-gedə Ermənistana benzin satırdı. Bütün vəzifələrə rüşvət müqabilində insanlar təyin edilirdi, təsadüfi insanlar, küçədən keçənlər. Baxın, indi mən bunu dəfələrlə demişəm, kim idarə edirdi Azərbaycanı, hansı əxlaq, hansı bilik sahibləri.

...Azərbaycan xalqı buna dözə bilərdimi? Əlbəttə ki, yox. Məhz bu idi Yeni Azərbaycan Partiyasının yaranmasının tarixi zərurəti".[669]

Ölkədə hökm sürən qanunsuzluq, özbaşınalıq və repressiyalar şəraitində partiyanın yaradılmasında xüsusi cəfakeşlik göstərmiş insanların fəaliyyətinə diqqəti yönəldən dövlət rəhbəri bildirdi:

"O vaxt cəsarət və milli düşüncə göstərmiş, baxmayaraq ki, repressiyalara məruz qalmış vətənpərvər insanlar – məşhur "91-lər" Ulu Öndərə müraciət edib-

667 Yenə orada.
668 Yenə orada.
669 Yenə orada.

lər. Bu, böyük cəsarət tələb edirdi. Çünki o vaxt qanun yox idi. Kim nə istəyirdi, onu edirdi. Hüquq-mühafizə orqanları insanları əsassız həbs edirdilər, döyürdülər, canlı efirdə döyürdülər, söyürdülər. Tamamilə anarxiya, xaos, özbaşınalıq hökm sürürdü. Kimi istəyirdilər öldürürdülər, şikəst edirdilər, həbs edirdilər. Bax, bu idi o vaxt mövcud olan mənzərə... O vaxt onlara qarşı bir söz deyəni tutub əzirdilər, döyürdülər, öldürürdülər. Nə üçün bəs Yeni Azərbaycan Partiyasının təsis qurultayı Naxçıvanda keçirildi? Bakıda imkan vermədilər. Heydər Əliyev fenomenindən o qədər qorxurdular, öz cılız mahiyyətlərini özləri o qədər dərk edirdilər, bilirdilər ki, əgər bu qurultay Bakıda keçirilsə, bunların hakimiyyətinə son qoyulacaq. Çünki onlara xalq tərəfindən olan nifrət artıq bütün həddini keçmişdi".[670]

Həmin şəxslərin cəsarətini yüksək qiymətləndirən Prezident İlham Əliyev bildirdi ki, bundan sonra da onlar Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasında fəaliyyət göstərəcəklər.

2003-cü ildən sonra ölkənin keçdiyi böyük inkişaf yolunun dərindən araşdırılmasına, ümumiləşdirilmiş nəticələrin çıxarılmasına və dərslərin alınmasına ehtiyac duyulurdu. Bununla bağlı olaraq dövlət başçısı tarixçilərin, politoloqların qarşısında dayanan vəzifələri belə müəyyənləşdirdi:

"...biz son 17 il ərzində doğrudan da tarixi uğurlara imza atdıq. Bu dövrü xarakterizə etmək üçün çox vaxt lazımdır. Hər şey göz qabağındadır. Əminəm ki, bizim tarixçilərimiz, politoloqlarımız, alimlərimiz bu dövrü də məqalələrdə, kitablarda, dərsliklərdə düzgün əks etdirəcəklər".[671]

Məlum olduğu kimi, torpaqların işğaldan azad edilməsindən sonra ölkə həyatında yeni dövr başlanmışdı. Müasir çağırışlara diqqəti cəlb edən ölkə rəhbəri dedi:

"...hər dövrün öz tələbləri var. Biz 1990-cı illərin tələbləri ilə XXI əsrdə yaşaya bilmərik. Hətta bu gün müharibədən sonra yeni dövr başlayır. Əvvəlki dövrlərdə əldə edilmiş bütün uğurları biz kənara qoymalıyıq. Bəli, bu, bizim üçün fundament yaratdı, baza yaratdı, imkan yaratdı ki, biz əsas məqsədimizə çataq. Ancaq əgər biz oturub bütün günü o dövr haqqında danışsaq, gələcək haqqında düşünməsək, onda nə olacaq. Biz gələcək haqqında düşünməliyik. Biz zamanı qabaqlamalıyıq. Mən demişəm, indi Qarabağın bərpası ilə bağlı bizim əsas rəqibimiz zamandır. Ölkənin gələcəyini elə planlaşdırmalıyıq ki, uzunmüddətli dayanıqlı inkişaf təmin edilsin, müstəqillik əbədi olsun, ölkəmizin qüdrəti artsın, təsir imkanlarımız artsın və daim Azərbaycan xalqı təhlükəsizlik şəraitində öz dədə-baba torpağında yaşasın".[672]

670 Yenə orada.
671 Yenə orada.
672 Yenə orada.

2003-2020-ci illəri torpaqların işğaldan azad edilməsinə hazırlıq kimi qiymətləndirən dövlət başçısı məsələnin dinc vasitələrlə həll olunmadığı təqdirdə müharibə yolu ilə bunu həll edəcəyini daim demişdi. Buna görə nə qədər təzyiqlər olsa, böyük ölkələrin nümayəndələrinin "Prezident İlham Əliyev sülh istəmir, müharibə istəyir, kimisə hədələyir, müharibə mümkün deyil, Dağlıq Qarabağ münaqişəsinin hərbi həlli yoxdur" desələr də, Azərbaycan rəhbəri onları rədd etmiş və müharibəyə hazırlaşmışdı. Prezident açıq şəkildə söylədi:

" Demişdim ki, əgər məsələ həll olunmasa, müharibə yolu ilə bunu həll edəcəyik. Açıq demişdim, bunu mən gizlətmirdim. Bu hazırlıq dövrü idi. İlk növbədə, biz mənəvi cəhətdən hazır olmalı idik. Bütün başqa amillərlə bərabər, bax, bu amil həlledici rol oynamışdır. Müharibənin ilk günündən mənəvi üstünlük bizdə idi. Təkcə ona görə yox ki, biz haqlı idik, onlar nahaq. Erməni rəsmi təbliğatı erməni xalqının beynini elə zəhərləyib ki, onların bəlkə bir çoxları hesab edirdilər onlar haqlıdır ki, bizim torpaqlarımızı zəbt edirlər. Mən demişdim, onları müalicə etdirmək lazımdır. Onlar xəstələniblər, koronavirusdan da betər bir virus hopub bunların canına. O millətçi və irqçi, azərbaycanafob, islamofob erməni siyasətçiləri, bax, buna gətirib çıxardılar. Təkcə ona görə yox ki, biz haqlı idik. Biz mənəvi üstünlüyü ona görə əldə etdik ki, bütün bu illər ərzində bir amalla yaşamışıq: ərazi bütövlüyümüzün bərpa edilməsi, düşmənlərin torpaqlarımızdan qovulması".[673]

Azərbaycana işğalçı ölkə ilə əməkdaşlığı təklif edən dairələrə dövlət başçısı demişdi ki, bu, yalnız işğalçı torpaqlardan çıxdıqdan sonra mümkün ola bilər. Düşmən döyüşdə məğlub olub torpaqlardan qovulduqdan sonra əməkdaşlıq üçün ilk addımlar atılmış, Azərbaycan-Ermənistan-Rusiya baş nazirlərinin müavinləri bir neçə dəfə görüşmüşdülər. Ermənistanın əməkdaşlıqdan boyun qaçırdığına diqqəti yönəldən dövlət başçısı bildirdi:

"İndi Ermənistan əməkdaşlıqdan boyun qaçırır. ...Zəngəzur dəhlizinin icrasına əngəl törətmək istəyir. Amma nail ola bilməyəcək. Məcbur edəcəyik onları... Necə ki, qovmuşuq torpaqlarımızdan, bütün istədiyimizə nail olacağıq".[674]

İşğal davam edərkən xarici ölkələrin və beynəlxalq təşkilatların təklifləri ilə Azərbaycan və Ermənistan vətəndaş cəmiyyətinin nümayəndələri bir neçə dəfə görüşsələr də, əsas mahiyyət kənarda qalmışdı. Sanki müharibə, Xocalı soyqırımı olmamış, qaçqınlar, köçkünlər torpaqlarından ermənilər tərəfindən qovulmamış, binalar və məscidlər dağıdılmamışdı. Bir zamanlar neft kəmərinin Ermənistan ərazisindən keçməsini təklif edənlər rədd cavabı aldıqda Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin maliyyələşməsini bir il yubatmışdılar. O vaxt Azərbaycan dövləti kreditlərə möhtac idi. Lakin aparıcı

673 Yenə orada.
674 Yenə orada.

beynəlxalq maliyyə qurumları təkliflərini qəbul etdirməyə məcbur etmək üçün bir il kredit verməsələr də, Azərbaycan yolundan dönməmiş, özü Gürcüstana ucuz kredit verərək məqsədinə nail olmuşdu.

Ölkə rəhbəri torpaqların işğaldan azad edilməsində qazanılan qələbənin səbəblərindən danışdı.

Azərbaycanın daxilində təbii sabitlik və əlverişli mühit mövcud olduğu üçün xaricdən çoxlu investisiyalar qoyulmuşdu. Azad edilmiş torpaqlarda çalışmaq istəyən xarici şirkətlərin sayı artırdı. Xaricdən kredit alınması məsələsində Prezident qəti mövqeyini belə bəyan etdi:

"Mən, ümumiyyətlə, hökumətə xarici kreditləri götürməyi qadağan etmişəm. Biz ancaq yüksək texnoloji layihələrə kredit götürməliyik ki, oraya texnologiyalar gətiririk. Yoxsa yol çəkirik, asfalt bizim, bitum bizim, çınqıl bizim, niyə biz xarici kredit götürməliyik?".[675]

Qarşıdakı dövrdə ölkə daxilində siyasi dialoqun dərinləşdirilməsinə ehtiyac var idi. Prezident bununla bağlı olaraq vurğuladı:

"Biz yeni dövrdə siyasi dialoqu daha da dərinləşdirməliyik. Bu prosesə müharibədən əvvəl start verildi və hesab edirəm ki, qısa müddət ərzində yaxşı nəticələr əldə olundu. Demək olar ki, bütün partiyalar, - əgər biz özünü siyasi qurum adlandıran antimilli şuranı istisna etsək, bütün siyasi qüvvələr dialoqa meyil göstərmişlər, bizim təşəbbüsümüzü alqışlamışlar və artıq bu dialoq baş tutub. Bunu mən tam əminliklə deyə bilərəm və heç bir kənar müdaxilə olmadan".[676]

Əvvəlki illərdə xaricdən gəlib siyasi dialoq təşkil etmək cəhdlərini təhqir hesab edən dövlət başçısı o zaman təşkilatçılara demişdi ki, gedin öz işinizlə məşğul olun, sizin ölkənizdə siyasi dialoqa daha çox ehtiyac var, nəinki Azərbaycanda. Azərbaycanda ümummilli məsələlərdə - Qarabağ məsələsi, siyasi partiyaların fəaliyyəti, demokratiyanın inkişafı, iqtisadi azadlıqların bərqərar olması, ölkənin güclənməsi və s. siyasi dialoq aparılırdı. Ölkə rəhbəri dedi:

"...ölkəmizin gələcək siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyəti var. Yeni Azərbaycan Partiyasının nümayəndələrini də, üzvlərini də buna fikir verməyə çağırıram ki, bizim ölkə daxilində heç bir siyasi qurumla heç bir problemimiz yoxdur".[677]

Ümummili maraqların əleyhinə çıxan və Ermənistan rəhbərliyini nümunə gətirən antimilli qruplara münasibətlər barədə dövlət başçısı qəti mövqeyini belə ifadə etdi:

"Antimilli ünsürlərlə, əlbəttə ki, biz heç vaxt bir masa arxasında otura bilmərik, çünki onlar satqınlardır, xaindirlər. Onlar təlimatları xaricdən alırlar. Onların

675 Yenə orada.
676 Yenə orada.
677 Yenə orada.

emissarları xarici paytaxtlarda oturublar. Oradan pul alırlar bura göndərirlər, camaatı çaşdırmaq üçün, onlar bizim şanlı qələbəmizə kölgə salmaq istəyirlər. Onlar Paşinyanı bizə nümunə gətirirdilər, onu təmiz adam adlandırırdılar, onu demokrat adlandırırdılar. Deyirdilər ki, kaş ki, Azərbaycanda da belə bir lider olaydı".[678]

Həmin qrupların məqsədi Azərbaycanı qarışdırmaq, xaos və anarxiya yaratmaq idi. Prezident vurğuladı:

"Məqsəd nə idi? Məqsəd Azərbaycanı qarışdırmaq, Azərbaycanı çökdürmək, Azərbaycan rəhbərliyini hörmətdən salmaq, çirkin uydurmalar, iftiralar, yalançı məqalələr yazdırmaq - hamısı bizim gözümüzün qabağındadır... Bizi əsas vəzifəmizdən çəkindirmək istəyirdilər ki, başımız qarışsın daxili çəkişmələrə, başımız qarışsın əsassız ittihamları yalanlamağa, əsas vəzifədən bizi çəkindirsinlər ki, işğal edilmiş torpaqlar ermənilərin əlində əbədi qalsın. Bu idi məqsəd. Bu gün antimilli şurada cəmləşən milli satqınlar da bu məqsədi güdür. Bizim şanlı Ordumuzun Qələbəsinə kölgə salmaq istəyənlər də bu məqsədi güdür. Azərbaycan tarixində bəlkə də onlar kimi iyrənc insanlar olmayıb".[679]

Dövlət başçısı iqtisadi sahədə inhisarçılığa son qoyulması, şəffaflıq və dürüstlük dövrünün başlandığını bildirərək əlavə etdi ki, azad edilmiş torpaqlarda bütün işlərin planlı şəkildə aparılması və investisiyalar üçün imtiyazların müəyyən edilməsi barədə müvafiq təlimat vermişdir.

Azərbaycan dövlətinin xarici siyasət xəttinin dəyişməyəcəyini, müharibə dövründə və sonra da düzgün olduğunu qeyd edən Prezident bəzi ölkələrin ittihamlarının aradan qaldırıldığını, müharibə dövründə ədalətsiz mövqe sərgiləyən ölkələrlə də münasibətlərin normallaşdığını bildirdi.

Prezident İlham Əliyev Xocalı soyqırımının, şəhidlərin qəhrəmanlığının heç vaxt unudulmayacağını və onların qanının alındığını vurğuladı. Əlavə etdi ki, bütün dünyanın gözü qarşısında Ermənistan Azərbaycanın qabağında diz çökmüş, təslim olmuş, ağ bayraq qaldırmış və bundan sonra məğlub edilmiş ölkə damğası ilə, Azərbaycan isə qürurlu xalq və mübariz dövlət kimi yaşayacaqdır. Müharibəni Azərbaycan tarixinin şanlı səhifəsi kimi qiymətləndirən dövlət başçısı gələcək planlar barədə dedi:

"Biz elə planlaşdırmalıyıq ki, bəlkə də əlli ildən sonra XXII əsrin müharibəsinə də hazır olaq. Çünki güc hər şeyi həll edir. Əfsuslar olsun ki, bu, belədir. Beynəlxalq hüquq işləmədiyi yerdə ancaq güc amili həlledici ola bilər".[680]

Prezidentin nitqindən sonra qurultayın gündəliyi təsdiq edildi. Qurultayda Azərbaycanın bütün bölgələrini, rayon və şəhər təşkilatlarını təmsil edən 194

678 Yenə orada.
679 Yenə orada.
680 Yenə orada.

nümayəndə iştirak edirdi. Gündəliyə aşağıdakı məsələlər daxil edilmişdi: partiyanın yeni nizamnaməsinin təsdiq edilməsi; partiyanın İdarə Heyətinin seçilməsi; partiyanın Təftiş Komissiyasının seçilməsi; partiyanın Veteranlar Şurasının seçilməsi; bir sıra siyasi partiyaların Yeni Azərbaycan Partiyasına qoşulmasına dair müraciətlərinə baxılması.

Məruzə ətrafındakı çıxışlarda ölkənin aparıcı siyasi qüvvəsi kimi Yeni Azərbaycan Partiyasının qarşısında dayanan vəzifələri layiqincə yerinə yetirdiyi vurğulandı. Məsələn, Milli Məclisin deputatı Mixail Zabelin[681] çıxışında dedi:

"Uğurlu iqtisadi və sosial struktura, güclü orduya malik olan demokratik, dünyəvi dövlət quran Azərbaycan xalqı, eyni zamanda, erməni silahlı qüvvələri tərəfindən respublikamızın ərazisinin 20 faizinin işğal edilməsi, yüz minlərlə məcburi köçkün, Xocalı faciəsi, azərbaycanlıların evlərinin və müqəddəs ziyarətgahların dağıdılması, ərazilərimizin səhraya çevrilməsi kimi qanlı yaranı da unutmayıb. Hər birimiz dövlətimizin informasiya siyasətinə töhfə verməyə, Azərbaycan haqqında, onun yüksək multikulturalizm və tolerantlıq keyfiyyətləri ilə seçilən xeyirxah xalqı barədə həqiqəti söyləməyə, Qarabağ münaqişəsinin dinc yolla və ədalətli həllinə nail olmağa, dövlətimizin ərazi bütövlüyünü qorumağa, erməni işğalçıları tərəfindən zəbt edilmiş torpaqlarımızı geri qaytarmağa çalışmışıq.

Biz azad, demokratik ölkədə qardaş Azərbaycan xalqı ilə yanaşı yaşayırıq. Bu xalqın əcdadları tərəfindən onların qəlbində kök salmış yüksək multikulturalizm keyfiyyətlərinə görə çox minnətdarıq. Biz ruslar, respublikanın tamhüquqlu vətəndaşları kimi rus dilindən sərbəst istifadə edirik, öz mədəniyyətimizi və ənənələrimizi qoruyub saxlamışıq. Dövlətimiz tərəfindən qorunub saxlanılan və Heydər Əliyev Fondu tərəfindən bərpa edilmiş xristian pravoslav məbədlərinə sərbəst gedirik. Respublikada tədrisin rus dilində olduğu məktəblər qorunub saxlanıb, ölkənin ali məktəblərində tədrisin rus dilində olduğu fakültələr fəaliyyət göstərir. Azərbaycanın 120 minlik rus əhalisi heç vaxt və heç kim tərəfindən sıxışdırılmayıb, onların mülki hüquqları pozulmayıb. Buna görə də onlar Azərbaycan xalqına ürəkdən minnətdardırlar".[682]

Çıxışlardan sonra partiyanın yeni nizamnaməsi qəbul edildi. Partiyanın İdarə Heyətinin tərkibi 40, Təftiş Komissiyasının tərkibi 13, yeni yaradılan Veteranlar Şurasının tərkibi 35 nəfərdən ibarət seçildi. Yeni Azərbaycan Partiyasına qoşulmaq istəyən 6 siyasi partiyanın - Azərbaycan Xalq Demokratik Partiyası, Azərbaycan Kəndli Partiyası, Milli Qurtuluş Partiyası, Azərbaycan Yurddaş Partiyası, Azərbaycan Milli Hərəkat Partiyası və Azərbaycan Demokrat Sahibkarlar Partiyasının müraciəti barədə müsbət qərar qəbul edildi.

681 Mixail Zabelin (1946) – Azərbaycan parlamentinin deputatı (1990-cı ildən). Azərbaycan Rus icmasının sədri.

682 İlham Əliyev: "Biz reallıqlar yaradan ölkəyik" //"Azərbaycan" qəzeti, 2021, 6 mart.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev yekun nitq söyləyərək VII qurultayı ölkənin ictimai-siyasi həyatında əhəmiyyətli hadisə kimi qiymətləndirdi. Şəhid ailələrinə göstərilən qayğıdan danışan dövlət başçısı bildirdi ki, müharibədən dörd ay keçməsinə baxmayaraq, artıq 1500 şəhid ailəsi və müharibə əlilinə mənzillər verilmişdir. 2020-ci ildə şəhid ailələrinə verilən mənzillərin sayı 1572 olmuşdu. Mənzillərin verilməsi davam etdirilirdi. Qazilər də dövlət tərəfindən bütün lazımi müalicə vasitələri ilə təmin edilmişdilər. Onlar üçün ən müasir protezlər sifariş olunmuşdu.

Böyük qayıdış proqramı icra olunmağa başlayanda məcburi köçkünlərin doğma torpaqlarına dönmələri prosesinə də start veriləcəyinə diqqəti yönəldən Prezident dedi ki, 300 mindən çox məcburi köçkün dövlət tərəfindən evlərlə, mənzillərlə təmin edilmişdir, ancaq hələ də uşaq bağçalarında, yataqxanalarda və digər yararsız, yəni uyğunlaşdırılmış binalarda köçkünlər yaşayır.

Daha sonra dövlət başçısı gənc nəslin tərbiyəsinə xüsusi diqqət yetirməyi tövsiyə etdi:

"Əgər gənc nəsil tərbiyə edilməsə, əgər gənc nəslə ümumbəşəri dəyərlər aşılanmasa, o zaman gələcəkdə problemlər qaçılmazdır. Çünki biz bu gün də görürük ki, nəsillər dəyişdikcə bəzi ölkələrdə radikal qüvvələr ya hakimiyyətə gəlir, ya da ki, ildən-ilə, seçkilərdən-seçkilərə onlara verilən səslərin sayı çoxalır. Onların arasında faşist partiyaları var, onların arasında islamofob şüarlarla hakimiyyətə gəlmək istəyənlər var, onların arasında radikallar var. Bütün bunlar onu göstərir ki, tərbiyə işində boşluqlar olub. Sadəcə olaraq, ölkələrin təhsil sistemi bu sahəyə diqqət yetirməyib. Amma tərbiyə həm dərslər zamanı verilməlidir, eyni zamanda, ölkədə hökm sürən ab-hava ilə - o da tərbiyə üsullarından biridir".[683]

Gənclərin milli ruhda tərbiyə edilməsinin vacibliyi barədə ölkə rəhbəri bildirdi:

"...gənc nəslimizin milli ruhda, milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi ən başlıca vəzifələrdən biridir. Ənənələrimiz, dəyərlərimiz, yaşayış tərzimiz – bütün bunlar bizim sərvətimizdir, biz bunu itirə bilmərik və itirməməliyik. Ona görə gənc nəslin tərbiyə edilməsi çox önəmli məsələdir və burada milli-mənəvi dəyərlər ön plandadır".[684]

Müxtəlif dinlərin və etnik qrupların normal yaşadığı model ölkə halına gələn Azərbaycanda bu ənənənin davam etdirilməsi vacib idi. Azərbaycanda bütün xalqların nümayəndələri bir ailə kimi yaşayırdılar. Dövlət başçısı dedi:

"...bizim dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir.

683 Yenə orada.
684 Yenə orada.

Biz hamımız Azərbaycan xalqının nümayəndələriyik. Ancaq, eyni zamanda, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkə olduğu üçün hər bir xalqın, hər bir dinin nümayəndəsinin öz ənənələri var, öz bayramları var, öz həyat tərzi var və bir-birimizə hörmətlə yanaşmağımız bizim böyük sərvətimizdir. Mən deyə bilərəm ki, Azərbaycan bu sahədə də dünyada nadir ölkələrdən biridir...".[685]

Azərbaycanın üstünlüyü ondan ibarətdir ki, ölkədə yaşayan bütün xalqların nümayəndələri özlərini rahat, öz ailəsində, doğma torpağında hiss edirlər. Xalqlar arasındakı dostluq, mehriban münasibət böyük sərvətdir. Ölkə rəhbəri bununla əlaqədar olaraq belə söylədi:

"Biz bunu qorumalıyıq. Burada siyasət bundan sonra da ardıcıl şəkildə aparılacaq. Bizim siyasətimiz xalq tərəfindən də qəbul edilir. İkinci Qarabağ müharibəsində Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri fədakarlıq, qəhrəmanlıq göstərmişlər, şəhid olmuşlar, Vətən uğrunda vuruşmuşlar, Azərbaycan bayrağı altında ölümə gedirdilər. Azərbaycanda belə cəmiyyət mövcuddur. Bu, bizim böyük sərvətimizdir".[686]

Ermənistan uzun illər boyu Azərbaycanda yaşayan xalqlar arasında düşmənçilik toxumu səpmək üçün cəhdlər etsə də, uğursuzluğa düçar olmuşdu. Bununla bağlı olaraq Prezident dedi:

"...biz yaxşı bilirik ki, son 30 il ərzində Ermənistan dövlətinin və erməni diasporunun əsas fəaliyyətlərindən biri Azərbaycanda yaşayan xalqlar arasında qarşıdurma yaratmaq olub. Onlar bunu gizlətmirlər və hesab edirdilər ki, burada hansısa uğura nail ola bilərlər. Amma görünür ki, onlar Azərbaycan reallıqlarından xəbərsizdirlər".[687]

Dinindən və milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycandakı bütün gənclərin işğalçılara qarşı döyüşlərə bərabər getməsi ölkənin böyük sərvəti idi. Nitqinin sonunda Prezident İlham Əliyev dedi:

"Müstəqillik bizim ən böyük sərvətimizdir, ən böyük dəyərimizdir. Müstəqillik illərində biz bir amalla yaşayırdıq ki, doğma torpağımızı düşmənin əlindən alaq, işğaldan azad edək və ərazi bütövlüyümüzü bərpa edək. Biz buna nail olduq".[688]

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, hərb meydanında qazanılan qələbə ilə yanaşı, xarici siyasət və informasiya sahəsində də uğurlar davam etdirilmişdir. Xocalıda törədilən soyqırım qurbanlarının anım günündə Prezident

685 Yenə orada.
686 Yenə orada.
687 Yenə orada.
688 Yenə orada.

İlham Əliyevin dünyanın nüfuzlu media orqanlarının nümayəndələri üçün keçirdiyi mətbuat konfransı həm seçildiyi tarix, həm də suallara verilən cavablar baxımından böyük əhəmiyyət daşımışdır. Dövlət başçısı suallara dörd dildə verdiyi mükəmməl cavablarla Xocalıda törədilən soyqırım, müharibədə Azərbaycanın məqsədləri, qazanılan qələbə, Ermənistanın törətdiyi müharibə cinayətləri, yalanları və b. məsələlər barədə söylədikləri gerçəkliklər dünya informasiya məkanında geniş yer tutmuş və dövlətin mövqelərinin möhkəmlənməsinə kömək etmişdir.

İqtisadi Əməkdaşlıq Təşkilatının XIV zirvə toplantısı zamanı dövlət və hökumət başçılarının müharibədə qazanılan qələbə münasibəti ilə Prezident İlham Əliyevi təbrik etmələri Azərbaycan dövlətinin xarici siyasətinin düzgün qurulduğunun bir daha təsdiqi olmuşdur. Zirvə görüşündə nitq söyləyən ölkə başçısı əməkdaşlığın genişləndirilməsinə dair düşüncələrini söyləmiş və regionun gələcəyinin müharibə, qarşıdurma deyil, qarşılıqlı faydalı əməkdaşlıqda olduğunu vurğulamışdır.

Ölkədə yaranmış yeni reallıqlar hakim Yeni Azərbaycan Partiyasında da yenilənmənin zəruriliyini irəli sürmüşdür. Keçirilən VII qurultayda etdiyi açılış nitqində partiyanın sədri, Prezident İlham Əliyev yaranmış şəraiti, müharibədə qələbəyə gətirən amilləri təhlil etmiş və yeniləşmənin vacibliyini söyləmişdir. Partiyanın idarə orqanları yenilənmişdir. Qurultaydakı yekun nitqində Prezident İlham Əliyev partiyanın qarşısında dayanan konkret vəzifələri üzvlərin diqqətinə çatdırmışdır.

24-cü FƏSİL

ŞUŞADA NOVRUZ TONQALI VƏ TÜRK DÜNYASININ BİRLİK NÜMAYİŞİ

24.1. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Füzuli, Xocavənd rayonlarına və Şuşa şəhərinə səfərləri

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 15-də Füzuli və Xocavənd rayonlarında oldular. Səfərdə başlıca məqsəd Füzuli – Hadrut avtomobil yolunun təməlini qoymaq idi. Avtomobil yolunun inşası azad edilmiş ərazilərin dirçəldilməsindən ötrü böyük əhəmiyyət daşıyırdı. Məlum olduğu kimi, bu, ilk layihə deyildi. Artıq bir neçə yol layihəsi icra edilməkdə idi. Füzulidən Şuşaya Zəfər yolu inşa edilir, Bərdə – Ağdam yolunun tikintisi üçün planlama işləri aparılır, Horadizdən Zəngilana qədər yol tikintisi nəzərdə tutulurdu. Müharibənin sona çatmasından dörd ay keçməsinə baxmayaraq, böyük quruculuq işlərinə başlanmışdı.

Ölkə rəhbəri Füzuli – Hadrut avtomobil yolunun təməlini qoydu. Başlanğıcını Zəfər yolundan götürən və uzunluğu 13 kilometr, 4 hərəkət zolaqlı olması nəzərdə tutulan bu yol yeni inşa ediləcək Hadrut – Cəbrayıl – Şükürbəyli avtomobil yoluna birləşəcəkdi. Yol boyunca körpülər inşa ediləcəkdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd rayonunun Edilli, Ağbulaq, Hadrut rayonunun Düdükçü kəndlərində oldular.[689]

Hadrut qəsəbəsində dövlət bayrağını ucaldan dövlət başçısı dedi:

"Hadrut qəsəbəsi oktyabrın 9-da işğaldan azad edildi. Hadrut qəsəbəsinin azad edilməsi çox uğurlu hərbi əməliyyat nəticəsində mümkün olmuşdur. İlk növbədə, ətraf dağlar götürüldü. Hadrutun ətrafında yerləşən yüksəkliklər Azərbaycan

689 Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar. 16.03.2020 // Azərtac. URL: https:azertag.az/xeber/Prezident_Ilham_Aliyev_ve_birinci_xanim_Mehriban_Aliyeva_Fuzuli_ve_Xocavend_rayonlarinda_olublar_YENILANIB_2_VIDEO-1734509.

Ordusu tərəfindən götürüləndən sonra faktiki olaraq nəzarət Azərbaycan Ordusuna keçdi və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi artıq qaçılmaz idi".[690]

Hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusu mülki əhalini hədəf almamışdı. Ermənistanın statistikasına görə, müharibə dövründə təqribən 40-a yaxın mülki şəxs ölmüşdü. Onların da böyük əksəriyyəti məhz hərbi əməliyyatlarda iştirak edənlər idi.[691] Azərbaycan əsgərinin yüksək mənəvi keyfiyyətlərinin olduğunu ölkə rəhbəri aşağıdakı kimi ifadə etdi:

"Azərbaycan əsgəri yüksək mənəvi keyfiyyətlərə malik olan əsgərdir və əsgərə, bütün hərbçilərə verilən təlimat yerinə yetirildi. Mən demişdim ki, biz mülki əhali ilə heç vaxt müharibə aparmamışıq və bunu indi hər kəs görür".[692]

Hadrut qəsəbəsinin azad edilməsinin böyük əhəmiyyət daşıdığı barədə ölkə rəhbəri dedi:

"Hadrut qəsəbəsinin işğaldan azad edilməsi böyük əhəmiyyətə malik olan bir əməliyyat idi. Çünki Cəbrayıl rayonundan, Cəbrayıl şəhərindən sonra Hadrutun azad edilməsi hərbi əməliyyatlarımızın davam etdirilməsi üçün xüsusi əhəmiyyətə malik olan hadisə idi".[693]

Ərazinin özünəməxsusluğunu nəzərdə tutan dövlət başçısı söylədi ki, Azərbaycan Ordusu Füzuli şəhərini Hadrutdan sonra azad etdi. Ermənistan ordusu digər istiqamətdə hücumu gözləsə də, Azərbaycan strateji planlaşdırmanı düzgün icra edərək Cəbrayıldan sonra Hadrutu, ondan sonra Füzulini işğaldan azad etdi. Hadrutdan sonra başlıca məqsədin Şuşa olduğunu Prezident belə vurğuladı:

"Hadrutun azad edilməsindən sonra biz Şuşaya istiqamət götürdük. Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Yenə də düşmənin bizi gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşdıq. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayaları dırmaşaraq biz Şuşanı işğalçılardan azad etdik. Ona görə Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq".[694]

Qazanılan qələbənin dünyanın aparıcı hərbi ali məktəblərində öyrənildiyinə, XXI əsrin müharibəsi olduğuna diqqəti çəkən dövlət başçısı dedi ki, Azərbaycan müharibədə qələbə qazandı, düşməni torpaqlardan qovdu və tarixi ədaləti bərpa etdi. Müharibə zamanı keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Martuni rayonunun 50%-dən çox hissəsi, yeddi rayon, Şuşa şəhəri, Suqovuşan qəsəbəsi, Talış qəsəbəsi, Hadrut rayonunun 100% ərazisi işğalçılardan azad edilmiş-

690 Yenə orada.
691 Yenə orada.
692 Yenə orada.
693 Yenə orada.
694 Yenə orada.

di. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərək tarixi nailiyyətlərə imza atmışdı. [695]

Azad edilmiş torpaqlarda böyük quruculuq işləri aparılır və infrastruktur layihələri icra edilirdi. Erməni vəhşiliyi böyük fəlakətlər törətmişdi. Bütün şəhərlər, kəndlər, tarixi abidələr, məscidlər, qəbirlər dağıdılmış və misli görünməmiş vandallıq edilmiş, Ermənistandan və xarici ölkələrdən ermənilər gətirilib zorla məskunlaşdırılmışdı. Məscidlərdə heyvan saxlanılmış və müqəddəs abidələr təhqir edilmişdi. Düşmən azərbaycanlıların tikdirdikləri evləri üçtərəfli bəyanatın imzalandığı noyabrın 10-dan dekabrın 1-nə qədər yandırmış, meşələri qırmış və su elektrik stansiyalarını dağıtmışdı.

Səfər zamanı Hadrut – Cəbrayıl – Şükürbəyli avtomobil yolunun təməli qoyuldu. Uzunluğu 43 kilometr olan bu yol başlanğıcını Hadrut qəsəbəsindən götürməklə və Cəbrayıl rayonundan keçməklə Şükürbəyli kəndində Hacıqabul – Mincivan – Zəngəzur dəhlizi avtomobil yoluna birləşəcəkdi. Dörd hərəkət zolaqlı olan bu yol boyunca körpülərin də tikintisi nəzərdə tutulurdu.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hünərli kəndindəki Alban məbədi ilə tanış oldular. Məbədin qarşısında çıxış edən dövlət başçısı dedi:

"Bura qədim Alban məbədidir, Alban kilsəsidir, Hünərli kəndində yerləşir. Ermənilər bu kilsəni də ermənilərdirmək istəmişlər və burada erməni dilində yazılar yazmışlar, ancaq buna nail ola bilməmişlər. İndi əgər bu, erməni kilsəsi olsaydı, bunu belə vəziyyətdə qoyardılarmı? Tövləyə oxşayır, elə bil ki, tövlədir, zibilxanadır. Bu, bizim qədim tarixi abidəmizdir... Ermənilər necə ki, bizim məscidlərimizi təhqir ediblər, qədim Alban məbədini də təhqir etmişlər. Amma biz bərpa edəcəyik. Bütün bu yazılar saxta yazılardır, sonradan yazılmış yazılardır. Onlar bizim qədim torpaqlarımızda özləri üçün saxta tarix yaradıblar. Amma buna nail ola bilməyiblər, biz onları ifşa etmişik. Bu kilsənin – alban məbədinin bu vəziyyətdə olması bir daha erməni saxtakarlığını göstərir. Erməni kilsəsi olsaydı, bunu təmir etdirərdilər. Sonra da bəziləri bizə irad tuturlar ki, biz xristian abidələrinə yaxşı baxmırıq. Bunu ermənilər bu günə salıblar".[696]

Azərbaycanlılara məxsus tarixi-dini abidələri həm Ermənistanda, həm də işğal etdiyi ərazilərdə vəhşicəsinə dağıdan ermənilərdən fərqli olaraq Azərbaycandakı bütün tarixi, dini mədəniyyət abidələri dövlət tərəfindən qorunur və ümumi sərvət hesab edilir. Bu məsələlərə diqqəti yönəldən Prezident bildirdi:

695 Yenə orada.
696 Yenə orada.

"İndi gəlsinlər, baxsınlar Azərbaycanın müxtəlif yerlərində xristian abidələri necə qorunur. Bu qədim Alban kilsəsini görərlər bir müddətdən sonra biz necə təmir etdirəcəyik. Azərbaycan ərazisində bütün dinlərin məbədləri dövlət tərəfindən qorunur, dövlət tərəfindən tikilir və bütün dünya bunu bilir".[697]

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Tuğ kəndində oldular. Tuğun qədim Azərbaycan kəndi olduğunu deyən dövlət başçısı düşmənin dağıtdığı kənd məktəbini göstərərək dedi:

"Görün, nə günə qoyublar. Sonra da deyirdilər ki, Tuğ kəndi erməni kəndidir. Erməni kəndi olsaydı, bunu dağıdardılar? Bura qədim Azərbaycan torpağıdır. Tuğ kəndi həmişə Azərbaycan kəndi olub, bundan sonra da olacaq". [698]

Prezident və xanımı kənddəki Alban məbədində oldular. Bu məbədi də düşmən dağıtmış və saxtalaşdırmağa çalışmışdı.

Dövlət rəhbəri və birinci xanım Mehriban Əliyeva Azıx kəndinə və Azıx mağarasına gəldilər. Mağara qarşısında çıxış edən Prezident İlham Əliyev Azərbaycanın dünyada ən qədim insan məskənlərindən biri olduğunu sübut edən bu abidənin tarixindən, arxeoloq Məmmədəli Hüseynov[699] tərəfindən kəşf edildiyindən və ermənilərin əl atdıqları saxtakarlıqlardan danışdı. Bildirdi ki, bundan sonra mağarada arxeoloji qazıntı işləri davam etdiriləcək və erməni saxtakarları yerlərində oturdulacaqdır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 16-da Şuşa şəhərində oldular.[700] Martın 16-da Şuşaya səfər edilməsi səbəbsiz olmayıb rəmzi məna daşıyırdı. Həmin gün Novruzun ilaxır çərşənbə günü idi. İşğal edildikdən sonra bu şəhərdə ilaxır çərşənbə heç bir vaxt keçirilməmişdi.

Erməni vandalları tərəfindən Molla Pənah Vaqifin dağıdılmış məqbərəsinə gələn dövlət başçısı bildirdi ki, tezliklə bərpa işləri başlanacaqdır. Şəhərdəki məscidlərin də bərpası barədə artıq müvafiq göstərişlər verilmiş və ilkin araşdırmalara başlanılmışdı. Prezident dedi:

"Bu layihəni Heydər Əliyev Fondu öz vəsaiti hesabına icra edəcək, Heydər Əliyev Fonduna xas olan zövqlə, Mehriban xanımın rəhbərliyi ilə".[701]

Dövlət başçısı özünün də iştirakçısı olduğu və hələ 1982-ci ilin yayında keçirilən Vaqif poeziya günləri zamanı çəkilmiş fotoşəkilləri göstərdi. Məqbərənin mövcud vəziyyətinə diqqəti yönəldən Prezident bildirdi:

697 Yenə orada.
698 Yenə orada.
699 Məmmədəli Hüseynov (1922-1994) – Azərbaycan arxeoloqu. BDU-nun Arxeologiya və etnoqrafiya kafedrasının müdiri, professor (1976-1993).
700 Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində olublar. 17.03.2021 // Azərtac. URL: https:azertag.az/xeber/Prezident_Ilham_Aliyev_ve_birinci_xanim_Mehriban_Aliyeva_Susa_seherinde_olublar_YENILANIB_VIDEO-1735497.
701 Yenə orada.

"Mənfur düşmən bunu da sökdü, bu mərməri də sökdü. Bu da qəbirin üstündə sinə daşı idi. Vandal erməni bunu da söküb".[702]

İşğalçılar Natəvan bulağının önündə Vaqifin büstünü dağıdaraq yerində dükan tikmişdilər. Buradakı büst də bərpa ediləcəkdi.

Dövlət başçısı və birinci xanım Pənahəli xanın sarayının qalıqlarına baxdılar. Bu tikili Şuşa şəhərinin mərkəzində yerləşir və Qarabağ xanlığının banisi Pənahəli xanın iqamətgahı olmuş tarixi saray idi. Erməni vandalları işğal zamanı həmin binanı da dağıtmışdılar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Molla Pənah Vaqifin büstünün qoyulacağı əraziyə gəldilər. Büstün bərpası layihəsi də Heydər Əliyev Fondu tərəfindən icra olunacaqdı. Onlar daha sonra Karvansaray tarix-memarlıq kompleksinə baxdılar.

Şəhərdə erməni vəhşiliyinə məruz qalan tikililərdən biri hələ 1982-ci ildə Heydər Əliyevin göstərişi ilə tikilmiş Şuşa Dövlət Rəsm Qalereyasının binası idi. Qalereya 1992-ci ilədək fəaliyyət göstərmiş, işğal zamanı isə tamamilə dağıdılmışdı.

Dövlət başçısı və ailə üzvləri "Qarabağ" mehmanxanasında aparılan təmir-bərpa işləri ilə tanış oldular. Mehmanxana XX əsrin 80-ci illərinin əvvəllərində inşa edilmişdi. Baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşmüş binada görüləcək işlər nəticəsində mehmanxana müasir səviyyəyə çatdırılacaq və Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün bütün şərait yaradılacaqdı.

Prezident və birinci xanım Şuşa Xalça Muzeyində də oldular. Qarabağ xalçaçılıq sənəti ənənələrinin öyrənilməsi, qorunması və yaşadılması məqsədilə yaradılan bu muzey də işğal zamanı böyük ziyan görmüş, eksponatları talanıb Ermənistana aparılmışdı.

Park otelin yerləşəcəyi binaya da baş çəkildi. Yenidənqurmadan sonra otel qonaqlarını müasir səviyyədə qarşılayacaqdı. Ölkə rəhbəri dedi:

"Burada keçmiş sanatoriya korpusu olub. İşğal dövründə buradan kiçik otel kimi istifadə etmişlər, amma çox primitiv qaydada. Çox biabırçı bir şərait var idi. İndi yenidən bərpa edilir. ...bu il otel artıq istifadəyə veriləcəkdir".[703]

Şəhərdə görüləcək işlərlə əlaqədar tapşırıqlarını verən Prezident dedi ki, Şuşa nəinki Azərbaycanın, hətta dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir. Şuşa rayonunun Daşaltı kəndinə gələn dövlət başçısı buranın da bərpasına dair göstərişlərini verdi.

702 Yenə orada.
703 Yenə orada.

24.2. Cıdır düzündə Novruz bayramı tonqalı

Təcavüzkar Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə təqribən son 30 ildə Novruz bayramı tonqalı yandırılmamışdı. 2021-ci ilin Novruz bayramını Azərbaycan xalqı əvvəlkilərdən fərqli olaraq qalib kimi qarşılayırdı. Prezident İlham Əliyev müstəqillik tarixində daha bir ilkə imza ataraq martın 20-də Şuşa şəhərinə etdiyi növbəti səfərində Cıdır düzündə birinci xanım Mehriban Əliyeva ilə birlikdə Novruz bayramı tonqalını yandırdı. Dövlət başçısı Cıdır düzündən Azərbaycan xalqına bayram müraciəti etdi. Novruz bayramının Şuşada Cıdır düzündə qeyd edilməsini tarixi hadisə adlandıran ölkə rəhbəri vurğuladı:

"2004-cü ildən başlayaraq, hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq... Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik və bu gün gəldi. Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik. Bu, tarixi hadisədir. Bu, böyük xoşbəxtlikdir. Allah Azərbaycan xalqının dualarını eşitdi. Hər il Novruz bayramı ərəfəsində hamımız yəqin ki, fikirləşirdik, bir-birimizə deyirdik, inşallah, gələn il Novruz bayramını Qarabağda qeyd edək, gələn il Novruz bayramını Şuşada qeyd edək və bu gün gəldi. 28 ildən sonra biz Şuşaya qayıtdıq. Novruz bayramını Cıdır düzündə qeyd edirik, tarixi ədaləti bərpa etmişik".[704]

Şuşa şəhərində tarixi abidələrin dağıdıldığından, ermənilərdirilməyə cəhd edildiyindən, lakin düşmənin məqsədlərinə nail ola bilmədiyindən danışan dövlət başçısı bildirdi ki, Şuşa 28 il əsarət altında qalsa da, düşmən onu ermənilərdirmək və Azərbaycan xalqının irsini silmək istəsə də, buna nail ola bilməmişdir.

Qazanılan qələbənin uzun müddət görülmüş işlərin nəticəsi olduğunu, əvvəlcə Qarabağ münaqişəsinə dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırıldığını, beynəlxalq təşkilatlarda fəal iş aparıldığını, nəticədə həqiqəti, beynəlxalq hüququ əks etdirən, ona əsaslanan vacib qərar və qətnamələrin qəbul etdirildiyini Prezident belə qiymətləndirdi:

"Bu, Qələbəmizin hüquqi əsası idi, haqq-ədalətin bərpasının hüquqi əsası idi".[705]

Qələbənin qazanılmasında iqtisadi güc amili mühüm rol oynamışdı. Azərbaycan iqtisadi qüdrət baxımından Ermənistandan dəfələrlə güclü idi.

Qələbədə hərbi gücün, Azərbaycan hərbçilərinin qəhrəmanlığının başlıca rol oynadığını ölkə rəhbəri aşağıdakı kimi ifadə etdi:

"Biz hərbi güc toplamalı idik və bu istiqamət birinci dərəcəli vəzifə idi.

704 Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti. 20.03.2021 // Azərtac. URL:https:azertag.az/xeber/Azerbaycan_Respublikasinin_Prezidenti_Ilham_Aliyevin_muracieti_VIDEO-1739023.

705 Yenə orada.

...Biz güclü ordu yaratmışıq. Peşəkar ordu yaratmışıq. Qəhrəman ordu yaratmışıq. Hərbçilərimiz ən yüksək qiymətə layiqdirlər".[706]

Azərbaycan şəhidlər verərək, qan tökərək Şuşanı azad etmişdi. Hərbçilər sıldırım qayalardan qalxaraq, dərələrdən-təpələrdən, Xocavənd meşələrindən, cığırlardan keçərək yüngül silahlarla, süngü-bıçaqla Şuşaya gəlmişdilər. Düşmən Azərbaycanın gücü, iradəsi və milli ruhu qarşısında məğlub olmuşdu. Dövlət başçısı dedi:

"Şuşanın azad edilməsi Vətən müharibəsində xüsusi yerə malik olan hadisədir".[707]

Şuşanın həqiqi tarixindən bəhs edən Prezident aşağıdakıları bildirdi:

"Şuşa bizim qədim şəhərimizdir. Erməni təbliğatı, saxta alimlər, fırıldaqçı siyasətçilər, beynəlxalq dairələr nə qədər desələr də xeyri yoxdur, tarix var. Pənahəli xan Şuşanın təməlini qoydu, Şuşanı tikdi, qurdu. Biz isə Şuşanı əsarətdən çıxardıq və xalqımıza qaytardıq, dövlətimizə qaytardıq. Şuşa qədim Azərbaycan şəhəridir, həmişə belə olub. Son 28 il ərzində mənfur düşmən nə qədər çalışsa da, Şuşanın Azərbaycan ruhunu, Azərbaycan görkəmini dəyişdirə bilməyib. Bəli, evlər sökülüb, tarixi abidələr sökülüb, məscidlər sökülüb, bir neçə eybəcər bina tikilib".[708]

Şəhərdə işğalçı ölkə heç bir tikinti işləri aparmamışdı. Ancaq sovet vaxtından qalan "xruşşovka" binalarda məskunlaşmış təqribən 2 minə yaxın erməni yaşayırdı ki, onların da böyük hissəsi hərbçilər və ailələri idi. Şəhərin dirçəliş planları barədə ölkə rəhbəri bildirdi:

"Biz Şuşanı bərpa edəcəyik, mütləq bərpa edəcəyik. Artıq bərpa işlərinə start verildi. Bu gün Şuşada olarkən artıq verdiyim tapşırıqların yerinə yetirilməsi ilə tanış oluram. Biz nəinki Şuşanı, azad edilmiş bütün torpaqları bərpa edəcəyik. Quruculuq işləri başlamışdır, infrastruktur layihələrinə start verilmişdir".[709]

Dağıdılmış şəhərlərin yenidən tikilməsi üçün baş planların hazırlandığını bildirən dövlət başçısı vurğuladı:

"Ziyanın hesablanması aparılır, şəhərlərin baş planları hazırlanır. Birinci növbədə, Ağdam şəhərinin və Ağdam rayonunun bütövlükdə baş planı hazırlanır, onun ilkin versiyası mənə təqdim edildi. Mənim tapşırıqlarımı nəzərə almaq şərtilə indi bunun üzərində iş gedir və yaxın gələcəkdə baş plan təsdiq olunacaq. Ondan sonra bərpa işləri azad edilmiş bütün torpaqlarda başlanacaq. Ermənilər 30 il bizim torpaqlarımızı dağıdıblar. Biz isə bu torpaqları bərpa edəcəyik, çünki bu torpaqların sahibləri bizik - Azərbaycan xalqıdır".[710]

706 Yenə orada.
707 Yenə orada.
708 Yenə orada.
709 Yenə orada.
710 Yenə orada.

Şuşa şəhərinin Azərbaycan xalqının əzəmətinin dərk edilməsi üçün əhəmiyyətindən danışan Prezident İlham Əliyev dedi:

"Şuşada olarkən insan Azərbaycan xalqının böyüklüyünü bir daha dərk edir...".[711]

Nitqinin sonunda Azərbaycanın qələbəsinin dünya hərb elmi üçün əhəmiyyətini ölkə rəhbəri belə ifadə etdi:

"Bizim müharibəmiz - İkinci Qarabağ müharibəsi bu gün dünyanın aparıcı ölkələrinin hərbi məktəblərində öyrənilir. Biz XXI əsrin müharibəsini aparmışıq, düşməni məhv etmişik. Erməni ordusu yoxdur, biz onu məhv etmişik. Bu gün Novruz bayramını Cıdır düzündə qeyd edərkən qürur hissi ilə deyirəm: "Şuşa sən azadsan!", "Şuşa Azərbaycandır!", "Qarabağ Azərbaycandır!".[712]

Prezident İlham Əliyevin Novruz bayramı günü Şuşa şəhərinə gedərək Cıdır düzündə bayram tonqalı yandırmasının rəmzi mənası var idi. İlk növbədə ona görə ki, işğaldan bəri Şuşada Novruz tonqalı yandırılmamışdı və bütün xalq həsrət içində həmin günü gözləyirdi. Novruz tonqalının yandırılması Azərbaycan milləti üçün qururverici bir hadisə idi. Bu, işğaldan azad edilmiş ərazilərimizə istilik, hərarət, yeni nəfəs və həyat gətirəcək zəfər tonqalı idi.[713] Dövlət başçısının müraciəti eyni zamanda işğaldan azad edilmiş ərazilərin dirçəldilməsinə dair Azərbaycan dövlətinin planlarının və ölkə rəhbərliyinin qəti siyasi iradəsinin olduğunu göstərdi.

24.3. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının qeyri-rəsmi zirvə görüşündə Azərbaycanın qələbəsinin təbrik edilməsi

44 günlük müharibədə qazanılan parlaq qələbə türk dünyasında coşqu ilə qarşılandı. Bu münasibət martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında keçirilən qeyri-rəsmi zirvə görüşündə də nümayiş etdirildi. Həmin gün 1918-ci il martın 31-də azərbaycanlılara qarşı bolşevik və erməni qüvvələrinin törətdikləri kütləvi qırğınların və soyqırımılarının 103-cü ildönümü tamam olurdu.

Görüş 2019-cu ilin oktyabrında Bakıda keçirilmiş zirvə görüşündən sonra ikinci idi. Toplantını açan Qazaxıstan Respublikasının Prezidenti təşkilatın başlıca məqsədinin türk dünyasını ən vacib iqtisadi, mədəni məkanlardan birinə

711 Yenə orada.
712 Yenə orada.
713 Qasımlı M. Bu tonqal işğaldan azad edilmiş ərazilərmizə istilik, hərarət, yeni nəfəs və həyat gətirəcək // "Publika" qəzeti, 2021, 21 mart.

çevirmək, Türküstan şəhərinin isə türk dünyasının mənəvi paytaxtlarından biri olduğunu dedi. Sonra iştirakçılara qədim Türküstan şəhərinin tarixi, mədəniyyəti və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyətindən bəhs edən qısa film nümayiş etdirildi.

Qazaxıstanın birinci Prezidenti - Elbaşı, Türk Şurasının fəxri sədri Nursultan Nazarbayev çıxışında Prezident İlham Əliyevi qələbə münasibətilə təbrik etdi:

"Bu gün mən həm də Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevi təbrik edirəm. Xüsusilə qeyd etmək istəyirəm ki, ərazi bütövlüyünün bərpa edilməsi məsələsində Türkiyə önəmli rol oynamışdır".[714]

Nursultan Nazarbayev 2019-cu ildə Bakıda keçirilən VII zirvə görüşündə Türk Şurasının fəxri sədri seçildiyini və bundan böyük şərəf duyduğunu qeyd edib, bu dəfəki toplantının keçirilməsinin səbəblərindən biri kimi dünyada baş verən dəyişiklikləri, xüsusilə pandemiyaya qarşı mübarizəni vurğulayaraq "Türk dünyasının gələcəyi - 2040" adlı sənədin hazırlanmasını təklif etdi. Bildirdi ki, Türküstan şəhəri yüksək səviyyəli tədbirlərə ev sahibliyi etməyə hazırdır. 44 günlük müharibəninin nəticələrinin türk dövlətləri arasında iqtisadi əlaqələrə təsirindən danışan Qazaxıstanın ilk Prezidenti dedi:

"Biz hamımız bu prosesləri həyəcanla izləyir və nəticələri gözləyirdik. Əlbəttə ki, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi və Rusiyanın dəstəyi ilə Bakı və İrəvan arasında imzalanmış sülh razılaşması böyük İpək Yolunun çiçəklənməsi üçün yeni imkanlara yol açır və Çinin "Bir kəmər, bir yol" təşəbbüsündən istifadə etməklə Xəzər dənizinin rolunu artırır".[715]

Nitqində Ermənistanın hərbi təcavüzü və onun nəticələrindən danışan Prezident İlham Əliyev bildirdi:

"Bu gün... fürsətdən istifadə edərək, II Qarabağ müharibəsi haqqında məlumat vermək istərdim. Bildiyiniz kimi, 30 ilə yaxın müddət ərzində Ermənistan Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazilərini işğal altında saxlayırdı. Bu işğal nəticəsində torpaqlarımızın təxminən 20 faizi Ermənistan tərəfindən zəbt edilmişdir, bir milyondan çox azərbaycanlı öz doğma torpağından didərgin salınmışdır, qaçqın-köçkün vəziyyətinə salınmışdır. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Ermənistan Azərbaycana qarşı soyqırımı törətmişdir. 1992-ci ildə törədilən Xocalı soyqırımı nəticəsində 600-dən çox günahsız, dinc insan vəhşicəsinə öldürülmüşdür. Onların arasında 106 qadın, 63 uşaq vəhşicəsinə qətlə yetirilmişdir".[716]

714 Qədim Azərbaycan torpağı olan Zəngəzur türk dünyasının birləşməsi rolunu oynayacaq // "Azərbaycan" qəzeti, 2020, 01 aprel.
715 Yenə orada.
716 Yenə orada.

Beynəlxalq təşkilatların münaqişəyə münasibətindən bəhs edən ölkə başçısı dedi:

"Beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini daim dəstəkləyiblər. Ancaq bu dəstəyin praktiki həyatda o qədər də böyük əhəmiyyəti yox idi. Çünki məsələ öz həllini tapmırdı. BMT Təhlükəsizlik Şurası – dünyanın ali beynəlxalq qurumu 4 qətnamə qəbul etmişdir. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilirdi. Bu qətnamələr 1993-cü ildə qəbul edilmişdir və icrasız qalmışdı. Digər beynəlxalq təşkilatların qərar-qətnamələri Azərbaycanın mövqeyini dəstəkləyirdi və bunun çox böyük siyasi və hüquqi mənası var idi. Halbuki real, praktiki müstəvidə məsələnin həllinə xidmət etmirdi. ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar Azərbaycanın haqlı mövqeyini müdafiə etmişdir".[717]

ATƏT-in Minsk qrupunun səmərəsiz fəaliyyəti barədə Prezident bildirdi:

"Məsələnin həlli ilə bağlı 1992-ci ildə ATƏT-in Minsk qrupu yaradılmışdır və 28 il ərzində fəaliyyət göstərsə də, nəticə olmamışdır. Minsk qrupunun nəticəsi sıfra bərabər olmuşdur. Halbuki Minsk qrupuna həmsədrlik edən ölkələr dünyanın aparıcı ölkələridir, nüvə dövlətləridir, BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Əlbəttə ki, Ermənistana qarşı işğalla bağlı ciddi təzyiq göstərilsəydi və Azərbaycanın tələbi nəzərə alınıb sanksiyalar tətbiq edilsəydi, məsələ çoxdan sülh yolu ilə öz həllini tapa bilərdi.

Əfsuslar olsun ki, bu, baş vermədi. Əksinə, məsələnin dondurulması istiqamətində addımlar atılmışdır".[718]

Danışıqlar prosesini pozan işğalçı ölkənin siyasətinin vəziyyəti gərginləşdirdiyinə səbəb olmasından danışan dövlət rəhbəri söylədi:

"Ermənistan faktiki olaraq danışıqlardan imtina etmişdir. Əgər əvvəlki illərdə danışıqların imitasiyası ilə məşğul idisə, son iki-üç il ərzində faktiki olaraq açıq, nümayişkaranə şəkildə bildirirdi ki, bir qarış da Azərbaycan torpağı Azərbaycana qaytarılmayacaq. Bundan əlavə, Ermənistan rəhbərinin məsuliyyətsiz və təxribat xarakterli addımları və bəyanatları faktiki olaraq danışıqları mənasız etmişdi. Ermənistan rəhbəri iki il bundan əvvəl bildirmişdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Təbii ki, bizim buna cavabımız oldu və ən ciddi cavab döyüş meydanında verildi. Ancaq bu, özlüyündə göstərir ki, Ermənistan rəhbərliyi məsələni həll etmiş hesab edirdi və torpaqları geri qaytarmaq istəmirdi. Ondan başqa, Ermənistanın keçmiş müdafiə naziri, hansı ki, hərbi məğlubiyyətdən sonra vəzifədən azad edildi, Azərbaycanı yeni müharibə ilə hədələyirdi. Amerikada olarkən erməni diaspor təş-

717 Yenə orada.
718 Yenə orada.

kilatları ilə görüş əsnasında bəyan etmişdi ki, Ermənistan yeni torpaqlar uğrunda yeni müharibəyə hazırlaşır. Bu, faktiki olaraq, Azərbaycana qarşı çox ciddi, təxribat xarakterli bir addım idi".[719]

Ermənistanın digər təxribatlarına da diqqəti yönəldən ölkə başçısı bildirdi ki, bunlardan biri qədim Azərbaycan şəhəri, mədəniyyət paytaxtı olan Şuşada qanunsuz xunta rejiminin andiçmə mərasiminin keçirilməsi idi. Qondarma qurumun qondarma parlamentinin Şuşa şəhərinə köçürülməsi planları və "parlament" üçün binanın inşa edilməsinin təxribat olduğunu deyən Prezident həmin binanın məhv ediləcəyini və ya söküləcəyini bildirdi. Bütün bu addımlarla Ermənistan Azərbaycanı təxribata çəkir, sərt reaksiya gözləyir, ondan sonra yenə də məsələni daha 30 il uzatmaq istəyirdi. Azərbaycan dövləti həmin təxribatlara uymamışdı. Ölkə rəhbəri bununla bağlı olaraq dedi:

"Biz təxribata uymadıq. Biz özümüzü təmkinli apardıq, beynəlxalq hüququn bütün norma və prinsiplərinə uyğun şəkildə apardıq və belə olan halda Ermənistan keçən ilin yayında bizə qarşı hərbi təxribat törətdi. Ermənistan-Azərbaycan dövlət sərhədində bizim mövqelərimiz atəş altına düşdü. Ermənistan hərbi birləşmələri bizim sərhədimizi keçməyə cəhd göstərdi, bir neçə hərbçimiz həlak oldu. Biz onlara layiqli cavab verdik və onları geri oturtduq. Ancaq biz Ermənistan-Azərbaycan dövlət sərhədini keçmədik. Bir neçə gün davam edən hərbi toqquşma dayandı. Çünki bizim Ermənistan ərazisində müharibə aparmaq niyyətimiz yox idi. Halbuki istəsəydik rahatlıqla Ermənistan ərazisinə daxil ola bilərdik. Ondan bir ay keçəndən sonra – avqust ayında yeni bir təxribat törədildi və Azərbaycana diversiya qrupu göndərildi. Diversiya qrupunun rəhbəri saxlanıldı və ifadə verdi ki, o, terror aktları keçirmək üçün Azərbaycana göndərilmişdir və bu, növbəti təxribat idi".[720]

Müharibənin başlanması və düşmənə verilən cavab barədə Prezident bildirdi:

"Nəhayət, sentyabrın sonlarında bizim hərbi mövqelərimiz və yaşayış məntəqələrimiz artilleriya atəşinə məruz qalmışdır və bunun nəticəsində bir neçə hərbçi və bir neçə mülki şəxs həlak olmuşdur. Biz təbii olaraq buna adekvat cavab verərək, əks-hücum əməliyyatı keçirib düşməni layiqincə cəzalandırdıq və 44 gün davam edən II Qarabağ müharibəsi Azərbaycanın tam qələbəsi ilə nəticələndi. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, müharibə dövründə 300-dən çox şəhər və kənd döyüş meydanında azad edildi. Bizim tarixi şəhərimiz Şuşa noyabrın 8-də işğalçılardan azad edildi və Ermənistan məcbur olub kapitulyasiya aktına imza atdı".[721]

44 günlük müharibənin nəticələrini dövlət başçısı belə qiymətləndirdi:

719 Yenə orada.
720 Yenə orada.
721 Yenə orada.

"Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri Bəyanat imzalayıblar. Bu Bəyanat əsasında bizim digər rayonlarımız artıq siyasi yollarla Azərbaycana qaytarıldı. Beləliklə, məsələ hərbi-siyasi yollarla həll olundu. Artıq tam əminliklə demək olar ki, Dağlıq Qarabağ məsələsi, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmışdır. Dağlıq Qarabağ adında hazırda hər hansı bir ərazi vahidi yoxdur. Azərbaycan bu məsələni həll edib, tarixi Zəfər əldə edib və dağıdılmış ərazilərdə bərpa işləri başlayıb".[722]

Müharibə günlərində Türkiyənin Azərbaycana verdiyi mənəvi və diplomatik-siyasi dəstəyi yüksək qiymətləndirən ölkə rəhbəri dedi:

"Biz müharibənin ilk günündən qardaş Türkiyədən böyük dəstək aldıq. Mənim əziz qardaşım, Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan sentyabrın 27-də müharibə başlanan gün açıq şəkildə Azərbaycana dəstək ifadə etdi. Bu siyasi və mənəvi dəstəyin çox böyük əhəmiyyəti var idi. Əziz qardaşım bildirmişdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Əlbəttə ki, bu, çox ciddi mesaj idi, ciddi siqnal idi. Bu, bizə imkan verdi ki, əks-hücum əməliyyatını uğurla keçirək, imkan verdi ki, hər hansı bir kənar qüvvə məsələyə müdaxilə etməsin. Mən həmişə demişdim ki, əgər xarici müdaxilə olmasa, Azərbaycan Dağlıq Qarabağ məsələsini qısa müddət ərzində həll edə bilər və belə də oldu. Bu dəstəyə görə qardaş Türkiyəyə və onun hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğana dərin təşəkkürümü bildirmək istəyirəm. Müharibə dövründə və müxtəlif dövrlərdə Prezident Ərdoğanın və Türkiyənin digər rəsmi şəxslərinin çoxsaylı bəyanatları məsələnin həllində xüsusi önəmli rol oynamışdır. Məni və Azərbaycan xalqını Şuşanın azad olunması ilə əlaqədar ilk təbrik edən Prezident Rəcəb Tayyib Ərdoğan olmuşdur. Noyabrın 8-də bu təbriki bizə çatdırmışdır".[723]

Azərbaycanın haqq işini dəstəklədikləri üçün Türk Şurasına, Qoşulmama Hərəkatına, İslam Əməkdaşlıq Təşkilatına təşəkkürünü çatdıran dövlət başçısı işğal edilmiş ərazilərdə hər şeyin dağıldığına, xarici və yerli jurnalistlərin viran qoyulmuş Ağdamı "Qafqazın Xirosiması" adlandırdıqlarına, Füzuli şəhəri işğaldan azad olunandan sonra Azərbaycan bayrağını qaldırmaq üçün bir salamat bina qalmadığına diqqəti yönəltdi. Dedi ki, ermənilər bütün şəhərləri, tarixi abidələri məhv ediblər, qəbiristanlıqları şumlayıblar, qəbirləri, məscidləri dağıdıblar və yarımçıq sökülmüş məscidlərdə inək və donuz saxlayıblar. Bu, bütün müsəlman aləminə qarşı təhqir və cinayət idi.

Erməni faşizminin məhv edildiyini və azad olunmuş ərazilərdi dirçəliş işlərinə start verildiyini söyləyən Prezident işğalçı ölkənin növbəti hərbi cinayət törədərək minalanmış ərazilərin xəritələrini vermədiyini vuğuladı. Bildirdi ki,

722 Yenə orada.
723 Yenə orada.

müharibə başa çatmış, münaqişə tarixdə qalmış və yeni imkanlar yaranmışdır. Onların arasında ən vacibi nəqliyyatın bərpası idi. Zəngəzur dəhlizinin açılması üzərində fəal çalışıldığına və faydasına diqqəti cəlb edən dövlət rəhbəri qeyd etdi ki, vaxtilə Zəngəzuru Azərbaycandan alıb Ermənistana birləşdirmək türk dünyasının coğrafi parçalanması idi. Prezident dedi:

"...xəritəyə baxsaq görərik ki, sanki bizim bədənimizə xəncər saplanmışdır, türk dünyası parçalanmışdır. Qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün əlavə imkanlar yaradacaq, o cümlədən Ermənistan üçün. Ermənistanın hazırda onun müttəfiqi olan Rusiya ilə dəmiryolu əlaqəsi yoxdur. Bu dəmiryolu əlaqəsi Azərbaycan ərazisindən yarana bilər. Ermənistanın onun qonşusu olan İranla dəmiryolu əlaqəsi yoxdur. Naxçıvan vasitəsilə bu dəmiryolu təmin edilə bilər. Azərbaycan Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyə ilə birləşir, Orta Asiya Avropa ilə birləşir. Yəni, yeni nəqliyyat dəhlizi yaranmaqdadır. Artıq Azərbaycan bu işlərə start vermişdir. Əminəm ki, tərəfdaş ölkələr də bu imkanlardan istifadə edəcəklər".[724]

Azərbaycan dövlət başçısının nitqindən sonra Qazaxıstan Respublikasının Prezidenti dedi:

"Hörmətli İlham Heydər oğlu, məlumatlı və mənalı nitqiniz üçün təşəkkür edirik. Azərbaycan və Ermənistan arasında razılaşma çox vacib amil rolunu oynayır, biz onun uğuruna inanırıq və biz Sizi bir daha təbrik edirik".[725]

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyətinin əhəmiyyətini vurğulayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkələrin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi ilə bağlı məsələlərdə də təşkilatın həmrəyliyini belə ifadə etdi:

"Bu münasibətlə əziz qardaşım, hörmətli İlham Əliyev başda olmaqla bütün azərbaycanlı qardaşlarımı Dağlıq Qarabağdakı Zəfərləri ilə bağlı şəxsən öz adımdan və xalqım adından bir daha təbrik edirəm. Qırx dörd gün davam edən, dastana bənzər mübarizədən sonra 30 illik işğal sona çatıb, Dağlıq Qarabağ Ana Vətənlə yenidən qovuşub".[726]

Zirvə görüşünün keçirildiyi 31 mart tarixinə diqqəti yönəldən Türkiyənin dövlət başçısı bildirdi:

"...bu gün 1918-ci ildə azərbaycanlı qardaşlarımızın məruz qaldıqları soyqırımın anıldığı gündür. Biz Xocalı qətliamını heç vaxt unuda bilmərik. Biz bu qətlia-

724 Yenə orada.
725 Yenə orada.
726 Yenə orada.

mın növbəti ildönümünü bir müddət əvvəl qeyd etdik. Mən qətlə yetirilən 10 minlərlə qardaşımıza rəhmət diləyirəm".[727]

Prezident Rəcəb Tayyib Ərdoğan Qarabağdakı türk irsinin bərpası və qorunması üçün bütün imkanlarla Azərbaycanın yanında olmağa davam edəcəklərini və bunun hamı üçün əhəmiyyət daşıdığını vurğuladı. O, həmin addımı atarkən tezliklə Azərbaycanın bu bölgəsini inkişaf etdirməkdən ötrü bütün məcburi köçkünlərin yenidən doğma torpaqlarına qayıtmalarını vacib hesab edirdi.

Türk dövlətlərinin istənilən çağırışlara hazır olmasının və mövcud potensialı genişləndirməsinin zəruriliyindən danışan Özbəkistan Respublikasının Prezidenti qazanılan qələbə münasibətilə Azərbaycanı belə təbrik etdi:

"Fürsətdən istifadə edərək bir daha Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevi və Azərbaycan xalqını Dağlıq Qarabağın qaytarılması və tarixi ədalətin bərpası münasibətilə təbrik etmək istəyirəm. Özbəkistan bu prosesə töhfə vermək üçün hazırdır. Biz qədim abidələrin, məscidlərin, mədəni maarifləndirmə məkanlarının bərpası haqqında danışmışıq".[728]

Türk Şurasının baş katibi də parlaq qələbə münasibətilə Azərbaycanı təbrik edərək dedi ki, ötən il türk dünyası üçün həqiqətən də məhsuldar və hətta zəfər ili olmuşdur. Azərbaycanın qələbəsi bütün türk dünyasında qürur hissi yaratmış və onu gücləndirmişdi. Baş katib əlavə etdi:

"Türk dünyası önəmli uğurlarına, ən başlıcası Azərbaycan ərazilərinin işğaldan azad olunmasına, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsinə görə daha da güclənib. Dağlıq Qarabağdakı müharibə zamanı Türk Şurası bütün üzv dövlətləri və Zati-alilərinizadından Azərbaycanı bütün vasitələrlə dəstəkləyib".[729]

Toplantıda Qırğızıstan, Türkmənistan prezidentləri, Macarıstanın Baş naziri Viktor Orban[730] da çıxış etdilər.

Zirvə görüşü türk dövlətləri arasında münasibətlərin yüksək səviyyəsini, inkişaf və əməkdaşlıq üçün böyük potensialın olduğunu göstərdi. Azərbaycanın işğal altında olan torpaqlarını azad etməsi bütün türk dünyasında rəğbətlə qarşılanmış və türk ruhunu gücləndirmişdi.

727 Yenə orada.
728 Yenə orada.
729 Yenə orada.
730 Viktor Orban (1963) – Macarıstanın 4-cü və 8-ci Baş naziri (2010-cu ildən).

***

Fəsildə araşdırılan məsələlərdən məlum olur ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Füzuli, Xocavənd və Şuşaya səfəri zamanı ölkə rəhbəri Füzuli-Hadrut avtomobil yolunun təməlini qoyulmuşdur. Hadrutda dövlət bayrağı ucaldılmışdır. Eyni zamanda Hadrut – Cəbrayıl – Şükürbəyli avtomobil yolunun təməli qoyulmuşdur. Erməni işğalçıları tərəfindən dağıdılmış alban kilsələrinə baş çəkilməsi və bərpa ediləcəyinin bildirilməsi Azərbaycan dövlətinin bütün dinlərə və abidələrə eyni münasibət bəsləməsinin göstəricilərindən biri olmuşdur. Dövlət başçısı işğalçı ölkə tərəfindən Şuşa şəhərində dağıdılmış Molla Pənah Vaqifin məqbərəsinə getmiş, çıxışında viran edilmiş bütün tarix və mədəniyyət abidələrinin bərpa olunacağını bildirmişdir. Səfərin martın 16-da - ilaxır çərşənbə günündə edilməsi rəmzi məna daşımışdır. İşğal edildikdən sonra Şuşa şəhərində ilk dəfə ilaxır çərşənbəsi keçirilmişdir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 20-də yenidən Şuşa şəhərinə səfər etmişlər. Səfər zamanı Cıdır düzündə işğaldan sonra ilk dəfə olaraq Novruz tonqalı qalanmışdır. Bu, zəfər tonqalı olmuşdur. Bir daha əminlik yaranmışdır ki, işğaldan azad olunmuş bütün ərazilərə yeni həyat, dinclik və əmin-amanlıq gələcəkdir.

Martın 31-də Türk Şurasının zirvə görüşünün keçirilməsi qardaş ölkələrin arasında əməkdaşlığın səviyyəsini və böyük perspektivlərinin olduğunu göstərmişdir. Dövlət başçılarının Azərbaycanı qazandığı qələbə münasibətilə təbrik etməsi ümumi mövqeyi, birliyin, qardaşlığın və haqq-ədalətin yanında olduqlarını nümayiş etdirmişdir. Qələbə bütün türk dünyasında milli-mənəvi və psixoloji ruhu yüksəltmişdir.

25-ci FƏSİL

HƏRBİ QƏNİMƏTLƏR PARKININ YARADILMASI VƏ İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ DİRÇƏLİŞ İŞLƏRİ

25.1. Hərbi Qənimətlər Parkının açılması

Azərbaycan dövlətinin qazandığı qələbənin əbədiləşdirilməsi məqsədilə atılan ən mühüm addımlardan biri Bakıda Hərbi Qənimətlər Parkının yaradılması oldu. Prezident İlham Əliyev hələ noyabrın 11-də hərbçilərlə görüşündə düşməndən qənimət olaraq götürülmüş və məhv edilmiş texnikanın nümayişi məqsədilə planlarının olduğunu demişdi. Zəfər paradında isə həmin texnikaların bir qismi nümayiş etdirilmişdi. Dövlət başçısının təşəbbüsü və tapşırığı ilə qısa zamanda görülən işlər nəticəsində Bakı şəhərində açıq səma altında nadir park yaradıldı.

Prezident İlham Əliyev aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkını açdı. Burada müharibə zamanı işğalçı ölkənin qoyub qaçdığı və qənimət olaraq götürülmüş atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar toplanmışdı. Zəfər paradının ən yaddaqalan və rəmzi kompozisiyalarından biri olan Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox hərbi avtomobilin nömrə nişanından hazırlanan lövhə də parkın ərazisində yerləşdirilmişdi. Həmin lövhənin qarşısında çıxış edən Prezident dedi ki, Birinci Qarabağ müharibəsindən sonra ermənilər azərbaycanlıların şəxsi maşınlarının nömrələrini götürüb işğal edilmiş torpaqlarda nümayiş etdirirdilər. Bu hərəkət Ermənistanın Azərbaycana qarşı etdiyi etnik təmizləmə siyasətinin və müharibə cinayətinin təzahürü idi. Çünki mülki vətəndaşlar əmlakını qoyub, bəziləri ayaqyalın halda işğal edilmiş torpaqlardan çıxmağa məcbur olmuşdular. Ermənilər lövhəni xarici turistlərə nümayiş etdirərək öz ordularının gücünü göstərməyə, mif yaratmağa çalışırdılar ki, guya Ermənistanın məğlubedilməz ordusu vardır. Parkda hərbi yük maşınlarının nömrələrinin toplandığı lövhə işğalçı Ermənistan ordusunun məhvinin və hərbçilər arasında fərariliyin konkret əyani təzahürü idi. Dövlət başçısı dedi:

"522 hərbi yük maşını Azərbaycan Ordusu tərəfindən məhv edilib və ya qənimət kimi götürülmüşdür. Hələ müharibənin getdiyi dövrdə mən göstəriş vermişdim ki, nömrələr yığılsın, saxlanılsın, gün gələcək biz bu nömrələri nümayiş etdirəcəyik".[731]

Döyüş meydanında davamlı məğlubiyyətlərə məruz qalan düşmən insanlıq əleyhinə və müharibə cinayətləri törətmiş, o cümlədən döyüş bölgəsindən uzaqda olan ərazilərə raket zərbələri endirmiş, dinc sakinləri qətlə yetirmişdi. Həmin faktları xronoloji ardıcıllıqla özündə əks etdirən və Parkın giriş hissəsində yerləşdirilən lövhədə Şuşaya atılmış "İskəndər-M" raketinin qalıqlarına baxan dövlət başçısı bildirdi:

"Şuşanı bax, bu "İsgəndər-M" raketləri ilə ermənilər atəşə tutmuşdular. Haradandır bu raketlər Ermənistan ordusunda? Bu raketlər olmamalı idi. Artıq bu, əyani sübutdur. Ermənistanın hərbi cinayətinin sübutudur və biz cavab istəyirik. Bu ölümcül silah Ermənistanın əlinə necə düşdü? Hələ ki, cavab ala bilməmişik. Amma alacağıq. Hər kəs gəlsin, görsün, Şuşanı, bizim qədim şəhərimizi Ermənistan "İsgəndər-M" raketləri ilə məhv etməyə çalışırdı. Şuşanı biz azad edəndən sonra bundan istifadə etdilər. Bizdə kifayət qədər məlumat var. Sadəcə olaraq, biz rəsmi açıqlama gözləyirik. Hər kəs gəlib bunu görəcək. Bu, erməni vəhşiliyinin, hərbi cinayətin növbəti əyani sübutudur".[732]

Parkda "KUB" zenit-raket kompleksi, hərəsindən bir nümunə olmaqla tırtıllı ağır texnika da var idi. Düşmənin 150-dək ağır texnikası, T-72 tankları, piyadaların döyüş maşınları, 2S1 "Qvozdika" özüyeriyən artilleriya qurğusu, "Osa" zenit-raket kompleksi və b. eksponat kimi saxlanılırdı.

Müharibədə döyüş həm də informasiya cəbhəsində aparılmışdı. Dünya ictimaiyyəti və beynəlxalq kütləvi informasiya vasitələri münaqişə bölgəsi haqqında son məlumatları ən etibarlı, birinci mənbədən – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdən eşitmişdi. Dövlət başçısının qələbə tvitləri, aparıcı media quruluşlarına müsahibələri və xalqa müraciətlərindən ibarət hissələr Parkın ərazisindəki videozalda nümayiş etdirilirdi.

Hərbi Qənimətlər Parkının ən maraqlı hissələrindən biri 30 il ərzində düşmən tərəfindən möhkəmləndirilmiş müdafiə mövqeyi əks olunan, özündə 10 elementdən ibarət mühəndis-maneələr sistemini ehtiva edən ərazisi idi. Burada 5 metr enində, 3-4 metr dərinlikdə qazılan tank əleyhinə xəndək, mina sahəsi, tank əleyhinə beton dirəklər və metal kirpilər, alçaq dirəklər üzərində tikanlı məftildən tor, hündür dirəklərdə məftilli tor, piyada əleyhinə mina sahəsi, az nəzərə çarpan və üçcərgəli lent tipli məftil maneələri, həmçinin səngər üzərin-

731 Prezident İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib. 12.04.2021 // Azərtac. URL: https:azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Bakida_Herbi_Qenimetler_Parkinin_achilisinda_istirak_edib__YENILANIB_2_VIDEO-1753169.

732 Yenə orada.

də lent tipli məftil maneələr nümayiş olunurdu. Həmin maneələr sistemi Füzuli, Cəbrayıl, Ağdam, Tərtər və Goranboy istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin dəf etməli olduğu mühəndis sistemlərindən idi. Otuz il ərzində möhkəmləndirilən mövqelərin daxilində isə yaxşı təchiz edilmiş döyüş postu, əsgər kazarması yerləşirdi. Kazarmanın yanında şəxsi heyətin artilleriya və hava hücumundan qorunması üçün zavod üsulu ilə hazırlanmış sığınacaqlar, döyüş mövqeyində atıcı, pulemyotçu, qumbaraatan səngərləri və uzunmüddətli atəş nöqtələri var idi.

Müharibədə Azərbaycan Ordusuna qarşı kustar üsulla hazırlanmış rels üzərində hərəkət edən iriçaplı minaatanlardan istifadə olunmuşdu. Onun özəlliyi bundan ibarət idi ki, həmin minaatanlar relslə arxaya doğru çəkilir, atəş açılır, daha sonra relslə gizlədilirdi. Beləliklə, atəş nöqtəsini müəyyən etmək çətin olurdu. Parkda həmin silahlar da nümayiş etdirilirdi. Prezident İlham Əliyev mühəndis-maneə sistemləri, döyüş postu və əsgər kazarması ilə tanış oldu.

Hərbi Qənimətlər Parkı müharibədə qazanılan tarixi zəfərin nümayişi baxımından xüsusi əhəmiyyət kəsb edir. Buraya gələn hər bir şəxsə müharibənin gedişatı barədə təqdim edilən eksponatlar döyüşləri bir daha göz önündə canlandırmağa geniş imkan verir.

Parkla tanışlıqdan sonra Prezident təltif olunan hərbi qulluqçularla görüşdü. Zabitləri salamlayan dövlət başçısı Vətən uğrunda şəhid olan qəhrəmanları ehtiramla xatırlayaraq dedi:

"Şəhidlərimizin qanı yerdə qalmadı. Həm İkinci, həm də Birinci Qarabağ müharibəsinin şəhidlərinin qanını döyüş meydanında aldıq, o cümlədən günahsız insanların, Xocalı qurbanlarının, digər mülki şəxslərin intiqamını düşməndən döyüş meydanında aldıq. Biz döyüşərək, vuruşaraq, qan tökərək tarixi ədaləti bərpa etdik, ərazi bütövlüyümüzü bərpa etdik, düşməni torpaqlarımızdan qovduq".[733]

Şanlı qələbənin dünya hərb tarixi üçün də əhəmiyyəti var idi. İkinci Qarabağ müharibəsi Azərbaycanın hərb sisteminin gücünü və müasirliyini göstərmişdi. Azərbaycanın XXI əsrin müharibəsini apardığına diqqəti cəlb edən dövlət başçısı bildirdi:

"...sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir. Dünya mətbuatında artıq dəfələrlə məlumat verilmişdir ki, dünyanın aparıcı ölkələri, o cümlədən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələr İkinci Qarabağ müharibəsinin bütün aspektlərini öyrənirlər. Öz ordularını müasir standartlara, müasir tələblərə uyğunlaşdırmaq istəyirlər. Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni

733 Yenə orada.

qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və istədiyimizə nail olduq, düşməni torpaqlarımızdan qovduq".[734]

Azərbaycanı qələbəyə aparan amillərdən danışan Prezident iqtisadi müstəqillik və onun təmin edilməsi məsələsinə xüsusi diqqət yetirərək dedi ki, əgər iqtisadi inkişaf və iqtisadi müstəqillik olmasaydı, lazım olan müasir silahlar əldə etmək olmazdı. Müstəqilliyin ilk illərində Azərbaycanın üzləşdiyi problemlərin köklərinə toxunan ölkə rəhbəri dedi:

"...1987-ci ildə Heydər Əliyevin bütün vəzifələrdən, o cümlədən Siyasi Büronun üzvü vəzifəsindən uzaqlaşdırılması ilə ermənilərin əlinə fürsət düşdü və onlar bu fürsətdən istifadə etdilər. Heydər Əliyevin istefasından iki həftə keçməmiş bir erməni millətçisi - Qorbaçovun müşaviri, onun sağ əli Aqanbekyan hələ 1987-ci ildə Fransada olarkən Fransa qəzetinə müsahibə verərək demişdir ki, Dağlıq Qarabağ Ermənistana birləşməlidir. Heydər Əliyevin dövründə heç vaxt buna cürət edə bilməzdilər. Ona görə dünya ermənilinin əsas hədəfi Heydər Əliyev idi. Çünki bilirdilər, o, nə qədər vəzifədədir, heç vaxt imkan verməz ki, erməni millətçiliyi baş qaldırsın. Necə ki, 1970-1980-ci illərdə Azərbaycana rəhbərliyi dövründə bütün separatçı meyillərin qarşısı elə yerindəcə alınırdı. İndi tarixə baxın, sanki heç nə dəyişilməyib. Sovet vətəndaşı, özünü akademik sayan Fransada bu açıqlamanı verir və artıq bu mövzu ortalığa atılır. Biz yaxşı xatırlayırıq ondan sonra hansı proseslər baş vermişdi. Faktiki olaraq Dağlıq Qarabağı Azərbaycandan ayırmışdılar. Xüsusi idarəetmə komitəsi yaradılmışdı. Moskvadan bir adam göndərilmişdi. O da sırf ermənipərəst bir adam idi. Faktiki olaraq bizim problemlərimiz o vaxtdan başlamışdır. O vaxt Azərbaycana qarşı çirkin informasiya kampaniyası aparılırdı. Bütün bunları yaşlı nəsil yaxşı xatırlayır".[735]

Azərbaycanın uğursuzluqlarının səbəblərindən biri dövlət müstəqilliyinin ilk illərində ölkəyə çoxlu bəlalar gətirmiş səriştəsiz idarəçiliklə bağlı idi. Müstəqillik əldə olunandan az sonra Xocalı soyqırımı törədilmiş, üç ay keçmiş Şuşa və Laçın işğal altına düşmüşdü. Bununla əlaqədar olaraq Prezident bildirdi:

"Məhz o vaxt faktiki olaraq hakimiyyətə gəlmiş və bu gəlişini rəsmiləşdirmək istəyən AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa və Laçın işğal altına düşdü. Çünki onlar üçün hakimiyyətə gəlmək hər şeydən vacib idi. O vaxt müdafiə naziri onların adamı idi, hansı ki, söz vermişdi, əgər Şuşa əldən getsə, öz başına güllə çaxacaq. Bu günə qədər tula kimi orada-burada sülənir. Faktiki olaraq hakimiyyət Xalq Cəbhəsi-Müsavatın əlində idi. Onlar Şuşa və Laçını ermənilərə təhvil verərkən Bakıdakı hakimiyyəti yıxmaq istəmişdilər və buna nail oldular. Ondan

734 Yenə orada.
735 Yenə orada.

bir ay keçəndən sonra hərbi çevriliş edərək, parlament binasını zəbt edərək hakimiyyəti devirdilər və qanunsuz olaraq hakimiyyətə gəldilər. Bu, onların böyük xəyanətidir".[736]

Ölkə idarəolunmaz həddə gəlmiş, xaos, anarxiya, özbaşınalıq, hərc-mərclik, talançılıq hökm sürmüş və kəndlər işğal altına düşmüşdü. Bu zaman Heydər Əliyev blokada şəraitində yerləşən Naxçıvanın Ermənistan tərəfindən işğal edilməsinə imkan verməmişdi. Dövlət başçısı söylədi:

"Heydər Əliyev imkan vermədi ki, ermənilər blokada şəraitində olan Naxçıvanı işğal altına salsınlar, halbuki dəfələrlə belə cəhdlər olub. Orada sərhəddə gedən şiddətli döyüşlərdə bizim hərbçilərimiz və mülki vətəndaşlar sinəsini qabağa verərək öz torpaqlarını müdafiə ediblər, məhz Heydər Əliyev amili hesabına".[737]

Heydər Əliyevi hakimiyyətdən devirməkdən ötrü Naxçıvana hərbi desant göndərilmiş, torpaqların əldən getdiyi bir şəraitdə ona qarşı mübarizə aparmışdılar. Lakin xalq ayağa qalxaraq Heydər Əliyevi müdafiə etmişdi. Az sonra vətəndaş müharibəsinə start verən idarəçilər Gəncəni bombalamış, Azərbaycan əsgərlərini əsir götürmüşdülər. Ölkə rəhbəri dedi:

"1993-cü ilin aprelində Kəlbəcəri düşmənə verdilər. Ondan sonra təşvişə düşdülər, qorxuya düşdülər, depressiyaya düşdülər. Bu günə qədər də bu depressiyadan çıxa bilmirlər. Öz canlarını qurtarmaq üçün o vaxt məcbur olub Heydər Əliyevə müraciət etdilər ki, onları burada, Prezident Aparatının qarşısında asmasınlar. Onların dar ağacı hazır idi. Azərbaycan xalqı bunlara cəmi bir il dözdü. Amma görün, bir il ərzində nə qədər böyük ziyan vurdular – torpaqlarımız əldən getdi, ordunu məhv etdilər, vətəndaş müharibəsinə start verdilər, qardaş qanını tökdülər. Ona görə, mən deyəndə ki, bunlar xəyanətkardırlar, satqındırlar, düşməndirlər, bax, buna əsaslanaraq deyirəm. Tarixi faktlara əsaslanaraq deyirəm. Onların mənfur xisləti bu gün də özünü büruzə verir. İkinci Qarabağ müharibəsi zamanında da altdan-altdan bizim ordumuza şər ataraq, haqq işimizə şər ataraq düşmənin dəyirmanına su tökdülər. Ona görə bu tarixi bilmədən bugünkü reallığa düzgün qiymət vermək mümkün deyil".[738]

Azərbaycan tarixində Ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyasından bəhs edən Prezident aşağıdakıları söylədi:

"Məhz Azərbaycan xalqının dəstəyinə arxalanaraq Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gələndən sonra bütün xoşagəlməz hallara son qoydu, bütün qanunsuz silahlı birləşmələri tərksilah etdi, sabitlik, qayda-qanun yaradıldı və nizami ordu quruculuğu başlandı".[739]

736 Yenə orada.
737 Yenə orada.
738 Yenə orada.
739 Yenə orada.

2003-cü ildə vəzifəsinə başladıqdan ötən müddət ərzində keçilən yola və qarşıya qoyulan məqsədlərə nail olunduğuna toxunan Prezident anti-milli qüvvələrin və xaricdəki mərkəzlərin dövlətə qarşı təxribatlarını necə pozduğuna diqqəti çəlb etdi:

"Düşmənin bütün cəhdlərinə baxmayaraq, hər hansı bir güzəşt edilmədi. Halbuki təzyiqlər də olmuşdur, təhdidlər də olmuşdur. Mənə qarşı çevriliş cəhdləri olmuşdur. 2003-cü ildə Azadlıq meydanında AXC-Müsavat cütlüyünün tör-töküntüləri hərbi çevriliş etmək istəmişdilər, alınmadı, xalq dəstəkləmədi. 2005-ci ildə Azərbaycanda "narıncı inqilab" təşkil etmək istəmişdilər. Artıq başlarına narıncı bantlar bağlamışdılar. Narıncı çadırlar gətirilmişdi. Nə idi məqsəd? Məqsəd satqınları hakimiyyətə gətirmək, onların əli ilə Qarabağı ermənilərə vermək və Azərbaycana rəhbərlik etmək. Mən bunu qoymurdum. Ona görə bəzi xarici paytaxtlarda qərar verildi ki, İlham Əliyevi devirməliyik... Yenə də xalq arxamda durdu. Yenə də xalq müstəqil siyasəti dəstəklədi" .[740]

Təxribatçı fəaliyyətlərin və çevriliş cəhdlərinin kökündə Qarabağ məsələsində güzəştə gedilməsinin dayandığını ölkə rəhbəri belə ifadə etdi:

"Bütün təzyiqlərə, bütün cəhdlərə, - ondan sonra da cəhdlər olmuşdu, - baxmayaraq, Qarabağ məsələsində bir faiz güzəştə getmədim... Mən dəfələrlə demişdim ki, heç vaxt ölkəmizin ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb, olmayacaq və həyat bunu təsdiqlədi. Mənim o vaxt danışıqların uğurla başa çatmasına inamım var idi. ...bütün bu illər ərzində bizi aldatmağa çalışmışlar. Məsələni həll etmək yox, dondurmaq istəmişdilər. Bu məsələ ilə bilavasitə məşğul olan beynəlxalq qurumlar bu torpaqları erməni tapdağının altında daim saxlamaq istəmişdilər...

Ancaq bununla paralel olaraq danışıqlar apararaq, eyni zamanda, hazırlıq işləri də gedirdi. Mən bunu gizlətmirdim. Dəfələrlə demişdim ki, əgər məsələ sülh yolu ilə həll olunmasa, biz bunu hərbi yolla həll edəcəyik. Nəticədə də belə oldu. Nə demişəmsə, onu da etmişik".[741]

Güclü olmağın yolu həm də tarixə düzgün qiymət verməkdən keçirdi. Azərbaycan xalqının bir sıra problemlərinin kökü qədim və zəngin tarixini olduğu kimi bilməməklə əlaqədar olmuşdu. Bununla əlaqədar Prezident bildirdi:

"1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri də İrəvanı Ermənistana vermək, paytaxt düzəltmək idi. Mən bunu qınamışam. Demişəm ki, bu xəyanət idi, satqınlıq idi, bağışlanmazdır. Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan xalqı qarşısında böyük xidmətləri var. Ancaq biz tarixi malalamamalıyıq, bilməliyik tarixi. Bilməliyik, 1918-1920-ci illərdə ki, Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərirdi, müstəqilliyimiz yarımçıq idi. İrəvanı verdik

740 Yenə orada.
741 Yenə orada.

Ermənistana. Halbuki buna o vaxt İrəvandan olan nümayəndələr etiraz edirdilər. Onların səsinə fikir verən olmamışdı. Azərbaycan Xalq Cümhuriyyəti tam hakimiyyəti təmin edə bilmirdi. İngilis generallar burada meydan sulayırdılar. Hətta bizim bayrağımızı təsdiq etmək üçün ingilis generalı gərək əmr verəydi. Hər şey necə olub, elə də deməliyik. Saxta tarix uydurmamalıyıq. Həm sovet dövründə, həm də müstəqilliyin ilk illərində bizim üçün o qədər saxta tarix uydurmuşlar. Biz elə saxta tarixin girovuna çevrilmişik. Hər şeyi bilməliyik - kimin tarixdə hansı rolu var və nəticə nədən ibarətdir".[742]

Ötən illərdə Azərbaycan danışıqlar masasında prinsipiallıq göstərməklə yanaşı, güclü ordu yaratmaq işini davam etdirmişdi. Dövlətin əsas büdcə xərcləri hərbi sahə olmuşdu. Ordunun döyüş qabiliyyəti möhkəmləndirilmiş, yüksəldilmiş, müasir silah-sursat, texnika ilə təchiz edilmişdi. Azərbaycan bir ölkədən asılı olmamaq üçün hərbi texnikanı bir çox mənbələrdən almışdı.

Digər sahələrdə aparılan hazırlıq işləri barədə dövlət başçısı dedi ki, müharibəyə hazırlaşmaq üçün siyasi sabitlik və vətəndaş birliyi təmin edildi. Xalqın dəstəyinə arxalanaraq inamlı islahatlar aparılmışdı. Beynəlxalq təşkilatlar tərəfindən önəmli qərar və qətnamələr qəbul edilmişdi. BMT Təhlükəsizlik Şurasının qətnamələrindən başqa ciddi bir sənəd yox idi. Bu müddət ərzində BMT Baş Məclisi, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti sənədlər qəbul etmişdilər. Avropa Şurası Parlament Assambleyası məcbur olub Azərbaycanın ərazi bütövlüyünə dəstək nümayiş etdirmişdi.

Qələbənin qazanılmasında Azərbaycanın iqtisadi və enerji müstəqilliyi müstəsna rol oynamış, tarixi layihələr həyata keçirilmiş, neft-qaz kəmərləri inşa edilmişdi. Prezident dedi ki, əgər, o kəmərlər tikilməsəydi, Azərbaycanın bu qədər vəsaiti olmaz, silahlar alına bilməzdi, iqtisadi müstəqillik olmasaydı, müharibəni aparmaq da çətin olardı.

Azərbaycan uğurlu enerji, nəqliyyat, kommunikasiya layihələrini həyata keçirməklə Ermənistanı dalana dirəmişdi. Bütün nəqliyyat, kommunikasiya, enerji xətləri bu ölkədən kənar keçmişdi. Nəqliyyat xəttinin Ermənistan ərazisindən keçməsindən ötrü Azərbaycana təzyiqlər olmuş və demişdilər ki, Bakı – Tbilisi – Qars dəmiryolu inşa edilməməlidir, buna kredit verilməmişdi. Lakin həmin məsələni Azərbaycan özü həll etmişdi. Dövlət rəhbəri vurğuladı:

"Dedim, vermirsən, cəhənnəmə vermə. Mən özüm Gürcüstana 725 milyon dollar kredit vermişəm. Nail olduq, bunu tikdik, Ermənistan dalana çevrildi. Bu, özlüyündə ona gətirib çıxardı ki, Ermənistandan kütləvi köç başlanmışdı. Köç olan kimi bazar daralır. Bazar daraldıqca, heç kim investisiya qoymaz. Adam gərək dəli olsun ki, Ermənistana investisiya qoysun, həm o illərdə, xüsusilə indi. Beləliklə,

742 Yenə orada.

Ermənistanı iqtisadi cəhətdən çökdürmək əsas vəzifələrdən biri idi, mən bunu gizlətmirdim və buna nail olduq".[743]

Qələbənin qazanılmasında Azərbaycan xalqının qələbə əzmi və döyüş ruhu müstəsna rol oynamışdı. Ölkədə gənclərin vətənpərvərlik tərbiyəsinə uzun illər boyu xüsusi diqqət yetirildiyi barədə Prezident dedi:

"Gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması ən vacib məsələlərdən biridir. İkinci Qarabağ müharibəsi göstərdi ki, bu sahədə də böyük uğurlar əldə edilib".[744]

Müharibə Azərbaycan millətinin gücünü, iradəsini və birliyini göstərmişdi. 44 gün ərzində Azərbaycan Ordusu bir dəfə də geriyə addım atmamışdı. Ermənistan isə heç bir uğurlu əməliyyat apara bilməmişdi. Azərbaycan əsgəri və zabiti yüksək mənəvi ruh, peşəkarlıq və qəhrəmanlıq göstərmişdi.

Qələbənin qazanılmasında düzgün komandanlıq müstəsna rol oynamışdı. Dövlət başçısı bununla əlaqədar olaraq bildirdi:

"Bütün əməliyyatlar düşünülmüş şəkildə aparılmışdır. Gün ərzində görülmüş işlər hər gün mənə məruzə edilirdi, müşavirələr keçirilirdi, növbəti gün ərzində görüləcək işlərin planı tutulurdu.[745]

Şuşa əməliyyatına və qələbənin əhəmiyyətinə toxunan Prezident bir daha vurğuladı:

"Şuşa əməliyyatından sonra Ermənistan diz çökdü. Şuşa əməliyyatı ayrıca bir dastandır, o haqda hələ çox danışılacaqdır. Ancaq Şuşaya gedən hər bir adam o sıldırım qayaları görərkən təsəvvür edə bilmir ki, o alınmaz qala necə alındı. Ancaq peşəkarlıq, rəşadət, qəhrəmanlıq və milli ruh hesabına biz Şuşanı azad etdik və düşmən diz çökdü, qabağımızda başını əydi, ağ bayraq qaldırdı, öz məğlubiyyətini etiraf etdi, noyabrın 10-da kapitulyasiya aktına imza atdı və biz bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonlarının işğal altında olan hissəsini də geri aldıq".[746]

İkinci Qarabağ müharibəsinin Azərbaycan millətinin və dövlətinin şanlı tarixi olduğunu ölkə rəhbəri belə ifadə etdi:

"Xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək. Biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik. Ermənistan isə məğlub edilmiş ölkədir, bizim qarşımızda diz çökmüş ölkədir, başını, boynunu bükmüş ölkədir və həmişə belə olacaq".[747]

İşğalçı ölkənin törətdiyi vəhşiliklərdən danışan Prezident dedi:

743 Yenə orada.
744 Yenə orada.
745 Yenə orada.
746 Yenə orada.
747 Yenə orada.

"Bütün şəhərlərimiz dağıdılıb, məscidlər dağıdılıb. Məscidlərdə inək, donuz saxlayıblar, bütün müsəlman aləmini təhqir ediblər, qəbirləri dağıdıblar, qəbirləri şumlayıblar, dəfn edilmiş insanların qızıl dişlərini çıxarıblar. Bu, vəhşi deyil, nədir? Vəhşi, hələ bəlkə də vəhşi o qədər də ağır söz deyil. Bütün dünya gördü ki, onların əsas ideoloji amili nə idi. Guya onlar burada azlıqda yaşayan mədəni, böyük sivilizasiyaya aid olan bir xalqdır, ətrafında da vəhşi müsəlmanlar bunları əhatə edir. Avropanın hər bir tinində bunu deyirdilər. Rusiyanın hər bir tinində bunu deyirdilər ki, bizə kömək edin, yoxsa bizi burada boğarlar. İndi hər kəs gördü bunun sivilizasiyası nədir, bunun mədəniyyəti nədir, bunun əxlaqı, mənəviyyatı nədir?! Qəbirləri dağıdan, şumlayan, ölülərin qızıl dişlərini çıxaran, məsciddə donuz saxlayan vəhşidir, başqa adı yoxdur. Bütün dünya bunu görüb və daha da çox görəcək.

...biz erməni vəhşiliyini heç vaxt unutmamalıyıq. Biz çox xeyirxah xalqıq. Bu, həm bizim üstünlüyümüzdür, eyni zamanda, qarşısında vəhşi olanda, xeyirxah olmaq olmaz. Onlara elə cavab verməliyik ki, bunu öz tarixi yaddaşlarında əbədi saxlasınlar, bu, onların yaddaşlarından heç vaxt silinməsin və silinməyəcək. Bu gün orada baş qaldıran bəzi revanşist qüvvələr də bilməlidirlər, dəmir yumruq yerindədir, lazım olarsa, bunların başını elə əzərik və buna əbədi son qoyulacaq".[748]

Görüşdə çıxış edən silahlı qüvvələrin mükafatlandırılan zabitləri Ali Baş Komandanı qələbənin baş müəllifi adlandırdılar və hər an əldə silah qarşıya qoyulan tapşırıqları yerinə yetirməyə hazır olduqlarını vurğuladılar.

Dövlət başçısının nitqi Azərbaycanı qələbəyə gətirən daxili və beynəlxalq amilləri, millətin qəhrəmanlığını və ölkənin gələcək inkişaf strategiyasını başa düşmək baxımından əhəmiyyətli idi. Hərbi Qənimətlər Parkı əhalidə milli ruhu, hərbi vətənpərvərlik tərbiyəsini yüksəldən, vətən, dövlət, torpaq sevgisini artıran məkan kimi tarixi əhəmiyyət daşıyır, şagirdlər üçün açıq havada əyani sinif otağı idi.

25.2. "Ağıllı kənd" layihələrinin həyata keçirilməsinə başlanılması

İşğaldan azad edilmiş ərazilərdə yaşayış məntəqələrinin dünya standartlarına uyğun şəkildə qurulması Azərbaycan dövlətinin qarşısında dayanan başlıca vəzifələrdən biri kimi müəyyənləşdirildi. Aprelin 26-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Cəbrayıl və Zəngilan rayonlarına növbəti səfəri zamanı "ağılı kənd" layihələrinin həyata keçirilməsi istiqamətində ilk vacib addım atıldı. Ölkə başçısı bir sıra infrastruktur layihələrlə tanış oldu və

748 Yenə orada.

silahlı qüvvələrə məxsus hərbi obyektləri açdı. Dövlət Sərhəd xidmətinin yeni hərbi hissəsinin açılışında etdiyi çıxışında Prezident dedi:

"Azərbaycan-İran sərhədində Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissəsi açılır. ...Vətən müharibəsi dövründə Azərbaycan-İran sərhədi tam bərpa edilib, işğal altında olmuş 132 kilometr sərhəd bərpa edilibdir...

Azərbaycan-İran sərhədi dostluq sərhədidir. Bu sərhədin qorunması Azərbaycan-İran əlaqələrinin inkişafı üçün də çox böyük önəm daşıyır. Bizim İran İslam Respublikası ilə digər istiqamətlərdə sərhədimiz var və bu, sözün əsl mənasında, dostluq, əməkdaşlıq sərhədidir...

...Xudafərin körpüsü Azərbaycan-İran dostluğunun rəmzidir. Xudafərin körpüsü Müstəqillik Günündə - keçən il oktyabrın 18-də düşməndən azad edilmişdir. Bu ərazinin düşməndən azad edilməsində sərhədçilər xüsusi rol oynamışdır".[749]

Prezident və birinci xanım Zəngilan rayonunun Ağalı kəndinə gəldilər. Dövlət başçısına məlumat verildi ki, fevral ayından etibarən burada intensiv işlərə başlanılmış, ilkin söküntü işləri aparılmışdır və kəndarası yollar çəkilir. Qeyd edildi ki, Ermənistanın işğalçılıq siyasəti nəticəsində dağıdılmış kəndlərin ən müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası əsasında bərpasına başlanılmışdır. Birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edir. Artıq qeyd edildiyi kimi, layihənin icrasının 5 komponent üzrə aparılması planlaşdırılırdı. Bunlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələri idi. Ərazidə ilk olaraq innovativ tikinti materiallarından istifadə edilməklə 200 fərdi evin tikintisi nəzərdə tutulmuşdu. Evdaxili mühəndis kommunikasiya, isitmə sistemləri də ağıllı texnologiyalar əsasında qurulacaqdı. Bu kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunacaq, turizm infrastrukturu formalaşdırılacaqdı. Bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin ediləcəkdi. Layihənin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak edəcəkdilər.

Dövlət başçısı xarici şirkət nümayəndələri ilə videoformatda söhbət etdi. Türkiyə şirkətinin nümayəndəsi məlumat verdi ki, "Ağıllı kənd"də dünyanın təbii dostu olan bərpaedilən enerji qurğusu "Arximed" sistemi qurulacaqdır. Karbon dioksid emissiyası sertifikatına malik olan "Arximed" qurğusu "Ağıllı kənd"in bütün daxili elektrik enerjisi ehtiyacını ödəyəcək və artıq qalan enerjini xaricə satmaq mümkün olacaqdı. Bununla bərabər, sistemdən çıxan isti su

749 Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olublar. 27.04.2021 // Azərtac. URL: https:azertag.az/xeber/Prezident_Ilham_Aliyev_ve_birinci_xanim_Mehriban_Aliyeva_Cebrayil_ve_Zengilan_rayonlarinda_olublar___YENILANIB_2_VIDEO-1766219.

kənddəki evlərə və otelə ötürüləcəkdi. Sürətli olan və yüksək məhsuldarlıqla işləyən, heç bir səs-küy yaratmayan qurğu suyu oksigenləşdirirdi ki, bu da balıqlar və yaşıllıqlar üçün çox faydalı idi. Bu sistem günəş enerjisi və digər alternativ enerjilərə nisbətən artıq, yəni 24 saat işlədiyi üçün enerjini daha az güclə əldə etməyə imkan verir. Mövcud layihə təkcə enerji istehsal etmək məqsədi daşımır, eyni zamanda, turizm infrastrukturu üçün də şərait yaradır. Birinci layihədə Türkiyə şirkətinin iştirak etməsi təbii idi. Bununla əlaqədar olaraq Prezident İlham Əliyev dedi ki, qardaş ölkə olan Türkiyə bütün bərpa işlərində fəal iştirak edəcəkdir. Artıq bir neçə Türkiyə şirkəti bərpa işlərində, infrastruktur layihələrində iştirak edirdi. Dövlət başçısı bildirdi:

"Şadam ki, biz burada da - yaşıl enerji sahəsində də Türkiyə şirkətinin fəaliyyətini görürük. Əslində, bu, azad edilmiş torpaqlarda inşa edilən birinci kənddir. Əlbəttə ki, bu kəndin çox böyük önəmi var. Çünki "Böyük qayıdış" bu gün başlayır. Əmin olduğumu bildirmək istəyirəm ki, siz gələcək layihələrdə də iştirak edəcəksiniz".[750]

"Ağıllı kənd" rəqəmsal texnologiyalarını təqdim edən Huayvei-Azərbaycan şirkətinin baş meneceri qeyd etdi ki, şirkət ən son məhsul və texnologiyaları təchiz edəcək, Azərbaycanda ilk dəfə "Qiqabit AirPON" texnologiyasından istifadə olunacaqdır. Əraziyə gətirilmiş bu cihaz fiber-optik xətlərin çəkilişini 10 kilometrdən 1 kilometrə qədər qısalda bildiyi üçün şəbəkənin qurulmasını sürətləndirir və xərclərə qənaət etməyə imkan verirdi.

İtaliya şirkətinin nümayəndəsi kənddə istifadəyə veriləcək süd fermasının layihəsi haqqında danışdı. İlin sonuna qədər təhvil verilməsi planlaşdırılan fermada müxtəlif məhsulların istehsalı nəzərdə tutulurdu.

İsrail şirkətinin nümayəndəsi Zəngilanda tikiləcək və ilkin mərhələdə 300-400 başlıq, sonrakı mərhələdə isə 1000 başlıq camış ferması haqqında məlumat verdi. Qeyd etdi ki, şirkət ağıllı fermalar texnologiyası ilə işləyir.

Bu, işğaldan azad edilmiş ərazilərdə ilk pilot layihə olduğundan Azərbaycan dövləti ona xüsusi diqqət yetirirdi. Layihənin uğurlu icrası əraziləri mümkün qədər tez bir zamanda dirçəltmək və bərpa etməklə bağlı güclü iradəni göstərirdi. Dövlət başçısı dedi:

"...bu gün İsrail şirkəti, İtaliya şirkəti, Azərbaycanın iki dost ölkəsindən olan şirkətlər bu mühüm layihəyə qoşulur və bizim beynəlxalq əməkdaşlığımız var. Türkiyədən, Çindən, İsraildən, İtaliyadan olan şirkətlər var, hamısı dost ölkələrdir. Bu, həqiqətən də yaxşı beynəlxalq əməkdaşlıqdır və mən əminəm ki, bu, sadəcə olaraq, ilk addımdır. Bu layihənin uğurlu icrası sözsüz, bizə imkan verəcək ki, bu təc-

750 Yenə orada.

rübədən Qarabağın digər yerlərində istifadə edək. Çünki biz yüzlərlə kənd, qəsəbə və şəhərləri bərpa etməliyik".[751]

Zəngilan rayonunun sakinləri ilə görüşən Prezident bildirdi:

"Burada tətbiq olunacaq texnologiyaların bir çoxu Azərbaycanda yoxdur. Bu, birinci layihədir, pilot layihədir və əminəm ki, maksimum gələn ilin əvvəlində bütün işlər hazır olacaq. Evlər tikilməlidir, kommunikasiyalar tikilməlidir, ondan sonra iş yerləri yaradılmalıdır, əkin yerləri olmalıdır və burada yaşayacaq insanların hər biri işlə təmin edilməlidir".[752]

Dövlət başçısı Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin və Zəngilanda Beynəlxalq Hava Limanının təməlini qoydu. Böyük qayıdışın başlanğıcı olan bu hadisə barədə ölkə rəhbəri vurğuladı:

"Böyük qayıdış başlayıb. Bu gün burada təməl daşını qoyduğum hava limanı dövlətimizin gücünü göstərir. Bir qədər bundan aralıda yeni Horadiz-Zəngilan avtomagistral yolunun təməli də qoyulacaq. Mövcud yola paralel olan 4-6 zolaqlı bu yol geniş imkanlar açacaq. Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək üçün bu layihələrin çox böyük əhəmiyyəti vardır".[753]

Prezident ümumi uzunluğu 124 kilometr və 6 zolaqdan ibarət olacaq Zəngilan – Horadiz avtomobil yolunun təməlini qoydu. Dövlət başçısı və ailə üzvləri Bəsitçay qoruğunda, Heydər Əliyev Fondu tərəfindən bərpa olunacaq Zəngilan məscidində oldular. Prezident və birinci xanım üzərində "Zəngilan məscidinin təməli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 26 aprel 2021-ci il tarixində qoyulmuşdur" sözləri yazılmış xatirə daşını məscidin divarına hördülər. Daha sonra Zəngilan rayonunun Mincivan qəsəbəsinə gələrək dəmiryolunun tikintisinə start verən dövlət başçısı dedi:

"Horadizdən Ağbəndə qədər dəmiryolu çəkiləcək. Ondan sonra Zəngəzur dəhlizi ilə dəmiryolu Naxçıvan Muxtar Respublikasına qədər uzadılacaq. Zəngilan coğrafi nöqteyi-nəzərdən Şərqi Zəngəzur bölgəsinə aiddir və Şərqi Zəngəzurda yerləşir. Qərbi Zəngəzur da bizim tarixi torpaqlarımızdır və o torpaqlardan Zəngəzur dəhlizi keçəcəkdir. Beləliklə, Azərbaycanın əsas hissəsi Naxçıvan Muxtar Respublikası ilə dəmiryolu vasitəsilə birləşəcək".[754]

751 Yenə orada.
752 Yenə orada.
753 Yenə orada.
754 Yenə orada.

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, müharibədə qazanılmış qələbənin miqyasını indiki və gələcək nəsillərə əyani şəkildə göstərməkdən ötrü məğlub edilmiş işğalçı ölkədən götürülmüş texnikalardan ibarət Hərbi Qənimətlər Parkı Prezident İlham Əliyevin göstərişinə uyğun olaraq yaradılmışdır. Park Azərbaycanın minilliklər tarixində qürurverici bir ilk olmuşdur. Qazanılan qələbənin miqyasını eksponatlarla görən Azərbaycan vətəndaşları tarixləri ilə fəxr edəcək, onlarda vətənpərvərlik ruhu artacaq, xaricilər isə Azərbaycan dövlətinin və millətinin qüdrətini görəcəkdirlər. Açılış mərasimində nitq söyləyən dövlət başçısı müharibədə qazanılan qələbənin səbəbləri, Azərbaycan xalqı və silahlı qüvvələrinin qəhrəmanlığı, xarici dövlətlərdən edilən təzyiqlərin heç bir nəticə vermədiyi və qarşıda dayanan başlıca vəzifələr barədə danışarkən bildirmişdir ki, müharibə başa çatdıqdan sonra əsas iş işğaldan azad olunmuş ərazilərin bərpa edilməsidir.

Dövlət başçısı və birinci xanım Cəbrayıl və Zəngilan rayonlarına səfər etmişlər. Zəngilanda İranla sərhəddə hərbi hissənin açılışı olmuşdur. Dövlət başçısı Azərbaycan-İran sərhədini dostluq sərhədi, Xudafərin körpüsünü isə dostluq körpüsü adlandırmışdır.

Ölkə rəhbəri Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin həyata keçirilməsinin təməlini qoymuş və kənd sakinləri ilə görüşmüşdür. Bu, böyük qayıdışın başlanğıcı olmuşdur.

İşğaldan azad edilmiş ərazilərdə ilk olaraq Türkiyə, İtaliya, İsrail və Çin şirkətləri işə başlamış. Zəngilan məscidinin, Zəngilan – Horadiz avtomobil yolunun, Mincivan dəmiryolunun tikintisinin təməli qoyulmuşdur. Böyük iqtisadi və strateji əhəmiyyət daşıyacaq dəmiryolu Azərbaycanın tarixi ərazisi olan və Ermənistan ərazisində yerləşən Qərbi Zəngəzurdan keçərək Naxçıvana çatmalıdır. Ərazilərin işğaldan azad edilməsindən qısa müddət keçməsinə baxmayaraq, aparılan quruculuq işləri bölgəyə yeni nəfəs və mədəniyyət gətirmişdir.

26-cı FƏSİL

AZƏRBAYCANIN MƏDƏNİYYƏT PAYTAXTININ ELAN EDİLMƏSİ VƏ ŞUŞA BƏYANNAMƏSİ

26.1 Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi

İşğaldan qurtarılmış bütün digər ərazilərlə bərabər Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın da azad edilməsi xüsusi əhəmiyyət daşıyırdı. Azərbaycan mədəniyyətində oynadığı müstəsna rolunu, bütün Yaxın və Orta Şərq regionunun mədəniyyət mərkəzlərindən biri olmasını nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il mayın 7-də Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında sərəncam imzaladı.[755] Sərəncamda yazılırdı ki, Şuşa şəhəri tarixən Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur. Məlum olduğu kimi, hələ 1977-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdi. Məhz həmin qərardan sonra Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdı.

Prezident sərəncamında şəhərin erməni vandalizminə məruz qalması qeyd edilərək yazılırdı ki, başladığı hərbi təcavüz nəticəsində Ermənistan Respublikası 1992-ci il mayın 8-də Şuşa şəhərini işğal etmiş və Azərbaycan xalqının tarixi-mədəni irsinin məhv edilməsi siyasətini həyata keçirmişdir. Daha sonra vurğulanırdı:

"Ordumuzun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edilmiş və 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olunmuşdur. Şəhərə, onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin təxirəsalınmadan inventarizasiyası aparıl-

755 Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 07.05.2021 // Azərtac. URL: https:azertag.az/xeber/Susa_seherinin_Azerbaycanin_medeniyyet_paytaxti_elan_edilmesi_haqqinda__Azerbaycan_Respublikasi_Prezidentinin_Serencami-1775545.

mış, bərpa işlərinə başlanılmışdır. Bərpa-quruculuq işlərinin təşkilində çevikliyi və səmərəliliyi təmin etmək üçün Şuşada dövlət idarəetməsinə də böyük diqqət yetirilmişdir. Azərbaycan Respublikası Prezidentinin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi məhz Şuşa rayonuna təyin edilmişdir.

Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradacaqdır".[756]

Sərəncamda şəhərin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilirdi.

Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi tarixi əhəmiyyət daşıyırdı. Bununla şəhərin həyatında tamamilə yeni dövr başlayır, Azərbaycan xalqının dünya mədəniyyəti yaradan xalq olduğu bir daha dünyaya nümayiş etdirilirdi. Sərəncam Şuşada mədəniyyət ənənələrinin bərpasına imkan verirdi. Belə ənənələrdən biri musiqi festivalının keçirilməsi idi.

26.2. Şuşa musiqi festivalı – "Xarıbülbül"

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 12-də Şuşada növbəti səfərdə oldular. Dövlət başçısı əvvəlcə 110/35/10 kilovoltluq Şuşa yarımstansiyasının açılışını etdi. Şuşa şəhərinin Azərbaycanın ümumi enerji sisteminə qoşulması, şəhərin etibarlı, dayanıqlı və fasiləsiz elektrik enerjisilə təchiz edilməsi məqsədilə hələ 2020-ci ilin dekabrında Şuşa yarımstansiyasının və Füzuli rayonunun Şükürbəyli yarımstansiyasından başlayaraq 75 kilometr məsafədə 110 kilovoltluq Şükürbəyli – Şuşa hava elektrik verilişi xəttinin tikintisinə başlanılmışdı. Yarımstansiya məsafədən idarə olunan SCADA dispetçer İdarəetmə sisteminə qoşulmaqla tam rəqəmsallaşdırılmışdı. Füzulidəki Şükürbəyli yarımstansiyasından Şuşaya 110 kilovoltluq ikidövrəli elektrik verilişi xətti çəkilişi fasiləsiz, növbəlilik prinsipi ilə 73 günə icra olunmuşdu. Bu da Azərbaycanın və regionun energetika tarixində rekord göstərici idi.

Dövlət başçısı həmin gün Şuşada Xarıbülbül otelinin açılışını etdi və yeni məscidin təməlini qoydu. Müsəlman Şərqi memarlığında nadir inci olacaq

756 Yenə orada.

məscidin görünüşündə şəhərin işğaldan azad edildiyi gün – "8" və ay "11"əks etdiriləcəkdi.

Prezident və birinci xanım Şuşada Prezidentin xüsusi nümayəndəliyinin yerləşəcəyi inzibati binada oldular, yenidən bərpa edilən Xan qızı bulağına baxdılar. Onlar həmçinin Şuşa Yaradıcılıq Mərkəzinin yerləşəcəyi binada və Rəsm qalereyasında görülən işlərlə tanış oldular. Şuşada 1 saylı ümumtəhsil məktəbinin təməli qoyuldu.

Azərbaycanın mədəniyyət paytaxtı Şuşada ərazilərin işğaldan azad edilməsindən sonra mayın 12-də ilk "Xarıbülbül" musiqi festivalı keçirildi. Bu, Azərbaycan xalqının və dövlətinin tarixində əlamətdar hadisə idi. Uzun fasilədən sonra Cıdır düzündə hər il keçiriləcək "Xarıbülbül" festivalı bərpa edilirdi. Festivalın açılışında etdiyi nitqində Prezident İlham Əliyev bildirdi:

" Biz bu günü 30 il səbirsizliklə gözləmişik, 30 il Vətən həsrəti ilə yaşamışıq. 30 il ədalətsizliklə barışmalı olurduq, amma barışmırdıq və hər dəfə deyirdik ki, bu vəziyyətlə biz heç vaxt barışmayacağıq, nəyin bahasına olursa-olsun öz doğma torpaqlarımızı işğalçılardan azad edəcəyik və bunu etdik. Uzun fasilədən sonra bu il birinci dəfə keçirilən "Xarıbülbül" musiqi festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq. Xalq birləşdi, xalq həmrəylik göstərdi, bir yumruq kimi birləşdi və bu Qələbəni Azərbaycan xalqı qazandı. Bu, bizim hamımızın qələbəsidir". [757]

Vətən torpaqlarının işğalçılardan azad edilməsində Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri birlikdə qəhrəmanlıq göstərmişdilər. Dövlət başçısı dedi:

"Builki festival Azərbaycanda yaşayan xalqların nümayəndələrini əhatə edir. Bugünkü festivalda ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri çıxış edəcəklər. Bu tövsiyəni festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna mən vermişdim, çünki Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır. Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır. Təsadüfi deyil ki, birinci festivalda Azərbaycanda yaşayan xalqların nümayəndələri çıxış edəcəklər və bir daha biz bütün dünyaya buradan – Şuşadan, qədim torpağımızdan mesaj veririk. Ölkələr belə inkişaf etməlidir, ancaq çoxkonfessiyalı, çoxmillətli ölkələrdə, cəmiyyətlərdə inkişaf olur, birlik olur, milli həmrəylik olur, sülh olur".[758]

757 Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada "Xarıbülbül" festivalının açılışında iştirak ediblər. 12.05.2021 // https:azertag.az/xeber/Azerbaycan_Prezidenti_Ilham_Aliyev_ve_birinci_xanim_Mehriban_Aliyeva_Susada_Xaribulbul_festivalinin_achilisinda_istirak_edibler_yenılanıb_vıdeo-1779235.

758 Yenə orada.

Azərbaycan uzun illər boyu həm ölkə daxilində, həm beynəlxalq aləmdə keçirilmiş çoxsaylı tədbirlərdə multikulturalizmi, müxtəlif xalqların birgəyaşayışını təbliğ etmişdi. Göstərmişdi ki, belə yaşamaq mümkündür. Şuşa musiqi festivalı Azərbaycan multikultiralizminin növbəti nümunəsi idi.

Şuşa şəhərini Azərbaycan xalqının milli sərvəti adlandıran Prezident vurğuladı:

"Şuşa Azərbaycan xalqının milli sərvətidir. Bu yaxınlarda Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi bunu bir daha göstərir. Şuşa qədim Azərbaycan şəhəridir. Gələn il biz Şuşanın 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və o vaxtdan işğal dövrünə qədər bu şəhərdə həmişə azərbaycanlılar yaşayıblar. Ermənilər nə qədər çalışsalar da, Şuşadan Azərbaycan ruhunu silə bilmədilər. Bəli, mənfur düşmən tərəfindən binalar dağıdıldı, məscidlərimiz dağıdıldı, tarixi abidələrimiz dağıdıldı. Ancaq Şuşa Azərbaycan ruhunu qoruya bildi. Şuşa 28 il yarım əsarətdə idi, ancaq əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, milli ruhunu qorudu, Azərbaycan ruhunu qorudu".[759]

Dövlət rəhbərinin nitqindən sonra "Xarıbülbül" festivalı başladı. Qala-konsertdə xalq artistləri Rauf Abdullayev, Yalçın Adıgözəlov, əməkdar artist Fuad İbrahimov və Murtuza Bülbülün dirijorluğu ilə Azərbaycan Dövlət Simfonik Orkestri, Xalq artisti Gülbacı İmanovanın bədii rəhbərliyi ilə Azərbaycan Dövlət Xor Kapellası çıxış etdilər. Konsertdə Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Qara Qarayev, Ələkbər Tağıyev, Müslüm Maqomayev, Niyazi, Tofiq Quliyev, Vasif Adıgözəlov və digər görkəmli bəstəkarların əsərləri təqdim olundu.

Festival çərçivəsində xalq artistləri Alim Qasımov, Azərin, Dinarə Əliyeva, Elçin Əzizov, Əlixan Səmədov, Fərhad Bədəlbəyli, Mənsum İbrahimov, Murad Adıgözəlzadə, Natiq Şirinov, Polad Bülbüloğlu, Samir Cəfərov, Teyyub Aslanov, Yusif Eyvazov, əməkdar artistlər Fərqanə Qasımova, Mirələm Mirələmov, Sahib Paşazadə, Şəhriyar İmanov, Şirzad Fətəliyev və digər ifaçıların çıxışları alqışlarla qarşılandı.

Konsertdə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin vaxtı ilə işğal altında olan Azərbaycan əraziləri haqqında söylədiyi *"Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün bu, iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da belə əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu. Biz onlarsız yaşaya bilmərik"* fikirlərini və Prezident İlham Əliyevin Şuşa şəhərinin 2020-ci il noyabrın 8-də işğaldan azad edildiyi gün xalqa müraciətin-

759 Yenə orada.

də dediyi *"xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"* sözlərini əks etdirən videoçarx təqdim edildi.[760]

"Xarıbülbül" musiqi festivalı incəsənət xadimlərinin "Azərbaycan" mahnısını birgə ifa etmələri ilə yekunlaşdı. Festival ölkədə yaşayan bütün etnik qruplar üçün bərabər imkanların yaradıldığını göstərməklə bərabər, Azərbaycanın multikulturalizm baxımından dünyada model olduğunu nümayiş etdirdi.

26.3. Ağdam şəhərinin dirçəldilməsinə başlanılır

Təcavüzkar Ermənistanın tamamilə dağıdaraq yer üzündən sildiyi Ağdam şəhərinin dirçəldilməsi digər ərazilər kimi qarşıda dayanan ən mühüm vəzifələrdən biri idi. Cümhuriyyət günü – mayın 28-də Ağdama səfər edən Prezident ilk növbədə Bərdə – Ağdam avtomobil yolunun təməlini qoydu. 14 kilometrlik hissəsi Bərdə şəhərindən və bir neçə yaşayış məntəqəsindən keçəcək 4 hərəkət zolaqlı yolun uzunluğu 44,5 kilometr idi.

Prezident təməli qoyulan Ağdam şəhər meşə-parkında dağdağan ağaclarının əkilməsi mərasimində iştirak etdi. Burada ilkin olaraq şəhər sakinləri və qonaqları üçün 125 hektarlıq böyük meşə parkı salınması planlaşdırılırdı. Ağdam su kanalının şəhərin içindən keçməsi və yaradılacaq gölə tökülməsi nəzərdə tutulurdu. Meşə parkın yaradılması təşəbbüsü ilə ilkin olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyi, IDEA İctimai Birliyi çıxış etmişdilər.

Ölkə başçısı Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının təməlini qoydu. Binanın layihələndirilməsinə Azərbaycanın "Azərbaycan inkişaf", ABŞ-ın "Gensler" və Türkiyənin URAL mühəndislik şirkətləri cəlb olunmuşdu. Binanın fasadında Ağdamın yerli ağ daşından və Avropa memarlıq elementlərindən istifadə edilməsi rəmzi məna kəsb edirdi.[761]

Dövlət rəhbəri Ağdam Sənaye Parkının təməlini qoydu. Sənaye Parkı qida sənayesi, kiçik sənaye və xidmət, iri sənaye müəssisələri, sosial və texniki zona-

760 Şuşanın Cıdır düzündə "Xarıbülbül" musiqi festivalı qala-konsertlə başa çatıb. 13.05.2021 // https:azertag.az/xeber/Susanin_Cidir_duzunde_Xaribulbul_musiqi_festivali_qala_konsertle_basa_chatib__yenılanıb_vıdeo-1779711.

761 Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının təməli qoyulub. 28.05.2021 // Azərtac. URL: https:azertag.az/xeber/Agdam_seherinde_insa_olunacaq_ilk_yasayis_binasinin_temeli_qoyulub__yenılanıb_vıdeo-1792477.

lar, TIR parkı, tikinti materiallarının satışı bazası hissələrinə bölünəcəkdi. Burada tikinti materiallarının istehsalı müəssisələrinin yaradılması, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, şərab, yem, gübrə istehsalı və emalının, eyni zamanda xidmət sahələrinin və soyuducu kameraların təşkili planlaşdırılmışdı. İşğaldan azad olunmuş ərazilərin müqayisəli üstünlükləri əsasında dörd regional mərkəzin yaradılması nəzərdə tutulmuşdu: Ağdamda sənaye mərkəzi; Cəbrayılda logistika və ticarət mərkəzi; Şuşada mədəniyyət və turizm mərkəzi; Kəlbəcərdə hasilat və turizm mərkəzi. Ağdamda yaradılacaq sənaye mərkəzində ilkin olaraq 33 kiçik istehsal və xidmət müəssisəsi, iri sənaye və qida sənayesi müəssisələri fəaliyyət göstərəcəkdi. Buraya 110 milyon manata yaxın sərmayə qoyulacaq və 330 iş yeri açılacaqdı. Ağdamın coğrafi-strateji mövqeyi, digər bölgələrlə qovuşuqda yerləşməsi, insan ehtiyatları və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirəcəkdi.

Ağdamda Qarabağ xanlığının banisi Pənahəli xanın sarayının yerləşdiyi İmarət kompleksində olan Prezident İlham Əliyev ərazidə yerləşən abidələrin və obyektlərin bərpasına dair göstərişlərini verdi. Qeyd etmək lazımdır ki, XVIII əsrə aid bu tarixi-memarlıq abidəsi iki binadan ibarət olmaqla xan nəslinin ilk mülklərindən idi. Azərbaycan ərazisindəki digər xan saraylarından fərqlənən bu saray dəbdəbəli yaşayış evi olduğu üçün Pənahəli xanın imarəti adlandırılırdı. İşğal edilən ərazilərdəki digər tarixi-mədəni, dini abidələr kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilmiş, vandalizmə məruz qalmış və tövlə kimi istifadə olunmuşdu. Pənahəli xan, İbrahimxəlil xan və Mehdiqulu xanın türbələri, Xurşidbanu Natəvanın qəbirüstü abidəsi də burada yerləşirdi.

Ağdamda Zəfər muzeyi və açıq hava altında İşğal muzeyi yaradılması da nəzərdə tutulurdu. Zəfər və İşğal muzeylər kompleksinin konsepsiyasını İtaliya şirkəti hazırlamışdı. İşğal muzeyi və memorial bağ 18 hektar ərazini əhatə edəcəkdi. Erməni vandalizminin izlərini nümayiş etdirmək üçün bir sıra dağıdılmış obyektlər və sahələr olduğu kimi qorunub saxlanılacaqdı. Muzeyin texnoloji cəhətdən də son nailiyyətlərə uyğun qurulması və "Mented Reality" sisteminin tətbiqi nəzərdə tutulmuşdu. Belə ki, ziyarətçilər müxtəlif obyektlərə yaxınlaşdıqda onlar haqqında müəyyən hekayələr çıxacaqdı.

Zəfər muzeyi 22,5 hektar ərazini əhatə edirdi. Burada bayraq meydanının salınması, işğalçılar tərəfindən vəhşicəsinə dağıdılmış məşhur Çörək muzeyinin bərpası planlaşdırılırdı.[762]

762 Ağdamda Zəfər muzeyi və açıq hava altında İşğal muzeyi yaradılacaq . 28.05.2021 // Azərtac. URL: https:azertag.az/xeber/Agdamda_Zefer_muzeyi_ve_achiq_hava_altinda_Isgal_muzeyi_yaradilacaq___YENILANIB_VIDEO-1792565.

Dövlət başçısı 960 şagird yerlik Ağdam şəhər 1 saylı məktəbin yeni binasının təməlini qoydu. Bu məktəb Qarabağ bölgəsinin ən qədim məktəblərindən biri hesab olunurdu. Əsası 1883-cü ildə qoyulmuş və müxtəlif yerlərdə fəaliyyət göstərmiş, 1904-cü ildə isə bu əraziyə köçürülən məktəb 1993-cü ildə erməni işğalı zamanı tamamilə dağıdılmışdı.

Ağdama səfəri çərçivəsində Qiyaslı məscidində və Şahbulaq qalasında olan dövlət başçısı bərpa barədə müvafiq tövsiyə və göstərişlərini verdi. Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimində iştirak edən Prezident rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü. Dövlət başçısına Ağdam şəhərinin baş planı təqdim olundu. Prezident İlham Əliyev tərəfindən şəhərin təməl daşının 28 may günündə atılması təsadüfi deyildi. Bu gün 1918-ci ildə müsəlman Şərqində ilk dəfə olaraq Azərbaycan xalqı cümhuriyyət formasında dövlətinin qurulduğunu bəyan etmişdi. Bu, dövlət müstəqilliyinin nə qədər güclü olmasını göstəridi. Ölkə rəhbəri dedi:

"İşğal dövründə Ağdam şəhərinin dağıntılarını, o şəhərin bir hissəsini mən təmas xəttində dəfələrlə olarkən binokl ilə görürdüm. Hər dəfə, bax, təmas xəttində olarkən və bu dağıntıları uzaqdan seyr edərkən öz-özümə deyirdim ki, biz mütləq qayıdacağıq. Nəyin bahasına olursa-olsun qayıdacağıq. Tarixi ədaləti bərpa edəcəyik. Düşməni torpağımızdan qovacağıq və buna nail olduq".[763]

Erməni vandalizmindən və onun məqsədlərindən danışan dövlət başçısı dedi:

"...ermənilərin törətdikləri cinayətlər artıq bütün dünyaya bəllidir: Xocalı soyqırımı, digər kəndlərimizin sakinlərinin qətlə yetirilməsi, şəhərlərimizin dağıdılması. Baxın, görün, Ağdam şəhəri yoxdur, yoxdur. Bir bina da yoxdur. Bir Cümə məscidinin qalıqları qalıb. Onu da mən demişəm, onlar iki məqsəd üçün saxlamışdılar. Bir məqsəd o torpağa bağlı olan bir işarə idi. Yəni, artilleriya atəşinin tənzimlənməsi üçün lazım idi bu məntəqə, bu obyekt. İkinci məqsəd müşahidə məntəqəsi idi. Məscidin minarələrindən onlar müşahidə edirdilər... Cümə məscidinin qalıqlarından başqa, bir dənə də salamat bina yoxdur. Bunu hansısa yad planetli, necə deyərlər, ünsürlər törətməyiblər. Bunu bizim qonşumuz olan, bizim çörəyimizi yeyən, bizim torpağımızda özünə yuva salan, ancaq bizə qarşı daim nifrət hissi ilə yaşayan ermənilər törədiblər. Bu dağıntılar Birinci Qarabağ müharibəsindən sonra törədildi. Bu, ikinci müharibə dövründə törədilən dağıntılar deyil. Bizim bütün maddi sərvətimiz məqsədyönlü şəkildə dağıdıldı, talan edildi. Tarixi-dini abidələri-

763 Prezident İlham Əliyev Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimində iştirak edib, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. 28.05.2021 // Azərtac. URL: https:azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Agdam_seherinin_berpasinin_temel_dasinin_qoyulmasi_merasiminde_istirak_edib_rayon_ictimaiyyetinin_numayendeleri_ile_gorusub__YENILANIB__2_VIDEO-1792563.

miz söküldü. Bunun da bir neçə məqsədi var idi. Birincisi, bizə olan nifrət. İkincisi, Azərbaycan xalqının mədəni irsini bu torpaqlardan silmək məqsədi və əlbəttə ki, gələcəkdə elə bir vəziyyət yaratmaq ki, Azərbaycan əhalisi bu torpaqlara qayıda bilməsin".[764]

Şəhərin müasir standartlara və tələblərə uyğun inkişaf planı artıq tam işlənib hazırlanmışdı. Bütün Qarabağ zonasının "yaşıl enerji" zonası, şəhərlərin "ağıllı şəhər" konsepsiyası əsasında qurulması planlaşdırılırdı. İlkin mərhələdə 33 kənd müəyyən olunmuşdu və bəzi kəndlər birləşəcəkdi. Ondan sonrakı mərhələdə qalan kəndlər də tədricən bərpa ediləcəkdi. Şəhərin tarixi xarakterinin qorunması ilə yanaşı onun ölkənin ən böyük beş şəhərindən birinə çevrilməsi, dünya şəhərçiliyinin vacib təcrübələrinin tətbiq olunması nəzərdə tutulurdu.

26.4. Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında qanun

Qeyd edildiyi kimi, Prezident İlham Əliyev Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsinə dair sərəncam imzalamışdı. Dövlət başçısı 2021-ci il 19 may tarixində "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" qanun layihəsini Milli Məclisə göndərdi.

15 maddədən ibarət olan qanun layihəsinə görə, Şuşa şəhərinin hüdudlarında Şuşa şəhəri Dövlət Qoruğu yaradılırdı. Dövlət Qoruğuna bitişik ərazidə mühafizə zonasının müəyyənləşdiriləcəyi və xüsusi nümayəndəliyin nəzdində yaradılacaq publik hüquqi şəxs tərəfindən idarə ediləcəyi nəzərdə tutulurdu. Dövlət Qoruğunda aşağıdakı sahələri əhatə edən və əsasən şəhərin tarixi – mədəni irsinin qorunmasına yönəlmiş xüsusi tənzimetmə tətbiq edilirdi: tarix və mədəniyyət abidələrinin qorunması; ətraf mühitin mühafizəsi; tikinti, memarlıq və şəhərsalma fəaliyyəti; sahibkarlıq fəaliyyəti; turizm fəaliyyəti, habelə yerli, ölkə və beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi; reklam fəaliyyəti; nəqliyyatın təşkili, o cümlədən Qoruğun ərazisinə giriş - çıxışın tənzimlənməsi; mənzil fondunun idarə edilməsi; Qoruğun ərazisində dövlət idarəetməsinin təşkili və maliyyələşməsi və s.

Qoruğun maliyyələşdirilməsinə fiziki və hüquqi şəxslərdən dəstək məqsədilə xüsusi fondun yaradılması nəzərdə tutulurdu. Dövlət Qoruğuna əlavə dəstək məqsədilə vergi və digər məcburi ödənişlərdən mümkün maliyyələşmə üçün zəmin yaradılırdı. Qoruqda hüquq mühafizə və məhkəmə orqanları istisna olmaqla digər orqanların öz xidmətlərini üç inzibati binadan (ASAN, DOST

764 Yenə orada.

(Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi) ve KOB (Kiçik və Orta Biznes) Evleri) və yalnız elektron qaydada göstərəcəyi nəzərdə tutulurdu.

Milli Məclisin 31 may tarixində keçirilən plenar iclasında qanun layihəsi üçüncü oxunuşda qəbul edildi. Qanun Azərbaycanın mədəniyyət paytaxtı elan edilmiş Şuşa şəhərinin qorunmasının, bərpasının, öyrənilməsinin, inkişafının və təbliğinin hüquqi və təşkilati əsaslarını müəyyənləşdirirdi.[765]

Qanunun qəbul edilməsi tarixi əhəmiyyət daşıyırdı. Azərbaycan tarixində ilk dəfə olaraq bütöv bir şəhər dövlət qoruğu elan edilirdi. Şəhər tarixinin tədqiqi üçün yeni imkanlar açılırdı.

26.5. Füzuli rayonuna səfər

İyunun 14-də Füzuli rayonuna səfərə gələn Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Beynəlxalq Hava Limanının tikintisi işlərinin gedişi ilə tanış oldular. Tikintisinə yanvar ayında başlanan hava limanının 3 min metr uzunluğunda, 60 metr enində uçuş-enmə zolağının inşası nəzərdə tutulurdu. Sentyabrın 5-də burada birinci sınaq uçuşu yerinə yetiriləcəkdi. Tikintini aparmaq üçün Quruçayda iki asfalt zavodu quraşdırılmış və üç daşqıran qurğu gətirilmişdi. Həm burada, həm də Zəfər yolunun tikintisində yerli materiallardan istifadə edilirdi. Hava limanının binasının tikintisində beton işləri demək olar ki, 80 faiz yekunlaşdırılmış, dam örtüyü İtaliyadan, fasad materialları isə Türkiyədən gətirilmişdi. Aerovağzal kompleksinin 2021-ci ilin sonuna kimi tam istifadəyə verilməsi planlaşdırılırdı.

Prezident və birinci xanım Füzuli rayonundakı Aşağı Köndələnçay su anbarında oldular. Ümumi tutumu 9,5 milyon kubmetr olan bu su mənbəyi 6200 hektar sahəni suvarmağa imkan verirdi. Füzuli rayonu işğal edildikdən sonra su anbarının Azərbaycan tərəfindən istismarı qeyri-mümkün olmuşdu. İşğal illərində torpaqlarda ekoloji terror törədən ermənilər təsərrüfat işlərində suya ciddi ehtiyac olduğu mövsümlərdə suyun qarşısını kəsir, daşqınlar və yaxud suya ehtiyac olmayan zaman isə anbarlardan suyu buraxaraq ciddi problemlər yaradırdılar. Görülən işlərlə tanış olan dövlət başçısı dedi:

765 Milli Məclis "Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında" qanun layihəsini təsdiqləyib. 31.05.2021 // Azərtac. URL: https:azertag.az/xeber/Milli_Meclis_Azerbaycanin_medeniyyet_paytaxti___Susa_seheri_haqqinda_qanun_layihesini_tesdiqleyib-1794247.

"Biz Vətən müharibəsindən sonra həm Suqovuşan su anbarını nəzarətə götürdük, həm də Köndələnçay su anbarı bizim əlimizdədir".[766]

Azad edilmiş bütün torpaqların su mənbələrinin xəritəsi hazırlanmış, sudan səmərəli şəkildə istifadə etmək üçün yeni kanalların çəkilməsi və köhnələrin bərpası məqsədilə vəsait ayrılmışdı. Ölkə rəhbəri bildirdi:

"İşğal dövründə mənfur düşmən bizi sudan məhrum etmişdi. Sərsəng su anbarı, Suqovuşan su anbarı düşmənin əlində olduğuna görə 100 min hektar torpaq susuz qalmışdı və bir neçə rayonda su təminatını yaxşılaşdırmaq üçün yüzlərlə subartezian quyusu qazılmışdır. Ağdam, Tərtər, Bərdə, Yevlax, Goranboy və digər rayonlar Tərtərçayın suyundan məhrum edilmişdi. Mənə bu yaxınlarda verilən məlumata görə, Vətən müharibəsindən sonra 30 min hektardan çox sahəyə Suqovuşan su anbarından su verilməyə başlanmışdır. Eyni zamanda, Ağdam rayonunda Xaçınçay su anbarı da bizim nəzarətimizdədir, işğaldan azad edilib və o su anbarı bu su anbarından həcm baxımından daha böyükdür".[767]

Prezident Əhmədbəyli – Füzuli – Şuşa yolunda və Zəfər yolunda görülən işlərlə tanış oldu. 4 və 6 hərəkət zolaqlarından ibarət Əhmədbəyli – Füzuli – Şuşa yolunun uzunluğu 81 kilometr, Zəfər yolunun uzunluğu isə 101 kilometr idi. Hər iki yol boyunca tunellər, körpülər inşa ediləcək və bütün zəruri infrastruktur yaradılacaqdı.

Dövlət başçısı yeni tikilən Füzuli yarımstansiyasının açılışını etdi. 110/35/10 kilovoltluq yarımstansiya Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərin ən qısa vaxtda elektrik enerjisi ilə təchiz edilməsinə dair tapşırığına uyğun olaraq tikilmişdi. İnşa edilən yeni hava limanının və Şuşa yolunun yaxınlığında yerləşən bu yarımstansiya hava limanı da daxil olmaqla, Füzuli şəhəri və ətraf kəndlərdə inşa ediləcək bütün infrastrukturu elektrik enerjisi ilə təchiz edəcəkdi. Yarımstansiya, o cümlədən yeni İdarəetmə Mərkəzi ən müasir tələblərə cavab verən avadanlıqla təchiz olunmuş və komplektləşdirilmişdi. İdarəetmə Mərkəzində texniki imkanlarla yanaşı, əməkdaşların səmərəli çalışmaları və istirahəti üçün hərtərəfli şərait yaradılmışdı. Ölkə başçısı yarımstansiyanı işə saldı. Yarımstansiyanın işinə real vaxt rejimində nəzarət olunması və göstəricilərin Azərenerji ASC-nin SCADA sisteminə ötürülməsi məqsədilə yerli mikro-SCADA dispetçer idarəetmə sistemi qurulmuşdu.

Prezident İlham Əliyev yenidən qurulan 110/35/10 kilovoltluq Şükürbəyli yarımstansiyasının da məsafədən idarə olunan SCADA dispetçer sistemi vasitəsilə açılışını etdi. İşğaldan azad edilən ərazilərin böyük hissəsinin Azərbaycanın

766 Prezident İlham Əliyev Füzuli rayonundakı Aşağı Köndələnçay su anbarında olub. 14.06.2021 // Azərtac. URL: https: azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Fuzuli_rayonundaki_Asagi_Kondelenchay_su_anbarinda_olub_yenılanıb_vıdeo-1806521.

767 Yenə orada.

ümumi enerji sisteminə qoşulması üçün Şükürbəyli yarımstansiyası genişləndirilərək tamamilə yenidən qurulmuşdu. Bu məqsədlə yarımstansiyanın gücü artırılmaqla yanaşı, 110 kilovoltluq açıq paylayıcı qurğu daha müasir formada yenidən tikilmişdi. Burada yeni avadanlıqla komplektləşdirilmiş mühafizə və avtomatika sistemləri ilə təchiz edilən İdarəetmə Mərkəzi yaradılmış və lokal mikro-SCADA sistemi qurularaq yarımstansiyanın idarə olunması tam rəqəmsallaşdırılmışdı. İşğaldan azad edilən digər rayonlarda tikiləcək yarımstansiyaların Azərbaycanın ümumi enerji sisteminə qoşulması üçün yenidən qurularaq genişləndirilən Şükürbəyli yarımstansiyasına İmişli yarımstansiyasından 51 kilometr məsafədə 110 kilovoltluq xətt çəkilmişdi. Şükürbəyli yarımstansiyasından Şuşaya 75 kilometrlik ikidövrəli 110 kilovoltluq xətt çəkilmiş və həmin xətt Füzuli şəhərində yeni tikilən 110 kilovoltluq yarımstansiya ilə əlaqələndirilmişdi. Paralel olaraq Şükürbəyli yarımstansiyasından Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında yeni tikilən 110/35/10 kilovoltluq yarımstansiyalara ikidövrəli 110 kilovoltluq yüksək gərginlikli elektrik veriliş xətti çəkilirdi.

Dövlət başçısı Zəfər yolunun Xocavənd rayonundan keçən hissəsində inşa edilən körpüdə görülən işlərlə də tanış oldu. Quruçay üzərində inşa olunan üçaşırımlı körpünün uzunluğu 86 metr idi. Ölkə rəhbəri Əhmədbəyli – Füzuli – Şuşa avtomobil yolunun Daşaltı kəndinin ərazisindən keçən hissəsində inşa olunacaq tunelin də təməlini qoydu.

Müharibənin başa çatmasından keçən qısa müddətdə dirçəliş işlərinə başlanması Azərbaycan dövlətinin iradəsini və qüdrətini göstərirdi. Dirçəliş işləri ilə paralel olaraq uğurlu xarici siyasət fəaliyyəti də davam etdirilirdi. Bu baxımdan Türkiyə ilə münasibətlər xüsusi önəm daşıyırdı.

26.6. Müttəfiqlik münasibətləri haqqında Şuşa bəyannaməsi

Brüsseldə NATO zirvə toplantısı başa çatdıqdan sonra birbaşa Azərbaycan Respublikasına səfər edən Prezident Rəcəb Tayyib Ərdoğanı iyunun 15-də Prezident İlham Əliyev Füzuli rayonunda qarşıladı. Sonra dövlət başçıları Şuşa şəhərinə yola düşdülər. Onlar və birinci xanımlar yolüstü Şuşa şəhərinin ətraf ərazilərini seyr etdilər və xatirə şəkilləri çəkdirdilər.

İyunun 15-də Şuşada Prezident Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi oldu. Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyə Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Prezident Rəcəb Tayyib Ərdoğanı və birinci xanım Əminə Ərdoğanı qarşıladılar. Fəxri qarovul dəstəsinin

rəisi Türkiyə Prezidentinə raport verdi. Türkiyə Prezidenti Azərbaycan əsgərlərini salamladı. Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Türkiyənin və Azərbaycanın dövlət himnləri səsləndirildi. Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi. Dövlət başçıları fotoşəkil çəkdirdilər. Rəsmi qarşılanma mərasimindən sonra ölkə rəhbərlərinin təkbətək görüşü oldu.

Görüşdən sonra Prezident İlham Əliyev "Baykar" şirkətinin baş direktoru Lutfi Haluk Bayraktara "Qarabağ" ordenini təqdim etdi. Prezidentin sərəncamına əsasən Lutfi Haluk Bayraktar bu yüksək mükafata Azərbaycan və Türkiyə arasında qardaşlıq əlaqələrinin möhkəmləndirilməsi, əməkdaşlığın inkişafı, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin təmin olunması istiqamətindəki haqq işinə verdiyi töhfəyə görə layiq görülmüşdü.

Prezidentlər və birinci xanımlar Şuşada Azərbaycanın görkəmli mədəniyyət xadimləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin heykəlləri önünə gəldilər. İşğal zamanı ermənilərin həmin heykəlləri Ermənistana apararaq əritmək istədikləri qonaqların diqqətinə çatdırıldı. Bildirildi ki, Heydər Əliyevin təşəbbüsü ilə heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilmiş və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılmış, Şuşa işğaldan azad olunduqdan sonra isə əvvəlki yerlərinə qoyulmuşdur.

İyunun 15-də Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni imzaladılar. Bəyannamədə hər iki ölkə Azərbaycanın və bütövlükdə türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində keçirilən görüşün tarixi əhəmiyyətini vurğulayır, aralarında imzalanmış bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 1921-ci il 13 oktyabr tarixli Qars müqaviləsinə sadiq olduqlarını ifadə edir, 1994-cü il 9 fevral tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokol"u, eləcə də 2010-cu il 16 avqust tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə"ni rəhbər tutduqlarını bəyan edirdilər. Onlar beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən də Birləşmiş Millətlər Təşkilatının nizamnaməsinə uyğun olaraq qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsinin vacibliyini vurğulayırdılar. Sənəddə Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin müdrikcəsinə söylədikləri "Azərbaycanın sevinci bizim sevin-

cimiz, kədəri bizim kədərimizdir" və "Bir millət, iki dövlət" ifadələri xalqların milli-mənəvi sərvəti kimi dəyərləndirilirdi. Bildirilirdi ki, Azərbaycan 44 günlük Vətən müharibəsində qələbə qazanaraq Ermənistanın 30 ildən bəri davam edən təcavüzkar siyasətinə son qoydu, torpaqlarını işğaldan azad etdi, tarixi ədalətin zəfər çalmasını və beynəlxalq hüququn bərpa olunmasını təmin etdi. Azərbaycan dövləti Ermənistanın hərbi təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyənin mənəvi-siyasi dəstəyini yüksək qiymətləndirirdi. Bəyannamədə Türkiyənin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyətinə verdiyi töhfənin regiondakı sülhün, sabitliyin və rifahın təmin edilməsində mühüm rol oynadığı vurğulanırdı. Hər iki ölkə müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edəcəklərini bəyan edirdilər. Sənəddə xarici siyasət sahəsində əlaqələndirmənin və müntəzəm ikitərəfli siyasi məsləhətləşmələrin həyata keçirilməsinin vacibliyi qeyd olunur və bu istiqamətdə iki ölkə arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətlərin əhəmiyyəti vurğulanırdı. Hər iki ölkənin öz milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirdikləri, regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsi, eləcə də münaqişələrin, regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərdikləri təsbit edilirdi. Tərəflərin aktual xarakter kəsb edən, qarşılıqlı maraq doğuran beynəlxalq məsələlərdə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək yaxın və ya üst-üstə düşən mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığı dərinləşdirəcəkləri və Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avropa Şurası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərəcəkləri bəyan edilirdi.

Bəyannamənin ən mühüm cəhətlərindən biri o idi ki, tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT nizamnaməsinə uyğun zəruri yardım göstərəcəkdilər. Bu yardımın həcmi və forması təxirə salınma-

dan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdı. Hər iki ölkənin Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsi və bu iclaslarda milli mənafe, tərəflərin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsinin həyata keçirilməsi nəzərdə tutulurdu. İki qardaş ölkə silahlı qüvvələrini müasir tələblərə uyğun olaraq yenidən formalaşdırmaq və modernləşdirmək istiqamətində birgə səylərini davam etdirəcəkdilər. Tərəflər minalanmış ərazilərin təmizlənməsi əsas götürülməklə Ermənistanın işğalından azad edilmiş rayonlarda həyatın normallaşdırılması istiqamətində fəaliyyətləri dəstəkləyirdilər. Sənəddə müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyətin mübadiləsi, birgə təhsil və təlimlərin keçirilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlıq və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsi nəzərdə tutulurdu. Azərbaycan və Türkiyə digər dost dövlətlərin orduları ilə birlikdə hərbi təlimlərin keçirilməsini dəstəkləyirdilər. Hər iki ölkə milli və beynəlxalq öhdəliklərini nəzərə almaqla dəniz, hava və kosmos sahələrində qarşılıqlı texnologiya mübadiləsini həyata keçirərək müştərək qabiliyyətlərin inkişaf etdirilməsi məqsədilə birgə layihələrin yerinə yetirilməsini təşviq etmək və qarşılıqlı müdafiə sənayesi texnologiyalarının inkişaf etdirilməsinə töhfə vermək, sahib olduqları silah və sursatla təchiz etmək, onların istehsal texnologiyalarını qarşılıqlı şəkildə təşviq etmək və hazırda onların ölkələrində mövcud olmayan istehsal sahələrinin yaradılmasını, birgə tədqiqat və istehsalat işlərinin həyata keçirilməsini, iki ölkənin müdafiə sənayesi qurumlarının texnologiyalar, hərbi təyinatlı məhsullar və xidmətlər sahəsində daxili və beynəlxalq bazarlarda əməkdaşlıq etməsini dəstəkləmək barədə qərarlılıqlarını bildirirdilər. İki dövlət arasında inkişaf etdirilən və onların milli maraqlarına cavab verən hərbi-siyasi əməkdaşlıq üçüncü dövlətlərə qarşı yönəlməmişdi. Tərəflər kiber təhlükəsizlik sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayır və bu sahədə birgə elmi tədqiqat işləri, mütəxəssis hazırlığı həyata keçirməyi, qarşılıqlı texniki əməkdaşlığı təşviq edirdilər. Hər iki ölkə ticarət-iqtisadi münasibətlərdə milli iqtisadiyyatlarının və ixracın şaxələndirilməsi, eləcə də perspektiv sahələrdə birgə istehsalın qurulması, investisiya əməkdaşlığının qarşılıqlı faydalı inkişafı üçün daha əlverişli şəraitin inkişaf etdirilməsi istiqamətində səylərini artıracaqlarını bəyan edirdilər. Bu xüsusda tərəf-

lər Azərbaycan və Türkiyə mallarının sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində tədbirlər görəcəkdilər.

Bəyannamədə regionun və Avropanın enerji təhlükəsizliyinə töhfə verən, təbii qaz mənbə və marşrut şaxələndirilməsini təmin edən strateji Cənub Qaz Dəhlizinin həyata keçirilməsində Türkiyə və Azərbaycanın qabaqcıl rolu vurğulanırdı. Hər iki ölkə Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəlmiş səyləri əlaqələndirilmiş şəkildə davam etdirəcəkdilər. Tərəflər qlobal enerji sektorundakı prosesləri nəzərə alaraq regionun enerji təchizatı təhlükəsizliyinin gücləndirilməsi üçün əməkdaşlığa töhfə verəcək səylərin artırılaraq davam etdirilməsi niyyətlərini ifadə edirdilər.

Bəyannamədə hər iki ölkənin ərazisindən keçən Şərq-Qərb/Orta beynəlxalq nəqliyyat dəhlizinin rəqabət qabiliyyətinin artırılması məqsədilə qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi niyyətləri bildirilirdi. Azərbaycan və Türkiyə intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialını daha da inkişaf etdirəcəkdilər. Tərəflər Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının qərb rayonları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılmasının və həmin dəhlizin davamı kimi Naxçıvan – Qars dəmiryolunun tikintisinin iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcəyini qeyd edirdilər.

Sənəddə Türkiyə və Azərbaycan arasında əlaqələrin mövcud səviyyəsinin ümumi regional və beynəlxalq sülh və rifaha töhfə verdiyini, əlaqələrin, sadəcə, iki ölkəyə deyil, eyni zamanda regiona sülh və rifah gətirərək başda region ölkələri olmaqla beynəlxalq birliyin sabitlik, sülh və maraqlarına xidmət edəcəyi vurğulanırdı. Tərəflər regional və beynəlxalq sabitliyə və təhlükəsizliyə mənfi təsir edən müxtəlif təhdid və çağırışlara, xüsusilə terrorçuluğa, onun bütün forma və təzahürlərinə, maliyyələşdirilməsinə, həmçinin kütləvi qırğın silahlarının yayılmasına, mütəşəkkil cinayətkarlığa, çirkli pulların yuyulmasına, narkotiklərin qanunsuz dövriyyəsinə, insan alverinə, qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində birgə səylərini və əməkdaşlıqlarını genişləndirəcək və dərinləşdirəcəkdilər. Azərbaycan Respublikası Türkiyə Cümhuriyyətinin suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına, sabitliyinə və təhlükəsizliyinə qarşı yönəlmiş bütün fəaliyyətləri, o cümlədən terrorçuluğun bütün forma və təzahürlərini pisləyir və Türkiyə Cümhuriyyətinin terrorçuluğa qarşı apardığı mübarizəni qətiyyətlə dəstəklədiyini bəyan edirdi.

Bəyannamədə müxtəlif ölkələrdə yaşayan Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, onların məruz qaldıqları

ümumi problemlər qarşısında birlikdə addımların atılması və ardıcıl həmrəylik göstərilməsi məqsədilə səylərin birləşdiriləcəyi vurğulanırdı. Tərəflər milli mənafelərinin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diaspora fəaliyyətinin əlaqələndirilməsini və qarşılıqlı dəstəyi təşviq edəcəklərini bildirirdilər. Bu baxımdan Ermənistanın Türkiyəyə qarşı əsassız iddialarının, tarixin təhrif olunması və tarixi faktların təhrif olunmaqla siyasiləşdirilməsi cəhdlərinin regionda sülhə və sabitliyə ziyan vurduğu qeyd edilir, bu kontekstdə 1915-ci il hadisələri ilə bağlı olaraq öz arxivlərini açan Türkiyənin Ermənistandakı və digər ölkələrdəki arxivlərin açılmasına və bu mövzuda tarixçilər tərəfindən araşdırmaların aparılmasına yönəlmiş səyləri qətiyyətlə dəstəklənirdi.

Sənəddə iki ölkənin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahələrində əməkdaşlığın daha da gücləndiriləcəyi və bu çərçivədə xarici işlər nazirlikləri arasında davamlı olaraq informasiya sahəsində sıx məsləhətləşmələrin və mübadilələrin həyata keçiriləcəyi qeyd edilirdi. Parlamentlərarası əməkdaşlığın daha da gücləndirilməsi və bu istiqamətdə qarşılıqlı fəaliyyətin artırılması təşviq edilirdi. Tərəflər hər iki xalqın müştərək dəyərlərinin ümdə təzahürlərinə lazımi ictimai dəstəyin göstərilməsini təmin edəcək, tarixi və mədəni irslərinin qorunması üçün birgə fəaliyyət həyata keçirəcəkdilər. Bəyannamədə türk dünyasının birlik və rifahına xidmət edəcək milli və beynəlxalq səylərin artırılmasının vacibliyi vurğulanır, türk mədəni irsinin beynəlxalq səviyyədə təbliğ və təşviq edilməsi sahəsində birgə əməkdaşlığı gücləndirəcəklərinə dair iradə ortaya qoyulurdu. Türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY və Türkdilli Ölkələrin Parlament Assambleyası çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verilməsi nəzərdə tutulurdu.

Tərəflər bir tərəfin vətəndaşlarının digər tərəfin ərazisinə şəxsiyyət vəsiqəsi ilə səyahət etmələri haqqında əldə edilən razılaşmadan məmnunluq ifadə edir və həmin razılaşmanın xalqlar arasında yaxınlıq və insanlar arasında əlaqələr baxımından müstəsna əhəmiyyətini qeyd edərək, bir tərəfin vətəndaşlarının digər tərəfin ərazisində yaşamaq hüququ əldə etmələrini qarşılılıq prinsipinə uyğun olaraq asanlaşdırmaq üçün müvafiq tədbirlər görülməsini təqdir edirdilər. Bəyannamədə tərəflər lazımi dövlət dəstəyini təmin edərək xalqlar arasında müştərək dəyərlərə söykənən sıx əlaqələri humanitar, sosial müdafiə, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman sahələrində daha da inkişaf etdirəcəklərini və dərinləşdirəcəklərini vurğulayırdılar. Bu məqsədlə iki ölkənin

aidiyyəti qurumları tərəfindən birgə davamlı fəaliyyətləri həyata keçiriləcəklərini bildirirdilər.[768]

Sənəd imzalandıqdan sonra prezidentlər mətbuata birgə bəyanatlarla çıxış etdilər. Prezident İlham Əliyev dedi:

"Əziz qardaşım Azərbaycanda dəfələrlə olub, ancaq biz ilk dəfə Qarabağ torpağında - Şuşada bir yerdəyik. Bu səfərin tarixi əhəmiyyəti var. Çünki bu gün imzalanmış Birgə Bəyannamə - Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Bəyannamənin adı Müttəfiqlik haqqında Bəyannamədir və bu ad özü-özlüyündə hər şeyi göstərir, hər şeyi deyir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu Bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək iş birliyimizin təminatçısıdır".[769]

Torpaqların işğaldan azad edilməsində Prezident İlham Əliyevin liderliyinin müstəsna rol oynadığını Prezident Rəcəb Tayyib Ərdoğan belə ifadə etdi:

"Qardaşım Əliyevin uzaqgörən liderliyi və Müzəffər Ali Baş Komandanlığı ilə azadlığına qovuşan Qarabağın yenidən dirçəldilməsi işlərini yaxından izləyirik. ... Təbii ki, Qarabağ əvvəlki ehtişamına və öz kimliyinə qovuşacaq. Buna heç şübhəmiz yoxdur. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Şuşa, Kəlbəcər, Ağdam, Xocavənd kimi Qarabağın qədim yaşayış məntəqələrinin yenidən inkişaf etdiyi günləri yaxın vaxtlarda hamımız birlikdə görəcəyik. Türkiyə olaraq, azadlıq mübarizəsində olduğu kimi, bərpa işlərində də qardaşlarımıza hər cür dəstəyi veririk, verməkdə də davam edəcəyik".[770]

O, daha sonra region və dünya dövlətlərinə də səsləndi:

"Bölgədə təsiri olan hər kəsi həqiqətləri görməyə, Azərbaycan xalqının Zəfərini qəbul etməyə və gələcəyə baxmağa dəvət edirik. Atəşkəs razılaşmasından sonra artıq bölgədə bütün tərəflər üçün yeni əməkdaşlıq imkanları yaranıb. Azərbaycanlı qardaşlarımın bu məsələdə son dərəcə istəkli olmalarının ən yaxın şahidiyik.

Türkiyə olaraq biz də coğrafi qonşuluq əlaqələrimizi daha dərin əməkdaşlıqlara yönəltmək istəyirik. Ermənistanın ona xoş niyyətlə uzadılan həmrəylik əlini tutmasını, ortaq gələcəyi birlikdə formalaşdırmaq fürsətindən yaxşı istifadə etməsini arzu edirik. Altılı platforma dedik. Bu altılı platformada bildiyiniz kimi, Rusiya, Türkiyə, Azərbaycan, Ermənistan, Gürcüstan və İran var. Bu altılı platforma ilə birlikdə artıq istəyirik ki, bölgə rahatlıqla, sülh içində yaşanan bir bölgə olsun. Bu

768 Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi // Azərtac. URL: https:azertag.az/xeber/Azerbaycan_Respublikasi_ile_Turkiye_Respublikasi_arasinda_muttefiqlik_munasibetleri_haqqinda_Susa_Beyannamesi-1808083.

769 Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər. 15.06.2021 // Azərtac. URL: https:azertag.az/xeber/Azerbaycan_ve_Turkiye_prezidentleri_metbuata_birge_beyanatlarla_chixis_edibler__YENILANIB_VIDEO-1807667.

770 Yenə orada.

addımı atmaq üçün biz qardaşımla birlikdə hər cür fədakarlığa hazırıq. Cənab Putin eyni qaydada bu cür fədakarlığa hazırdır. Bu istiqamətdə atılacaq addımlarla bölgə bir sülh bölgəsinə çevriləcək".[771]

Prezidentlər və birinci xanımlar Xan qızı bulağında oldular, daha sonra Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı kompozisiyanın təqdimatında iştirak etdilər.

Azərbaycan – Türkiyə münasibətlərində o zamanadək rast gəlinməyən belə bir sənədin – Müttəfiqlik münasibətləri haqqında Şuşa bəyannaməsinin imzalanmasının böyük tarixi əhəmiyyəti var idi. Sənədin 15 iyun – Milli Qurtuluş Günündə və Azərbaycan mədəniyyət paytaxtı olan Şuşa şəhərində imzalanması dərin rəmzi məna daşıyırdı. Məhz 1993-cü il iyunun 15-də Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan müstəqilliyini itirməkdən, vətəndaş müharibəsindən və separatçılıqla parçalanmaqdan xilas edilmişdi.

İki dost və qardaş ölkənin aralarında imzalanmış bütün beynəlxalq sənədlərə, o cümlədən 1921-ci il 13 oktyabr tarixində Rusiyanın vasitəçiliyi ilə Türkiyə və Azərbaycan, Gürcüstan, Ermənistan arasında imzalanmış, qanunverici orqanlar tərəfindən təsdiq edilmiş, qramotalar mübadiləsi İrəvan şəhərində keçirilmiş Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq etmələri müqavilənin ləğvi barədə Ermənistanda bəzi qrupların səsləndirdikləri mənasız iddialara cavab idi. Bu sənədlə iki ölkə və onun xalqları arasındakı dostluq və qardaşlıq münasibətləri keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırılırdı. Bu, Azərbaycan-Türkiyə münasibətləri tarixində bir ilk olmaqla böyük hadisə idi. Siyasi dialoqun bütün səviyyələrdə davam etdirilməsi bəyan olunurdu.

Sənəddə Azərbaycanın 44 günlük Vətən müharibəsində qələbə qazanmasının, Ermənistanın 30 ildən bəri davam edən təcavüzkar siyasətinə son qoyulmasının, torpaqlarını işğaldan azad etməsinin, tarixi ədalətin zəfər çalmasının və beynəlxalq hüququn bərpasının təmin edilməsinin təsbit olunmasının böyük əhəmiyyəti var idi. Azərbaycan və Türkiyənin Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirəcəklərini bəyan etməsi regionda yeni imkanlar açırdı. İki ölkənin müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən etmələrini bildirmələri də tarixi əhəmiyyət daşıyırdı. Bu sənəd çoxtərəfli formatda da əməkdaşlığı nəzərdə tuturdu. Ən başlıcası o idi ki, tərəflərdən hər

771 Yenə orada.

hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT nizamnaməsinə uyğun zəruri yardım göstərəcəkdilər. Yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdı. Sənəd hər iki ölkənin ordu quruculuğunda müstəsna rol oynayacaqdı. İki ölkənin dəniz, hava və kosmos sahələrində qarşılıqlı texnologiya mübadiləsini həyata keçirərək müştərək qabiliyyətlərin inkişaf etdirilməsi məqsədilə birgə layihələrin yerinə yetirilməsini təşviq etmələri, qarşılıqlı müdafiə sənayesi texnologiyaları inkişaf etdirmələri, sahib olduqları silah və sursatla təchiz etmələri dövlətlərə əlavə güc verəcəkdi. Hərbi-siyasi əməkdaşlıq üçüncü dövlətlərə qarşı yönəlməmişdi. Azərbaycan və Türkiyənin həyata keçirdikləri beynəlxalq layihələrin dəstəklənməsi dövlətlərin mövqelərini möhkəmləndirirdi. Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının qərb rayonları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılmasının və həmin dəhlizin davamı kimi Naxçıvan – Qars dəmiryolunun tikintisinin iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsində böyük rol oynayacaqdı. Azərbaycan Respublikasının Türkiyənin suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına, sabitliyinə və təhlükəsizliyinə qarşı yönəlmiş bütün fəaliyyətləri, o cümlədən terrorçuluğun bütün forma və təzahürlərini pisləməsi və Türkiyənin terrorçuluğa qarşı apardığı mübarizəni qətiyyətlə dəstəklədiyini bildirməsinin beynəlxalq əhəmiyyəti var idi.

Bu sənəd türk dünyası və diasporu qarşısında geniş üfüqlər açırdı. Milli mənafelərinin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diaspor fəaliyyətin əlaqələndirilməsinin təşviq edilməsi əhəmiyyətli idi. Ermənistanın Türkiyəyə qarşı əsassız iddialarının, tarixin təhrif olunması və tarixi faktların təhrif olunmaqla siyasiləşdirilməsi cəhdlərinin regionda sülhə və sabitliyə ziyan vurduğunun vurğulanması və 1915-ci il hadisələri ilə bağlı olaraq öz arxivlərini açan Türkiyənin Ermənistandakı və digər ölkələrdəki arxivlərin açılması səylərinin dəstəklənməsi böyük məna daşıyırdı. Bu sənədlə iki ölkənin media quruluşları və parlamentləri arasında əməkdaşlıqda yeni imkanlar açılır-

dı. Şuşa bəyannaməsi münaqişənin davam etdirilməsində maraqlı olan dövlətlərə açıq-aydın mövqe nümayişi idi.

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Şuşa şəhəri Azərbycan mədəniyyətinin paytaxtı elan edilmişdir. Şuşada "Xarıbülbül" festivalının keçirilməsi ölkə həyatının mədəniyyət hadisələrindən biri olmuşdur.

Cümhuriyyət günü – mayın 28-də Ağdama səfər edən dövlət başçısı ilk növbədə Bərdə – Ağdam avtomobil yolunun, Ağdam Sənaye Parkının, inşa olunacaq ilk yaşayış binasının təməlini qoymuş, salınacaq Ağdam şəhər meşə parkında ağac əkmişdir. Prezident Ağdamda Qarabağ xanlığının banisi Pənahəli xanın sarayının yerləşdiyi İmarət kompleksində olmuş, ərazidə yerləşən abidələrin və obyektlərin bərpasına dair göstərişlərini vermişdir. Ağdamda Zəfər muzeyi və açıq hava altında İşğal muzeyi yaradılması da nəzərdə tutulurdu. Dövlət başçısı 960 şagird yerlik Ağdam şəhər 1 saylı məktəbin yeni binasının təməlini qoymuşdur. Qiyaslı məscidində və Şahbulaq qalasında olan dövlət başçısı buranın da bərpası barədə müvafiq tövsiyə və göstərişlərini vermişdir.

Prezident İlham Əliyevin təklifi ilə Milli Məclis Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında 15 maddədən ibarət qanunu qəbul etmişdir. Azərbaycan tarixində ilk dəfə olaraq bütöv bir şəhər dövlət qoruğu elan edilmişdir.

Dövlət başçısı iyun ayında Füzuli şəhərinə səfər edərək bir sıra infrastruktur obyektlərinin açılışını etmişdir. Qurtuluş günündə – iyunun 15-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla nümayəndə heyəti Azərbaycan Respublikasına səfər etmişdir. Prezident İlham Əliyev onu Füzulidə qarşılamış və birlikdə Şuşa şəhərinə getmişlər. İlk dəfə olaraq Türkiyə dövlət başçısı işğaldan azad edilmiş ərazilərə səfər etmişdir. Şuşada rəsmi qarşılanma mərasimi keçirilmişdir. Səfər zamanı iki ölkə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa bəyannaməsi imzalanmışdır. Bu sənəd qarşılıqlı münasibətlərdə yeni mərhələnin başlanğıcını qoymuşdur.

27-ci FƏSİL

DİRÇƏLİŞ İŞLƏRİNİN DAVAM ETDİRİLMƏSİ

27.1. İqtisadi rayonların yeni bölgüsü

Ərazilərin düşmən işğalından azad edilməsindən sonra ölkədə iqtisadi rayonlaşdırmanın tarixi ənənələrə uyğun formalaşdırılması zərurətə çevrildi. Dövlət başçısının Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında 2021-ci il iyulun 7-də imzaladığı fərmanına uyğun olaraq 14 iqtisadi rayon yaradıldı Onların sırasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları diqqəti xüsusilə cəlb edirdi. Qarabağ iqtisadi rayonunun (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur iqtisadi rayonunun (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaradılması ilə tarixi ənənələr və ədalət bərpa edilirdi.

Fərmanın iyulun 7-də imzalanması təsadüfi olmayıb, dərin məna daşıyırdı. Məlum olduğu kimi, 1923-cü il iyulun 7-də Azərbaycan ərazisində hələ çarizm dövründə köçürülüb gətirilmiş, aborigen olmayan ermənilər üçün süni şəkildə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı. DQMV-nin qurulması sonralar Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürməsinə, hərbi təcavüzünə və torpaqların işğalına gətirmişdi.

Azərbaycan dövlətinin 44 günlük müharibədə qazandığı zəfər və işğala son qoyulması tarixi ədalətin bərpasına imkan vermişdi. İmzalanan fərmanla tarixi ədalətsizlik aradan qaldırılır, Azərbaycanın təbii iqtisadi rayonlaşdırılması tətbiq edilirdi. Bundan sonra ölkədə süni qurumların yaradılmasına yol verilməyəcəyinə dair iradə ortaya qoyulurdu.

Qarabağ iqtisadi rayonunun yaradılması sovet dövründə süni surətdə dövriyyəyə gətirilmiş "dağlıq", "aran", "yuxarı" və "aşağı" ifadələrini aradan qaldırır, Qarabağ regionuna tarixi gerçəkliyə uyğun olaraq bütöv şəkildə baxmağı rəsmiləşdirirdi.

Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması ilə Zəngəzur ifadəsi siyasi leksikona daxil olur, tarixi Azərbaycan torpağı olan və sovet hakimiyyətinin təzyiqləri nəticəsində Ermənistana verilmiş Qərbi Zəngəzur torpaqları haqqında strateji düşünməyə vadar edirdi.

27.2. Prezidentin Kəlbəcər və Laçın rayonlarına səfəri

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 16-da Kəlbəcər və Laçın rayonlarında oldular. Onlar Kəlbəcərə Ömər aşırımı istiqamətindən gəldilər. İşğalçılar qovulduqdan sonra, bu istiqamətdə yol genişləndirilmişdi. Ömər aşırımında ən yüksək zirvədən Azərbaycan xalqını qələbə münasibətilə bir daha təbrik edən müzəffər Ali Baş Komandan dedi:

"Müharibədən sonra Kəlbəcərə ilk səfərimdir. Bir neçə tədbir nəzərdə tutulur. Kəlbəcərin bərpası, yenidən qurulması prosesinə start veriləcəkdir. Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!".[772]

Yol boyunca dövlət başçısı ermənilərin Kəlbəcərdə törətdikləri vandalizm aktlarının bariz nümunələri barədə məlumat verdi. Zallar kəndindəki dağılmış evlər erməni vəhşiliyinin növbəti təzahürü idi.

Dövlət başçısı və birinci xanım Toğanalı – Kəlbəcər avtomobil yolu üzərində Murov dağında inşa olunacaq 11,6 kilometrlik tunelin təməlini qoydu. Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolunun layihə uzunluğu 81 kilometr idi. Dövlət başçısının tapşırığına əsasən avtomobil yolu bölgənin inkişaf planı nəzərə alınmaqla 2-4 hərəkət zolaqlı olmaqla 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilirdi. Layihənin 16-cı kilometrlik hissəsindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1900 metrdən Murovdağ zirvəsinədək 3260 metrə qədər artırdı. Ərazinin çətin relyefi və təhlükəsizlik məsələləri nəzərə alınaraq Murovdağ silsiləsinin altından tunelin tikintisi planlaşdırılmışdı.

Basarkeçər – Kəlbəcər yolunda etdiyi tarixi çıxışında Prezident dedi:

"Durduğumuz yol ermənilər tərəfindən çəkilmiş Basarkeçər-Kəlbəcər yoludur. Onlar Ermənistanı Qarabağla birləşdirmək üçün ikinci yol çəkdilər. Laçın dəhlizindən əlavə. Beləliklə, Kəlbəcəri və digər əraziləri məskunlaşdırmaq və özlərinin gediş-gəlişini daha rahat etmək üçün bu yolu çəkdilər. Bu yol birbaşa Basarkeçər rayonuna gedir. Basarkeçər rayonuna Ermənistanda "Vardenis rayonu" deyilir. Ancaq bu rayonun, bölgənin əsl adı Basarkeçərdir, Göyçə mahalıdır, qədim

772 Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar // Azərtac. 2021, 17 Avqust. URL: https:azertag.az/xeber/Prezident_Ilham_Aliyev_ve_birinci_xanim_Mehriban_Aliyeva_Kelbecer_ve_Lachin_rayonlarinda_olublar___yenilanib_2_video-1854117.

Azərbaycan torpağıdır. 1930-cu ildə Basarkeçər rayonu Ermənistan ərazisində yaradılıb. Orada yaşayanların da mütləq əksəriyyəti azərbaycanlılar olmuşdur. O cümlədən Zod kəndinin sakinləri də azərbaycanlılar idi, deportasiyaya məruz qalmışlar. Yalnız 1969-cu ilin iyun ayında Ermənistan Basarkeçər rayonunu, onun adını dəyişdirərək ona "Vardenis" adı qoymuşdur. Xahiş edirəm ki, Azərbaycanda bu bölgə ilə bağlı hazırlanan reportajlarda və ümumiyyətlə, bizim ümumi leksikonumuzda "Vardenis" yox, Basarkeçər adı bərpa edilsin. İndiki Ermənistan ərazisində yerləşən bütün digər qədim Azərbaycan yaşayış məntəqələri əsl adları ilə də çağırılmalıdır. Misal üçün, Naxçıvan – Ermənistan sərhədində mövcud olan gərginliklə bağlı mən indi mətbuatı izləyirəm. Bizim mətbuatda yazılıb ki, Ermənistanın "Yerasx" kəndində, onun ətrafında hansı hadisələr baş verir. Bu kəndin adı Arazdəyəndir və azərbaycanlılar deportasiyaya qədər orada əbədi yaşayıblar. Ona görə bütün qədim, yəni tarixi adlar bərpa edilməlidir. Bu adlar bizdə müxtəlif kitablarda da öz əksini tapıb. Ona görə xahiş edirəm ki, həm jurnalistlər, həm ümumiyyətlə, insanlarımız bu yerlərin əsl adlarını çəksinlər - Vardenis yox, Basarkeçər rayonu, Basarkeçər şəhəri".[773]

Qamışlı kəndi ərazisindən keçərkən dövlət başçısı qısa müddətdə yaradılmış enerji infrastrukturunun və yüksəkgərginlikli xətlərin yerləşmə vəziyyəti ilə tanış oldu. Basarkeçər-Kəlbəcər yolunu hərbi qənimət adlandıran ölkə rəhbəri dedi:

"Görün, gözəl də yoldur. İndi biz bu yoldan istifadə edirik. Bu yol çəkilində Azərbaycan tərəfi buna ciddi etiraz etmişdir. Deyirdik ki, buna yol vermək olmaz. Bu, ermənilərin məskunlaşma siyasətinin bir hissəsidir. Ancaq bizi eşidən olmadı. Nəticədə biz gəldik, bayrağımızı qaldırdıq. Düşməni torpağımızdan qovduq və indi bu yoldan istifadə edirik. Ermənilər isə bu yoldan məhrum oldular. Ona görə bu yolu da hərbi qənimət saymaq olar. Onlar üçüncü yolu da Cəbrayıldan salmaq istəyirdilər. O da yarımçıq qaldı. Onların arzuları gözlərində qaldı".[774]

Dövlət başçısı Kəlbəcər Kiçik Su Elektrik Stansiyasında görülən işlərlə tanış oldu. Qeyd etmək lazımdır ki, Kəlbəcər rayonunun ərazisində çay üzərində 4,4 MVt gücündə Kəlbəcər-1 Kiçik Su Elektrik Stansiyası tamamilə yenidən qurulur, stansiyanın maşın zalı, aqreqatı, generatoru, idarəetmə panelləri, transformatorları yenilənirdi. Suyu hidroaqreqata ötürən dağıdılmış plastik su borusu 1,3 kilometr məsafədə metal borularla əvəz edilirdi. Stansiyanın maşın zalı və 110/6 kilovoltluq yarımstansiyasında işlər tamamlanmışdı. Beləliklə, ermənilər tərəfindən dağıdılaraq yandırılan Kəlbəcər-1 Kiçik Su Elektrik Stansiyası tamamilə yenidən tikilirdi.

773 Yenə orada.
774 Yenə orada.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 110/35/10 kV-luq Kəlbəcər yarımstansiyasının açılışında iştirak etdilər. Qamışlı kəndi ərazisində müasir avadanlıqlarla təchiz olunaraq inşa edilən yeni yarımstansiyada 80 MVA gücündə yeni transformatorlar quraşdırılmışdı. Yarımstansiyada 110 kilovoltluq açıq, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular yaradılmışdı. Kəlbəcər yarımstansiyası məsafədən idarəolunan SCADA Dispetçer İdarəetmə sisteminə qoşulmuş və bunun üçün yeni idarəetmə binası tikilmişdi. Burada ən yeni rəqəmsal texnologiyalardan istifadə edilmişdi. Yarımstansiyanı işə salan dövlət başçısı çayın sahilində çay süfrəsi arxasında dedi:

"Kəlbəcər rayon yarımstansiyasının açılışını etdik. Çox əlamətdar hadisədir. Kəlbəcər rayonunun elektrik enerjisi ilə təchizatı üçün bunun çox böyük əhəmiyyəti var və deyə bilərəm ki, cəmi altı ay ərzində bu yarımstansiya ərsəyə gəldi. Özü də çox çətin bir hava şəraitində, çətin relyefdən, dağlardan keçərək, bu önəmli infrastruktur obyektini istifadəyə verdik. Yeni dirəkləri də görürsünüz. Dirəklərin ən hündür olan yeri 3400 metrdir. Doğrudan da böyük peşəkarlıq və məharət tələb edən layihədir və onu göstərir ki, bizim daxili resurslarımız o qədər güclüdür ki, biz qısa müddət ərzində bu işləri görə bilərik. Beləliklə, bu yarımstansiya Kəlbəcər rayonunu elektrik enerjisi ilə təchiz edəcək. Bu tədbirə qədər Lev çayı üzərində su elektrik stansiyasının tikintisi ilə tanış oldum. Orada generasiya gücü 4,4 meqavatdır. Biz artıq Güləbird Su Elektrik Stansiyasını işə saldıq, orada 8 meqavatdır, o, Laçın rayonundadır. Suqovuşan Su Elektrik Stansiyası da təmir olundu, yenidən quruldu, orada da 7,8 meqavatdır. Yəni, görün, biz artıq 20 meqavatdan çox elektrik enerjisini alternativ mənbələrdən hasil etməyə başlayırıq və bu hələ başlanğıcdır".[775]

Prezident əlavə etdi ki, bununla enerji potensialı da güclənəcək, Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" zonası kimi yaşayacaq və bütün planlar yerinə yetiriləcəkdir.

Dövlət başçısı Kəlbəcər – Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin təməlini qoydu. Prezident İlham Əliyevin sərəncamına əsasən tikilən Kəlbəcər – Laçın avtomobil yolunun uzunluğu 72,8 kilometrdir. Birinci və ikinci texniki dərəcəyə uyğun tikiləcək yolun hərəkət hissəsinin eninin 9-16 metr, iki və dörd hərəkət zolaqlı olması, yol üzərində altkeçidlər və körpünün inşası nəzərdə tutulmuşdu. Yol üzərində ümumi uzunluğu 9450 metr olacaq 3 tunelin tikintisi planlaşdırılırdı. Tunellərin əhəmiyyətindən bəhs edən Prezident dedi:

"Tunelin tikintisi həm çətindir, xüsusilə belə ağır dağlıq relyefdə, eyni zamanda, çox böyük xərclər tələb edir. Ancaq biz bunu edirik və edəcəyik. Çünki bu, bölgənin, Şərqi Zəngəzurun inkişafına lazımdır. İnsanlar buraya qayıdandan sonra artıq

775 Yenə orada.

Azərbaycanın digər bölgələri ilə çox rahat əlaqəyə malik olacaqlar. Həm Kəlbəcər və Laçın rayonları arasında əlaqələr möhkəmlənəcək, - Laçın rayonunda aeroportun tikintisi nəzərdə tutulur, - eyni zamanda, Kəlbəcər-Göygöl-Gəncə istiqamətində gediş-gəliş daha da rahat olacaq".[776]

Dövlət başçısı Laçın Beynəlxalq Hava Limanının təməlini qoydu. Rayonun Qorçu kəndinin ərazisində inşa ediləcək hava limanı bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək və turizm potensialının artırılmasına səbəb olacaqdı. Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən və strateji əhəmiyyətə malik olan hava limanının inşası işğaldan azad edilmiş tarixi torpaqlarda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərməklə yanaşı logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək, Kəlbəcər rayonu ərazisinə də gediş-gəlişi asanlaşdıracaqdı. Uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaq və bütün növ təyyarələrin enə biləcəyi hava limanında 6 dayanacağın inşası planlaşdırılırdı. Mərasimdə çıxış edən Prezident İlham Əliyev dedi:

"Mən hesab edirəm ki, dünya tarixində belə relyefdə bəlkə də ilk dəfə hava limanı tikilir. Çünki bütün hava limanları adətən düzən ərazidə inşa edilmişdir. Burada belə yer olmadığı üçün yeganə yer bura - Laçın rayonunun Qorçu kəndi seçilib. Bu yerin üstünlüyü, eyni zamanda, ondadır ki, Laçın şəhərinə məsafə 30 kilometrdən bir qədər çox, Kəlbəcər şəhərinə məsafə isə 60 kilometrdən bir qədər çoxdur. Eyni zamanda, Şuşa şəhərinə məsafə də 70 kilometrə yaxındır. Yəni, gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq. Dediyim kimi, burada böyük torpaq işləri aparılacaq. Bəzi təpələr kəsiləcək, bəzi boşluqlar doldurulacaq. Yəni, torpaq işləri vaxtımızı aparan əsas işlər olacaqdır".[777]

Yenidən Kəlbəcərə gələn dövlət başçısı burada arıçılarla görüşüb söhbət etdi. Kəlbəcər şəhərində Dövlət bayrağını ucaldan Prezident dedi:

"İkinci Qarabağ müharibəsinin ilk günlərində döyüşlər gedən zaman Kəlbəcərin şimal hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğalçılardan azad edilmişdir. Murov dağının ərazisində və ətraf yerlərdə şiddətli döyüşlər gedirdi, şəhidlər vermişdik. Ancaq strateji yüksəklikləri götürdük və bu yüksəkliklər bizə imkan verirdi ki, ermənilərin istifadə etdikləri nəqliyyat-kommunikasiya infrastrukturuna da nəzarət edək. Beləliklə, biz Kəlbəcərin şimal hissəsində strateji yüksəklikləri götürərək erməni silahlı qüvvələrinin hərəkətlərini bu istiqamətdə böyük dərəcədə məhdudlaşdıra bildik və faktiki olaraq onlar Basarkeçər-Kəlbəcər yolundan istifadə edə bilmədilər. Bu, hərbi əməliyyatın, əks-hücum əməliyyatının tərkib hissəsi idi. Biz əks-hücum əməliyyatını bir neçə istiqamətdə aparırdıq və hər istiqamət

776 Yenə orada.
777 Yenə orada.

önəmli idi. Çünki biz artıq bəzi istiqamətlər üzrə müdafiə xəttini yararaq işğalda olan torpaqları azad edirdik, bəzi istiqamətlərdə strateji nöqtələri götürərək Ermənistan ordusunun hərəkətlərini demək olar ki, iflic vəziyyətə salmışdıq. Bəzi istiqamətlər üzrə, sadəcə olaraq, hərbi manevrlər apararaq erməni silahlı birləşmələrinin başqa yerə göndərilməsinin qabağını alırdıq. Beləliklə, Kəlbəcərin bir hissəsi, kiçik olan hissə döyüş meydanında azad edildi. Ancaq əksər hissəsi, böyük hissə Ermənistan kapitulyasiya aktına imza atandan sonra azad edildi".[778]

Kəlbəcər Azərbaycanda xaos, anarxiya və zəif hakmiyyət zamanında Ermənistan tərəfindən işğal edilmişdi. Həmin vaxtkı şəraiti təhlil edən dövlət başçısı vurğuladı:

"Şuşa və Laçının işğal altına düşməsi sırf AXC-Müsavat cütlüyünün xəyanətidir, satqınlığıdır. Kəlbəcər rayonu işğal altına düşəndə artıq AXC-Müsavat cütlüyü öz çirkin məqsədlərinə çatmışdı, hakimiyyətdə idi. Təxminən bir ilə yaxın hakimiyyətdə idi. Kəlbəcər 1993-cü il aprel ayının əvvəlində işğal altına düşmüşdü və bunun da günahkarı AXC-Müsavat cütlüyüdür, AXC-Müsavat hakimiyyətidir. Onların xəyanətkar, satqın, antimilli hakimiyyəti Kəlbəcərin işğalını şərtləndirdi. Çünki 1992-ci ilin bahar-yay aylarından onlar demək olar ki, hakimiyyətdə idilər və bir il ərzində ancaq talançılıqla, rüşvətxorluqla, soyğunçuluqla, qanunsuzluqla və digər çirkin əməllərlə məşğul idilər. İndi bir çoxları bunu unudur. Gənc nəsil isə bundan xəbərsizdir. O dövr bizim milli faciəmiz, milli rəzalət dövrü idi".[779]

İkinci Qarabağ müharibəsində qazanılan qələbə nəticəsində erməni mifologiyası məhv edilmişdi. Çünki otuz il ərzində ermənilər dırnaqarası "hərbi qələbə" ilə öyünürdülər. Ermənilər belə bir mif uydurmuşdular ki, onların ordusu "yenilməz ordu"dur və onların ordusu bu torpaqları əbədi işğal altında saxlaya bilər. Dövlət başçısı dedi:

"Biz bu mifi dağıtdıq. Erməni ordusu yoxdur bu gün. Erməni ordusu tamamilə məhv edildi. Erməni ordusunun silah-sursatlarının mütləq əksəriyyəti məhv edildi, ya da ki, qənimət kimi götürüldü və indi Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Biz erməni ordusunu "yenilməz ordu" kimi təqdim edən mifologiyaya son qoyduq".[780]

Ermənilər ikinci belə bir mif uydurmuşdular ki, erməni əsgəri "cəsur"dur və istənilən müharibədə qalib gələ bilər. Azərbaycan həmin mifi də məhv etmişdi. Prezident bildirdi:

"Biz bu mifi də darmadağın etdik. Erməni əsgəri fəraridir, qorxaqdır. Onlar özləri etiraf etdilər və bu da sübut olundu ki, müharibə dövründə Ermənistan

778 Yenə orada.
779 Yenə orada.
780 Yenə orada.

ordusunda 10 min fərari olmuşdur. Azərbaycan Ordusunda bir nəfər də olsun fərari olmamışdır. Yəni, bu mif də darmadağın edildi. Erməni əsgəri fəraridir".[781]

Ermənilərin uydurduğu növbəti mif isə o idi ki, azərbaycanlılar öz torpaqları uğrunda vuruşmayacaqlar, onlar bu vəziyyətlə barışmışlar və əgər otuz ilə yaxın müddət ərzində müharibə başlamayıbsa, bundan sonra da başlamayacaqdır. Azərbaycan bu mifi də dağıtmışdı. Dövlət başçısı vurğuladı:

"Biz göstərdik ki, bu vəziyyətlə heç vaxt barışmaq fikrində deyildik. Mən bunu dəfələrlə deyirdim. Bütün çıxışlarımda deyirdim ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq, nəyin bahasına olursa-olsun torpaqlarımızı işğalçılardan azad edəcəyik və bunu etdik. Bu mifologiya da darmadağın edildi".[782]

Ermənilərin başqa bir mifi onların dırnaqarası "sərkərdələri" ilə bağlı idi. Guya Ermənistanda elə görkəmli generallar, sərkərdələr vardır və onlar istənilən hərbi vəzifəni yerinə yetirə bilərlər. Azərbaycan həmin mifi də darmadağın edərək sübut etmişdi ki, erməni generalları oğru, quldur, fərari və qorxaq, qəhrəmanları isə cinayətkarlar və terrorçulardır. Ölkə başçısı dedi:

"...onların generalları oğrudurlar, "tuşenka" satandırlar. Onların sərkərdələri də qorxaqdırlar, fəraridirlər. Xocalı cəlladları Köçaryan, Sarkisyan, Ohanyan müharibə zamanı Qarabağa soxulmuşdular, orada idilər. Amma görəndə ki, müzəffər Azərbaycan Ordusu öz torpaqlarını qəhrəmancasına azad edir, qaçdılar gizləndilər. Soruşmaq lazımdır onlardan, oradan nəyə görə çıxdılar? Onlar Xankəndidə idilər, üçü də. Niyə qaçmısınız? Niyə gizlənmisiniz? Mən demişəm, bir daha deyirəm, o dəmir-dümürləri çıxarın, onları atın zibil yeşiyinə. Siz fərarisiniz, qorxaqsınız. Biz sizi məhv etmişik. Xocalı soyqırımında ən fəal rollardan birini oynayan keçmiş müdafiə naziri Şuşadan güclə canını qurtardı, son anda canını qurtardı. Dovşan kimi qaçmışdılar. Biz onları məhv etmişik. Onların dırnaqarası "qəhrəmanlarını", "Artsax", olmayan "Artsax" qəhrəmanlarını məhv etmişik. Onlar bu damğa ilə əbədi yaşayacaqlar".[783]

Ermənistanın fərari, satqın, cəllad, qorxaq hərbçiləri ancaq əliyalın əhali ilə müharibə apara bilərdilər. Prezident dedi:

"...vaxtilə Xocalını işğal edəndə burada demək olar ki, onlara müqavimət göstərən qüvvə yox idi, mülki vətəndaşlar idi. Bax, bu evlərdə yaşamış mülki vətəndaşlar idi və aprel ayında hələ burada qarlar əriməmişdi, onların böyük hissəsi burada həlak oldu. Onlar buradan Gəncə istiqamətinə, o Murov dağının üstündən, Ömər aşırımından keçərkən onlara pusqular qurdular. Onları – uşaqları, qadın-

781 Yenə orada.
782 Yenə orada.
783 Yenə orada.

ları, qocaları qətlə yetirdilər. Onlar məcbur olub ayaqyalın, qarlı-şaxtalı havada Ömər aşırımından keçərək, on kilometrlərlə yolu qət edərək buradan çıxmalı idilər. Bir çoxları da yolda qaldı, dondu, öldü. Bu, erməni vəhşiliyidir. Biz vəhşiləri məğlub etdik. Biz bölgəni vəhşilərdən, faşistlərdən xilas etdik. Bunu heç kim heç vaxt unutmamalıdır".[784]

Ermənilər işğal illərində himayədarlarının köməyi ilə vandalizm törədərək, Azərbaycanın təbii sərvətlərini qanunsuz talan etmişdilər.Bu işlərdə bəzi xarici şirkətlər onlara yardım etmişdilər. Ölkə başçısı bununla bağlı olaraq dedi:

"Bu şirkətlərin indi iki yolu var: ya bizə təzminat ödəyəcəklər, ya da ki, beynəlxalq məhkəməyə gedəcəklər.

Artıq məhkəmə prosedurları başlamışdır. Buna biz start verdik, tanınmış beynəlxalq hüquq şirkətlərini dəvət etdik və indi məhkəmə işləri hazırlanır. Kəlbəcərdə Söyüdlüdə, Zəngilanda Vejnəlidə, başqa yerlərdə bizim qızıl yataqlarımız xarici şirkətlər tərəfindən istismar edilirdi. O şirkətlər bilmirdilər ki, bu, Azərbaycan torpağıdır? Bilirdilər! Amma buna məhəl qoymurdular. İndi cavab verəcəklər. Biz demişik, əgər istəmirlərsə ki, biz onları dünya miqyasında biabır edək, gəlsinlər, vurulmuş ziyanı bizə ödəsinlər, təzminat ödəsinlər və ondan sonra rahat yaşaya bilərlər.

Bizim meşələrimiz ermənilər tərəfindən məhv edilib. İndi bizim "Azərkosmos"un fotoları var - işğaldan əvvəl neçə min hektar meşə altında idi və indi nə qədərdir. Ağacla dolu olan altmış min hektara yaxın sahəni, meşə fondunu ermənilər dağıdıblar, yəni, kəsiblər. Kəsiblər, talayıblar, aparıblar. Eşitdiyimə görə orada parket işləri, bu biznes çox sürətlə gedirdi. Bu da talançılıqdır. Bu talançılığa görə də cavab verəcəklər. Bizim çaylarımızı zəhərləyiblər. Oxçuçay nə gündədir? Oxçuçay təbii fəlakətdir və onu zəhərləyən yenə də xarici şirkətdir. O şirkət də cavab verməlidir və verəcəkdir. Dəymiş hər bir ziyan hesablanır. Azad edilmiş bütün torpaqlarda, şəhərlərlə, kəndlərdə indi monitorinq aparılır, pasportlaşdırma aparılır, bütün evlərin pasportları hazırlanır, dəymiş ziyan təsbit edilir və biz beynəlxalq məhkəmələrdə dəymiş bütün ziyanın qaytarılmasını tələb edəcəyik.

Təbii sərvətlər talan edilib, istismar edilib, çaylarımız zəhərlənib, meşələrimiz qırılıb, evlərimiz dağıdılıb, məscidlərimiz sökülüb. Bunu kim edib? Ermənilər! Cavab verməlidirlər və verəcəklər".[785]

Yeni yaradılmış Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əhəmiyyətinə toxunan dövlət başçısı dedi:

"...mənim Sərəncamımla 14 iqtisadi rayon yaradıldı. Onların arasında iki iqtisadi rayonun yaradılması diqqət çəkdi – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonla-

784 Yenə orada.
785 Yenə orada

rı yaradıldı. Hesab edirəm ki, bu da çox düzgün addımdır. Bu, həm tarixə əsaslanır, eyni zamanda, gələcəyə əsaslanır. Çünki, həm Qarabağ, həm Zəngəzur bizim tarixi dədə-baba torpağımızdır. Qarabağ iqtisadi rayonunda bütün Qarabağ bölgəsinə aid olan rayonlar birləşdi. Şərqi Zəngəzur iqtisadi rayonunda Şərqi Zəngəzura aid olan rayonlar birləşdi. Qərbi Zəngəzur isə hazırda Ermənistanın nəzarəti altındadır. Ancaq Zəngəzur dəhlizinin çəkilişi nəticəsində əlbəttə ki, biz bu dəhlizdən istifadə edib öz vətəndaşlarımızı dədə-baba torpaqlarımıza qaytaracağıq. Belə planlar var və bu da təbiidir. Çünki bizim vətəndaşlar indiki Ermənistan ərazisindən, təkcə Zəngəzur mahalından yox, Göyçə mahalından da, - bura ilə həmsərhəddir, - zorla qovulmuşlar və onların tam haqqı var ki, gedib öz dədə-baba torpaqlarında yaşasınlar. Biz bunu sonrakı mərhələyə saxlayırıq.

İndiki mərhələdə bizim əsas vəzifəmiz müharibənin nəticələrini möhkəmləndirməkdir, azad edilmiş torpaqlarda möhkəmlənməkdir. Azərbaycan-Ermənistan sərhədində bundan sonra da mövqelərimizi gücləndirməkdir. Yenidənqurma, bərpa işlərinə artıq start verilib, bu da əsas vəzifələrdən biridir. Keçmiş məcburi köçkünləri azad edilmiş torpaqlara tədricən qaytarmaq da gündəlikdə duran məsələdir. ...Zəngilan rayonunda bir neçə aydan sonra artıq birinci qrup keçmiş köçkünlər yerləşəcək. Eyni zamanda, Ağdam, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarında da pilot kəndlər seçildi. Artıq işlər gedir ki, o kəndlərin bərpasına start verək və vətəndaşları oraya qaytaraq... Beləliklə, biz bundan sonrakı əsas hədəfləri düzgün müəyyən edərək, bu hədəflərə çatmağa da nail olacağıq. Biz bu gün buradayıq, Kəlbəcərdəyik, Azərbaycanın çox gözəl guşələrindən biri olan Kəlbəcərdəyik və biz bundan sonra burada əbədi yaşayacağıq".[786]

Prezident, Ali Baş Komandan İlham Əliyev Kəlbəcər şəhərindəki N saylı hərbi hissədə yaradılan şəraitlə tanış oldu və İstisuya getdi. İstisu bulağı ətrafında 1928-ci ildə eyni adlı sanatoriya tikilmiş, Kəlbəcər rayonu İstisu sanatoriyası ilə bütün dünyada tanınmışdı. 12 mineral bulaqdan ibarət olan İstisunun kimyəvi tərkibinə və bir çox digər xüsusiyyətlərinə görə dünyada analoqu yoxdur. Burada suyun temperaturu müsbət 58,8 dərəcədir.

Uzunluğu 51 km olan İstisu-Minkənd yolunun tikintisi işləri ilə tanış olan dövlət başçısı dedi:

"Bu, İstisu-Minkənd yoludur. Bu yol olmayıb, yenidən çəkilir... Kəlbəcərin İstisu qəsəbəsini Laçının Minkənd kəndi ilə birləşdirən yoldur. Bu, Kəlbəcər və Laçın rayonları arasında ikinci bağlantı olacaq. Hazırda bu yol boyunca işlər gedir, torpaq işləri başa çatıb. Bundan sonra asfalt qatı da vurulacaq... Həm İstisuya Laçın Beynəlxalq Hava Limanından istifadə edərək gəlmək üçün rahat imkan olacaq, eyni zamanda, Kəlbəcərlə Laçın arasında ikinci yol bağlantısı olacaq. Bunun həm

786 Yenə orada.

strateji, həm də hərbi əhəmiyyəti var. Eyni zamanda, vətəndaşların rahatlığı, İstisu kurortunu yenidən bərpa etmək, müasir səviyyəyə gətirmək üçün bu yolun böyük əhəmiyyəti var. Bu yol layihəsi də uğurla icra edilir...".[787]

Dirçəliş işləri sürətlə aparılmaqla bərabər işğaldan azad edilmiş ərazilərdə 30 illik erməni vəhşiliyinə son qoyulur, bölgəyə yenidən Azərbaycan mədəniyyəti qayıdırdı. Mədəniyyət hadisələrindən biri Şuşa şəhərində Vaqif poeziya günlərinin keçirilməsi ənənəsinin bərpa edilməsi oldu.

27.3. Şuşada Vaqif Poeziya Günləri

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Qarabağa 2021-ci il avqustun 29-30-u tarixlərində növbəti səfəri zamanı müxtəlif yeni infrastruktur obyektlərinin təməli atıldı, bəziləri istifadəyə verildi, eyni zamanda sərgilər nümayiş etdirildi və Vaqif poeziya günləri keçirildi.

Avqustun 29-da Prezident və birinci xanım Mehriban Əliyeva Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda son tamamlama işləri, Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış oldular. Bu zaman artıq Fizuli hava limanında uzunluğu 3 min metr, eni 60 metr olan uçuş-enmə zolağı istismara verilmiş, perron inşa edilmiş, avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə qülləsinin tikintisi başa çatdırılmışdı.

Prezident və birinci xanım Mehriban Əliyeva Şuşada Qarabağ otelinin açılışında iştirak etdilər, Xüsusi nümayəndəliyin yerləşəcəyi inzibati binada bərpa işləri ilə tanış oldular. Şuşa şəhərində dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstünün, həmçinin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışı oldu. Əvvəllərdə qeyd edildiyi kimi, hələ 1982-ci il yanvarın 14-də Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə Şuşa şəhərində Molla Pənah Vaqifin məzarı üzərində ucaldılan əzəmətli məqbərənin açılışı olmuşdu. Məhz bu səfər çərçivəsində Heydər Əliyev Vaqif poeziya günlərinin keçirilməsinə dair göstəriş vermiş və həmin ilin 29 iyul – 3 avqust tarixlərində Şuşada Vaqif poeziya günləri keçirilmişdi. 1992-ci ildə Şuşa şəhərinin Ermənistan tərəfindən işğalı nəticəsində kompleksin binası və burada sərgilənən bütün eksponatlar məhv edilmişdi.[788]

787 Yenə orada.

788 Şuşada dahi Azərbaycan şairi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin bərpadan sonra açılışı olub // Azərtac. 29.08.2021. URL: https:azertag.az/xeber/Susada_dahi_Azerbaycan_sairi_Molla_Penah_Vaqifin_muzey_meqbere_kompleksinin_berpadan_sonra_achilisi_olub_YENILANIB_VIDEO-1863593.

Dövlət başçısı və xanımı Vaqifin məqbərəsinin, Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış xalq artisti Bülbülün Şuşa şəhərində yenidən bərpa işləri aparılmış ev-muzeyinin, görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəlinin açılışını etdilər, dahi bəstəkarın ev-muzeyində aparılacaq işlərlə tanış oldular. Şuşada Otel və Konfrans Mərkəzinin təməli qoyuldu. Prezident İlham Əliyevə Şuşa şəhərinin baş planı təqdim olundu. Ümumi sahəsi 46765 kvadratmetr olacaq yeni yaşayış massivi 6 məhəllədən ibarət olmalı idi. Hər məhəllədə 2020 nəfər yerləşdiriləcək və yeni çoxmərtəbəli binalar Şuşaya xas memarlıq üslubunda tikiləcəkdi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən təşkil edilən "Qarabağ Azərbaycan mədəniyyətinin incisidir" və "Yenidən doğma diyarda. Qarabağın sənət inciləri" sərgiləri ilə tanış oldular.

Avqustun 30-da Vaqif poeziya günləri Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə təşkil olundu. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vaqif poeziya günlərinin rəsmi açılışında iştirak etdilər. Mərasimdəki çıxışında dövlət başçısı dedi:

"Əziz dostlar, təxminən 40 il bundan əvvəl, bax, bu yerdə atam durmuşdu, mən isə o tərəfdə durmuşdum. Şaxtalı-qarlı havada Vaqifin məqbərəsinin açılışı idi. Ondan sonra 1982-ci il iyulun 29-da atamla bərabər ikinci dəfə Şuşaya gəlmişdim. O vaxt Vaqif Poeziya Günləri keçirilirdi. Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını biz qeyd edirik. Vaqif Poeziya Günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Bəziləri hesab edə bilər ki, bu, təsadüfdür. Ancaq mən hesab edirəm ki, burada böyük rəmzi məna var, tarix təkrarlanır. Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və biz yenidən nəfəs almağa başlamışıq".[789]

Mərasimdə Azərbaycan ədəbiyyat xadimləri çıxış etdilər. Vaqif poeziya günlərinin keçirilməsi ilə erməni vandalizminin qalıqları tədricən aradan qaldırılır, ənənə bərpa edilir və bölgəyə mədəniyyət gəlirdi.

789 Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Vaqif Poeziya Günlərinin açılışında iştirak ediblər // Azərtac. 30.08.2021. URL: https:azertag.az/xeber/Prezident_Ilham_Aliyev_ve_birinci_xanim_Mehriban_Aliyeva_Susada_Vaqif_Poeziya_Gunlerinin_achilisinda_istirak_edibler_YENILANIB_3_VIDEO-1863991.

27.4. BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində Prezident İlham Əliyevin nitqi

2021-ci il sentyabrın 23-də BMT Baş Assambleyasının 76-cı sessiyasında dövlət və hökumət başçıları səviyyəsində ümumi müzakirələr zamanı Prezident İlham Əliyevin videoformatda nitqi müharibədən sonra yaranmış reallıqların dünyaya çatdırılmasında müstəsna rol oynadı. Dövlət başçısı 44 günlük müharibədən sonra regionda yaranmış yeni geosiyasi gerçəklikləri bəyan etdi və dünyanı düşündürən taleyüklü problemlər barədə dedi:

"Ötən ilin sentyabrında BMT Baş Assambleyasındakı çıxışım zamanı mən sizin diqqətinizi Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının davam etməsinə və Ermənistan hökumətinin təcavüzkar bəyanatlarına və hərəkətlərinə yönəltdim. Bu gün qurur hissi ilə deyirəm ki, Ermənistan döyüş meydanında məğlub edildi və Azərbaycan işğala son qoydu.

...BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edirdi. Lakin Ermənistan bu və BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası Parlament Assambleyası və Avropa Parlamenti kimi beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş bənzər qərarlara məhəl qoymamışdır.

BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə gün ərzində icra edildiyi halda, bizə gəldikdə 27 il icra olunmamış qaldı. Bu isə ikili standartların bariz nümunəsidir. Selektiv yanaşmaya yol verilməməsi üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası mexanizminin yaradılması üçün səylərin birləşdirilməsinə ehtiyac var".[790]

Azərbaycanın qazandığı qələbənin miqyasından bəhs edən dövlət başçısı bildirdi:

"44 günlük müharibə ərzində Azərbaycan işğal olunmuş ərazilərinin böyük bir hissəsini, o cümlədən Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərlərini azad etdi. Ümumilikdə, döyüş meydanında 300-dən çox şəhər və kənd azad edilmişdir. Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktına imza atmağa məcbur oldu. Beləliklə, Ermənistan öz qoşunlarını Azərbaycanın digər ərazilərindən – Ağdam, Laçın və Kəlbəcərdən çıxarmağa məcbur edildi. Azərbaycan BMT Təhlükəsizlik Şurasının yuxarıda qeyd olunan qətnamələrinin icrasını özü təmin

790 BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində Azərbaycan Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim olunub. 24.09.2021 // https:president.az/articles/53197.

etdi və bu, yəqin ki, BMT-nin təsis edildiyi vaxtdan bu günə qədər dünyada ilk belə haldır".[791]

Azərbaycanın 30 illik münaqişəni hərbi-siyasi yollarla həll, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdiyini dövlət başçısı belə ifadə etdi:

"Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı. Azərbaycanda artıq Dağlıq Qarabağ adında inzibati ərazi vahidi yoxdur. Prezidentin 2021-ci il 7 iyul tarixli Fərmanı ilə biz Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarını yaratmışıq. Fürsətdən istifadə edərək, mən BMT-yə üzv dövlətləri və BMT Katibliyini ərazilərimizə istinad edərkən hüquqi cəhətdən mövcud olmayan, siyasi baxımdan qərəzli və manipulyasiya xarakterli adların istifadəsinə yol verməməyə çağırıram".[792]

Prezident BMT kürsüsündən Azərbaycanın düşmənlərinə sərt və qəti xəbərdarlıq da etdi:

"Biz yenidən öz suverenliyimizə, ərazi bütövlüyümüzə və xalqımızın təhlükəsizliyinə hər hansı bir təhdid görsək, legitim özünümüdafiə hüququmuzdan heç bir tərəddüd etmədən istifadə edəcəyik".[793]

Prezident İlham Əliyevin koronavisrus pandemiyası ilə əlaqədar dünyada yaranmış şəraitdən, bu sahədə əməkdaşlıqdan, 44 günlük müharibədən sonra yaranmış reallıqlardan bəhs edən nitqi müstəsna əhəmiyyət daşıyırdı. Haqq-ədaləti, beynəlxalq hüququn tələblərini bərpa edən və müharibə istəməyən Azərbaycan dövləti əməkdaşlığa hazır olduğunu bəyan edir, eyni zamanda bildirirdi ki, təhdid olacağı təqdirdə anında, tərəddüd etmədən özünümüdafiə hüququndan istifadə edəcəkdir.

27.5. Anım günü

Müharibənin başlanmasının bir ili 2021-ci il sentyabrın 27-də tamam oldu. Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Anım Günü ilə əlaqədar olaraq xalqa müraciət etdi. Müharibənin başlanmasının səbəbləri və qələbənin əhəmiyyətindən bəhs edən dövlət başçısı dedi:

"İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olur-

791 Yenə orada.
792 Yenə orada.
793 Yenə orada.

sa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq".[794]

Vətən müharibəsi milli iradə, milli ruh, milli ləyaqət təntənəsi idi. Qələbə döyüş meydanında qazanılmış, 300-dən çox şəhər və kənd döyüş meydanında işğaldan azad edilmişdi. Azərbaycan qan tökərək, şəhidlər verərək bu qələbəni əldə etmiş, 30 il meydan oxuyan düşməni məcbur etmişdi ki, diz çöksün və kapitulyasiya aktına imza atsın. Prezident bildirdi:

"Azğınlaşmış, harınlamış, quduzlaşmış, qudurmuş düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı, təslim oldu və məcbur oldu ki, noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atsın. Bunun nəticəsində yüzlərlə şəhər və kənd bir güllə atmadan, bir şəhid vermədən geri qaytarıldı. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi".[795]

Qondarma "Dağlıq Qarabağ" anlayışını yenidən gündəmə gətirmək istəyən qüvvələrə də sərt xəbərdarlıq edən ölkə başçısı dedi:

"Biz müharibəni hərbi-siyasi yollarla həll etdik, müharibə arxada qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı. Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi mövcud deyil və əgər kimsə "Dağlıq Qarabağ" adlı ölünü diriltmək istəyirsə, onu öz ərazisində diriltsin, öz ərazisində "Dağlıq Qarabağ" adlı qurum yaratsın, respublika yaratsın, cəmiyyət yaratsın. Biz də onu tanıyarıq, ancaq Azərbaycanda yox! Bu məsələ öz həllini tapdı. Bunu mən deyirəm - Azərbaycanın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı. Hər kəs bu sözlərlə hesablaşmalıdır və hesablaşacaqdır" .[796]

Qələbənin qazanılmasında qardaş Türkiyənin mənəvi-siyasi dəstəyini yüksək qiymətləndirən Prezident İlham Əliyev bildirdi:

"44 gün ərzində bizə ən böyük dəstək verən qardaş Türkiyəyə bu gün - Anım Günündə öz dərin təşəkkürümü bildirmək istəyirəm. Qardaş Türkiyə və qardaş türk xalqı müharibənin ilk saatlarından Azərbaycanla həmrəy oldular, Azərbaycana öz

794 Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Anım Günü ilə əlaqədar xalqa müraciəti. 227.09.2021 // https:president.az/articles/53224.
795 Yenə orada.
796 Yenə orada.

dəstəyini göstərdilər. Türkiyə rəhbərliyi və əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən verilən açıqlamalar bizə çox böyük siyasi dəstək oldu, bizə əlavə güc verdi və biz bunu heç vaxt unutmayacağıq. 44 günlük Vətən müharibəsi bütün dünyaya Türkiyə-Azərbaycan birliyini bir daha göstərdi".[797]

Dövlət başçısı qələbənin qazanılmasında müstəsna rol oynamış milli birlik barədə belə dedi:

"Bilirəm ki, xarici ölkələrdə yaşayan milyonlarla azərbaycanlının da ürəyi tarixi Vətəni ilə bir döyünürdü, onlar hər gün gedən döyüşləri izləyirdilər, bizim uğurlarımıza sevinirdilər. Onu da bildirməliyəm ki, 44 gün ərzində və ondan sonra, hətta bu günə qədər mən minlərlə məktub alıram. Həm Azərbaycan vətəndaşlarından, həm dünya azərbaycanlılarından, həm də bizə dost olan müxtəlif ölkələrin vətəndaşlarından dəstək məktubları alıram, həmrəylik məktubları alıram. Müharibədən bir il keçməsinə baxmayaraq, artıq bütün beynəlxalq aləm bizim Qələbəmizlə razılaşıb, bunu qəbul edib. Bu gün bölgədə, o cümlədən Azərbaycan-Ermənistan münasibətlərində gündəliyi formalaşdıran tərəf də Azərbaycandır".[798]

Nitqinin sonunda Prezident İlham Əliyev vurğuladı:

"Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik. O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır. Bu qayıdışı ən qısa müddət ərzində təmin etmək bu gün bizim başlıca vəzifəmizdir. Öz müraciətimi Qələbəmizin ayrılmaz hissəsi olan sözlərlə tamamlamaq istəyirəm: Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".[799]

Həmin gün Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərə, qətlə yetirilən mülki vətəndaşlara və itkin düşmüş soydaşlara ehtiram əlaməti olaraq Bakı şəhərində yürüş təşkil edildi. Neftçilər prospektindən başlayan yürüş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təməli qoyulan Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinədək davam etdi. Yürüşdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin və Bakı qarnizonunda yerləşən hərbi hissələrin 3 min nəfərdən çox kursant və hərbi qulluqçusu iştirak edirdi. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, gənc kursantlar və hərbçilər Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan igidləri, itkin düşən hərbçiləri və Ermənistan dövləti tərəfindən törədilən insanlıq əleyhinə və müharibə cinayətləri nəticəsində qətlə yetirilən mülki əhalinin hər birinin fotolarından ibarət plakatlarla yürüş edərək xalqın birliyi-

797 Yenə orada.
798 Yenə orada.
799 Yenə orada.

nin daimi və sarsılmaz olduğunu, Vətənə sevgi, şəhidlərə ehtiramın əbədiliyini bir daha nümayiş etdirdilər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı şəhəri, 8 Noyabr prospektində Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin təməlini qoydular. Qeyd etmək lazımdır ki, dövlət başçısının 2020-ci il dekabrın 3-də imzaladığı sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması nəzərdə tutulmuşdu. Ötən müddət ərzində Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin layihəsi hazırlanmışdı. Layihəyə əsasən, kompleksin ərazisində torpaqların azad olunması uğrunda tarixi qələbəyə gedən yolu, müharibədə qəhrəmancasına döyüşmüş əsgər və zabitlərin, bütün şəhidlərin xatirəsini yaşatmaq məqsədilə muzeyin yaradılması nəzərdə tutulurdu. Muzey kompleksində şəhidlərin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərin azadlığı uğrunda mübarizə aparan əsgər və zabitlərin igidliyini, xalqın əzmini bir daha nümayiş etdirəcəkdir. Kompleks park ilə əhatə olunacaqdır. Yerli vaxtla saat 12:00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Xəzər dənizinin sahil sularında sıralanan hərbi gəmilərdən fasiləsiz fit səsi verildi və yaylım atəşi açıldı.

27.6. Dövlət başçısının Suqovuşan, Cəbrayıl, Hadrut, Zəngilan və Qubadlıya səfərləri

İşğaldan azad edilmiş ərazilərdə dirçəliş işləri sürətlə davam etdirilirdi. Oktyabrın 3-də dövlət başçısı İlham Əliyev bölgəyə səfəri çərçivəsində Tərtər rayonunun Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yollarının açılışını etdi, Talış – Tapqaraqoyunlu – Qaşaltı – Naftalan avtomobil yolunun təməlini qoydu, Suqovuşan qəsəbəsində və Talış kəndində Azərbaycan bayrağını ucaltdı. Suqovuşan-1 və Suqovuşan-2 Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı oldu. Bu stansiyaların ümumi gücü 7,8 meqavatdır. Erməni qəsbkarları döyüşlər zamanı 4,8 meqavat gücündə Suqovuşan-1 və 3

meqavat gücündə Suqovuşan-2 Kiçik Su Elektrik stansiyalarının yararlı ehtiyat hissələrini sökübdaşımış, apara bilmədiklərini isə dağıtmışdılar.[800]

Oktyabrın 4-də Cəbrayıl rayonuna səfər edən dövlət başçısı "KamAZ" ASC ilə Gəncə Avtomobil Zavodu İstehsalat Birliyinin birgə servis mərkəzinin, Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq Araz Vadisi İqtisadi Zonası Sənaye Parkının təməlini qoydu. Prezident İlham Əliyev 110/35/10 kV-luq Cəbrayıl yarımstansiyasını, Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksini açdı, rayon Mərkəzi Xəstəxanasının, məktəb binasının və Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməllərini atdı. Rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən ölkə rəhbəri qazanılan qələbədən, mövcud vəziyyətdən və Cəbrayılın strateji əhəmiyyətindən danışdı, Cəbrayıl Memorial Kompleksinin bərpasının təməlini qoydu. [801]

Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə oktyabrın 9-da səfər edən dövlət başçısı Hadrut qəsəbəsində yeni məscidin təməlini qoydu, Hadrut – Cəbrayıl – Şükürbəyli, Tuğ – Hadrut və Füzuli – Hadrut yollarında aparılan tikinti işləri ilə tanış oldu. Səfər zamanı yeni Hadrut Qovşaq yarımstansiyasının təməli də qoyuldu. Prezident İlham Əliyev Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü, onlarla birlikdə Tuğ kəndinə getdi, buradakı çıxışında kənd ilə bağlı xüsusi bərpa konsepsiyasının hazırlanacağını bildirdi.[802]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Zəngilan rayonunda səfərdə oldular. Dövlət başçısı və birinci xanım rayonun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə, Zəngilan Beynəlxalq Hava Limanının tikintisi və Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonunda yerləşən hərbi hissə kompleksində yaradılan şəraitlə tanış oldular, "Azərişıq" ASC-nin Zəngilan Rəqəmsal Yarımstansiyasının təməlqoyma mərasimində və "Azərenerji" ASC-nin 110/35/10 kV-luq Zəngilan yarımstansiyasının açılışında iştirak etdilər. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayon icti-

800 "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olub. 04.10.2021 // https:azertag.az/xeber/Terterde__quotSuqovusan_1_ve_Suqovusan_2_Kichik_Su_Elektrik_stansiyalarinin_yenidenqurmadan_sonra_achilisi_olub_VIDEO-1892293.

801 Prezident İlham Əliyev Cəbrayıl rayonunda səfərdə olub. 04.10.2021 // https: azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Cebrayil_rayonunda_seferde_olub_VIDEO-1892619.

802 Prezident İlham Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə səfər edib. 09.10.2021 // https:azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Xocavend_rayonunun_Hadrut_qesebesine_ve_Tug_kendine_sefer_edib_VIDEO-1897332.

maiyyətinin nümayəndələri ilə görüşdülər.[803] Çıxış edən ölkə rəhbəri rayonun dirçəldiləcəyini bildirdi və görüləcək işlər barədə məlumat verdi.

Dövlət başçısı və birinci xanım oktyabrın 25-də isə Qubadlı rayonunda səfərdə oldular. Onlar Xudafərin – Qubadlı – Laçın avtomobil yolunun 10-cu kilometrliyindən Qubadlı şəhər mərkəzinə gedən Xanlıq-Qubadlı yolunun təməlqoyma mərasimində, "Azərenerji" ASC-nin sistem əhəmiyyətli 110/35/10 kV-luq Qubadlı yarımstansiyasının, Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışlarında iştirak etdilər. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı ictimaiyyətinin nümayəndələri ilə görüşdə rayonun tamamilə yenidən qurulacağı bildirildi. Ölkə rəhbəri dedi:

"Artıq keçmiş məcburi köçkünlər... qürurla yaşayırlar. Mənim üçün ən böyük mükafat budur və bundan sonra ən böyük vəzifə bu torpaqları yenidən qurmaqdır, yenidən bərpa etməkdir".[804]

27.7. Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi

Azərbaycan dövləti düşmən işğalından azad edilmiş ərazilərdə yenidənqurma, dirçəliş və bərpa işlərini sürətlə davam etdirirdi. Dinc quruculuğa başlandığı qısa müddətdə, heç bir il keçməmiş tikilən Füzuli Beynəlxalq Hava Limanı bu fəaliyyətin planlı şəkildə aparıldığını göstərdi. Hava limanının açılışı münasibətilə Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan 2021-ci il oktyabrın 26-da Azərbaycan Respublikasına rəsmi səfərə gəldi. Türkiyə Prezidentinin təyyarəsi Füzuli Beynəlxalq Hava Limanında yerə endi. Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident Rəcəb Tayyib Ərdoğanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşıladı.

Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi oldu. Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan hava limanının açılışını bildirən lenti kəsdilər. Füzuli Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edildi. Dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış oldular. Onlara görülən işlər barədə məlumat verildi. Qarabağın hava qapısı adlandırılan, ən müasir səviyyədə inşa edilən və uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metr

803 Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda səfərdə olublar . 20.10.2021 // Azərtac. https: azertag.az/xeber/Prezident_Ilham_Aliyev_ve_birinci_xanim_Mehriban_Aliyeva_Zengilan_rayonunda_seferde_olublar__VIDEO-1904344

804 Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı rayonunda səfərdə olublar. 25.10.2021 // Azərtac. https: azertag.az/xeber/Prezident_Ilham_Aliyev_ve_birinci_xanim_Mehriban_Aliyeva_Qubadli_rayonunda_seferde_olublar-1907922.

olan Füzuli Beynəlxalq Hava Limanı istənilən tip hava gəmisini qəbul edə bilirdi. Beynəlxalq norma və standartlara uyğun şəkildə tikilən hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verirdi. Hava limanının ətrafında geniş abadlıq-quruculuq işləri aparılmışdı. Avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə qülləsinin tikilməsi Füzuli Beynəlxalq Hava Limanında ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanmasını mümkün edirdi. Hava limanında baqaj konveyerləri, qeydiyyat sistemi, VIP zallar, mağazalar, restoranlar və digər zəruri məntəqələr yaradılmışdı. Sərnişinlərin rahatlığı üçün bütün meyarlar gözlənilmişdi.

Dövlət başçılarına Cocuq Mərcanlıda açılacaq Suvenir İstehsalı Müəssisəsinin fəaliyyəti barədə məlumat verildi.

Azərbaycan və Türkiyə prezidentləri Zəngəzur dəhlizinin – Horadiz – Cəbrayıl – Zəngilan – Ağbənd avtomobil yolunun, Zəngilan rayonunda "Dost Aqropark"ın təməlini qoydular.

Oktyabrın 26-da Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəngilanın Ağalı kəndində rəsmi qarşılanma mərasimi oldu. Dövlət başçıları fəxri qarovul dəstəsinin önündən keçdilər. Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış etdilər. Prezident İlham Əliyev dedi:

"Bu gün burada, Zəngilanda olarkən təbii ki, biz Zəngəzur dəhlizi haqqında danışmasaq düzgün olmaz. Zəngilan Şərqi Zəngəzur bölgəsində yerləşir və buradan keçən Zəngəzur dəhlizi bütün Türk dünyasını birləşdirəcək. Həm Azərbaycan, həm Türkiyə Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli addımlar atır. Əminəm ki, bu addımlar yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir".[805]

Prezident Rəcəb Tayyib Ərdoğan isə dedi:

"Buraya gəlməzdən əvvəl Füzulini bir tərəfdən Şuşa, digər tərəfdən də cənub sərhədi boyunca Ağbənd, gələcəkdə isə, İnşallah, Naxçıvan ilə birləşdirəcək yolların inşa edildiyini gördük, işçi qardaşlarımızla görüşdük. Bu yollar bölgədə çoxtərəfli daşımaların əsasını təşkil edəcək. Füzulidə də bildirdiyim kimi, bu qədər qısa müddətdə bölgənin bərpası istiqamətində görülən işlər həm Azərbaycan, həm də regionumuz üçün qürurverici və ümidvericidir.

Azərbaycan bütün dünyaya örnək olacaq inkişaf modeli ilə bu bölgənin inkişafı üçün fəaliyyətini davam etdirir. Burada hər şeydən əvvəl təməlini qoyduğumuz, - bir az əvvəl cənab Prezidentin də dediyi kimi, - istər tunellər, istər yol ötürücüləri, istər avtomobil yolları bərpa işlərinin sürətlə həyata keçirilməsi baxımından

805 Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər. 26.10.2021 // Azərtac. https: azertag.az/xeber/Azerbaycan_ve_Turkiye_prezidentleri_metbuata_birge_beyanatlarla_chixis_edibler_yenilanib_video-1909614.

çox önəmlidir. Bu fəaliyyətə liderlik edən İlham qardaşımı və əməyi keçən hər kəsi ürəkdən təbrik edirəm. Podratçı firmaları təbrik edirəm. Bütün texnika parkları ilə podratçı firmaların ürəkdən çalışması ən yüksək təqdirə layiqdir. Türkiyə olaraq, biz də bu fəaliyyətlərdə üzərimizə düşəni etməkdə, qardaş Azərbaycana bütün imkanlarımızla dəstək olmaqda davam edəcəyik".[806]

Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsinin böyük əhəmiyyəti var idi. Ən müasir tələblərə cavab verən, Qarabağın səma qapısı olan beynəlxalq hava limanının qısa müddətdə və yüksək keyfiyyətlə inşası Azərbaycan dövlətinin qüdrətini göstərməklə yanaşı, işğaldan azad edilmiş rayonların tezliklə dirçəldiləcəyinin və oraya yenidən həyatın qayıdacağının nümunəsi oldu.[807] Bu, Azərbaycanın dünyaya örnək olan inkişaf modelini nümayiş etdirirdi. Hava limanı dinc quruculuq işlərinin sürətli aparılmasından ötrü müxtəlif yüklərin çatdırılmasına kömək edirdi. Əlavə iş yerləri açılırdı. Hava yolu ilə turistlərin bölgəyə səfərləri artacaqdı.

Zəngəzur dəhlizinin – Horadiz – Cəbrayıl – Zəngilan – Ağbənd avtomobil yolunun təməlinin qoyulması da böyük əhəmiyyət daşıyırdı. Türk dünyasını birləşdirəcək, insanların hərəkət edəcəyi, yüklərin daşınacağı Zəngəzur dəhlizi eyni zamanda, Azərbaycan tərəfindən düşmənçiliyin geridə qalması istəyi anlamına gəlməklə və əməkdaşlıq rəmzi olmaqla bütün region ölkələrinə fayda verəcəkdi. Müharibədə parlaq qələbə qazanan Azərbaycanın nəqliyyat kommunikasiyalarının açılmasına, əməkdaşlığa dair təklifləri dərin dövlətçilik ənənəsini, böyük dövlət təvazökarlığını və regionun bütün xalqlarının, ölkələrinin mehriban qonşular kimi yanaşı yaşaması niyyətini göstərirdi.

27.8. Zəfərin birinci ildönümünün bayram edilməsi

Noyabrın 8-də müharibədə qazanılan böyük qələbənin bir ili tamam olurdu. Bu möhtəşəm qələbə ərəfəsində, noyabrın 4-6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "COVID-19-dan sonrakı dünya" mövzusunda növbəti Qlobal Bakı Forumu keçirildi. Forumda dünyanın 40-dan çox ölkəsindən ali və yüksək səviyyəli nümayəndələr, sabiq dövlət və hökumət başçıları, beynəlxalq

806 Yenə orada.

807 Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi olub. Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər. 26.10.2021 // Azərtac. https: azertag.az/xeber/Fuzuli_Beynelxalq_Hava_Limaninin_achilis_merasimi_olub_Prezidentler_Ilham_Aliyev_ve_Receb_Tayyib_Ardogan_achilis_merasiminde_istirak_edibler_yenilanib_video-1908966.

və qeyri-hökumət təşkilatlarının rəsmiləri, eləcə də digər nüfuzlu qonaqlar iştirak edirdilər. Hibrid formatda təşkil edilən toplantıya 300-ə yaxın qonaq canlı və onlayn qaydada qoşulmuşdu.

VIII Qlobal Bakı Forumunu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin açdı. Qeyd etmək lazımdır ki, 2021-ci il Prezident İlham Əliyev tərəfindən 880-ci ildönümü ilə əlaqədar Azərbaycanda "Nizami Gəncəvi İli" elan olunmuşdu.

Zirvə görüşündə çıxış edən Prezident İlham Əliyev bildirdi ki, Qlobal Bakı Forumu beynəlxalq siyasətə aid təxirəsalınmaz və vacib məsələlərin müzakirəsi baxımından aparıcı platformalardan birinə çevrilmişdir. Pandemiyanın yaratdığı şəraitdən danışan dövlət başçısı vurğuladı ki, Azərbaycanda 2021-ci il yanvarın 18-dən regionda ilk ölkələrdən biri olaraq peyvəndləməyə başlanmışdır. Yaşı 18-dən yuxarı olan əhalinin 60%-dən çoxu iki dozanı almışdı. Nisbətən qısa müddət ərzində ümumi çarpayı sayı demək olar ki, 4 min olan 13 yeni dövlət xəstəxanası açılmış və pandemiya əleyhinə mübarizə aparmaq üçün 46 dövlət xəstəxanası ayrılmışdı. Azərbaycanda qapanma yox idi. Yeganə məhdudiyyət ondan ibarət idi ki, daxili məkanlarda maska taxılırdı. Əvvəllər olan qapanmaların yükünü azaltmaq üçün ciddi tədbirlər görülmüşdü. İşini itirmiş, qapanmalardan əziyyət çəkmiş insanlar üçün 2020-ci və 2021-ci illərdə ümumi dəyəri 2,9 milyard ABŞ dolları olan sosial-iqtisadi yardım paketi ayrılmışdı. Qlobal miqyasda Azərbaycan dövləti fəal addımlar atmışdı. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının sədri olaraq 2020-ci ilin aprel və may aylarında Azərbaycanın təşəbbüsü ilə COVID-ə həsr olunmuş xüsusi zirvə görüşü keçirilmişdi. Qoşulmama Hərəkatının sammitində Azərbaycan Respublikası BMT Baş Assambleyasının COVID-ə həsr olunmuş xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etmişdi. Bu təşəbbüs beynəlxalq birliyin mütləq əksəriyyəti tərəfindən dəstəklənmiş və xüsusi sessiya 2020-ci il 3 və 4 dekabr tarixlərində keçirilmişdi. Azərbaycan BMT-nin İnsan Hüquqları Şurasında peyvəndlərlə bərabər, universal çıxışa və peyvəndlərin ədalətli bölgüsünə dair təşəbbüs irəli sürmüşdü, qlobal səviyyədə "peyvənd millətçiliyi" və vaksinlərin ədalətsiz bölgüsü haqqında danışan ölkələrdən idi. Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan 30-dan artıq ölkəyə maliyyə və humanitar yardım etmişdi. Yoxsul ölkələrin dəstəklənməsi üçün Ümumdünya Səhiyyə Təşkilatına könüllü olaraq 10 milyon dollar həcmində maliyyə vermişdi.

Prezident İlham Əliyev daha sonra Ermənistan-Azərbaycan münaqişəsi haqqında danışaraq bildirdi ki, münaqişə artıq həll edilmişdir. Azərbaycan dövləti 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərt-

siz çıxarılmasını tələb edən qətnamələrini özü yerinə yetirmişdi. Dövlət başçısı Ermənistanın avantüralarına, təxribatlarına, müharibənin səbəblərinə, gedişinə və nəticələrinə bir daha aydınlıq gətirdi. Azərbaycan azad edilmiş ərazilərdə dirçəliş işlərini sürətli və sistemli şəkildə aparırdı. Sülh müqaviləsinin hazırlanması üçün Ermənistana bir sıra təkliflər edilsə də, cavab alınmamışdı.[808]

Zirvə görüşündə çıxış edən Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Şefik Caferoviç Azərbaycan Prezidentini və xalqını təbrik etdi. Latviya Prezidenti Eglis Levits videomüraciətində forumun işinə uğurlar arzuladı. Böyük Britaniyanın Azərbaycan Respublikasındakı səfiri Filip Barkley Böyük Britaniya hökuməti və öz adından Qlobal Bakı Forumuna uğurlar arzuladı. Səfir Böyük Britaniya və Şimali İrlandiya Krallığının Baş naziri Boris Consonun müraciətinin mətnini oxudu. Müraciətdə yazılırdı:

"Hörmətli Prezident İlham Əliyev.

Sizə və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin builki Qlobal Bakı Forumunun bütün iştirakçılarına ən xoş arzularımı çatdırmaqdan məmnunam. Ümid edirəm ki, builki tədbir əvvəlkilər qədər uğurlu olacaq.

Gələn il Birləşmiş Krallıq ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi qeyd ediləcək. Son 30 il ərzində əlaqələrimiz inkişaf edib və Birləşmiş Krallıq-Azərbaycan əməkdaşlığı hazırda yüksəliş dövrünü yaşayır...

Birləşmiş Krallıq Qafqaz regionunda sülh və sabitliyi, eləcə də postmünaqişə problemlərinin həllini dəstəkləməyə davam edir. Mən minalar və partlamamış silah-sursatlardan həlak olanlar və yaralananlar barədə xəbərlərdən dəhşətə gəlirəm. Biz Birləşmiş Krallıqda - həm hökumət, həm də Britaniya şirkətləri olaraq – bu problemlərin həlli üçün Azərbaycanın milli minatəmizləmə proqramına və BMT İnkişaf Proqramının mina təmizləmə fəaliyyətinə dəstək göstərməklə mina riskləri barədə məlumatlandırmaya və dünya səviyyəli təcrübəmizi təklif edərək töhfə veririk.

Birləşmiş Krallıq bütün region dövlətlərini, ilk növbədə, Piyada Əleyhinə Mina Qadağası Konvensiyası olmaqla, müvafiq sazişlər imzalamaq istiqamətində də addımlar atmağa çağırır...

Birləşmiş Krallıq Azərbaycanın etibarlı tərəfdaşıdır və bu, belə də qalacaq. Gələcək illərdə tərəfdaşlığımızın davamlı inkişafına ümid edirəm".[809]

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından çıxış edən sabiq Baş nazir Binəli Yıldırım bildirdi ki, 44 günlük müharibədən sonra Azərbaycan illər-

808 VIII Qlobal Bakı Forumu işə başlayıb. Azərbaycan Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib. 04.11.2021 // Azərtac. https: azertag.az/ xeber/ VIII Qlobal Baki Forumu ise baslayib. Azerbaycan Prezidenti Ilham Aliyev Forumun achilish merasiminde istirak edib. Yenilenib- 2 video-1916736.

809 Yenə orada.

dir Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Minsk qrupu tərəfindən həll yolu gözləyərkən bir nəticə əldə etmədikdə torpaqlarında öz qərarını verdi və haqlı mübarizəsini 44 günün içərisində zəfərlə başa çatdırdı, bu haqsızlıq tamamilə aradan qaldırılmış oldu. Əlavə etdi ki, Qarabağ problemi aradan qalxdığına görə Ermənistan, Gürcüstan, Azərbaycan, Türkiyə, Rusiya və İran başda olmaqla, Xəzərin şərqindəki ölkələri də əlavə etməklə regional əməkdaşlığı daha da inkişaf etdirmək olar.

Roma Papası Fransiskin xüsusi müraciəti iştirakçıların diqqətinə çatdırıldı. VIII Qlobal Bakı Forumunun iştirakçılarına xeyir-duasını yetirən Fransisk Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə təsadüf edən bu mühüm toplantını beynəlxalq birlik rəmzi kimi dəyərləndirirdi.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus videobağlantı vasitəsilə çıxış edərək pandemiyaya qarşı mübarizədə Azərbaycanın rolunu yüksək qiymətləndirdi. BMT-nin Cenevrə ofisinin baş direktoru Tatyana Valovaya, Beynəlxalq Olimpiya Komitəsinin rəhbəri Tomas Baxın tapşırığı ilə foruma qatılan Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviç çıxış edərək Azərbaycan Prezidentini təbrik etdilər. Beynəlxalq Valyuta Fondunun direktoru Kristalina Georgiyeva videomüraciətində pandemiya ilə əlaqədar dünya iqtisadiyyatının böyük böhranla üzləşdiyini bildirdi. BMT-nin qlobal təhsil üzrə xüsusi elçisi, Ümumdünya Səhiyyə Təşkilatının Qlobal sağlamlığın maliyyələşdirilməsi üzrə səfiri Qordon Braun da videomüraciətində COVID-19-a, həmçinin iqlim dəyişikliyinə qarşı birgə mübarizənin əhəmiyyətindən danışdı.

Latviyanın sabiq prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa COVID-19-dan sonra dünyanın dəyişəcəyini, bu baxımdan Bakı Forumunun budəfəki mövzusunun gələcəyi müzakirə etmək baxımından əhəmiyyətli olduğunu bildirdi.

2021-ci il üçün "Nizami Gəncəvi beynəlxalq mükafatı" Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusa və BMT-nin Cenevrə ofisinin baş direktoru Tatyana Valovaya verildi.

VIII Qlobal Bakı Forumu işini müxtəlif mövzularda müzakirələrlə davam etdirdi. Panellər formasında təşkil olunan toplantı çərçivəsində "COVID-19-dan sonra yaranan yeni dünya nizamı", "Yeni dünya iqtisadiyyatı", "Yeni dövrdə: sülh, təhlükəsizlik və insan hüquqları"; "İqlim dəyişikliyi ilə mübarizə və qlobal enerji tələbatının qarşılanması", "Səhiyyə və insanların peyvənd edilməsi"; "Qida və qida təhlükəsizliyinin təşviqi"; "Gənclər danışır, biz dinləyirik"; "Şərq Tərəfdaşlığı və onun imkanları" mövzularında, o cümlədən Avropa İttifaqı, Balkanlar və Cənubi Qafqazdakı vəziyyətə dair müzakirələr aparıldı.

Forum pandemiya məsələlərinə həsr edilsə də, keçirildiyi tarix və 44 günlük müharibədə Azərbaycanın qazandığı qələbənin təbrik olunması ilə yadda qaldı.

Toplantı başa çatdıqdan bir gün sonra - noyabrın 7-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərinə səfərə gəldilər. Onlar əvvəlcə Füzuli rayonunda Zəfər yolunun açılışında iştirak etdilər. Dövlət başçısı Daşaltı kəndində məscidin, Şuşa Radio-Televiziya yayım qülləsinin və Şuşa Rayon Mərkəzi Xəstəxanasının təməlini qoydu. Dövlət başçısı və xanımı Heydər Əliyev Fondu tərəfindən Aşağı Gövhər Ağa məscidində və Mehmandarovların malikanə kompleksində aparılan bərpa işləri ilə tanış oldular.

Prezident İlham Əliyev və birinci xanım VIII Qlobal Bakı Forumunun iştirakçıları ilə görüşdülər və Cıdır düzündə oldular.

Zəfər günü – noyabrın 8-də Şuşada Topxana meşəsinin bərpasına start verildi və ağacəkmə aksiyası keçirildi. Topxana meşəsində ağacəkmə aksiyasına başlamaq səbəbsiz olmayıb, dərin rəmzi məna daşıyırdı. Məlum olduğu kimi, Şuşada yerləşən məşhur, əzəmətli palıd, çinar meşəsi - Topxana meşəsinin ermənilər tərəfindən vəhşicəsinə qırılmasına etiraz əlaməti olaraq 1988-ci il noyabrın 17-də Azərbaycan xalqı indiki Azadlıq meydanında ilk böyük mitinqini keçirmişdi. Mitinqin təşkil olunmasında məqsəd xalqın səsini Mərkəzə - Moskvaya çatdırmaq idi. O dövrün respublika hakimiyyətinin qarşısında xalqın adından bir neçə tələb qoyulmuşdu: Topxana meşəsinin qırılması dayandırılsın; Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində respublika hakimiyyətinin səlahiyyətləri bərpa olunsun və s. Lakin bunların heç birinə nail olunmamışdı.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Cıdır düzündə ağac əkməsi ilə başlayan aksiya erməni vəhşiliyinə son qoyulduğunu, işğaldan azad edilmiş ərazilərdə Azərbaycan dövlətinin suveren hüquqlarının bərqərar olunduğunu, meşələrin bərpa ediləcəyinə, ətraf mühitin qorunacağına dair Azərbaycan siyasətinin və yüksək ekoloji mədəniyyətinin bölgəyə yenidən qayıtdığını göstərirdi.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Şuşada hərbçilərin qarşısında çıxış edərək müharibədə qələbəyə gətirən səbəbləri, onun böyük tarixi əhəmiyyətini vurğuladı və ölkə qarşısında dayanan vəzifələrə diqqəti cəlb etdi. Prezident dedi:

"Zəfər Günü bizim bayramımızdır. Bu, Zəfər bayramıdır, bu, rəşadət bayramıdır, bu, ədalət bayramıdır, bu, milli qürur, milli ləyaqət bayramıdır. Biz öz ləyaqətimizi bərpa etdik. Bundan sonra müzəffər ölkə və qalib xalq kimi əbədi yaşayacağıq. Bundan sonra Qarabağda və Zəngəzurda əbədi yaşayacağıq. Əgər Ermənistanda

hər hansı bir qüvvə bizə xor baxsa, hansısa revanşist meyillərə əl atsa, bizim yumruğumuzu görəcəkdir. Bizim yumruğumuz yerindədir".[810]

Beləliklə, işğal illərində ermənilərin barbarcasına dağıtdığı, lakin azad edildikdən sonra qısa müddətdə bərpa edilmiş Şuşada məsciddə azan səsi eşidilmiş, Çıdır düzündə musiqi festivalı, Vaqifin yenidən qurulmuş məqbərəsi qarşısında poeziya günləri keçirilmiş, şeirlər söylənilmiş, viran edilmiş Topxana meşəsində ağaclar əkilmiş və bölgəyə ali Azərbaycan mədəniyyəti gəlmişdi.

Zəfərin birinci ildönümü günündə ölkənin bütün şəhər və rayonlarında şəhidlərin xatirəsi yad edildi, yürüşlər və ağacəkmə aksiyaları keçirildi.

27.9. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi

44 günlük müharibədə Azərbaycanın təkbaşına qazandığı parlaq qələbə həm də türk dünyasının və planetin ədalətli insanlarının qələbəsi idi. Bu qələbə münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi noyabrın 12-də İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşündə iştirakçılar təbrik etdilər.

Zirvə görüşündə Prezident İlham Əliyev, Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan, Qazaxıstan Respublikasının Prezidenti Kasım Jomart Tokayev, Qırğızıstan Respublikasının Prezidenti Sadır Japarov, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Macarıstanın Baş naziri Viktor Orban və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev iştirak edirdilər.

İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının katibliyinin yeni binasının açılış mərasimi oldu.

Zirvə görüşündə Prezident İlham Əliyev "Türk Dünyasının Ali Ordeni" ilə təltif edildi. Ali Ordeni dövlət başçısına Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan təqdim etdi. Qazaxıstan Respublikasının Prezidenti Kasım Jomart Tokayev, Qırğızıstan Respublikasının Prezidenti Sadır Japarov, Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin imzaladıqları qərarda yazılırdı:

810 Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Şuşada hərbçilər qarşısında çıxış edib. 08.11.2021 // Azərtac. https:azertag.az/xeber/Azerbaycan_Prezidenti_Silahli_Quvvelerin_Ali_Bas_Komandani_Ilham_Aliyev_Susada_herbchiler_qarsisinda_chixis_edib_YENILANIB__2_VIDEO-1920698.

"Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Zati-aliləri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi qələbəyə görə Dövlət Başçıları Şurası Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Rəcəb Tayyib Ərdoğanın təklifi ilə Zati-aliləri İlham Əliyevin böyük şərəflə "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi haqqında qərar qəbul etmişdir".[811]

Qazanılan qələbənin böyük tarixi əhəmiyyətini Ali Ordeni Azərbaycan Respublikasının Prezidentinə təqdim edən Prezident Rəcəb Tayyib Ərdoğan belə ifadə etdi:

"Hörmətli Prezident, Əziz qardaşım, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev.

Qətiyyətli rəhbərliyinizlə Qarabağda təxminən otuz il davam edən işğala 44 gün kimi qısa müddətdə son qoyulub. Bu, təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır.

Vətən müharibəsi nəticəsində illərdir tətbiq olunmayan BMT Təhlükəsizlik Şurasının qətnamələri həyata keçirilmişdir. Azərbaycan bu yolla beynəlxalq ictimaiyyətin yaddaşına ədalət mesajını həkk etmişdir.

Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirmişdir. Qarabağın azadlığının rəmzi olan "Xarıbülbül" türk dünyası üçün Zəfərin müjdəçisi olmuşdur.

Qarabağ Zəfəri ilə təkcə işğal altındakı torpaqlar azad edilməyib, eyni zamanda, bölgəmizdə həsrətini çəkdiyimiz davamlı sülh, sabitlik və əməkdaşlığa gedən yolun da önü açılıb".[812]

Azərbaycan tarixinin qürurverici səhifələrindən biri olan bu mükafat təkcə türk dünyasının deyil, dünyadakı ədalətsevər insanların haqq-ədaləti bərpa etmiş Prezident İlham Əliyevə mükafatı idi. Qazandığı qələbə ilə Azərbaycan bütün türk dünyasında milli-mənəvi ruhu yüksəltmiş və gələcək qələbələrin müjdəçisi olmuşdu.

Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Türk Dövlətləri Təşkilatı adlandırıldı. Beynəlxalq təşkilata çevrilmək yolunda atılan bu addımla bərabərhüquqlu olan müstəqil türk dövlətləri və bütövlükdə türk dünyası qarşısında yeni üfüqlər açılırdı.

811 Prezident İlham Əliyevə Türk Dünyasının Ali Ordeni təqdim edilib. 12.11.2021 // Azərtac. https: azertag.az/xeber/Prezident_Ilham_Aliyeve_Turk_Dunyasinin_Ali_Ordeni_teqdim_edilib_VIDEO-1924578.

812 Yenə orada.

27.10. Soçi görüşü

Rusiya tərəfinin təşəbbüsü ilə noyabrın 26-da Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşdə başlıca məqsəd 2020-ci il 9 noyabr tarixli bəyanatın, həmçinin regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası haqqında 2021-ci il 11 yanvar tarixli bəyanatın yerinə yetirilməsinin gedişini müzakirə etmək idi.

V.Putin müharibənin başa çatmasından ötən müddətdə çox iş görüldüyünü, lakin məsələlərin hamısının hələ də nizamlanmadığını dedi[813]. Sərhəddə insidentlər baş vermiş, hər iki tərəfdən insanlar həlak olmuş və yaralanmışdılar. Bir il ərzində az iş görülməmişdi. Ən başlıcası, heç bir irimiqyaslı döyüş əməliyyatları baş vermirdi. Yaxşı monitorinq qrupu yaradılmışdı. Atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə mərkəzi fəaliyyət göstərirdi. Ən əsası o idi ki, gələcəkdə normal dinc həyat üçün şərait yaradılırdı. Ermənistan, Azərbaycan və Rusiya hökumətlərinin baş nazirlərinin müavinləri səviyyəsində üçtərəfli komissiya yaradılmışdı. V.Putin dedi ki, yaxın vaxtlarda nəqliyyat kommunikasiyalarının işə salınması üzrə müvafiq qrupun işi təsdiqlənəcək, həm də hamı üçün uyğun zəruri tədbirlər görüləcəkdir. Onun fikrincə, bütün səylərin məqsədi regionun dirçəldilməsi üçün şəraitin yaradılması, insanların özlərini təhlükəsiz hiss etmələri, təsərrüfat fəaliyyəti ilə normal məşğul olmaları və iqtisadiyyatı inkişaf etdirə bilmələri idi.

Görüşdə çıxış edən Prezident İlham Əliyev Azərbaycan ilə Ermənistan arasında münasibətlərin nizamlanması məsələsində V.Putinin şəxsi iştirakının Azərbaycanda yüksək qiymətləndirildiyini dedi. Ötən bir il ərzində Azərbaycan müharibənin nəticələrinin aradan qaldırılması və kommunikasiyaların bərpası işində maksimum konstruktivlik nümayiş etdirmişdi. Lakin bu, hələlik yerinə yetirilməmiş mühüm məsələlərdən biri idi. Azərbaycan tərəfi kommunikasiyaların açılması və Ermənistan ilə sərhədlərin müəyyən edilməsi mövzusunun müzakirə edilməsini və bu məsələdə Rusiya tərəfinin dəstəyini, o cümlədən məsləhət dəstəyini də çox yüksək qiymətləndirirdi. Ermənistan ilə Azərbaycan arasında sərhəd delimitasiya edilməmişdi. Delimitasiya prosesinə təxirə salınmadan başlamağa hazır olan Azərbaycan dövləti Ermənistan tərəfinə açıq təklif etmişdi ki, qarşıdurmaya son qoymaq, bir-birinin ərazi bütövlüyünü, suverenliyini tanımaq və gələcəkdə qonşular kimi yaşamağı təşviq etmək üçün sülh müqaviləsi üzərində işə başlanılsın.

813 Soçidə Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilib //Azərtac. 26.11.2021. https://azertag.az/xeber/1936316.

Ermənistanın baş naziri N.Paşinyan çıxışında Rusiyanın rolunu yüksək qiymətləndirdi, guya Azərbaycanın Ermənistanın sərhədlərini pozduğunu dedi. Onun fikrincə, guya girovlar və digər saxlanılan şəxslər, hərbi əsirlər problemi də var idi. Bildirdi ki, Ermənistan sərhədlərin demarkasiyası və delimitasiyası prosesinə başlamağa hazırdır, bütün nəqliyyat və iqtisadi kommunikasiyaların açılması, blokadadan çıxarılması mövzusu da çox vacibdir, ölkəsi bu məsələlərin həll edilməsində maraqlıdır. O, münaqişənin Minsk qrupunun həmsədrliyi çərçivəsində aparılmasını istədi.

Prezident V.Putin kommunikasiyaların açılmasında, sərhədlərin delimitasiya və demarkasiyasında maraqlı olduqlarını dedi. Əlavə etdi ki, Azərbaycan və Ermənistan arasında birbaşa ikitərəfli əlaqələr, ümumiyyətlə, prioritetdir. Daha sonra bildirdi ki, Azərbaycan və Ermənistan rəhbərlərinin yaxın vaxtlarda Brüsseldə görüşünü alqışlayır və nə qədər birbaşa ünsiyyət olarsa, bir o qədər yaxşıdır. V.Putin bu barədə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə danışmışdı. Rusiya tərəfi irəliyə doğru hansısa addım atılacağını, bundan sonrakı addımları digər platformalarda da atmağın mümkünlüyünü, digər tərəfdaşların da bu dialoqa cəlb edilməsini müsbət qarşılayırdı. Başlıcası o idi ki, dialoq faydalı olsun.

Görüşün yekununda həmin gün Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin bəyanat imzaladılar[814]. Tərəflər Cənubi Qafqazda sabitliyin, təhlükəsizliyin və iqtisadi inkişafın təmin edilməsi naminə 2020-ci il 9 noyabr və 2021-ci il 11 yanvar tarixli bəyanatların bütün müddəalarının bundan sonra ardıcıl surətdə yerinə yetirilməsinə və dönmədən riayət olunmasına tərəfdar olduqlarını təsdiq edir, bəyanatlardan irəli gələn, həllini gözləyən məsələlərin tezliklə həllinə yönəlmiş birgə səyləri fəallaşdırmaq barədə razılığa gəlirdilər. Bəyanatda regionda vəziyyətin sabitləşməsinə və təhlükəsizliyin təmin edilməsinə Rusiya sülhməramlı kontingentinin mühüm töhfəsi qeyd edilirdi. Tərəflər Azərbaycan-Ermənistan sərhədində sabitlik və təhlükəsizlik səviyyəsinin artırılması üzrə addımlar atmağı və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası, sonradan tərəflərin sorğusu əsasında Rusiya Federasiyasının məsləhət yardımı ilə sərhədin demarkasiyası üzrə ikitərəfli komissiya yaradılması barədə şərtləşirdilər. 2021-ci il 11 yanvar tarixli bəyanata müvafiq olaraq, Azərbaycan Respublikasının, Ermənistan Respublikasının baş nazirlərinin müavinlərinin və Rusiya Federasiyası hökumətinin sədrinin müavininin birgə sədrliyi ilə regionda

814 Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin bəyanatı. 26 noyabr 2021-ci il // Azərtac. 26.11.2021. https://azertag.az/xeber/1936572.

bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası üzrə təsis edilmiş üçtərəfli işçi qrupunun fəaliyyəti yüksək qiymətləndirildi. Regionun iqtisadi potensialının üzə çıxarılması məqsədilə konkret layihələrin tezliklə həyata keçirilməsinin zəruriliyi vurğulanırdı. Rusiya Federasiyası Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşması, Azərbaycan və erməni xalqları arasında etimad mühitinin formalaşması, habelə regionda mehriban qonşuluq münasibətlərinin bərqərar olması məqsədilə bundan sonra da zəruri olan hər cür köməyi göstərməyi öhdəsinə götürürdü.

27.11. Prezident İlham Əliyevin uğurlu Brüssel səfəri: Avropa İttifaqı və NATO müharibədə Azərbaycanın qələbəsini qəbul edir

Prezident İlham Əliyevin dekabrın 15-də Belçika Krallığının paytaxtı Brüsseldə keçirilən Avropa İttifaqının Şərq Tərəfdaşlığının VI Sammitində iştirakı, bu təşkilatın rəhbərləri ilə görüşləri və danışıqların nəticələri, qəbul edilən sənədləri Vətən müharibəsində Azərbaycanın qazandığı qələbənin Avropa İttifaqı tərəfindən qəbul edilməsi oldu.

Sammitin açılışına bir gün qalmış, dekabrın 14-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında 5 saata yaxın davam edən müzakirələr konstruktiv mühitdə keçdi.[815] Şarl Mişel Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasından ötrü səylər etdi. Aparılan danışıqlar praktiki oldu və təfsilatlı xarakter daşıdı. Görüşdə Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması, sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat infrastrukturunun, xüsusilə də dəmiryolu xəttinin çəkilməsi, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi kimi məsələlər müzakirə olundu. Bütün bu məsələlər müharibə başa çatdıqdan sonra Azərbaycan dövlətinin təklifləri idi.

İşğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsində Avropa İttifaqı Azərbaycana texniki yardım göstərməyə hazır olduğunu bildirdi. Ermənistan-Azərbaycan dövlət sərhədinin delimitasiyası ilə bağlı hər iki tərəf müvəqqəti işçi qrupun yaradılması ilə bağlı razılığa gəldilər. Eyni zamanda, kommunikasiya və nəqliyyat xətlərinin açılması məsələsi geniş müzakirə olundu. Ermənistan tərəfi öz ərazisindən dəmiryolu xəttinin tikilməsi ilə bağlı üzərinə düşən öhdəliyi təs-

815 Brüsseldə Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan baş naziri Nikol Paşinyan ilə birgə görüşü olub.14.12.2021 // Azərtac. 15.12.2021 .https://azertag.az/xeber/1951554.

diq etdi. Baş nazir N.Paşinyan bildirdi ki, Ermənistan tərəfi dəmiryolunun tikintisinə tezliklə start verəcəkdir. Tərəflər gömrük və sərhəd nəzarət məsələlərinin qarşılıqlı prinsip əsasında təmin olunması barədə razılığa gəldilər. Yəni, əgər Laçın dəhlizində sərhəd və gömrük postları yox idisə, Zəngəzur dəhlizində də bu postlar olmayacaqdır və ya əksinə. Avtomobil yolunun marşrutunun müəyyən edilməsi ilə bağlı müzakirələrin davam etdirilməsi barədə ümumi razılığa gəlindi. Görüş göstərdi ki, Avropa İttifaqı Azərbaycanın müharibədən sonrakı dövrə dair siyasətini də qəbul edir.

Brüsselə səfər zamanı dekabrın 14-də NATO baş katibinin dəvəti əsasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə alyansın baş katibi Yens Stoltenberq arasında görüş oldu.[816] Təşkilatın Brüsseldəki mənzil-qərargahında baş katib Yens Stoltenberq dövlət başçısı İlham Əliyevi qarşıladı. Bu, Azərbaycan rəhbərinin alyansın mənzil-qərargahına yeddinci səfəri idi. Görüşdə NATO-nun baş katibi Azərbaycanın alyansın dəyərli tərəfdaşı olduğunu dedi və Azərbaycan Silahlı Qüvvələrinin Əfqanıstanda «Qətiyyətli dəstək» əməliyyatlarındakı xidmətini yüksək qiymətləndirdi. Qeyd etdi ki, Azərbaycan sülhməramlıları Əfqanıstanı sonuncu tərk edən hərbi qulluqçular olmuşlar və onlar 120 mindən çox insanın Əfqanıstan hava limanı vasitəsilə təxliyyəsinə töhfə vermişlər. Yens Stoltenberq buna görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan NATO-nun etibarlı tərəfdaşıdır. Azərbaycan hərbçiləri 2002-ci ildən 2021-ci il avqustun sonunadək Əfqanıstanda xidmət etmişdirlər. Söhbət zamanı münaqişədən sonrakı dövrdə regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı və Azərbaycanın Ermənistanla sülh sazişi üzrə danışıqlara hazır olduğu bildirildi. Həmçinin regiondakı təhlükəsizlik məsələləri qeyd olundu. Prezident İlham Əliyev Azərbaycanın NATO üzvü olan ölkələr ilə sıx dostluq və strateji tərəfdaşlıq əlaqələrinin olduğunu qeyd etdi, eləcə də alyansın aparıcı üzv dövlətlərindən olan Türkiyə ilə strateji müttəfiqlik münasibətlərinin mövcud olduğunu dedi. Görüşdə Azərbaycanın 1994-cü ildən NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı ilə tərəfdaşlığının vacibliyi vurğulandı. Bu çərçivədə Azərbaycanın NATO-nun Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planında və digər proqramlarında fəal iştirak etdiyi, Azərbaycan Silahlı Qüvvələri ilə NATO Silahlı Qüvvələri arasında operativ hərbi uyğunlaşmanın inkişaf etdiyi diqqətə çatdırıldı. Eyni zamanda, Azərbaycanın NATO-nun təlimlərində və ikitərəfli əsasda Türkiyə ilə Azərbaycan arasında keçirilən təlimlərdə iştirakı məsələləri ətrafında fikir mübadiləsi aparıldı. Söhbət zamanı, həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı

816 Brüsseldə İlham Əliyev ilə NATO-nun baş katibi Yens Stoltenberq arasında görüş olub. 14.12.2021 // Azərtac. 15.12.2021. https://azertag.az/xeber/1951554.

mühüm rolu qeyd olundu. Azərbaycanın NATO-nun «Qətiyyətli dəstək» missiyasının həyata keçirilməsində regional nəqliyyat və logistika mərkəzi kimi verdiyi töhfələr də təqdir edildi.

Dekabrın 15-də Avropa İttifaqının Şərq Tərəfdaşlığının VI Sammitində çıxış edən dövlət başçısı uğurla inkişaf edən Azərbaycan – Avropa İttifaqı əlaqələrinə diqqət çəkərək, Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında 2018-ci ildə paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədinin əhəmiyyətini vurğuladı. Azərbaycanla Avropa İttifaqı arasında yeni tərəfdaşlıq sazişi üzərində işin 90%-dən çoxunun artıq başa çatdırıldığını bildirən Prezident İlham Əliyev sənədin qalan hissəsinin qarşıdan gələn dövr ərzində aparılacaq danışıqlar nəticəsində yekunlaşdırılacağına ümidvar olduğunu ifadə etdi. Prezident Azərbaycanın Avropa İttifaqının 9 üzv dövləti yəni, quruma üzv ölkələrin üçdə biri ilə strateji tərəfdaşlığa dair sənədlər imzaladığını vurğuladı. İkitərəfli əsasda imzalanmış bu strateji tərəfdaşlıq sənədləri əlaqələrin xarakterini nümayiş etdirirdi. Dövlət başçısı vurğuladı ki, əvvəlki illərdə Ermənistan rəhbərliyi adətən beynəlxalq tədbirlər zamanı Azərbaycana qarşı əsassız, ittiham xarakterli çıxışlar edirdi. Bu dəfə isə belə bir hal baş verməmişdi. Belə yanaşma müsbət hal idi. Bu isə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması üçün münbit zəminin yarandığını göstərirdi.

Prezident İlham Əliyev dedi ki, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın özü tərəfindən hərbi-siyasi yollarla həll edilmişdir. Dağlıq Qarabağ münaqişəsi artıq yoxdur və gələcəyə baxmaq lazımdır.

Dövlət başçısı İlham Əliyev ATƏT-in Minsk qrupunun roluna toxunaraq 28 il ərzində aparılan danışıqlarda hər hansı bir nəticənin hasil olmadığını diqqətə çatdırdı. Azərbaycan Minsk qrupundan yeni geosiyasi reallığa uyğun cavab gözləyir və belə hesab edir ki, Minsk qrupu tərəfindən Ermənistanla Azərbaycan arasında sülh sazişinin hazırlanması, sərhədlərin delimitasiyası, insanlar arasında təmasların yaradılması, etimad quruculuğu tədbirləri və digər məsələlərdə kömək göstərilə bilər.

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə minalar məsələsinə toxunaraq Azərbaycanın mülki vətəndaşlarının minalardan əziyyət çəkdiyini və 200-ə yaxın insanın mina partlaması nəticəsində həlak olduğunu və ya yaralandığını bildirdi. Avropa İttifaqı və üzv dövlətlər tərəfindən Azərbaycana mina probleminin aradan qaldırılması üçün texniki və maliyyə yardımının göstərilməsinin vacibliyini diqqətə çatdırdı.

Ölkə rəhbəri, eyni zamanda, Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsindəki əməkdaşlığı qeyd edərək, bu münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını bildirdi. Cənub Qaz Dəhlizinin XXI əsrin ən böyük infrastruk-

tur layihələrindən biri olduğunu vurğulayan Prezident İlham Əliyev bu layihənin son komponenti olan Trans-Adriatik xəttinin işə salınması ilə Azərbaycan qazının Avropa məkanına çatdırıldığını söylədi. Azərbaycan qazı artıq Avropa İttifaqının üç ölkəsinə – İtaliya, Yunanıstan və Bolqarıstana çatdırılırdı. Gələcəkdə Azərbaycan istehsal etdiyi qazın ixrac coğrafiyasını Avropa İttifaqının digər üzv ölkələrinə genişləndirmək niyyətində idi. Prezident Azərbaycan qazının etibarlı və yeni mənbə olaraq Avropa İttifaqı bazarına çatdırıldığını vurğulayaraq bildirdi ki, baş verən son hadisələr də enerji təhlükəsizliyi baxımından şaxələndirmənin vacibliyini göstərir.

Dekabrın 15-də Şərq Tərəfdaşlığının VI Sammitinin yekunlarına dair birgə bəyannamə qəbul edildi.[817] Şərq Tərəfdaşlığı ölkələri və Avropa İttifaqına üzv dövlətlərin qəbul etdiyi birgə bəyannamədə Avropa İttifaqı Şərq Tərəfdaşlığının bütün tərəfdaş ölkələrinin müstəqilliyi, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyünə öz dəstəyini ifadə edirdi. Eyni zamanda, Şərq Tərəfdaşlığı regionunda mehriban qonşuluq münasibətlərinə, etimad quruculuğu tədbirlərinə, regional əməkdaşlığa, nəqliyyat əlaqələrinin gücləndirilməsinə dəstək ifadə olunurdu. Bütün bunlar Azərbaycanın postmünaqişə gündəliyinə tamamilə uyğun idi. Sənəddə Şərq Tərəfdaşlığı regionunda münaqişələrdən əziyyət çəkmiş əhaliyə yardımın vacibliyi qeyd olunurdu. Bəyannamədə Azərbaycanla Avropa İttifaqı arasında yeni ikitərəfli müfəssəl sazişlə bağlı aparılan danışıqlarda əldə edilmiş tərəqqi, Cənub Qaz Dəhlizi layihəsinin başa çatması alqışlanırdı. Qeyd olunurdu ki, Cənub Qaz Dəhlizi Avropaya qaz mənbələrinin və marşrutunun şaxələndirilməsi istiqamətində mühüm addımdır. Bununla da Avropa İttifaqı Azərbaycanın köməyi ilə həyata keçirilmiş qlobal layihəyə öz dəstəyini bir daha ifadə edirdi. Sənəddə, həmçinin bütün ölkələrin peyvəndlərdən bərabər səviyyədə istifadə etməsinin vacibliyi qeyd olunurdu. Bununla da Avropa İttifaqı faktiki olaraq Qoşulmama Hərəkatının sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "peyvənd millətçiliyi"nə qarşı mövqeyinə dəstəyini ifadə edirdi.

Azərbaycan Respublikası bəyannamənin Belarus Respublikasının daxili işlərinə aid olan bəndinə qoşulmadı. Bununla Azərbaycan dövləti bir daha nümayiş etdirdi ki, ölkələrin suverenliyinə hörmət, daxili işlərinə müdaxilə edilməməsi onun üçün qırmızı xətdir və Azərbaycan insan hüquqları, humanitar məsələlərlə bağlı siyasiləşdirilmiş yanaşmanı, ikili standartları qəbul etmir, eləcə də öz dostlarını heç vaxt darda qoymur.

817 Brüsseldə keçirilmiş Şərq Tərəfdaşlığının VI Sammitinin yekunlarına dair birgə bəyannamə qəbul edilib 16.12.2021 // Azərtac. 16.12.2021. https://azertag.az/xeber/1951555.

Brüssel səfəri Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasətinin uğurlarından biri oldu. Səfər, keçirilən görüşlər və qəbul edilən bəyanat Azərbaycan Respublikasının müharibədən sonrakı siyasətinin düzgün qurulduğunu, Avropa İttifaqı və NATO tərəfindən qəbul edildiyini göstərdi.

***

Fəsildə araşdırılan məsələlərdən aydın olur ki, dövlət başçısı Kəlbəcər və Laçın rayonlarına səfər edərək infrastruktur obyektlərini açmış, Laçın Beynəlxalq Hava Limanının təməlini qoymuşdur.

Şuşaya növbəti səfəri zamanı Prezident İlham Əliyev bir sıra mədəniyyət obyektlərinin açılışını etmişdir. Vaqifin bərpa olunan məqbərəsinin qarşısında keçirilən poeziya günlərinin açılışında nitq söyləyən ölkə rəhbəri görüləcək işlər barədə danışmışdır. Poeziya günləri Azərbaycan mədəniyyət həyatının mühüm hadisələrindən biri olmuşdur.

Dövlət başçısının BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində nitqi müharibədən sonra Azərbaycan dövlətinin siyasətinin bir daha bəyan edilməsi baxımından əhəmiyyətli olmuşdur. Dünya Azərbaycan həqiqətlərini eşitmişdir.

Sentyabrın 27-də – Anım günündə Prezidentin birinci xanımın və hərbçilərin əllərində şəhid portretlərini tutaraq yürümələri milli iradə, milli qətiyyət, milli qeyrət və milli yenilməzlik rəmzi olmuşdur.

Dövlət başçısının işğaldan azad olunmalarının bir illiyi günündə Suqovuşan, Cəbrayıl, Hadrut, Zəngilan və Qubadlıya səfərləri zamanı bir sıra infrastruktur və digər obyektlərin təməllərinin qoyulması dirçəliş işlərinin planlı surətdə aparıldığını göstərmişdir. Görülən işlər dirçəliş prosesində dövlətin qəti iradəsini nümayiş etdirmişdir.

Qısa müddətdə tikilən və böyük strateji əhəmiyyət daşıyan Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak etmək üçün Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfər etmişdir. Səfər zamanı prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan bir sıra layihələrin və obyektlərin təməlini qoymuşlar.

Zəfərin bir illiyi ərəfəsində Azərbaycanda VIII Qlobal Bakı Forumu keçirilmişdir. Prezident İlham Əliyev toplantıda parlaq nitq söyləmişdir. Forum pandemiyaya qarşı mübarizə məsələlərinə həsr olunsa da, Azərbaycanın qələbəsi iştirakçılar tərəfindən təbrik edilmiş və müxtəlif mövzularda müzakirələr aparılmışdır.

Azərbaycan milləti noyabrın 8-də qələbənin bir illiyini bayram etmişdir. Həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Daşaltı kəndində məscidin təməlini qoymuşlar. Dövlət başçısı Şuşada hərbçilər qarşısında çıxış etmişdir. Cıdır düzündə bir zamanlar ermənilər tərəfindən vəhşicəsinə qırılmış Topxana meşəsinin bərpasına başlamaq anlamına gələn ağaclar əkilmişdir.

Müharibədə Azərbaycan dövlətinin qazandığı qələbə bütün türk dünyasının və dünyadakı ədalətsevər insanların qələbəsi olmuşdur. Bununla türk dünyasının milli-mənəvi ruhu daha da yüksəlmişdir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının İstanbulda keçirilən VIII Zirvə görüşündə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilmişdir. Zirvə görüşündə Əməkdaşlıq Şurası Türk Dövlətləri Təşkilatı adlandırılmışdır. Bununla da bərabər olan qardaş türk dövlətləri və türk dünyası qarşısında yeni perspektivlər açılmışdır.

Rusiya Federasiyasının təşəbbüsü ilə Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti Soçi şəhərində görüşüb müharibənin başa çatmasından keçən müddət ərzində yaranmış şəraiti müzakirə etmişlər. Görüşün sonunda birgə bəyanat qəbul olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqının Şərq Tərəfdaşlığının VI Sammitində iştirak etmək məqsədi ilə Brüssel şəhərinə səfəri, keçirdiyi görüşlər, toplantıdakı nitqi, yekun bəyanat, NATO qərargahındakı görüşü 44 günlük müharibədə Azərbaycan dövlətinin qazandığı parlaq qələbənin bu təşkilatlar tərəfindən qəbul edildiyi anlamına gəlir.

NƏTİCƏ

Ümumiyyətlə, 2003-2021-ci illər Azərbaycan Respublikasının siyasi tarixinin kompleks və sistemli araşdırılmasından aşağıdakı ümumiləşdirilmiş elmi-nəzəri nəticələr çıxarmaq olar.

Azərbaycan Respublikasının Baş naziri İlham Əliyevin 2003-cü ildə Prezident seçilməsi ilə ölkə həyatında yeni inkişaf mərhələsi başlamışdır. Ümummilli lider Heydər Əliyev əgər Azərbaycan dövlətini qurmuş və möhkəm təməllər üzərində oturtmuşdusa, Prezident İlham Əliyev qarşıya qoyulan başlıca məqsədi ölkəni müasirləşdirmək və daha da gücləndirməklə rəqabətə davamlı etmək, vətəndaşlar üçün bərabər imkanlar və daha yaxşı həyat şəraiti yaratmaq, dövlətin müdafiə qüdrətini artırmaq və Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsini həll etmək kimi müəyyənləşdirmişdir. Müasirləşmə Azərbaycan dövlətinin beynəlxalq rəqabətliliyini artırmaqda, millətin həyat səviyyəsini daha da yaxşılaşdırmaqda və işğal altında olan ərazilərin azad edilməsində bir vasitə olmuşdur.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin vəfatı ölkə, millət və Azərbaycan dövlətinin dostları üçün ağır itki olsa da, onun əsasını qoyduğu siyasətin davam etdirilməsi vətəndaşlarda, qonşu ölkələrdə rahatlıq, gələcəyə nikbinlik və əminlik yaratmışdır. Prezident İlham Əliyevin rəhbərliyi altında dövlətin daha da gücləndirilməsindən ötrü geniş tədbirlər müəyyənləşdirilmişdir. İlk növbədə, ölkədə siyasi sistemin təkmilləşdirilməsi sahəsində islahatlar aparılmışdır. Parlament seçkilərində tətbiq edilən proporsional və majoritar seçki sistemləri qarışıqlıq yaratdığından yalnız majoritar sistemə keçilmişdir. Qanunverici orqana 2005-ci ildə majoritar sistem əsasında keçirilən seçkilərin nəticəsində müxtəlif partiyaların nümayəndələrinin təmsil olunduğu çoxpartiyalı parlament formalaşmışdır.

Ölkə qarşısında dayanan başlıca məqsəd və vəzifələri yerinə yetirmək üçün fəal xarici siyasət xətti yürüdülmüşdür. Prezident İlham Əliyevin xarici ölkələrə səfərləri zamanı ikitərəfli qarşılıqlı münasibətləri yeni keyfiyyət mərhələsinə çıxaran vacib sənədlər imzalanmış və müqavilə-hüquq bazası möhkəmləndi-

rilmişdir. Azərbaycan dövlətinin dostlarının, tərəfdaşlarının sayı artmış və beynəlxalq mövqeləri güclənmişdir.

Azərbaycanın beynəlxalq nəqliyyat-kommunikasiya qovşağına çevrilməsindən ötrü geniş diplomatik-siyasi fəaliyyət göstərilmiş və Bakı – Tbilisi – Qars dəmiryolu xəttinin təməli qoyulmuşdur. Bununla da ərazisinin bir sıra ölkələrdən kiçik və əhalisinin az olmasına baxmayaraq, Azərbaycan Respublikasının dünyanın ikinci iqtisadi güc mərkəzi olan Avropa İttifaqı, yüksəlməkdə olan, bir zamanlar Napoleonun "Asiyanın yatmış aslanı" adlandırdığı Çin və Cənub-Şərqi Asiya ölkələri arasında vacib tranzit, körpü rolunu oynaması istiqamətində tarixi addım atılmışdır. Beynəlxalq fəaliyyətini daha da genişləndirən Azərbaycan dövlətinin birləşdirici dünya gücü halına gəlməsindən ötrü tədbirlər görülmüşdür. Səmərəli faydalı əməkdaşlıq qurulmuşdur.

Azərbaycan xalqının Ümummilli liderinin vəfatından sonra onun irsini qoruyub saxlamaq, gənc nəslə təbliğ etmək və yaşatmaq məqsədi ilə Heydər Əliyev Fondu yaradılmışdır. Ölkənin birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Fond təhsil, səhiyyə, gənclərin fiziki sağlamlığı, Azərbaycan haqqında, işğalçı Ermənistanın Xocalıda törətdiyi soyqırımına dair gerçəklərin dünyada tanıdılması sahəsində fəaliyyət göstərmişdir. Geniş beynəlxalq əlaqələr quran və dünyanın müxtəlif ölkələrində xeyriyyə işlərində iştirak edən Fondun fəaliyyəti rəğbətlə qarşılanmışdır. Belə fəaliyyət "mədəniyyət diplomatiyası" və "zərif, yumşaq güc" kimi Azərbaycan dövlətinin qarşıya qoyduğu başlıca məqsədə – işğal altında olan ərazilərin azad edilməsində, uydurma erməni təbliğatına ağır zərbə vurulmasında özünəməxsus rol oynamışdır.

Ölkənin ictimai-siyasi həyatında mühüm hadisə 2008-ci ildə rəqabət mühitində azad, ədalətli, bərabər, demokratik və şəffaf bir şəraitdə keçirilən prezident seçkiləri olmuşdur. Seçicilər İlham Əliyevə yenidən etimad göstərməklə sabit, davamlı inkişafa və gələcəyə səs vermişlər. Bundan sonra da ölkənin müasirləşdirilməsi və dövlətin qüdrətinin artırılması işləri davam etdirilmişdir. Aparılan islahatlardan, inkişafdan doğan tələbat və dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi zərurəti konstitusiyada əlavə və dəyişiklikləri irəli sürmüşdür. 2009-cu ildə keçirilən referendumda təklif edilən əlavə və dəyişikliklər dəstəklənmişdir. Azərbaycan Respublikası Prezidentinin seçilməsinin iki müddətlə məhdudlaşdırılmasının aradan götürülməsi ən vacib dəyişikliklərdən biri olmuşdur.

Azərbaycan Respublikası türk dövlətləri arasında əməkdaşlığın yeni formatda möhkəm təməllər üzərində qurulmasından ötrü səylər göstərmişdir. Türk Dövlətləri Şurası qarşılıqlı münasibətləri yeni keyfiyyət mərhələsinə çıxarmışdır. Türk xalqları və dövlətləri arasında münasibətlərin möhkəmləndirilməsində xüsusi xidmətləri olan Prezident İlham Əliyev beynəlxalq toplantılarda

onların haqq işini qətiyyətlə müdafiə etməklə gələcək türk dövlət və ictimai-siyasi xadimləri üçün bir örnək yaratmışdır. Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində Praqada keçirilən zirvə görüşündə Ermənistan rəhbəri Türkiyə əleyhinə uydurma fikirlər səsləndirdikdə, Prezident İlham Əliyev "Türkiyə burada yoxdur, mən varam" deyərək, tutarlı cavab verməklə bütün türk dünyası tarixində bir ilk yaradaraq gələcək dövlət və ictimai xadimlərə belə vəziyyətlərdə necə davranmaq nümunəsi göstərmişdir.

Azərbaycan sivilizasiyalararası, mədəniyyətlərarası dialoqun keçirildiyi məkana çevrilmişdir. Dünyanın görkəmli din xadimləri Bakıda toplantılara qatılaraq fikir mübadiləsi etmiş və ölkədə müxtəlif konfessiyalar üçün yaradılmış təcrübəni öyrənmişlər. Dünyada qarşıdurmaların artdığı bir zamanda Azərbaycan modelinin dünyaya təqdim edilməsi birgəyaşayış qaydalarını bilmək baxımından əhəmiyyətli olmuşdur. Bu toplantılar eyni zamanda Azərbaycan dövlətinin qarşısına qoyduğu başlıca məqsədə – işğala son qoymağa xidmət etmişdir.

Ölkədə aparılan çoxsahəli geniş və dərin islahatlar öz bəhrəsini vermiş, dövlət daha da qüdrətli olmuş, əhalinin həyat şəraiti yaxşılaşmışdır. Dövlət hakimiyyətinin qanadları, xalq və hakimiyyət arasında sıx birlik möhkəmlənmişdir.

IV çağırış Azərbaycan Respublikası Milli Məclisinə 2010-cu ildə keçirilən seçkilər ölkənin ictimai-siyasi həyatında mühüm səhifələrdən birini təşkil etmişdir. Təkcə müxtəlif siyasi partiyaların deyil, ölkənin görkəmli elm, təhsil və mədəniyyət xadimlərinin nümayəndələri də müstəqil olaraq Milli Məclisə seçilmişlər. Parlamentin ilk iclasında geniş nitq söyləyən Prezident İlham Əliyev ölkənin keçdiyi yolun başlıca xüsusiyyətlərini, aparılan islahatların məqsədlərini izah etmiş, daxili və xarici siyasət sahəsində qarşıda dayanan vəzifələri müəyyənləşdirmiş, bir daha bildirmişdir ki, başlıca məqsəd işğal altında olan torpaqların azad edilməsidir.

Beynəlxalq fəaliyyət daha da genişləndirilmişdir. Dövlət başçısının yürütdüyü uğurlu xarici siyasət nəticəsində 155 dövlətin səsi ilə Azərbaycan Respublikası 2011-ci ildə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Bu quruma üzv seçilməsi Azərbaycan dövlətinə və Prezidentinə olan inam, etimad, etibarın və yüksək beynəlxalq nüfuzun göstəricisi olmuşdur. Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasının iclasına sədrlik edərək dünyanı narahat edən ən vacib məsələlər barəsində geniş nitq söyləmiş, beynəlxalq terrorizmə qarşı mübarizədə səyləri birləşdirməyin vacibliyini bildirmiş, eyni zamanda Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin uzun illərdən bəri həll edilmədiyini, Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin yerinə yetirilmədiyini, bunun qurumun nüfuzuna mənfi təsir etdiyini vurğulamışdır. Təhlükəsizlik Şurasında iki dəfə sədrliyi müddətində

Azərbaycan dövlətinin təşəbbüsü ilə dünyanın ən vacib məsələləri müzakirə olunmuş və müvafiq qətnamələr qəbul edilmişdir. Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlük, Prezident İlham Əliyevin quruma sədrlik edərək nitq söyləməsi Azərbaycan tarixində qürurverici bir ilk kimi diplomatiyanın parlaq səhifələrindən biri olmuşdur.

Ölkədə siyasi islahatlar dərinləşdirilmişdir. Eks-prezidentlər haqqında qanunun qəbul edilməsi ilə dövlətçilikdə yeni ənənə və siyasi mədəniyyətin əsası qoyulmuşdur. Bu qanun Azərbaycan cəmiyyətində birliyin daha da möhkəmləndirilməsində mühüm rollardan birini oynamışdır.

Dövlətin və millətin qarşısında dayanan başlıca məqsədə nail olmaqdan ötrü digər vacib addımlar atılmışdır. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi uzunmüddətli strategiyanın tərkib hissəsi kimi kosmosa Azərbaycan Respublikasının peykləri buraxılmışdır. Ölkə kosmik klubun üzvü olmuşdur. Peyklərin fəaliyyəti Azərbaycan dövlətinin informasiya təhlükəsizliyinin möhkəmləndirilməsində mühüm vasitələrdən biri, eyni zamanda iqtisadi və kommersiya baxımından faydalı olmuşdur. Peyklər torpaqların işğaldan azad edilməsi prosesində ölkəyə bir sıra üstün imkanlar vermişdir.

2013-cü ildə keçirilən prezident seçkiləri ölkə həyatında ən mühüm hadisə olmuşdur. Azərbaycan xalqı Prezident İlham Əliyevə yenidən etimad göstərməklə həm əvvəlki illərdə yürüdülən siyasətə, həm də tərəqqiyə, sabitliyə, davamlı inkişafa səs vermişdir. Andiçmə mərasimində nitq söyləyən dövlət başçısı ölkə qarşısında dayanan başlıca məqsədin işğal altında qalan torpaqların azad edilməsi olduğunu vurğulamış, bildirilmişdir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir.

Dövlət başçısının səyləri nəticəsində bir neçə beynəlxalq layihənin əsası qoyulmuş və həyata keçirilməsinə başlanılmışdır. Cənub Qaz Dəhlizi, TAP və TANAP layihələrinin icrasına başlanılması Azərbaycan Respublikasının Avropanın enerji təhlükəsizliyində yerini möhkəmləndirmiş və rolunu artırmışdır. Azərbaycan etibarlı tərəfdaş ölkə imicini daha da gücləndirmişdir.

V çağırış Azərbaycan Respublikası Milli Məclisinə 2015-ci ildə keçirilən seçkilər ölkənin ictimai-siyasi həyatında vacib yer tutmuşdur. Majoritar seçki sistemi əsasında formalaşan parlamentə müxtəlif siyasi partiyaların üzvləri, o cümlədən heç bir partiyanın üzvü olmayan nüfuzlu elm, təhsil və mədəniyyət xadimləri də seçilmişlər. Parlamentin ilk iclasında nitq söyləyən Prezident İlham Əliyev ölkənin daxili və xarici siyasətinin qarşısında dayanan ən zəruri məsələləri diqqətə çatdırmış, təcavüzkar Ermənistan tərəfindən işğal altında saxlanılan ərazilərin azad edilməsinin başlıca məqsəd olduğunu bir daha bəyan etmişdir.

Bildirmişdir ki, Azərbaycan dövləti bütün vasitələrlə torpaqlarını işğalçılardan azad edəcəkdir.

İşğalçı Ermənistan münaqişənin həllindən ötrü yaradılmış Minsk qrupu çərçivəsində danışıqlardan boyun qaçırmış, 2016-cı ilin aprelin əvvəllərində Xocavənd-Füzuli, Tərtər-Ağdərə-Ağdam istiqamətində qanlı təxribatlar törədərək mülki obyektləri dağıtmış və bir neçə dinc sakini öldürmüşdür. Təxribatlara son qoyulmasına dair Azərbaycan dövlətinin xəbərdarlıqları nəticə vermədiyindən işğalçı ölkəyə qəti cavab verilməsi barədə qərar qəbul edilmişdir. Azərbaycan Ordusunun hücumu nəticəsində qısa müddət ərzində düşmən darmadağın edilmiş və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində normal yaşayışı təmin etməyə imkan verən strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi işğalçılardan azad edilmişdir. Aprel döyüşlərində Azərbaycanın qələbəsi təkcə hərbi deyil, eyni zamanda iqtisadiyyatın, səmərəli dövlət idarəçiliyinin, cəmiyyətin sıx birliyinin, millətin yüksək milli-mənəvi və psixoloji ruhunun qələbəsi olmuşdur. Bu qələbədən sonra Ermənistan danışıqlar masası arxasına qayıtmağa məcbur olmuşdur.

Hərbi əməliyyatların gedişində Türkiyə və Pakistan Azərbaycanın haqq işini dəstəklədiklərini qəti şəkildə bəyan etmiş, Gürcüstan, Belarus və digər dövlətlər münaqişənin ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduqlarını bildirmişlər. Aprel zəfəri gələcək qələbələr üçün baş məşq olmuşdur.

Döyüşlər dayandırıldıqdan sonra Prezident İlham Əliyev Cocuq Mərcanlı kəndinin bərpasına dair tədbirlər haqqında sərəncam imzalamışdır. Qısa müddət ərzində kənddə yaşayış evləri tikilmiş, müasir infrastruktur yaradılmış və yol inşa edilmişdir, Şuşadakı Aşağı Gövhər ağa məscidinin tipində məscid tikilmişdir. Cocuq Mərcanlının bərpası Qarabağa böyük qayıdışın əsasını qoymuşdur. Bir daha əmin olunmuşdur ki, Azərbaycan dövləti ərazilərinin işğal altında qalması ilə barışmayacaq, onu azad edəcək və yenidən quraraq məcburi köçkünlərin daimi yaşayış yerlərinə təhlükəsiz qayıtmasını təmin edəcəkdir.

Ölkənin inkişaf tələbinə uyğun olaraq siyasi sistemin təkmilləşdirilməsindən ötrü keçirilən konstitusiya referendumu nəticəsində əsas qanuna bir sıra əlavə, düzəliş və dəyişikliklər edilmişdir. Azərbaycan Respublikası Milli Məclisinin vaxtından əvvəl buraxılması, növbədənkənar prezident seçkilərinin keçirilməsi və vitse-prezidentlik institutunun yaradılması təsbit edilmişdir. Həm ölkə daxilində, həm də beynəlxalq aləmdə geniş ictimai-siyasi, humanitar fəaliyyəti ilə tanınmış Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bir müddət sonra Birinci vitse-prezident təyin edilmişdir.

Prezident İlham Əliyevin səyləri, Azərbaycan, Gürcüstan və Türkiyə arasında səmərəli əməkdaşlıq nəticəsində Bakı-Tbilisi-Qars dəmiryolu xətti istifa-

dəyə verilmişdir. Bununla da Azərbaycan Avropa və Asiyanı birləşdirən mühüm beynəlxalq məntəqəyə, nəqliyyat-kommunikasiya qovşağına çevrilmiş, dünya siyasətində yeri möhkəmlənmiş və rolu artmışdır.

Bir sıra beynəlxalq və daxili şərtlər səbəbindən 2018-ci il aprelində növbədənkənar prezident seçkiləri keçirilmişdir. Çoxlu namizədin iştirak etdiyi və bərabər imkanların yaradıldığı seçkilərdə seçicilər yenidən görkəmli dövlət və siyasi xadim İlham Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçmişdir. Ölkə vətəndaşları bu dəfə də sabit, davamlı inkişafa və tərəqqiyə səs vermişdir. Andiçmə mərasimində etdiyi nitqində dövlət başçısı torpaqların bütün vasitələrlə işğaldan azad ediləcəyini bir daha bəyan etmişdir. Bu məqsədlə hazırlıq işləri sürətləndirilmişdir.

Təcavüzkar Ermənistan təxribatlarını Naxçıvan Muxtar Respublikası istiqamətində də davam etdirmişdir. Cavab olaraq Azərbaycan Ordusunun həyata keçirdiyi Günnüt əməliyyatı nəticəsində düşmən işğal etdiyi bir sıra ərazilərdən qovulmuşdur. Bununla da hərbi-strateji əhəmiyyətli İrəvan – Keşişkənd (Yeğeqnadzor) – Görus – Laçın – Xankəndi avtomobil yoluna nəzarət etmək imkanı qazanılmışdır. Təcavüzkar ölkəyə ağır zərbənin vurulduğu aprel döyüşləri torpaqların işğalçılardan azad edilməsində Azərbaycan dövlətinin qəti əzmini bir daha göstərmiş və beynəlxalq mövqelərini möhkəmləndirmişdir.

Müsəlman Şərqinin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi 2018-ci ildə tamam olmuşdur. Cümhuriyyətin yubileyinin keçirilməsi barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncama uyğun olaraq ölkədə geniş tədbirlər həyata keçirilmiş və mayın 28-də Heydər Əliyev Mərkəzində qəbul təşkil edilmişdir. Yubileyin keçirilməsi Azərbaycan Xalq Cümhuriyyəti irsinə verilən yüksək diqqət və qayğının göstəricisi olmuşdur. Qəbulda nitq söyləyən ölkə rəhbəri Cümhuriyyətin qurulması, həyata keçirdiyi tədbirlər, süquta uğraması, sovet dövründə Azərbaycanın keçdiyi yol, Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında 1990-cı ilin noyabrında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiya iclasında dövlət bayrağı kimi qəbul edilməsi, dövlət müstəqilliyinin bərpasından sonra ölkədə baş verən prosesləri və b. məsələləri geniş təhlil etmiş, qarşıda dayanan vəzifələri bəyan etmiş, bir daha bildirmişdir ki, başlıca məqsəd torpaqların işğalçılardan azad edilməsidir.

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin 100 illiyi ölkədə böyük təntənə ilə bayram edilmişdir. 2018-ci il sentyabrında Milli Məclisdə dünyanın müxtəlif ölkələrindən parlament sədrlərinin və nümayəndə heyətlərinin iştirakı ilə keçirilən iclasda nitq söyləyən Prezident İlham Əliyevin müsəlman Şərqinin ilk demokratik cümhuriyyətinin fəaliyyətini və dövlət müstəqilliyinin bərpasına

gətirən yolu, Ümummilli lider Heydər Əliyevin xüsusi xidmətlərini, Ermənistanın hərbi təcavüzünün nəticələrini geniş təhlil etməsinin və Azərbaycan dövlətinin işğalla heç bir zaman barışmayacağını bir daha bildirməsinin dünya ölkələrinin parlamentlərinə təsir baxımından əhəmiyyəti olmuşdur.

Ölkədə dərinləşdirilən ardıcıl struktur və kadr islahatları öz bəhrəsini vermişdir. İdarəçilik çevik, səmərəli olmuş, iqtisadiyyatda inkişaf baş vermiş və əhalinin həyat şəraiti yaxşılaşmışdır.

Qarşıda dayanan başlıca məqsədə nail olmaq və qanunvericilik orqanının fəaliyyətini ölkədə aparılan islahatların sürətinə uyğunlaşdırmaq niyyəti ilə 2020-ci il fevralında majoritar qaydada növbədənkənar parlament seçkiləri keçirilmişdir. Seçkilər nəticəsində Yeni Azərbaycan Partiyası parlamentdə yenə də çoxluq qazanmışdır. İkinci yeri ölkənin görkəmli elm, təhsil və mədəniyyət xadimləri olan müstəqil namizədlər tutmuşdur. Parlamentdə digər siyasi partiyaların da namizədləri təmsil olunmuşlar. Parlament sədrinin müavinləri, komitə sədrləri və müavinləri vəzifələrinə müstəqillərin və digər siyasi partiyaların nümayəndələri seçilmişdir. Bu, ölkədə yeni siyasi mədəniyyətin formalaşması istiqamətində atılan addımlardan biri olmuşdur. Milli Məclisin ilk iclasında nitq söyləyən Prezident İlham Əliyev bildirmişdir ki, başlıca məqsəd təcavüzkar Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarının azad edilməsidir.

Ermənistanın baş naziri N.Paşinyan siyasi avantüralarını davam etdirərək danışıqların formatını dəyişdirməyə səy göstərmiş, Azərbaycanın işğal edilmiş ərazilərinə gələrək "Qarabağ Ermənistandır. Nöqtə" deməklə sülh prosesinə zərbə vurmuşdur. Təcavüzkar ölkənin müdafiə naziri isə Azərbaycanın yeni ərazilərini işğal edəcəklərini açıq-aydın şəkildə bildirmişdir. 2019-cu ilin oktyabrında Rusiyanın Soçi şəhərində keçirilən Valday Beynəlxalq Diskussiya Klubunun 16-cı illik toplantısında Ermənistanın baş naziri yenidən avantürist mövqeyini təkrar etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tutarlı cavablar verərək onu yerində oturtmuş və Ermənistanda faşizmin, nasizmin qəhrəmanlaşdırılmasına diqqəti yönəltmişdir.

Ermənistanın baş naziri 2020-ci ilin fevral ayında keçirilən Münhen Təhlükəsizlik Konfransı çərçivəsində təşkil edilən müzakirələrdə də tarixi gerçəklikləri saxtalaşdıran və beynəlxalq hüququ pozmağa yönəlmiş fikirləri ilə münaqişənin dinc yollarla nizama salınmasına tərəfdar olmadığını bir daha göstərmişdir. Azərbaycan dövlət başçısı onun bütün söylədiklərinin əsassız olduğunu sübut edərək rəzil vəziyyətə salmışdır. Ermənistan Münhendə sarsıdıcı diplomatik-siyasi zərbə almışdır.

Koronavirus pandemiyasının dünyada yaratdığı ağır şəraitdən istifadə edən təcavüzkar Ermənistan Azərbaycan ilə dövlət sərhədinin Tovuz rayonu

istiqamətində 2020-ci il iyulunda yeni hərbi təxribat törətmişdir. Ermənistan bununla Dağlıq Qarabağ münaqişəsindən, Azərbaycanın işğal edilmiş ərazilərindəki vəziyyətdən diqqəti yayındırmaq, işğalı "oldu-bitdi" kimi qələmə vermək, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan dövlətləri münaqişəyə cəlb etmək, Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri, TAP, TANAP, Bakı-Tbilisi-Qars dəmiryolu, Böyük İpək yolunun keçdiyi Tovuz rayonuna yaxın ərazilərdəki yüksəklikləri tutub Azərbaycan Respublikasının Qərbə çıxışının qarşısını kəsmək, ölkə daxilindəki ağır şəraitdən ermənilərin diqqətini yayındırmaq niyyəti güdmüşdür. Bəzi ölkələr işğalçı Ermənistana silahlar göndərərək dəstəkləmişlər.

Azərbaycan ordusu düşmənə layiqli cavab vermişdir. Təxribatın qarşısını alarkən Azərbaycan Ordusunun generalı, yüksək rütbəli zabitləri və digər hərbçiləri qəhrəmancasına həlak olmuşlar. İşğalçı ölkə geri oturdulmuş və yüksəklikləri tuta bilməmişdir.

Hərbi təxribatın gedişində Türkiyə, Pakistan və Əfqanıstan birmənalı olaraq Ermənistanın hərəkətlərini pisləyərək Azərbaycanın haqq işini və beynəlxalq hüquq normalarını müdafiə etmişlər. Gürcüstan, Belarus, Ukrayna və b. ölkələr, o cümlədən bəzi beynəlxalq təşkilatlar münaqişənin dinc siyasi yollarla həllinə tərəfdar olduqlarını bildirən bəyanatlar vermişlər.

Azərbaycan Ordusuna dəstək məqsədilə Bakı küçələrinə çıxan insanlar dövlətin və silahlı qüvvələrin yanında olduqlarını bildirmişlər. Bu aksiya millətin düşmənə nifrətinin, torpaqları işğaldan azad etmək istəyinin və qəti iradəsinin nümayişi olmuşdur.

Hərbi təxribatın qarşısı alındıqdan sonra da bəzi dövlətlər Ermənistana silah və sursat göndərməkdə davam etmişlər. Bu davranış beynəlxalq hüquq normalarını saya salmamağın və münaqişənin davam etdirilməsi istəyinin göstəricilərindən biri olmuşdur.

Türkiyə və Azərbaycan arasında imzalanmış ikitərəfli sənədlərə əsasən hər il keçirilən ənənəvi birgə hərbi təlimlər 2020-ci ildə Naxçıvanda və Azərbaycanın digər yerlərində keçirilmişdir. Hərbi təlimlər Azərbaycan Ordusunun yüksək döyüş bacarığını və əzmini göstərmişdir.

Azərbaycan dövləti xarici siyasət sahəsində də fəallığını artırmışdır. Prezident İlham Əliyev BMT Baş Məclisinin yaradılmasının 75 illiyinə həsr edilmiş yüksək səviyyəli iclasda Qoşulmama Hərəkatının sədri və Azərbaycanın dövlət başçısı olaraq nitq söyləmişdir. İki hissədən ibarət olan nitqinin birinci hissəsində Prezident Qoşulmama Hərəkatının sədri kimi BMT-nin nüfuzunun artırılmasından ötrü təkliflərini söyləmiş, təşkilatın qəbul etdiyi qərarların yerinə yetirilmə-

sinə nail olmağın vacibliyini vurğulamış, eyni zamanda koronavirus pandemiyası zamanı görülən işlərdən bəhs etmişdir.

Azərbaycan Respublikasının Prezidenti olaraq nitqində İlham Əliyev Ermənistanın hərbi təcavüzünü, nəticələrini, BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmədiyini və yeni hərbi təxribatlar törətdiyini diqqətə çatdırmışdır. Dövlət başçısı dünya birliyini Ermənistana qarşı tədbirlər görməyə və təcavüzkarı dayandırmağa çağırmış, bildirmişdir ki, baş verəcək hər hansı hadisə üçün məsuliyyət işğalçı ölkənin üzərinə düşür.

Münaqişənin dinc siyasi vasitələrlə həllindən boyun qaçıran Ermənistan yeni ərazilər işğal etmək məqsədilə həm dövlət sərhədində, həm də işğal edilmiş torpaqlarda təmas xəttində təxribatlar törətmişdir. Təcavüzkar ölkənin 2020-ci il sentyabrın 27-də Füzuli, Cəbrayıl, Ağdam, Tərtər, Goranboy istiqamətlərində təmas xəttində törətdiyi növbəti təxribatlar nəticəsində dinc insanlar öldürülmüş və mülki obyektlərə ziyan vurulmuşdur.

Azərbaycan dövləti "sərt güc"ünü tətbiq etməyə və zəruri hərbi tədbirləri görməyə məcbur olmuşdur. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında düşmənə qətiyyətli cavab vermək və işğal altındakı torpaqları azad etmək uğrunda müharibəyə başlamaq barədə qərar qəbul edilmişdir. Dövlət başçısı həmin gün xalqa müraciət edərək yaranmış şəraiti izah etmiş, qəbul olunan qərarı çatdırmış, Azərbaycanın işinin haqq olduğunu və qələbə qazanacağını bildirmişdir. Prezidentin fərmanı ilə ölkədə hərbi vəziyyət elan edilmişdir. Hərbi əməliyyatların başlanması üçün bütün məsuliyyət problemi dinc yollarla tənzimləməkdən boyun qaçıran və hərbi avantüralara əl atan işğalçı Ermənistanın üzərinə düşmüşdür.

Bütün millət, siyasi partiyalar və ictimai təşkilatlar ümumi düşmənə, işğalçıya qarşı müharibədə dövlət rəhbərinin ətrafında dəmir yumruq kimi birləşmişdir. 50 siyasi partiya birgə bəyanat verərək ölkənin bütün vətəndaşlarını və dünya azərbaycanlılarını milli birliyə, hər kəsi Azərbaycanın haqq səsinin dünya birliyinə çatdırılmasına töhfə verməyə, beynəlxalq ictimaiyyəti isə Azərbaycanın həm tarixi həqiqətlərə, həm də beynəlxalq hüquqla dəstəklənən haqq mübarizəsinə biganə qalmamağa çağırmaqla yüksək qəti mövqe ortaya qoymuşlar.

Müharibə Azərbaycan tərəfindən xarakterinə görə ədalətli, təcavüzkar Ermənistanın işğalı altında olan torpaqların azad edilməsi uğrunda Vətən müharibəsi, Ermənistan tərəfindən isə ədalətsiz və işğalçılıq müharibəsi olmuşdur.

Azərbaycan milləti dövlət rəhbərinin ətrafında sıx birləşərək işğala son qoymaq uğrunda döyüşlərə qoşulmuşdur. Azərbaycan Ordusu qısa müddətdə bir sıra əraziləri işğaldan azad etmişdir. Prezident İlham Əliyev və birinci xanım

Mehriban Əliyeva Mərkəzi Hərbi Klinik Hospitalda müalicə alan yaralı hərbçilərə baş çəkərək vəziyyətləri ilə tanış olmuşlar. Görüşdə çıxış edən dövlət başçısı Azərbaycan vətəndaşlarının yüksək milli vətənpərvərlik ruhundan, döyüşlərin gedişindən, dövlətin şəhid ailələrinə və qazilərə diqqət və qayğısından bəhs etmiş, işğalçı Ermənistanın siyasətinin iç üzünü bir daha açmış, düşmənin əziləcəyini bildirmişdir.

Məlum olduğu kimi, müharibə siyasətin başqa vasitələrlə davamı olsa da, dünya hərb tarixində bəlli bir müharibə siyasəti də vardır. Hərbi əməliyyatlar Ermənistanın və Azərbaycanın müharibə siyasətinin bir-birindən köklü şəkildə fərqləndiyini göstərmişdir. Döyüş meydanında məğlub olan işğalçı ölkənin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndini, Füzuli rayonunun Horadiz qəsəbəsini, Goranboy, Tərtər, Ağdam rayonlarını, Mingəçevir, Beyləqan, Bərdə, Tərtər, Ağcabədi, Füzuli, Horadiz və Gəncəni, Şəmkir rayonunu raket atəşinə tutması nəticəsində mülki obyektlərə ziyan dəymiş və dinc sakinlər həlak olmuşlar. Bütün bunlar işğalçı ölkənin müharibənin aparılmasına dair beynəlxalq konvensiyaları kobud surətdə pozduğunu və müharibə cinayətləri törətdiyi göstərmişdir.

Ermənistanın törətdiyi ağır müharibə cinayətlərinə baxmayaraq, torpaqlarını işğaldan azad etmək uğrunda savaşan Azərbaycan Ordusu mülki obyektləri və dinc insanları hədəf almamışdır.

Hərbi əməliyyatların gedişində Ermənistan ordusunda fərarilik artmışdır. Küçələrdən zorla yığılaraq özlərinə aid olmayan torpaqlara göndərilən ermənilər qorxularından döyüşə girməmişlər.

Azərbaycan Ordusundan isə bir nəfər də yayınan olmamışdır. Etnik köklərindən asılı olmayaraq bütün vətəndaşlar yüksək vətənpərvərlik əzmi və sevinclə, sanki toy-bayrama gedirmiş kimi, çağırış məntəqələrinə axın-axın gələrək döyüşlərə atılmaq üçün müraciətlər etmişlər. Bu, Azərbaycan millətinin şərəfli tarixinin qürurverici səhifələrindən biridir.

Müharibə günlərində hərbi əməliyyatların aparılmasında, diplomatik-siyasi mübarizə və informasiya savaşında Prezident İlham Əliyevin şəxsiyyəti, qətiyyəti, yenilməz siyasi iradəsi, yüksək dövlət idarəçilik bacarığı, böyük sərkərdəlik məharəti, üstün diplomatiyası müstəsna rol oynamışdır. Həm müharibəyə qədər, həm də onun gedişində uğurla həyata keçirilən xarici siyasət, yaradılan və ya istifadə edilən əlverişli beynəlxalq şərait öz təsirini göstərmişdir. Hərbi əməliyyatların gedişində Türkiyə, Pakistan və Əfqanıstan Azərbaycan Respublikasının beynəlxalq hüquq normalarına uyğun olan haqq işini müdafiə etmiş, torpaqlarının işğaldan azad edilməsinə və ərazi bütövlüyünün bərpasına tərəfdar çıxmışlar. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun rəhbərlik etdiyi nümayəndə heyəti bir neçə dəfə Bakıya səfər edərək Azərbaycanın haqq

işinin diplomatik-siyasi və mənəvi baxımdan müdafiə edildiyini birmənalı olaraq bəyan etmişdir. Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop başda olmaqla nümayəndə heyətinin Bakıya səfəri də bu baxımdan əhəmiyyətli olmuşdur. Belə bir mövqe Türkiyə dövlətinin və türk millətinin təkcə qardaşlıq hisslərindən deyil, eyni zamanda, beynəlxalq hüquq normalarına dərin hörmətindən irəli gəlmişdir. Bununla Türkiyə işğalçı ölkəni müdafiə edən dövlətlərə də dərs vermişdir.

Ermənistanın törətdiyi müharibə cinayətlərinin Azərbaycan Respublikasında akkreditasiya olunmuş diplomatik korpusun nümayəndələrinə olduğu kimi çatdırılmasından ötrü Müdafiə Nazirliyində bir neçə dəfə brifinq təşkil edilmişdir. Düşmən ölkənin beynəlxalq konvensiyaları pozaraq mülki əhalini və obyektləri vurması foto və video sənədlərlə diplomatik korpusun üzvlərinə təqdim olunmuşdur.

Döyüşlərdə məğlub olmasına baxmayaraq, təcavüzkar Ermənistan Azərbaycan haqqında yalan informasiyalar yaymaqda davam etmişdir. İşğalçılıq siyasətini ört-basdır etmək üçün müharibənin guya xristian dininə qarşı aparılmasına və uydurma "erməni soyqırımı"nın həyata keçiriləcəyinə dair Ermənistanın yalanları müxtəlif dinlərin nümayəndələrinin, məscidlərin, kilsələrin və sinaqoqların yanaşı və bərabər şəkildə fəaliyyət göstərdiyi, Bakıda erməni kilsəsinin saxlanıldığı, ermənilərin yaşadığı Azərbaycan tərəfindən ustalıqla iflasa uğradılmışdır. 200 ildən bəri aparılan uydurma erməni təbliğatına, mifologiyasına öldürücü zərbə vurulmuşdur.

İşğalçı ölkənin müxtəlif dövlətlərin vasitəsilə Azərbaycana təzyiq etmək cəhdləri də nəticə verməmişdir. Fransa Respublikasının Prezidenti Emmanuel Makronun yalan erməni təbliğatının uydurmalarına əsaslanaraq Azərbaycanın guya muzdlulardan istifadə etməsinə və b. məsələlərə dair səsləndirdiyi əsassız iddialar Prezident İlham Əliyev tərəfindən qətiyyətlə rədd edilmişdir. Sübutların verilməsi istənilsə də, Fransa konkret bir söz söyləyə bilməmişdir. Hərbi əməliyyatların dayandırılması barədə təzyiqlərə məhəl qoymayan Azərbaycan rəhbəri işğal altındakı torpaqların azad edilməsinə dair qəti iradəsini bir daha bəyan etmişdir.

Prezident İlham Əliyev "Əl-Cəzirə", Türkiyənin "TRT-Haber", "CNN Türk", "A Haber", "Haber Global", Rusiyanın "Pervıy kanal" televiziya kanallarına, "İnterfaks" agentliyinə, "CNN İnternational", Rusiyanın RBK, ABŞ-ın "Fox News" televiziya kanalına, TASS agentliyinə, Yaponiyanın "Nikkei" və b. qəzetinə verdiyi müsahibələrində Ermənistanın siyasətinə və törətdiyi müharibə cinayətlərinə, Azərbaycan dövlətinin məqsədlərinə, Türkiyə qırıcılarının Azərbaycanda olmasına, Minsk qrupu həmsədrlərinin fəaliyyətinə və b. məsələlərə aydınlıq gətir-

mişdir. Bu müsahibələr Azərbaycanın apardığı hərbi əməliyyatların məqsədinin və işğalçı Ermənistanın siyasətinin xarici ölkələrdə dərk edilməsində müstəsna rol oynamış, dünya ictimai rəyinə və bir sıra dövlətlərin mövqeyinə təsir göstərmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə keçirilən operativ müşavirədə döyüşlərin aparılması, yaranmış şərait və qarşıda dayanan vəzifələrin geniş müzakirə edilməsi və konkret tapşırıqlar verməsi ölkə başçısının qüdrətli sərkərdəlik məharətini göstərmişdir. Müşavirədə Ali Baş Komandan cəbhədə qazanılan uğurlardan, düşmənin törətdiyi müharibə cinayətlərindən geniş danışaraq bildirmişdir ki, Azərbaycanın işi haqdır və ərazilər düşməndən azad ediləcəkdir.

Azərbaycan Ordusu Cəbrayıl, Hadurut, Füzuli, Zəngilan, Qubadlı və digər yaşayış məntəqələrini işğalçı qüvvələrdən azad etmişdir. Hərbi əməliyyatların gedişində Azərbaycan Ordusu bir dəfə də olsun geri çəkilməmişdir.

Qəhrəman Azərbaycan hərbçilərinin keçilməz, sıldırım qayalıqlardan, dağlardan və meşələrdən keçərək küçə döyüşlərində noyabrın 8-də Şuşa şəhərini işğalçılardan azad etməsi təcavüzkar Ermənistanın diz çökməsi olmuşdur. Fəlakət qarşısında dayanan işğalçı ölkə özünə xilaskar axtarmağa məcbur olmuşdur.

Hərb meydanında məğlub olan işğalçı ölkə üçtərəfli bəyanatı imzalamaqla danışıqsız təslim aktını qəbul etmişdir. Sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan imzalamışdır. Sənəddə hərbi əməliyyatların dayandırılması, əsirlərin qaytarılması, kommunikasiyaların açılması, Rusiya sülhməramlı qüvvələrinin yeridilməsi, erməni qoşunlarının çıxarılması, Naxçıvana gedən yolların tikintisi və b. məsələlər əksini tapmışdır. Naxçıvana gedən dəhlizin yaradılması məsələsinin bəyanata daxil edilməsi Prezident İlham Əliyevin müstəsna tarixi xidmətlərindən biridir. Bəyanatın imzalanmasından sonra Azərbaycan xalqına müraciət edən dövlət başçısı sənədin mahiyyətini izah etmişdir. Ümumiyyətlə, hərbi əməliyyatların gedişində dövlət başçısının xalqa tez-tez müraciət etməsi dünya ölkələrinin dövlətçilik tarixində nadir rast gəlinən hadisə olmuşdur.

Üçtərəfli bəyanata uyğun olaraq noyabrın 20-də Ağdam şəhərindən işğalçı Ermənistan silahlı qüvvələri çıxarılmış, Azərbaycan şəhid vermədən və bir güllə atmadan rayonu azad etmişdir. Bəyanatda noyabrın 15-də Kəlbəcər rayonundan işğalçı qüvvələrin çıxarılması nəzərdə tutulsa da, Ermənistan əlavə olaraq

10 gün vaxt istəmişdir. Bu müddət ərzində işğalçı ölkə yaşayış evlərini, məktəbləri və tibb məntəqələrini yandırmış, meşələri vəhşicəsinə qıraraq talamışdır. Noyabrın 25-də düşmən qüvvələri Kəlbəcərdən, dekabrın 1-də isə Laçın rayonundan da çıxarılmışdır.

Ağdamda Rusiya-Türkiyə birgə monitorinq mərkəzinin yaradılması iki ölkənin sülh və təhlükəsizlik sahəsində əməkdaşlığını, eyni zamanda Azərbaycanın birləşdirici güc dövləti olduğunu göstərmişdir. Bu, həm də Cənubi Qafqazın bütün dövlətləri ilə həmsərhəd olan Türkiyə Cümhuriyyətinin regionda hərbi varlığı deməkdir.

Müharibədə qələbə 44 gündə qazanılsa da, Azərbaycan Respublikası ona uzun illər boyu sistemli şəkildə bütün sahələrdə hazırlaşmış və uğurlu nəticə üçün zəmin yaratmışdır. Münaqişəyə dair Azərbaycan dövlətinin uzunmüddətli səbrli, inamlı və ədalətli strategiyası işğalçı Ermənistana sarsıdıcı zərbə vuraraq qalib gəlmişdir.

Qazanılan qələbə münasibətilə dekabrın 10-da Bakıda Azadlıq meydanında Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirak etdiyi Zəfər paradı keçirilmişdir. Dövlət başçıları paradda çıxış edərək qazanılan qələbənin tarixi əhəmiyyət daşıdığını bildirmişlər.

Paradda qəhrəman Azərbaycan Ordusunun qoşun hissələri, eyni zamanda, Türkiyə əsgərləri də iştirak etmişlər. Düşmən üzərində qələbə qazanılmasında istifadə edilmiş silah və texnikanın, eyni zamanda, cəbbəxanada olan ən müasir silahların nümayiş etdirildiyi parad Azərbaycanın hərbi gücünü bütün dünyaya göstərmişdir. Paradda işğalçı Ermənistandan hərbi qənimət olaraq ələ keçirilmiş silah və texnika da nümayiş etdirilmişdir.

Müharibədə qələbənin qazanılmasının başlıca səbəbləri güclü dövlət, iqtisadiyyat, qüdrətli ordu, xalq və iqtidar birliyi, yüksək milli-mənəvi ruh, səmərəli dövlət idarəçiliyi, yürüdülən uğurlu xarici siyasət, təsirli informasiya siyasəti və s. olmuşdur. Bütün millət düşmənə qarşı tək ürək və dəmir yumruq kimi Prezident İlham Əliyevin ətrafında birləşmişdir. Arxa cəbhə və ön cəbhənin sıx birliyi təmin edilmişdir. Azərbaycan və dünya üçün böyük tarixi əhəmiyyət daşıyan qələbənin memarı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevdir.

Böyük tarixi əhəmiyyət daşıyan qələbənin qazanılması ilə hər şeydən əvvəl, Azərbaycan dövləti işğal altında olan torpaqlarını azad edərək ərazi bütövlüyünü bərpa etmiş, erməni faşizminin və neonasizminin belini qıraraq iç üzünü açmış, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini təkbaşına yerinə yetirmişdir. Azərbaycan mədəniyyəti erməni vəhşiliyi üzərində qələbə qazanmışdır.

Müharibədə qazanılan parlaq qələbə Azərbaycan qarşısında yeni üfüqlər açmışdır. Azərbaycan dövləti dinc quruculuq dövrünə qədəm qoymuşdur. Bundan sonra qarşıda dayanan başlıca vəzifə əraziləri minalardan təmizləmək, quruculuq işlərini aparmaq, müvafiq infrastrukturu yaratmaq və vətəndaşları dədə-baba torpaqlarına qaytarmaq olmuşdur.

2021-ci il yanvarın 11-də Moskvada İlham Əliyev, Vladimir Putin, Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşdə 10 noyabr tarixli birgə bəyanatın müddəalarının yerinə yetirilməsi məsələləri müzakirə edilmiş, bölgədə sülh və sabitliyin möhkəmləndirilməsinə, qarşılıqlı faydalı əməkdaşlığın qurulmasına yönələn yeni sənəd imzalanmışdır. Hərb meydanında məğlub olan Ermənistanın danışıqlar zamanı üstünlük qazanmaq cəhdləri iflasa uğramışdır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 14-də Şuşa şəhərinə səfər etmişlər. Səfər zamanı Füzuli – Şuşa avtomobil yolunun və Füzulidə beynəlxalq hava limanının təməli qoyulmuşdur. Dövlət başçısının Şuşaya səfərini yanvarın 14-nə təsadüf etməsi səbəbsiz olmamışdır. Belə ki, hələ 1982-ci il yanvarın 14-də Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevlə birlikdə 21 yaşlı oğlu İlham Əliyev də böyük Azərbaycan şairi Molla Pənah Vaqifin məqbərəsinin açılışında iştirak etmişdi. Şuşada dövlət bayrağını ucaldan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Yuxarı Gövhər Ağa məscidində olmuş, dualar etmiş və Məkkədən gətirilmiş Qurani-Şərifi bağışlamışlar.

Şuşada hərbçilərlə görüşən dövlət başçısı Azərbaycan Ordusunun qəhrəmanlığından bəhs etmiş və gələcək planlardan danışmışdır. Bildirmişdir ki, işğaldan azad edilmiş bütün ərazilər dirçəldiləcək, şəhid ailələri və qazilər daim dövlətin qayğısı altında olacaqlar.

Səfər zamanı Xurşidbanu Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin ermənilər tərəfindən güllələnmiş büstləri qaytarılaraq Şuşada əvvəlki yerinə qoyulmuşdur. Büstlərin vəziyyəti erməni vandalizminin göstəricilərindən biri olmuşdur.

Dövlət başçısı Qazançı kilsəsinə də baş çəkmişdir. Bu hərəkət Azərbaycanda xrisitian dininə böyük hörmət və ehtiramın, eyni zamanda multikultiralizmin göstəricilərindən biri olmaqla erməni yalanlarını alt-üst etmişdir.

Şuşada gecələyən Prezident İlham Əliyev səhər şəhər ilə tanış olmuş, böyük Azərbaycan şairi, Qarabağ xanlığının vəziri Molla Pənah Vaqifin ermənilər tərəfindən dağıdılmış məqbərəsinə gəlmiş və Çıdır düzündə ailəsi ilə birlikdə çay içmişdir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfər etmişlər. Səfər zamanı Horadiz-Ağbənd dəmiryolunun təməli qoyulmuşdur. Bölgədə infrastrukturun

elektrik enerjisi ilə təmin olunmasında mühüm rol oynayacaq Laçın rayonunun Güləbird kəndində su elektrik stansiyasının açılışı olmuşdur. Dövlət başçısı işğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji mənbələrinin qurulmasına dair konkret tapşırıqlarını vermişdir. Səfər zamanı işğalçı Ermənistan tərəfindən Zəngilan rayonunda dağıdılmış Bəsitçay dövlət qoruğunun bərpasından ötrü göstərişlər verilmiş, ağac əkilmiş və çaya balıqlar buraxılmışdır. Prezident İlham Əliyev eyni zamanda "ağıllı kənd" layihəsi və kənd təsərrüfatının inkişafı barədə göstərişlərini vermişdir. Səfər işğaldan azad edilən ərazilərə dair Azərbaycan dövlətinin aydın strategiyasının olduğunu göstərmişdir.

Hərb meydanında qazanılan qələbə ilə yanaşı, xarici siyasət və informasiya sahəsində də uğurlar davam etdirilmişdir. Prezident İlham Əliyevin Xocalıda törədilən soyqırımı qurbanlarının anım günündə dünyanın 35-dən çox kütləvi informasiya vasitəsinin nümayəndələri üçün keçirdiyi mətbuat konfransı həm seçildiyi gün, həm də suallara verilən cavablar baxımından əhəmiyyətli olmuşdur. Dövlət başçısı suallara dörd dildə verdiyi cavablarında Xocalıda törədilən soyqırımı, müharibədə Azərbaycanın məqsədləri, qazanılan qələbə, Ermənistanın törətdiyi müharibə cinayətləri, yalanları və b. məsələlər barədə söylədiyi gerçəklər dünya informasiya məkanında geniş yer tutmuş və ölkənin mövqelərinin möhkəmlənməsinə kömək etmişdir.

İqtisadi Əməkdaşlıq Təşkilatının XIV zirvə toplantısı zamanı dövlət və hökumət başçılarının Prezident İlham Əliyevi qələbə münasibəti ilə təbrik etmələri Azərbaycan Respublikasının xarici siyasətinin uğurlu olduğunu bir daha təsdiq etmişdir. Zirvə görüşündə nitq söyləyən dövlət başçısı əməkdaşlığın genişləndirilməsinə dair düşüncələrini bildirmiş və bölgənin gələcəyinin müharibədə, qarşıdurmada deyil, qarşılıqlı faydalı əməkdaşlıqda olduğunu vurğulamışdır.

Ölkədə yaranmış reallıqlar hakim Yeni Azərbaycan Partiyasında da yenilənməni zəruri etmişdir. Partiyanın sədri, Prezident İlham Əliyev VII qurultaydakı açılış nitqində yaranmış şəraiti, müharibədə qələbəyə gətirən amilləri təhlil etmiş və yenilənməyin vacibliyini vurğulamışdır. Partiyanın idarə orqanları yenilənmişdir. Qurultaydakı yekun nitqində Prezident İlham Əliyev partiyanın qarşısında dayanan konkret vəzifələri müəyyənləşdirmişdir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilaxır çərşənbə günü martın 16-da Füzuli, Xocavənd və Şuşaya səfər etmişlər. Dövlət başçısı Füzuli-Hadrut avtomobil yolunun təməlini qoymuşdur. Hadrutda dövlət bayrağı ucaldılmışdır. Həmçinin Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun əsası qoyulmuşdur.

Erməni işğalçıları tərəfindən dağıdılmış alban kilsələrinə baş çəkilməsi və bərpa ediləcəyinin bildirilməsi Azərbaycan dövlətinin bütün dinlərə və dini abidələrə bərabər münasibət bəsləməsinin göstəricilərindən biri olmuşdur. Dövlət başçısı işğalçı ölkə tərəfindən Şuşada Molla Pənah Vaqifin dağıdılmış məqbərəsinə getmiş, burada çıxış edərək bərpa ediləcəyini bildirmişdir. Viran edilmiş digər tarix və mədəniyyət abidələrinin də bərpa olunacağı bəyan edilmişdir. Dövlət başçısının səfərinin ilaxır çərşənbə günündə edilməsi rəmzi məna daşımışdır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 20-də Şuşa şəhərinə təkrarən səfər etmişlər. Səfər zamanı Cıdır düzündə Novruz tonqalı qalanmışdır. Bu, zəfər tonqalı olmuşdur. Bir daha əmin olunmuşdur ki, işğaldan azad olunmuş bütün ərazilərə yeni nəfəs, həyat, mədəniyyət, dinclik və əmin-amanlıq gələcəkdir.

Türk Şurasının zirvə görüşünün keçirilməsi bu ölkələr arasında əməkdaşlığın səviyyəsini və geniş perspektivlərinin olduğunu göstərmişdir. Zirvə görüşünün 31 mart tarixində - azərbaycanlıların soyqırımı günü keçirilməsi böyük məna daşımışdır. Dövlət başçılarının Azərbaycanı qazandığı qələbə münasibətilə təbrik etmələri və 1918-ci il 31 martda azərbaycanlılara qarşı törədilən soyqırım qurbanlarını xatırlamaları ümumi mövqeni göstərmişdir.

Qələbənin miqyasını indiki və gələcək nəsillərə əyani şəkildə göstərməkdən ötrü məğlub edilmiş işğalçı ölkədən götürülmüş texnikalardan ibarət Hərbi Qənimətlər Parkı Prezident İlham Əliyevin göstərişinə uyğun olaraq yaradılmışdır. Belə bir muzey və ya park ölkədə heç bir zaman olmamışdır. Hərbi Qənimətlər Parkı Azərbaycanın minilliklər tarixində qürurverici bir ilkdir. Parka gələn Azərbaycan vətəndaşları qazanılan qələbənin miqyasını görərək tarixləri ilə fəxr edəcək, onlarda vətənpərvərlik ruhu daha da yüksələcək, xaricilər isə Azərbaycan dövlətinin və millətinin qüdrətini görəcəklər. Hərbi Qənimətlər Parkının açılış mərasimində nitq söyləyən dövlət başçısı müharibədə qazanılan qələbənin səbəbləri, Azərbaycan xalqı və silahlı qüvvələrinin qəhrəmanlığı, xarici dövlətlərdən edilən təzyiqlərin heç bir nəticə vermədiyi və qarşıda dayanan başlıca vəzifələr barədə danışmış, bildirmişdir ki, əsas iş işğaldan azad olunmuş ərazilərin bərpa edilməsidir.

Dövlət başçısı və birinci xanım Mehriban Əliyeva Cəbrayıl və Zəngilan rayonlarına səfər etmişlər. Səfər zamanı Zəngilanda İranla sərhəddə hərbi hissəsinin açılışı olmuşdur. Dövlət başçısı Azərbaycan-İran sərhədini dostluq sərhədi, Xudafərin körpüsünü isə dostluq körpüsü adlandırmışdır. Ölkə rəhbəri Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin həyata keçirilməsinin təməlini qoymuş və kənd sakinləri ilə görüşmüşdür. Bu, böyük qayıdışın başlanğıcı

olmuşdur. İşğaldan azad edilmiş ərazilərdə ilk olaraq Türkiyə, İtaliya, İsrail və Çin şirkətləri işə başlamışlar. Səfər zamanı Zəngilan məscidinin, Zəngilan-Horadiz avtomobil yolunun və Mincivan dəmiryolunun tikintisinin təməli qoyulmuşdur.

Dövlət başçısının sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdir. Şuşada "Xarıbülbül" musiqi festivalının keçirilməsi multikulturalizmin Azərbaycan modelinin nümayişi olmuşdur. Dövlət başçısının nitqində dünya ölkələri və xalqlarına mühüm mesajlar verilmişdir.

Ağdama səfər edən dövlət basçısı Bərdə-Ağdam avtomobil yolunun əsasını qoymuş, salınacaq Ağdam şəhər meşə parkında ağac əkmiş, inşa olunacaq ilk yaşayış binasının və Ağdam Sənaye Parkının təməlini atmışdır. Qarabağ xanlığının banisi Pənahəli xanın sarayının yerləşdiyi imarət kompleksinə gedən ölkə rəhbəri ərazidə yerləşən abidələrin və obyektlərin bərpasına dair göstərişlərini vermişdir. Ağdamda Zəfər muzeyi və açıq hava altında İşğal muzeyi yaradılması planı təqdim edilmişdir. Ağdam şəhər 1 saylı məktəbin yeni binasının təməli də qoyulmuşdur. Prezident Qiyaslı məscidində və Şahbulaq qalasında olmuş, onların bərpasına dair göstərişlərini vermişdir.

Prezidentin təklifi ilə Milli Məclis Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında 15 maddədən ibarət qanunu qəbul etmişdir. Azərbaycan tarixində ilk dəfə olaraq bötüv bir şəhər dövlət qoruğu elan edilmişdir.

Azərbaycan rəhbəri Füzuli şəhərinə səfəri zamanı infrastruktur obyektlərinin açılışını etmişdir. İyunun 15-də -Milli qurtuluş günündə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla türk nümayəndə heyəti Azərbaycan Respublikasına səfər etmişdir. Prezident İlham Əliyev onu Füzulidə qarşılamış və birlikdə Şuşa şəhərinə getmişlər. İlk dəfə olaraq Türkiyə dövlət başçısı işğaldan azad edilmiş ərazilərdə olmuşdur. Şuşada rəsmi qarşılanma mərasimi keçirilmiş və danışıqlar aparılmışdır. Səfər zamanı iki ölkə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa bəyannaməsi imzalanmışdır. Qarşılıqlı münasibətlərin yeni səviyyəsini göstərən bu sənəd tarixi əhəmiyyət daşıyır.

Kəlbəcər və Laçın rayonlarına səfər edən dövlət başçısı bir sıra infrastruktur obyektlərini açmışdır. Laçın Beynəlxalq Hava Limanının təməli qoyulmuşdur.

Dövlət başçısının Şuşa şəhərinə səfəri zamanı bir neçə mədəniyyət obyekti açılmış və Vaqif poeziya günləri keçirilmişdir.

Suqovuşan, Cəbrayıl, Hadrut, Zəngilan və Qubadlıya səfər zamanı bir sıra obyektlər açılmış və yenilərinin təməli qoyulmuşdur. Qubadlı ictimaiyyətinin nümayəndələri ilə görüşdə Prezident bildirmişdir ki, bundan sonra ən böyük vəzifə torpaqları yenidən qurmaq və bərpa etməkdir.

İşğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin parlaq nümunəsi Qarabağın səma qapısı hesab edilən və böyük strateji əhəmiyyət daşıyan Füzuli

Beynəlxalq Hava Limanı qısa müddətdə tikilməsi olmuşdur. Hava limanının açılışı mərasimində iştirak etməkdən ötrü Türkiyə Cümhuriyyəti Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasına səfərə gəlmişdir. Onu Füzulu Beynəlxalq Hava Limanında Prezident İlham Əliyev qarşılamışdır. Səfər zamanı bəzi obyektlərin təməli qoyulmuşdur.

Böyük qələbənin birinci ildönümü ərəfəsində VIII Qlobal Bakı Forumu keçirilmişdir. Forum iştirakçılarının çıxışları və işğaldan azad edilmiş ərazilərə səfərləri Azərbaycanın haqq işinə böyük dəstəyin göstəricilərindən biri olmuşdur.

Zəfərin bir illiyi bütün ölkədə böyük coşqu ilə bayram edilmişdir. Şəhər və rayonlarda zəfər yürüşü keçirilmiş, şəhidlərin xatirəsi yad edilmiş və ağaclar əkilmişdir. Dövlət başçısı və birinci xanım həmin gün Daşaltı kəndində məscidin təməlini atmış, Şuşada ağaclar əkmiş və bir sıra obyektlərin əsasını qoymuşlar.

Müharibədə Azərbaycanın qazandığı qələbə bütün türk dünyasına başucalığı gətirmiş, onun qələbəsi olmuş və milli-mənəvi ruhunu yüksəltmişdir. Ona görə də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının zirvə toplantısında "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilmişdir.

Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Türk Dövlətləri Təşkilatına çevrilməsi ilə bərabərhüquqlu qardaş ölkələrin və bütövlükdə türk dünyasının qarşısında geniş üfüqlər açılmışdır.

Rusiya Federasiyasının təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidentinin Soçidə görüşərək müharibənin başa çatmasından ötən bir ildə görülən işləri və üçtərəfli bəyanatın şərtlərinin yerinə yetirilməsi məsələlərini müzakirə etmələri və qəbul etdikləri birgə bəyanat tərəflərin münasibətləri normallaşdırmaq niyyətini göstərmişdir.

Prezident İlham Əliyevin Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığının VI Sammitində iştirakı, görüşləri, apardığı müzakirələr, nitqi, toplantının yekununda qəbul edilən bəyanat və NATO qərargahında keçirilən görüş Vətən müharibəsində Azərbaycanın qazandığı parlaq qələbənin bu təşkilatlar tərəfindən təsdiq edildiyini göstərirmişdir. Brüssel səfəri Azərbaycan dövlətinin düzgün strategiyasının dünyanın ikinci iqtisadi güc mərkəzi olan Avropa İttifaqı və yeganə hərbi-siyasi təşkilat olan NATO tərəfindən bəyənilməsi olmaqla, diplomatiya tarixinin parlaq səhifələrindən birini təşkil etmişdir. Avropa İttifaqı və NATO Azərbaycan Respublikasını vacib tərəfdaş kimi qiymətləndirmişdir.

***

2003-2021-ci illərdə Azərbaycan Respublikasının siyasi tarixinin başlıca yekunu qüdrətli və beynəlxalq aləmdə yüksək nüfuzu olan dövlətin yaradılması, işğal altındakı ərazilərin azad edilməsidir. Keçilən yoldan alınan ibrət dərsi ondan ibarətdir ki, Azərbaycan millətinin tərəqqisinin və qarşıya qoyduğu məqsədlərə çatmasının təməlində minilliklərdən keçib gələn milli-mənəvi köklərə dayanaraq müasirləşmək,vətənsevərlik, təbii sabitlik, güclü dövlət və qüdrətli dövlət rəhbəri dayanır. Elə buna görə də Prezident İlham Əliyevin aşağıdakı fikirləri Azərbaycan dövlətinin və millətinin gələcək inkişafının başlıca formuludur:

" Yenilik, inkişaf, güc – bunlar əsas amillərdir. Bir də Vətən sevgisi".[818]

818 Prezident İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib. 12.04.2021 // Azərtac. URL: https: azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Bakida_Herbi_Qenimetler_Parkinin_achilisinda_istirak_edib__YENILANIB_2_VIDEO-1753169.

BİBLİOQRAFİYA

I. MƏNBƏLƏR

Arxivlər

- Azərbaycan Respublikası Milli Məclisinin Arxivi (ARMMA).

Azərbaycan Respublikasının nəşr edilmiş xarici siyasət sənədləri

- Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004. I hissə. Bakı, 2009; 2004. II hissə. Bakı, 2009; 2005. I hissə. Bakı, 2009; 2005. II hissə. Bakı, 2009; 2007. II hissə, 2009.

Nəşr edilmiş qanunvericilik sənədləri

- Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabat). I cild. Bakı, 1998.
- Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklər edilməsinə dair referendum sənədlərdə (18 mart 2009-cu il). Bakı, 2009.
- Azərbaycan Respublikası Milli Məclisi iclaslarının protokolları və stenoqramları. Dördüncü sessiya. Payız. 14-cü cild. 25-28 oktyabr 2011-ci il. Bakı, 2011.
- Azərbaycan Respublikası Milli Məclisi iclaslarının protokolları və stenoqramları. Növbədənkənar altıncı sessiya. 28-ci cild. 12-29 iyun 2012-ci il. Bakı, 2012.

Beynəlxalq təşkilatların nəşr edilmiş sənədləri

İngilis dilində

- Charter of the United Nations and statute of the International Court of Justice. San Francisco, 1945.

Azərbaycan dövlət xadimlərinin əsərləri

- Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 46-cı kitab. Bakı, 2013.
- Əliyev İ.H. İnkişaf – məqsədimizdir. 1-104-cü kitablar. Bakı, 2008-2021.

II. ÜMUMİ ƏDƏBİYYAT

Azərbaycan dilində

- Azərbaycan Parlamenti– 100. 1918-2018. Bakı:ANL, 2018.
- Hacıyev Q., Kəlbizadə E., Eyvazov A., İsmayılova T., Əzimzadə A., İmaməli Ş. Ermənistan daxili sosial-iqtisadi və siyasi şərait. Bakı, 2019.
- Kəlbizadə E., Baxşıyeva Y., Əzimov Ə. Ermənistan İran İslam Respublikasının Qafqaz siyasətində. Bakı, 2019.
- Qasımlı M. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər). Bakı, 2006.
- Qasımlı M. Azərbaycan-Türkiyə diplomatik-siyasi münasibətləri (aprel 1920-ci il-dekabr 1922-ci il). Bakı, 1998.
- Qasımlı M. "Erməni məsələsi"ndən "erməni soyqırımı"na : gerçək tarix axtarışında: (1724-1920). Bakı, 2014.
- Qasımlı M. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix-olduğu kimi (1920-1994-cü illər). Bakı, 2016.
- Qasımlı M., Muradova B., Qafarov V. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. I cild. Bakı, 2018.
- Qasımlı M., Muradova B. Azərbaycan parlamentarizmi tarixi. 2 cilddə. II cild. Bakı, 2018.
- Qasımlı M.,Ömərov V., Məmmədova N.,Həbibbəyli S., Salayev K. Gürcüstanda erməni təşkilatlarının fəaliyyəti (XIX əsr-XXI əsrin əvvəllər). Bakı, 2020.

- Seçki - 2010. Təbliğat-təşviqat kampaniyası: əsas xüsusiyyətlər, ilkin nəticələr. Buraxılış 5. Bakı, 2010.

Rus dilində

- Гаджиев И. Нахчыван в истории государственности Азербайджана. Санкт-Петербург: Академия Исследования Культуры, 2020.

III.MƏQALƏLƏR

Azərbaycan dilində

- Qasımlı M. Xarici siyasət: reallıqlar, uğurlar və perspektivlər. // Müstəqillik yollarında- 25. Bakı, 2016.

IV. QƏZETLƏR

Azərbaycan dilində

- "Azərbaycan müəllimi"
- "Azərbaycan"
- "Xalq qəzeti"
- "Mədəniyyət"
- "Yeni Azərbaycan"
- "525-ci qəzet"
- "Publika"

Rus dilində

- «Бакинский рабочий»

V. JURNALLAR

- "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə"
- "Milli Məclis"

VI. İNTERNET RESURSLARI

Azərbaycan dilində

- Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı.// https:president.az/.
- Azadinform. // https:azadinform.az/az.
- Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Normativ Hüquqi Aktların vahid internet elektron bazası. // http:www.e-qanun.az.
- Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəsmi internet saytı.// https:mfa.gov.az/.
- Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi saytı.// www.constcourt.gov.az/.
- Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəsmi internet saytı. // www.msk.gov.az/az/.
- Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet saytı. // https:mod.gov.az/az/.
- Azərbaycan Respublikasının Belçika Krallığı və Lüksemburq Böyük Hersoqluğundakı Səfirliyi, Avropa İttifaqı yanında Nümayəndəliyinin rəsmi internet saytı.// https:brussels.mfa.gov.az/az/.
- Azərbaycan Televiziyasının internet saytı. // www.aztv.az/az/news/.
- Azərbaycan Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assossiasiyasının saytı. // www.avciya.az/az/.
- Azərbaycanda parlamentarizm: tarix və bu gün. // www.azerbaycanli.org /az/page130.html.
- Azərtac. // https:azertag.az/.
- BBC. // www.bbc.com/.
- Heydər Əliyev Fondunun rəsmi internet saytı. // https:heydar-aliyev-foundation.org/az/.
- http://iacis.az/wp-content/uploads/2017/10/Azərbaycan-Respublikasının-Konstitusiyasında-dəyişikliklər-

edilməsi-məqsədi-ilə-2016cı-il-sentyabrın-26na-təyin-edilmiş-ümumxalq-səsverməsi-eferendum-üzrəMüstəqil-Dövlətlər-Birliyinin-iştirakçısı.pdf/.

- Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyasının iştirakçısı olan dövlətlərdə Demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi beynəlxalq institutunun saytı.// http:iacis.az/?.
- Report İA. // https:report.az.
- Səs İA. // https:sia.az/az/news/politics/754779.html.
- Trend İA.// https:az.trend.az/.
- UNCECO-nun internet saytı. // https:unesco.az/.
- Virtual Qarabağ. // https:www.virtualkarabakh.az/.
- www.preslib.az/news_jfnr4.php.
- Yeni avaz.// www.yeniavaz.com/.

İngilis dilində

- Qasimli M. Armenia: lies and realities. // https:moderndiplomacy.eu/2020/10/28armenia-lies-andrealities/?Fbclid.

Prezident İlham Əliyev Şuşa şəhərində Dövlət Bayrağını ucaldarkən (14 yanvar 2021-ci il).

Prezident İlham Əliyev Şuşada Cıdır düzündə Novruz tonqalını yandırarkən (20 mart 2021-ci il).

9 789952 546224

Çapa imzalanıb: 20.12.2021
Format: 70x100 16/1. Ofset kağızı.
Həcmi: 32,5 ç.v. Tiraj: (I z.) 300 nüsxə.

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.
Bakı şəh., ak. Z. Xəlilov küç. 33
Tel: (+99412) 538 87 39 / 538 50 16
bdumetbee@gmail.com
www.bsu.edu.az